**Tamilla Vahabova**

# AZƏRBAYCANDA TƏRBİYƏ NƏZƏRİYYƏSİNİN İNKİŞAFI

## (XIX əsrin sonu, XX əsrin əvvəlləri)

Elmi redaktoru: **Fərrux Rüstəmov,**
*Əməkdar elm xadimi, pedaqogika üzrə elmlər doktoru, professor,*

Rəyçilər: **Sərdar Quliyev**
*pedaqogika üzrə elmlər doktoru, professor*
**Yaqut Rzayeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Vahabova T.Ə. Azərbaycanda tərbiyə nəzəriyyəsinin inkişafı
(XIX əsrin sonu, XX əsrin əvvəlləri).
Bakı, Elm və təhsil, 2018,    s.

# TƏRBİYƏ NƏZƏRİYYƏSİNİN TƏDQİQİNƏ LAYIQLİ TÖHFƏ

XIX əsrin II yarısı və XX əsrin əvvəlləri Azərbaycan xalqının ictimai, siyasi, ədəbi, mədəni, pedaqoji, maarifçilik, hətta iqtisadi - təsərrüfat həyatında müstəsna dərəcədə əhəmiyyətli, diqqətəlayiq bir dövrdür. Əslində bu dövr xalqımızın inkişaf tarixində öz spesifikası, böyük hadisələri, milli-mədəni prosesləri ilə fərqlənən xüsusi bir mərhələdir. Xalqımızın hərtərəfli mənada tərəqqi epoxasının başlanğıcıdır. Sözün geniş mənasında milli dirçəliş və intibah dövrüdür. Həmin dövrün proseslərini, hadisələrini, ictimai-siyasi gerçəkliyini, ədəbi-mədəni mühitini, pedaqoji və maarifçilik həyatını, iqtisadi-təsərrüfat sistemini bütün spektrləri, əsl mahiyyəti ilə öyrənmək bu günkü və gələcək nəslin borcudur. Çünki bu günkü müstəqil, suveren respublikamızın müstəqillik toxumunun ideya reşeymləri vətən torpağına, milli mühitə ilk dəfə məhz həmin dövrdə əkilmişdir. Çox keçmədən həmin ideyalar cücərib, boy atmış, şaxələnmiş, daha tutumlu şəkil almış və Azərbaycan Demokratik Cumhuriyətinin yaranması kimi xalqımızın tarixində müstəsna dərəcədə əhəmiyyətli olan bir hadisə ilə nəticələnmişdir.

Əlbəttə, bütün Şərq aləmində ilk dəfə meydana gələn həmin respublikanın yaranmasında xalqın tərbiyə amilinin, yəni onu yaradan xalqın geniş mənada ideya-nəzəri cəhətdən tərbiyə olunmasının, bu istiqamətdə bilik və bacarıqlara yiyələnməsinin ciddi rolu olmuşdur. Əgər Azərbaycan xalqı bir ictimai toplum olaraq lazımi ruhda tərbiyə olunmasa, xalqın milli şüurunda, düşüncəsində mədəni, sivil və müstəqil yaşayışın, huriyyət və istiqlaliyyət amalının gərəkli toxumları əkilməsəydi, onda xalqımızın ADR kimi müstəqil bir dövləti yaratması da mümkün olmazdı. Deməli, XIX əsrin II yarısı və XX əsrin əvvəllərində meydana gələn tərbiyə sisteminin, tərbiyə nəzəriyyəsinin,

tərbiyəvi fikir cərəyanlarının və baxışlarının xalqımızın müasir, demokratik dünyaya qovuşmasında, tərəqqi yoluna düşməsində kifayət qədər əhəmiyyətli rolu vardır. Bizim sonrakı və hətta, bu günkü uğurlarımızın ideya-nəzəri bazasında, təməlində məhz haqqında danışdığımız dövrün təhsil- tərbiyə nəzəriyyəsi, tərbiyəvi-ideoloji baxışları dayanır. Təəssüf ki, indiyə qədər təhsil və pedaqoji fikir tariximizdə həmin dövrün təhsil-tərbiyə nəzəriyyəsi kompleks halında tədqiqat predmetinə çevrilməmiş, sistemli şəkildə araşdırılmamışdır. Halbuki buna ciddi ehtiyac vardır.

Bu baxımdan ADPU-nun İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Tamilla Vahabovanın “Azərbaycanda tərbiyə nəzəriyyəsinin inkişafı (XIX əsrin sonu, XX əsrin əvvəlləri)” adlı monoqrafiyası maraq doğurur. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda təhsil və pedaqoji fikrin inkişafı ilə bağlı maraqlı araşdırmalar aparılmış, ayrı-ayrı maarifçilərin tərbiyə ilə bağlı fikirləri tədqiq olunmuş, fəlsəfə və elmlər doktoru dissertasiyaları müdafiə olunmuşdur. Lakin problemə kompleks baxış həyata keçirilməmişdir. Təqdirəlayiq haldır ki, bu məsələ dos.T.Vahabovanın araşdırmalarında öz elmi-pedaqoji həllini tapmışdır. O, istər bu gün, istərsə də sabahımız üçün xüsusi aktuallıq kəsb edən dəyərli, maraqlı, məzmunlu, elmimiz üçün kifayət qədər əhəmiyyətli bir monoqrafiya ərsəyə gətirmişdir. Monoqrafiya gərgin əməyin, uzun axtarışların, ciddi tədqiqatçı məsuliyyətinin nəticəsində meydana gəlmişdir. Bu məsuliyyət, tədqiqatçı peşəkarlığı monoqrafiyanın hər bir səhifəsində özünü aydın şəkildə büruzə verir.

Monoqrafiya giriş, dörd fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Əsərin strukturu, münndəricəsi, fəsillərdə və yarımfəsillərdə problemlərin qoyuluşu məqsədəuyğun, elmi və məntiqlidir. Fəsillər bir-birini izlədiyi və tamamladığı kimi hər bir fəsli təşkil edən yarımfəsillər də üzvi şəkildə bir-biri ilə bağlıdır. Əvvəlki yarımfəsildə deyilən fikir, aparılan təhlillər sonrakı yarımfəsildə söylənən mətləblər üçün bir zəmin

hazırlayır. Beləliklə, biz monoqrafiya ilə bütöv şəkildə tanış olduqdan sonra XIX əsrin II yarısı  və XX əsrin əvvəllərindəki mədəni-tarixi, maarifçi-pedaqoji mühitdə tərbiyə nəzəriyyəsinin təşəkklü, formalaşması, təkamülü və yetkinləşməsi, nəhayət onun nəticələri ilə tam şəkildə tanış ola bilirik. Mənzərə tam dolğunluğu ilə bizim nəzərimizdə canlanır. Tərbiyə nəzəriyyəsinin nəşət qaynaqlarını, onu qidalandıran ictimai-siyasi, ədəbi--mədəni pedaqoji və maarifçilik amillərini, həmçinin onun inkişaf dinamikasını, səmərəli nəticələrini bir bütöv halında dərk edə bilirik. Bu işdə əməyi olan milli mütəfəkkirlərimizin, maarifçilərimizin, ədib və şairlərimizin, ideoloqlarımızın, pedaqoqlarımızın gördükləri işin, çəkdikləri əziyyətin miqyas və çəkisini anlaya bilirik. Təbii ki, belə bir uğur tədqiqatçının əsaslı cəfakeşliyi, məsuliyyəti, yüksək erudisiyası, tədqiq və təhlil bacarığı, ilkin mənbələri dəqiqliklə və həssaslıqla nəzərdən keçirməsi, onlara elmi cəhətdən düzgün yanaşa bilməsi hesabına başa gəlmişdir.

Monoqrafiyanın girişində, müəllif mövzunun aktuallığını kifayət qədər dolğun şəkildə əsaslandırır, nəzəri və praktiki əhəmiyyətini müəyyənləşdirir. Həm də monoqrafiya boyunca burada dedikləri fikirləri, qarşıya qoyduğu vəzifələri məqsədəmüvafiq surətdə yerinə yetirdiyini sübut  edir. Çünki söylədiyi mülahizələr yüksək nəzəri hazırlığa söykəndiyi kimi, apardığı təhlillər də fakta, sübuta əsaslanır. Mücərrəd səciyyə daşımır.

Monoqrafiyada çox doğru olaraq I fəsil XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda tərbiyə nəzəriyyəsinin inkişafını şərtləndirən amillərə həsr edilmişdir. Çünki bu amilləri üzə çıxarmadan tərbiyə nəzəriyyəsinə aid fikirləri, mülahizələri, müzakirələri, mübahisələri, onların meydana gəlmə səbəblərini, əsl mahiyyətini də düzgün şərh etmək mümkün deyil. Ona görə də öncə tədqiqatçı dövrün ictimai-siyasi, mədəni-pedaqoji mənzərəsini canlandırır, milli arenada yeni tipli tərbiyə vasitələrinin yaradılması uğrunda Azərbaycan maarifpərvərlərinin, demokratik fikirli ziyalıların

mübarizəsini nəzərdən keçirir. Həmin tərbiyə vasitəsi isə rəngarəngdir: yeni tipli təhsil ocaqları; müasir məzmunlu dərsliklər, tədris-metodiki vəsaitlər, sağlam ruhlu bədii və elmi əsərlər; milli mətbuat, milli teatr; milli məktb, milli dil və din, təhsil ocaqlarında, həmçinin ictimai-mədəni mühitdə ana dilinin rolunun artırılması, onun miqyasının genişləndirilməsi və s.

Monoqrafiya müəllifi bir tədqiqatçı həssaslığı ilə anlamışdır ki, tərbiyə nəzəriyyəsinin inkişafında yeni tipli məktəbin rolu nə qədər mühümdürsə, həmin təhsil ocağında dərs deyən təlim-tərbiyəçinin – müəllimin rolu da bir o qədər əhəmiyyətlidir. Ona görə də o zamankı tarixi şəraitdə müəllim şəxsiyyətinə verilən tələblər də dəyişdi, yeni dövün diktəsinə və tələblərinə uyğunlaşdırıldı. Bizim tərbiyə nəzəriyyəçilərimiz də bu vacib problemə zamanın tələbləri baxımından yanaşdılar. Bu mənada I fəslin ikinci yarımfəslinin "Müəllim-tərbiyəçi və onun şəxsiyyətinə verilən tələblər" adlandırılması tamamilə təbii görünür. Onu da əlavə edək ki, XIX əsrin II yarısı və XX əsrin əvvəllərində böyüyən nəslin tərbiyəsinin bu və ya digər məsələlərini önə çəkən maarifçilərinəksəriyyəti peşə-sənət etibarı ilə pedaqoq-müəllim idilər.

Çox doğru olaraq I fəslin üçüncü yarımfəsli ailə və sosial mühitin tərbiyədə rolu məsələsinə həsr olunmuşdur. Burada da dos.T.Vahabova öz alim intellektini sözün yaxşı mənasında ortalığa qoyur. Ailə və sosial mühitin tərbiyədəki roluna yığcam şəkildə nəzər salır, bunun hər bir sivil cəmiyyət üçün vacib bir problem olduğunu, bütün sivil xalqlarda həmin məsələnin tərbiyəçi-ideoloqlar, valideynlər, cavabdeh şəxslər tərəfindən diqqət mərkəzində saxlandığını söyləyir. Həm də Azərbaycan ictimai mühitindəki mənzərəni aydınlaşdırır, XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycanda ailə və sosial mühitin özünəməxsusluğunu şərh edir, insanların tərbiyəsinə ailə və sosial mühitin təsir imkanlarını araşdırır. İnsanların əqli, əxlaqi və ruhi tərbiyəsinə mənfi təsir göstərən ailə və ictimai mühitin çatışmazlıqlarına, naqis və nöqsanlı

cəhətlərinə maarifçilərin, tərbiyə nəzəriyyəçilərinin mövqeyi ətraflı öyrənilir, onun islahı yollarını nədə görürdülər.

Əlbəttə, bunları yetərincə saf-çürük etmək tədqiqatçıdan zəruri hazırlıq, geniş erudisiya tələb edir. Yaxşı cəhətdir ki, müəllif həm bu yarımfəsildə, həm də ümumiyyətlə, monoqrafiya boyunca belə bir hazırlıq və erudisiyanı nümayiş etdirə bilmişdir.

Müəllif tərbiyə nəzəriyyəsinin inkişafını şərtləndirən amilləri (tərbiyə nəzəriyyəsinin qaynaqları, tərbiyə nəzəriyyəsinin yaradıcıları, tərbiyə nəzəriyyəsinin inkişaf istiqamətləri) araşdırmaqla kifayətlənməmiş, onlar arasındakı rabitəni elmi məntiqlə üzə çıxara bilmişdir. Elə buna görə də tədqiqat bütöv, inandırıcı və sübutlu xarakter daşıyır.

Milli intibah dövründə təşəkkül tapan müasir məzmunlu tərbiyə nəzəriyyəsi Azərbaycan ictimai-mədəni, pedaqoji-maarifçi gerçəkliyində öz başlanğıcını ilk maarifçilərimizin – A.Bakıxanov, M.Ş.Vazeh və İ.Qutqaşınlının ideyalarından götürür. Sonra M.F.Axundov, daha sonra H.Zərdabi başda olmaqla "Əkinçi", S.Ünsizadə və Ç.Ünsizadə başda olmaqla "Ziya" və "Kəşkül" əməkdaşları, C.Məmmədquluzadə başda olmaqla "molla nəsrəddin"çilər, Ə.Hüseynzadə başda olmaqla "füyuzat"çılar tərəfindən inkişaf etdirilir. M.Şahtaxtı, S.M.Qənizadə, F.Köçərli, N.Nərimanov, Ə.Ağayev, M.Ə.Rəsulzadə, Q.R.Mirzəzadə, M.T.Sidqi, N.Vəzirov, Y.V.Çəmənzəminli, Ü.Hacıbəyov, A.Şaiq, A.Səhhət, M.Mahmudbəyov və s. kimi mütərəqqi baxışlı, fəal, millətsevər, görkəmli Azərbaycan maarifpərvərləri də onların sırasında idi. Əlbəttə, bu şəxsiyyətlərin sayı daha çoxdur və onların hamısının adlarını sadalamaq imkan xaricindədir. Demək istədiyimiz əsas mətləb ondan ibarətdir ki, monoqrafiya müəllifi öz araşdırmasını müvəffəqiyyətlə aparmaqdan ötrü bu görkəmli, Azərbaycan mədəni-pedaqoji fikri üçün aparıcı rol oynayan simaların hamısının yaradıcılığı, fəaliyyəti ilə lazımi səviyyədə tanış olmalı, onları analiz etməyi bacarmalı idi. Tam cəsarətlə deyə

bilərik ki, tədqiqatçı bu mürəkkəb və məsuliyyətli işin öhdəsindən layiqincə gəlmişdir.

Milli intibah dövrünün tərbiyə nəzəriyyəsinin ideya qaynaqlarını, əsas mənbələrini araşdırarkən də dos. T.Vahabova eyni səriştə nümayiş etdirmişdir. Bəllidir ki, bu qaynaqlar həm mütərəqqi səciyyəli Şərq, həm də müasir məzmunlu rus və Avropa mənbələrindən ibarətdir. Təbii ki, bu mənbələrin məzmunu və ruhu müvafiq olaraq Şərq və Qərb düşüncə tərzinə əsaslanırdı. Bizim tərbiyə nəzəriyyəçilərimiz hər iki qaynaqdan ustalıqla yararlanmış, hər iki mənbədən ən yeni, ən əlverişli və münasib olanı əxz və sintez edə bilmişlər. Monoqrafiya müəllifi bu gərəkli həqiqəti də yüksək elmi erudisiya ilə aşkara çıxarmağı bacarmışdır.

Dos.T.Vahabova haqqında danışılan dövrdə tərbiyə nəzəriyyəsinin inkişaf kanallarına da yetərincə bələd olduğunu, onları lazımi şəkildə izlədiyini nümayiş etdirə bilmişdir. Bu kanallar o zamankı mətbuat, dərsliklər, dərs vəsaitləri, müxtəlif səpkili tərbiyəvi məzmunlu kitablar, məqalələr, bədii əsərlər və s.-dir.

Təbii ki, tərbiyənin başlıca məqsədi kamil şəxsiyyət, cəmiyyət üçün layiqli insan yetişdirməkdir. XIX əsrin II yarısı və XX əsrin əvvəllərində də Azərbaycan ictimai-mədəni və pedaqoji mühitində yeni tipli şəxsiyyət yetişdirmək problemi ortalığa çıxmışdı. Başqa sözlə, müasir dünyagörüşə, biliyə, elmə, düşüncəyə malik, yeni dövrün ab-havasını anlayan, çağdaş dünya və onun həqiqətlərindən, baş verən proseslərdən xəbərdar olan vətəndaşlar yetişdirmək lazım gəlirdi. Həmin dövrdə tərbiyə nəzəriyyəçilərinin diqqəti ilk növbədə bu zəruri problemə yönəlmişdir.

Deyilən həqiqəti yaxşı dərk edən tədqiqatçı haqlı olaraq monoqrafiyanın ikinci fəslini milli intibah dövründə tərbiyə nəzəriyyəçilərimizin yeni tipli şəxsiyyət yetişdirmək uğrunda mübarizəsinə, bu istiqamətdə gördükləri nəzəri və əməli işlərin analizinə həsr etmişdir. Doğrudan da, müasir elmə, baxışa və biliyə yiyələnmiş vətəndaş yetişdirməyi müasir tərbiyənin

başlıca vəzifəsi sayan milli məfkurəli tərbiyə nəzəriyyəçilərimiz qadının cəmiyyətdə roluna və qadın tərbiyəsinə, milli özünüdərk və vətənpərvərlik tərbiyəsinə, həmçinin humanizm və beynəlmiləlçilik tərbiyəsinə xüsusi diqqət ayırırdılar. İkinci fəslin yarımfəsilləri də deyilən məsələlərin şərhinə yönəldilmişdir. Şərh zamanı müəllif faktlara əsaslanmış, düzgün mülahizələr irəli sürmüş, obyektiv nəticələrə gəlmişdir. Tədqiqatçı doğru olaraq göstərir ki, bu ideyaların tərbiyə nəzəriyyəçilərimiz tərəfindən ortalığa atılması, düzgün məcraya yönəldilməsi o zaman böyüməkdə olan nəslin vətənpərvər, millətsevər, huriyyət və istiqlal tərəfdarı olan vətəndaşlar kimi yetişməsində, nəticədə ADR kimi müstəqil dövlətimizin yaradılmasında kifayət qədər əhəmiyyətli rol oynadı.

Monoqrafiyanın üçüncü fəslində dini, əqli və mənəvi-əxlaqi tərbiyə məsələlərindən söhbət açılır. Tədqiqatçının söylədiyi kimi adı çəkilən tərbiyə amilləri o zamankı tərbiyə nəzəriyyəsinin mühüm komponentlərindən idi. Fəsli müəllif müvafiq və məqsədəuyğun olaraq üç yarımfəslə ayırır. Bu yarımfəsillər içərisində dini tərbiyə məsələlərinə həsr olunmuş birinci yarımfəsil araşdırma mahiyyətinə və manerasına görə daha orijinal təsir bağışlayır. Bu, onunla əlaqədardır ki, XIX əsrin ortalarından etibarən demokratik məfkirəli Azərbaycan ictimai-pedaqoji fikrində belə bir ideya özünü göstərməyə başladı ki, milli məkanda uzun əsrlərlə davam edən dini tərbiyə sistemi əsaslı şəkildə islah olunmalı, yeni dövrün tələblərinə uyğunlaşdırılmalı, sağlam məzmun kəsb etməlidir. Əlbəttə, göstərilən məsələlərin təfərrüatına varmaq, onları zamanın mövcud qəlibləri baxımından obyektiv təhlil etmək tədqiqatçıdan ciddi zəhmət və həssaslıq tələb edir. Yaxşı cəhətdir ki, müəllif problemi yetərincə müsbət həll etməyi bacarmışdır. Üçüncü fəslin növbəti yarımfəsilləri də dolğun təsir bağışlayır.

Monoqrafiyanın dördüncü fəsli Azərbaycan maarifpərvərlərinin yaradıcılığında böyüməkdə olan nəslin fiziki, əmək və estetik tərbiyəsi problemlərinə həsr olunmuşdur.

Hiss olunur ki, müəllif milli maarifçilərimizin deyilən məsələlərlə bu və ya digər dərəcədə bağlı olan məqalələrinin, kitablarının, onların ayrı-ayrı əsərlərində az-çox öz əksini tapan fikirlərinin əksəriyyəti ilə tanışdır. Həm də onları vahid təhlil mustəvisinə gətirə bilmiş, məqsədəuyğun ümumiləşdirmələr aparmağı bacarmışdır. Ümumiyyətlə, dos.T.Vahabova monoqrafiya boyunca apardığı araşdırmaları, söylədiyi fikirləri, etdiyi təhlilləri, gəldiyi qənaətləri bacarıqla ümumiləşdirə bilmişdir.

ADPU-nun İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Tamilla Vahabovanın "Azərbaycanda tərbiyə nəzəriyyəsinin inkişafı (XIX əsrin sonu, XX əsrin əvvəlləri)" adlı monoqrafiyası XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycan ictimai-mədəni və maarifçi-pedaqoji mühitində meydana gəlib inkişaf edən tərbiyə nəzəriyyəsini, bu nəzəriyyənin ayrı-ayrı istiqamət və çalarlarını, mahiyyətini, məqsəd və vəzifələrini öyrənmək baxımından kifayət qədər dəyərli bir elmi əsərdir.

Monoqrafiyanın Azərbaycan elmi-pedaqoji ictimaiyyətinin marağına səbəb olacağı, faydalı bir tədqiqat əsəri kimi dəyərləndiriləcəyi şübhə doğurmur. Çünki bu monoqrafiya əslində xalqın tərbiyəsindən xalqın müstəqilliyinə gedən yolun tədqiqidir.

Fərrux Rüstəmov,
Əməkdar elm xadimi,
pedaqogika üzrə elmlər doktoru,
professor,

# GİRİŞ

İnsanlığın mövcud olduğu bütün tarix boyunca hər bir cəmiyyətin taleyində tərbiyə həlledici rola malik olmuşdur. Bu ənənə lap ibtidai ictimai toplumlardan başlamış və xalqların, millətlərin təşəkkül tapdığı sonrakı sosial gedişata qədər davam etmiş, daha da şaxələnmiş, aktuallaşmışdır. Həmin ənənə bu gün də öz ömrünü davam etdirməkdədir. Gələcəkdə də yaşamaqda davam edəcək. Başqa təbirlə desək, tərbiyə insanla, cəmiyyətlə yaşıddır, onun ömrünün gələcək hüdudları da bəşəriyyətin ömrü qədərdir. Tərbiyə cəmiyyətlə yol yoldaşı, insanlığın sığınmalı, qorumalı, yaşatmalı olduğu ən mühüm amillərdən biri, bəlkə də, birincisidir. Çünki sosial gerçəkliyin istər maddi, istər mənəvi, istərsə də əxlaqi qanun-qaydaları mövcud tərbiyənin tələbləri əsasında formalaşır. Tərbiyə cəmiyyəti xaosdan xilas edib müəyyən nizama salır, insanlara məqsədəuyğun ölçü və sərhədlər daxilində yaşayış, rəftar və davranış normaları, özünə və ətrafa münasibət qaydaları diktə edir. Həmin norma və qaydalar pozulduqda, əndazədən çıxdıqda ictimai varlığın harmoniyası pozulur, cəmiyyətdə xaos, intizamsızlıq, nizamsızlıq və tənəzzül baş verir. İstər maddi, istər hüquqi, istər mənəvi, istər əxlaqi, istərsə də insani meyarlar itir. Toplumlar, xalqlar, millətlər fənalıq, fəlakət və rəzalətlə üzləşir. Tənəzzülə, hətta bir çox hallarda məhvə məhkum olur. Deməli, tərbiyə bəşəriyyətin daimi yol yoldaşı, ona düzgün inkişaf yolu göstərən mayak, himayəçi və müdrik rəhbərdir.

Deyilən vacib səbəblərə görə ilk ibtidai cəmiyyətlərdən başlayaraq insanlar tərbiyə faktorunu daim diqqət mərkəzində saxlamalı, onun qayğısına qalmalı olmuşlar.

Burada bir cəhəti nəzərə almaq lazım gəlir. Tərbiyə bütöv və əhatəli bir sistem olsa da, yeknəsəq, donuq və dəyişməz də deyil. Onun məzmun və mahiyyətcə həm dəyişən, həm də dəyişməyən cəhətləri vardır. Məsələn, vətənpərvərlik və

ya insanpərvərlik tərbiyəsi ibtidai ictimai toplumlardan tutmuş bu günə qədər öz mahiyyətini əsaslı və funksional mənada dəyişməmişdir. İbtidai insan da öz yaşadığı ərazini, torpağı, vətəni sevir, onu qorumaq, yadlardan mühafizə etmək qayğısına qalır, xələflərini də bu ruhda tərbiyə edirdi. Sonrakı tarixlərdə də bu ənənə dəyişməmişdir və indi də eyni xətt davam edir. Yaxud ibtidai insan da öz həmcinsinin qayğısına qalmış, başqa insanlara sevgi hissləri ilə yaşamış (müharibələr, hücum və savaşlarla əlaqəli yaranan nifaq və qeyri-insani davranışlar bir başqa söhbətin mövzusudur), həmin insanpərvərlik hisslərini böyüməkdə olan övladlarına da təlqin etmişdir. Əlbəttə, bu cür cəhətlər tərbiyənin tarix boyunca uzanıb gələn dəyişməz xətləridir. Bununla belə tərbiyənin bir sistem olaraq dəyişən, yeniləşən cəhətləri də çoxdur. Başqa sözlə, cəmiyyətlər, xalqlar, millətlər inkişaf etdikcə tərbiyənin məzmun və xarakteri də dəyişir, yeniləşir. Tarixi gedişat zaman-zaman irəlilədikcə hər bir ictimai toplumda həmin toplumun ideallarına, istəklərinə, məqsədlərinə, mülahizə və baxışlarına, inkişaf səviyyələrinə uyğun tərbiyə sistemi yaranır. Cəmiyyətin, xalqın xarakterinə, həyata baxışına, düşüncə və məişət tərzinə, inkişaf səviyyəsinə, inanc və etiqad sisteminə, dünyagörüşünə, dərketmə imkanlarına, adət və ənənələrinə müvafuq tərbiyə kodeksi formalaşır. Ancaq bu kodeks zaman-zaman tədricən dəyişə bilir. Xalqlar arasında siyasi, ictimai, iqtisadi, mədəni, pedaqoji və s. əlaqələr artdıqca tərbiyə faktorları arasında da bir əlaqə, yaxınlaşma, inteqrasiya baş verir.

Türk etnoslarından olan Azərbaycan xalqı da dünyanın qədim xalqlarından biri kimi tarixin dərin çağlardan böyüməkdən olan nəslin tərbiyəsi ilə ciddi surətdə məşğul olmuşdur. Qədim yazılı abidələrimiz bunu aydın şəkildə sübut edir. “Avesta”, Orxon-Yenisey mətnləri, “Kitabi-Dədə Qorqud” və s. abidələrimizi buna misal göstərmək olar. Həmin abidələr türk qövmlərində, o cümlədən Azərbaycan türklərində hələ tarixin əski çağlarında mükəmməl, dolğun, mütərəqqi bir tərbiyə sisteminin olduğunu göstərir.

XI-XII əsrlərdən etibarən sayı getdikcə artan elm, sənət və ədəbiyyat abidələrimiz bu tərbiyə sisteminin sonrakı əsrlərdə də öz ömrünü davam etdirdiyini söyləməyə əsas verir.

Onu da deyək ki, islamın Azərbaycana gəlişindən sonra bu coğrafiyada tərbiyə sistemi islam aləminin bir parçası kimi, əsasən, islam qaydaları və etiqadı çərçivəsində aparılmışdır. Ancaq əsrlər ötdükcə din xadimlərinin savadsızlığı, səbatsızlığı, bəsirətsizliyi, mənfəətpərəstliyi və s. səbəblər ucbatından müsəlman dünyasındakı tərbiyə atmosferində bir zədələnmə baş vermiş, həmin zədə tədricən böyüyüb son əsrlərdə hər cür tərəqqi üçün bir əngələ çevrilmiş, geriliyə, ətalətə gətirib çıxarmışdır. XIX əsrdə də bütün islam dünyasında mənzərə bu cür acınacaqlı idi.

XIX əsrdə Azərbaycanda tərbiyə sistemini dəyişməyə həm ciddi, zəruri ehtiyac, həm də siyasi, ictimai, mədəni və pedaqoji şərait yaranır. Belə ki, XIX əsrin əvvəllərində Şimali Azərbaycanın Rusiya tərəfindən işğal və zəbt edilməsindən sonra onun üzü Şərqdən Qərbə çevrilir. Şimali Azərbaycan daha çox inkişaf etmiş, mütərəqqi Qərb dəyərləri ilə üzləşməli olur. Müasir dünya ilə qaynayıb qovuşmaq, daha proqressiv inkişaf yolu tutmaq üçün tərbiyə sistemini, tərbiyə konsepsiyasını da dəyişməli, yeniləşdirməli, çağdaş demokratik və modern dünyanın həqiqətləri ilə uzlaşdırmalı olur. Xalqın öncül ziyalıları, təfəkkür və qələm sahibləri, tərbiyəçiləri, əlbəttə, bu möhtəşəm missiyanın həyata keçirilməsində böyük əmək sərf etməli, əziyyətə qatlaşmalı olurlar.

Məlum həqiqətdir ki, gözəl və kamil tərbiyə üçün gözəl və kamil tərbiyə nəzəriyyəsi lazımdır. Tərbiyədə mükəmməl, bitkin nəzəri konsepsiya olmadan heç vaxt mükəmməl, bitkin və məqsədəuyğun tərbiyəyə nail olmaq mümkün deyil. Bütün tarix boyunca hər zaman və hər yerdə bu, belə olmuşdur. XIX əsrdə və XX əsrin əvvəllərində yaşayıb fəaliyyət göstərmiş milli mütəfəkkirlərimiz, demokratrik düşüncəli maarifpərvər ziyalılarımız bu böyük həqiqəti aydın dərk etmişlər. Elə buna görə də onlar xalqı əsarətdən, cəhalətdən, zillətdən, cismani

təzyiqdən, mənəvi və maddi səfalətdən xilas etməkdən ötrü nəzəri-tərbiyəvi göstərişlər, məsləhətlər vermiş, onun əməli icrası üçün də çıxış yolu göstərmiş, praktiki işlər həyata keçirməyə çalışmışlar.

Tam səmimiyyətilə etiraf etməliyik ki, XIX əsrin II yarısı və XX əsrin əvvəllərində yaşayıb yaratmış milli mütəfəkkirlərimizin tərbiyə nəzəriyyəsi olmasaydı, nə 1918-1920-ci illərdə Şərqdə ilk demokratik cümhuriyyət kimi parlayan ADR, nə onun ardınca gələn Azərbaycan SSR, nə də bu günkü Azərbaycan Respublikası mövcud olardı. Deməli, xatırlatdığımız dövrdə yaranan, şaxələnən, xalqımıza böyük tarixi uğurlar qazandıran tərbiyə nəzəriyyəmizi, onun məzmun və mahiyyətini, xarakterini, niyə yarandığını, nədən yarandığını və hansı uğurlara gətirib çıxardığını araşdırıb üzə çıxarmaq, indiki və gələcək nəslə çatdırmaq pedaqogika tariximiz üçün son dərəcə aktual problemlərdən biridir. Mövcud tədqiqatın aktuallığının ilk şərti bununla bağlıdır.

Lakin tədqiqat işinin mövzu etibarı ilə aktuallığını yalnız bu dediyimiz səbəblə məhdudlaşdırmaq olmaz. Mövzunun aktuallığını şərtləndirən başqa mühüm səbəblər də vardır. Bunlardan aşağıdakıları göstərmək mümkündür: Birincisi, hər bir xalq özünün keçmiş nailiyyətlərini, o cümlədən sələflərinin yaratdığı mədəni, pedaqoji irsi öyrənib üzə çıxarmağa, indiki və gələcək nəslə çatdırmağa, xələfləri onunla tanış etməyə, bu irsin əhəmiyyətini onlara başa salmağa borcludur. XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin tərbiyə nəzəriyyəsi sahəsində yaratdıqları yeniliklər, gördükləri işlər də mədəni-pedaqoji irsimizin xəzinəsini zənginləşdirən qiymətli mənəvi sərvətdir. Bu sərvəti araşdırıb üzə çıxarmaq pedaqogika tariximizin ümdə vəzifələrindən biridir; İkincisi, Azərbaycan xalqının tərbiyə nəzəriyyəsinin çoxəsrlik tarixi vardır. Onun bizə məlum tarixini xronoloji ardıcıllıqla, mərhələlər üzrə öyrənməyə ciddi ehtiyac hiss olunur. XIX əsrin sonu və XX əsrin əvvəlləri də həmin tarixi mərhələlərdən biridir. Təəssüf ki, bu sahədə bir boşluq vardır. Həmin tarixi epoxanın tərbiyə nəzəriyyəsini

araşdırma predmetinə çevirməklə biz deyilən boşluğu mümkün qədər doldurmağı nəzərdə tuturuq; Üçüncüsü, bəllidir ki, Azərbaycanda məktəb və pedaqogika tarixinə aid dərslik və dərs vəsaitləri hazırlanır. Biz tərbiyə nəzəriyyəmizin tarixini və mahiyyətini yetərincə öyrənmədən bu tipli mükəmməl dərslik və dərs vəsaitləri hazırlaya bilmərik. Deməli, mövcud tədqiqatın aktuallığını şərtləndirən faktorlardan biri də dediyimiz şəkildə ərsəyə gələn dərslik və dərs vəsaitlərinin yazılmasına yardım göstərməkdir; Dördüncüsü, belə tədqiqatlar bizim sivil dünyada özünün dəyərli, bəşəri məzmun və mahiyyətə malik tərbiyə konsepsiyası olan xalq olduğumuzu, bu sahədə başqalarından heç də geridə qalmadığımızı sübut edir. Əlbəttə, bu sübut faktorların üzə çıxarılması, analizi və düzgün təqdimi yolu ilə mümkündür. Biz də araşdırma boyunca deyilən problemi daim diqqət mərkəzində saxlamağa çalışmışıq; Beşincisi, istər ADR-in (1918-1920), istərsə də bu günkü müstəqil Azərbaycan Respublikasının dövlətçilik ideologiyası, məfkurəvi konsepsiyası öz rişəsini XIX əsrin II yarısı və XX əsrin əvvəllərində meydana gələn tərbiyə nəzəriyyəmizdən alır. Bu dövr milli maarifçilərimizin, mütəfəkkir və vətənpərvər şəxsiyyətlərimizin tərbiyə nəzəriyyəsi bizim sonrakı dövr dövlətçilik ideologiyamızın hazırlanması üçün mühüm bir baza və qaynaq rolunu oynadı. Deməli, indiki və gələcək nəslin həmin ideologiyanın necə və nədən yarandığını, mahiyyətini, xarakterini, həmçinin onu kimlərin yaratdığını anlaması üçün haqqında danışdığımız dövrün tərbiyə nəzəriyyəsini hərtərəfli mənada öyrənməliyik.

Məlum olduğu kimi, XIX yüzilliyin sonu və XX yüzilliyin əvvəlləri Azərbaycan xalqının tarixində milli intibah dövrü kimi səciyyələnir və ayrıca bir mərhələ təşkil edir. Bu dövrün ictimai, iqtisadi, təsərrüfat, mədəni, ədəbi, pedaqoji, habelə məktəb və maarif həyatında baş verən müstəsna dərəcədə əhəmiyyətli hadisələr, əsaslı tərəqqi və yüksəliş bunu söyləməyə əsas verir. Elə buna görə də biz həmin dövrün tərbiyə nəzəriyyəsini analizdən keçirməyi aktual bir problem kimi qarşıya qoymuşuq.

Tədqiqat predmetinə çevirdiyimiz dövrdə müasir düşüncəli, vətənpərvər, millətsevər, fədakar bir ziyalı nəsli yetişir. Doğrudur, bu ənənə xeyli əvvəl, daha dəqiqi, XIX əsrin I yarısında ilk Azərbaycan maarifçiləri A.Bakıxanov, M.Ş.Vazeh və İ. Qutqaşınlı ilə başladı. Lakin çox keçmədən, yəni XIX əsrin ortalarında M.F.Axundovun, habelə əsrin 70-ci illərində H.Zərdabinin və onun nəşr etdiyi “Əkinçi” qəzeti əməkdaşlarının timsalında daha da gurlaşdı. Əsrin son onilliklərində isə daha da intensivləşdi, şaxələndi. İstər kəmiyyət, istərsə də keyfiyyət baxımından böyük nailiyyətlər qazanıldı. XX əsrin əvvəllərində isə özünün zirvə nöqtəsinə çatdı. Bu dövrdə Məhəmmədağa Şahtaxtlı, Əli bəy bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Cəlil Məmmədquluzadə, Məhəmməd Əmin Rəsulzadə, Mirzə Ələkbər Sabir, Sultan Məcid Qənizadə, Üzeyir Hacıbəyov, Nəriman Nərimanov Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Ömər Faiq Nemanzadə, Məhəmməd Hadi, Yusif Vəzir Çəmənzəminli, Hüseyn Cavid, Qafur Rəşad Mirzəzadə, Abdulla Şaiq, Abbas Səhhət və s. kimi milli məsləkli, milli əqidəli elm, təfəkkür və maarif fədailəri yetişdi. O zamankı tərbiyə nəzəriyyəsinin milli zəmində yaradıcısı və ideoloqları da onlar oldular. Onlar, həqiqətən, həm o dövr, həm də sonrakı tarix üçün dəyərli olan milli tərbiyə konsepsiyasının bünövrəsini qoydular.

XIX əsrin sonu və XX əsrin əvvəlləri Azərbaycan xalqının həyatında, tarixi taleyində son dərəcə əlamətdar, mütərəqqi hadisələrlə zəngin olan milli dirçəliş və intibah dövrü kimi xarakterizə olunur. Belə bir tarixi zaman kəsimində Azərbaycanda tərbiyə nəzəriyyəsinin inkişafını hərtərəfli mənada öyrənmək mövcud tədqiqatın əsas məqsədini təşkil edir. Bu zaman tərbiyə nəzəriyyəsi bir mədəni-pedaqoji təmayül, tarixi-tərbiyəvi kodeks və sistem kimi başqa hadisələrdən kənarda, zəminsiz və qaynaqsız bir faktor kimi nəzərdən keçirilmir. Əksinə, milli, müasir, demokratik dəyərlərə söykənən tərbiyə nəzəriyyəmizin təşəkkülünə, formalaşmasına və inkişafına dövrün siyasi, ictimai, ədəbi, mədəni, pedaqoji

hadisələri, məktəb və maarif hərəkatı kontekstində baxılır. Onun təşəkkülünü və inkişafını şərtləndirən amillər fonunda problemin hərtərəfli elmi analizi bir məqsəd kimi izlənilir.

Monoqrafiyada aşağıdakı vəzifələrin elmi həlli nəzərdə tutulur:

-XIX yüzilliyin II yarısı və XX əsrin əvvəllərində Rusiya imperiyasının bir hissəsi olan Azərbaycanda ictimai-siyasi, ədəbi-mədəni həyatın əsas mənzərəsini canlandırmaq, bunun tərbiyə nəzəriyyəsinin formalaşmasına və inkişafına təsirinin əsas konturlarını müəyyənləşdirmək;

-Həmin dövrdə məktəb və maarif hərəkatının, pedaqoji mühitin yığcam mənzərəsini yaratmaq və bunun yeni ruhlu, müasir zəminli tərbiyə nəzəriyyəsinin təşəkkülünə və inkişafına təsirini üzə çıxarmaq;

-Yeni tipli tərbiyə vasitələrinin – məktəbin, elmin, maarifin, mətbuatın, teatrın, bədii ədəbiyyatın, məktəblərdə dünyəvi elmlərin, həmçinin ana dilinin tədrisinin, yeni (müasir) məzmunlu kitabların və əsərlərin meydana gəlməsinin tərbiyə nəzəriyyəsinin demokratik məcrada inkişafına göstərdiyi təsirin mahiyyətini aydınlaşdırmaq;

-Yeni dövrdə müəllim və ümumiyyətlə, tərbiyəçi şəxsiyyətinə verilən tələbləri, Azərbaycan maarifpərvərlərinin bu məsələdə mövqe və baxışlarını, irəli sürdükləri tələb və meyarları analiz etmək;

-Azərbaycan maarifçilərinin islam aləminin bir hissəsi olan Azərbaycan mühitində ailə tərbiyəsinin spesifikası, xüsusiyyətləri haqqında düşüncələrinə, habelə mühafizəkar, ənənəvi tərbiyə qanunlarından qurtuluş yolu barədə mülahizələrinə, görüşlərinə, tələb və təkliflərinə aydınlıq gətirmək;

-Fikir adamlarımızın, milli tərbiyəçilərimizin sosial mühit və tərbiyə problemi ilə əlaqəli mülahizə və qənaətlərini təhlil süzgəcindən keçirmək;

-Qadının cəmiyyətdə rolu və qadın tərbiyəsi barədə tərbiyəçi ideoloqlarımızın nəzəri ideyaları və əməli təşəbbüslərini bir sistem halında üzə çıxarmaq;

-Milli ideoloqlarımızın milli özünüdərk tərbiyəsi barədə fikir və təlqinlərini, onun nəzəri və əməli səmərəsini, nəticələrini bir bütöv halında aşkara çıxarmaq;

-Maarif xadimlərimizin vətənpərvərlik tərbiyəsi ilə əlaqədar nəzəri qənaətlərini, təlqinlərini və onun böyüməkdə olan nəslin tərbiyəsindəki rolunu aydınlaşdırmaq;

-Mövzu obyekti kimi götürdüyümüz dövrdə Azərbaycan maarifçilərinin humanizm və beynəlmiləlçiliklə bağlı tərbiyəvi qənaətlərini şərh etmək;

-Demokratik baxışlı aparıcı ziyalılarımızın, öncül ideya daşıyıcılarımızın, millətin fikir bayraqdarlarının dinə və dini tərbiyəyə münasibətini bir bütöv halında analizdən keçirmək;

-Əqli tərbiyə barədə Azərbaycan maarifpərvərlərinin müddəalarını pedaqoji aspektdən şərh etmək;

-Söz sahibi olan milli tərbiyəçilərimizin yaradıcılığında mənəvi və əxlaqi tərbiyə məsələlərinə münasibətin ümumi və elmi-nəzəri mənzərəsini canlandırmaq;

-Fiziki tərbiyə barədə görkəmli marifçilərimizin nəzəri baxışlarını vahid bir məcrada elmi-pedaqoji səpkidə təhlilə cəlb etmək;

-Azərbaycan maarifpərvərlərinin əmək tərbiyəsi ilə əlaqəli mövqe və mülahizələrinə aydınlıq gətirmək;

-XIX-XX əsrlərin hüdudlarında yaşayıb fəaliyyət göstərmiş Azərbaycan maarifpərvərlərinin yaradıcılığında estetik tərbiyə və onun mahiyyəti barədə mülahizə və qənaətləri təhlil süzgəcindən keçirmək.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda tərbiyə nəzəriyyəsinin inkişafı ilə bağlı müəyyən nəzərə çarpacaq işlər görülmüşdür. Pedaqogika tariximizə dair yazılmış dərslik və dərs vəsaitlərində həmin dövrdə Azərbaycanda tərbiyə nəzəriyyəsinin inkişafına, ayrı-ayrı şəxsiyyətlərin bu sahədə gördüyü işlərə də bu və ya digər dərəcədə toxunulmuşdur.

Həmçinin həmin dövrdə yaşayıb fəaliyyət göstərmiş ayrı-ayrı maarifpərvərlərimizin pedaqoji fəaliyyətinə və irsinə həsr edilmiş dissertasiyalarda, monoqrafiyalarda, bəzi məqalələrdə də həmin maarifpərvər simalarımızın tərbiyə ilə bağlı baxış və fikirləri az-çox araşdırma hədəfinə çevrilmişdir. Bundan əlavə haqqında danışdığımız dövrün ayrı-ayrı pedaqoji problemlərinə, məktəb, təhsil və maarif məsələlərinə aid dissertasiya və monoqrafiyalarda da pedaqoq alimlərimiz dediyimiz məsələyə bu və ya digər dərəcədə toxunmuşlar. Göstərilən problemlə əlaqəli pedaqoji aspektdə qələmə alınmış xeyli mətbu elmi məqalələr də mövcuddur. Bu məqalələr ya mövzu obyekti kimi götürdüyümüz zaman axarında yaşamış ayrı-ayrı maarifçi şəxsiyyətlərin yaradıcılığında tərbiyə nəzəriyyəsinin ümumi və ya konkret çalarları ilə əlaqədardır, ya da bir neçə aparıcı fikir sahibinin tərbiyə nəzəriyyəsi, tərbiyənin hər hansı növü (əmək tərbiyəsi, fiziki tərbiyə, vətənpərvərlik tərbiyəsi, qadın tərbiyəsi və s.) ilə bağlı ümumiləşdirmə səpkisində yazılmışdır.

Bu faydalı işdə əməyi olan pedaqoq alimlərimizdən Əhməd Seyidovu, Hüseyn Əhmədovu, Əjdər Ağayevi, Əmir Tağıyevi, Əyyub Tağıyevi, Pəncəli Allahverdioğlunu, Fərrux Rüstəmovu, Fikrət Seyidovu, İramin İsayevi, Ədalət Cəlilovu, Bəhruz Nəsirovu, Sahilə Orucovanı, Sevinc Əzimovanı, Əkbər Əbdülovu, Nəriman Xəlilovu, Günel Məmmədovanı, Sevinc Namazovanı və b. göstərmək olar.

Lakin görülən uğurlu işlər, səmərəli araşdırmalarla yanaşı bu sahədə bir boşluq da vardır. Görülən pərakəndə işlər problemin bütöv, əhatəli və sitemli şəkildə öyrənilməsinə dəlalət etmir. Halbuki bu sahədəki boşluğu aradan qaldırmağa zəruri ehtiyac vardır. Çünki xalqımızın tarixi inkişafında misilsiz yenilikləri, tərəqqi atrubutları, o cümlədən pedaqoji hadisələri, maarif hərəkatı ilə fərqlənən, müstəqil dövlətimizin yaranmasına gətirib çıxaran həmin dövrün tərbiyə nəzəriyyəsini bütün çalarları ilə bütöv və sistemli surətdə tədqiq etmək, elmi ictimaiyyətə çatdırmaq öz həllini gözləyən zəruri bir problemdir. Həmin problem isə, təəssüf ki, indiyə qədər həll olunmamışdır.

Monoqrafiyada  biz ilk dəfə olaraq həmin aktual problemin elmi həllinə səy göstərmişik. Bu, Azərbaycanın pedaqoji fikir tarixində bütöv bir tarixi epoxanın tərbiyə nəzəriyyəsini tam, əhatəli və fundamental şəkildə araşdırmağı hədəf kimi seçən ilk tədqiqatlardan biridir.

# I FƏSİL

# XIX ƏSRİN II YARISI, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA TƏRBİYƏ NƏZƏRİYYƏSİNİN İNKİŞAFINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

## 1.1. Dövrün ictimai-siyasi, mədəni-pedaqoji mənzərəsi və yeni tipli tərbiyə vasitələrinin yaradılması uğrunda mübarizə

XIX yüzilliyin ilk rübü Azərbaycan xalqının ictimai-siyasi, tarixi həyatında və taleyində mürəkkəb, qovğalı, çətin və faciəli bir dövrdür. Ciddi xarici hücumlara, istilalara məruz qalan Azərbaycan XVIII əsrdə tikə-tikə xanlıqlara – kiçik və gücsüz dövlətlərə parçalanma günahının əvəzini (sözün faciəvi mənasında) ödəməli olur. Onun Şimal əraziləri bütünlüklə Rusiya imperiyası tərəfindən işğal və istila edilir. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən ölkəmiz Araz çayı sərhəd olmaqla Rusiya və İran arasında bölünür. Cənubi Azərbaycan İranın, Şimali Azərbaycan isə Rusiya imperiyasının əsarəti altına düşür. Vahid, qədim bir xalq ikiyə bölünür və öz tarixi müstəqilliyini itirib müstəmləkəyə çevrilir. Əlbəttə, bu, onun tarixi faciəsi idi.

İkiyə bölünmə eyni xalqın yalnız ictimai toplum olaraq parçalanmasına səbəb olmur. Həm də onun iqtisadiyyatında, təsərrüfatında, ədəbi-mədəni, pedaqoji və maarif həyatında və nəhayət, siyasi-inzibati idarəetmə sistemində fərqli cəhətlərin meydana çıxmasına gətirib çıxarır.

Avropa ölkələrinə nisbətən geridə qalsa da, Rusiya bir Avropa ölkəsi idi, özünü də Avropa ölkəsi kimi aparmağa və daha çox bütün sferalarda Avropa dəyərlərini tətbiq etməyə, bu dəyərlərlə yaşamağa və inkişafını da bu dəyərlər üzərində qurmağa səy göstərirdi. Belə bir meyl imperiyanın bir parçası kimi, təbii ki, Şimali Azərbaycana da təsir göstərməyə bilməzdi.

Nə qədər müstəmləkə olsa da, Avropada əsən ədəbiyyat, mədəniyyət, pedaqoji həyat, maarif, siyasi-hüquqi hərəkat küləyinin xəfif mehi bu coğrafi məkana da gəlib çıxırdı. Qısa şəkildə desək, çarizm əsarət altına aldığı xalqın üzünü bütünlüklə olmasa da, diqqətəlayiq dərəcədə Şərqdən Qərbə çevirmiş, onu orta əsrlərin ənənəvi islam coğrafiyasından gözünü çəkib həm də Avropaya baxmağa sövq etmişdi. Çoxəsrlik Şərq dəyərləri, qanunları mənəviyyatı, baxışları ilə yaşayan xalqımız yeni bir Qərb modeli, dəyər və baxışlar sistemi ilə də tanış olmaq şansı qazanmışdı. Başqa sözlə, yeni, müasir tarixi gerçəklikdə daha sivil, mütərəqqi, hərtərəfli mənada inkişafa nail olmuş, mədəni, müasir bir dünya ilə qarşılaşmışdı. Bu dünyada mədəniyyətin, maarifin, elmin, insanpərvərliyin, hüququn, siyasi azadlığın, milli müstəqilliyin və s. sivil bəşəri dəyərlərin hər şeydən üstün olduğu, insanın və xalqın kölə kimi yox, insan və normal xalq kimi yaşadığı da aydın görünürdü.

XIX əsrin əvvəllərində işğala və istilaya məruz qalan Şimali Azərbaycanın əsarət rejimində birinci qazancı bu idi. İlk maarifçilərimizdən (A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlı) başlayaraq xalqımızın mütəfəkkir ziyalı və ideoloqları göstərilən həqiqəti anlayıb xalqın, vətənin dərdinə, faciəsinə çarə axtarmağa başladılar. Əsrin II yarısında M.F.Axundovun, H.Zərdabi və “Əkinçi”nin silahdaşlarının, “Ziya” və “Kəşkül” qəzetlərinin, nəhayət, sayı çoxalan Azərbaycan ziyalılarının – pedaqoq, yazıçı və maarifçilərinin timsalında bu təşəbbüs daha da gurlaşdı. Həm də elə ilk maarifçilərdən başlayaraq aktual, zamanın tələbinə müvafiq bir ideya ortalığa çıxdı: xalqı və xalq övladlarını yeni ruhda, müasir mənada tərbiyə etmək. Orta əsrlərin köhnə, mühafizəkar, bəhrəsi cəhalət, fanatizm, mövhumat və xurafat olan tərbiyə sistemi ilə vidalaşmaq.

Görkəmli maarifçi M.F.Axundov dostu, həmkarı H.Zərdabiyə 15 fevral 1877-ci il tarixli məktubunda yeni tərbiyə sisteminin istiqamətini, sxemini və əvvəlkindən fərqini belə müəyyənləşdirirdi: “Qoy, bizim millətimiz də bir az gözü açılıb

fanatiklikdən çıxsın, bəlkə, patryot olsun, onda hər nə etsən, baş dutar. Vəilla, madam ki, bizim millətimiz fanatiklik halındadır, hər bir əməli-xeyr üçün bizim səy və təlaşımız bihasildir...” (20, 262) M.F.Axundovun səsinə səs verən “Əkinçi” qəzeti 22 iyul 1875-ci il tarixli sayında millətin tərbiyəçisi, başbiləni olan, etibarını qazanan, “anlayan və pişrov kəslərə” xitabən onları “xalqın bu etibarına xəyanət etməyib onun gözləri açılmağa səy və kuşeş et”məyə çağırır, həm də izah edirdi ki, dünya həmişə dövr edib dəyişir. Necə ki, indi də çox dəyişmişdir. Ona görə də insan bu tövr dünyanın gərdişinə görə gərək habelə öz rəftarını da dəyişdirsin.” Kim ki, dəyişir tərəqqiyə nail olur. (88, 18) H.Zərdabi “Zindəganlıq davası və yaxud dirilik mübarizəsi” (“Həyat”, 1906, 4 yanvar) məqaləsində də dünyanı insanların və millətlərin həyat, yaşayış uğrunda savaş, ölüm-dirim mübarizəsi meydanına bənzədirdi. Yeniləşən, tərbiyəsini və düşüncəsini zəmanənin ab-havasına uyğunlaşdıran kəslər, millətlər həmin “zindəganlıq davasında” qalib gəlib “mürur ilə ömür sürür”, dəyişməyənlər isə “xaşxaş otları kimi bilmərrə tələf olur”. (290, 235) Müəllifin fikrincə dünyanın gedişatı kimi insan da tərbiyə və əməl baxımından dəyişməli, “zamanın təqazasına” uyğunlaşmalıdır. Əks təqdirdə onu məhv olmaq, yaxud başqasına qul olmaq təhlükəsi gözləyir.

“Ziya” qəzeti də (1880, 7 fevral) Qafqaz müsəlmanlarının bu regionda başqa millətlərdən sayca kifayət qədər çox olmalarına baxmayaraq “təlim və tərbiyə” cəhətdən onlardan çox-çox geridə qaldıqlarını ürək yanğısı ilə nəzərə çatdırır. (292, 125)

M.Ə.Sabir tərbiyəni xalqın və ümmətin ilk vəzifəsi, yol göstərəni, cahanın və zamanın əmri və nidası hesab edirdi:

Ümmətin rəhnüması tərbiyədir,
Millətin pişvası tərbiyədir.
Tərbiyətlə keçir ümuri cahan,
Hər işin ibtidası tərbiyədir.
Valideynin, təbii, övlada
Nəzəri-etinası tərbiyədir.

... Cahilin də zavallı övlada
Şiveyi-narəvası tərbiyədir. (221, 353)

Ö.F.Nemanzadə "Şərqi-rus" qəzetində (1903, 4, 6, 11 aprel) işıq üzü görən "Dərdimiz və dərmanımız" məqaləsində cəhaləti, geriliyi, maarifsizliyi, müasir tərbiyədən məhrumluğu xalqın böyük dərdi adlandırır, təlim, maarif və tərbiyəni bu dərdin dərmanı hesab edirdi. (189, 34-41)

Ü.Hacıbəyov XX əsrin başlanğıcında bütün dünyada yaşanan həyəcan, "iğtişaş və titrəyişi" mədəni tayfaların "çürümüş, köhnəlmiş, əməldən düşmüş qayda və nizamlara qarşı" "müdhiş etirazı" sayırdı. "Köhnəpərəst və irticapərəstlərin" bu etirazın qarşısını ala bilməyəcəyini, dünya nizamının yeni tərbiyə atmosferinin təsiri ilə dəyişəcəyini, daha da tərəqqi edəcəyini söyləyirdi. (101, 86)

"Füyuzat" jurnalında Ə.Hüseynzadənin "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" (1906, №5), H.S.Ayvazovun "Təlimi-əftal məsələsi" (1907, №13), M.Hadinin "Dövri-mədəniyyət" (1907, №13) və s. kimi məqalələrində zamanın tələbi, xalq və tərbiyə məsələləri ön plana çəkilir, bunlar zəruri cari problem kimi ictimai rəyə təqdim edilir. İçərisində yaşadığımız hazırkı əsrin "Bir əsri-inqilab və təcəddüd" olduğunu, bütün tərəqqipərvər bəşəriyyətin "qanuni-təkamülə tabe olaraq, tərəqqi və təkamül" yolunu tutduğunu, həm şəxsi, həm də ictimai həyatda, habelə "üsuli-təlim və tədris haqqında pək gözəl, pək ali fikirlər meydana qoyulduğunu" vurğulayan M.Hadi belə bir milli-ictimai rəyə gəlir ki, təlim və tərbiyə indiki dövrdə həyat məsələsidir: "Zatən bəşəriyyətin hal və istiqbalını təmin edən iş bu üsuli-təlim və tərbiyə haizi-əhəmiyyət olan bir məsəleyi-həyatiyyədir. İnsanlar bundan heç vaxt müstəğni olmaz." (95, 206)

"Kaspi" qəzetində (1903, 14, 21 noyabr) müsəlman xalqlarının vəziyyətini analiz edən Əhməd vəy Ağayev XVIII yüzilliyin II yarısını müsəlmanlığın tarixində tənəzzülün başlanması dövrü kimi xarakterizə edir. Hal-hazırda müsəlman

aləminin pozulmuş, eybəcər və şikəst hala düşdüyünü söyləyir və mütərəqqi fikirli islam ideoloqu Seyid Cəmaləddin Əfqaninin sözlərini sitat gətirir. Belə ki, bütün islam aləmini bir vücuda bənzədən S.Cəmaləddin onun düşdüyü zavallı durumu belə şərh edirdi: "Artıq bu vücudda nə bir sağlam yer və nə bir xəsarət almamış orqan var. Amma o qanı axa-axa, yarımcan halda yenə öz dəmir püskürən nəfəsini bilirsiniz nəyə sərf edir? Sadəcə, kimin haqlı, kimin haqsız olduğu ilə bağlı höcətləşmələrə! Əmirmi, Zeydmi haqlıdır? Əmrinmi, yoxsa Zeydinmi ilahiyyatı yaxşıdır? Yalnız son nəfəs də canından çıxandan sonra o başa düşəcək ki, məhz bu, höcət nəticəsində oldu. Taleyin zərbələrindən sarsılıb məyus olmuş müsəlmanlar indi gəzib bu fəlakətin onların üzərinə haradan gəldiyini axtarırlar və vəziyyəti düzəltmək haqqında düşünürlər." (4, 332) Bəs bu fəlakətdən çıxış və vəziyyəti düzəltməyin çarəsi nədir? Ancaq çağdaş mütərəqqi dünyanın dəyərləri ilə tərbiyələnmək, maarif və tərbiyə yolu ilə həqiqəti dərk etmək. Başqa sözlə, müasirləşmək. Müasirləşməyən, yəni fərdləri və bütövlükdə ümumi ictimai toplumu müasir tərbiyəyə yiyələnməyən xalq zəlalətə, əsarətə, rəzalətə məhkumdur. M.Ə.Rəsulzadə müasirləşməyin nə olduğunu "Getdiyimiz yol" ("Açıq söz", 1916, 9 oktyabr) məqaləsində şərh edərkən onu "bütün millətləri səlah və nicat yoluna çıxaran böyük vasitə"– hesab edirdi. (213, 530)

Azərbaycan maarifpərvərləri tərbiyə ilə bağlı nəzəri mülahizələr söyləyərkən, bir qayda olaraq, müqayisə obyekti kimi Qərbə istinad edir, mənsub olduqları Şərqlə qarşılarında dayanan Qərbi müqayisə edir, birincinin tənəzzülü, zavallı vəziyyəti fonunda ikincinin labüd üstünlüklərini sayır, tərbiyə sistemində bir çox lazımi məsələlərdə məhz (bütün məsələlərdə yox, məhz lazım olan şeylərdə) Qərbin yolu ilə getməyi lazım bilirdilər. Həm də Qərbin mütərəqqi, bəşəri dəyər və ölçülərini milli gerçəkliyə tətbiq zamanı xalqımızın fitrətində lazımi istedad və bacarığın olduğunu da unutmurdular. M.F.Axundovun mənəvi varisləri öz sələflərinin belə bir fikrinin

məntiqindən çıxış edirdilər: “Deməliyəm ki, mənim xalqımın fitri istedadı Avropa xalqlarının fitri istedadından qat-qat artıqdır.” (19, 297)

M.Şahtaxtlı Türkiyənin timsalında müsəlman aləminin düşdüyü dərin böhrandan çıxış yolu axtararkən bunu Avropanın tutduğu yolun nümunəsində milli istiqlaliyyətə nail olmaqda görürdü. Avropa hansı yolla bu səviyyəyə gəlib çatıbsa, Türkiyə və biz də həmin yolu tutmalıyıq. “Həqiqətən, milli istiqlaliyyətin yükü bizim dövrdə elə ağırlaşıb ki, onu Avropa mədəniyyətinin köməyi olmadan daşımaq mümkün deyil.” (237, 43) Avropalılar isə ağıl və idrak sayəsində dünyanın böyük bir hissəsinə hakim, başçı (“sərxeyl”) olmuşlar. Yüksək bir “təməddün”, elm, insanpərvərlik nizamı yaradaraq bunu bir qanun və əqidə halına gətirmişlər. Belə bir əqidəyə yiyələnməyin nəticəsində “bu dünya imranını avropalılar həm sevirlər və həm özləri üçün bu sevgini müqəddəs bir vəzifə bilirlər.” (237, 117)

“Ziya” qəzetinin daha əvvəllər izhar etdiyi fikir də mahiyyət etibarı ilə başqa Azərbaycan maarifçilərinin Avropa ilə bağlı fikirləri ilə uzlaşırdı. Belə ki, qəzet 1880-ci il 12 iyun tarixli nömrəsində yazırdı: “İnsaf nəzəri ilə və aqibətbinlik gözü ilə hərgah Yurupa dövlətlərinin rəveş və rəftarinə mülahizə iləsük min-min təəccüb və heyrətlər ilə yuxarıdə yazılan mənanı təsdüq idərük. Hərgah onların yüz il bundan müqəddəmki olan əhvalatləri ilə indiki halətlərini movazinə (paralelləşdirsək – red.) və müqayisə iləsük görrük ki, bu müddətin içində nə mərtəbədə tərəqqi idüblər. London koca (hara – red.), Kabil və Qəndəhar koca (hara – red.). Peterburq koca, Səmərqənd və Taşkənd koca?” (292, 310)

M.Hadi “Şərq ilə Qərbin müqayisəsi” şeirində Qərbi maarif, hürriyyət, himmət, bəsirət məkanı, elmin səsinin ucaldığı, hikmət əhlinin sənət möcüzələri yaratdığı işıqlı bir yer kimi tərifləyir. Bunun müqabilində Şərqdə “qəflət əhlinin hala xəyalət” etdiyini hər tərəfin zülmətə büründüyünü, zahidin vəzi ilə insanların “icadi-bidət” elədiyini, əsarət, ətalət və donuqluğa büründüyünü, idrakın və əqlin büsbütün söndüyünü, ictimai

həyatın mənəvi korluğa düçar olduğunu, məsciddə yatmış xəlqə vaizin quru nəsihətlər söylədiyini və onu yuxuya verdiyini acı bir fəryadla nəzərə çatdırır. Buna görə də tərbiyə və təkamül yolunda da Qərbin işığına doğru getməyi məsləhət görür. (102, 292-295)

Azərbaycan maarifpərvərləri onu da nəzərə çatdırırlar ki, orta əsrlərdə geridə qalmış Avropa elm, maarif və mədəniyyətin böyük bir hissəsini məhz islamiyyətin zühurundan sonra çiçəklənən müsəlman dünyasından əxz etmiş, əxz etdiyi həmin elm və mədəniyyət onun çiçəklənməsinə ciddi şəkildə rövnəq və impuls vermişdir. Ancaq son əsrlərdə islam aləmi ruhanilərin günahı və bir sıra başqa səbəblər üzündən cəhalətə, geriliyə məhkum olmuşdur. Ö.F.Nemanzadə də "Dərdimiz və dərmanımız" adlı məqaləsində bu məsələyə xüsusi diqqət yetirir.

Bəs necə, hansı səciyyə və xarakterdə şəxsiyyətlər, vətəndaşlar tərbiyə etmək? Mövzu obyekti kimi götürdüyümüz zaman kəsimində milli ictimai, siyasi, pedaqoji və hüquqi düşüncədə bu sualın aydın və şəffaf cavabını tapmaq mümkündür. Bu mənada sosial gerçəklikdəki mövqe və fikir axarı ümumilikdə üç məfkurə, üç istiqamət ətrafında cəmləşirdi:

1. Köhnəpərəstlər – ənənəçilər;
2. Müasirpərəstlər – tam yenilikçilər;
3. Rasionalist sintezçilər.

Birinci məfkurənin tərəfdarları mürtəce, mühafizəkar din xadimləri, cahil, fanatik və qaragüruhçu kütlə idi. Onlar heç bir yeniliyi qəbul etmir, tərbiyədə də, təlimdə də, adət-ənənələrdə də sırf ənənənin tərəfdarı kimi çıxış edirdilər. İkincilər – müasirpərəstlər isə əksinə ənənədən uzaqlaşıb tərbiyəni də, təlimi də, inkişafın başqa stimullarını da Avropa biçiminə salmağı, qərblilər kimi yaşamağı, milli və dini həyat, baxış və tərbiyə "buxovundan" azad olmağı məsləhət bilirdilər. Üçüncülər – sintezçilər isə problemə daha həssas yanaşır, həm milli və dini ənənədən, həm də çağdaş və sivil dünyadan ən lazımlı, ən gərəkli dəyərləri götürüb rasionalist şəkildə sintez

etməyi, vətəndaşların tərbiyəsini də bu əsaslar üzərində qurmağı təklif edirdilər.

Tarix, sonrakı gedişat üçüncü fikrin tərəfdarlarının daha haqlı, həqiqətpərəst olduğunu, milli, dini, müasir və qlobal dünyanın hadisə və proseslərinə daha düşüncəli yanaşdıqlarını sübut etdi. Milli arenada tərbiyənin parametrləri, istiqaməti də həmin məcraya yönəldildi.

Üçüncü istiqamətin ideya-məfkurə daşıyıcıları XIX əsrin II yarısında da mövcud idilər. Lakin fikirlər pərakəndə və yayğın xarakter daşıyırdı. O, 1906-1907-ci illərdə "Füyuzat" jurnalı və onun naşiri, böyük milli mütəfəkkir Ə.Hüseynzadənin fəaliyyəti, dühası və qələmi ilə bütöv bir sistem, milli ideologiya, milli-məfkurəvi hərəkət aktı, ictimai-siyasi teorem halına gətirildi.

"Füyuzat"çılığı "islam etiqadlı, türk qanlı, firəng qiyafəli" vətəndaşlar tərbiyə etməkdə görən Əli bəy təklif etdiyi milli tərbiyə, birlik və yüksəliş yolunun məfkurəvi konturlarını müəyyənləşdirərək yazırdı: "Füyuzat"ın tutduğu yol türklük, müsəlmanlıq və avropalılıqdır. Türk hissiyyatı ilə mütəhəssis, islam dini ilə mütədəyyin və Avropa mədəniyyəti-hazirəsilə mütəməddin olmaqdır, yoxsa farslaşmaq, Zərdüştün sönmüş mədəniyyəti ilə mədəniləşmək deyildir." (113, 255)

Doğrudur, Əli bəy və məsləkdaşları həm də "turançılıq" Mirzə Cəlil və "Molla Nəsrəddin"çilər isə "azərbaycançılıq" ideyasını yayır və bu mənada fərqli təbliğat aparırdılar. Ancaq bu əsaslı fərq deyildi və son nəticəyə elə də əhəmiyyətli şəkildə təsir göstərə bilməzdi. Çünki "azərbaycançılıq" da elə "türkləşməyin" tərkib hissəsi idi. Beləliklə, Ə.Hüseynzadənin işləyib ortalığa qoyduğu konsepsiya – "türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyası 1906-1907-ci illərdən sonra milli tərbiyə sisteminin, necə, hansı məslək və əqidədə vətəndaşlar tərbiyə etməyin kompasına çevrildi.

Onu da əlavə edək ki, Azərbaycan maarifpərvərləri tərbiyəyə məhdud bir akt kimi yox, şaxəli rəngləri, spektrləri olan əhatəli bir məsələ kimi baxırdılar. Onlar xalqın və vətənin

taleyini, gələcəyini həll edəcək övladların tərbiyəsində lazım olan çoxsaylı, çoxcəhətli parametrlərin əksəriyyətini nəzərə alır, problemə ayıq və həssas yanaşırdılar. Başqa sözlə, nəzəri mülahizə və izahatlarında necə vətəndaş tərbiyə etmək məsələsinə belə cavab verirdilər: vətən övladı normal, müasir ruhlu, yeni tipli məktəblərdə oxumalıdır; elmə və maarifə yiyələnməlidir; onun yaşadığı ailə və sosial mühit sağlam, humanist olmalıdır; yeni tipli, müasir dünyagörüşə malik şəxsiyyətlər kimi yetişməlidir; cəmiyyətin yarısını təşkil edən qadınlara kişilərlə bərabər hüquq verilməli, onlar təhsil və tərbiyə görməli, elmə yiyələnməlidirlər; vətəndaşlarda milli özünüdərk, vətənpərvərlik, humanizm və beynəlmiləlçilik, bəşəriyyətə və bəşəri dəyərlərə insani münasibət formalaşdırılmalıdır; öz dini etiqadında sədaqətli olmaqla fanatizmdən, mövhumatçılıqdan uzaq olub dinə elmi şəkildə yanaşmağı bacarmalıdır; əqli-intellektual cəhətdən yetkin, mənəvi-əxlaqi cəhətdən kamil, fiziki baxımdan sağlam, mənəvi-estetik zövq, duyum etibarı ilə yüksək səviyyəli olmalıdır; əməyi, çalışqanlığı, təbiəti və ətraf aləmi sevməlidir və s.

Azərbaycanda XIX əsrin II yarısı və XX əsrin əvvəllərində mütərəqqi baxışlı ziyalılarımız, tərbiyə nəzəriyyəsinin təəssübkeşləri və ideoloqları vətən övladının düzgün tərbiyəsi üçün lazım gələn kanalların, vasitələrin yaradılmasının və intişarının da qayğısına qalırdılar. Çünki bu kanal və vasitələr olmadan irəli sürülən ideya və məqsədləri reallaşdırmaq mümkün deyildi. Ə.Hüseynzadə həmin vasitələri, bu vasitələrə rəvac verən subyektləri "qırmızı qaranlıqlar içərisində yaşıl işıqlar" adlandırır və yazırdı: "Biz gördük ki, qonşularımızın iləri getməsinin səbəbi qəzetlər, mətbəələr, kitablar, məktəblər, mədrəsələr, cəmiyyətlər, şirkətlər, orqanizasiyalar, teatrlar imiş!..." (113, 187)

Ümumiyyətlə, götürdükdə zamanın əsas tərbiyə vasitələri aşağıdakılar hesab olunurdu: 1. Yeni tipli məktəblər və maarif ocaqları; 2. Maarif ocaqlarında dünyəvi elmlərin tədrisi. 3.

Sağlam məzmunlu kitablar; 4. Mətbuat; 5. Mütərəqqi ruhlu bədii ədəbiyyat; 6. Teatr; 7. Məktəblərdə, ictimai-mədəni və pedaqoji həyatda ana dilinin rəvac tapması və s.;

Ə.Ağayev ictimai-fəlsəfi, tərbiyəvi-pedaqoji məzmunu ilə dolğun bir təəssürat yaradan "Mən kiməm?" adlı geniş həcmli traktatında tərbiyəyə, onun detallarına, vasitələrinə, məzmun və mahiyyətinə geniş mənada baxır və qeyd edir ki: "Tərbiyədən bəhs edərkən bu məfhumu ən geniş mənada anlamaq lazımdır. İnsan ruhunun üzərində təsiri olan bütün amillər nəzərə alınmalıdır. Ailə, məktəb, ədəbiyyat, sənət, fikri və hissi cərəyanlar – bütün bunların hamısı tərbiyəyə daxildir." (4, 56)

Yeni tipli tərbiyənin ilk ən vacib və səmərəli komponenti yeni tipli maarif ocaqları idi. Ənənəvi təlim ocaqları – mollaxana və mədrəsə artıq nə müasir məzmunlu təlim, nə də tərbiyə üçün yaramırdı. Bu taleyüklü işə dünyəvi məktəblərin təsisindən başlamaq lazım gəlirdi.

Rusiyanın Azərbaycanı istilasından sonra imperiyanın başqa milli ucqarlarında olduğu kimi Azərbaycanda da rus dilində bir sıra tədris müəssisələrinin yaradılmasına başlanıldı. 1829-cu ilin 5 avqustunda imperiyanın mərkəzi hökumət strukturları Qafqazda  təhsil ocaqları açmaqla bağlı Qafqaz canişini qraf Paskeviçin nizamnamə layihəsini təsdiq etdi. Bu layihə əsasında Qafqazın bəzi mərkəzi şəhərlərində, o cümlədən Azərbaycanın Şuşa (1830), Nuxa (1831), Bakı (1832), Gəncə (1833), Naxçıvan (1837), Şamaxı kimi qəza mərkəzlərində qəza məktəbləri, Şamaxıda 1854-cü ildə əlavə olaraq ali dördsinifli məktəb açıldı.

XIX əsr Azərbaycan məktəb tarixinin cəfakeş tədqiqatçısı H.Əhmədov uzun illər arxiv sənədləri və faktlar əsasında apardığı araşdırmalar nəticəsində "XIX əsrdə Azərbaycanda açılan məktəblərin siyahısı"nı tərtib etmişdir. (Bax: 181, 101-104) Həmin cədvəldən məlum olur ki, XIX əsrin 30-cu illərindən başlayaraq əsr boyunca Azərbaycan şəhər və kəndlərində açılan yeni tipli dövlət məktəblərinin ümumi sayı belədir: qəza məktəbləri – 7; ibtidai məktəblər – 5; şəhər

məktəbləri – 9; bazar günü məktəbləri – 4; dəmir yolu məktəbləri – 3; sənət məktəbləri – 8; rus-Azərbaycan məktəbləri – 23; natamam orta və orta məktəblər (progimnaziya və gimnaziyalar) – 9; qız məktəbləri – 11. Bundan əlavə müxtəlif qəzalar üzrə kəndlərdə 101 ibtidai kənd məktəbləri təsis edilmişdir. Eyni zamanda müsəlman-ruhani məktəbləri və bir sıra xüsusi məktəblər də fəaliyyət göstərirdi. 1890-cı ilin məlumatına görə Gəncə quberniyasında 356 (şagirdlərin sayı: 3813 oğlan), Bakı quberniyasında 261 (şagirdlərin sayı: 4337 – bunlardan: 3855-i oğlan, 482-si qız) müsəlman-ruhani məktəbi mövcud idi. (181, 104)

XIX əsrin 70-ci illərindən etibarən Azərbaycanda milli maarif hərəkatının mühüm bir şaxəsi olan "üsuli-cədid" hərəkatı nəşət tapdı və getdikcə öz vüsətini artırdı. "Üsuli-cədid"çilər əslində ölkəmizdə milli təhsil və milli məktəb ideyasının təməldaşları idilər.

XX əsrin ilk onilliklərində istər dövlət təmayüllü, istərsə də xüsusi (bunlar həm ayrı-ayrı şəxslər, həm də xeyriyyə cəmiyyətləri xətti ilə açılırdı) tipli məktəblərin sayı daha da artdı. 1914-1915-ci tədris ilində Azərbaycanda 21 ali ibtidai məktəb, 1917-ci ildə 16 rus-müsəlman məktəbi mövcud idi. Rus-müsəlman məktəblərindən 4-ü qız, 12-si oğlan məktəbi idi. Burada təhsil alan şagirdlərin sayı ümumilikdə 2682-yə çatırdı. Xüsusi maarif ocaqlarının çəkisi barədə təkcə onu demək kifayətdir ki, "Nəşri-maarif" xeyriyyə cəmiyyətinin xətti ilə açılan məktəblərin sayı 1911-1914-cü illərdə 21-ə çatırdı. Bunlardan 18-i oğlan, 3-ü qız məktəbi idi. (181, 114-115, 148)

XX yüzilliyin ilk illərində Gəncə quberniyasında savadlı kişilər əhalinin 7,35%-ni, savadlı qadınlar 1,7%-ni, Bakı quberniyasında savadlı kişilər əhalinin 11,1%-ni, savadlı qadınlar 3,8%-ni təşkil edirdilər. (330)

QTD-nin 1905-ci ilin yanvar ayına aid rəsmi hesabatından bəlli olur ki, həmin ərəfədə Gəncə quberniyasında 156 (şagirdlərin sayı 10082), Bakı quberniyasında isə 120

(şagirdlərin sayı 9677) ibtidai məktəb fəaliyyət göstərmişdir. (365, 10-15)

Bundan əlavə sənət məktəblərinin, progimnaziya və gimnaziyaların sayı da bir qədər artmışdı. Əlbəttə, bunlar o dövrdə Azərbaycanda dünyəvi təhsil şəbəkəsinin artan dinamikasını aydın şəkildə sübut edir.

Lakin deyilənləri tarixi-siyasi baxımdan təhlil və təşrih edərkən heç də belə bir nəticəyə gəlmək olmaz ki, çarizm müstəmləkəyə çevirdiyi bir xalqın içərisində maarif və tərbiyə nuru yaymaq istəyir, orada elm və zəka səltənəti yaratmağa çalışırdı. Rus dilində yeni tipli dünyəvi məktəblər açmaqda çar siyasətçilərinin maraqları ancaq ucqarlarda imperiyanın rıçaqlarını, dayaqlarını möhkəmləndirməyə, son nəticədə "ruslaşdırma" siyasətinə rəvac verməyə hesablanmışdı. Belə təhsil ocaqları açmaqla monarxiya ideoloqları təxminən bu cür məqsədlər güdürdülər: ruslaşdırma məqsədilə Azərbaycan ərazisinə (müxtəlif bölgələrə) köçürülmüş rusların, həmçinin müxtəlif idarəetmə orqanlarında işləməyə göndərilmiş rus məmurların uşaqlarına təhsil vermək; rus dilini bilməyən yerli xalqla yerli dili bilməyən rus məmurları arasında ünsiyyət qura biləcək dilmanclar yetişdirmək; yerli əhalidən müəyyən hissəyə rus dilində təhsil verməklə yerlərdə imperiyaya sədaqətli dayaqlar yetişdirmək; çar siyasətçiləri belə hesab edirdilər ki, rus dilində təhsil və tərbiyə alan yerli xalqın övladları çarizmin maraqlarına xidmət edəcək. Lakin tarixi gedişat bunun əksini sübut etdi. Xalqın milli varlığı, böyük idealları, səadəti və istiqlaliyyəti uğrunda mübarizə aparan ziyalı elitasının əksəriyyəti məhz rus dilində oxumuş milli maarifçilər oldular.

M.Ə.Rəsulzadə monarxiya ideoloqlarının ruslaşdırma siyasətinin siyasi mahiyyətini, onun hansı yolla və necə həyata keçirilməsi konsepsiyasını aydınlaşdıraraq məsələyə bu cür tutarlı, inandırıcı şərh verir: "Şimali Azərbaycan, Rus təhti-idarəsinə keçdikdən sonra siyasi hüququnu kamilən itirmiş, məhkumiyyətin acısını təmamilə dadmışdı. Əvəlki zamanda o, gördüyü hərs məhkumiyyətini müştərək bir din və müştərək

mədəniyyət təsiri ilə sezmiyordu. Çünki o zaman milliyyətini – sözün bu günkü mənasilə – daha müdrik deyildi. Getdikcə farslaşan Azərbaycan türkü bu dəfə ruslaşdırmaq siyasətinə məruz qalıyordu. Təbii idi ki, bu hal xəlqin həssas əsəblərinə toxunuyor, müdafiəyi-nəfs hisslərini dərindən qıcıqlıyordu. Bunun üçün də xəlq kəndisini düşünməyə məcbur idi.

Çarizm, Azərbaycanı ruslaşdırmaq üçün iki cəbhədən gəliyordu: Bir tərəfdən xəlqin hissiyyati-diniyyəsini idarə edən üləma və mollaları kəndi kontroluna tabe tutur, digər tərəfdən də milli tərbiyəyə meydan verməyərək xəlqi rus məktəblərində (uşkol) oxumağa icbar ediyordu. Birinci məqsədin təmini üçün şiə və sünnilərə məxsus olmaq üzrə ayrı-ayrı iki idarəyi-ruhaniyyə təsis eyləmiş, bütün molla və əfəndiləri bu idarə vasitəsilə kəndisinə tabe birər məmur kibi qullanmışdı. İkinci məqsədi təmin üçün də müəyyən ruslaşdırma proqramilə uşkollar (məktəblər) təsis edilmişdi.

Xəlqdə nə bu məmurluğu qəbul edən mollalara etimad, nə də məzkur uşkollardan çıxan bəyzadələrə etibar vardı.” (210, 16)

“Molla Nəsrəddin” naşiri məktəblərdəki ruslaşdırma siyasətinin mahiyyətinə rişxənd və istehza ilə etiraz edərək yazırdı: “Müsəlman uşağı dörd il rus dərsi oxuyub evinə qayıdanda anası ilə rusca danışır. Bu hesabla cavan on dörd il oxuyandan sonra nə dildə danışacaq?” (165, 33) “İrəvan seminariyası və qazinin nitqi” (“Molla Nəsrəddin”, 1907, №7) felyetonunda isə Azərbaycan şəhəri İrəvanda fəaliyyət göstərən seminariyada 25 ildə, “səkkiz nəfər yarım müsəlman uşağının” oxuyub müəllim olduğuna kəskin etiraz edir, buranın tələbə kontingentinin əksəriyyətini qeyri-müsəlman uşaqlarının, xüsusilə rusların təşkil etdiyini ruslaşdırma siyasətinin bariz nümunəsi kimi qiymətləndirirdi.

İmperiya siyasətçi və məmurlarının milli ucqarlarda, o cümlədən Azərbaycanda hər cür mütərəqqi gedişatın, oyanış və milli dirçəlişin baş verməsindən vahiməyə düşdüyünü, onun qarşısını almağa çalışdığını göstərməkdən ötrü tipik nümunə

kimi Rusiya daxili nəzarət polis şöbəsinin 3-cü kargüzarlıq dairəsinin Gəncə valisinə göndərdiyi 31 dekabr 1900-cü il tarixli 13421 №li rəsmi məktubuna nəzər salmaq kifayətdir. Həmin məktubda deyilir:

"Gəncə qubernatoru həzrətlərinə!

Polis departamentində olan məlumata görə son zamanlarda tatar ədəbiyyatında (o zaman azərbaycanlılara "tatar" deyirdilər – T.V.) yeni bir cərəyan müşahidə olunur. Bu cərəyan Rusiya tatarları və müsəlmanlarının həyatında böyük bir dəyişiklik vücudə gətirəcəyindən bizim üçün çox təhlükəlidir. Bu qorxu əvvəllər yeni üsul üzrə təlim dairəsində idi. Bu da 1884-cü ildə krımlı İsmayıl bəy Qaspirinskinin sövti üsul üzrə yazmış olduğu qiraət kitablarından ibarət idi. Bu kitablar oxumaq və yazmağı az zamanda öyrətdiyindən hər yerdə sürətlə yayılır; bu surətlə təlim işləri ruhanilərin əlindən alınaraq gənc müəllimlərə təslim edilir; fikri və ictimai inqilab yaradan, yeni ədəbiyyata icrayi təsir edən yeni tərəqqipərvər bir zümrə meydana gəlir. Tatarlar arasında yenilik və köhnəlik tərəfdarı olan iki zümrə arasında kəskin mübarizə davam edir. Köhnələr bizim üçün faydalı olmadığı kimi, yenilər də çox qorxuludur. Çünki onlar Rusiyadan ayrılmaq fikrindədirlər. Ona görə də, hərəkətləri, onların izlədikləri fikri və qayəni tədqiq və təhqiq edərək aydınlaşdırmanızı departament zati-alilərinizdən rica edir. Bizə tapşırılmış vilayətdə, müsəlman əhalisi içərisində yeni tərzdə əsər yazan ədəbiyyat xadimlərini öyrəniniz! Onların şəxsiyyətləri haqqında, ictimai və mülki vəziyyətləri xüsusunda, müsəlmanlar arasında qazanmış olduqları mövqeləri və harda təhsil aldıqları xüsusunda məlumat toplayınız!

Müdir: Julyanski

Kargüzar: Letyujnikov" (244, 178)

Məktəb də daxil olmaqla yeni tipli, müasir məzmunlu tərbiyə vasitələrinin yoxluğu Azərbaycanın əməlpərvər fikir fədailərini ciddi şəkildə narahat edirdi. Onlar başa düşürdülər ki, xalqın işıqlı gələcəyi naminə hər şeyi yoxdan yaratmaq lazımdır. Bunun üçünsə min bir əzaba qatlaşmaq gərəkdir.

M.F.Axundovun H.Zərdabiyə ünvanladığı 1 yanvar 1877-ci il tarixli məktubu əslində iki millət xadimi arasında dediyimiz məsələ barədə əsaslı polemika, fikir mübadiləsi və müzakirə xarakteri daşıyırdı. "Əkinçi" qəzetində (1877, 18 yanvar) çap olunmuş həmin məktubda Mirzə Fətəli öz dostuna müraciətlə deyirdi ki, sən müsəlman tayfasını irəli aparmaqdan ötrü elə hey deyirsən ki, elm öyrənin. "Bizə de görək, elmi harada öyrənək və kimdən öyrənək və hansı dildə öyrənək? Əgər şəhərlərdə öyrənək, şəhərlərdə məktəbxanalar yoxdur... Deyəcəksən ki, özümüz şəhərlərdə məktəbxanalar bina edək. Çox yaxşı, hansı istitaətlə? Bərfərz ki, etdik, müəllimləri haradan alaq?.. Aya, ünas və kənd əhalimiz necə etsinlər?" (20, 254) Hər iki maarif fədaisi anlayırdı ki, nə məktəbi, nə müəllimi, nə tədris və lazımi elm kitabları, bir sözlə, heç bir münasib ictimai-pedaqoji, mədəni və siyasi mühiti olmayan bir tarixi şəraitdə vətəndaşları tərbiyə etmək nə qədər çətindir.

S.Ünsizadə "Ziya" qəzetinin səhifələrində (1879, 27 dekabr) Qafqaz müsəlmanlarının elm və tərbiyədən "bibəhrə və məhrum" qaldığından şikayətlənir, "dado-fəryad" nidası ilə ermənilərlə müsəlmanların elmə, məktəbə, həm də cinayətə, cəhalətə münasibətini müqayisə edib ürək ağrısı ilə belə bir fakta diqqəti cəlb edirdi: Necə olur ki, Şuşa şəhərindəki məktəblərdə oxuyan 345 şagirddən ancaq 3-ü müsəlman, qalanı erməni, lakin həbsdə olan 325 məhbusdan yalnız iki nəfəri erməni qalanı müsəlman olur. (292, 57)

1882-ci ildə M.Şahtaxtlının "Kavkaz" qəzetində (7, 15 aprel, 9, 16 may, 4, 17 iyun, 25 noyabr) "Müsəlmanlarda məktəb həyatı" ("Школьная жизнь у мусульман") adlı məqalələr silsiləsi işıq üzü görür. Bu məqalələrdə müəllif ənənəvi müsəlman məktəblərinin – mollaxananın nöqsanlarını, təlim və tərbiyəyə nəinki yaramadığını, hətta zərər vurduğunu, Avropa tipli tərbiyə, təlim ocaqlarına ciddi ehtiyac olduğunu ətraflı şəkildə şərh edir. Müəllif mollaxananın sinif otağından, burada şagirdlərin sağlamlığına zərər vuran anormal şəraitdən, sinif ləvazimatlarından tutmuş müəllimə (mollaya), şagird-müəllim,

müəllim-valideyn münasibətlərinə, tədris üsuluna, proqram və dərs kitablarına, oxu materialına, tətbiq edilən təlimə və təlim metoduna, təlim-tərbiyənin nəticələrinə və s. qədər bütün mollaxana həyatını təfsilatı ilə göz önünə gətirir, analizdən keçirir. Bu mollaxanaların xalqı inkişafa yox, tənəzzülə sürüklədiyini söyləyir. Əgər yaşamaq və tərəqqi etmək istəyiriksə, dünyəvi məktəblər açmalı, onun təlim və tərbiyəsindən fayda götürməliyik – ideyasını irəli sürür. (237, 237-289)

S.Ə.Şirvani "Əkinçi"yə göndərdiyi mətbu mənzum məktubunda (1877, 4 avqust) islam aləminin, millət övladlarının elmsizliyindən, maarifsizliyindən şikayətlənir, yaxşı tərbiyəni "mayeyi-səadət", "malü dövlət", insanı kamil eləyən vasitə adlandırır və zamanın mütərəqqi baxışlı millət öncüllərinin suallarını qoyur:

Bilməyən yoxdu kim, bu mənanı:
Tərbiyət kamil eylər insanı.
Tutalım gəldik əmrə mərdanə,
Baxmadıq tənü lənü nadanə.
Tutalım eylədik bu əmrə tifaq,
Tərbiyət biz gərək ki, kimdən alaq?
Hansı məktəbdə fövği-ətfali
Hansı bir elmdən edək halı? (88, 419)

Seyid Əzim də mollaxanaya, onun köhnəlmiş, yaramayan təlim-tərbiyə sisteminə qarşı çıxır və "üsuli-cədid" hərəkatının tərəfdarı kimi çıxış edir.

Görkəmli pedaqoq S.M.Qənizadə yeni tipli məktəbi cəhalət "mülkündən" qurtuluşun əsas məkanı, qəlblərdə tərəqqi çırağı yandıracaq mühüm vasitə hesab edirdi: "Bizlər üçün əgər bir çıraq yanacaqsa, məktəb ocağının şöləsindən yansın gərəkdir. Cəhalət mülkünə əgər bir məhtab doğacaq isə, yenə məktəb divarından tülu edəcəkdir... Əgər sultanlıq istərsən, dəri-məktəbdə xadim ol!.." (147, 29-30)

Xalqın gələcək taleyinin, istiqbal və istiqlalının məktəbə, elmə və tərbiyəyə bağlı olduğunu israr edən N.Nərimanov da

həmvətənlərini bu yola səfərbərliyə çağırır və yazırdı: "Necə verək tərbiyə? Halbuki özümüzdə lazım olan tərbiyə yoxdur?! Bəli, gərəkdir biz özümüz uşaqlarımıza tərbiyə verək, ta onlar da gələcəkdə öz uşaqlarını cürbəcür bəlalardan saxlasınlar. Tərbiyə dəxi elmin gücünə olar... Həzərat, genə təkrar edirəm: Məktəb! Məktəb! Bizi ancaq məktəb nadanlıqdan xilas edər!" (192, 243)

Ümumiyyətlə, XIX-XX yüzilliklərin hüdudlarında Azərbaycan ziyalı mühitində yeni ruhlu məktəb və maarif hərəkatı tərbiyənin vacib komponenti kimi vüsət almışdı. Bu hərəkat bədii ədəbiyyatda da ciddi əks-səda doğurmuş, elm, maarif və məktəbə çağırış ruhlu, bunları təbliğ edən, gənc nəslə onların əhəmiyyətini anlatmağa xidmət edən onlarla şeir, nəsr, dram və publisistika nümunələri ərsəyə gəlmişdi.

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində ana dilində müasir, faydalı məzmuna malik kitabların yoxluğu bir tərbiyə vasitəsi kimi xalqın proqressiv ideya, məfkurə flaqmanlarını düşündürür, onları bu yolda nəzəri təşviqat və əməli addımlara, çıxış yolları axtarıb tapmağa sövq edirdi. "Əkinçi"nin redaktoru məsləhət görürdü ki, özümüz yeni kitablar inşa edib hazırlayana qədər heç olmasa, bu sahədəki ehtiyacı az-çox ödəmək üçün osmanlı türkcəsində olan yararlı təlim-tədris, elm və oxu kitablarını nəşr edib şagirdlərə və oxuculara çatdırmaq olar. Çünki bu iki dil, yəni osmanlı türkcəsi ilə Azərbaycan türkcəsi arasında elə bir fərq yoxdur. Sadəcə olaraq kitabların dilini bizim türkcəyə uyğunlaşdırmaq bəs edər. (88, 143-144)

Həqiqətən, o zaman bizim ana dilimizdə nə dərslik, tədris və metodiki vəsaitlər, nə sinifdənxaric oxu materialları, nə də uşaqlara yarar bədii və elmi əsərlər yox idi. Belə bir boşluq təlim-tərbiyə işlərində əsaslı əngələ səbəb olurdu. S.Ə.Şirvani də Həsən bəyə müraciətlə yazdığı mənzum məktubunda ("Əkinçi", 1877, 4 avqust) millət balaları üçün faydalı elm və təlim kitablarının olmamasından acı-acı şikayətlənirdi. Köhnə məktəblərdə (mollaxanada) tədris olunan "Xülasə", "Cəbrül-müqabil", "Gürbəvü-muş", "Nəqli-həmdunə", "Qisseyi-xərguş", "Tarixi-Nadir" və s. kimi kitabların

“təlimi-ətfalə”, “kəsbi-elmə” yaramadığını, tərbiyə üçün “bisəmər” olduğunu, uşaqları “elmi-paki-hikmətdən” bixəbər qoyduğunu söyləyir, bu işə “əncam” etməyin vaxtı yetişdiyini nəzərə çatdırırdı. (88, 419) N.Vəzirov da həmkarının fikirlərinə şərik çıxırdı. (88, 265)

Həqiqətən də, məzmunsuz, uşaqların səviyyəsinə, maraqlarına uyğun olmayan, zövqsüz, cəfəngiyat və xurafatla dolu, həyati məzmundan məhrum kitabları böyüməkdə olan nəslə oxutmağın xeyirdən çox ziyanı var idi. Belə kitablar dövrün ruhuna müvafiq deyildi.

Görkəmli rus tənqidçisi, maarifçisi N.A.Dobrolyubovun müasir həyatda böyüməkdə olan nəslin hərtərəfli mənada tərbiyəsinə təsir göstərə biləcək kitabların məzmunu siqlət və mahiyyəti barədə bir tərbiyəçi fəhmi və həyəcanı ilə dediyi bu sözləri həqiqət idi: “Uşaq kitablarının səhifələrini indi nə mücərrəd əxlaqi nəsihətlər, nə fantastik sayıqlamalar doldurmamalıdır; bu kitablarda kainat və insan haqqında müsbət məlumatlar olmalı, həqiqi həyatdan götürülmüş hekayələr verilməlidir, hazırkı cəmiyyəti həyəcanlandıran və bu günkü uşaqları həyata qədəm qoyduqda qarşılayacaq bütün məsələlər izah edilməlidir...” (67, 119)

S.Ünsizadə bizim məktəb və mədrəsələrimizin “banizam və basəliqə” olmağının mühüm bir səbəbini də “öz dilimizdə növbənöv kitablar”ın olmamasında görür, millət övladlarının “ehtiyace-elmiyyəsi”ni ödəməkdən, onları “mərtəbeyi-kəmalə” yetişdirməkdən ötrü hansı məzmun və mündəricəyə malik kitablara ehtiyac olduğu barədə mülahizələrini oxucularla bölüşdürürdü. (292, 234-235) Təkid edirdi ki, “səbiyan məktəblərinin kitabləri lazımdır ki, səbiyan halətinə münasib olub onların əqlinə münasib olə.” (257, 257)

M.Şahtaxtlı “Yeni kitablar-“Bəxtli qız” (“Şərqi-rus”, 1904, 14 mart) məqaləsində qeyd edirdi ki, dərs və qiraət kitabları tərtib edə bilmək üçün bir çox “elmlər və fənlərdən xəbərdar olduqdan sonra pedaqoji və psixoloji qaydaların da mütəxəssisi”, “pək çox məlumat və vüquf sahibi” olmaq

gərəkdir. Halbuki bizim mühərrirlərimiz də, ədib və pedaqoqlarımız da “müntəzəm təlim və tərbiyə görmüş, üsul və nizamlı darüttəlimlərdə kamalat təhsil etmiş zatlar deyil”, mədrəsə bataqlığından, “sxolastika dəryasından” çıxar-çıxmaz qələmə sarılmış adamlardır. (237, 94)

“Molla Nəsrəddin” jurnalı mollaxanada təlim olunan kitabları məsxərəyə qoyur (1906, №10), “islam aləmində bircə dənə məktəbə oxşayan məktəb və kitaba oxşayan kitab” (1906, №28) tapa bilmirdi. Məcmuənin fəal əməkdaşlarından Ö.F.Nemanzadə də Mirzə Cəlilin səsinə səs verirdi və bu cür kitabları ələ salaraq soruşurdu: “Harda bir elə təlim kitabı ələ gətirmək olar ki, müsəlman uşağına türk dilində savad öyrətmək mümkün ola?” (189, 291)

Ə.Hüseynzadə “Həyat” qəzetində (1905, №93) “türk dilində və ələlümum müsəlman dillərində kitablara zəruri ehtiyac olduğunu, bu ehtiyacın “milli məktəblərimizdə türk dilinə və türk dilində” ülumi-müxtəlifəyi-cədidə”, yəni yeni elmlərin öyrədilməsinə təlabatdan yarandığını nəzərə çatdırırdı. Göstərirdi ki, bu kitablar dilçiliyə, tarixə, coğrafiyaya, hesaba, cəbrə, həndəsəyə, nəbatata, heyvanata (zoologiyaya), mədəniyyətə, təbiətə və s. rəngarəng elmlərə aid olmalıdır və ziyalılar, qələm sahibləri, millətsevərlər bu yöndə iş görməlidirlər. Yoxsa bu işləri bizim əvəzimizə bir başqası gəlib görməyəcəkdir. (113, 81)

Azərbaycan müəllimlərinin I (1906) və II (1907) qurultaylarında da təlim və tərbiyə üçün kitabların olmaması xüsusi olaraq vurğulandı. Bu sahədəki boşluğu doldurmaq üçün zəruri tədbirlər görmək pedaqoqlara və qələm sahiblərinə aktual bir tapşırıq kimi tövsiyə olundu.

İki əsrin qovuşuğunda maarif münəvvərlərinin yeni məzmunlu kitablar yaratmaq uğrundakı təlaş və mübarizəsi heç də hədər getmədi. Bu istiqamətdə uğurlu işlərə imza atıldı. Ana dilində M.Ş.Vazehin, S.Ə.Şirvaninin, A.O.Çernyayevskinin, M.Mahmudbəyovun, A.Səhhətin, A.Şaiqin, F.Ağazadənin, Q.R.Mirzəzadənin, S.M.Qənizadənin, Ü.Hacıbəyovun,

N.Nərimanovun, Rəcəb Əfəndizadənin və b.-nın yeni tipli dərslikləri meydana çıxdı. Çoxlu sayda sağlam ruhlu, yeni dövrün ab-havasına müvafiq mütaliə kitabları, elmi və bədii əsərlərdən ibarət, habelə tərcümə əsərlərini əhatə edən kitablar işıq üzü gördü. Gənc nəslin təlim-tərbiyəsində, yetkinləşməsində bu dərslik və kitablar əvəzsiz rol oynadı.

Haqqında söhbət açdığımız ictimai-tarixi şəraitdə son dərəcə mühüm, əhəmiyyətli tərbiyə vasitələrindən biri də mətbuat idi. Azərbaycanda ana dilində mətbuat orqanının yaradılması ideyası 1872-1873-cü illərdən başlayır. Həmin illərdə ana dilində qəzet yaratmaq uğrunda mübarizəyə başlayan H.Zərdabi uzun mücadilə və çətinliklərdən sonra, nəhayət, 22 iyun 1875-ci ildə öz məqsədinə nail oldu. Həmin tarixdən nəşrə başlayan "Əkinçi" qəzeti ilə xalqımızın tarixində milli mətbuatın təməl daşı qoyulmuş oldu.

H.Zərdabi bir tərbiyə tribunası kimi qəzetin qarşısında böyük vəzifələr durduğunu yaxşı dərk edir, bu vəzifəni oxuculara da başa salırdı. Böyük mütəfəkkir qəzetin qarşısında duran real ictimai-tərbiyəvi rolu belə dəyərləndirirdi: "Hər bir vilayətin qəzeti gərək ol vilayətin aynası olsun, yəni ol vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə, onların hər bir dərdi və xahişi ol qəzetdə çap olunsun ki, ol qəzetə baxan xalqı aynada görən kimin görsün." (88, 92) Mətbuatı xalqın ictimai güzgüsü hesab edən Həsən bəy onun məram, məqsəd və hədəflərindən danışarkən qeyd edirdi ki, "qəzet dərviş kimi nağıl deyə bilməz." Onun borcudur ki, xalqa öz yaxşısını və pisini güzgü kimi göstərsin. "Çünki qəzetin muradı xalqın gözünü açmaqdır." (88, 150)

"Şərqi-rus"un naşiri M.Şahtaxtlı dərin milli-ictimai məzmunu, ideyası ilə diqqəti cəlb edən "Dərdimiz və dərmanımız" (1903, 13 aprel) adlı məqaləsində dəyərli mətbuat orqanını ən mahir nəsihətçidən üstün tutur, cəhalətin məhvedicisi, mərifətin ilk vasitəsi sayırdı: "Xülasə, indiyə qədər min dürlü təcrübələr ilə isbat edilmiş bir həqiqətdir ki, hər millət mərifət ilə yaşar, cəhalət ilə yox olar. Mərifətin birinci vasitəsi,

xətibi, vaizi isə məcmuələr, qəzetlərdir. Qəzet aləmin ən nüfuzlu, təsirli vaizidir. Qəzet hər millətin ölçüsü, mizanıdır. Qəzet məmləkətin hamisi, vəkili, advokatıdır." (237, 72)

O dövrün ictimai-mədəni və milli intibah hərəkatında əsas ağırlıq mərkəzlərini öz üzərlərinə götürmüş təmayüllər olan "Molla Nəsrəddin"çilər və "Füyuzat"çılar da mətbuatın sosial-mədəni həyatda, milli-mənəvi dirçəlişdə mühüm vasitə olduğunu dönə-dönə qeyd edir, onun intişarına çalışır və çağırırdılar. Ruznamələri "yüz illərlə yatmış millətin və məmləkətin qulağına dirilik şeypuru çalan", həmişə kütləni mövhumatdan, cəfəngiyatdan xəbərdar, "hal-hazırın ehtiyacına və zəmanənin təqazasına vaqif" edən bir tribuna adlandıran (165, 80) C.Məmmədquluzadə elə bu səbəbdən çar senzurasının mətbuata ciddi qadağalar qoyduğunu, azad sözü, azad fikri hər vəchlə boğmağa çalışdığını, istibdad, cəhalət, siyasi riyakarlıq, milli rəzalət barəsində yazılmış yazılara hər cür əngəl törətmək istədiyini nəzərə çatdırırdı. (167, 152-154)

Mövcud məsələdə "Molla Nəsrəddin"çilərlə "Füyuzat"çıların mövqeyi eyni idi. Ə.Hüseynzadə "Qəzetimizin məsləki" ("Həyat", 1905, №1) məqaləsində qeyd edirdi ki, qəzetin əhəmiyyəti bir cəmiyyət, yaxud millət üçün o qədər aşkardır ki, bundan bəhs etməyə lüzum yoxdur. O, qəzeti insan üçün munis bir yoldaş, xeyirxah bir müəllim, nafe bir məktəb, hətta fərəhəfza xoş bir tamaşaxana", "zəlalətdə qalanlara doğru yolu, hidayət yolunu göstərən" bir rəhbər adlandırırdı. (113, 32)

"Füyuzat" mühərrirlərindən Ə.Kamal "Avropada" (1907, №29) məqaləsində Avropa ölkələrində insanların qəzet və jurnallara münasibətlərindən, onların cəmiyyətin maariflənməsində, tərbiyəsində, bilik, məlumat kəsb etməsində rolundan geniş şəkildə söz açırdı. Ə.Hüseynzadə "Molla Nəsrəddin" və "Dəbistan" ("Həyat", 1906, №1) məqaləsində mətbuatın əhəmiyyəti məsələsinə ayrıca toxunurdu.

Digər maarif fədailərimizdən N.Nərimanovun "Əliqələmli müsəlman ziyalıları haqqında bir neçə söz" ("Kaspi", 1896, 1 fevral), "Dərdlərimizin əlacı" ("Yeni iqbal",

1916, 5, 20, 21 yanvar), "Türk dilində yeni jurnal" ("İrşad", 1906, 9 mart), Ü.Hacıbə-yovun "Hürriyyəti-mətbuat" ("İrşad", 1907, 1 mart), "Bəyani-məslək" ("Həqiqət", 1909, 25 dekabr), "Zənbur" jurnalı" ("Tərəqqi", 1909, 24 avqust), "Vladiqafqaz camaatına bir də açıq məktub" ("Həqiqət", 1909, 5, 18 mart), "Qəzet oxuyan" ("İrşad", 1906, 24 mart), Ö.F.Nemanzadənin "Dərdimiz və dərmanımız" ("Şərqi-rus", 1903, 4, 6, 11 aprel), F.Köçərlinin "Hörmətli "Şərqi-rus" ruznaməsinə bir neçə sözlər" ("Şərqi-rus", 1903, 9, 11 may), "Azərbaycan dövri mətbuatının qısa icmalı" ("Zaqafqazye", 1906, 21 dekabr), "Molla Nəsrəddin" ("Tiflisskiy vostok", 1906, 13 iyul), A.Səhhətin "Sovqat" oxucularına" ("Sovqat", 1916, 29 sentyabr), "Qəzet nədir" (bu şeirdir – "Dəbistan", 1906, №16), Y.V.Çəmənzəminlinin "Bizə ciddi mətbuat çoxdan lazım idi" ("Açıq söz", 1916, №160, 162-164) və s. məqalələrində mətbuat, onun əhəmiyyəti, mətbuat və cəmiyyət, mətbuat və senzura, mətbuat və sivil dünyaya intiqrasiya prosesi və s. rəngarəng problemlərə toxunulur.

Məqalələrdə həm təbliğat-təşviqat, həm də elmi-tarixi məziyyət özünü göstərir. Mətbuatın əhəmiyyətinin kütləyə başa salınması, onun tərbiyəvi mahiyyətinin oxuculara aşılanması, bu yolla ona rəğbət oyadılması istiqamətində nəzəri və praktiki işlər görməkdə M.Ə.Rəsulzadənin də xidmətləri ayrıca qeyd edilməlidir. Onun nəşr etdiyi "Açıq söz" (1915-1918) qəzeti, habelə "Öz müxbirlərimizdən" ("Şərqi rus", 1903, 2 may), "Yeni qəzetə" ("İrşad", 1906, 9 may), "Tan yuldızı" ("İrşad", 1906, 1 iyun), "İslam mətbuatı" ("Təkamül", 1906, 30 dekabr), "Mətbuat xüsusunda" ("Tərəqqi", 1908, 20 noyabr) və s. məqalələri bunu aydın şəkildə sübut edir.

Mütərəqqi baxışlı fikir adamlarımız yalnız mətbuatın tərbiyəvi əhəmiyyətini, yaxşı cəhətlərini kütləyə başa salmaqla kifayətlənmədilər, onun təbliği ilə məşğul olmadılar, eyni zamanda milli mətbuatımızın yaradılması və rəvac tapması yolunda da əhəmiyyətli işlər gördülər. XIX yüzilliyin son rübündə "Əkinçi" qəzeti ilə (22 iyun 1875) milli mətbuatımızın

təşəkkül tarixi başlandı. Bir az sonra Səid Ünsizadə və Cəlal Ünsizadə qardaşlarının təşəbbüsü ilə "Ziya" ("Ziyayi-Qafqaziyyə") və "Kəşkül" qəzetləri işıq üzü gördü. XX əsrin əvvəllərində milli dildə M.Şahtaxtlı "Şərqi-rus" (1903-1905) qəzetini nəşr etdirdi. 1905-1907-ci illər Birinci rus inqilabı zamanı inqilabın təzyiqi ilə verilən 17 Oktyabr manifestindən sonra imperiya ərazisində mətbuat dünyasında bir "nəfəs genliyi" (C.Məmmədquluzadə) əmələ gəldi. Azərbaycanda da çoxlu sayda mətbuat orqanlarının meydana gəlməsinə şərait yarandı. Çox keçmədən "Molla Nəsrəddin", "Füyuzat", "Yeni füyuzat", "Dirilik", "Zənbur", "Tuti", "Məzəli", "Babayi-əmir", "Şeypur" və s. kimi jurnallar, "Həyat", "İrşad", "Tərəqqi", "Yeni irşad", "İqbal", "Təkamül", "Yoldaş", "Açıq söz", "Bürhani-tərəqqi", "Bəsirət", "Tazə həyat" və s. qəzetlər ictimai-mədəni səhnəyə daxil oldu. Bu dövrdə eyni zamanda "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907) və "Məktəb" (1911-1920) məcmuələrinin timsalında pedaqoji mətbuat, yəni uşaq mətbuatı ərsəyə gəldi. Bu mətbuat orqanları xalqın yeni dövrün ab-havasına uyğun tərbiyə olunmasında, zamanın və dünyanın həqiqətlərinin etnik-milli yaddaşda qərar tutmasında, xalqın gələcək milli taleyini müəyyənləşdirməkdə müstəsna dərəcədə əhəmiyyətli iş gördü.

Bədii ədəbiyyatın tərbiyə vasitəsi kimi çəkisinə və roluna gəldikdə bu barədə geniş danışmağa ehtiyac yoxdur. Çünki əsrlər boyunca istər bədii fikir xəzinəsi olan mədəni xalqlarda, istərsə də Azərbaycanda kifayət qədər danışılmış, gərəkli fikirlər söylənilmişdir. Bununla belə XIX əsrin II yarısı və XX əsrin ilk onilliklərindəki Azərbaycan ictimai-ədəbi, maarifçi-pedaqoji mühitinə xas vacib bir problemi xatırlatmaqla kifayətlənməyi məqsədəuyğun hesab edirik. Həmin problemin əsas mahiyyəti bundan ibarətdir: XIX yüzilliyin ortalarına qədər bütün islam regionunda olduğu kimi bizim çoxəsrlik ədəbiyyatımızda da moralizm, əxlaqi-didaktik fikir, öyüd-nəsihətçilik aparıcı meyl təşkil etmişdir. Real həyatdan, məişətdən, gerçək varlıqdan uzaq

mücərrəd mövzular, obrazlar, ideal xarakterlər, eşq, məhəbbət, gül, bülbül, xəyali hadisələr, fantaziyaya söykənən abstrakt əhvalat və süjetlər bədii ədəbiyyatın əsas axarını təşkil etmişdir. XIX əsrin ortalarından etibarən M.F.Axundov Şərq ədəbiyyatının ənənəvi kanonlarına qarşı çıxdı, bu ənənənin istər forma-struktur, istərsə də mövzu, ideya-məzmun və tərbiyə baxımından çağdaş həyatın reallıqları ilə uzlaşmadığını, müasir insana və oxucuya yaramadığını bəyan etdi. Bildirdi ki: "Gülüstan" və "Zinətül-məcalis" dövrü keçmişdir. Bu gün bu cür əsərlər millətin işinə yaramır. Bu gün millət üçün faydalı və oxucuların zövqü üçün rəğbətli əsər-drama və romandır". (19, 215)

M.F.Axundovdan başlayan bu ənənəni onun maarifpərvər xələfləri layiqincə davam və inkişaf etdirdilər. "Zindəganlıq davası"nda müasir həyat uğrunda mübarizə başladığı kimi, müasir ruhlu ədəbiyyat uğrunda da intensiv mücadiləyə start verildi. Çox keçmədən bu sahədə böyük uğurlara imza atıldı. Ədəbiyyatın yeniləşməsi uğrunda, elmi-nəzəri mübahisə və mükalimələr onun konkret bədii faktlarının da üzə çıxmasına yol açdı. M.F.Axundov, S.Ə.Şirvani, N.Vəzirov, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Qəmküsar, Ə.Nəzmi, M.M.Şəbüstəri, M.Hadi, S.M.Qənizadə, Ə.Haqverdiyev, H.Cavid, A.Şaiq, C.Cabbarlı, A.Səhhət, N.Nərima-nov, A.Divanbəyoğlu, Rəşid bəy Əfəndizadə, Y.V.Çəmənzəminli və s. sənətkarlar sağlam, mühasir ruhlu, müasir oxucuya lazımi mənəvi qida verən, onun tərbiyəsinə xidmət edən klassik əsərlər yaratdılar. XIX əsrin 70-ci illərinə qədər mövcud olmayan uşaq ədəbiyyatımız da təşəkkül tapdı. S.Ə.Şirvani, S.M.Qənizadə, Rəşid bəy Əfəndizadə, A.Səhhət, M.Ə.Sabir, A.Şaiq, S.S.Axundov, A.Divanbəyoğlu, Ə.İbrahimov, Ə.Müznib və b. uşaq ədəbiyyatımızın dəyərli nümunələrini yaratdılar. İstər "böyüklər", istərsə də "kiçiklər" üçün yaranan həmin əsərlər xalqımızın zəngin mənəvi xəzinəsini təşkil edir və bu gün də öz tərbiyəvi əhəmiyyətini itirməmişdir.

Milli intibah dövrü Azərbaycan maarifpərvərlərinin tərbiyə vasitəsi kimi isnad etdikləri əsas kanallardan biri də milli teatr idi. Məlum olduğu kimi, milli teatrımızın yaranma tarixi 10 mart 1873-cü ilə aiddir. Həmin tarixdə Bakıda H.Zərdabinin təşkilatçılığı və rəhbərliyi, realnı gimnaziyanın yuxarı sinif şagirdi N.Vəzirovun iştirakı ilə həmin gimnaziyanın şagirdləri məktəbdə M.F.Axundovun "Sərgüzəşti-Vəziri-xani-Lənkəran" komediyasını tamaşaya qoymuşlar. Bununla da tarixdə ilk dəfə milli teatrımızın bünövrəsi qoyulmuşdur. (135, 444-445) H.Zərdabi "Bakıda müsəlman teatrının binası" ("Həyat", 1905, 13 dekabr), N.Vəzirov "Mənim sevgili, əziz müəllimim Həsən bəy!" ("Həyat", 1916, 1 may) məqalələrində bu mühüm mədəni-tarixi hadisədən, həmçinin teatrın xalqın həyatındakı mühüm tərbiyəvi rolundan söhbət açırlar. Bu hadisədən sonra həvəskar şagirdlər M.F.Axundovun başqa əsərlərini də tamaşaya hazırlamış, vaxtaşırı səhnəyə qoymuşlar.

Təşəbbüsün dairəsi tədricən genişlənmişdir. 1887-ci ildə Aleksandrovski Müəllimlər İnstitutunu bitirib Bakıya gələn, burada ilk "rus-müsəlman" məktəbi təsis edən gənc müəllimlər, tələbə yoldaşı və həmməslək olan S.M.Qənizadə və H.Mahmudbəyov Bakıda həvəskar aktyorlardan ibarət bir truppa təşkil edirlər. Məqsəd həm teatr vasitəsilə xalqın oyanışına, tərbiyəsinə xidmət etmək, həm də teatr tamaşalarından toplanan pulla kasıb şagirdlərə köməklik göstərmək idi. Gənc və vətənpərvər müəllimlərin teatr truppası 10 ildən artıq fəaliyyət göstərmiş, truppa tərəfindən müxtəlif əsərlər səhnəyə qoyulmuşdur. Çünki S.M.Qənizadə və həmkarları teatrın tərbiyəvi əhəmiyyətini yaxşı dərk edir, bununla xalqı maarifləndirmə missiyasına yardım göstərmək məqsədi izləyirdilər. S.M.Qənizadə teatrın əhəmiyyəti və Qafqaz müsəlmanlarının ona münasibəti barədə yazırdı: "Biz Qafqaziyyə müsəlmanlarının arasında teatr ləfzi məhz məhəlli-tərəb zimnində istemal olduqda, bəzi bixəbər şəxslər teatr tamaşaların şəbədə və hoqqabazlıq hesab edibən teatra iqdam etməyi özlərinə kəsri-şən bilirlər və halonki teatrın

ifadeyi-tərbiyə və ədəbiyyəsi məktəblərdə oxunan dərslərdən ziyadə və müəssir olmaqlığı əhli-elm və zəkavət indində sabitdir. Teatr ərsəgahi-aynabənd bir otaq misalındadır ki, ibrət gözü ilə baxdıqda hər kəs öz şəmayili-əxlaqının eyib və qüsurun görər və gerçək islahına səy və guşiş edibən əxlaqi-həsənə hasil edə bilər.

Güman etməsinlər ki, komediya müsənnifinin mənzuru öz təlifindən, nəuzunbillah, özgələri istehza və rişxənd etməkdir... Xeyr, bəlkə, komediya yazmaq məvəddəti-qürəba təklifi ilə qeyrilərin qəminə yanıb, ürək ağrısından zəbani-hal ilə növhə və məcazi ağlamaqlıqdır! Teatr bir müalicəxanadır ki, orada guş, əql və nəzər idrak ilə əxlaq illətlərinin əlacın iradət bahası ilə almaq olur. Teatrda ərsəyə çıxıb, təlxəklər heyətində tamaşa göstərən cavanmərdlər təbiblər təşbihindədirlər ki, əxlaqi-zəmimə naxoşlarına nədimlik şərbətilə təlx təam tənbih davaların yedirdirlər.” (146, 298)

Göründüyü kimi, müəllif teatrı bir müalicəxana, oradakı aktyorları isə insanın xəstəliyini müalicə edən təbibə bənzədir.

H.S.Ayvazov “Füyuzat” jurnalında dərc olunan (1907, №12) “Nədən bu hala qaldıq” adlı dram əsərinə yazdığı ön sözdə N.Kamalın bu sözlərini epiqraf verir: “Teatro şol ayinəyə bənzər ki, ərbabi-tamaşa içində kəndisini görər... Teatro bir əgləncədir, fəqət əgləncələrin ən faydalısıdır.” (95, 187)

N.Nərimanov “Teatr barəsində bir neçə söz” (192, 242-244), Ü.Hacıbəyov “Səhnənin tərbiyəvi əhəmiyyəti haqqında”, “Opera və dramın tərbiyəvi əhəmiyyəti haqqında” (101, 164-165, 165-173), F.Köçərli “Azərbaycan komediyaları”, “Mirzə Fətəli Axundov” (129, 35-43, 243-276) və s. əsərlərində səhnə əsərlərinin insanın, xalqın tərbiyəsindəki rolunu kütləyə başa salmaq məqsədi güdürdülər.

Qələm sahiblərimiz yalnız səhnə əsərlərini tamaşaya qoymaq və bu təşəbbüsü təbliğ etmək, genişləndirməklə, onun faydasını nəzəri şəkildə kütləyə başa salmaqla məşğul olmadılar. Bu dövrdə ana dilimizdə Azərbaycan dramaturgiyasının əsərləri yarandı. M.F.Axundovun, N.Vəzirovun, Ə.Haqverdiyevin,

C.Məmmədquluzadənin, N.Nərimanovun, H.Cavidin, C.Cabbarlının və s. sənətkarlarımızın qələmi ilə meydana çıxan bu əsərlər bu gün də öz tərbiyəvi əhəmiyyətini saxlamaqdadır.

Azərbaycan mütəfəkkirlərini bir tərbiyə vasitəsi kimi düşündürən, milli hiss və milli tərbiyənin açarı kimi məşğul edən amillərdən biri də ana dili və ona münasibət məsələsi idi. Vətənpərvər millət fədailəri yaxşı dərk edirlər ki, böyük rus pedaqoqu K.D.Uşinskinin (1824-1870) dediyi kimi: "Bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan ölüb itməz, amma dilini alsan fot olar və ondan bir nişan qalmaz." (129, 292)

İctimai, mədəni, pedaqoji səhnədə, mətbuatda, tədris və maarif arenasında, hətta siyasi həyatda ana dilinin qayğısına qalmaq, onu qorumaq, nüfuzunu artırmaq, inkişafına rəvac vermək ideyası M.F.Axundovdan başlayaraq milli intibah epoxasının bütün gedişatı boyunca mütərəqqi ziyalı elitasını ardıcıl şəkildə məşğul etmişdir. F.Köçərlinin aşağıdakı sözləri sanki bu dövrün proqressiv sosial mədəni və pedaqoji mühitinin əsas dəsti-xəttinə çevrilmişdi: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də onun qidasıdır, hər kəs öz anasını və vətənini sevdiyi kimi ana dilini də sevir." (129, 292)

Bu dövrdə zəruri bir milli tərbiyə komponenti kimi ana dili ilə bağlı aparılan mübarizələrin, görülən tədbirlərin, nəzəri və əməli işlərin əsas mahiyyətini tezislər şəklində bu cür xülasə etmək olar: Ana dilini tədris-təlim prosesinə, yəni maarif və məktəb həyatına daxil etmək; həm rus dilində olan məktəblərdə ana dilinin tədirsinə nail olmaq, həm də tədrisin keyfiyyətini və saatların miqdarını artırmaq; istər tədris, istərsə də ictimai-mədəni və siyasi həyatda çarizmin yerli dilə bəslədiyi məkrli, şovinist münasibətə müqavimət göstərmək və milli dili imperiyanın ruslaşdırma siyasətinin caynağından xilas etmək; mətbuatın, habelə çap olunan müxtəlif səpkili kitabların –

dərsliklərin, tədris-metodiki vəsaitlərin, elmi, publisistik və bədii əsərlərin dilinin sadə, anlaşıqlı, xalq dilinə yaxın olmasını təmin etmək; ana dilində mətbuatın, dərsliklərin və müxtəlif məzmunlu kitabların intişarına nail olmaq; ana dilinin milli-ictimai həyatda rolunu artırmaq və s. ADR dövründə (1918-1920) bunlara ana dilini siyasi səhnəyə gətirmək, rəsmi dövlət dilinə çevirmək təşəbbüsü də əlavə olundu. Həm də bu ideya dövlət səviyyəsində təsbit edildi və gerçəkləşdi.

Ana dilinin rəvac tapması uğrunda mübarizə həm nəzəri, həm də əməli xarakter daşıyırdı. Bir sıra məqalələrdə, çıxışlarda, nitqlərdə, kitab səhifələrində deyilən məsələyə bu və ya digər dərəcədə toxunulduğunu görürük. Əlbəttə, burada onların hamısını əhatə etməyə, nəzərə çatdırmağa nə imkan, nə də zərurət olmadığından bəzi mətbu məqalələrin adlarını xatırlatmaqla kifayətlənirik: M.F.Axundov – "H.Zərdabiyə 1 yanvar 1877-ci il tarixli məktub" ("Əkinçi", 1877, 18 yanvar); H.Zərdabi – "Daxiliyyə" ("Əkinçi", 1876, 8 oktyabr), "Dil və din" ("Həyat", 1906, 6 yanvar), "İttihadi-lisan" ("Həyat", 1906, 11 yanvar), "Dil davası" ("Həyat", 1906, 13 yanvar); S.Ünsizadə – "Tiflis - 6 fevral" ("Ziya", 1880, 8 fevral); M.Şahtaxtlı – "Müsəlmanlarda məktəb həyatı" ("Кавказ", 1882, 15 aprel, 17 iyun); "Azərbaycanda darülfünun" ("Azərbaycan", 1919, 28 iyul); N.Nərimanov – "Mühüm bir məsələ" ("Həyat", 1906, 11, 14, 18 iyun), "Bu gün" ("Həyat", 1906, 15 avqust); C.Məmmədquluzadə – "Meymunlar" ("Molla Nəsrəddin", 1906, №31); "Bismilla xirragima nirragim" ("Molla Nəsrəddin", 1909, №46), "Yeni ibtidai məktəblərdə Azərbaycan dili" ("Tiflisski listok", 1905, 5 avqust); Ö.F.Nemanzadə – "Dəvət" (1905 - kitabça), "Eşq və məhəbbət" ("Yeni iqbal", 1915, 2 iyul); Ü.Hacıbəyov – "Milli məktəblərimizdə rus dili tədrisi" ("Tərəqqi", 1909, 30 yanvar, 4 fevral), "Əhəmiyyətli bir məsələ" ("Tərəqqi", 1909, 4 oktyabr); Ə.Hüseynzadə – "Türk dilini öyrənməyin fəvaidi" ("Həyat", 1905, №67), "Yenə dil müşkülatı" ("Həyat", 1905, №112); H.S.Ayvazov – "Lisan qovğası" ("Füyuzat", 1907, №16); M.Ə.Rəsulzadə – "Yerli

məktəblər" ("Tərəqqi", 1908, 7 oktyabr), "Asan dil-yeni lisan" ("Şəlalə", 1913, №19, 20), "Dil ictimai mühüm bir amil" ("Şəlalə", 1913, №27), "Rus-müsəlman məktəblərində türkcə tədrisi" ("İqbal", 1913, 4 iyul), "Orta məktəblərdə məhəlli dillər" ("Açıq söz", 1916, 15 dekabr); S.M.Qənizadə – "Hansı dil ilə yazmalı" ("Həyat", 1905, 10 noyabr); F.Köçərli – "Ana dili" ("Molla Nəsrəddin", 1913, №22,23); A.Sur – "Məktəblərdə türk dili" ("Həyat", 1905, 13 oktyabr); A.Səhhət – "Məktəblərdə ana dili" ("Açıq söz", 1917, 22 fevral); "Edadi məktəblərdə milli tərbiyə" ("Açıq söz", 1915, 28 dekabr); S.Əbdülrəhmanbəyzadə – "Dil millətin həyatına vabəstədir" ("Məktəb", 1908, №9) və s.

## 1.2. Müəllim-tərbiyəçi və onun şəxsiyyətinə verilən tələblər

Məktəb bəşəriyyətin mədəniyyət, tərəqqi dünyasına gedən yolunda ilk fundamental kəşflərdən biri, sivilizasiyaya, elmə, mədəniyyətə və tərbiyə meydanına açılan qapı deməkdir. Təbii ki, məktəbin şərəf, ləyaqət, şöhrət və nəhayət, məzmun və mahiyyətinin meyarı ilk növbədə müəllimdir. Məktəb nədir? və necədir? – suallarına, bir qayda olaraq, oradakı müəllim kimdir? və necədir? – sualları və bu sualların izahı ilə cavab verilir. Əsl müəllim bir şəxsiyyət kimi öz üzərinə bir neçə funksiya götürür: təlim verən, tərbiyəçi, ağsaqqal, rəhbər, başqalarına örnək, nəsihətçi, ruhani böyük və s. Elə buna görə də həqiqi müəllim tarix boyu həmişə əziz tutulmuş, təriflənmiş, onun barəsində çoxlu sayda müdrik kəlamlar deyilmişdir. "Əxlaqi-Nasiri" adlı məşhur didaktika kitabında müəllimi şagird üçün "cismani ağa, ruhani rəhbər" adlandıran N.Tusi belə hesab edir ki, şagirdin müəllimə olan məhəbbəti, hətta valideyndən də üstündür. Fikrini sübut üçün o, makedoniyalı İskəndərin sözünü misal çəkir və müəllimin valideyndən əziz olmasının (şagird üçün) səbəbini də izah edir:

"İskəndərdən soruşdular: "Atanı çox sevirsən, yoxsa müəllimini?" Dedi: "Müəllimi. Atam məni fani dünyaya gətirmişdir, müəllimim isə mənə əbədiyyət bəxş etmişdir".

Nəfs fəzilətdə cismə nisbətən nə qədər yüksəkdirsə, müəllimin də haqqı atanın haqqından o qədər çoxdur. Deməli, müəllimə və ataya hörmət edib məhəbbət bəsləməkdə bu tənasübə riayət edilməlidir. Müəllimin tələbəyə olan məhəbbəti xeyirxahlıq məhəbbəti nöqteyi-nəzərindən də atanın oğula olan məhəbbətindən haman nisbətdə üstün olar, çünki onun tərbiyəsi tam fəzilət, mənəvi qida, xalis hikmət əsasında olar. Müəllimin ataya nisbəti nəfsin cismə (mənəviyyatın cismaniyyətə – tərcüməçi)" nisbəti kimi olar." (258, 188)

Əlbəttə, müəllimin cəmiyyətdə tərbiyəçi missiyasını öz üzərinə götürmüş əvəzedilməz şəxsiyyət kimi bir sıra vəzifələri vardır. Bu şərəfli, lakin çətin, məsuliyyətli vəzifələrdən danışarkən böyük pedaqoq Y.A.Komenski (1592-1670) yazır: "Müəllimlər əməkdə və geyimdə sadəliyin, fəaliyyətdə gümrahlıq və əməksevərliyin, davranışda – təvazökarlıq və gözəl əxlaqın, nitqdə – danışmaq və susmaq sənətinin nümunəsi olmalı, bir sözlə, xüsusi və ictimai həyatda ağıllılığın örnəyi (nümunəsi) olmalıdırlar...

Müəllimlər, yenə də daimi nümunələr, nəsihətlər və praktikanın köməyi ilə bütün şagirdlərin ağıllarını – müdrik, dillərini – parlaq, əllərini – yazı və başqa fəaliyyət üçün mahir etməyi bilməli, istəməli və bacarmalıdırlar." (124, 373)

Milli intibah dövrümüzün Azərbaycan maarifpərvərləri də cəmiyyətin bir bütöv halında tərbiyə olunmasında, xalqı irəliyə apara biləcək şəxsiyyətlər yetişdirilməsində müəllimin əvəzedilməz rolunu yaxşı dərk edirdilər. Ona görə də bir xilasedici – tərbiyəçi kimi ilk növbədə müəllimin üzərində dayanır, müəllimi cəhalətdən qurtuluş yolunun "çıraqbanı", "bayraqdarı" timsalında qələmə verirdilər.

M.F.Axundov H.Zərdabiyə 15 fevral 1877-ci il tarixli məktubunda mənsub olduğu xalqın geriliyindən, düşdüyü ağır vəziyyətdən, savadsızlıqdan, fanatizmə yuvarlanmasından acı-acı şikayətlənir və göstərirdi ki: "Vəilla, madam ki, bizim millətimiz fanatiklik halındadır, hər bir əməli-xeyr üçün bizim səy və təlaşımız bihasildir..." (20, 262) Bir başqa məktubunda

isə bu dərdə əlac edəcək çarənin yalnız dünyəvi məktəblər və orada çalışacaq müəllimlər olacağını söyləyir, lakin təəssüflə əlavə edirdi ki, indi bizdə belə müəllimlər yoxdur. Məsələ bu cür müəllimləri yetişdirməkdədir. (20, 254-255)

"Ziya" qəzeti də (1880, 8 may) məktəbin zinətlənməsi, nüfuz qazanması və qarşıya qoyulan məqsədə nail olması üçün belə bir zəruri tələb irəli sürürdü: "... müəllimlər gərək qabil olub səhurlət təlim qaidəsinə, müəllimlərə lazım olan bir parə əxlaqe-həmidəyə (tərifəlayiq əxlaqa – T.V.) malik olələr." (292, 257)

Yeni dövrün müəllimindən yeni keyfiyyətlər tələb edən M.Şahtaxtlı bildirirdi ki, yeni dövrün müəllimi müasir elmlərə, müasir dünyaya və onun gedişatına lazımi qədər bələd olmalı, müasir təlim-tərbiyə üsullarından baş çıxarmalı, zamanın və hal-hazırkı gedişatın ruhunu duymalı, təlim və tərbiyənin istiqamətini, məzmununu da buna uyğunlaşdırmalıdır. Belə müəllimləri isə ancaq müasir təhsil sisteminə malik ali və orta pedaqoji təhsil müəssisələrində yetişdirmək olar. "Kavkaz" qəzetinin 1882-ci il nömrələrində silsilə şəklində çap olunan "Müsəlmanlarda məktəb həyatı" adlı geniş həcmli məqaləsində onun qaldırdığı problemlərdən biri də müsəlmanlar üçün Azərbaycanda pedaqoji kadrlar hazırlayan bir seminariyanın açılması idi. Qəzetin 17 iyun tarixli nömrəsində müəllif bu məsələyə geniş şəkildə toxunur. Çarizmin problemə biganə münasibətinə etirazını bildirir. (237, 279-282) "Azərbaycanda darülfünun" ("Azərbaycan", 1919, 28 iyul) məqaləsində isə müxtəlif sahələrdə, o cümlədən pedaqoji sahədə ölkəyə lazım olan mütəxəssis kadrlarının hazırlanması üçün Azərbaycanda universitet tipində ali məktəbin yaradılmasını tarixi-mədəni zərurət hesab edir. (237, 216-218)

Təkcə M.Şahtaxtlı deyil, bir sıra ziyalılarımız da o zaman Azərbaycanda pedaqoji kadrlar, tərbiyəçilər hazırlayan müasir təhsil ocağının yaradılması ideyasını müdafiə edir və onun uğrunda mübarizə aparırdılar. N.Nərimanovun "Həyat" qəzetində (1906, 11, 14, 18 iyun) "Mühüm bir məsələ – Qori

seminariyası nerədə olmalıdır?” sərlövhəli məqaləsi bütövlükdə deyilən mətləbə həsr olunmuşdur. N.Nərimanov müəllim, cəmiyyətdə onun vəzifələri, müəllim və sosial mühit, ictimai gerçəkliyimizdə müəllimə münasibət və s. məsələlərə də diqqət yetirmişdir. “Müəllimlər ictimainə dair” (“Həyat”, 1906, 3, 6, 8, 9, 13 avqust) məqaləsində müəllif bu səpkili mətləblər üzərində əhatəli surətdə dayanmış, hətta görkəmli İsveçrə pedaqoqu və nəzəriyyəçisi, İ.H.Pestalotsinin (1746-1827) müəllimin şəxsiyyəti, tərbiyədə onun rolu, əməyi və s. kimi məsələləri geniş şəkildə şərh edərək Azərbaycan ictimai-pedaqoji mühitinə çatdırmışdır. Mövcud məqalədə müəllif xalqımızın vətənpərvər müəllimlərindən S.M.Qənizadə və H.Mahmudbəyovun da uğrulu, əməlpərvər pedaqoji fəaliyyətinə diqqəti cəlb etmişdir. O, müəllimin ictimai həyatda rolu barədə belə bir faktı nəzərə çatdırır ki, almanlarla fransızların müharibəsində almanlar fransızlar üzərində məhz müəllimlərin, onların millət övladlarına verdikləri təlim-tərbiyənin sayəsində qalib gəldilər. N.Nərimanov belə bir inam ifadə edir ki, bizim müəllimlər də, yəqin ki, qeyrət, hümmət göstərib tənbəllik ləkəsini üzərlərindən götürər, “qeyri tayfaların müəllimləri kimi camaata yol göstərərlər”, çünki onlar millətin dərdinə əlac qılmaqda “heç kəsdən” əskik deyillər. Müəllif onu da kütləyə – müəllimin qədir-qiymətini anlamayan camaata başa salmağa çalışır ki, “hər millət üçün tərəqqi qapısı məktəbdir və hər məktəbin tərəqqi tapmağı, müəllimlərə bağlıdır”. (192, 315-319) Bəs əsl müəllim necə olmalı və nələri bilməlidir? Maarifçi qələm sahibi bu suala Henrix Pestalotsinin izahatları ilə cavab verir. Müəllimin həm bilikli, elmli, həm də pedaqoji cəhətdən bacarıqlı, fəhmli, şagirdlərdən hər birinin psixologiyasına bələd olmalı olduğunu, hər bir şagirdə fərdi yanaşmağı, təlim-tərbiyə işlərində usta və peşəkar davranmağı bacarmalı olduğunu nəzərə çatdırır. (192, 322)

XIX-XX əsrlərin qovşağında Azərbaycanda müəllimlərin bir fədakar kimi millət yolunda çəkdiyi əziyyət, qarşılaşdıqları siyasi, ictimai, pedaqoji əngəllər də demokratik fikri məşğul

etmişdir. M.Ə.Sabir Azərbaycan müəllimlərinin II qurultayı (avqust, 1907) ərəfəsində qələmə aldığı "Uçitellər" ("Molla Nəsrəddin", 1907, №30) şeirində cəfakeş müəllimlərimizin vətənin yüksəlişi naminə min bir əziyyətə qatlaşdıqlarını, lakin həm siyasi dairələr, həm də qaragüruh tərəfindən dözülməz təzyiqlərə məruz qaldıqlarını satirik çalarda oxuculara təqdim edir. Ziyalıların qurultayı Gəncə kimi Azərbaycanın bütün regionlarına məkanca uyğun olan mərkəzi bir şəhərdə keçirmək istəyi hökumət tərəfindən məqsədli olaraq rədd edilir. O biri tərəfdən isə köhnəpərəstlər müəllimlərin işinə mane olmağa çalışırlar. Satirik şair bu iki mürtəce qüvvənin baxışını kinayəli şəkildə bu cür ifadə edir:

Bilməm bu syezdin nədir axır bizə xeyri –
Hər ildə çəkək bunca əziyyət, uçitellər?!
... Millətdən ötür ağlıyan axırda olur kor, –
Məzmunlu məsəldir bu ibarət, uçitellər!
... Derdiz ki, gərəkdir açıla məktəbi-nisvan,
Bir yanda dəxi məktəbi-sənət, uçitellər! (221, 88)

Ü.Hacıbəyov müəllimlərin vəzifələrindən danışarkən onları "milli tərbiyəçilər" adlandırır. Göstərir ki, millətimizin müəllimlərdən savayı kimi var ki, daim camaatın içində olub onlarla bilavasitə əlaqədə olsun. "Müəllimlər ictimainə dair" ("Həyat", 1906, 15 avqust) məqaləsində bu məsələdən geniş şəkildə söhbət açan müəllif onu da əlavə edir ki, müəllimin vəzifəsi "yalnız dərs verib, dəftər düzəltməkdən ibarət" deyil. Onun vəzifəsi yalnız "tərbiyeyi-ətfal"la da məşğul olmaq deyil. İndi zaman o zamandır ki, "müəllimlərimiz uşaqlara tərbiyə verən kimi, ümumi camaatımıza dəxi gərək tərbiyə versinlər. O tərbiyə ki, biz müsəlman millətində yoxdur və onun yoxluğu da bu inqilab zamanında bizlərdən ötrü artıq təhlükədir". (101, 58) Həm də bu mühüm milli vəzifənin icrası zamanı şəhər müəllimlərinə nisbətən kənd müəllimlərinin üzərinə daha böyük yük düşür. Çünki kənddə şəhərdən fərqli olaraq müəllimlərdən savayı elmli, savadlı, "qanıb-qanmazları" "qandıracaq" adamlar

yoxdur. Deməli, bu vacib missiyanı yerinə yetirmək onların borcu, "vəzifeyi-mənəviyyəsidir".

Üzeyir bəy müəllimin kütlənin tərbiyəsini dərs dediyi şagirdlərin tərbiyəsi ilə uzlaşdırmalı olduğunu nəzərə çatdırır. İndiki məktəb şagirdləri gələcəkdə xalqın öncül ziyalı bazasını təşkil edəcəyindən onu elə tərbiyələndirmək lazımdır ki, millətə xidmət edən vətəndaşlara çevrilsinlər. Müəllif bu münasibətlə yazır: "Aşkardır ki, millətimizin gələcəyini təmin edən bizim övlad və əhfadımız olacaqdır. Ona binaən indidən lazımdır ki, onların tərbiyələri o növlə icra olunsun ki, axırda ... məktəbdən çıxıb millətə xidmət etməyi özlərinə borc bilsinlər". (101, 59) Müəllimlərin üzərinə düşən vacib vəzifələrdən biri də həmvətənləri arasında birlik və ittifaq yaratmaqdır. Onların bu ruhda tərbiyəsi istibdaddan qurtuluşun, hürriyyətə nail olmağın yeganə yoludur.

Ü.Hacıbəyov alqışlayır ki, "millət-millət" deyənlərimiz içində millətin xeyiri üçün iş görənlər, sözdən əmələ keçənlər ilk dəfə müəllimlər oldular. Çağırılan I müsəlman müəllimləri ictimai (qurultayı) xalqımızın "birinci milli orqanizasiyasıdır". İndi təkcə müəllimlərin deyil, bütün millətin birləşməsi və ittifaqı vaxtın, zamanın tələbidir.

"Füyuzat" məcmuəsi "Nə kibi müəllimlərə möhtacız?" (1906, №6) məsələsini ciddi bir problem kimi mədəni-pedaqoji ictimaiyyətin müzakirəsinə təqdim edirdi. "Bu gün də məktəblərimiz, daha doğrusu, millətimiz sahibi-iqtidar müəllimlərə möhtacdır" – fikri ətrafında öz rəyini bildirən jurnalın əməkdaşı bu qənaətə gəlirdi ki, biz indi elə müəllimlərə möhtacıq ki, onlar həm elmli, bilikli, bacarıqlı, fəal, zamanın tələblərini duyub dərk edən, həm də vətən və millət yanğısı ilə yaşayan ziyalı vətəndaşlar olsunlar. (95, 92-93)

F.Köçərlinin fikrincə ruhani atalardan sonra millətin ikinci hörmətli firqəsi müəllimlərdir. Onlar milləti cəhalətdən qurtarıb, elm və maarif qapılarını onların üzünə açır. "Çox qövm və tayfalar müəllimlərin səyi, qeyrəti və himməti sayəsində xoşbəxt olublar". XIX əsrin 70-ci illərində almanlar firənglər üzərində

müəllimlərinin sayəsində qələbə çalmışlar. Müxtəlif millətlər arasında "hər zaman və məkanda vüquə gələn hər qism dava və müharibələrdə xah siyasi olsun, xah iqtisadi və xah qeyri, qalib gələn tərəf müəllimləri sayəsində nüsrət tapmışlar və qalib gəlmişlər". (129, 192) F.Köçərliyə görə müəllim məktəbin canı, içində olduğu camaatın çırağı məqamındadır. Ancaq əsl müəllim öz peşəsini sevməli, öz şagirdlərinə övlad kimi məhəbbət yetirməli, onların təlim-tərbiyəsinə can yandırmalı, əhalinin gözünü açmalı, onlara biliklər verməli, qəflət və cəhalət pərdəsini onların gözündən qaldırmalıdır. Xalqı böyük ideallar, gələcək xoşbəxtlik, hürriyyət və istiqlaliyyət uğrunda mübarizəyə sövq etməlidir. (129, 199-200) "Müsəlman müəllimlərinin hümməti" ("Şərqi-rus", 1903, 3 avqust) məqaləsində görkəmli ziyalı 1903-cü ildə yay tətilində Şuşada teatr tamaşası göstərib xeyli pul toplayan, həmin pulu kasıb şagirdlərin ehtiyaclarına sərf edən müəllimlərin bu əməllərini hümmət və millətə xidmət kimi alqışlayır. Qeyd edir ki, bununla onlar həm kütlənin tərbiyəsinin, həm də yoxsul şagirdlərin təhsilinin qayğısına qalırlar. (129, 89-90)

Milli intibah dövrümüzün əvəzedilməz maarif münəvvərlərindən biri S.M.Qənizadə idi. Əvvəlcə dediyimiz kimi, 1887-ci ildə Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutunu bitirən gənc ziyalı elə həmin il tələbə yoldaşı və həmyerlisi H.Mahmudbəyovla birlikdə Bakıda "rus-müsəlman" məktəbi təsis edir. Azərbaycanda "üsuli-cədid", maarif və məktəb hərəkatının qabaqcıllarından olan Sultan Məciddə əsl pedaqoqa layiq bütün müsbət keyfiyyətlər cəmləşmişdi. O, həm "qövlü" (danışığı, nəzəri mülahizələri), həm də "feli" (əməli işi) etibarı ilə peşəkar bir müəllim şəxsiyyətinə malik idi. Özü gözəl müəllim olan bu insan həm öz əməli, həm də nəzəri göstərişləri, izahatları ilə sosial həyatda müəllimin nüfuzunu qaldırmaq, onun mövqeyini, vəzifələrini və rolunu kütləyə başa salmaq yolunda fədakarlıqla çalışırdı. Onun "Gəlinlər həmayili" romanındakı Şeyda bəy əsl millətpərvər, vətənpərvər, elm, bilik və maarif mücəssəməsi olan müəllim obrazıdır. Əslində bu

obraz S.M.Qənizadənin prototipidir. Onun fikrincə: “Müəllimin evi məktəbxanadır, müəllimin nökəri məktəb mülazimidir. Müəllimin təvabe və ətbari cocuq şagirdlərdir, müəllimin müxəlləfatı qara-qura məktəb mizləridir, müəllimin saz və nəğməsi məktəb şagirdlərinin sədasıdır, müəllimin istirahəti dəftərlər təshihidir. Müəllimin mal və mətaı dərs və təlimdir, müəllimin kəsb və icrəti öz millətinin məhəbbət və iradətidir”. (147, 23) Şeyda bəy Allaha şükür oxuyur ki, ona məktəbdarlıq peşəsi əta edib. Çünki millət cocuqlarına elm və tərbiyə öyrətmək onun üçün səadətdir. Onun qapısına elm tələbilə gələn şagirdlərin başı üstündən “mərifət və səadət baydaqları asmaq” böyük hümmətdir, millətə və millət balalarına əsl xidmətdir. Aləmdəki bağçalar bağbansız meyvə vermədiyi kimi, müəllimsiz də dolana bilməz. S.M.Qənizadə “Axund Əlhac” (“İrşad”, 1906, 26 fevral), “Təəssüf” (“İrşad”, 1906, 21 aprel) və s. məqalələrində müəllimlərin vəzifələrindən, gördükləri şərəfli işlərdən, çəkdikləri məşəqqət və əziyyətlərdən söhbət açır.

Azərbaycanın demokratik düşüncəli ziyalılarının narahatlığına səbəb olan, onları çıxış yolu axtarmağa sövq edən məsələlərdən biri də əsl milli pedaqoji kadrların yoxluğu idi. Onlar bu məsələni ardıcıl şəkildə diqqət mərkəzində saxlayırdılar. M.Ə.Rəsulzadə “Müəllimlər gərək” (“Tərəqqi”, 1908, 23 noyabr) məqaləsində həyəcan təbili çalaraq yazırdı: “Əvət ana dilini tədris etməyə müqtədir olub və qanunca həqqi-tədrisə malik olan və pedaqoji nöqteyi-nəzərdən hazırlığı olan müəllim tapılmıyor... Nə etməlidir? Haradan müəllim almalıdır?.. İndiki məktəblərin vücudu ilə müəllim qəhətliyi varsa, ümumi təlim layihəsi tətbiq olunanda nə olacaq?!...” (211, 258) Müəllif qeyd edirdi ki, bir zamanlar camaat şagirdlərin olmamasından, yəni valideynlərin övladlarını yeni üsullu məktəbə buraxmamasından şikayət edirdi. İndi vəziyyət dəyişib. Müsəlmanlar arasında mədəniyyətə, maarifə, elmə, tədrisə meyl və rəğbət müşahidə olunmaqdadır. Ancaq indi də müəllim qıtlığından əziyyət çəkirik. M.Ə.Rəsulzadə “Kənd məktəbləri və müəllimsizlik” (“Bəsirət”, 1914, 19 aprel), “Qafqasiya ali

məktəbi" ("Bəsirət", 1914, 17 may), "Bakı darülmüəllimini münasibətilə" ("İqbal", 1915, 3 aprel), "Yenə darülmüəllimin həqqində" ("İqbal", 1915, 15 aprel), "Darülmüəlliminlərdə inoradislər" ("Açıq söz", 1916, 11 noyabr), "Yenə o məsələ" ("Açıq söz", 1916, 15 noyabr), "Bakı seminariyası" ("Açıq söz", 1916, 9 sentyabr) və s. məqalələrində müəllim çatışmazlığı, pedaqoji kadr hazırlığı, hökumət dairələrinin bu məsələyə biganəliyi, ziyalıların problemə diqqət yetirməsi, habelə necə, hansı ruhda müəllimlər yetişdirmək, onların vəzifələri və s. barədə düşüncə və təkliflərini ətraflı şəkildə şərh edir.

H.Cavid 1912-ci ildə (16, 17, 18 may) gənc, istedadlı və tanınmış müəllim Abdulla Surun vəfatı münasibətilə yazdığı "Mirzə Abdulla Məhəmmədzadə, yaxud (A.Sur) – Abdulla Tofiq" məqaləsində A.Surun həyatı, pedaqoji fəaliyyəti, xalq qarşısında xidmətləri, keçirdiyi çətin məişət həyatı və bunun müəllimlik fəaliyyəti ilə bağlılığı və s. barədə danışdıqdan sonra həm oxuculara, ictimaiyyətə, həm də müəllimlərə müraciət edir. A.Surun timsalında müəllimlərin xalq üçün nələr etdiyini, hansı məşəqqətlərə, təhqirlərə, əziyyətlərə məruz qaldıqlarını, lakin şərəfli bir ömür yaşadıqlarını nəzərə çatdıran H.Cavid kütləyə müraciətlə deyir: "Əfəndilər! Möhtərəm qarelər! Müəllimlərə hörmət ediniz, onları seviniz, onları çox böyük görünüz, əvət, onlara pərəştiş ediniz, onları özünüzə əfəndi biliniz!" (55, 225) Eyni zamanda müəllimləri millətin, vətənin mənafeyi naminə çalışmağa, mübarizə aparmağa, hər cür cəfaya, təzyiqə dözməyə çağırır: "Lakin, ey müəllimlər! Ey möhtərəm əfəndilər! Sizlər, sizlər əsla millətimizin, mühitimizin bu etinasızlığına etina etməyiniz. Daima çalışın, çabalayın! Millət, vətən uğrunda canınızdan keçmək belə icab etsə, saqınınız! Əsla cəsarətsizlik göstərməyiniz. Mühitimiz sizi təqdir etməyir, edəməyir, zərəri yox. Lakin əlinizi, qolunuzu qırmadıqlarından, sizi zindanlarda çürütmədiklərindən yana bu millətə danılmaq, küsmək deyil, təşəkkür etməliyiz, həm də minlərcə təşəkkür etməliyiz." (55, 226)

Demokratik baxışlı ziyalılarımız yeni tipli tərbiyə nəzəriyyəsi ilə bağlı müddəalarını irəli sürərkən “Köhnəmi? – Yenimi? – Hansını atmaq? Hansını tutmaq?”– problemində öz mövqelərini əsaslandırmaqdan ötrü mütləq mənada köhnə ilə yenini qarşılaşdırmalı, müqayisə etməli olurdular. Köhnənin çatışmayan, naqis, qüsurlu, yeninin isə faydalı, gərəkli cəhətlərini əsas ştrix və detallarına qədər şərh etmək məcburiyyətində qalırdılar. Əks təqdirdə əsrlərlə cəhalət, nadanlıq, avamlıq və elmsizlik qaranlığında dünyanın ən adi həqiqətlərindən xəbərsiz qalmış kütləyə nəyin yaxşı, nəyin pis olduğunu anlatmaq mümkün deyildi. Elə buna görə də Azərbaycan maarifpərvərləri köhnə tərbiyə məkanlarının – mollaxananın (köhnə məktəbin), məscidin, mədrəsənin çağdaş zamanın tələblərinə uyğun olmadığını əsaslandırdıqları kimi mollaxana və mədrəsədəki din xadimi (ruhani müəllim), minbərdəki vaiz və xətib ilə “üsuli-cədid” məktəbindəki müəllimi – tərbiyəçini də müqayisə edirdilər. Köhnə tərbiyəçinin şəxsiyyəti və öyrətdikləri fonunda kimin kim olduğunu ictimaiyyətə daha rahat, asan başa salmaq olurdu. Bu səbəbə görə XIX yüzillikdə və XX əsrin əvvəllərində yaşayıb fəaliyyət göstərmiş fikir adamlarımızın yaradıcılığında saxtakar, yalançı, fanatik, mürtəce din xadimlərinin kəskin tənqidini görürük. Tənqidin ilk nümunələrinə XIX əsrin I yarısında Q.Zakir, A.Bakıxanov, M.Ş.Vazeh və s. kimi qələm sahiblərinin irsində rast gəlirik. Əsrin ortalarına doğru M.F.Axundovun yaradıcılığında mövqe və tənqid daha da kəskinləşir, ifşaedici xarakter alır.

İstər “Kəmalüddövlə məktubları”nda, istərsə də ayrı-ayrı adamlara şəxsi məktublarında, həmçinin şəxsi fəaliyyətində Mirzə Fətəlinin köhnəpərəst din xadimlərinə kəskin mənfi münasibəti ilə üzləşirik. Görkəmli maarifçi onları bir tərbiyəçi kimi qəbul etmir. Müsəlman aləminin indiki cəhalət, rəzalət, gerilik, süstlük, ətalət və miskinliyinin səbəbini ruhanilərin tərbiyə və təbliğat sistemində görür.

“Kəmalüddövlə məktubları”nda o, bir nümunə kimi Axund Molla Sadıq, Molla Cabbar, Axund Cəfər, Axund Molla Rəhim kimi ruhani tiplərinin dilindən uzun-uzadı moizələr, vəz və nəsihətlər verir. Bu moizələri həmin ruhanilər müsəlmanların ən mötəbər tərbiyə tribunası kimi qəbul və dərk etdikləri minbərdən söyləyirlər. Əslində din xadimlərinin adları fərqlidir. Onların hamısının söylədikləri isə eynidir. Vəz olunanların qəliblərində, mahiyyətində, ştamlarda, məqsəddə və nəhayət, audito-riyada heç bir fərq yoxdur. Deyilənlər bütünlüklə xürafatla, cəfəngiyyatla, fanatizmlə, yalan və uydurma ilə doludur. Mahiyyətcə insanların beynini kütləşdirməyə, onları qorxu, fanatizm və cəhalət bataqlığına yuvarlatmağa hesablanıb.

Bütün islam regionunda tərbiyə tribunalarının hamısı üçün ümumi və tipik olan mənzərəni canlandırdıqdan sonra M.F.Axundov məsələnin elmi şəkildə inkar və rədd edilməsinə də keçir. Mühafizəkar, mürtəce ruhanilər tərəfindən bəşər övladına qoyulan qadağalarla insanın təbii meylləri, fitrəti, əqli istək və həvəsləri arasında tamamilə ziddiyyət olduğunu, bu qadağaların insanın əqli, elmi, estetik və s. cəhətdən tərbiyəsinə ziyan vurduğunu isbata yetirir. Bu münasibətlə Mirzə Fətəli yazır: “Nəğəmat çalma, haramdır; nəğəmata qulaq asma, haramdır; nəğəmat öyrənmə, haramdır; teatr, yəni tamaşaxana qayırma, haramdır; teatra getmə, haramdır; rəqs etmə, məkruhdur; rəqsə tamaşa etmə, məkruhdur; saz çalma, haramdır; saza qulaq asma, haramdır; şətrənc oynama, haramdır; nərdə oynama, haramdır (rəsm çəkmə, haramdır; evdə heykəl saxlama, haramdır). Bavücudi ki, bu şeylər zahirən əməli-səbük görünür isə də, amma xəbərdar deyilsiniz ki, etidal üzrə olduqda, zehnə cila verir və əqli cövhərləndirir; çünki insanın təbiəti fərəh və hüzn ilə məxluqdur və hər bir cənbənin qüvası var; əgər o qüvalar işlənməsələr, künd olurlar; necə ki, qolu bir il tərpətməyəsən, quruyur. Pəs vəsaiti-fərəhü sürurdan kənarəcu olmaq həvassı məəttəl edər və əqli paslandırar və əgər etidal üzrə olmasa, yəni fərəh və sürurun qüvasını işlətməkdə ifrat

olunsa, qüvalar təhlilə gedər. Siz gərək elmi-təbiətdən xəbərdar olasınız ki, bu işarənin həqiqətini fəhm edə biləsiniz.” (19, 77)

“Əkinçi” qəzeti zikr olunan məsələdə M.F.Axundovun məfkurəvi mövqeyini davam etdirirdi. Ə.Gorani qəzetin 26 may 1877-ci il tarixli nömrəsində “Məktubat” ünvanlı məqaləsində həm mollanı (köhnə məktəb müəllimini), həm də cahil müsəlman valideynlərini uşaqların qənimi adlandırırdı. Fikrini onunla əsaslandırırdı ki, molla uşaqlara heç nə öyrətmir, bununla belə onu min bir cəzaya, işgəncəyə, töhmətə məruz qoyur. Valideyn isə uşağını haraya, kimin yanına, nə üçün qoyduğunun fərqinə varmır. Mollaxananın uşağa nə verəcəyini düşünmür. “Əti sənin, sümüyü mənim” prinsipi ilə övladını kor-koranə bir neçə il köhnə məktəb müəlliminin ixtiyarına buraxır. Halbuki molla uşağın həm təliminə, həm də tərbiyəsinə xeyirdən çox ziyan vurur. Məsələyə – “təlim və tərbiyə asan deyil, bu özü bir elmdir ki, Avropa əhli ona elmi-pərvəriş deyir”– prinsipi ilə yanaşan Ə.Gorani onu da iqrar edir ki, köhnə müəllimlərin böyüməkdə olan nəslə hansısa faydalı bir şey öyrətməsi mümkün də deyil. Müəllif problemin mahiyyətini ayıq bir pedaqoq düşüncəsi ilə bu cür dürüst bir prizmadan şərh edir: “Hər kəs xəyal edirsə ki, bizim indiki müəllimlər birdən-birə başlayıb təzə qayda ilə təlim edəcək, nahaq fikrə düşüblər. Onlar nə qədər qabiliyyətli olalar və nə qədər xahiş də edələr, bunu edə bilməzlər. Ona binaən ki, onların bu təzə qaydadan əsla xəbərləri yoxdur. Pəs bir camaat xahiş etsə ki, uşaqlar təzə qayda ilə təlim olunsun, ol vaxtda gərək bizim gimnaziyada ya uyezdni uşkolada oxumuş kəslərdən müəllim eləsin, yəqin ki, bizim indiki müəllimlər 4 ilə öyrətdiyini bunlar bir ilə öyrədəcək. Ona binaən ki, bunlar az-çox elmdən xəbərdar olub, onu təlim etməyin qaydasını həm az-çox bilirlər.

Təlim etmək asan deyil, bu özü bir elmdir ki, Avropa əhli ona elmi-pərvəriş deyir.” (88, 378)

Göründüyü kimi, Ə.Gorani – təlim-tərbiyə üçün yeni tipli məktəb və yeni ruhlu müəllimlər gərəkdir – ideyasını qəti olaraq müdafiə edir.

N.Vəzirov da “Əkinçi”də (1876, 6 noyabr) işıq üzü görən yazısında mollaxananın tərbiyə üsuluna, xüsusilə oradakı fiziki cəza, qorxu ilə təlim rejiminə, həmçinin orada təlim olunan köhnə məzmunlu, şagirdlərin səviyyə və maraqlarına uyğun olmayan kitablara qarşı çıxır. Müəllim-şagird münasibətlərində “bizim müəllim uşaq üçün cəlladdır”– hökmünün əsas götürüldüyünü təəssüflə xatırladan Nəcəf bəy uşaqlara təlim-tərbiyə prosesində bir qul kimi yox, bir şəxsiyyət kimi yanaşmağı tövsiyə edir: “Ey uşağı olan və onlara təlim edən, rəhm edin ol biçarələrə ki, onlar sizin düşməniniz deyillər, onlar ilə adam kimi rəftar edin ki, adam olsunlar.” (88, 265) Göründüyü kimi “Əkinçi” qəzeti şagird – uşaq şəxsiyyətdir və onunla şəxsiyyət kimi davranmaq lazımdır – ideyasını təlim və tərbiyə sisteminin vacib komponentlərindən biri kimi ortalığa qoyur. Onu da nəzərə çatdırır ki, nə köhnə məktəb, nə də onun tərbiyəçisi – müəllimi bu işin öhdəsindən gələ bilməz. Məktəb də, müəllim də yeniləşməlidir.

M.Şahtaxtlı “Müsəlmanlarda məktəb həyatı” sərlövhəli silsilə məqaləsinin əvvəlinci bölməsində (“Kavkaz”, 1882, 7 aprel) köhnə məktəblərdə mollanın şəxsiyyətini, dərs üsulunu, şagirdlərlə davranışını, təlim etdiyi kitabları, təlim-tərbiyəyə yanaşma prinsipini geniş çəkildə təsvir, həm də tənqid edir.

C.Məmmədquluzadə müdərrisliklə məşğul olan mollaları rişxəndlə “Sarıqlı müəllimlər” adlandırır. Göstərir ki, onlar məktəbdarlıqdan əlavə yüz işlə məşğul olurlar. Həm molla, həm vaiz, həm mərsiyəxandırlar. Onların tədrisə münasibətləri də məsuliyyətsiz, nizamsız və əndazəsizdir. Nə vaxt istəsələr, dərsə gedərlər, istəməyəndə yox. “Orucluqda, məhərrəmlikdə heç dərs deməzlər... Özgə vaxtlarda da ölü yerinə getsələr, kəbin kəsməyə və təlaq verməyə getsələr, qonaqlığa, təziyəyə, mərsiyəyə, müsəllaya, qəbr üstə, camaat namazına, əshabi-kəhf ziyarətinə və qeyri min-min bu cür işlərə məşğul olanda, söz yox, dərsə gedə bilməzlər.” (165, 248) C.Məmmədquluzadə “Sarıqlı müəllimlər”in yalnız səhlənkarlığını, intizamsızlığını deyil, keçdikləri dərsin, verdikləri tərbiyənin məzmununu da

tənqid edir. Təəssüf edir ki, bu bəla cəmi Qafqaz müsəlmanlarını bürüyüb.

Ü.Hacıbəyov "Təhsil" ("Tərəqqi", 1909, 10 sentyabr) felyetonunda belə bir epizod verir: şagird molladan dəryanın dibinin təsviri barədə soruşur. Molla – müəllim isə onun sualına son dərəcə gülməli, məzmunsuz cavab verir. Bildirir ki, İskəndəri-Zülqərneyn yer üzünü alandan sonra istədi ki, dəryaların dibini də zəbt etsin. Bu məqsədlə dəryanın dibinə baş vurub uzun zaman yol getdi. Təsadüfən bir adama rast gəlib onun nə axtardığını soruşdu. Həmin adam cavab verdi ki, yetmiş il bundan əvvəl baltam əlimdən bu dəryaya düşüb, 70 ildir onu axtarıram.

Felyetonda Üzeyir bəy köhnə məktəb müəlliminin gənc nəslə necə bilik, elm öyrətdiyini yumoristik şəkildə lağa qoyur. Demək istəyir ki, köhnə məktəb müəlliminin öyrətdiyi bu cür cəfəngiyatlardan ibarətdir. Hansı ki, uşaqlara heç bir səmərəsi yoxdur.

A.Səhhət "Alimnümalar" ("Zənbur", 1910, №18) şeirində tərbiyəçi mollanın obrazını bütün çılpaqlığı ilə təsvir edir: Surəti insan, "qafada heyvan" olan bu şəxs böyük iddialarla yaşayır. Çiyni əbalı, başı əmmaməli bu başabəla müdərris ancaq yeyib qarnını yoğunlatmaqla məşğuldur. Neçə il qürbətdə vaxt keçirib, guya ki, yüksək şəriət təhsili alıb. Təəssüf ki, xalqı aldatmaqda mahirdir. Xalq da onun hiyləsindən xəbərsiz halda ona təzim və itaət edir. Onun "fəndindən" baş çıxaranları, millət ehtiyacından danışanları kafir elan edir. Neçə-neçə "əhməqi" də cəm edib xalqı "bərşikəst" etməklə məşğuldur.

A.Səhhət acı bir təəssüflə fəryad edib bu cür müəllimlərin – "alimnümalar"ın xalqı qaranlığa, zülmətə apardığını bəyan edir. Onlardan qurtulmağın zamanı çatdığını söyləyir:

Vay bizim tirəbəxt halımıza,
Vay fəlakətli bəd məalımıza!
Belə millət itib puç olmazmı?!
Qanlara qərq olub boğulmazmı?! (231, 52)

Bütün islam aləmində, o cümlədən Azərbaycanda mollanüma müdərrislərin sayı-hesabı bilinmədiyi, bolluğu ilə ikrah və üfunət doğurduğu bir tarixi şəraitdə dünyəvi təhsilli və dünyagörüşlü müəllimlərin qıtlığı da demokratik ictimaiyyəti narahat edirdi. Onlar istər pedaqoji, istərsə də ölkə həyatının digər sahələrində peşəkar mütəxəssislərin olmadığını dərk edir, bu cür ixtisaslı kadrların yetişməsi üçün yollar, çarələr axtarırdılar. M.Ə.Rəsulzadə bunu həyat meydanındakı mübarizədə diri qalmaq, yaşamaq və istiqlaliyyətini, hürriyyətini və səadətini təmin etmək arzusunda olan millətlər üçün ölüm-dirim məsələsi hesab edirdi. Tərbiyəçi ideoloq bu münasibətlə "Bəsirət" qəzetində (1914, 3 may) yazırdı: "Baxınız mübarizeyi-həyatda diri olan millətlərə nə kimi bir saheyi-fəaliyyət olsa, oraya namizəd olaraq bir qism adamları vardır. Fəqət biz bu xüsuslarda həmişə məəttəl və aciziz. Bizdə alimlər yox deyildir. Alimlərimiz az da olsa, var. Fəqət mütəxəssislərimiz heç yoxdur! Ülum və fünuna bilxassə ülum və fünunda ixtisasa əhəmiyyət verəlim və işlərimizi mütəxəssislərə tapşıralım!..." (212, 342)

Azərbaycanın fikir münəvvərləri aydın dərk edirdilər ki, xalqın xoşbəxtliyi yaxşı tərbiyəyə, yaxşı tərbiyənin bərqərar olması isə yaxşı, kamil müəllimə bağlıdır. Deməli, nəticə etibarı ilə gözəl müəllim xalqın xoşbəxtliyinin qarantı, əsas dirijorudur. Henrix Pestalotsinin pedaqoji görüşlərini analizdən keçirən N.Nərimanov onun fikirləri sırasında belə bir mətləbini də xüsusi olaraq qabardır: "Bir adamın, yainki bütün vətənin xoşbəxtliyi onun cavanlarının yaxşı tərbiyəsinə bağlıdır. Yaxşı tərbiyə isə bundan ibarətdir: insanın ağlını gözəl, pak şeylər əxz etməyə öyrədəsən və ürəyini ağıl, vicdan və dinin sevmədiyi şeylərdən çəkindirəsən." (192, 323)

Maraqlı və diqqətəlayiq cəhətdir ki, söhbət açdığımız dövrün mütərəqqi ictimai-mədəni, pedaqoji fikrində müəllim bir şəxsiyyət kimi hərtərəfli mənada xarakterizə olunur. Köhnə müəllim – molla, din xadimi tamamilə inkar və rədd edildiyi kimi, dünyəvi müəllimlər də uğurları və nöqsanları ilə

cəmiyyətə təqdim edilir. Beləliklə, müəllim bir tərbiyəçi kimi bütləşdirilmir, cəmiyyətin real maarif xadimi, ideya-mənəvi müdərrisi, elm və təhsil meydanındakı hamisi və ilhamçısı kimi tanıdılır. Onun şəxsiyyəti, ictimai-milli həyatdakı rolu və mövqeyi barədə bütöv təsəvvür formalaşdırılır. Eyni zamanda həm müəllimin cəmiyyətə və cəmiyyətdəkilərə, həm də cəmiyyətdəkilərin müəllimə, onun şəxsiyyətinə münasibəti aydınlaşdırılır. Məsələn, N.Nərimanovun “Nadanlıq” (1894), N.Vəzirovun “Müsibəti-Fəxrəddin” (1896) faciələrində gözəl, təşəbbüskar, öz peşəsini yaxşı bilən dünyəvi müəllimlərə sosial mühitdəki müxtəlif qrupların fərdi münasibətləri, onların bir tərbiyəçi olaraq cəmiyyətdəki faciələri əks olunur. M.Ə.Sabir “Vay, vay! Nə yaman müşkülə düşdü işim, Allah!” (“Molla Nəsrəddin”, 1907, №17), “Vah!... Bu imiş dərsi-üsuli-cədid” (“Molla Nəsrəddin”, 1909, №20) və s. şeirlərində ictimai “aşağıların”, qaragüruhçu kütlənin dünyəvi müəllimə mənfi münasibətini, ona qarşı etiraz və narazılığını ifadə edir. Cəhalətdən doğan həmin etiraz və barışmazlığın ümumiləşmiş notunu şair bu tərzdə ifadə edir:

Mən anlamıram kim, nola mənayi-müəllim?
Qırx-əlli manat pul ala hər ay müəllim?
Bir tazə üsulə ola ifayi-müəllim?
Pulları ala, söyləyə, “oxqay”, – müəllim?
Molla ona həsrətlə çəkə küçədə ah!... ah!...
Lahövlə vəla qüvvətə illa və billah! (221, 70)

Bir tərbiyəçi kimi müəllim ordusunun gücü o qədər aparıcıdır ki, o, cəmiyyətin sükanını istənilən səmtə döndərə bilər. Ö.F.Nemanzadə bu məsələ üzərində xüsusi olaraq dayanır. “Müəllimlərimiz nə üçün Bakıya qaçırlar” (“İrşad”, 1906, 13 aprel) məqaləsində qeyd edir ki, müəllim məsələsi ancaq bizim yox, hər bir millətin ölüm-dirim məsələsidir. Bir ovuc ingilisin dünyanın yarısına sahib olmaları “bir neçə piyan əsgərlə” deyil, ingilislərin malik olduqları müdir, alim və fədakar müəllimlərlədir. Müəllimlərin yetişdirdikləri siyasətçilərlədir. Rus-yapon müharibəsində rus generallarını məğlub edənlər

Yapon müəllimləridir. Rus-yapon müharibəsindən bir neçə il əvvəl rus səfiri qonaqlara, o cümlədən Yaponiyadakı ibtidai məktəblərdən birinin qonaqlıqda iştirak edən şagirdlərinə çay verdirir. Elə ki, şagirdlər çayın rus səfiri tərəfindən verildiyini bilirlər, çayı içməkdən imtina edir, "biz bizə düşmən olanların çayını içmərik"– deyirlər. Əlbəttə, şagirdləri bu ruhda onların müəllimləri tərbiyə etmişdilər. Deməli, müəllim böyüməkdə olan nəslin kompası, yol göstəricisidir. "Millətin tərəqqi dərəcəsi müəllimlərinin dərəcəsi ilə bilinər." (189, 106-107)

O zamankı Azərbaycan müəllimlərinin kriteriyalarına gəlincə onlar təhsil məkanına, tipinə, dərəcəsinə və ideya-məfkurəvi platformalarına görə, əsasən, üç qrupa, daha dəqiqi, üç kateqoriyaya ayrılırdılar:

1. İranda və yaxud başqa islam ölkələrində təhsil alıb gələnlər. Bunlar, əsasən, din xadimləri, mollaxana və mədrəsə müəllimləri idilər;

2. Rusiya ərazisindəki seminariya və ya ali məktəbləri bitirənlər. Bunlar daha çox dünyəvi təmayüllü təhsil ocaqlarında çalışırdılar;

3. Yerli məktəbləri bitirib sonra müəllim işləyən həvəskar gənclər. Bunlar, əsasən, yerlərdə yeni üsullu məktəbi bitirib daha sonra öz üzərlərində çalışıb imtahan verərək ibtidai məktəblərdə müəllim kimi fəaliyyət göstərən cavanlar idilər.

H.Cavid 1912-ci ildə qələmə aldığı "Həsbi-hal" sərlövhəli silsilə məqalələrinin dördüncü bölümündə həmin kriteriyalara məxsus müəllimlərin həm təsnifatını, həm də xarakterini ümumiləşdirir. Qeyd edir ki, "birinci qismi təşkil edənlər müəllimdən başqa hər şeydirlər". Onlar buqələmun kimi hər rəngə girməyi bacarırlar. Gah müəllim, gah molla, gah seyid, gah təbib, gah mərsiyəxan olarlar. Hər bir fırıldağı, yalanı, hoqqabazlığı hamıdan yaxşı bacararlar.

İkinci qism rusca oxuyub yaxşı təhsil alanlardır ki, həqiqi "bir nəzərlə baxılsa, sair müəllimlərə nisbətən çox eyidirlər, çox faydalıdırlar". Bəzən "hissiyyati-milliyyəyə azacıq biganə" olsalar da, çürük təhlükəli mövhumatdan uzaqdırlar. Bəzi

qüsurları olduğuna baxmayaraq "fəzilətləri" də böyükdür. Faydalı elmlər, o cümlədən pedaqogika keçdiklərindən həm müxtəlif dünyəvi elmlərə, həm də "fənni-tərbiyəyə" aşinadırlar. Seminariya və ali məktəblərdə oxuduqlarından bilikləri nizamlı və sistemlidir. Təəssüf ki, "bəziləri müstəsna olmaq şərtilə, bir çoxları azacıq sapırlar ki, o sapqınlıq da bir para yanlışlıqlar, uyğunsuzluqlar doğurmuş olur." (55, 209-210)

Üçüncü qism, yəni yeni üsulda yerli məktəblərdə təhsil alıb ibtidai məktəb müəllimi olan həvəskar gənclər də təqdirəlayiqdirlər. Onlar gənc olduqlarından və yeniliyə meyl etdiklərindən həvəs və enerji ilə çalışırlar. Onlar ikinci qism qədər elmə, "fənni-tərbiyəyə" yiyələnməsələr də, bəziləri qismən səhlənkarlıq etsələr də, ancaq ümumilikdə sayları az olsa da, "xidmətləri çoxdur". "Maarifpərvər zatların" borcudur ki, onlarla məhəbbət və şirin dillə rəftar edib irəliləməyə təşviq etsinlər. Həqiqi milli qayə və məqsədin nə olduğunu onlara anlatsınlar. (55, 212)

Demokratik düşüncəli ziyalılarımız dünyəvi ruhlu müəllimlərin müsbət cəhətlərini qabartmaqla yanaşı təlim-tərbiyə işlərindəki qüsurlarını da nəzərə çatdırır, bu qüsurları islah etmək məqsədi izləyirdilər. C.Məmmədquluzadə "Danabaş kəndinin məktəbi" pyesində uçitel Həsənovun timsalında seminariya qurtarıb ucqar bir kənddə müəllim işləyən, lakin pedaqoji sahədə səriştəsiz, bacarıqsız olan, şagirdlərlə davranışında, təlim üsulunda, tərbiyə metodlarında, bir müəllim kimi danışı q və hərəkətlərində ciddi səhvlərə yol verən pedaqoqun obrazını yaradır. Kənddə işləyib "millətpərəstlik vəzifəsi"nin icrasından dəm vuran uçitel Həsənov bir təlim kitabı kimi "Gülüstan"ı və bu qəbil ənənəvi şərq kitablarını bəyənmir, "zvukavoy metodla" "üsuli-sövti ilə" A.O.Çernyayevskinin "Vətən dili"ni şagirdlərə öyrədəcəyini söyləyir. Amma onun metodu da, üsulu da, dərsə və şagirdlərə yanaşma tərzi də gülüş doğurur, tamamilə yanlış və nöqsanlıdır. Bu cür obrazları yaratmaqla Mirzə Cəlil Azərbaycan müəllimlərini islah etməyə çalışır, onları nöqsanlarını

düzəltməyə səsləyir. Sənətkar "Qeyrət" ("Molla Nəsrəddin", 1917, №2) felyetonunda da bəzi tənbəl, səhlənkar, öz işinə laqeyd, pedaqoji cəhətdən naşı, milli hisslərdən məhrum müəllimləri məsxərəyə qoyur.

F.Köçərli də bəzi dünyəvi ruhlu müəllimlərin bir tərbiyəçi kimi öz vəzifəsini layiqincə yerinə yetirmədiyini, öz üzərlərində çalışıb bilik və səylərini, bacarıqlarını, elmlərini artırmadıqlarını, kəsalətə yuvarlandıqlarını tənqid edir. Bu mənada kənd müəllimlərinə daha çox irad tutur. "Müəllimlərimiz və onların halı" ("Tərəqqi", 1909, 5, 15,19 fevral) məqaləsində müəllif bu məsələyə ayrıca toxunur. Mövcud məktəb və maarif hərəkatında bir canlanma, müəllimlər arasında bir hərəkət, xalqa, vətənə xidmət sevgisi oyandığını sevinc, iftixar hissi ilə nəzərə çatdıran Köçərli təəssüf edir ki, bəzi müəllimlərdə, xüsusilə kənd yerlərində işləyən pedaqoqlarda bu hərəkət və canfəşanlıq müşahidə olunmur. Belə müəllimləri nəzərdə tutan Firidun bəy yazır: "Bunlardan əksəri iki-üç sənə az-çox həvəslə təlim və tərbiyə işlərinə məşğul olub, sonralardan yavaş-yavaş öz peşələrinə soyuyurlar, təlim və təəllümə rəğbətləri kəsilir, mütaliəyə həvəsləri olmayır, ruhlarının, əql və əxlaqlarının tərbiyəsinə bilmərrə məşğul olmayıb, bilaixtiyar özlərinin xəbəri olmaya-olmaya geri gedirlər və avam hala düşürlər.

Belə müəllimlərdən neçələrini tanıyıram ki, bir dəfə də əlinə qəzet alıb oxumur, övzai-zəmanədən filcümlə xəbərdar olmağa şövq və həvəs göstərmir, şkolanın adına göndərilən kitablar başı aşağı qalıb kəsilmir və ruznamələr qurşaqdan çıxmır" . (129, 198)

Göründüyü kimi, müəllif bəzi müəllimləri öz üzərində çalışmamaqda, mütaliəsizlikdə, passivlikdə, ətalətdə, ictimai-pedaqoji mühitin, müasir tərbiyənin tələblərini anlamamaqda günahlandırır.

Tərbiyəçi şəxsiyyətlərin fədakarlığı müqabilində onların həm fərdi, həm də ictimai və maddi mənada çətinlikləri, ehtiyacları, sosial mühitlə, qaragüruhla üzləşmədəki əzabları da

öncül maarif fədailərimizin diqqət mərkəzində idi. Müəllimlərin ilk çətinlikləri onların yaşadığı ictimai mühit, fəaliyyət üçün hər hansı addımı atmaq istədikdə üzləşdikləri cahil, mürtəce kütlə idi. Haşım bəy Vəzirovun sözləri ilə desək: "Məhəl müsəlmanları şirin yuxuya yatıb hərdəmbir yuxulu gözilə ətrafa baxırdı, amma görmürdü. Qulaq asırdı, amma eşitmirdi. Çünki görmək, eşitmək alətindən məhrum idi." (263, 4) "Görmək, eşitmək aləti"– dedikdə müəllif məktəb, elm və maarifi nəzərdə tuturdu. S.M.Qənizadə və H.Mahmudbəyovun 1887-ci ildə ilk "rus-müsəlman" məktəbi təsis etməsinin 25 illiyi (1914-cü ildə) münasibətilə yazılmış kitabçada Haşım bəy izah edirdi ki, elə bu "görmək və eşitmək alətləri" – olmadığından bu iki vətənpərvər müəllim xalqın övladlarına tərbiyə vermək məqsədilə yeni tipli məktəb açanda onların üstünə hər tərəfdən "təkfir çomaqları yağmağa başladı". "Vətənin iki halal oğlu və qəyyur cavanları" qaragüruhçu kütlə tərəfindən kafir elan edildi. (263, 7)

Sosial mühitin müəllimin şəxsiyyətinə hörmət qoymadığı, ona qaba, kobud münasibəti F.Köçərlini də narahat edir, mühitin hər tərəfdən onu sıxdığını ürək ağrısı ilə qeyd edirdi. O, göstərirdi ki, kəndlərdə müəllimlik etmək yüngül və asan iş deyil. Bir tərəfdən divan işçiləri tutduqları "xilafi-zakon işlərin bərəkətindən", digər tərəfdən mənfəət güdən mollaların şəriətə xilaf söylədikləri vəzlərin təsirindən, nəhayət, "millətin ayılmağından xof və əndişə edən mülkədar-bəylərin və ağaların mərhəmətindən" müəllimə hər tərəfdən təzyiq olunur. Bu zərbəyə rəsmi dairələrin müsəlman müəllimlərinə laqeyd, biganə münasibətləri də əlavə olunur. (129, 199)

Ü.Hacıbəyov da "Təzə müəllimlərə xəbərdarlıq" ("İrşad", 1908, 13 iyun) məqaləsində F.Köçərlinin fikirlərinə şərik çıxır, müasir tərbiyəçinin cəmiyyətin aşağıdan yuxarıya bütün qrup və zümrələri, o cümlədən din xadimləri və siyasi dairələr tərəfindən sıxışdırıldığını, onun maddi və mənəvi böhran içərisində yaşadığını, bunun millətin faciəvi durumuna təsir etdiyini nəzərə çatdırırdı.

Ö.F.Nemanzadənin mövqeyi də həmkarlarınınkı ilə üst-üstə düşürdü. O, bu barədə mülahizələrini "Ümidvaram" ("İrşad", 1906, 1 may) məqaləsində ətraflı şərh edir, müsəlman müəllimlərinin ətrafında yaranan siyasi həlqələrə xüsusi diqqət yetirirdi: "İndi insafla mülahizə edək: bir yerdə ki, müsəlman dərslərinin ədədi, müsəlman müəllimlərinin xidmət və tərpənişləri, məktəblərin üsuli-təlimi zorlu "qanunlar", qərardadlar ilə mühasirəyə alınıbdır, onu bir-iki müəllimin poza bilməyi mümkünmü?" (189, 112) Müəllif suala özü də cavab verirdi. Bildirirdi ki, bu mümkün deyil və müəllim siyasi elita ilə üzləşib, vuruşub, tələb edib buna görə işdən qovulsa, həmvətənlərindən tək-tək ziyalılardan başqa heç kəs onu müdafiə etməyəcəkdir.

Mütərəqqi fikir adamları kütləyə müəllimə qarşı hörmət, ehtiram, məhəbbət hissi aşılamağı da unutmurdular. S.Ə.Şirvaninin aşağıdakı sözləri sonrakı dövr ictimai-pedaqoji, mədəni düşüncə və təbliğat sistemində aparıcı xətlərdən birini təşkil edirdi:

Üləma həqqini rəayət qıl,
Əhli-elmə həmişə hörmət qıl!
Demə bu kafər, ol müsəlmandır,
Hər kimin elmi var – o insandır.
... Sənə hər kimsə elm edər təlim,
Ona vacibdir eyləmək təzim.
Harda görsən, ona səlam eylə,
Baş əyib qul tək ehtiram eylə. (248, 44)

Əlbəttə, tərbiyə nəzəriyyəsini yaradanlar, onun intişarına stimul verənlər bu nəzəriyyənin tətbiq obyektinin xalq, geniş kütlə olduğunu anladıqları kimi, onun subyektlərinin, yəni xalq tərbiyəçilərinin – bu nəzəriyyənin rəvac tapmasına və onun əməli icrasına xidmət edənlərin əhatə dairəsinin yalnız müəllimlərlə məhdudlaşmadığını da aydın dərk edirdilər. Başqa sözlə, tərbiyəçilər cərgəsində konkret müdərris müəllimdən əlavə digər aparıcı simaları, ictimai qrupları, fikir adamlarını da görürdülər. Həm də bunları tərbiyə işinə həssas, fəal, şüurlu,

vətəndaş yanğısı ilə qoşulmağa, istər "qövlü", istərsə də "feli" ilə vətəndaşların tərbiyəsinə yardım göstərməyə çağırırdılar. Ümumxalq tərbiyəçiləri cərgəsinə kimlər daxil edilirdilər? Şairlər, yazıçılar, naşirlər, mühərrirlər, yəni qələm sahibləri, həmçinin teatr xadimləri (aktyorlar), siyasətçilər, xeyriyyəçilər və s.

Bir məsələyə də diqqəti cəlb etmək lazım gəlir. Milli intibah dövrümüzün demokratik ziyalı elitası, aparıcı tərbiyə nəzəriyyəçiləri M.F.Axundov və H.Zərdabidən başlayaraq "Xalqa təmənnasız xidmət!"– ideya və prinsipi ilə hərəkət etmiş, öz fəaliyyətlərində ardıcıl olaraq bu prinsipi yerinə yetirmişlər. H.Zərdabi M.F.Axundova 7 iyun 1873-cü il tarixli məktubunda deyilən mətləbin çətinlik, miqyas və konturlarını belə müəyyənləşdirirdi: "Xalqın maariflənməsi bir məqalə, ya pyeslə düzələsi deyil? Xeyir, burada görüləsi iş çox-çoxdur! Bu yolda külüng vura biləcək onlarla adamın həyatı və əməyi də bu iş üçün azdır. Bəlkə, sizi belə bir şey düşündürür ki, nə üçün başqa birisi deyil, məhz siz, özü də müftə bir quru "çox sağ ol" eşitməyə belə ümidimiz olmadan, bu barədə zəhmət çəkəsiniz. Onda mən məcburam deyəm ki, xalqa, sənə doğma olan xalqa məhəbbətdən, avamların maariflənməsindən söhbət gedən yerdə bu sual ortaya gəlməməlidir; xalqın, həm də geridə qalmış xalqın, avam xalqın, sənin və mənim qardaşımın maariflənməsi işinə özünü həsr edən bir adamı belə bir fikir yoldan qoymamalıdır. O, mükafatını öz-özünə, işini görə-görə vicdanı qarşısında duyacaqdır". (20, 314)

H.Zərdabinin bu tövsiyə və izahatı bizim qabaqcıl milli tərbiyəçilər üçün bir göstəriş, vicdani hərəkət norması, milli və insani kompas təşkil etmişdir. Xalqın gələcək səadəti, hürriyyəti, istiqlalı, yüksəlişi bir ideya kimi onların ilham, mükafat qaynağı olmuş, onlar "xalqa təmənnasız xidmət – əvəzində xalqın xoşbəxtliyi" məramı ilə ümummilli tərbiyə işinə girişmişlər.

M.F.Axundov və "Əkinçi" bu yolda ilk mayaklar və çağırışçılar idilər. "Əkinçi" qəzetinin əməkdaşlarından Məhbus Dərbəndi "ixvani-xeyirxahi-millətlərdən" ("xeyirxah millət

qardaşlarından”) xahiş edirdi ki, onlar “hər növ ilə xəlaiqin tərbiyyə olmağına bais olsunlar”. (88, 331) Məhəmmədəli İsna əşəriyi-Səlyanı imzalı müəllif isə təəssüf edirdi ki, Həsən bəy bir tərbiyəçi kimi “milləti-islamın” “ziyadə rövnəq tapması” yolunda təkdir, onun səsinə səs verən yoxdur. (88, 331)

M.Şahtaxtlı “Şərqi-rus” (1904, 19 iyun) qəzeti vasitəsi ilə mütərəqqi ziyalı dəstəsinə müraciət edərək bildirirdi ki, biz xalqın tərbiyəsini “axirət kargüzarları olan üləmadan” alıb “dünya işlərini bilən” alimlərimizə tapşırmalıyıq. “Bu qism alimlərin heyətinə yevropalılar “intelligensiya” deyirlər”. (237, 121) Müəllifin fikrincə “intelligensiya” xalqın milli məqsədini dürüst anlayıb ona çarə axtaran, onun həyata keçməsi yolunda “əshab və vasitələr” hazırlayan zümrədir. (237, 122) Məhəmmədağa onu da nəzərə çatdırır ki, qövmün tərbiyəsi, onu “baqi”, dirilikdə saxlamaq bir-iki adamın işi yox, ümumilikdə “millətin maarifməndlərinin”, “səramədlərinin” işidir. (237, 150)

S.Ə.Şirvani “Rəbiül-ətfal” (1878), “Tacül-kütüb” (1883) dərsliklərindəki şeirlərində bir şair – nəsihətçi kimi çıxış edir. Bu dərsliklərdə “Oğluma nəsihət” sərlövhəsi ilə çoxlu sayda tərbiyəvi şeirlər verilmişdir ki, bu əsərlər uşaqların mənəvi-əxlaqi, əqli cəhətdən tərbiyəsinə müsbət təsir göstərir.

C.Məmmədquluzadə vətəndaşların tərbiyəsində nəzəri işdən praktikaya, “qövldən felə” (S.M.Qənizadə) keçməyi təklif edir. Göstərir ki, bəzi tərbiyəçilərimiz, o cümlədən yazıçılarımız, yəni qələm sahiblərimiz mücərrəd nəzəri mülahizələr söyləməklə öz tərbiyəçi missiyasını bitmiş hesab edirlər. Halbuki yüz dəfə deyilən fikirləri təkrar etməkdənsə, konkret əməli işə keçmək gərəkdir. Belə qələm sahibi tərbiyəçiləri sənətkar xəstənin dərdini deyib dərmanını nişan verməyən həkimə bənzədir: “Bizim bəzi boşboğaz yazıçılarımız da oxşayırlar həmin təbiblərə ki, azarlının nəbzinə baxandan sonra, “xudahafiz” deyib börklərini axtarırlar... “Nicat, nicat” deməklə nicat yolu öz-özünə tapılmaz!” (165, 209)

Ü.Hacıbəyov "İrşad" (1907, 1 mart) səhifələrində tarixin son çağlarında mənsub olduğu xalqı ayağa qaldırıb dalınca apara biləcək rəhbər tərbiyəçilərin olmamasına təəssüf edir. Onu da əlavə edir ki, əgər bu cür dahi tərbiyəçilərimiz, rəhbərlərimiz olsaydı, "onda biz indiki kimi yazıq olmazdıq. Başsız, rəhbərsiz, gələcəyi şək və şübhə ilə qalmazdıq... Lakin olmuşuq və qalmışıq!" (101, 69) Böyük mütəfəkkir "Rəhbərlərimiz" ("Həqiqət", 1910, 18 yanvar), "Öz halımızdan" ("Həqiqət", 1910, 14, 16, 18 aprel) və s. məqalələrində həmin fikrini daha da genişləndirir. Milləti "tərəqqi və təməddünə" çatdıracaq, təkamül yolunu göstərməyə qabil ruhda tərbiyə edəcək qüvvənin müfid ziyalılar, ağıllı, elmli, istedadlı rəhbərlər ola biləcəyini israr edir. Qeyd edir ki, "ləziz meyvələr insanın bədəninə, müəttər güllər də insanın ruhuna ləzzət verən kimi, elm və fünun sahibləri əhalinin ağlını, sənayeyi-nəfisə sahibləri də camaatın ruhunu tərbiyə edirlər." (101, 157)

M.Hadinin "Nasıl yüksəlməli?", "Cəhalət zənciri və kor gözlü rəhbər" və s. şeirlərindəki mətləbləri də Ü.Hacıbəyovun fikirləri ilə səsləşir. Şair xatırladır ki, "kor gözlü rəhbərlər" bir tərbiyəçi, xilaskar kimi naşı, bacarıqsız küt olduqlarından bizi cəhalət zənciri, mövhumat məhbəsinə ("məhbəsi-övham"ə) məhkum etmişlər. (102, 288-290)

M.Ə.Sabir "Məktəb şagirdlərinə töhfə" ("Səda", 1910, 14 fevral) şeirində bir şair – tərbiyəçi kimi çıxış edir, uşaqlara faydalı öyüd-nəsihətlər verir. "Nə yazım?" ("Molla Nəsrəddin", 1908, №41), "Təraneyi-şairanə" ("Tazə həyat", 1907, 6 iyun) şeirlərində şair – tərbiyəçi obrazı yaradır. "Pula sitayiş edən şair"ləri tənqid atəşinə tutur. Göstərir ki, vətənpərvər, həqiqətpərəst şairin vəzifəsi həyatda gördükləri "pisi pis, əyrini əyri, düzü həmvar" yazmaq, ictimai mühitdəki həqiqətləri öz əsərlərində əks etdirməklə vətəndaşların gözünü açmaq, doğrunu anlatmaqdır. Ancaq bu yolla şair öz xalqına, vətəninə xeyir verən tərbiyəçiyə çevrilə bilər.

## 1.3. Ailə və sosial mühitin tərbiyədə rolu haqqında

Klassik pedaqoji fikir sübut etmişdir ki, sonradan məktəbdə və sosial mühitdə qazanılan, davam edib böyüyən tərbiyənin bünövrəsi ailədə qoyulur. Buna görə də ev uşağın – böyüyüb gələcəkdə cəmiyyətin əsas mahiyyətini təşkil edəcək insanların ilk tərbiyə ocağıdır. Tərbiyənin ilkin mərhələsi elə qurulmalıdır ki, övlad böyüdükdə layiqli fərdə, cəmiyyət üzvünə və vətəndaşa çevrilsin. Görkəmli pedaqoq İ.N.Pesta-lotsi (1746-1827) tərbiyə sistemində ailə tərbiyəsini önə çəkərək nəzərə çatdırırdı ki: "Evdə təbiətəuyğun tərbiyə alan uşaqlar məktəb yaşına çatdıqda və məktəbə daxil olduqda artıq səmimi, dostcasına, xeyirxah rəftara, düşüncəli, ağıllı, fəal və əməksevər həyata alışmış olurlar. Kobudluq düşüncəsizlik və avaraçılıq heç bir vəchlə onların cisminə və qanına işləməmişdir. Əksinə, ailənin korlanmamış, təbiətəuyğun həyatının mülayim, sakit ruhu, canlı diqqətliliyi, ağıllılığı və fəallığı beşikdən başlayaraq onlar üçün adi və təbii bir şey olmuşdur. Onların məktəbdə öyrənməli və təkmilləşdirməli olduqları nə varsa, hamısının başlıca çıxış nöqtəsi onlarda hələ beşikdə ikən xeyli dərəcədə canlanmış və onlara aşılanmışdır". (199, 355)

Tanınmış pedaqoq A.S.Makarenko (1888-1939) da ailə tərbiyəsini valideyn-lərin ümdə vəzifələrindən sayır. Qeyd edir ki, ailədə tərbiyə məqsədyönlü, nizamlı, şüurlu, diqqətlə aparılmalıdır. Bu mühüm işə etinasız, soyuq, təsadüfi bir iş kimi yanaşmaq olmaz. Çünki təsadüfi prinsiplə aparılan tərbiyənin nəticəsi də təsadüfi olur. Valideyn övlada münasibətdə, tərbiyədə öz məsuliyyətini daim dərk etməli, istər lokal, istərsə də ictimai-qlobal mənada necə övlad tərbiyə etməli, cəmiyyətə və gələcəyə necə vətəndaş təqdim etməli olduğunu unutmamalıdır. Pis tərbiyə olunmuş övlad sabahın pis vətəndaşı, cəmiyyət üzvü deməkdir. Pedaqoq valideynlərə müraciət edərək yazırdı: "Siz həmişə valideyn olduğunuzu yadda saxlamalı və bilməlisiniz ki, oğlunuzu, yaxud qızınızı yalnız öz sevinciniz üçün tərbiyə etmirsiniz. Sizin ailənizdə və sizin rəhbərliyiniz

altında gələcək vətəndaş, gələcək xadim və gələcək mübariz böyüyür. Siz pis adam tərbiyə etsəniz, bunun bəlasını yalnız özünüz deyil, bir çox adamlar və bütün ölkə çəkəcəkdir. Bu suala qarşı etinasız olmayın, bunu cansıxıcı bir boşboğazlıq hesab etməyin. Axı siz öz zavodunuzda, öz müəssisənizdə yaxşı məhsul əvəzinə brak verməkdən utanırsınız. Cəmiyyətə pis, yaxud ziyanlı adamlar vermək sizin üçün daha böyük ayıb olmalıdır.” (156, 281)

Ailə tərbiyəsinin cəmiyyətin tərəqqisində mühüm bir faktor olduğunu XIX yüzilliyin II yarısı və XX əsrin əvvəllərində yaşayıb fəaliyyət göstərmiş demokratik fikirli Azərbaycan maarifpərvərləri də kifayət qədər yaxşı dərk edirdilər. Onlar başa düşürdülər ki, xalqın gələcəyi gənc nəslin tərbiyəsinə bağlı olduğu kimi tərbiyənin təməlini də, ailə mühiti təşkil edir. Deməli, tərbiyənin düzgün, məqsədəuyğun aparılması üçün ailədən başlamaq lazımdır. Bunun üçün şərq zehniyyətinə hopmuş ənənəvi ailə tərbiyə sisteminə qarşı mübarizə aparmaq, onun qüsurlarını, cahilanə məzmun və mahiyyətini kütləyə anlatmaq lazımdır. Müsəlman ailələrində aparılan tərbiyə necə aparılır, onun məzmun və mahiyyəti nədən ibarətdir, hara yönəlir və nəticədə nələrə səbəb olur? Bütün bunları camaata izah etmək, beyinləri və şüurları oyatmaq lazımdır. Bu taleyüklü məsələ milli intibah dövrü Azərbaycan münəvvər-lərinin fəaliyyət və mübarizə istiqamətlərinin əsas xətlərindən birinə çevrildi.

Demokratik düşüncəli qələm sahibləri ilk növbədə müsəlman ailəsindəki tərbiyə mühitinin fəlakətli, yaramaz detallarını, çeşidli nöqsanlı cəhətlərini avam kütləyə başa salmaq məqsədi izlədilər. Bu ənənə “Əkinçi” qəzetindən başladı.

Qəzet 11 iyul 1876-cı il tarixli nömrəsində işıq üzü görən “Məktubat” rubrika-sında yazırdı ki, müsəlman ailələrində valideynlər çox zaman ədəbsiz sözlər danışır, söyüş söyür, nalayiq hərəkətlərə, danışığa yol verirlər. Bu hərəkət və sözlər gözünü açıb valideynlərini görən uşaqların şüuruna yeriyir, mənfi mənada onlara sirayət edir. Hətta belə halda uşaq nə qədər

yaxşı məktəbdə təlim alsa da, məktəb də onun tərbiyəsini düzəltməkdə aciz qalır. "Çox pədər övladımı söyərəm deyib, başlar ona fəna sözlər öyrətməyə, zavallı cocuq da yaman sözlər ağzından çıxarmağa adət edib, sonra eşiyə çıxdığı vaxtda dəxi bu misilli bir çənd sözlər tərbiyəsiz yoldaşlarından eşidib, günbəgün artmağa başlar və belə böyüdüyünə mədəniyyətdən məhrum olur. Əgər pədərləri və anaları tərəfindən kömək olmasa, yalqız məktəb cocuğu tərbiyə və mədəniyyət etməyə məqdur deyil". (88, 201) Ata və analarından pis sözlər eşidib, onların pis əməllərini görən övlad tədricən "onların bəd əməllərinə yoldaş" olur.

"Əkinçi"nin 9 iyun 1877-ci il tarixli sayında ("Daxiliyyə") H.Zərdabi müsəl-man ailələrində kök salmış "övladın ataya danışıqsız itaəti" prinsipinə qarşı çıxır. Göstərir ki, müsəlman ailələrində övlad atanın köləsi nisbətindədir, onun heç bir ixtiyarı, iradəsi yoxdur. Bu cür ailə köləliyi səbəbindən uşaqlar müti, qorxaq, cəsarətsiz böyüyür, müstəqil fikir yürütmək, qərarlar çıxarmaq imkanından məhrum olur. Həsən bəy tərbiyədə ənənəvi adətlərə, bu adətlərin zərərli tərəflərinə qarşı çıxır. Belə zora, mütiliyə əsaslanan adət-ənənələrin uşaqların qabiliyyət, bacarıq və sərbəstliyini, münasib tərbiyə və davranış vərdişlərini əlindən aldığını söyləyir: "Xülasə, nə qədər qabiliyyətli uşaq olsa, bizim adətlər ilə olunan təlimdən insan ola bilməz. Biz övladın yağısı olub, onun axırına çıxıb, insaniyyətlikdən uzaq edirik". (88, 384)

H.Zərdabi onu da əlavə edir ki, bu sözləri deməkdə biz onu nəzərdə tutmuruq ki, uşağı tamamilə başlı-başına buraxıb nəzarətdən kənar tutmaq lazımdır. "Pəs, biz deyirik ki, yumruq, sillə ortalıqdan çıxsın, uşaq ilə adamyana rəftar olsun ki, özü yax-şını yamandan dərk edib bəd əmələ mürtəkib olmasın". (88, 384)

S.Ə.Şirvaninin "Rəbiül-ətfal" (1878) və "Tacül-kütüb" (1883) dərsliklərində şairin bir ata, ailə başçısı kimi müraciətlə yazdığı şeirləri vardır. Bu şeirlərdə ata öz oğluna dəyərli nəsihətlər verir, onu elmə, maarifə, məktəbə, ağıllı, əxlaqlı

olmağa, insanlara fayda verməyə və s. çağırır. Bu şeirlərdə ailə tərbiyəsinin səmərəli notlarını görürük. Valideyn ailədə necə olmalı, övladını necə tərbiyə etməli, onunla necə davranmalıdır? Bu poetik örnəklər bizim bədii-pedaqoji fikir tariximizdə valideyn-övlad münasibətlərinin, ailə tərbiyəsinə aid bir sıra nəzəri fikirlərin bədii şəkildə əks olunduğu qiymətli nümunələrdir.

Görkəmli dramaturq N.Vəzirovun 1875-ci ildə qələmə aldığı "Ev tərbiyəsinin bir şəkli" pyesində o dövr Azərbaycan ictimai mühitində ailə tərbiyəsinin tipik bir detalı əks olunmuşdur. Əsərdə göstərilir ki, maddi cəhətdən imkanlı bir şəxs olan Bayraməli bəy Avropa meyllidir. Doğrudur, o, Avropa təhsilinə, mədəniyyətinə, mənəviyyatına, qanun-qaydalarına bələd deyil. Amma Avropanın inkişaf etdiyini, orada insanların elm və maarifə yiyələndiklərini eşidib özünü Avropa meylli, yəni müasir düşüncəli bir şəxs kimi göstərmək istəyir. Elə buna görə də öz oğulları Səfdərqulu və Rəsulu yeni üsullu məktəbdə oxutmaq, hətta onlara Avropa ölkələrində təhsil vermək istəyir. Böyük oğlu Rəsulu elm, maarif sahibi etmək niyyəti güdür. Hətta oğluna erməni uşaqlarının oxuyub irəli çıxdıqlarını misal çəkir: "Dərzi Arakelin oğlu bu gün-sabah həkim gəlir, ay şüursuz oğlu, şüursuz! Karapetin oğlu injenerdir, niyə ölmürsən? Niyə çatlamırsan, ay binamus oğlu binamus? Mən axı od tutub yanıram!" (264, 33) Deməli, Bayraməli bəy oxumağın, həm də müasir elmlərə yiyələnməyin yaxşı bir şey olduğunu nəzəri şəkildə anlayır. Ermənilərin də bu mənada paxıllığını çəkir. Elə buna görə də öz uşaqlarını oxutmaq istəyir. Hətta oğlu Rəsulu xərc çəkib yeni tipli məktəbə də göndərir. Ancaq məqsədinə nail ola bilirmi? Xeyr! Nə üçün? Çünki övladlarını düzgün tərbiyə etməyi bacarmır. Onlarla kobud, təhqiramiz şəkildə davranır. Onların yanında söyüş söyür, onlara ləyaqətsiz, ataya yaraşmayan sözlər söyləyir. Onların şəxsiyyətinə hörmət qoymur. Hətta oğullarını döyür, incidir, kobud sözlərlə təhqir edir və cana doydurur. Nəticədə Rəsul atasını yerə yıxıb kötəkləyir. Sənətkar burada müsəlman ailəsindəki tərbiyə

üsulunun maraqlı və tipik bir detalını verir və göstərir ki, məqsədin nə qədər ali olursa olsun, ailədə tərbiyəni düzgün, məqsədə müvafiq şəkildə qura bilməsən, yaxşı övladlar tərbiyə edə bilməzsən.

XX əsrin əvvəllərində C.Məmmədquluzadə başda olmaqla "Molla Nəsrəd-din"çilər islam regionunda ailə tərbiyəsinə xüsusi diqqət ayırırdılar. Onlar daha çox islam regionunda ailə tərbiyəsinin çoxçalarlı nöqsanlarını ortalığa qoyur, ifşa edir, bu yolla ictimai mühitdə həmin tərbiyə üsulundan imtina ruhu aşılayırdılar. "Molla Nəsrəddin"çilərin sadaladığı, tənqid obyektinə çevirdikləri anormal tərbiyə detalları-nın miqdarı o qədər çox idi ki, bunların islahı 5-10 ilə mümkün deyildi. Bu işə, bəlkə də, on illər lazım gəlirdi.

"Şeytan" ("Molla Nəsrəddin", 1908, №37) felyetonunda Mirzə Cəlil müsəlman cəmiyyətinin mühüm hüceyrəsi olan ailələrdə kütləvi bəla, xof və qorxu faktoruna çevrilən belə bir tərbiyə, təlqin düşüncəsinə qarşı çıxır, onun böyük ictimai qorxu və ətalətə gətirib çıxardığını vurğulayır: müsəlman ailələrində körpə dünyaya göz açıb qanmağa başladığı ilk andan böyüklər onun qəlbinə, şüur və düşüncəsinə cin, şeytan, xortdan kimi mövhumi varlıqların xof və qorxu hissini təlqin edir, körpəni bu cür vahimə hisslərinin məngənəsində böyüdürlər. Beləliklə, uşaqdakı özünə inam, cəsarət, comərdlik, mübarizlik, müstəqillik hissini öldürür, onu süst və qorxaq böyüdürlər. Nəticədə övladlar həyatla mövhumi, qeyri-real olan şeylərin sərhədini itirir, həyatdan baş çıxara bilmirlər. Ədib müsəlman ailəsindəki mənzərəni belə təsvir edir: "Balaca uşaqlar gecələr yatmayıb şıltaqlıq eləyəndə, anaları istəyiblər şirin yuxudan ayılıb uşağa süd versinlər, ya görsünlər niyə uşaq ağlayır və bəlkə, uşağı birə sancır, ya bəlkə, bir özgə dərdi var. Tənbəl analar uşağı xortdandan qorxudublar ki, səsini kəsib yatsın. Uşaq, doğrudur, sakit olub, amma on beş yaşa çatana kimi uşaq elə bilib ki, dünyada bir xortdan var ki, gecələr gəlib ağlayan uşaqları götürüb aparır qaranlıq meşələrə... Həmçinin böyüklərimiz..." (165, 249)

M.Ə.Sabir "Ol gün ki, sənə xaliq edər lütf bir övlad" ("Molla Nəsrəddin", 1906, №8), "Təhsili-elm" ("Molla Nəsrəddin", 1906, №20), "Ata nəsihəti" ("Molla Nəsrəddin", 1906, №21), "Leyli-Məcnun" ("Molla Nəsrəddin", 1907, №26), "Olmur, olmasın!" ("Molla Nəsrəddin", 1908, №12), "Vah!... Bu imiş dərsi-üsuli-cədid" ("Molla Nəsrəddin", 1909, №20) və s. şeirlərində nadan, köhnəpərəst, elm və mərifətdən uzaq, cahil, övladının tərbiyəsinə oyun-oyuncaq kimi baxan valideynlərin ümumiləşmiş obrazını yaradır. Əslində bu obraz o zamankı Azərbaycan cəmiyyətində hər addımda rast gəldiyimiz tərbiyəçi ailə başçısıdır. Əgər bu şeirlərdə "üsuli-cədid"ə, elmə, məktəbə, dərsə rəğbəti olmayan ata təsvir olunursa, "Uşaqdır" ("Molla Nəsrəddin", 1908, №34) şeirində övladının tərbiyəsinə bəsit, cahilanə, düşüncəsiz gözlə baxan ananın mövqeyi qabardılır. Atasını söyən, ədəbsiz, nalayiq sözlər danışan, namünasib rəftarı ilə atanı, qonşuları təngə gətirən uşağın tərbiyəsizliyinə ana bəraət qazandırır. Onun fikrincə uşaq hələ kiçikdir, qoy, söyür söysün, hədyan danışır danışsın, böyüyər, qanar. Oxumaq istəmir, eybi yoxdur, oxuyub ömrünü zay etməkdən nə fayda. Əslində bu deyilənlər M.Ə.Sabirin yaşadığı dövrdə müsəlman ailələrinin tipik tərbiyə sistemi idi.

Ö.F.Nemanzadənin "Pişik" ("Molla Nəsrəddin", 1911, №3) felyetonunda da Sabirin "Uşaqdır" şeirindəkinə bənzər bir tərbiyə metodu barədə danışılır.

"Füyuzat" jurnalı da ailə tərbiyəsinə xüsusi diqqət ayırırdı. Həsən Səbri Ayvazovun "Həyati-ailə və ailəçilərimiz" (1907, №20), müəllim İsmayıl Həqqinin "Validə qucağı, ya ki, ilk tərbiyə" (1907, №16) və s. məqalələrdə deyilən məsələ barədə jurnalın mövqeyi ifadə olunur.

H.S.Ayvazovun "Həyati-ailə və ailəçilərimiz" adlı nisbətən iri həcmli məqaləsi iki hissədən ibarətdir. Birinci hissədə müəllif, ümumiyyətlə, ailədən, bəşər tarixində ailənin əhəmiyyətli rolundan, cəmiyyət miqyasında və insanların tərbiyəsində ailə münasibətlərinin faydasından danışır. İkinci hissədə isə konkret olaraq müsəlman cəmiyyətlərində ailə və

ailə münasibətlərindən, onun kəsirli cəhətlərindən, ailə başçısının səhvlərindən, tərbiyə və ailəni idarəetmə vəzifəsini layiqincə yerinə yetirə bilməməsindən və bunun fəsadlarından, valideynlərin övladların tərbiyəsinə vurduğu zərərdən söhbət açılır.

Müəllif doğru olaraq qeyd edir ki, ailə bəşər mədəniyyətinin ilkin məbədi, ictimai həyatın əsası, "bəşəriyyət və insaniyyətin xadimidir". Bəşəriyyətin mövcud olduğu ilk çağlardan indiyə qədər onun tərəqqisinin birinci səbəbi ailə ilə bağlıdır. Bəşəriyyətin bir çox böyük şəxsiyyətləri, dahiləri, dəyərli insanları məhz ailə tərbiyəsinin nəticəsində yetişmiş, insanlığa öz töhfələrini vermişlər. Ailədə ən ümdə şərt başçıların – ata və ananın öz vəzifələrini layiqincə dərk və icra edə bilmələridir. Daha doğrusu: "Ailə təşkil edəcək ana və babalar bilməlidirlər ki, ikisinin əl-ələ, baş-başa gələrək dünyaya gətirəcəkləri növnihallar, məsum yavrucuqlar, ilərüdə heyəti-ictimaiyyəmizə birər əza və cəmiyyəti-milliyyəmizin tərəqqi və idaməsinə birər xadim olacaqlar. Binaənəleyh cəmiyyəti-bəşəriyyeyi-mədəniyyə ədadına girə biləcək və hüquqi-milliyyəmizi müdafiə edəcək qədər bir istihqaq kəsb etmələri də baba və anaların tərbiyə və təlimləri, təşviq və təhrikləri, irşad və təğribləri sayəsində olacaqdır". (95, 156) Deməli, övladın tərbiyə və təliminə mükəlləf olan ailə başçılarının ilkin vəzifəsi birlikdə öz övladlarını düzgün yola istiqamətləndirmək, onun təlim və tərbiyəsini düzgün qurmaq, bu vacib vəzifənin qayğısına qalmaqdır. Başqa sözlə, "tərbiyeyi-milliyyəti, hüsni-əxlaqı, ailənin hüsni-idarə və həyati-məsudanəsini" öyrətməkdir. Müəllif təəssüf edir ki, çox acınacaqlı haldır ki, müsəlman cəmiyyətlərində bu, belə deyil. Burada atanın nöqsanları, ailədə, istər öz qadınına, istərsə də övladlarına qarşı münasibət və vəzifələrini lazımınca dərk edə bilmədiyindən ciddi yanlışlıqlar baş verir və bu məyus doğuran nəticələrə gətirib çıxarır. Başqa sözlə, bizdə "ümumi-beytiyyə (evə və ailəyə aid vəzifələr – T.V.) vəzifələri, cocuqların tərbiyə və təlimi həp zavallı validələrə tövdi edilmişdir. O validələrə ki,

tərbiyə və təlimdən bibəhrə, elm və irfandan və hüquqi insaniyyədən məhrumə!...” (95, 157)

Müəllif əlavə edir ki, nə qədər ki, bizdə ailə rəisləri olan kişilər arvadlarına müti baxacaq, laqeyd münasibət göstərəcəklər, övladlarını bir ata ləyaqəti ilə sevib onların təlim-tərbiyəsi ilə lazımınca məşğul olmayacaqlar, islam ölkələrində mədəniyyətə, tərəqqiyə (“təməəddün və tərəqqiyə”) nail olmaq, bu ölkələri gerilikdən, tənəzzüldən xilas etmək mümkün olmayacaq. H.S.Ayvazov hətta naqis xarakterli, öz zövcə və uşaqlarının qeydinə yetərincə qalmayan müsəlman atalarına lənət oxumaqdan da çəkinmir: “Daş olsun o babaların yürəkləri ki, hər sənə heyvan kibi bir cocuq doğdurub, kəndisindən sonra səkkiz-on dənə dəliqanlıları ya ki, qızları tərbiyə və təlimdən, əxlaqi-həmidə və həsənədən, ülum və maarifdən məhrum, insaniyyət və islamiyyətdən ari buraxır, həyat istiqballarını da yıxıb gedər”. (95, 159)

Müəllim İsmayıl Həqqinin “Validə qucağı, ya ki, ilk tərbiyə” əsəri kiçik və maraqlı bir hekayədir. Burada göstərilir ki, Cabirə adlı savadsız, təhsil görməmiş qadın oğlu Raufu düzgün başa salıb tərbiyə edə bilmir. Onu məktəbə göndərir, lakin bir az sonra uşaq məktəbə getməkdən imtina edir. Ana oğluna məktəbin faydasını başa salmaq, inandırma, anlatma yolu ilə məktəbə rəğbət yaratmaq əvəzinə onu döyür, incidir. Oğlunun içindəki nifrət hissini bir az da artırır. Başqa bir ana, qonşuluqda yaşayan qadının oğlu anasından soruşur ki, Cabirə xala oğlu Raufu nə üçün məktəbə getmədiyi üçün döyür. Onda maarif görmüş, ağıllı qadın öz oğlunu bu cür inandırma, məntiqli izahat yolu ilə başa salır: “Rauf qayət zəkavətli, istedadlı bir cocuqdur. Fəqət validəsi tərbiyə görməmiş bir qadın olduğundan övladını heyvan kibi tərbiyə etmək istəyor. Kötəklə əmrinə itaət etdirməyə çalışıyor”. (95, 271) Ana cocuğuna başa salır ki, Raufun bu cür sözə baxmayan, itaətdən çıxan olmasına səbəb anası Cabirə xanım, onun savadsızlığı, kobud davranışıdır. Çünki məktəb görməyən adamlar cahil olurlar. Müəllif demək istəyir ki, ana qucağı övlad üçün ilkin tərbiyə

beşiyidir. Ana, ata bu tərbiyəni həm düzgün, həm də yanlış istiqamətə yönəldə bilər. Bu valideynlərin dünyagörüşünə, həyata baxışına, özlərinin təhsil və tərbiyə səviyyəsinə bağlıdır.

Ü.Hacıbəyov "Tərəqqi" qəzetində (1909, 20 avqust) dərc olunan "Xəbərdarlıq" məqaləsində ailə tərbiyəsi ilə məktəb tərbiyəsinin əlaqəsindən danışır. Nəzərə çatdırır ki, bizdə uşaqlar normal ailə tərbiyəsi görmədiklərindən həmin uşaqlar məktəbə getdikdə göstərilən qüsur həm şagirdin özü, həm də müəllim üçün problem yaradır. Belə uşaqları tərbiyə etmək çətinləşir. Üzeyir bəy yazır: "İş bundadır ki, məktəbə qoyulan uşaqlarımızın əksəri tərbiyə görmədiyinə görə, onları təhti-təlim və tərbiyəyə alan müəllim əfəndinin işi müşkül, daha ağır və binaənəleyh məsuliyyəti daha artıq olur". (101, 129)

İ.H.Pestalotsi də özünün pedaqoq təcrübəsinə əsaslanaraq qeyd edirdi ki, ailədə övladlara verilən anormal tərbiyə hərtərəfli mənada (istər əqli, istər əxlaqi, istər fiziki tərbiyədə və s.) məktəb üçün problemlər yaradır. Belə uşaqları məktəbdə normal tərbiyə etmək çətinləşir, bəzən də, ümumiyyətlə, mümkün olmur. Bu münasibətlə, Pestalotsi deyir: "Əgər uşaq yaşları üçün çox təbii olan mülayimlik, məhəbbət, dinclik və sakitlik indi məktəbdə oxuyan uşaqlara qabaqcadan ev tərbiyəsi vasitəsilə aşılanmayıbsa, əgər ata-anaya, qardaş-bacılara canlı məhəbbət duyğusu uşaqlar üçün bir adət şəkli almamışsa, onlar üçün tələbata, ikinci naturaya çevrilməmişsə, onda yuxarıda göstərilən yaramaz hallar məktəb dövründə uşaqlar arasında çox tez yayılır... Belə bir şəraitdə məktəb müəllimi nə qədər çalışırsa-çalışsın, heç bir vəchlə şagirdlərin mənəvi, zehni və fiziki qüvvələrinin gələcək inkişafına təbiətəuyğun təsir göstərə bilməz". (199, 348)

S.M.Qənizadə "Gəlinlər həmayili" əsərində tərbiyədə valideynin şəxsi nümunəsinin böyük rol oynadığını nəzərə çatdırırdı. Pedaqoq yazıçı izah edirdi ki, uşaq gözünü açıb öncə ata-anasını görür, ondan öyrənir. Valideynlərin danışıq və rəftarı övlad üçün bir nümunəyə çevrilir. Pis danışıq və rəftardan pis, yaxşı söz-söhbət və hərəkətlərdən isə yaxşı şeylər əxz edir.

"Hədis vardır: "Əl-vələd sirrü əbihi, vəl-bint sirrü ümmihü", yəni oğul öz atasının və qız anasının şəbihidir. Sibyan göz açıb ibtida öz ata-anasından ibrət götürərkən əksər övqat onlar əxlaqda olurlar". (146, 16)

F.Köçərli "Həqiqi gözəllik və hərəkətsiz nisfimiz" ("Tərəqqi", 1909, 4 avqust) məqaləsində ailə tərbiyəsində bir sıra məsələlərə toxunur. Diqqəti belə bir vacib məsələyə də cəlb edir ki, müsəlmanlar kiçik yaşlı, həddi-buluğa çatmamış, ailə və tərbiyə işlərinə hazır olmayan qızları erkən yaşlarında ərə verirlər. Belə qızlar nə fiziki, nə əqli, nə də fərasət, elm və bilik cəhətdən uşaq böyütməyə, tərbiyə etməyə qabil olmur. Nəticə qanqaraldıcı, kədərli olur. "Əqlən, əxlaqən və cismən yek-digərinə müvafiq və müsavi" olmayan ər-arvad öz övladlarına gözəl tərbiyə ("hüsni-tərbiyə") verə bilmirlər. (129, 225)

H.Cavid ailə, məktəb və ictimai tərbiyənin ardıcıl şəkildə bir-biri ilə uzlaşdırılmalı olduğunu pedaqoji-psixoloji nöqteyi-nəzərdən çox düzgün əsaslandırır. Göstərir ki, uşaq doğulub böyüdükdən sonra ilkin mərhələdə evdə, sonra məktəbdə, daha sonra isə sosial mühitdə tərbiyə alır. Tərbiyənin ahəngdar, məqsədəuyğun, müsbət istiqamətdə formalaşması üçün hər üç mühitin normal olması vacib şərtdir. Əks təqdirdə, yəni bu mühitlərdən birində mövcud olan pis tərbiyə atmosferi digər tərbiyə mərhələsinə də əsaslı şəkildə təsir göstərir. Məsələn, uşaq ailədə yaxşı tərbiyə alıbsa, məktəbdəki mühit yarıtmazdırsa, bu mütləq uşağa təsir edəcək. Yaxud ailə və məktəb mühiti normal, lakin sonrakı sosial tərbiyə mühiti qaneedici deyilsə, bu, yenə şəxsiyyətin xarakter və tərbiyəsinin formalaşmasına təsirsiz ötüşməyəcək. Görkəmli mütəfəkkir israr edir ki, hər bir tərbiyə mühitinə düşən insan çox zaman həmin mühitin diktəsinə, tələblərinə uyğun şəkildə dəyişməli olur. Məsələn: "Ailə, məktəb tərbiyəsindən başqa bir də tərbiyeyi-ümumiyyə vardır ki, məktəb təhsili ikmal edildikdən sonra 35, 40 yaşına qədər insanda davam edər. Bu tərbiyə yalnız mühiti-ümumiyə race bir tərbiyədir. Çox zaman mühit ümumi,

insanın ailə içərisində, məktəblərdə aldığı tərbiyəni büsbütün dəyişdirib başqa bir aləmə, başqa bir cərəyana tabe edər. Bu xüsusda maddi və mənəvi bir para təsirat insanın aldığı tərbiyələri zirü zəbər edəcək dərəcədə məsləkinə müğayir hallara sövq edə bilir”. (55, 196)

H.Cavid belə bir doğru nəticəyə gəlir ki, tərbiyədə harmoniyanın, pozitiv xəttin hifz olunması, davamlı xarakter daşıması üçün tərbiyənin bünövrəsi ailədən düzgün qoyulmalı sonrakı mərhələlərdə də saf mühitin şərtləri daxilində qorunmalıdır. Müəllif onu da əlavə edir ki, yalnız fövqəladə xarekterə, qabiliyyətə, iradəyə, bacarığa malik olan şəxslərdə tərbiyə dəyişməyə, pis mühitin ahənginə tabe olmaya bilər.

Yeri gəlmişkən bir məsələyə də diqqəti cəlb etmək yerinə düşər. Azərbaycan maarifçiləri tərbiyədə insanın fitri, anadangəlmə qabiliyyətinin mövcudluğunu da nəzərə alır, bu məsələdən heç də yan keçmirdilər. Məsələn, “Ziya” qəzetinin naşiri S.Əfəndizadə qəzetin 24 aprel 1880-ci il tarixli sayında dediyimiz məsələyə toxunaraq maraqlı bir əhvalat da danışır. Qeyd edir ki, Şamaxı qəzasının Qoşun mahalındakı bəylərdən biri öz nökərinə fəxri libaslar geyindirir, onu müxtəlif yerlərdə tərifləyir və bildirir ki, tərbiyə yolu ilə çox keçmədən nökərini “arəstə və möhtərəm motəşəxxislərdən biri” edəcəkdir. Ancaq neçə il keçir, bəy nə qədər çalışsa da, nökərdən bir şey çıxmır. Çünki onun fitrətində qabiliyyət və tərbiyə almaq xüsusiyyə-ti yoxdur. “Hər kəs öz təbiətinin tələbinə boyun əyməyə möhtacdır.” (292, 235-236)

Y.V.Çəmənzəminli də 1914-cü ildə qələmə aldığı “Ana və analıq” risaləsinin “Analı uşaqlar” hissəsində bir sıra insanların yalnız təlim-tərbiyə ilə deyil, həm də onlara verilmiş fitri istedad, qabiliyyət nəticəsində dahi şəxsiyyətlərə çevrildiyini söyləyir. Tərbiyənin isə bu istedadı üzə çıxarıb parlatdığını qeyd edir. Müsəlman aləmində kiçik yaşlarında müəyyən fitri qabiliyyəti olan uşaqlara etinasız yanaşıldı-ğını, onların bu istedadının üzə çıxarılması yolunda təşəbbüslər göstərilmədiyini təəs-süflə nəzərə çatdırır. (65, 166-167)

S.Ə.Şirvani də "Rəbiül-ətfal" dərsliyinə daxil etdiyi "Padşah və ədib" mənzum hekayəsində insanın fərdi fitrətinin tərbiyədə rolu məsələsini bədii şəkildə əks etdirir.

Haqqında danışdığımız zaman kəsimindəki fikir fədailərimizi narahat edən yalnız mənsub olduqları xalqın ailə mühitindəki dözülməz, namünasib tərbiyə üsulu və metodları deyildi. Onlar sosial mühitin də tərbiyə problemində acınacaqlı, fəla-kətli, zavallı vəziyyətdə olduğunu dönə-dönə xatırladır, onun səbəb və nəticələrinə qarşı coşqun enerji ilə mübarizə aparırdılar. Onlar car çəkib bəyan edirdilər ki, gənc nəsli müasir ruhda, müasir dünyagörüşdə tərbiyə etmək kimi taleyüklü, zamanın tələbinə müvafiq bir məsələni həll etməkdən ötrü sosial mühitin nöqsanlarını aradan qaldırmaq, münbit, əlverişli, təkmil ictimai tərbiyə atmosferi yaratmaq lazımdır. Bu məqsədlə onlar mütərəqqi ictimai tərbiyəyə mane olan fəsad və əngəlləri nəzərə çatdırır, bunları aradan qaldırmaq üçün çıxış yolları təklif edirdilər. Əlbəttə, həmin əngəl və maneələrdən ən mühüm olanı despotizm, yuxarıların aşağılar üzərində hökm-fərmalığı, zülmü və fanatizm idi.

M.F.Axundov İranın timsalında göstərirdi ki, despot zülmünün təsiri, həmçinin üləma fanatizminin zoru islam aləminin zəifliyinə bais olub, "qabiliyyətini künd edib", "cövhəri-əqlini paslandırıb", onu rəzalətə, zillətə, riyakarlığa, məkrə, cəhalətə düçar edib. Azad fikir söyləmək, müstəqil şəxsiyyət olmaq, sərbəst düşüncə və ağıla yiyələnmək imkanından məhrum edib. Əlbəttə, belə bir cəmiyyətdə azad, faydalı və normal tərbiyədən, layiqli vətəndaş olmaqdan söhbət gedə bilməz. Ölkə vətəndaşları bu despotizm və fanatizm qaranlığında yalnız fiziki iş görə bilən, lakin müstəqil fikir yürütməkdən məhrum, iradəsiz iş heyvanları kimi tərbiyə olunurlar. M.F.Axundov öz baxışlarını bu şəkildə əsaslandırırdı: "Əgər cəmiyyət öz fərdlərinə azadlıq verməsə və onları ata-babanın və övliyanın qərar verdikləri şeylərlə kifayətlənməyə və bunlardan kənara çıxmamağa və ağıllarını mədəniyyət işlərində işlətməməyə məcbur edərsə, bu surətdə

fərdlər yer əkən, məhsul toplayan və hər bir işi düşünmədən və fikir vermədən görən avtomat olarlar və ya onlar dəyirman atlarına bənzərlər ki, hər gün müəyyən dairədə dolanarlar və öz vaxtında da arpa-saman yeyib su içər və yatarlar...” (19, 239)

M.Şahtaxtlı da sələfinin baxışlarına şərik çıxırdı. O da israr edirdi ki, demokratik tərbiyə mühiti yaratmaq, sosial gerçəkliyi ideya-mənəvi cəhətdən saflaşdırmaq üçün zülmə, monarxiyaya əsaslanan təkhakimiyyətliliyə, həmçinin ruhanilərin haki-miyyətin idarə olunmasındakı təsiredici nüfuzuna son qoymaq, seçki və qanunlarla idarə olunan demokratik hökumət, idarəetmə sistemi, dünyəvi dövlət yaratmaq, dini dövlətdən ayırmaq, ruhaniləri hakimiyyətin idarə edilmə sistemindən uzaqlaşdırmaq lazımdır. M.Şahtaxtlı bu münasibətlə yazırdı: “Dünyəvi bir hökumətin nəzarəti altında ölkə xalqın nümayəndələri tərəfindən yaradılmış qanunlarla idarə olunmalıdır. Ruhani qanunlarının idarə nümayəndələri öz siyasi və hüquqi səlahiyyətlərini dövlət tərəfindən təşkil edilmiş, dini əsası olmayan hakimiyyətlərə verməlidirlər.” (237, 49)

“Şərqi-rus” naşiri islam mühitində geniş masştabda müasir tərbiyəyə mane olan ikinci mühüm faktor kimi insanların özünün xarakterindəki mənfi xüsusiyyətləri göstərir. Söyləyir ki, paxıllıq, həsəd, bədxahlıq, bədbinlik və s. neqativ, qeyri-insani xüsusiyyətlər müsəlmanların qanına hopmuş, həm də bu xüsusiyyətlər neqativ tərbiyə, üsulu və nümunə yolu ilə nəsildən-nəsilə ötürülməkdədir. Ona görə də “biz öz xoşbəxtliyimizi həmcinsi-mizin rifah və səadətində yox, bəlkə, onu çürütməkdə, müzməhil etməkdə ararız. Bizdə hübbi-vətən yerinə büğzi-vətən, millətə dostluq əvəzinə öz millətimizə düşmənçilik var”. (237, 113) Belə bir ictimai qüsur nəticədə böyüməkdə olan nəslə də sirayət edir və mütərəqqi tərbiyəyə ciddi zərbə vurur.

N.Nərimanov bir sıra yazılarında, o cümlədən “Həyat”qəzetində (1906, 14 iyul) dərc olunan “Həftə fəryadı” məqaləsində müsəlman cəmiyyətlərində mövcud olan və sələflərdən xələflərə ötürülən acınacaqlı tərbiyə mühitinin

törətdiyi rəzalət-ləri, bədbəxtlikləri açıqlayır, bunun faciəli səbəb və nəticələrini şərh edirdi. Müəllif ürək ağrısı ilə onu da əlavə edirdi ki, biz indiki camaatdan yaxşı bir şey gözləyə bilmədiyimiz kimi bu camaatın tərbiyəsindən çıxmış, gələcək ictimai toplumu təşkil edəcək övladlardan da heç nə gözləyə bilmərik. Madam ki, onlar belə bir kəsalətli, qaranlıq mühitdə, həm də yarıtmaz bir tərbiyə görmüşlər onlardan nə gözləmək olar? “Biz doğrusu, hal-hazırda həyatını “sürükləyən” camaatdan bir şey gözləmiriz.” Bunların tərbiyəsilə böyüyüb axırda camaatın üzvü və hətta pişvaz olanlara da böyük ümidlər bağlamırız. Özləri nə edirlər, nə etmişlər ki, “bunların vasitəsilə tərbiyə alanlar da bir hümmət, bir qeyrət, bir həmiyyət göstərələr.” (192, 308)

“Nadanlıq” (1894) N.Nərimanov müsəlman ictimai mühitində tərbiyə alıb quldura, qoçuya çevrilən, maarifə, humanizmə, yeniliyə düşmən olan nadan, vəhşi insanların bədii obrazını yaradır. Bununla xalqı oyatmaq, onda mövcud tərbiyə mühitindən uzaqlaşmaq meyli yaratmaq məqsədi güdür.

C.Məmmədquluzadə gözünü ömründə “birincə dəfə açan kimi dünyanı qaranlıq” görür. O qaranlıq dünya ki, ilk dəfə gözünü açıb baxanda, qulağını açıb eşidəndə valideynini, qohum-əqrəbasını, qonşularını, cəmi vətəndaşları həmişə namaz üstə, itaətdə görüb. Bu kor-koranə, ifrat, mövhumat həddinə çatmış itaət təkcə Allaha münasibətdə deyil, vəzifəlilərə, rəislərə, ixtiyarlılara qarşı münasibətdə də özünü göstərib. (167, 95-97) Mirzə Cəlilin rəmzi tərbiyəçi və ifşaçı obrazı olan Molla Nəsrəddin də sözünün kəsəri, əlinin dəyənəyi ilə müsəlman mühitindəki qaranlığa, bu qaranlığın nöqsanlarına qarşı mübarizə ideyası ilə meydana atılıb. O mühitdə ki, heç kəs ağıllı, düzgün sözə qulaq asmağı xoşlamayıb “qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə”. (165, 7) Əslində ədib burada müsəlman cəmiyyətinin tərbiyə atributlarını sayır və göstərir ki, bax, müsəlmanlar bu cür, bu əməl və məşğuliyyətlərlə tərbiyə olunurlar. Onların fərdi

həyatdan ictimai mühitə uzanan tərbiyə yolu bu cür cahilanə əməllərlə müşayiət olunur.

1904-cü ildə (18 iyun) "Şərqi-rus" qəzeti vasitəsilə oxuculara çatdırılan "Diqqət etməli" məqaləsində Mirzə Cəlil maraqlı və tipik bir mənzərəni təsvir edir. Göstərir ki, mən tez-tez Tiflisdə müsəlman qəbiristanlığının yanından keçirəm. Burada müsəlmanların balaca uşaqları ilə "saqqallı uşaqları" (yəni böyükləri) bir-birinə qarışıb "qism-qism oyunlar oynayır", bəzən də yoldan gəlib keçənlərə sataşır-lar. Bunların başqa məşğuliyyəti yoxdur. Kiçiklər oyunları, başqalarına sataşmağı "saqqallı uşaqlar"dan öyrənirlər. Müəllif demək istəyir ki, müsəlman mühitində tərbi-yə sistemində varislik xətti bu cür neqativ məcra ilə axıb gedir və nəsildən-nəsilə ötürülür.

"Molla Nəsrəddin"çi şair M.Ə.Sabirin ilk dəfə həmin jurnalın səhifələrində oxuculara çatdırılan "Amalımız, əfkarımız ifnayi vətəndir" (1907, №10), "Qorxuram" (1907, №33), "Kim nə deyər bizdə olan qeyrətə?" (1910, №2), "Bir bölük boşboğazıq, heyvərəlik adətimiz" (1910, №14) və s. şeirlərində müsəlmanların xarakteri, istər fərdi mənada naqislikləri, mürtəce səciyyələri, istərsə də ümumi anlamda, bir ictimai toplum olaraq antiinsani, antimilli, antibəşəri hiss, əməl və davranışları, onlarda vətən və vətəndaş qeyrətinin olmaması öz bədii təcəssümünü tapır. Bu qorxunc hal, hiss və rəftarın dünyaya göz açan körpələrin böyüdükcə və öz sələflərinin yaşadığı mühiti gördükcə onların tərbiyəsinə, həyata baxışlarına da hopduğunu şair inandırıcı ştrixlərlə verir. Bir növ müsəlman cəmiyyətinin tərbiyə mühitinə güzgü tutur.

Digər bir "Molla Nəsrəddin"çi qələm sahibi "Biz də vaxta görə çalışaq" ("Şərqi-rus", 1904, 28, 29 avqust, 2 sentyabr) məqaləsində müsəlmanlar arasında mövcud olan mühüm bir problemə – tərbiyə və davranışda saxta, düşüncəsiz təqlid probleminə toxunur. Qeyd edir ki, indi bəzi müsəlmanlar özlərini müasir, ədəbli, nəzakətli göstərməkdən ötrü avropalıları saxta, yöndəmsiz və gülünc şəkildə təqlid edir, həm məişətlərini, ev şəraitlərini, qiyafələrini, həm də danışıqlarını, maarifə,

təhsilə, tərbiyə münasibətlərini avropasayağı şəklə salmaq istəyirlər. Lakin bu iş təbii yolla deyil "meymuncasına" təqlidə əsaslandığından səmərə vermir. Əksinə həmin ailələrdəki uşaqların, hətta kənar insanların tərbiyəsinə də mənfi təsir göstərir. Ömər Faiq bildirir ki, bu cür əllamə təqlidçiliklə məşğul olmaq əvəzinə "bizlərin əsl həyatına, milli bəqamıza səbəb olacaq çürük qafamızı, kifli beynimizi, yaşlanmış fikrimizi, zəhərli adətlərimizi, meymunca təqlidimizi" dəyişdirsək, islah etsək, daha yaxşı olar. (189, 74)

Böyük mütəfəkkir Ə.Hüseynzadə də XX əsrin əvvəllərində Azərbaycan mədəni-pedaqoji və ictimai gerçəkliyində yaranan təqlidçilik meylini, onu kor-koranə şəkildə tətbiq etmək istəyini tənqid edirdi. Problemə daha geniş müstəvidə baxan Əli bəy həm mühafizəkarları, köhnəpərəstləri, həm də ifrat avropapərəstləri, səbatsız təqlidçiləri obyektiv sosial tərbiyə, milli mövqe platformasından tənqid edirdi. Hər iki məfkurə tərəfdarlarının ifrata vardıqlarını, müasir dövrün tələbləri ilə milli-etnik ictimai şüuru, ənənəni uzlaşdıra bilməmələrini diqqətə çatdırırdı. Bunun nəticədə millətin geniş mənada məqsədəuyğun tərbiyəsinə zərər vurduğunu söyləyirdi. Əli bəy qüsurları, kəsirləri dolğun şərh etməklə tərbiyə və tərəqqi yolunun istiqamətini, onu hansı kontekstdə aparmağın zərurətini, başqa sözlə, çıxış yolunu da göstərirdi: "Mötədil tərəqqipərvəranidən bulunacağımız cəhətlə sağımızda və solumuzda duran iki böyük firqə ilə mübarizəyə məcbur olacağız. Sağımızda duranlar firqeyi-mühafizəkarandır ki, hər növ tazə və cədid şeylərdən və işlərdən həzər edib insanları əlatdəvam bir nöqtədə saxlamaq xəyalındadırlar. Bunlar daima xalqın irəliləməsinə sədd çəkirlər. Solumuzda duranlar isə rəqiblərimizi kor-koranəyə təqlid edərək birdən-birə sıçramaq, özlərini qorxulu girdablara, uçurumlara atmaq istəyirlər! Hər iki tərəfdən əlhəzər! Birincilər dini-mübini-islamın ruhuna vaqif olmayaraq öz zövq və həvəslərinə müvafiq bir halətdə qaldığını xəyal edirlər. İkincilər isə zənn edirlər ki, islamda mədəniyyətə, tərəqqi və təkamülə xidmət edəcək bir şey yoxdur. Avropa

cəhətindən əsən bütün yellər, hətta zəhərli yellər belə şəfabəxşdir. Bunlar bütün şu maddiyunluğun, dəhriyunluğun, iştirakiyunluğun mahiyyətlərinə özləri belə agah olmadan bu təriqəti-fəlsəfiyyələri nəşrə çalışıyorlar!.. Nə böyük yanlışlıq!.. Biz isə türk, müsəlman və rus rəiyyəti bulunduğumuz üçün türklük və islam dairəsində və rus dövlətinin şəraiti-iqtisadiyyə və siyasiyyəsi daxilində tərəqqi etmək istəriz. Biz arzu edəriz ki, bizim tərəqqimizə baxıldıqda, rus rəiyyəti bulunan türk və müsəlmanlar nə gözəl tərəqqi ediyorlar deyilsin. Yoxsa türklər, müsəlman irtidad ediyor, firəngləşiyorlar deyilməsin! Türkün istidad edib firəngləşməsi, firənglərin ya mürtədlərin tərəqqisi deməkdir, yoxsa türk və müsəlman tərəqqisi demək deyildir!..” (113, 34-35)

Göründüyü kimi, ideoloq tərbiyəçi haqlı olaraq tərbiyəni qlobal mənada zamanın, ictimai, siyasi, pedaqoji və milli həyatın tələblərini nəzərə almaqla aparmağı zəruri bir şərt kimi irəli sürür.

Əsrlər boyunca ümumislam, o cümlədən Azərbaycan ictimai mühitini total şəkildə saran “yəs gətirici”, qorxunc bir tərbiyə fəlsəfəsi mövcud olmuşdur. Bu fəlsəfə fəlakətli bir tərbiyə aktı kimi zehinləri, düşüncələri, psixologiyaları o dərəcədə zəhərləmişdir ki, “asari-tərəqqi və intibah” zamanında da onun xofu beyinlərdən çıxmırdı. Bu, müsəlman ictimai şüurunu kütləvi şəkildə buxovlayan “Canım, müsəlmandan adam olmaz” – tərbiyə düsturu idi. Bu düsturun fəlsəfəsi əsrdən əsrə, nəsildən nəslə hər kəs tərəfindən deyilmiş, təkrar edilmiş, nəticədə şüurlara hakim kəsilərək cəmiyyətin ovqatında özünə inamsızlıq, passivlik, ətalət, süstlük yaratmışdı. M.Ə.Rəsulzadə “Bəsirət gərəkdir” (“Bəsirət”, 1914, 12 aprel) sərlövhəli mətbu məqaləsində həmin tərbiyə düstur və fəlsəfəsinin mahiyyətini, onun bizim cəmiyyətə vurduğu mənəvi, ruhi, psixoloji zərəri dolğun şəkildə şərh edir. Qeyd edir ki, islam aləmində “münəvvər, mütədəyyin, molla, tacir, kəsəbə, əsnaf – hər kəs”bu fəlsəfənin əsiridir. “Canım müsəlmandan adam olmaz”, yaxud bir hərəkət etmə, mübarizə aparma, irəliyə baxma, qabağa

getməyi düşünmə, bunu bacarmazsan, çünki "müsəlmançılıqdır" inamı bir təfəkkür tərzi kimi hamının beyninə yeridilmişdir. Yəni müsəlmanlar öz sələfləri tərəfindən belə bir tərbiyə atmosferinin əsirinə, girovuna çevrilmişlər. İndi əsas problem bu tərbiyə sistemini dağıtmaq, onun xofunu şüurlardan silib atmaqdır. Bu, bizim ruhumuzun xəstəliyidir. İşlərimizin düzəlməsi, tərəqqisi üçün hökmən ən əvvəl ruhumuzun bu xəstəliyini müalicə etməliyik. M.Ə.Rəsulzadə qətiyyətlə bildirir ki, böyük bəlaya çevrilmiş belə bir sosial tərbiyə fəlsəfəsini yox etmədən, vətəndaşlarda özünə inam yaratmadan, bizim mübarizə aparıb nəyəsə nail olmağımız, tərəqqi tapmağımız mümkün deyil. Müəllif çıxış yolunu bu cür müəyyənləşdirir: "Hər şeydən əvvəl, özümüzü öyrənməliyiz. Kimiz, nə millətiz, haradan gəlmişiz. Özümüz nə, mahiyyətimiz nə olduğunu bilməliyiz. Sonra da bilməliyiz ki, biz heç də həyatdan qəti ümid etmiş bədbəxtlər deyiliz. Biləks, anlamalıyız ki, böyük tarixə malikiz. Tarixdə parlaq günlərimiz olmuş. Qafalarımıza soxmalıyız ki, "müsəlman adamdır. Müsəlman adam da olar və hər vaxt da adam olmaq istedadındadır..." Bunun üçün də, hər şeydən əvvəl, münəvvər qismimiz birləşməli, bəsirətə gəlməli, öhdəsinə düşən böyük vəzifəni və onun ifasındakı qüsurun böyük məsuliyyətini xatirinə gətirməlidir". (212, 321)

Q.R.Mirzəzadə də millətin düşdüyü vəziyyətin aynası kimi qələmə aldığı, milləti oyanmağa çağırdığı "Ayineyi millət. Oyanız qardaşlar" əsərində islam tərbiyə mühitinin ağlamalı, rəzil və səfil günə düşdüyünü ürək ağrısı ilə təsvir edir. "Qəddarların bizə çəkdirdikləri cövrü-cəfanın", başımıza yağdırdıqları bəla yağışının ("barani-bəla") bizi möhnətə, əzaba düçar etdiyini söyləyir. Təəssüflə onu da əlavə edir ki, "biz islamda şayani-heyrət bir hal var. O isə tənəzzülə qarşı son dərəcədə olan eşqimizdir. Pərvanə şöləyi-nara aşiq olub da özünü məhv etdiyi kibi biz də tənəzzül atəşi ilə özümüzü yaxmaqdayız". (183, 16-17) Bunun səbəbi isə bizim itaət, səbr, təvəkkül və təslimiyyat ruhunda tərbiyə olunmağımızdır. Belə

bir tərbiyə nəticədə vətən övladlarının gözündə korluq pərdəsi yaradır.

F.Köçərli "Şərqi-rus" (1903, 9, 11 may) qəzeti vasitəsilə xalqın "əhli-mərifət və ərbabi-qələm" sahiblərinə, hünərli və qeyrətli kəslərinə müraciət edərək onları "əqilləri və qələmləri ilə" xalqın tərbiyəsi yolunda çalışmağa çağırırdı. Nəzərə çatdırırdı ki: "Milləti ayıldan və onun ruhani və cismani qüvvələrini hərəkətə gətirən, qəlbini ziyalandırıb, ruhunu tazələndirən gözəl və ali fikirlər, hüsni-tədbirlər, doğru və salamat sözlər və səmimi qəlbdən çıxan avazlar olacaqdır. Hər kəs xeyirxahi-millət isə və bu yolda danışıb yazmağa özünü müqtədir bilirsə, hünər və sədaqətini göstərsin". (129, 87)

Əvvəlcə dediyimiz kimi, intibah dövrü milli tərbiyə nəzəriyyəmizdə ailə, məktəb və sosial mühitdəki tərbiyənin əlaqələndirilməsi, uzlaşdırılması mütəmadi olaraq diqqət mərkəzində idi. Y.V.Çəmənzəminli də 1914-cü ildə qələmə aldığı "Ana və analıq" pedaqoji traktatının "Analı yetimlər" adlanan 10-cu bölümündə bu məsələyə toxunur. Dərs dediyi bir müsəlman məktəbində on beşə qədər şagirdin intizamsızlığından, heç cür ipə-sapa yatmadıqlarından, "qabalıq, vəhşilik və əxlaqsızlıq" etdiklərindən söhbət açır. Bunun səbəbini isə həmin uşaqların ailə tərbiyəsi görməmələri ilə izah edir. Qeyd edir ki, bu uşaqlar sosial həyatda da özlərini nalayiq aparır, ətraf aləmdə gördükləri yaxşı işlər yox, pis işlər onların xarakterinə daha çox təsir edir. (65, 163-164)

A.Şaiq "Xatirələrim" əsərində o zaman mollaların, qoçuların, köhnəpərəstlərin, mühafizəkarların, cəhalətpərəstlərin müasir tərbiyəyə necə sipər olduqlarından ətraflı danışır. (244, 132-133)

Ümumiyyətlə, quldurluğun, qoçuluğun, qaçaqçılığın, özbaşınalığın, vəhşiliyin o zamankı tərbiyə mühitində ciddi bəlaya çevrildiyini tərbiyə nəzəriyyəçilərimiz tez-tez xatırladırdılar. H.Zərdabinin bu mövzu ilə əlaqədar "Kaspi" qəzetində silsilə yazıları dərc olunmuşdu. Məsələn: "Zərdab. Göyçay qəzası" (1883, 9 oktyabr); "Zərdab. Göyçay qəzası"

(1883, №121); "Keçmişlərdən" (1884, 22, 24 yanvar); "Zərdab" (1887, 3 iyul). "Ziya" qəzeti də dediyimiz məsələyə diqqət yetirirdi. "Məmləkət əhvalatı" (1879, 13 dekabr) məqaləsində bu mövzuya xeyli yer verilirdi.

Bu mövzuda çoxlu sayda bədii əsərlər qələmə alınmışdır. Həmin əsərlərdə quldur-qoçuluğun nadanlıqdan, vəhşilikdən, tərbiyəsizlikdən törədiyi təlqin edilirdi. Ö.F.Nemanzadə "Ağacı qurd içindən yeyər" ("İrşad", 1906, 13 sentyabr) məqaləsində vəhşiliyi, soyğunçuluğu, qoçuluğu, cəhaləti və s. mənfi əməlləri müsəlmanları içəridən yeyən "qurd" hesab edirdi.

Tərbiyə nəzəriyyəçilərimiz öz mülahizə və qənaətlərinin doğruluğunu, faydalı tərəflərini sübut etməkdən ötrü müqayisə və paralellərə də əl atırdılar. Onlar şərqdəki sosial tərbiyə mühitini daha çox Avropa, bəzən də rus, erməni, yəhudi sosial tərbiyə mühiti ilə müqayisə edirdilər. Bu müqayisə fonunda birincinin qüsurlarını, ikincinin uğurlarını qabardır, hansının daha səmərəli olduğunu əyani şəkildə nəzərə çatdırır-dılar. Məsələn, H.Zərdabi "Əkinçi" qəzetinin 9 iyun 1877-ci il tarixli nömrəsində yazırdı: "Nə qədər Avropa əhli bizim təki azadlıqdan bixəbər olub, o vaxtacan bizdən betər avam olub. Amma bu halda azadlıq cəhətcən Avropa əhli çox tərəqqi edib və hər bir işdə bizdən irəli düşüb". (290, 118) Həsən bəy cəmiyyətdəki fikir azadlığının, demokratik dəyərlərin müasir, mütərəqqi tərbiyə mühitinin formalaşmasında müs-təsna dərəcədə əhəmiyyətli rol oynadığını da xatırladır.

M.Şahtaxtlı "Şərqi-rus" (1904, 17 avqust) vasitəsilə oxuculara çatdırırdı ki, Avropada fikir söyləmək azadlığı kimi "tolerant" bir mühit var. Eyni bir şeylə bağlı hər kəs – ziyalı da, adi adam da öz qənaətini söyləyir. Beləliklə, bir məsələ barədə çoxlu fikirlər ortalığa qoyulur. Sonra həmin fikirlər ümumiləşdirilir. Onun içərisindən ən münasib nəticə çıxarılır. Məsələ də çıxarılan nəticəyə əsasən həll edilir. Deməli, zidd, ixtilaflı, fərqli görünən fikirlər, mübahisələr sonda gözəl bir nəticənin hasil olmasına gətirib çıxarır, "nəf", "işıq və

nuranəlik” doğurur. Tərbiyə və ağıl mühitini gözəlləşdirir. (237, 174)

“Mən kiməm” adlı dəyərli risaləsində Qərbin mövcud vəziyyəti ilə Şərqin vəziyyətini geniş şəkildə müqayisə edən Əhməd bəy Ağayev qeyd edirdi ki, Qərb cəmiyyətinin hal-hazırda Şərq cəmiyyətindən üstün və qüvvətli olduğu hamıya aydındır. Həm də Şərq üçün “o qədər də şərəfli olmayan” bir müqayisəni istənilən qədər uzatmaq mümkündür. Amma mətləbləri əsas məsələlər üzərində cəmləşdirmək lazım gəlir. Ə.Ağayev iki cəmiyyətdəki sosial mühitin səciyyəsini ümumiləşmiş şəkildə belə müqayisə edir: “Qərb cəmiyyətinin Şərq cəmiyyətindən qüvvətli olduğu aydındır. İndi bunları bir də altruizm baxımından yan-yana gətirin. Qərbdə altruizm elə hallar almışdır ki, bu, Şərqin təsəvvürünə belə gəlməz. Şərqdə bəzən bir şəxs milyonlar içində yaşadığı halda, Afrikanın çöllərində qalıbmış kimi təkbaşına buraxılır. Xəstələri, acları, evsizləri düşünmür, vecinə almır. Hələ yoxsul və işsiz yaşlıların qayğısına qalmaq, əlillərin fikrini çəkmək kimsənin ağlına belə gəlmir. Qərbdə isə belə deyil. Hər kəsin haqqında düşünülür və nəticədə unudulan bir kimsə qalmır. Qərb cəmiyyəti bütün bunları vətəndaşlarının izzəti-nəfslərini incidən və təhqir edən mərhəmət şəklində deyil, onların qarşısında bir borc və vəzifə kimi yerinə yetirir. Bir qədər də qabağa gedin. Qərbdə hər kəs hər kəsin haqqının, şərəfinin, izzəti-nəfsinin qoruyucusu, zamini olur. Bu mənada zəifin yardımına getmək, güclünün və təcavüzkarın qarşısını kəsmək vətəndaşlıq vəzifəsi sayılır. Şərqdə isə hər kəs “Mənə nə?”, “Nə işimə qalıb ki, gedib başımı bəlaya salım?” – deyə dərhal öz qınına çəkilir.

Şərq üçün o qədər də şərəfli olmayan bu müqayisəni istənilən qədər uzatmaq mümkündür. Lakin bizim məqsədimiz bu deyil. Məqsədim bu vəziyyətin şərqlilərdə, o cümlədən məndə, mənim çölümdə haradan meydana gəldiyini tədqiq etməkdir”. (4, 54)

Əhməd bəy göstərir ki, ictimai mühitdəki bu cür vəziyyət insanların dünyagörüşünə, insana və cəmiyyətə münasibətinə,

fərdi və ictimai baxışlarına, ruhi vəziyyətinə, bir sözlə, onun istər bir fərd, istərsə də ictimai varlıq kimi tərbiyəsinə əsaslı şəkildə təsir göstərir.

Ü.Hacıbəyov "Söhbət" ("Tərəqqi", 1909, 19 avqust) məqaləsində rus, erməni və azərbaycanlı uşaqların həm ailə, həm də yaşadıqları ictimai mühiti müqayisə edir. Rus və erməni uşaqlarının eşitdiyi nədir? Ruh və bədəni tərbiyə edən gözəl musiqi, böyük pedaqoqlar tərəfindən uşaqlar üçün yazılmış şirin hekayələr, ata ilə ananın dostanə söhbətləri, ədəbli qonaqların əziz danışığı. Valideynlər uşaqları gəzdirir, maraqlı yerlərə aparır, maraqlı insanlarla tanış edir, gözəl şeylər göstərirlər. Amma bizim uşaqlar. Eşitdikləri söz söyüş, qarğış, murdar sözlər, gördükləri pis-pis işlər, oynadığı yer natəmiz, tozlu-torpaqlı küçə, oyuncaqları it boğuşdurmaq, pişik boğmaq və s. Üzeyir bəy bu cür tərbiyə mühitini bizim bədbəxtliyimizin ümdə səbəbi hesab edir. (101, 414-415)

Ö.F.Nemanzadə "Xatirələr"ində Gəncədə gördüyü və dəfələrlə müşahidə etdiyi mənzərəni xatırladır. Burada müsəlman uşaqları necə yaşayır, nə ilə məşğul olur. Əksinə erməni uşaqları necə tərbiyə olunur, onların tərbiyəsi üçün necə münasib şərait yaradılır. (189, 419)

M.Hadi də "Şərq ilə Qərbin müqayisəsi" şeirində Şərq və Qərb ictimai-mədəni və siyasi mühitlərinin bədii şəkildə müqayisəsi fonunda bu iki mühitdəki tərbiyə faktoruna da toxunur. İnsan, mühit və tərbiyə problemini bir pedaqoji amil kimi bədii əsərin qayəsinə çevirir.

# II FƏSİL

# YENİ TİPLİ ŞƏXSİYYƏT YETİŞDİRMƏK TƏRBİYƏNİN BAŞLICA VƏZİFƏSİ KİMİ

## 2.1. Qadının cəmiyyətdə rolu və qadın tərbiyəsi haqqında

Azərbaycan milli intibahının əlamətdar bir epoxası kimi səciyyələnən XIX-XX yüzilliklərin hüdudlarında ictimai-pedaqoji və ədəbi-mədəni mühiti məşğul edən mühüm məsələlərdən biri də "tərbiyəti-nisvan", yəni qadın tərbiyəsi problemi idi. Aparıcı, sözün müsbət mənasında hakim və mütərəqqi milli təfəkkür sahibləri aydın dərk edirdilər ki, bunsuz xalqın tam mənada tərəqqisinə, milli xilasına nail olmaq mümkün deyil. Millətin işıqlı gələcəyi yolunda həlli vacib olan ən mühüm komponentlərdən biri də milli toplumun kəmiyyətcə yarıdan çoxunu təşkil edən qadınların təhsili və tərbiyəsidir.

Doğrudur, Azərbaycan milli etnokulturoloji yaddaş və düşüncə sistemində qadına kifayət qədər müsbət, humanist, səmimi münasibətin şahidi oluruq. İstər folklor, istərsə də yazılı bədii ədəbiyyat nümunələrində bunun aşkar təsdiqini görürük. Məsələn, möhtəşəm tərbiyəvi, tarixi və bədii abidə olan "Kitabi-Dədə Qorqud" qadına "Ana haqqı Tanrı haqqı"– məntiqi ilə yanaşır. Bu əzəmətli ideya-tərbiyəvi düstur isə genetik etnokulturoloji ənənə və münasibətdən qaynaqlanır. "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi möhtəşəm eposlarımızda, ayrı-ayrı dastan və nağıllarımızda, xalq yaradıcılığı nümunələrimizdə qadın bərabərhüquqlu, azad, sərbəst, müstəqil fikrə malik, öz atasına, sevgilisinə, qardaşına, cəmiyyət üzvlərinə, topluma fayda verən, cəmiyyətin idarə edilməsində nurlu ağılı, qəhrəmanlığı, gərəkli əməli ilə fərqlənən ictimai varlıq kimi tədqim edilir. Yazılı ədəbiyyatımızda da bu, belədir. N.Gəncəvinin, Ə.Təbrizinin,

Ş.İ.Xətainin, M.Füzulinin, M.P.Vaqifin və s. klassik sənətkarlarımızın əsərləri də bunu aydın şəkildə sübut edir. Bu əsərlərdə qadına ülvi, gözəl, ləyaqətli, nümunəvi, tərbiyəçi qüdrətinə malik məxluq kimi baxılır. Əlbəttə, deyilənlər öz qidasını xalqın təhtəlşüurda qadına bəşəri meyarlarla, humanist ölçülərlə, ideal çərçivə daxilində yanaşma mövqeyindən alır.

Lakin XIX əsrin II yarısı və XX yüzilliyin başlanğıcında Azərbaycanda qadına deyilən münasibət real mənada ancaq bir utopiya şəklində dərk edilə bilərdi. Reallıq və həqiqət bambaşqa, daha doğrusu, o zamanın və orta əsrlərin bütün islam coğrafiyasında olduğu kimi dəhşətli, dözülməz və acınacaqlı idi.

Əlbəttə, islam insanları heç bir dini, irqi, cinsi fərqə görə bir-birindən üstün hesab etməyən ideal bərabərlik dinidir. Bunu Quranın ayələrindən, sünnə və hədislərdən də aydın görmək olar. Quranın "Ən-Nisa" ("Qadınlar"-IV surə) surəsinin 19-cu ayəsində deyilir: "Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir! (Qadınlar) açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin (mehrin) bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin. Əgər onlara nifrət etsəniz (dözün). Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeydə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun". (149, 68) Hətta Quranın "Ət-tövbə" ("Tövbə"-IX surə) surəsinin 71-ci ayəsində "Mömin kişilərlə mömin qadınlar bir-birinə dost, hayandırlar"– hökmü ilə mömin qadın və kişi bir-birinə dost, hayan hesab edilir. (149, 167) Hədisi-şərifdə Məhəmməd peyğəmbər (ə.s.) "Cənnət anaların ayaqları altındadır"– bəyanı ilə qadının nə qədər müqəddəs bir varlıq olduğunu nəzərə çatdırır. Hədislərdə islam peyğəmbəri cəmiyyətin bərabərhüquqlu üzvü kimi qadınların da kişilər kimi elm öyrənməli olduğunu söyləyir: "Hər bir müsəlman kişisinə və qadınına elm öyrənmək lazımdır" ("Taliba-l-ilmə fəridatun alə kulli muslimun va muslimətin").

Quranın, sağlam islam şəriətinin qadına son dərəcə humanist mövqedən yanaşmasına, onun hüquq və azadlığına

normal və bəşəri əxlaq qaydaları prizmasından nəzər yetirdiyinə baxmayaraq müsəlman aləmində əsrlər boyunca o, bir ictimai varlıq kimi, həmişə hüquqsuzluğa, itaətə məhkum edilmiş, ixtiyarı əlindən alınmış, normal təhsil və tərbiyədən (bəzi istisnalar nəzərə alınmazsa) məhrum edilmişdir. Bu isə öz növbəsində müsəlman aləmini tənəzzülə uğradan, ondakı təlim-tərbiyə sisteminə zərbə vuran mühüm faktorlardan birinə çevrilmişdir. Biz XIX-XX yüzilliklərin hüdudlarında yaşamış mütərəqqi fikirli Azərbaycan maarifpərvərlərinin mülahizə və qənaətlərini saf-çürük etdikcə görəcəyik ki, qadına bu cür ədalətsiz münasibətin səbəbkarları din xadimləri, həmçinin onlara şərik çıxan ixtiyarlı adamlar olmuş və bu tədricən islam cəmiyyətinin iri miqyaslı kütləvi faciəsinə çevrilmişdir.

Qadın bir sosial varlıq kimi hüquqsuzdur, ixtiyarsızdır, itaətə məhkumdur, məişət səviyyəsindən yuxarı qalxa bilmir, təhsil və tərbiyə işlərindən kənarda qalır. İctimai mühitin əsiri və köləsidir. XIX əsrin ikinci yarısında bəşər sivilizasiyasının Azərbaycan xalqının qapılarını döydüyü bir tarixi şəraitdə müsəlman regionunun bir hissəsi olaraq Azərbaycan qadının vəziyyəti belə idi. Həm də bu, bəşər mədəniyyətinə qovuşmaq, öz milli varlığını hifz etmək, millətlərin "zindəganlıq davası"ndan qalib çıxmaq yolunda çox böyük əngəl idi.

H.Cavid "Şərq qadını" şeirində müsəlman qadının vəziyyətini, sosial gerçəklikdəki mövqeyini, mənəvi-psixoloji həyatını, düşdüyü mənhus durumun səbəblərini yığcam və dolğun şəkildə belə ümumiləşdirir:

Mən nə idim? Şərqin əzilmiş qadını!
...Mən nə idim? Uf, onu heç sormayınız!
Varlığım bir quru heç!
Keçmişin ən qaba, ən vicdansız,
Kirli dırnaqları qəhr etdi məni.
Görmədim gün işığı;
Doğduğum gündən – əvət – tarixin
Paslı zəncirləri inlətdi məni;
Hər tərəfdən qara bir mövhumat

Pərdələr çəkdi həmən gözlərimə...
Qoparırkən fəryad,
Etdi qanun ilə din istehza
Mənim öksüzcə qırıq sözlərimə. (54, 59)

İctimai mühitdə din də (daha doğrusu, din xadimləri və onların təqsiri, həmçinin maarifsizlik ucbatından yaranan mövhumat, fanatizm və cəhalət də), qanunlar və ənənələr də qadının əleyhinə idi.

Bəs nə etməli?

XIX əsrin 50-ci illərindən – M.F.Axundovdan başlayaraq millət fədailəri həmin maneəni dəf etmək, onun qara və ağır pərdəsini aradan qaldırmaq uğrunda mübarizəyə başladılar.

Dram əsərlərində şərq qadınının cəhalətini, maarifsizliyini, sadəlövhlüyünü, dünyagörüşcə məhdudluğunu, avamlığını yumoristik şəkildə açıb göstərən Mirzə Fətəli "Kəmalüddövlə məktubları" traktatında problemə daha ciddi və kəskin münasibət bildirir. Şərqdəki qadın əsarəti və hüquqsuzluğu məsələsinə toxunub onun aradan qaldırılmalı olduğunu söyləyir. İranın geridə qalmasının əsas səbəblərindən birinin göstərilən məsələ olduğunu nəzərə çatdıran Kəmalüddövlə öz dostu Cəlalüddövləyə maraqlı və mühüm tarixi hadisəni xatırladır. Qeyd edir ki, XI-XIII əsrlərdə İranda hakimiyyətdə olmuş İsmaili hökmdarı Məhəmməd Büzürg Ummidin oğlu Əla-Zikrihissəlam atası öləndən sonra Ələmövt qalasında hakimiyyəti ələ alandan sonra camaat qarşısında belə bir tarixi nitq söylədi: "Ey camaat, qadın tayfasını həbsdə və pərdədə saxlamağın bəşəriyyətin yarısı haqqında böyük zülm olmaqdan başqa, kişi tayfası üçün də saysız-hesabsız zərəri vardır. Bu gündən etibarən qadın tayfasını həbsdə və pərdədə saxlamayın və onları tərbiyəsiz qoymayın. Onların haqqında zülm və cəfanı layiq görməyin. Bir nəfərdən artıq arvad almayın. Necə ki, mənim birdən artıq arvadım yoxdur. Bundan sonra hər kəs öz kiçik qızını, öz oğlu kimi oxumaq və yazmaqla məşğul etməzsə və hər kəs böyük və kiçik, varlı və yoxsul, kim olur olsun,

birdən artıq arvad alarsa, mənim cəzama və şiddətimə müstəhəqq olacaqdır”. (19, 112)

Bu nitqindən sonra Əla-Zikrihissəlam öz zövcəsinə də çadra salıb örtükdə gəzməyi rəva bilmir, onunla vaxtaşırı niqabsız-çadrasız şəhərdə gəzir. Lakin bu işə etiraz edən və onu kafirlik kimi qəbul edən Həsən Namvər (Əla-Zikrihissəlamın zövcəsinin qardaşı) öz qaynını qətlə yetirir. M.F.Axundov bu qətli islam tarixində qara bir ləkə və faciə kimi dəyərləndirir. Kəskinliklə İsmaili hökmdarının əməlinə bəraət qazandırır: “Afərin sənə ey Əla-Zikrihissəlam ki, tarixi-hicrinin müddətində bir sənin kimi əqəl və həkim və zifəzl və sahibi-himmət, sahibi-əzm padişah milləti-islam arasında peyda olmadı ki, bu millətin sivilizasyonuna bais olaydı və bu milləti həmaqətdən və cəhalətdən və bədbəxtlikdən azad edəydi”. (19, 114)

Göründüyü kimi, M.F.Axundov qadının əsarətdən və köləlikdən qurtuluşunu bütövlükdə millətin sivilizasiyaya qovuşmasında, nadanlıqdan, cəhalətdən və bədbəxtlikdən xilasında əsas amil hesab edir.

Mirzə Fətəli H.Zərdabiyə göndərdiyi 1 yanvar 1877-ci il tarixli məktubunda Azərbaycanda qadınların təhsili məsələsini aktual bir problem kimi irəli sürür. Həmin məktub “Milləti-vəkili-naməlum” imzası ilə “Əkinçi” qəzetində (1 yanvar, 1877) dərc olunmuşdur. Məktubda müəllif Həsən bəyə yazır ki: “Sən hər qəzetində biz müsəlman tayfasına elmin fəzilətini və səməratını zikr edib, bizə hey təklif edirsən, elm öyrənün, elm öyrənün!... Çox yaxşı, sözün bamənə və nəsihətin mufid və xeyirxahlığın sabit. Bizə de görək, elmi harada öyrənək və kimdən öyrənək və hansı dildə öyrənək?... Aya, ünas və kənd əhalimiz necə etsinlər?” (20, 254) Müəllif Həsən bəyin millətin tərəqqisi barədə böyük ideallarının yalnız o zaman həyata keçə biləcəyini söyləyir ki, “bizim hətta çobanımız da Prus çobanları kibi oxumaq, yazmaq bilələr və ünas tayfamız da oxumaq bilə”. (20, 255)

H.Zərdabi uzaqgörən bir ziyalı və vətəndaş kimi öz həmkarının irəli sürdüyü fikrə şərik çıxmış, onun nəzəri təlqini

və əməli icrası yolunda fədakarlıqla çalışmışdır. Bu mənada naşiri və redaktoru olduğu "Əkinçi" qəzetinin gördüyü işlər əvəzsizdir.

Öz səhifələrində milli intibah və milli tərəqqinin ilkin, həm də vacib bir sıra problemlərinə toxunan "Əkinçi" (1875-1877) qəzeti qadın təhsili və tərbiyəsi məsələsini də tarixi-pedaqoji, ictimai-mədəni bir vəzifə kimi önə çəkir. Qəzet sosial mühitdə yalnız kişilərin deyil, qadınların da təlim və tərbiyəyə cəlb edilməsini müasir həyatın aktual bir problemi kimi qabardır. Göstərir və əsaslandırır ki, cəmiyyətin və xalqın istiqbalı böyüməkdə olan nəslin necə tərbiyə olunmasından asılıdır. Həmin tərbiyənin ilk bünövrəsi ailədə qoyulduğundan burada atanın rolu nə qədər gərəklidirsə, ananın rolu da bir o qədər önəmlidir. Məktəbdən öncə uşaq tərbiyəni həm ata, həm də anasından aldığından onların hər ikisi tərbiyənin subyektləri kimi öz övladlarının tərbiyəsində, nəticə etibarı ilə gələcək taleyində eyni dərəcədə məsuldurlar. Tərbiyəli valideynin tərbiyəli övlad böyüdəcəyi bəlli olduğu kimi, tərbiyəsiz ata-ananın da tərbiyəsiz uşaq yetişdirəcəyi hamıya aydındır. Deməli, ata ilə yanaşı ananın da normal tərbiyə, bilik və dünyagörüşə yiyələnməsi vacib şərtdir. Qəzet 11 iyul 1876-cı il tarixli nömrəsindəki "Məktubat" sərlövhəli məqaləsində yazırdı: "Lakin hər bir çocuq məktəbxanalardan əvvəl birinci dərəcə gərək tərbiyət və tərbiyəsizliyi öz pədər və anasından öyrənməlidirlər. Ona binaən hər kəs daima mədyundur ki, övladına mədəniyyəti öyrədib, tərbiyət versin ki, ol çocuq da irəlidə insanın tamam sifəti ilə dünyada günlər və saatlar keçirtsin. Bu əfkar dəxi hər bir anada bulunması lazimədəndir. Bir kərə düşünməlisiniz ki, bu həzaran səbt etmək və fəna sözlər söyləmək, əcəba çocuqlar bunları kitabdamı oxuyurlar? Haşa. Bu lüğətlər heç bir zaman çap olunmamış və olunmaz. Ancaq övladlar körpə zamanı öz pədər və analarından öyrəniblər. Çox pədər övladımı söyərəm deyib, başlar ona fəna sözlər öyrətməyə, zavallı çocuq da yaman sözlər ağzından çıxartmağa adət edib, sonra eşiyə çıxdığı vaxtda dəxi bu misilli bir çənd

sözlər tərbiyəsiz yoldaşlardan eşidib, günbəgün artmağa başlar və belə böyüdüyünə mədəniyyətdən məhrum olur. Əgər pədərləri və anaları tərəfindən kömək olmasa, yalqız məktəb çocuğu tərbiyə və mədəniyyət sahibi etməyə məqdur deyil". (88, 201)

Göründüyü kimi, qəzet "tərbiyə və mədəniyyət sahibi" olmayan ana tərbiyəli və mədəni övlad böyüdə bilməz ideyasını ortalığa qoyur.

Qəzetin həmin nömrəsindəki "Elm xəbərləri" rubrikasında Osmanlı dövlətində Avropa tipli məktəblərin, xüsusilə də hərbi kadr yetirən tədris-təlim ocaqlarının yaradılmasından bəhs edilir. Göstərilir ki, bu məktəblərin sayı nə qədər artsa da, onların faydası az olur. Ona görə ki, həmin maarif ocaqlarında qadınlar deyil, yalnız kişilər təhsil alır: "Çünki tərbiyətin binası ana ilədir, uşaq 7-8 yaşına gəlincə ona ana tərbiyət edir, ona binaən unas tayfası tərbiyəsiz qaldığına, Osmanlı dövlətinin kişilərə elm öyrətməyindən ol qədər nəf olmur". (88, 202)

H.Zərdabinin "Kaspi" qəzetində (1903, №50) çap olunan "Yeni qadın təhsil müəssisəsinin layihəsi haqqında" ("К проекту о новом женском учебном заведении") sərlövhəli mətbu məqaləsində A.N.Saparovun Bakıda ikinci qadın gimnaziyasının təsis edilməsi ilə əlaqədar tərtib etdiyi layihədən, bu layihədəki çatışmazlıqlardan bəhs edilir, təhsil ocağının mütərəqqi məzmunda fəaliyyəti üçün bir sıra dəyərli təkliflər irəli sürülür. (323, 452-454)

Azərbaycan qızlarının təhsil və tərbiyəsini düşünən Həsən bəy Bakıda qız məktəbi açmaq fikrinə düşdü. Bu münasibətlə o, 19 yanvar 1896-cı il tarixli ərizə ilə Bakı qubernatoruna müraciət edərək Bakıda müsəlman qızları üçün təhsil müddəti üç il olan birsinifli təhsil müəssisəsi açmağa icazə istədi. Lakin onun bu təklifi "siyasi cəhətdən şübhəli və etibarsız" olduğuna görə rədd edildi. Belə ki, Göyçay qəza rəisinin onun barəsində Bakı general-qubernatoruna göndərdiyi 29 fevral 1896-cı il tarixli məktubunda göstərilirdi ki, o, "öz məqalələri və şifahi çıxışları ilə kəndliləri müntəzəm surətdə həyəcana gətirir və

bütün maddələr üzrə siyasi cəhətdən etibarsız və dövlət üçün təhlükəli"dir. (81, 447)

"Əkinçi"dən sonra Azərbaycan ictimai-mədəni səhnəsinə gələn "Ziya" ("Ziyayi-Qafqaziyyə"– 1879-1884) qəzeti də ardıcıl və əsaslı şəkildə olmasa da, bir sıra məsələlərdə "Əkinçi" ənənələrini davam etdirirdi. Qəzet "bizim batərbiyə olmağımız"ın, millətlər yarışında və mücadiləsində geridə qalmağımızın səbəblərini axtarır, bu səbəblərdən birini də bizdə qız məktəblərinin, başqa sözlə, qadın tərbiyəsinin və tərbiyə ocaqlarının olmamasında görürdü. Xalqın istedadını üzə çıxarmaq, inkişaf etdirmək üçün mətbəələr yaratmaq, kitabxanalar və oğlan məktəbləri açmaq, mətbuat orqanları ərsəyə gətirməklə yanaşı qızlardan ötrü təhsil-tərbiyə ocaqları meydana gətirmək də tərəqqi yolunun mühüm vasitələrindən biri kimi xatırlanırdı. Qəzet zikr olunan məsələ ilə əlaqədar öz mövqeyini belə bildirirdi: "Hər millətin basməxanəsi və kitabxanəsi və böyük və kiçik oğlan və qız məktəbləri və növbənöv mətbuatləri tərəqqidə olə-olə bizlər nə səbəbə görə əlimizi qoynimizə qoyub yəpalağ kimi gözümüzi dögəg və bihudə xiyalətə qərq olaq. Məgər bizdə istedad yoxdur? Məgər bizdə pul və əsbab və himmət yoxdur? Məgər bizlər laşey (heç nə – red.) hesabindəyük? Hansı millət özüni bu qisim nadanliğə təslim idər. Mətbumiz olan dövlət və həmcəvar olduğimiz millətlər dəxi bizim batərbiyə olmağimiz ilə xoşnud olub bir parə zəhmətlərdən qurtardilər". (292, 99)

Haqqında danışdığımız dövrün görkəmli ideya münəvvərlərindən olan M.Şahtaxtlı öz yaradıcılığında qadın tərbiyəsi probleminə daha geniş yer verir. "Türkiyəni necə xilas etməli?" adlı maraqlı və məzmunlu risaləsində o, Türkiyənin o zamankı bəlalarından, onu geridə qoyan səbəblərdən birinin də qadın hüquqsuzluğu, qadının ictimai ierarxiyada ikinci plana keçirilməsi, ona münasibətin bəsirətsizliyi olduğunu söyləyir. Bunu faktlarla izah edir. İslam dininin çoxarvadlılığa rəvac verdiyini, bunun cəmiyyətin müqəddəs hüceyrəsi olan ailəyə, onun sağlamlığına ciddi xələl gətirdiyini qeyd edir. Nəzərə

çatdırır ki, keçmişdə qadına böyük hörmət bəsləyən türklərə "bəşəri cəmiyyətin əsası olan ailəni dağıdan və əxlaqsızlaşdıran çoxarvadlılığı" məhz İslam dini gətirmişdir. Kişilərlə bərabər hüquqdan məhrum edilən, evlərdə həmişə gizli, dörd divar arasında qalmağa məcbur edilən qadınlar özlərində yaranmış ruh düşkünlüyü və hərəkətsizlik kimi çatışmazlıqları övladlarına da ötürməli və təlqin etməli olurlar. Müsəlman qadınlarının düşdüyü pis vəziyyət onsuz da mənasız olan müsəlman həyatını daha da sönük və cazibəsiz edir. Ona görə də ilk növbədə çoxarvadlılığı ləğv etmək, daha sonra cəmiyyətdə "şəxsiyyət azadlığı elan etmək lazımdır". (237, 46-48)

M.Şahtaxtlı "Şərqi-rus" (1904) qəzetində "Hər gün bir az" sərlövhəsi ilə çıxan silsilə yazılarında Avropada qadınların ictimai mövqe və hüquqları ilə şərq (islam) qadınlarının hüquq və mövqelərini müqayisə edir. Avropalılardan nümunə götürməyə, onların uğurlu praktikasından yararlanmağa, islam aləmində də qadınlara kişilərlə bərabər hüquq verməyə, onların azadlığını, sərbəstliyini təmin etməyə çağırır: "Bizim müsəlman arvadlarına nisbətən Avropa arvadlarının bu qədər çox imtiyazları olduğu halda Avropa arvadları yenə öz halətlərinə qane olmayıb, daha ziyadə hüquq alıb, kişilərlə müsavi (bərabər) olmağa çalışırlar. Madam ki, mədəni və maarifməndə millətlər arvadların hürriyyətinə və hüquqca musavatına bu qədər əhəmiyyət verirlər. Biz şərqlilər də arvad məsələsinə əhəmiyyət verib, əhli-nisamızın şimdiki halda haiz olduqları halətin millətimizin səadətinə müzirr və ya nafe olduğuna dair ciddi və istiqamətli tətəbbüata girişməmizin, aya, vaxtı gəlməmişmidir?" (237, 115)

M.Şahtaxtlı övladın tərbiyəsində atadan daha çox ananın təsiri və rolu olduğunu israr edir. Ananın hüquqsuzluğunun, ətalətinin, mənəvi və cismani süstlüyünün övlada sirayət etdiyini aydınlaşdırır. Bu mənada qadınların sərbəstliyinə, çadrasız gəzməsinə xüsusi önəm verir. Ananın azadlığının, üzüaçıq gəzməsinin, mənəvi və cismani buxovlardan qurtuluşunun bərqərar edilməsini böyüməkdə olan nəslin, nəhayət, bütövlükdə

cəmiyyətin, xalqın xilası hesab edir: “Çün analar uşaqlarının təbii mürəbbiləridir, ona görə bu növ ruhanizədəlilik, vicdanizəbunluq biçarəlik analardan övladlara keçib, qövmün, nasionun, millətin hamısını natəvanlıq, qüdrətsizlik və çarəsizlik oduna yandırır. Həqqa ki, bu dərd Şərqin qədimi xəstəliyi, naxoşluğu, tarixi bəlasidir”. (237, 139) Müəllifin fikrincə cocuqlar “təmayülatını, hissiyyatını anasından iqtibas edər, atasından eyləməz. İnsanların rəhbərləri arvadlardır, kişilər deyildirlər”. Ona görə də hansı cəmiyyətdə arvad üzü örtülü, süst, ixtiyarsız, zəif olarsa, o cəmiyyətin kişiləri də “iqdamsız, məqasidlərindən səbat və mətanətsiz olub, müfəssəl və böyük işlərə naqabil olurlar”. (237, 136) Müəllif israrla çağırış edir ki: “Ey bəsirətli türk və tatar oğlu! Əgər öz əlin ilə öz gövmini, öz cinsini, öz millətini, öz nasiyonunu qəbrə soxmaq istəməzsən, əlindən nə gəlirsə, müzayiqə etmə ki, bizim arvadlarımız da avropalılarınkı kimi üzü açıq gəzsinlər”. (237, 136)

Görkəmli dramaturq N.Vəzirov XIX əsrin 70-90-cı illərində qələmə aldığı dram əsərlərində Azərbaycan qadınlarının acınacaqlı güzəranını, sıxıntılı yaşayışını, cəhalətini, savadsızlığını, məhdud düşüncə tərzini, maarifsizliyini açıb göstərmişdir. Onun təxminən 1873-1874-cü illərdə yazdığı “Qaragünlü” faciəsində (əsərin mətni itmişdir) özünün dediyi kimi “əri ölüb dul qalmış bir qadının halı” təsvir edilir ki, “qayını onu cəbrən özünə arvad etmək istəyirmiş”. (135, 455)

“Yeni irşad” qəzetində (1911, 18 sentyabr) “Dərviş” imzası ilə dərc olunan bir mütəfərriqəsində N.Vəzirov ananın tərbiyədə və bu mənada millətin gələcəyindəki əvəzedilməz rolunu nəzərdə tutaraq deyir: “...Tərbiyəli ana gərək tərbiyəli bala yetirsin... Bundan sonra ümidimi hər tərəfdən kəsib, atam, dəxi düşəcəyəm analar qapısına: analar, sizi and verirəm o məhəbbətə, hansı ki, övladınıza var, bizi bu təhlükədən qurtarmaq adilə ömrünüzü sərf edin elmə və elm gücilə tərbiyə verən balalarınıza, hansılar ki, bir tək sizin

təhti-nəzarətinizdədirlər və möhtacdırlar ana tərbiyəsinə! Xudaya, dərvişin bu naləsini icabətə yetir!" (264, 278)

XIX əsrin tanınmış Azərbaycan pedaqoqlarından olan Məmməd Tağı Səfərovun (Sidqi) yaradıcılığında da qadınların təhsil və tərbiyəsinə xüsusi diqqət ayrılır. Bu mənada onun "Töhfeyi-bənan və ya qızlara hədiyyə" adlı əsəri xüsusi maraq doğurur. Ailə tərbiyəsinə geniş yer verilən bu əsərdə "müəllif tərbiyəli, mədəni anaları təqdir edir, onların necə ülvi, alicənab xüsusiyyətlərə malik olduğunu göstərir", "qadına feodal-bəy münasibəti göstərən, onların təlim-tərbiyəsi qayğısına qalmayan cahilləri pisləyir". (178, 63)

XIX əsrdə orta əsrlərin ənənəsinə uyğun olaraq azərbaycanlı qızların təhsil alması sahəsində acınacaqlı, böhranlı bir vəziyyət hökm sürürdü. Müəyyən istisnaları (az-az varlı və vəzifəli şəxslərin qızlarına bəzən fərdi qaydada yüksək təhsil verirdilər) çıxmaq şərtilə qızlar ən uzağı mollaxanada elementar təhsil alır, ibtidai şəkildə Quranı, yazı-pozu və şəriət qaydalarını öyrənirdi. Bu xoşbəxtlik də müsəlman qızlarının az bir qisminə nəsib olurdu. Qızlar mollaxanada və ya fərdi evlərdə bəzən oğlanlarla birlikdə, bəzən də ayrıca təlim alırdılar. Bundan əlavə ruhani təhsili alan qadınlar da yox deyildi. Hətta 1851-ci ilin məlumatına görə əsrin ortalarında Bakıda ruhani təhsili alan kişilərin sayı 82, qadınların sayı isə 91 nəfər, yəni kişilərdən çox idi. (364)

Bu dövrdə qızlardan ötrü bəzi xüsusi məktəblər də mövcud idi. Məxəzlərdə həmin məktəblərdən bəziləri barədə ötəri də olsa, müəyyən məlumatlar hifz olunur. Məsələn, 1857-ci ilə aid Y.A.Qaqemeystrin "Şamaxı quberniyasının statistik təsviri..." məqaləsində Bakıda Xırdaxanım və Səkinə adlı iki qadının öz evlərində xüsusi qız məktəbləri açdıqları göstərilir. O da əlavə edilir ki, həmin məktəblərdə dini dərslərlə yanaşı, bəzi dünyəvi dərslər də tədris edilir, həmçinin şagirdlərə müəyyən əl işləri, o cümlədən ipək saplarla tikiş tikmək öyrədilir. (313, 16)

Tanınmış xüsusi qız məktəblərindən biri də savadı və qabiliyyəti ilə seçilən maarifpərvər qadın Güllübəyim xanım

tərəfindən Şamaxı şəhərində açılmışdı. Burada mollaxanalardan fərqli olaraq şəriət fənni ilə yanaşı ana dili, fars dili, tarix, hesab, nəğmə, rəsm və əl əməyi fənləri də tədris edilirdi. N.S.Stepanova Qafqazı səyahət edərkən Xırdaxanımın və Güllübəyimin məktəblərində olmuş, "İki il Qafqazda" kitabında həmin tədris ocaqlarından ağızdolusu danışmışdı. (368, 51)

Arxiv sənədlərində XIX əsrin 60-cı illərində Gəncədə iki ruhani qadının evdə xüsusi məktəb açıb qızlara dərs dediyi, məktəbdə cəmi 55 qız şagirdinin olduğu qeyd edilir. (81, 409)

1880-1890-cı illərdə Gəncədə Züleyxa Poladzadə adlı savadlı bir qadının öz evində məktəb açıb qızlara yeni üsulla dərs dediyi, Salyan, Şuşa, Lənkəran və s. yerlərdə də bu tipli qız məktəblərinin olduğu da bəllidir.

M.T.Sidqinin 1896-cı ildə Naxçıvanda açdığı qız məktəbi fanatik müsəlmanların ciddi etirazı ilə qarşılansa da, fəaliyyətini bir müddət davam etdirə bilmişdi. C.Məmmədquluzadə 1893-cü ildə Nehrəm kəndində məktəb müdiri olarkən 8 qızı məktəbə cəlb etmiş, 1894-cü ildə Şəkidə tərəqqipərvər müəllim Məhəmməd Əmin Şeyxzadə dərs dediyi "Darüssəda" məktəbinin nəzdində qızlardan ötrü ayrıca sinif açmışdı. Haqqında danışdığımız bu tip məktəblərdə "dərs deyən müəllimlər qızların əxlaq tərbiyəsinə xüsusi fikir verir, onlara yüksək, alicənab keyfiyyətlər təlqin edirdilər. Vətənə, xalqa məhəbbət, dostluq və yoldaşlıq, nəciblik, sadəlik, xeyirxahlıq bu tərbiyənin əsasını təşkil edirdi. Müəllimlər çox çətin də olsa, məktəb tərbiyəsini ailə tərbiyəsi ilə birləşdirməyə, valideynlərlə əlaqə yaratmağa səy göstərirdilər. Lakin şəxsi evlərdə və oğlan məktəblərinin nəzdində təşkil edilən bu təhsil ocaqlarının ömrü az olduğundan az-çox savad öyrənən qızlar oxumaqdan məhrum olurdular". (178, 111) Bununla belə həmin məktəblər gələcək yeni üsullu tədris ocaqlarının açılmasına, "üsuli-cədid" hərəkatının rəvac tapmasına, maarif həyatının canlanmasına stimul verirdi.

XIX əsrin əvvəllərində Azərbaycan da daxil olmaqla Qafqazın Rusiya tərəfindən işğalından sonra tədricən həmin

regionun müxtəlif məntəqələrində çarizmin siyasi məqsədlərinə xidmət edən rusdilli məktəblər təsis olunmağa başladı. Əvvəllər daha çox oğlanların təhsil alması üçün açılan bu cür təhsil ocaqlarının şəbəkəsi tədricən genişləndi. Nəhayət, qızlar üçün də məktəblər açmaq zərurəti ortalığa çıxdı. 1846-cı il mayın 5-ində Tiflisdə, 1847-ci il mayın 14-də Kutaisidə “Müqəddəs Nina” xeyriyyə cəmiyyətinin təşəbbüsü və Qafqaz canişini Y.K.Vorontsovun köməkliyi ilə qız məktəbləri açıldı. Qafqazda fəaliyyətə başlayan müasir məzmunlu bu məktəblərdə təhsil rus dilində aparılırdı. Bir il sonra, yəni 30 aprel 1848-ci ildə “Müqəddəs Nina” qadın xeyriyyə cəmiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə Şamaxıda eyni tipdə rus qız məktəbi fəaliyyətə başladı. Bu, Azərbaycanda qızlar üçün Avropa tipli ilk təhsil ocağı idi.

1850-cı ildə yanvar ayının 1-də Müqəddəs Ripsimi xeyriyyə cəmiyyəti başqa bir Azərbaycan şəhəri İrəvanda qız məktəbi yaratmağa nail oldu. 1851-ci ildə həmin maarif müəssisəsində 21 nəfər qız uşağı təhsil alırdı. Onlardan 3-ü azərbaycanlı, 5-i rus, 13-ü erməni idi. (325, 445) Məktəbdə həftədə 4 saat olmaqla Azərbaycan dili də tədris edilirdi. 1859-cu ildə Şamaxıda baş verən zəlzələ səbəbindən oradakı qız məktəbinin fəaliyyəti süstləşdi və 1861-ci ilin oktyabrında məktəb yeni quberniya mərkəzinə – Bakıya köçürüldü.

Edilən təşəbbüslərə baxmayaraq “XIX əsrin ortalarında cəmi Qafqazda olduğu kimi Azərbaycanda da qadın təhsili ağır vəziyyətdə idi. Düzgün təşkil edilmiş yeganə “Müqəddəs Nina” qız məktəbi nəzərə alınmazsa, qızların təhsili, ümumiyyətlə unudulmuşdu. Göstərilən məktəbdə, əsasən, digər millətlərdən olan yuxarı təbəqələrin, dövlət məmurlarının qızları oxuyurdu. Azərbaycanlı qızları demək olar ki, təhsildən məhrum idi. Tək-tək yerlərdə xüsusi adamlar öz qızlarına təhsil verirdilər ki, bu da bir çox halda dini xarakter daşıyırdı. Əhalinin nəinki aşağı təbəqələri, hətta orta təbəqələri belə düzgün təşkil edilmiş qadın təhsilindən məhrum idi. Bu cəhəti etiraf edən Rusiya XMN 1856-cı ildə açıqcasına yazırdı:

“Bu vaxtadək xeyriyyə cəmiyyətləri hesabına olan yeganə qız məktəbləri yalnız dvoryan və çinovnik uşaqları üçündür. Quberniya və qəza şəhərlərində yaşayan orta təbəqələr öz qızlarına müvafiq təhsil verməkdən məhrumdurlar”

Geniş əhali kütləsinin təhsili isə hökuməti maraqlandırmırdı. Bu vaxt şəhərlərdə əhalinin xeyli hissəsini qadınlar təşkil etməsinə baxmayaraq, qadın təhsilinin vəziyyəti çox-çox aşağı idi”. (81, 418)

1860-cı illərdə Rusiyada baş verən ictimai hərəkat və islahatlar maarif şəbəkəsinin genişlənməsinə də xeyli dərəcədə təsir göstərdi. 1864-cü ildə Tiflisdə, bunun ardınca Pyatiqorskidə, Teymurxanşurada, o cümlədən Dərbənd və Zaqatala kimi Azərbaycan şəhərlərində bütün dərəcələr və təbəqələrdən olan qızlar üçün birinci dərəcəli qız məktəbləri yaradıldı.

1867-ci ildə Gəncədə təhsil haqqı aşağı olduğuna görə yoxsul uşaqlarının da təhsil aldığı xüsusi qız məktəbi açıldı. M.Yengibarova tərəfindən açılmış bu məktəbdə qızlara ibtidai savad və rus dili öyrədilirdi. (99)

Bakıdakı “Müqəddəs Nina” qız məktəbinin bazası əsasında 1874-cü ildə müstəqil qız gimnaziyası təsis edildi. 1880-ci ildə burada əlavə VIII sinif də açıldı. Həmin sinif pedaqoji sinif kimi nəzərdə tutulurdu. “Əsrin sonlarında, 1896/97-ci dərs ilində burada 576 şagird təhsil alırdı. Milli tərkibinə görə şagirdlərin 313 nəfərini ruslar, 134 nəfərini ermənilər (23,1%) təşkil edirdi. Şagirdlərin arasında cəmi bir azərbaycanlı qız var idi”. (223, 426)

26 oktyabr 1875-ci ildə Şuşada xeyriyyə cəmiyyəti tərəfindən qız məktəbi açıldı. 1885-ci ildə yanvarın 14-də Gəncədə “Müqəddəs Nina” qız məktəbi fəaliyyətə başladı. 1889-cu ildə məktəb progimnaziyaya çevrildi. Ancaq orada təhsil alan 132 qızın hamısı qeyri-azərbaycanlı (rus, erməni, yəhudi, gürcü və s.) idi. Yalnız 1901-ci ildə orada cəmi bir nəfər azərbaycanlı qız oxuyurdu.

Ləng də olsa, azərbaycanlı qızların dünyəvi təhsil müəssisələrindəki sayı artırdı. “1876-cı ilin məlumatına görə İrəvan-Gəncə quberniyaları xalq məktəbləri direksiyası üzrə 647, Bakı-Dağıstan direksiyası üzrə isə 376 azərbaycanlı qız təhsil alırdı”. (81, 435)

70-ci illərdən etibarən Azərbaycan ictimai-pedaqoji həyatında müsəlman qızları üçün ayrıca məktəb açmaq ideyası yarandı. Bu ideyanın ilk təşəbbüskarı H.Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikova-Abayeva idi. “Qafqaz” qəzetinin 1872-ci il tarixli 134-cü nömrəsindəki bir məlumat bunu aydın şəkildə sübut edir. Lakin çar siyasətçiləri bu ideyanı həyata keçirməyə icazə vermədilər. 90-cı illərdə Qafqaz müftisi və şeyxülislamının da canfəşanlığı ilə bu işə yenidən təşəbbüs edildi. Bu münasibətlə F.Köçərli “Novoye obozreniye” qəzetinin 1895-ci il tarixli 4115-ci nömrəsində dərc olunan “Qadınların vəziyyəti və müsəlman uşaqlarının tərbiyəsi” adlı məqaləsində yazırdı: “Müsəlman qız məktəbinin açılması Qafqaz müsəlmanlarının tarixində yeni dövrün başlanğıcı olacaqdır”. (125) Lakin XIX əsr boyunca həmin işi həyata keçirmək mümkün olmadı və o, yalnız 1901-cı ildə – XX yüzilliyin başlanğıcında reallaşa bildi.

1897-ci ildə Rusiya imperiyasında əhalinin siyahıya alınması keçirildi. Onun Qafqaz üzrə nəticələri 1907-ci ildə “Kavkazskiy kalendar”da (330, 329) cədvəl şəklində dərc edilmişdir. Cədvəllərdən biri də Gəncə və Bakı quberniyasına aiddir. Burada həm əhalinin quberniya və qəzalar üzrə ümumi sayı, həm də cinsinə və savadına (təhsilinə) görə təsnifatı verilmişdir. Maraq və xüsusi əhəmiyyət kəsb etdiyi üçün aşağıda verdiyimiz həmin cədvəldən görünür ki, Gəncə və Bakı quberniyalarında savadlıların müəyyən qismini də qadınlar təşkil edir. Lakin burada milliyyət göstərilmir. Unutmayaq ki, göstərilən savadlı qadınlara aid rəqəmlərin çəki etibarı ilə əksəriyyətini qeyri-müsəlman (rus, erməni, yəhudi və s.) qadınları təşkil edir. Azərbaycanlı qadınların buradakı çəkisi və payı son dərəcə cüzidir:

| Quberniyanın, vilayətin, qəzanın, şəhərin adı | Əhalinin sayı | | O cümlədən savadlıların sayı | | Savadlıların sayı faizlə | |
|---|---|---|---|---|---|---|
| | kişi | qadın | kişi | qadın | kişi | qadın |
| Bakı quberniyası: | | | | | | |
| Bakı | 41555 | 29438 | 4985 | 1060 | 12,0 | 3,6 |
| Göyçay | 62785 | 52717 | 1665 | 208 | 2,6 | 0,4 |
| Cavad | 88611 | 79268 | 2405 | 235 | 2,7 | 0,3 |
| Lənkəran | 67831 | 54423 | 3279 | 1042 | 4,8 | 1,9 |
| Şamaxı | 54269 | 47566 | 2752 | 208 | 5,1 | 0,4 |
| Cəmi: | 360551 | 296170 | 17016 | 2977 | 4,7 | 1,0 |
| Şəhərlər: | | | | | | |
| Bakı | 66893 | 45011 | 26386 | 9931 | 39,4 | 22,1 |
| Göyçay | 1348 | 553 | 401 | 50 | 29,7 | 5,9 |
| Salyan | 5989 | 5798 | 930 | 68 | 15,5 | 1,2 |
| Quba | 8160 | 7203 | 2059 | 278 | 25,2 | 3,9 |
| Lənkəran | 4661 | 4072 | 1203 | 419 | 12,8 | 10,3 |
| Şamaxı | 10463 | 9544 | 2711 | 515 | 25,9 | 5,4 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Quberniyada cəmi: | 458065 | 368651 | 50706 | 14238 | 11,1 | 3,8 |
| Gəncə quberniyası: | | | | | | |
| Gəncə | 71846 | 57317 | 5077 | 1443 | 7,1 | 2,5 |
| Cəbrayıl | 36020 | 29820 | 1903 | 173 | 5,3 | 0,6 |
| Cavanşir | 40543 | 31424 | 1214 | 68 | 3,0 | 0,2 |
| Zəngəzur | 71765 | 64656 | 3049 | 169 | 4,5 | 0,3 |
| Qazax | 62022 | 48283 | 3296 | 447 | 5,3 | 0,9 |
| Nuxa | 51999 | 43822 | 2576 | 115 | 4,9 | 0,3 |
| Şuşa | 60853 | 52037 | 3234 | 222 | 5,3 | 0,4 |
| Cəmi: | 431237 | 357918 | 21470 | 2697 | 5,0 | 0,7 |
| Şəhərlər: | | | | | | |
| Gəncə | 13738 | 14887 | 5952 | 1879 | 31,7 | 12,6 |
| Ağdaş | 434 | 94 | 120 | 19 | 27,6 | 20,6 |
| Cəbrayıl | 369 | 151 | 169 | 20 | 45,8 | 13,2 |
| Tərtər | 496 | 256 | 106 | 13 | 21,4 | 5,1 |
| Korus | 827 | 623 | 311 | 64 | 37,6 | 10,3 |
| Qazax | 1348 | 421 | 538 | 83 | 39,9 | 19,7 |
| Nuxa | 13245 | 11489 | 1953 | 466 | 14,7 | 4,1 |
| Şuşa | 13318 | 12563 | 4669 | 1529 | 35,0 | 12,2 |
| Quberniyada cəmi: | 480012 | 398403 | 35280 | 5700 | 7,35 | 1,7 |

Azərbaycan ədəbi-mədəni, maarifçi-pedaqoji fikrində qadına qarşı XIX əsrin ortalarından kök salan mütərəqqi münasibət sonrakı onilliklər boyunca tədricən genişləndi. XX yüzilliyin əvvəllərində isə daha da gurlaşdı, şaxələndi, tərəqqipərvər ziyalı elitası çərçivəsində kütləviləşdi. Bu mənada istər "Molla Nəsrəddin"çilərin, istər "Füyuzat"çıların, istərsə də digər maarifçilərin gördükləri işlər, həqiqətən, təqdirəlayiqdir. Əhəmiyyətli ictimai-tarixi, mədəni-pedaqoji məna kəsb edir.

Məlum olduğu kimi, "Molla Nəsrəddin" (1906-1931, naşiri və redaktoru C.Məmmədquluzadə) və "Füyuzat" (1906-1907, naşiri və redaktoru Ə.Hüseynzadə) jurnalları XX əsrin əvvəllərindəki Azərbaycan ədəbi-mədəni, ictimai-pedaqoji həyatında, maarifçilik hərəkatında, milli ideya və idealların oyanmasında, intişarında misilsiz rol oynadı. Bu jurnalların ətrafında toplaşanlar C.Məmmədquluzadə və Ə.Hüseynzadə başda olmaqla başqa sferalarda olduğu kimi qadın tərbiyəsi, müsəlman qadınının ictimai-mədəni mühitdə rolunun və mövqeyinin artırılması, təhsilə və yeni tərbiyə sisteminə cəlb edilməsi sahəsində də mühüm təbliğat-təşviqat işləri gördülər. Deyilən problemi vacib bir milli qayə, mütərəqqi ideya kimi şüurlara yeritməkdə, kütləviləşdirməkdə, ictimaiyyətə başa salmaqda diqqətəlayiq addımlar atdılar.

1905-ci ildə (5 oktyabr) C.Məmmədquluzadənin rus dilində dərc edilən "Vozrojdeniye" qəzetində "Bəs Asipova xanımın müsəlman qızları üçün məktəbi necə oldu?" sərlövhəli məqaləsi çap olunur. Həmin məqalədə müəllif istər rəsmi hökumət dairələri, istərsə də yerli dini-ruhani rəhbərlər olan Qafqaz müftisi və şeyxülislamı tərəfindən Tiflisdə müsəlman qız məktəbinin açılmasına bəslənilən biganə, soyuq münasibəti kəskin şəkildə tənqid edir. "Axı kim və nə vaxt bədbəxt müsəlman qızlarının acınacaqlı vəziyyətini yada salıb düşünəcəkdir?"– sualı ilə ictimaiyyətə müraciət edən müəllif nəzərə çatdırır ki, dövlət məmurlarının bu işə maneəçilik törətməsinin səbəbləri bəllidir. Onlardan ötrü müsəlman qadınlarının təhsil alması qətiyyən maraqlı deyil. Bəs Qafqaz

müftisinin və şeyxülislamın məsələyə laqeyd yanaşmasının səbəbi nədir? Bu, millətə və vətənə biganəlikdən başqa bir şey deyildir. (167, 18-19)

Naşiri olduğu "Molla Nəsrəddin" satirik jurnalında Mirzə Cəlilin "tərbiyəti-nisvan" probleminin rəngarəng və aktual məsələlərinə həsr olunmuş məzmunlu və təsirli felyetonları, məqalələri çap olunmuşdur. Bunlardan "Keçən günlər" (1906, №24), "Erməni və müsəlman övrətləri" (1907, №20), "Qafqaz şeyxül-islamına iki dənə açıq məktub" (1907, №22), "Xanımlara" (1907, №31), "Mırt-mırt" (1908, №6), "Zina" (1911, №25), "Övrət məsələsi" (1913, №3) və s. yazıları göstərmək olar. Bundan əlavə müəllifin "Arvad məsələsi" (o zaman çap olunmayan bu məqalə üçün bax: 167, 42-43) məqaləsində, "Danabaş kəndinin əhvalatları" povestində, "Ölülər" tragikomediyasında və s. əsərlərində də müsəlman aləmindəki qadın hüquqsuzluğu, qadının zavallı, bədbəxt, faciəli taleyi böyük ürək ağrısı, vətəndaş yanğısı ilə təsvir edilir.

"Keçən günlər" felyetonunda yazıçı qadının islam aləmində kütləvi miqyasda fiziki cəzaya məruz qalması, mütəmadi olaraq döyülməsi və savadsızlığı kimi ürək ağrıdan bir məsələyə toxunur. Kiçik bir əhvalat fonunda böyük bir həqiqəti ifadə və tənqid edir. Qeyd edir ki, uşaqlıqda mən bibimgilə qonaq getmişdim. Söhbət əsnasında əmigəlinim Nurcahan bibigəlinim Hürnisədən bu tapmacanı soruşdu:

"O nədi ki:
Gündə döyür atası,
Alar başına tası.
Abbasını iki şahı bilib xərclər.
İki şahını da abbası.
Hürnisə bir az fikr edib, sevincək cavab verdi:
– A qız, o müsürman arvadıdı da! Başına kül!" (165, 65)

"Erməni və müsəlman övrətləri" məqaləsində Mirzə Cəlil müsəlman qadınlarının hicabda gəzməsi məsələsinə toxunur. Qurandan bir neçə surə misal gətirərək göstərir ki, qadının bütünlüklə çarşaba bürünməsi, örtükdə gəzməsi Quranın

buyruğu, şəri hökm deyil. Bu islam ruhanilərinin uydurması və müsəlman kişilərinin qısqanclıq zəminində qadına verdikləri əzab, ictimai həbs cəzasıdır. Guya qadınlar üzü açıq gəzdikdə əxlaqsızlığa yol verəcəklər. Müəllif bu "xəyalın" ləyaqətsizlik və haqsızlıq olduğunu söyləyir və sual edir: "Vardırmı ixtiyarımız bu tövr xəyal eləməyə? Övrətlərimizin nədir günahı ki, biz onların xüsusunda belə bədgüman ola-ola biçarələri qatmışıq dustaqxanalara və onları özümüzə qul, kəniz, aşpaz, fəhlə və oyun-oyuncaq eləmişik?" (165, 146) Müəllif qəzəblə bildirir ki, bəs biz, müsəlman kişiləri özümüz nəyik? Qadınları evə qatıb özümüz yüz cür əxlaqsızlıq edir, pis işlər görürük. Bəs bu işlərin çarəsi nədir? Millətpərvər yazıçı çıxış yolunu belə müəyyənləşdirir: "Bunların hamısının tək bircə çarəsi var: bunun çarəsi balaca qızlarımıza tərbiyə verməkdir və oxutmaqdır. İndi bu saat bizim övrətlərimiz evdə oturub saqqız çeynəyirlər. Onların üzüaçıq gəzməyi indi bu saat heç lazım deyil: Biz onlara bu cür təklifi eləsək də, onlar heç bizim sözümüzü başa düşməyəcəklər və bizə belə cavab verəcəklər: "Sən Allah, a kişi ətimizi tökmə! Elə o qalıb ki, rus arvadları kimi başıaçıq gəzək!"

Bu işlərin çarəsi balaca qızları məktəbə qoyub oxutmaqdır. Elə ki, qızlarımız elmli və tərbiyəli olub, öz qədrlərini bildilər, onda özləri bilərlər ki, necə rəftar eləsinlər." (165, 147)

"Qafqaz şeyxül-islamına iki dənə açıq məktub" məqaləsində Tiflisin "İnstitut" məktəbində təhsil alan azərbaycanlı qızlara ana dili və şəriət dərslərinin tədris edilmədiyini nəzərə çatdırır. Hər il Qafqaz şeyxül-islamı məktəbə gedib görüntü xatirinə həmin qızlarla görüşür. Lakin deyilən vacib məsələ ilə nə maraqlanır, nə də bu barədə düşünür. Dövlət məmurları bu işə siyasi məqsədlərlə biganəlik göstərirlərsə, şeyxül-islamın məsələyə laqeydliyi anlaşılmaz və səbəbi naməlumdur. Məqalədə belə bir ideya ön plana çəkilir ki, öz ana dilini, dini qaydaları bilməyən qızlar öz milli varlığından uzaq düşür, onlarda milli ögeyləşmə hissi baş verir. (165, 147-149)

“Xanımlara” felyetonunda “Füyuzat” jurnalının 24-cü nömrəsində Azad təxəllüslü şairin qadınlara müraciətlə dediyi şeirin dili “Molla Nəsrəddin”in kəskin istehza hədəfinə çevrilir. “Vətən övladının təmini-istiqbalı”nın xanım qızlardan asılı olduğunu təlqin etmək istəyən şair, təəssüf ki, qəliz və anlaşılmaz bir dildən istifadə edir. C.Məmmədquluzadə şairi və onun həmfikirlərini başa salmaq istəyir ki, qadınlara və ümumiyyətlə, oxuculara təqdim olunan mətləblər sadə, onların anlayacağı dildə deyilsə, belə mətləblərin bəyanı təsirsiz və mənasızdır. Əlbəttə, felyetonda qoyulan problem haqqında bəhs açdığımız ictimai-mədəni gerçəkliyin aktual məsələlərindən idi. (165, 172-173)

“Mırt-mırt” felyetonunda “Molla Nəsrəddin” o dövr üçün daha vacib və aktual olan bir milli problemin izinə düşür və haray təbili çalır. İzah edir ki, oğlanlarımız gedib Avropada təhsil alır. Qayıdanda öz səviyyə və məzaclarına müvafiq “oxumuş və tərbiyə tapmış müsəlman qızı” tapmadıqlarından “gələndə öz yanlarınca rus, yəhudi, ya qeyri bir millətlərin qızlarından birini seçib gətirirlər və kəbin kəsdirib, özlərinə övrət eləyirlər”. Belə bir sosial akt nəticədə həmin ziyalıların və onların övladlarının millətdən qopmasına, vətənə, xalqa yadlaşmasına gətirib çıxarır. Başqa sözlə, ziyalı fəlakətinə və eroziyasına yol açır. Bunun qarşısını almağın yeganə yolu isə qızlarımızı oxutmaq, onlara Avropa tərbiyəsi verməkdir. “Molla Nəsrəddin” naşiri belə bir doğru qənaətə gəlir ki: “Oğlanlarımızı Avropa dərsinə göndərəndə qızlarımızı da qoyaq dərsə ki, heç olmasa, Avropa elmindən və tərbiyəsindən barı yarımçıq da olsa, bir az oxusunlar və öyrənsinlər”. (165, 205)

C.Məmmədquluzadə qadınları müti, əsarətdə, çadrada saxlamağa çalışan, onların imtiyaz və ixtiyarının artmasına, təhsil və tərbiyəsinə sipər olan din xadimlərini, mühafizəkarları, mövhumat düşkünlərini, aqressiv düşüncə sahiblərini kifayət qədər ironik, həm də faktlı-sübutlu şəkildə ifşa edir. Bu cür insanların tərəfini saxlayan qələm sahiblərini, yazı-pozu əhlini

isə “qələm zinaları” adlandırır. Müəllifin “Zina” adlı felyetonu belə bir kəskin qəzəb və nifrətin ifadəsidir. (166, 132-135)

1918-ci ildə qələmə alınmış “Arvad məsələsi” məqaləsində Mirzə Cəlil sərlövhədə qoyduğu problemə daha əhatəli, kürəvi miqyasda, tarixi-xronoloji aspektdən yanaşır. Qədim hindlilərin, romalıların, yunanların, fransızların və bəzi başqa Avropa xalqlarının, həmçinin müxtəlif dinlərə mənsub ruhanilərin, din xadimlərinin qadınlara və qadınlığa mənfi münasibətindən, onları cəmiyyətin aşağı növ, ixtiyarsız, naqis əqlə malik, kişi ilə bərabər hüquqa malik olmağa layiq olmayan, itaətə məhkum məxluqlar hesab etdiklərindən danışır. Qadınların azadlıq və hüquq uğrunda mübarizələrinin XVIII əsrdə Şimali Amerikada başladığını, bunun onilliklər boyunca tədricən uğurlu nəticələr verdiyini və nəhayət, siyasi hüquq müstəvisinə qədər gəlib çıxdığını şərh edir. Bunun müasir sivil cəmiyyətlərin mütərəqqi inkişafına səbəb olduğunu xatırladır. (167, 42-46)

Mirzə Cəlil kimi “Molla Nəsrəddin”çi şair və yazıçılardan M.Ə.Sabirin, Ö.F.Nemanzadənin, Ə.Nəzminin, M.M.Şəbüstərinin, Ə.Qəmküsarın, B.Abbaszadə-nin, Ə.Haqverdiyevin və b.-nın yaradıcılığında da qadın mövzusu başlıca yer tuturdu. Onlar həmin problemi xalqın, vətənin əsas dərdlərindən biri kimi sosial-mədəni və maarif-pedaqoji həyatın dövriyyəsində saxlayır, ictimai şüura yeritməyə cəhd edir, bu yolla cəmiyyəti bu dərdin çarəsini axtarmağa sövq edirdilər.

M.Ə.Sabirin ”Molla Nəsrəddin” məcmuəsində işıq üzü görən “Küpəgirən qarının qızlara nəsihəti” (1906, №31), “Gavur qızı” (1908, №3), “Qoyma gəldi” (1908, №33), “Ay başı daşdı kişi...” (1908, №34), “Çatlayır Xanbacı, qəmdən ürəyim” (1909, №17) və s. şeirləri qadın azadlığı mövzusundadır. Bu poetik nümunələrdə sənətkar cəmiyyətdəki rəngarəng, həm də real qadın obrazlarının ümumiləşdirilmiş tipini yaradır.

Ümumiyyətlə, “Molla Nəsrəddin”in ətrafında birləşən qələm sahibləri təsvir, təqdim və tərbiyə üsulunda belə bir əlverişli yol tuturlar: ailədə, məişətdə, cəmiyyətdə, bir sözlə,

həyatda mövcud olan gerçək qadın obrazları (müsəlman qadını) yaradır, qadının həm güzəranını, zahiri yaşayışını, davranışını, məşğuliyyətini, ərə, övlada və başqalarına münasibətini, həm də mənəvi, psixoloji aləmini, arzu və niyyətlərini, həmçinin başqalarının onlara münasibətlərini bütün xırda detallarına qədər əks etdirir, bununla da belə bir təsirli tərbiyə vasitəsinə əl atırlar: göstərirlər ki, müsəlman cəmiyyətində qadının yaşayışı, vəziyyəti, dünyagörüşü, ədəbi, savadı, mövqeyi, düşüncə tərzi, insanlara münasibəti bax belədir. Müsəlman qadını çeşid-çeşid elə zavallı bəlalara düçardır ki, istər zahiri, istərsə də mənəvi və psixoloji mənada ona aid işıqlı cəhətlər tapmaq müşküldür. Əgər onlar bu qədər rəngarəng sosial və fərdi bəlalara məhkumdurlarsa, xalqın özünün gələcəyi qaranlıq və faciəlidir. Bəs çıxış yolu nədədir? Qadını bu rəzalət və bədbəxtlikdən xilas edib təlim və tərbiyə yoluna sövq etmək!

C.Məmmədquluzadənin məsləkdaşı Ö.F.Nemanzadənin “Molla Nəsrəddin”in səhifələrində yer alan “Bir arvadın cavabı” (1906, №28), “Xanpəri bacıya cavab” (1906, №32), “Məktub” (1907, №21), “Hicab məsələsi və cavabımız” (1907, №23), “Bir neçə günlüyə-zövci-axər məsələsi” (1907, №23) və s. məqalə və felyetonları da qadın azadlığı və tərbiyəsi mövzusundadır. Bu əsərlərdə müsəlman qadınlarının savadsızlıq və cəhalət ucbatından yol verdikləri qəbih adət və əməlləri, naqabil hərəkət və danışıqları, bəsirətsiz, gülünc davranışları, kor-koranə etiqadları, mövhumatçı təbiətləri, cadu-pitiyə, pirlərə və s.-ə sadəlövh inancları, hicab və qadınların üzüaçıq gəzmələri, qadın hüquqsuzluğu, ruhanilərin və mühafizəkar müsəlman kişilərinin qadına aqressiv münasibəti və s. məsələlərə toxunulur.

Qadın mövzusunda ümumi məqsəd və məram baxımından “Molla Nəsrəddin”lə “Füyuzat”ın mövqeyi üst-üstə düşsə də, taktika, üslubi ifadə, mövzuya yanaşma və onun bəyanı baxımından yolları fərqli idi. Daha doğrusu, birincilər mövzunun təqdimində tənqid, satira, yumor, istehza, rişxənd, məsxərə üslubuna üstünlük verirdilərsə, ikincilər problemə ciddi bəyan tərzi ilə münasibət göstərirdilər.

Müasir dövlətçiliyimizin ideoloqlarından olan, mütəfkkir ziyalı Əli bəy Hüseynzadə Azərbaycanda və ümumiyyətlə, müsəlman dünyasında qadınların təlim-tərbiyəsinin coşqun tərəfdarlarından biri kimi çıxış edirdi. O, özünün 1908-1910-cu illərdə hissə-hissə “İrşad”, “Həqiqət” və “Tərəqqi” qəzetlərində çap etdirdiyi iri həcmli ictimai-siyasi və tarixi mövzulu məşhur “Siyasəti-fürusət” risaləsində islam və türk aləminin tərəqqisi üçün vacib, gərək olan bir sıra problemlərə toxunur. Dəyərli, elmi nəzəri izahat və göstərişlər verir. Həmin problemlərdən biri də “tərbiyəti-nisvan” məsələsidir. İran qadınlarının timsalında müsəlman qadınlarını kürreyi-ərzin “ən bədbəxt məxluqu” adlandıran mütəfəkkir qələm sahibi zamanın “tərəqqisinin iqtizası”nın “tərbiyəti-nisvan”a bağlı olduğunu israr edir. Burada obraz kimi təsvir etdiyi xanımların dili ilə müəllif köhnəpərəstliyin, mühafizəkarlığın, cəhalət torunun simvolu kimi verilmiş Şeyx Fəzlullaha (onun timsalında cəhalətpərəst və xalqı, bütün müsəlman aləmini geridə qoyan ruhanilərə) deyir: “Biz də biliriz ki, sizin kibi vicdansız sarıqlılar İranda at oynatdıqca qızlarımıza məktəb qapıları bağlı qalacaqdır. Fəqət əmin olunuz ki, hər tərəfdən hücum edən seyli-xüruşani-mədəniyyətə qarşı tab gətirməyib girdabi-inqilabatda qərq və nabud olacaqların ən birinciləri sizlərsiniz”. (113, 358) Müasir baxışlı bir fikir adamı kimi nadan ruhanilərin islam xalqılarını geridə qoyduqlarını, hər cür inkişafa buxov olduqlarını yaxşı dərk edən, bunun üçün onları kəskin şəkildə tənqid və ittihama məruz qoyan Ə.Hüseynzadə “hüquqi-nisvaniyyə” istəyən, “hürriyyətə və müsavata talib” xanımların dili ilə hədisi-şərifə istinad edərək deyir: “İbtida “Tələbül elmi-fərizətün əla külli müslimin və müslümətün” (“İstər müsəlman kişilərinin və istərsə də müsəlman qadınlarının elm tələb etməsi vacibdir”– T.V.) hədisi-şərifinə ittibaən İranın hər tərəfində üsuli-cədid üzrə ünas məktəbləri açınız, sonra oradan yetişən münəvvərül-əfkari-üləma xanımlar sizə hüquqlarını bildirməyə, özlərini və özləri ilə bərabər bütün İranı məsud etməyə qadir olurlar. Qurani-əzimüşşən nisvandan Nur

surəsində bəhs etməkdə ikən bizi nə haqla nuri-nurdan, ürfandan məhrum etmək istiyorlar. Bol-bol növ üsul unas məktəbləri açınız. Ünas məktəbləri!" (113, 357)

Xalqın tərəqqisi üçün son dərəcə əhəmiyyətli bir şüar olan "türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyasını ideoloji-mədəni fəaliyyət düsturu kimi ortalığa atan Əli bəy aydın başa düşür və bəyan edir ki, irəli sürülən bu milli tərəqqi düstur-proqramını yerinə yetirməkdən ötrü təkcə kişilərin təlim-tərbiyəsi kifayət etmir. Belə bir iş prosesin naqis, natamam şəkildə yerinə yetirilməsinə səbəb ola bilər. Bütöv surətdə inkişafa, yüksəlişə nail olmaqdan ötrü kişili-qadınlı bütöv cəmiyyət tərbiyələnməli, türkləşməli, islamlaşmalı, müasirləşməlidir.

Qadın tərbiyəsinə xüsusi diqqət yetirən "Füyuzat" jurnalında bu mövzu ilə əlaqəli rəngarəng məqalələr çap olunmuşdur. Bunlardan aşağıdakıları göstərmək olar: "Bakı müsəlman ünas məktəbi" (1906, №4); "Bakıda sakinə xatunların cəmiyyəti" (1906, №5); M.Hadinin "Nisvani-islamda asari-intibah" (1907, №17); Azadın "Xanımlarlara" şeiri (1907, №24); Həsən Səbri Ayvazovun "Qadınlıq və qadınların əhəmiyyəti" (1907, №25), S.F.imzalı müəllifin "İtalya mühərrirləri və əsərləri" məqaləsində jurnalist madam Nera barədəki hissə (1907, №26) və s.

M.Hadi "Nisvani-islamda asari-intibah" məqaləsində islam aləmində qadınlar arasında az da olsa, intibah əlamətlərinin sezildiyini, bunun fərəhli bir hadisə olduğunu söyləyir. Müəllif eyni zamanda İran xanımlarından birinin İrandakı "Tərbiyət" qəzetində çap olunan "Təzəllüm" sərlövhəli məqaləsinin ana dilimizə tərcüməsini də verir və həmin xanımın fikirlərini alqışlayır. İranlı xanım öz mətbu məqaləsində "nisvani-islam" qadınlarının "nuri-elm və maarifdən" məhrum qaldıqlarından kişilərin "xatunlara mövcudiyyət, varlıq nəzəri ilə" deyil, "laşey" ("heçlik"– T.V.), "yoxluq" nəzəri ilə baxdıqlarından, "ailə rəisi" kişilərin qadınları "vəzifeyi-insaniyyədən", "hüququ-insaniyyədən" məhrum

qıldıqlarından, onların korlar kimi ərə itaətə məcbur edildiklərindən, cəbr və zülm altında yaşayıb övladlarının yaxşı "müəlliməsi və mürəbbiəsi" ola bilmədiklərindən və s.-dən danışır. Şərqdə xanımlara münasibətdə cəmiyyətin "təqsiri-fövqəladə"yə malik olduğunu nəzərə çatdıran M.Hadi, nəhayət, çağırış notlu belə bir qənaətə gəlir: "Sözün xülasəsi: qadınların tərbiyə və təlimi xüsusunda göstərilən ehmal və qəflət hər bir şər və fəsadın məsdəri, hər bir bəla və müsibətin mənşəyidir. Binaənəleyh cümlə müslimə bacılarımdan sədalarını bu acizənin sədasına qoşmalarını, mənimlə həmahəngi-vifaq olmalarını rica edərəm. İslamiyyətin nisvanə bəxş etdiyi hüquqi-müqəddəsəyi iadə üçün hərəkət etmələri qayeyi-ümidimizdir." (95, 268)

Xalqımızın milli-tarixi intibah çağında qadın tərbiyəsi ilə nəzəri və əməli şəkildə fəal və ardıcıl məşğul olan millət öndərlərimizdən, milli ideoloqlarımızdan biri də M.Ə.Rəsulzadə idi. Əməli olaraq mümkün dairədə gördüyü işlərdən əlavə onun zikr olunan səpkidə müxtəlif mətbuat orqanlarında xeyli məqaləsi çap olunmuş, çıxış və nitqlərində bu və ya digər dərəcədə deyilən problemə də toxunmuşdur. Həmin mətbu yazılardan, çıxış və nitqlərdən aşağıdakıları göstərmək olar: "İkinci müəllimlər ictimai" ("Yoldaş", 1907, 22 avqust); "Doğru yol" ("İqbal", 1913, 4 iyun); "Ümid işıltıları" ("İqbal", 1913, 17 iyun); "Türkiyədə qadınlar" ("İqbal", 1913, 28, 30 iyun, 5, 25, 28 iyul); "Tənqid və təqriz" ("İqbal", 1913, 13 noyabr); "Təlaq məsələsi" ("Bəsirət", 1914, 5 iyul); "Müsəlman ünas cəmiyyəti-xeyriyyəsi" ("İqbal", 1914, 26 noyabr); "Qəflət zamanı deyil" ("Açıq söz", 1917, 12 may); "Ümumrusiya müsəlman syezdi" ("Açıq söz", 1917, 21-31 may, 2-13 iyun); "Nərəyə gidiyoruz?" ("Açıq söz", 1917, 19 may); "Müsavat qurultayı" ("Açıq söz", 1917, 27-31 oktyabr, 1, 2 noyabr) və s.

Azərbaycanlı qadınların milli ictimai həyatda, ailədə, xalqın indiki və gələcək taleyindəki rolu, hüquqları, azadlıqları, elm və maarifə cəlb edilməsi, tərbiyəsi, cəmiyyətin və uşaqların tərbiyəsindəki mövqeyi, ruhanilərin və dövlətin qadına

münasibəti və s. çeşidli məsələlərlə bağlı M.Ə.Rəsulzadənin maraqlı, faydalı və özünəməxsus baxışları, mülahizələri vardır. Həmin baxış və mülahizələri ümumiləşdirərək aşağıdakı şəkildə xülasə etmək mümkündür: Mütərəqqi məsləkli müəllimlər "millətin təmini-istiqbalına binaye-əsl olan ünas məsələsini müzakirə edib, arvadları" əsrlərlə məhkum olduqları "tərci məişətdən qurtarıb, insanlıq cərgəsinə daxil olmaq" üçün bir "sərəncam qılmalı", "tayifeyi-nisvanın hürriyyəti və mərifəti uğrunda" fədakarlıq göstərib onlara məxsus məktəblərin "güşadına çalışmalı"dırlar; II Müəllimlər qurultayı "gələcəkdə madərliyə layiq olan müslimələr" yetişdirməkdən ötrü bir qətnamə qəbul etməlidir; (211, 142-143) Müsəlman qız məktəbləri açıb həmin məktəblərdə keyfiyyətli təlim-tədris sistemi yaratmaq lazımdır. Əgər "rus-müsəlman zükur məktəbləri açıldığı zaman ünas məktəbləri də açılmış olsaydı, indi nə qədər tərəqqi etmiş idik". (212, 181) Savadlı, maarifə yiyələnmiş qadınlar cəmiyyətin yüksəlişi yolunda "ümid işıltıları"dır. Millətlər ailələrdən yaranır. Sağlam olmayan ailələrdən "təşəkkül edən millətlər" sağlam millət ola bilməzlər. "Ailə isə vəzifəsini anlar bir anaya malik olmayınca, sağlamlaşmaq ehtimalından da xaricdir. Anaya malik olmayınca deyirəm və israr ediyoram." (212, 207); Başqa islam məmləkətlərində olduğu kimi Türkiyədə də qadınlar əsarət halındadır və dözülməz bəlalara giriftardır. Açılan beş-üç qız məktəbi Türkiyənin bu sahədəki ehtiyaclarını ödəməyə qətiyyən kifayət etməz. Türkiyə və bütün müsəlman aləmi bilməlidir ki, "ailə əsarəti və ailə istibdadı üzərinə təşkil edilən millətlər heç bir vaxt ailə hürriyyəti və ailə səadəti məbnaları üstündə qurulan millətlərlə mübarizə edə bilməzlər. Qadın bir millətin nisfi-mühümmünü təşkil edir. O, aciz isə, hüquqsuz və mərifətsiz olursa, millətin yarısı xəstə və məflucdur – deməkdir." (212, 247); Qadın problemi "aləmi-islamda" məsələlər məsələsidir ("ümmül-məsail"dir). Qız məktəbləri açmaqla yanaşı qələm sahibləri, mətbuat əhli də deyilən məsələyə diqqət yetirməli, təbliğat, izahat, inandırma işləri ilə

məşğul olmalı, bu barədə məqalələr, kitablar yazılmalıdır. Məsələn, tələbə Yusifbəy Vəzirovun "Arvadlarımızın halı" kitabı bu sahədə atılan layiqli nümunələrdən hesab oluna bilər (212, 269); Talaq, nigahın pozulması məsələsində əsrlər boyunca din xadimləri və müsəlman kişiləri böyük haqsızlığa, ədalətsizliyə yol vermişlər. Bu məsələni şəriətin ədalətli qanunları, fiqh yolu ilə düzgün şəkildə nizamlamaq, qadınların şəri hüquqlarını bərpa etmək lazımdır. (212, 366-368); Qadın xeyriyyə cəmiyyətləri yaratmaq, bu cəmiyyətlərə yardım göstərmək gərəkdir. Belə cəmiyyətlər həm qadın hüquqlarının qorunması, həm qadınlar arasında maariflənmə işlərinin intişarı, həm də təhsil alan və almaq istəyən müsəlman qızlarına yardımçı olmaq istiqamətində müəyyən işlər görməlidir. (212, 452-454); 1917-ci ilin fevralında Rusiyada baş verən burjua inqilabı Məhəmməd Əmin bəyi belə bir siyasi-ictimai qənaətə gətirib çıxarır ki, müsəlman qadınlarının da seçki hüququ tanınmalı, onlar da kişilərlə eyni hüquqda hökumət və dövlət orqanlarına seçkilərdə iştirak etməlidirlər. Onun fikrincə mövcud tarixi-siyasi şəraitdə "bizim milli ehtiyaclarımıza bu iki şey çarə" edə bilər: 1. Arvadlarımızın da seçkilərdə iştirak etməsi; 2. Öz sayımıza uyğun bizə seçki hüququ verilməsi. "Arvadlı kişili seçkilərdə iştirak etməli və öz işlərimizin ixtiyarını öz əlimizə almalıyız". (214, 161); qadınların təhsil və tərbiyəsinin məxsusi və incə bir məsələ olduğunu nəzərə alıb bunun üçün ayrıca proqramlar tərtib etmək, kitablar hazırlamaq məxsusi işlər həyata keçirmək lazımdır. (214, 164-165)

Sadalananlardan aydın olur ki, M.Ə.Rəsulzadənin qadın tərbiyəsi, hüquqları və azadlığı ilə əlaqəli fəaliyyət və baxışlarının miqyası nə qədər genişdir. Onu da nəzərə alaq ki, onun deyilən məsələ ilə bağlı nəzəri görüşləri və əməli işləri bu deyilənlərlə məhdudlaşmır. Bir məsələni də diqqətə çatdırmaq lazım gəlir: Çarizm dövründə Məhəmməd Əmin bəy və məsləkdaşları rəsmi ixtiyar sahibi olmadıqlarından qadınların ümumi icbari təhsilə cəlb edilməsi barədə bir söz söyləmir, yalnız qızların təhsilinin genişləndirilməsindən danışırlar. Lakin

ADR (1918-1920) zamanı artıq onlar milli dövlət və müstəqilliyin, sözün müsbət mənasında siyasi imkan və ixtiyarın olmasından istifadə edərək oğlanlarla bərabər qızların da ümumi icbari təhsilə cəlb edilməsi məsələsini irəli sürür, bu yolda qərarlar çıxarır və əməli işlərin icrasına start verirlər.

F.Köçərli qadın tərbiyəsindən danışarkən obrazlı, həm də yaddaqalan və məntiqli bir müqayisədən istifadə edir. O, Allah-taalanın təbiətən və zahiri görkəmcə zərif və gözəl yaratdığı qadını həm ərinin (kişinin), həm də cəmiyyətin gözəl yaradılmış "nisfi"– yarısı (bir hissəsi) hesab edir. Bu zaman islam peyğəmbərinin dilindən deyilmiş belə bir hədisin məntiqinə əsaslanır: "İnnəmən nisau şəqaiqür ricali" ("Qadınlar kişilərin bir hissəsidir").

Firudun bəy göstərir ki, kəmiyyətcə, doğrudan da, cəmiyyətin yarısını ("nisfini") qadınlar təşkil edir. İkincisi isə, qadın ailənin bir hissəsi, ərinin çiyindaşı, yardımçısı, ailə həlqəsinin ikinci bölümü olmaq mənasında kişinin yarısıdır. Ancaq, təəssüf ki, o, sükunət edən müsəlman millətlərində "mədəniyyət və fəzilət cəhətincə" geridə, "tərəqqi və təalada" "işsiz və şüğulsüz, dünyadan bilkülliyə bixəbər", "təlim və tərbiyədən məyus", "hörmət və ixtiyardan məhrum" qalmışdır. Bir sözlə, "hərəkətsiz və ölmüş bir üzv məqamındadır". (129, 220-221)

Elə buna görə də Köçərli qadınları bizim və cəmiyyətin "həqiqi gözəlliyi", lakin "hərəkətsiz nisfi" adlandırır. "Tərəqqi" qəzetində (1909, 26 aprel, 29 iyul, 4 avqust) çap olunan "Həqiqi gözəllik və hərəkətsiz nisfimiz" məqaləsində deyilən məsələdən geniş şəkildə söhbət açır. Göstərir ki, elmsiz və mərifətsiz arvad kişisinin ruhani tərəqqisinə, mənəvi diriliyinə, "əqlinin təcəllisinə" yardımçı ola bilmir. Ailədə və cəmiyyətdə öz müqəddəs vəzifəsini icrasından məhrumdur. Hərəkətsiz bir məxluq kimi yalnız zahirən gözəl olaraq qalır. Halbuki əsl gözəllik surətdə deyil, ağıl və kamalda, əxlaq və davranışdadır. Elə buna görə də qadınların tərbiyəsi müsəlman qövmlərinin ilk vəzifəsidir. Müəllif yazır: "Bunu dürüst

bilәndәn sonra arvadlarımızın ağlının, әxlaqının vә filcümlә mәnәvi kamalatının tәrbiyәsinә mәşğul olmağı әvvәlinci vәzifәlәrimizdәn gәrәk hesab edәk. Tәrәqqi vә tәalamızın hüsulu arvadlarımıza tәlim vә tәrbiyә vermәyә vә onları qaranlıq vә cәhalәt alәmindәn elm vә mәrifәt dünyasına çıxartmağa münhәsirdir.

Bu halda hәrәkәtsiz vә taqәtsiz hissәmizi hәrәkәtә gәtirib, bütün bәdәnә dirilik vә salamatlıq vermiş kimi oluruq vә mәnәvi tәrәqqimizә bir rast vә geniş şahrah açırıq." (129, 227-228)

Azәrbaycanda "üsuli-cәdid" hәrәkatının bayraqdarlarından vә ilk "rus-müsәlman" mәktәbinin yaradıcılarından olan, görkәmli pedaqoq S.M.Qәnizadәnin fikrincә "ünas mәsәlәsi" vә onun mütәrәqqi mәnada hәlli, qadının mövcud rәzalәtdәn xilası bu qaydada hәll edilә bilәr: "Ünas mәsәlәsinin hәll olunması mәhz Allahtaala özü qoyduğu qanuna, yәni insafa bağlıdır. İnsaf olan yerdә zülm ola bilmәz, yәni bir nәfs o biri nәfsә qәlәbә edәmәz vә zülm olmayan yerdә azadәlik öz şörәtin göstәrir! Pәs ünas mәsәlәsin hәll etmәk üçün, әvvәlәn, bu mәsәlәni iki fәqәrәyә aralayıb, sonra hәr fәqәrәni ayrıca şәrh etmәk lazım gәlir. Әvvәlimci fәqәrә hürriyyәt, yәni azadәlik vә ikimci mühakә, yәni bәrabәrlikdir. Hürriyyәtdәn murad odur ki, hәr bir nәfs öz ixtiyaratına malik olsa gәrәkdir. Amma mühakәdәn ibarә hamı insanlar hüquq cәhәticә bir-biri ilә müsavi olmaqdır... Bu iki fәqәrә, yәni hürriyyәt vә mühakә mәram cәhәticә bir mәsәlә bәtnindә tüәman vә әkiz ikәn hәr ikisi bir mәnada hәll olunurlar, yәni övrәtlәr insan ikәn hamı insanlıq hüquq vә ixtiyaratında әrlәr ilә bәrabәr olsalar gәrәkdir." (147, 76)

XX әsrin әvvәllәrindә Ә.Ağayev, N.Nәrimanov, Ü.Hacıbәyov, Q.R.Mirzәzadә, A.Şaiq, R.Әfәndizadә, Y.V.Çәmәnzәminli vә s. maarifpәrvәrlәrimizin yaradıcılığında da qadın mövzusu, qadın tәrbiyәsi zamanın gәrәkli bir problemi kimi unudulma-mışdır.

Qadını cәmiyyәtin aparıcı qüvvәsi sayan Ә.Ağayev 1904-cü ildә Bakıda ayrıca kitabça halında nәşr olunan son dәrәcә dәyәrli fәlsәfi ictimai-siyasi, pedaqoji-tәrbiyәvi

məzmuna, aktual ideyaya malik "Axund, İslam və Hatiful-qeyb" risaləsində qadına yüksək qiymət verir, onu döyməyin, ona fiziki cəza tətbiq etməyin qəti əleyhinə çıxır. Təəssüf edir və bildirir ki: "İyriminci əsrdə hələ də qadını döyən vəhşilərə təsadüf olunur, bunlar mahiyyət etibarı ilə o qara qüvvəyə tapınanlardır ki, bütövlükdə hamısı hürriyyət düşmənləridir və başları əzilmədikcə rahat durmayacaqlar." (4, 61)

Qafur Rəşad Mirzəzadə 1908-ci ildə çap etdirdiyi "Ayineyi-millət. Oyanız qardaşlar" kitabında müsəlman qövmünün, o cümlədən öz həmvətənlərinin geridə qalma səbəblərindən geniş şəkildə söhbət açır və nəhayət, milli dirçəliş və yüksəliş üçün çıxış yolları təklif edir. Həmin səbəblər və çıxış yolları cərgəsində anaların tərbiyə və təhsili ön sırada dayanır. Pedaqoq ziyalının rəyinə görə: "Ananın qucağı ibtidai məktəb mənziləsindədir." Bir ana ki, cahil ola onun qucağıda tərbiyə görmüş övladlar, əlbəttə, şəriəti, islamı, milləti, insaniyyəti dərk etməz və onu "tənəzzüldə buraxmaqdan bir an qafil olmazlar." "Səhneyi-cahanda" həmişə işığa yox, qaranlıq səmtə üz tutub gedərlər. (183, 47)

XX əsrin 10-cu illərində qadın mövzusuna müraciət edən, onların tərbiyəsinin, azadlığının, hüquqlarının qayğısına qalan öncül fikir adamlarımızdan biri də Y.V.Çəmənzəminlidir. 1914-cü ildə yazdığı "Ana və analıq" elmi-pedaqoji, tərbiyəvi-publisistik traktatına "Bir neçə söz" adı ilə əlavə etdiyi yığcam ön sözdə yazıçı bildirir ki, "arvad məsələsi" onu son illərdə mütəmadi olaraq düşündürür. Bunun nəticəsində o, "Arvadlarımızın halı", "Qanlı göz yaşları" kimi elmi-publisistik əsərlər və bir neçə hekayə qələmə almışdır. İndi isə həmin silsilənin davamı kimi "Ana və analıq" əsərini qələmə alır.

Y.V.Çəmənzəminlinin "Arvadlarımızın halı" əsəri müəllif Kiyevdə tələbə kimi təhsil alarkən ali məktəb tələbələri qarşısında çıxış etməkdən ötrü hazırlanmış çıxışın mətnidir. Əsər 1913-cü ildə Bakıda ayrıca kitab halında nəşr edilmişdir. Müəllif əsərdə bəşər tarixində ibtidai cəmiyyətdən başlayaraq qadınlığın keçdiyi ictimai-tarixi inkişaf yoluna yığcam və

dolğun şəkildə nəzər salır. Matriarxat dövründən sonrakı sosial toplumların və xalqların çoxunda qadına həqarətli, neqativ, hökm-fərma münasibətin xronikasını verir. Qədim cəmiyyətlərin, dini birliklərin çoxunda, yəhudilərdə, romalılarda, yunanlarda, Avropa xalqlarında, ərəblərdə və s.-də qadına ixtiyarsız, ikinci dərəcəli, hüquqsuz, kişiyə danışıqsız itaət etməli olan ictimai məxluq kimi baxıldığını söyləyir. "Tövrat", "İncil", "Quran" kimi səmavi dini kitabların, klassik tövhid dinlərinin qadına yüksək dəyər verdiyini nəzərə çatdırır və əlavə edir ki, təəssüf ki, saxtakar din xadimlərinin təqsiri ucbatından həmin dinlərdə qadına göstərilən humanist münasibət tapdalanmış, yanlış şərh edilmiş və sosial sferada öz qüvvəsini itirmişdir.

"Arvadlarımızın halı"nda müəllif müsəlman coğrafiyasının bir hissəsi olan Azərbaycan türklərində də qadına əsrlər boyunca qeyri-insani münasibət göstərildiyini nəzərə çatdırır. Bu sosial-tarixi ədalətsizliyin zaman-zaman xalqın folklor yaddaşına və materiallarına hopduğuna aid çoxlu misallar verir. Xalq ədəbiyyatı nümunələrinin qadınlığa mənfi münasibətin izlərini kifayət qədər tutarlı şəkildə qoruduğuna və tarixləşdirdiyinə dair geniş izahat və örnəklər verir. Nəhayət, sonda fikrini tarixin müasir inkişaf çağında ortalığa çıxan belə bir zəruri problem üzərində cəmləşdirir: "Hükəma dəfəatla təkrar edibdir ki, hər millətin arvadlarının vəziyyəti o millətin mədəniyyət dərəcəsinin ölçüsüdür. Yəni, nə qədər arvad mədəni olsa, nə qədər onun elm-təhsili mükəmməl, ağıl dairəsi geniş, əri ilə hüquq və ixtiyaratda müsavi olsa, bir o qədər o arvad tərbiyəli övlad bəsləməyə müqtədir olar. Tərbiyəli övladlardan da gələcəkdə tərbiyəli və fəal adamlar çıxıb, millət xidmətində olarlar. Camaatımızın cəhalətdə qalmağına baxıb ah çəkincə, yaxşı deyilmi onun səbəbini axtarıb mübarizə edək. Bu səbəb, əlbəttə, arvad məsələsi ilə mərbutdur. Bu məsələ arvadlarımızın mənfəətinə həll olunsa, millətimizin qabağa getməyinə şəkk olmayacaq. Pəs, hər kəs öz millətini sevir, onun gələcəyinin parlaqlığını arzu edir – arvadların tərbiyə və təliminə

çalışmalıdır, onların hüququnu qaytarıb, sərbəstliyini qaytarıb, ağıl və zəkasına meydan verməlidir.” (65, 145-146)

Əlbəttə, bu deyilənlər Yusif Vəzirin qadın tərbiyəsi və qadına münasibətlə bağlı son qənaətidir. Onun geniş həcmli “Ana və analıq” traktatında da eyni mətləb və qənaətlərin şahidi oluruq. Əsərin qayə və mətləbini anlamaqdan ötrü mətnin daxilindəki yarımsərlövhələrdən bəzilərinə nəzər salmaq kifayətdir: “Arvad əziz məxluqdur”, “Analıq hissi müqəddəsdir”, “Arvadlara hörmət etməlidir”, “Arvada ixtiyar verməlidir”, “Arvadlar elmli gərək olsunlar” və s.

Y.V.Çəmənzəminlinin “Qız məktəbi açmalı” adlı qeyri-mətbu bir məqaləsi də var. Müəllif burada qız məktəblərinin qızların tərbiyə və təhsilindəki rolundan danışır. (65, 171-172)

XX əsrin əvvəllərində Bakıda qadın tərbiyəsi və hüquqları ilə bağlı bəzi kitabların meydana çıxdığını da görürük. Bu kitablar qadınların müəyyən dini (şəriət qaydalarına müvafiq) hüquqlarını cəmiyyətə başa salmaq məqsədi güdür. Bu tip kitablardan aşağıdakıları göstərmək olar: “Tərbiyəti-nisvan” (ərəb dilindən tərcümədir – 1902); “Nisvani-islam və madam Olqa” (farscadan tərcümədir – 1911); Əfəndizadə Rəşid bəy – “Arvad məsələsi” (1912); Bəsir Nemət Hacıyev – “Aləmi-nisvan” (1914); M.İlyaszadə – “Dini-islamın arvadlara töhfəsi” (1914) və s.

Haqqında danışdığımız dövrdə “Dəbistan” (1906-1908), “Rəhbər” (1906-1907) və “Məktəb” (1911-1920) kimi pedaqoji jurnallarda da qadınların, xüsusilə də kiçik yaşlı və gənc qızların təlim-tərbiyəsinə, cəmiyyətdəki roluna sosial həyatda, məişətdə, ailədə, millətin gələcəyindəki mövqeyinə və s. dair xeyli məqalə, şeir və hekayələr işıq üzü görmüşdür. Bu cür materiallar daha çox məktəbliləri göstərilən istiqamətdə maarifləndirməyə hesablanırdı və böyüməkdə olan nəslin tərbiyəsində mənəvi sərvət, təbliğat vasitəsi kimi əhəmiyyətli rol oynayırdı.

XX əsrin əvvəllərində azərbaycanlı qızların təhsilə cəlb edilməsi, qızların müasir mənada tərbiyəsinin ən mühüm,

etibarlı məbədgahı olan təhsil ocaqlarının təsisi istiqamətində də uğurlu addımlar atıldı.

Qafqaz regionunda ilk müsəlman qız məktəbi 7 oktyabr 1901-ci ildən rəsmi fəaliyyətə başlayan Bakı rus-müsəlman qız məktəbi oldu. Məktəb xeyriyyəçi, mesenat Hacı Zeynalabdin Tağıyevin xərci, uzunmüddətli mübarizəsi (məktəbin təsisi uğrunda mübarizə 1896-cı ildən başlanmışdı), gərgin əməyi və səyi nəticəsində mümkün oldu. Çünki belə bir maarif müəssisəsinin yaradılmasına nəinki siyasi dairələr, rəsmi dövlət orqanları mane olurdular, yerli mühafizəkar, cəhalətpərəst, ruhanilər və onların fitvasına uyan köhnəfikirli, qaragüruhçu kütlə də həmin işi ciddi etiraz və müqavimətlə qarşılayırdı. Bu müqavimətləri dəf etmək üçün Hacı nüfuzlu ruhani Molla Mirzə Məhəmməd oğlunu Məkkə, Mədinə, Kərbala, Qahirə, İstanbul, Tehran kimi dini mərkəzlərə göndərib bir sıra tanınmış, mötəbər üləmalardan, din başçılarından rəsmi kağızlar aldırdı ki, müsəlman qızlarının təhsil almasında şəriətə zidd, dinə xilaf heç nə yoxdur. H.Z.Tağıyev özü də məsciddə camaat qarşısında çıxış edərək dedi: "Camaat, qızlarımızın zəmanə dərsi oxumaları vacibdir. Gözləri açılar, külfətlə rəftarı xoş olar. İngilistana, Firəngistana gedib oxuyan cavanlarımız hərəsi oralarda qollarına bir arvad keçirib gətirirlər. Çünki qızlarımızla məcazları tutmur, dolana bilmirlər. Əcnəbi arvadlardan doğulan uşaqlar bütün varidatımıza vərəsə çıxırlar. İşlər belə getsə, ata-baba ocağımız qalacaq Quransız,namazsız, şəriətsiz... Arvad həkimlərinə, müəllimlərinə ehtiyacımız çoxdur..." (236, 108)

H.Z.Tağıyevin təşəbbüsü ilə Bakıda yaranan maarif müəssisəsi Qafqaz müsəlmanlarının mədəni-pedaqoji ictimaiyyətini, mütərəqqi meylli insanlarını müsəlman qızlarından ötrü təlim ocaqları meydana gətirmək mənasında daha da ruhlandırdı. Bu istiqamətdə nəzərə çarpacaq canlanma müşahidə edildi. "Kaspi" qəzetinin 22-23 sentyabr 1901-ci il tarixli nömrəsində verilən məlumatdan aydın olur ki, Bakı rus-müsəlman qız məktəbinin fəaliyyətə başlamasının reallaşması ərəfəsində İrəvanda da bu tipli təhsil müəssisəsinin

yaradılmasına təşəbbüs göstərilmişdir. (333) Artıq 1902-ci ildə İrəvanda məktəbin yaradılması mümkün olmuşdur. Onun açılmasının təşəbbüskarı İrəvanın varlı və nüfuzlu şəxslərindən Məmmədqulu bəy Kərim Soltani idi. Bu tərəqqipərvər, maarifpərvər şəxs daha əvvəllər İrəvanda oğlan məktəbi açıb hər il 10-15 müsəlman oğlan uşağının oxuyub gimnaziyaya daxil olmasına şərait yaradırmış. Nəhayət, 1902-ci ildə yaşadığı şəhərdə müsəlman qızları üçün də məktəb açır. Deyilən təfsilatı 1903-cü ildə "Şərqi-rus" qəzetinə (№14) göndərdiyi mətbu məktubunda ətraflı şəkildə məlumat verən Məmmədvəli Qəmərlinski hal-hazırda tədris ocağında 19 nəfər müsəlman qız uşağının "öz dilində oxuyub yazmaq və ehkami-diniyyəsini öyrənməkdən əlavə rusca dəxi kamali-intizam və tərəqqi ilə təhsil" almaqda olduqlarını sevinclə xəbər verir. (247)

Əsrin ilk illərində Gəncə şəhərində də birsinifli iki rus-tatar qız məktəbi fəaliyyətə başlamışdır. Şəhərin Bağbanlar məhəlləsində 1901-ci ildə açılan birinci rus-tatar qız məktəbində 1904-cü ildə artıq 40-a qədər azərbaycanlı qız oxuyurdu. (178, 151) 1903-cü ildə yaradılan ikinci təhsil ocağında oxuyan qızların sayı 1904-cü ildə 21 nəfər idi. (365, 10-15) Hər iki məktəb dövlətdən heç bir maddi vəsait almadan şəxsi adamların pulu və bəzi xeyriyyə tədbirlərindən toplanan vəsait hesabına yaşayırdı.Bu illərdə Naxçıvanda və Tiflisdə də müsəlman qızları üçün təhsil müəssisələri açmaq təşəbbüsləri olmuşdur. Bu barədə "Kaspi" qəzetinin 19 dekabr 1903-cü il tarixli nömrəsində də məlumat verilir. Tiflisdə 1904-cü ildə Aspisova soyadlı bir ziyalı qadının da müsəlman qızları üçün məktəb açmağa cəhd göstərdiyi, lakin həmin cəhdin hökumət dairələrinin, Qafqaz şeyxülislamının və müftisinin təqsiri ucbatından baş tutmadığı da məlumdur. Bu barədə C.Məmmədquluzadə Tiflisdə rus dilində nəşr olunan "Vozrojdeniye" qəzetinin səhifələrində oxuculara çatdırılan "Bəs Aspisova xanımın müsəlman qızları üçün məktəbi necə oldu?" sərlövhəli məqaləsində də məlumat verir. (167)

Haqqında söz açdığımız əsrin başlanğıc illərində qadın təhsili sahəsində orta təhsilin, başqa sözlə, gimnaziya və

progimnaziyaların vəziyyətində də müəyyən irəliləyişlər nəzərə çarpırdı. Konkret rəqəmlə ifadə etsək, Bakı və Gəncə quberniyaları, həmçinin Dağıstan vilayəti üzrə orta qız təhsil müəssisələrinin mənzərəsi aşağıdakı cədvəldə göstərilən şəkildə idi. Cədvəl Qafqaz Təhsil Dairəsinin 1905-ci ilin yanvarına aid hesabatından götürülmüşdür:

| QADIN GİMNAZİYALARI | | | |
|---|---|---|---|
| Təhsil ocaqlarının adı | Yaranma tarixi | Şagirdlərin sayı | Xərci |
| Bakı I qız gimnaziyası | 1874 | 718 | 62605 |
| Bakı II qız gimnaziyası | 1903 | 494 | 37002 |
| "Müqəddəs Nina" qız məktəbi | 1897 | 493 | 73717 |
| Gəncə "Müqəddəs Nina" qız məktəbi | 1899 | 386 | 18544 |
| QADIN PROGİMNAZİYALARI | | | |
| Dərbənd qız progimnaziyası | 1900 | 161 | 8913 |
| MARİNSKAYA MƏKTƏBLƏRİ | | | |
| Şuşa Marinskaya qız məktəbi | 1894 | 309 | 8547 |
| Zaqatala Marinskaya qız məktəbi | 1904 | 161 | 8913 |

(365, 4-5)

1905-ci ilə qədər Bakıda 11 qız gimnaziyası təsis edilmiş, Zaqataladakı ibtidai rus qız məktəbi Marinskaya qız məktəbinə çevrilmişdi. (178, 154) Bu dövrdə Gəncədə Marinskaya qız məktəbi açmağa təşəbbüslər olsa da, şəhər Duması buna imkan verməmişdi. Onu da deyək ki, gimnaziya və progimnaziyada oxuyan qızların az bir qismi azərbaycanlılar idi. Məsələn, 1904-cu ildə Bakıda "Müqəddəs Nina" qız məktəbində təhsil alan 466 şagirddən yalnız 6 şagird azərbaycanlı idi.

QTD-nin 1905-ci ilə aid hesabatından bəlli olur ki, əsrin əvvəllərində Bakıda bir neçə xüsusi qız məktəbi də mövcud olmuşdur. Hesabatda 1900-cü ildə Tutovanın 1-ci dərəcəli, Zotikovanın isə 2-ci dərəcəli qız məktəblərinin olduğu, 1-ci məktəbdə 224, 2-cidə isə 43 şagirdin oxuduğu göstərilir. (343, 10-15)

Əsrin əvvəllərində Zaqafqaziyada qızlar üçün açılan ibtidai məktəblər sırasına 1901-ci ildə Gəncədə açılan 2-ci şəhər ikisinifli qız məktəbini, yenə həmin ildə Göyçayda (İvanovski kəndində), 1902-ci ildə Vartaşendə, 1904-cü ildə Naxçıvanda (Çobanabad kəndi), 1904-cü ildə Dərbənddə açılan birsinifli qız məktəblərini də göstərmək olar. S.Məmmədovun dediyi kimi, doğrudan da: "XX əsrin əvvəllərində açılmış bu rus qız məktəbləri Azərbaycanda qadın təhsilinin inkişafında, heç şübhəsiz, təsiredici rol oynamışdır. Həmin illərdə açılan bir sıra rus-müsəlman qız məktəblərinin təşkilində bu təhsil ocaqlarının nümunəsindən istifadə olunmuşdur." (178, 156)

1914-1915-ci tədris ilinə aid rəsmi hesabatlardan bəlli olur ki, həmin tədris ilində Bakıda üç qız ali ibtidai və bir qız rus-müsəlman qız ali ibtidai dövlət məktəbi mövcud olmuşdur. Bunlardan 1-cidə 440, 2-cidə 463, 3-cüdə 50, rus-müsəlman ali ibtidai məktəbində isə 104 şagird təhsil almışdır. (181, 114)

Bundan əlavə xeyriyyə cəmiyyətləri xətti ilə də müsəlman qızları üçün ibtidai məktəblər təsis edilmişdir. Məsələn, "Nəşri-maarif" cəmiyyətinin təşəbbüsü ilə 1914-cü ildə Balaxanıda iki, 1915-ci ildə Zabratda bir qız məktəbi açılmışdı. Bu məktəblərdə ümumilikdə 123 qız təhsil alırdı. (181, 148)

1905-ci ildən sonrakı dövrdə müsəlman qızlarından ötrü xeyli sayda qız məktəbi açıldı. Uzun mübarizə və çətinliklərdən sonra rus qadını Y.D.Aspisova 1906-cı ildə Tiflisdə arzu etdiyi müsəlman qız məktəbini açmağa nail oldu. Lakin təhsil ocağı cəmi 2 il fəaliyyət göstərə bildi. 1907-ci ildə Qazax qəzasının Salahlı kəndində, Şəkidə (axund Mirzə Cəfər Pişnamazzadənin təşəbbüsü ilə) xüsusi ibtidai qız məktəbləri açıldı. 1909-cu ildə Bakıda ilk dəfə olaraq dövlət tərəfindən 1-ci rus-tatar qız məktəbi təsis edildi. 1913-cü ildə burada 153 nəfər qız təhsil alırdı. (38) Bakıda 1910-cu ildə 2-ci və 3-cü qız rus-tatar məktəbləri də fəaliyyətə başladı. 1914-cü ildə Bakıdakı rus-tatar məktəblərində oxuyan qızların ümumi sayı 378 nəfər idi. (39)

Təsis edilən xüsusi müsəlman qız məktəblərinin şəbəkəsi tədricən genişlənirdi. Ağdaşda (1909 – “Səadət” cəmiyyəti tərəfindən), Ağdamda (1910), Şamaxıda (1911 – Gövhər Şövqiyyə Cəfərzadə tərəfindən), Malıbəylidə (Şuşa qəzası - 1910) və s.-də belə təhsil ocaqları təsis edilmişdi. Qarğabazarda (1911), Zəyəmdə (1912), Cəbrayılda (1912), Şəkidə (1912), Qazaxda (1912) isə qarışıq qız məktəbləri yaradılmışdı. (178, 250-258)

1917-ci ilə qədər Azərbaycanda açılan qız məktəblərinin sayı bu deyilənlərlə məhdudlaşmır. Bir sıra başqa məktəblər də var idi.

Bu dövrdə gündəmdə duran, tez-tez qaldırılan məsələlərdən biri də qız məktəbləri üçün pedaqoji kadrlar hazırlayan seminariya və ya bu tipdə yuxarı səviyyəli təhsil müəssisəsinin yaradılması idi. Dəfələrlə dövlət orqanları qarşısında bu məsələ qaldırılsa da, təəssüf ki, onu reallaşdırmaq mümkün olmadı.

Cəmi 23 ay ömür sürən ADR (1918-1920) dövründə milli tərəqqi və yüksəliş naminə görülən və görülməsi nəzərdə tutulan tədbirlər sırasında diqqət mərkəzində dayanan problemlərdən biri də qadınların təhsil və tərbiyəsi idi. Hələ milli Azərbaycan hökuməti yaranmazdan bir neçə ay qabaq 1917-ci ilin oktyabrında (26-30 oktyabr) Müsavat partiyasının qurultayı

keçirildi. Qurultayda qəbul edilən qərarlarda fəhlə və işçi qadınların imtiyazlarının və hüquqlarının artırılması, qorunması, cəmiyyətdə qadınların mövqeyinin yüksəldilməsi ilə yanaşı "Maarif haqqında" qəbul edilmiş 16 maddədən ibarət qərara bu cür maddələr də daxil edilmişdi: "1) Məarif işlərində ümuməhali, din və millət ayırmaqsızın ərkək və qadın müsavidir; ... 14) Müəllim və müəllimələr hazırlamaq üçün kafi dərəcədə darülmüəllimin və darülmüəllimat açılmalıdır." (214, 387-388) Göründüyü kimi, qərarda ictimai-maarif sistemində həm qadınlarla kişilərin eyni dərəcədə təhsilə cəlb edilməsi, həm də pedaqoji kadr hazırlığında hər iki sahəyə eyni dərəcədə diqqət yetirilməsi nəzərdə tutulurdu.

Azərbaycanda 1919-cu ilin əvvəllərində mövcud olan 23 dövlət orta təhsil müəssisəsindən 3-ü "Müqəddəs Nina" qız məktəbi (çox keçmədən məktəblərin adından "Müqəddəs Nina" ifadəsi çıxarıldı və onlar sadəcə olaraq qadın gimnaziyaları adlandırıldı),4-ü isə qadın gimnaziyası idi. (293, 54)

ADR dövründə parlament iclaslarında maarif məsələlərinə aid 19 qanun layihəsi qəbul edilmişdir. Bu layihələrdə daim Azərbaycan qadınlarının da təhsil hüquqları nəzərə alınırdı. Ən ciddi ehtiyac, böhran qız məktəbləri üçün milli pedaqoji kadrların yoxluğu idi. Bu çatışmazlıq milli qız məktəblərinin şəbəkəsinin genişlənməsinə əsaslı şəkildə mane olurdu. Ona görə də bu yönümdə faydalı işlər görülməyə, yəni qadınlar üçün pedaqoji kadrlar hazırlayan kurslar açılmağa başlandı. Birinci olaraq belə bir kurs 1917-ci ilin oktyabrında Bakıda açıldı. 1918-ci ildə Bakıda ikinci belə bir kurs da fəaliyyətə başladı. Qadın gimnaziyalarının aşağı sinifləri milliləşdirildi. Bu, qız məktəblərinin perspektivdə bütünlüklə milliləşdiril-məsi üçün atılan addım idi.

Beləliklə, XX əsrin ilk onilliklərində Azərbaycanda qadın tərbiyəsi sahəsində böyük nəzəri və əməli işlər görüldü. Əsaslı baza və bünövrə yaradıldı. Yalnız bunun sayəsində sovet dövründə qadın tərbiyəsi və təhsili sahəsində daha uğurlu nailiyyətlər əldə edildi.

## 2.2. Milli özünüdərk və vətənpərvərlik tərbiyəsi haqqında

Milli intibahımızın təşəkkül və təkamül dövrü kimi səciyyələnən XIX-XX yüzilliklərin qovşağında yaşayıb fəaliyyət göstərmiş demokratik məfkurəli ziyalı elitasının milli tərbiyəçi – islahedici funksiyasına daxil olan vəzifələrdən biri də mənsub olduqları xalqı milli özünüdərk və vətənpərvərlik ruhunda tərbiyə etmək idi. Tərbiyənin bu xətti elə zəruri mahiyyət kəsb edirdi ki, millətin, vətənin gələcək taleyi biləvasitə həmin tərbiyə sisteminin necə qurulmasından asılı idi. Bu, elə bir tərbiyə faktoru idi ki, burada fərdlərin xoşbəxtliyi deyil, ümumilikdə millətin və vətənin səadəti ehtiva olunurdu. Problemə bir qədər əhatəli dairədə yanaşsaq, belə bir tərbiyə amili həm xalqın, həm də onu təşkil edən fərdlərin xoşbəxtliyini ağuşuna alırdı. Həm uşaqlara, həm də böyüklərə aid idi. Həm vətən övladının mübarizə əzmini, həm də vətənin ümumi səadəti uğrunda mücadilə ideyasını əhatə edirdi. Tərbiyədə gərəksiz, vaxtı keçmiş təsəvvürlərin vaxtında aradan qaldırılmalı olduğunu vacib şərt sayan A.S.Makarenko "Uşağı tərbiyə etmək nə deməkdir?" – sualına belə cavab verirdi: "Uşağı xoşbəxtlik üçün də tərbiyə etmək olar, mübarizə üçün də tərbiyə etmək olar. Onu fərdi xoşbəxtlik üçün də tərbiyə etmək olar, fərdi mübarizə üçün də tərbiyə etmək olar. Bundan başqa onu bir də ümumi xoşbəxtlik və ümumi mübarizə üçün tərbiyə etmək olar. Bütün bunlar olduqca mühümdür və olduqca əməli məsələlərdir". (156, 115) Xalqın milli özünüdərk və vətənpərvərlik ruhunda tərbiyəsi də ümumi xoşbəxtlik, ictimai mübarizə məzmunu kəsb edən ümummilli məsələ idi.

Tərbiyə nəzəriyyəçilərimiz K.D.Uşinskinin təbiri ilə deyilmiş belə bir həqiqəti də yaxşı dərk edirdilər: "Hər xalqın özünə məxsus milli tərbiyə sistemi vardır; ona görə bir xalqın başqa xalqdan tərbiyə sistemlərini əxz etməsi mümkün deyil...

Başqa xalqların tərbiyə işindəki təcrübəsi hamı üçün çox qiymətli bir irsdir; lakin bunu eynilə ümumdünya tarixi təcrübələrinin bütün xalqlara aid olması mənasında başa düşmək lazımdır. Başqa xalqın həyat tərzi nə qədər cazibədar olsa da, onun nümunəsi üzrə yaşamaq mümkün deyildir, eynilə özgə pedaqoji sistemi nə qədər mütəşəkkil və yaxşı düşünülmüş olsa da, o sistemlə tərbiyə olunmaq olmaz. Bu məsələdə hər bir xalq öz qüvvəsini sınamalıdır". (259, 50)

Bizim tərbiyə nəzəriyyəçilərimiz də ölkə vətəndaşlarının tərbiyəsində milli xarakter və xüsusiyyətləri nəzərə alır, öz təlqin, tövsiyə və təkliflərini həmin müstəvidə irəli sürürdülər.

Xalqımızın milli özünüdərk və vətənpərvər ruhda yetişməsi uğrunda əzmkarlıq və fəallıq göstərən şəxsiyyətlərimizdən biri M.F.Axundov olmuşdur. Onun fikrincə vətənpərvərlik hissi səltənət başçısı padşahdan başlamış aşağıya doğru bütün vətən övladlarına sirayət etməlidir. Bu işdə səltənət başçısının müstəsna rolu vardır. O, vətəndaşları despotizm və zorakılıq üsulları ilə deyil insanpərvərlik, xalqsevərlik, vətənpərvərlik qanunları ilə idarə etməli, idarə etdiyi ölkədə hər kəsin qəlbində "patriot"luq hissi yaratmalıdır. Elə etməlidir ki, vətəndaşlar qorxu cəhətdən deyil, ədalət və sədaqət cəhətdən padşaha itaət edib "padşahın ismi ilə vətəndən ötrü can və mallarını müzayiqə etməsinlər". (19, 72) Mirzə Fətəli təkcə ölkə başçılarını deyil, millətin ağıllı adamlarını, ziyalılarını, tərbiyəçilərini də öz xalqının millətpərvərlik, vətənpərvərlik ruhunda tərbiyəsi yolunda səfərbərliyə çağırır, məsələnin mahiyyətini bu cür şərh edirdi: "Millətin ağıllıları bu əsrdə gərək milli qüdrət və vətənin biganə xalqlardan qorunması üçün azadlıq və istiqlaliyyətin əldən alınması və əsarət kimi bir zillətin ki, bu aləmi-həvadisdə ola biləcəyi yəqinə yaxındır, rədd edilməsi tədbirlərində olsunlar. Bu növ zillətin rədd edilməsi tədbiri, fəqət, millətin bütün sinifləri içində elmləri yaymaq və onların zehnində qeyrət, namus, millətpərvərlik və vətənpərvərlik toxumunu əkməklə mümkündür. Necə ki,

hal-hazırda Avropanın qüdrətli millətləri bu sifətin sahibidirlər”. (159, 152-153)

Cəlaləddin Mirzəyə 15 iyun 1870-ci il tarixli məktubunda qəlbində “vətən sevgisinin çoxluğu üzündən” onun nəfi naminə çox tədbirlərə əl atdığını söyləyən M.F.Axundov onun xalqı içərisində də “vətənpərvərlik və xalqsevərlik nəşəsini başa düşüb” onun qeyrət və təəssübü ilə yaşayan tək-tək adamların olduğuna sevinir. Bu adamların sayının gələcəkdə artacağına ümid edir. Cahil ərəblərin gəlib bizim müstəqil dövlətimizi zavala uğratdığını, yer üzünün cənnəti sayılan vətənimizi xarabazara döndərdiklərini, bizi bu cür “zəlil, başıaşağı edib, kölə və miskin vəziyyətə” saldığını nifrətlə xatırladır. Xalqı, vətəni bu vəziyyətdən qurtara biləcək şəxsiyyətlərə ehtiyac olduğunu söyləyir. Həm də vətənin “peyğəmbərlik, imamlıq yolu ilə deyil”, yalnız “filosofluq, alimlik yolu ilə” xilasını mümkün sayır. (20, 141-143) Tarixin drəslərindən ibrət götürüb heç olmasa, həmvətənlərimizi sonrakı bəla və müsibətlərdən qorumaqdan, xalqı bu işə səfərbər etməkdən ötrü onu lazımi şəkildə tərbiyələndirmək şərtini irəli sürür. (20, 161) İranın sabiq konsulu Əli xana ünvanladığı 22 sentyabr 1872-ci il tarixli məktubunda əsas məqsədinin vətənin xilası üçün çalışmaq olduğunu söyləyir: “Mənim məqsədim islam xalqlarını sarsıdan cəhaləti aradan qaldırmaq, elmləri, sənətləri inkişaf etdirmək, xalqlarımızın azadlığı, rifahı və sərvətinin artması üçün, vətənin abadlaşdırılması üçün və islamiyyətdən əvvəl babalarımızın malik olduğu şən və şöhrətin bərpa edilməsi üçün ədalətə rəvac verməkdir”. (20, 213) Başqa bir məktubunda isə gələcəkdə vətəninin yadların ardınca gedən mənhus vücudlardan təmizlənəcəyinə, əsarətdən qurtaracağına, gülüstana çevriləcəyinə inamını ifadə edir. (20, 247)

“Əkinçi” qəzeti də vətəndaşların qəlbində vətən və millət sevgisi yaratmaq təşəbbüsündə Mirzə Fətəlinin məsləkinə şərik çıxırdı. H.Zərdabi qəzetin 11 iyun 1876-cı il tarixli nömrəsində millət təəssübü çəkən “qardaşlara” müraciət edib onları “milləti işlərimizə rövnəq verməyə”, elm təhsil edənlərə, millət yolunda

çalışmaq istəyənlərə güc verməyə çağırırdı. Onu da əlavə edirdi ki, cəhalət, maarifsizlik ucbatından bizim vətən qardaşlarımız ilə “ünas tutmaq” çətindir. Göstərilən səbəbə görə onlar sizin dediklərinizi başa düşməyəcək, şəriətə zidd hesab edəcək, hətta sizi kafir adlandırıb incidəcək. Ancaq vətən və millətin xoşbəxt istiqbalı naminə siz bu cəfalara dözməlisiniz. Nəfsə uyub millətin və vətənin şərəfini öz şəxsi mənfəətinizə satmamalısınız. Həsən bəy xalqın taleyini düşünən bir mütəfəkkir kimi “millət təəssübü çəkən qardaşları”nı bu cür başa salmağa çalışırdı: “Doğrudur, qeyri millətlər sizin kamalınızı görüb sizə artıq rütbə verəcəklər, amma insaf deyil ki, beş gün ömrün ləzzətindən ötrü milləti, qardaşlarınızı atıb, onları kor və sərgərdan qoyasınız. Pəs ləzzəti-dünyaya tamah etməyib öz qardaşlarınızı əməli-xeyrə vadar edin, qoy şüəralar sizi həcv etsin, mollalar lənət oxusun, əvamünnas daşa bassın, siz millət üçün zəhmət çəkirsiniz və bişəkk gələcəkdə millətin gözü açılanda sizi şəhid hesab edib, sizə rəhmət oxuyacaq”. (88, 183)

Məhəmmədtağı Əlizadə Şirvani də “Əkinçi” qəzetində (1877, 1 fevral) işıq üzü görən və “Vəkili-milləti-islamın” (yəni M.F.Axundovun) fikirlərini müzakirə məqsədilə yazılmış məktubunda bizim milliət və vətən sevgisindən məhrum olmağımızın səbəbini elmdən “bisəmər” qalmağımızda və “ittifaqımızın yoxluğunda” görürdü. (88, 313)

H.Zərdabi “Zingədanlıq davası və yaxud dirilik mübarizəsi” (“Həyat”, 1906, 4 yanvar), “Dil və din” (“Həyat”, 1906, 6 yanvar) məqalələrində milli özünüdərk və mücadilə məsələsinə yenidən qayıdırdı. Müəllif nəzərə çatdırırdı ki, həyat, yaşayış, yüksəliş, qabiliyyət uğrunda millətlər, qövmlar arasında əzəli və əbədi mübarizə mövcuddur. Bu, cəmiyyət və xalqların bir-biri ilə “zindəganlıq davası”, yəni ölüm-dirim uğrunda mübarizəsidir. Əgər millət özünü, öz varlığını, kimliyini dərk etmirsə, o, həmin davadan məğlub çıxıb tədricən (“mürur ilə”) “fovt olub gedir”. Xalqın öz milli varlığını dərki, ətraf dünyadan baş aça bilməsi elm, təhsil, ana dilinin mühafizəsi, birlik və

ittifaqla ola bilər. İttifaq və ittihada nail olmaqdan ötrü toplumu təşkil edən fərdlər və bütövlükdə cəmiyyət öz milli kimliyini anlamalı, etnik mənşəyini bilməli, etnokulturoloji yaddaşına və sərvətinə sahib çıxmalıdır.

Maarifçi ideoloqlarımız arasında milli özünüdərk tərbiyəsi ilə nəzəri şəkildə məşğul olan fəal ziyalılarımızdan biri M.Şahtaxtlı olmuşdur. Tarix boyunca ilk dəfə o, “Kaspi” qəzeti (1891, №93) vasitəsilə ictimaiyyətə təqdim edilən “Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı?” sərlövhəli məqaləsində son dərəcə önəmli mahiyyət daşıyan bu suala (sərlövhədəki suala) cavab vermişdir. Həm də tarixdə ilk dəfə Azərbaycan türklərinin milli mənsubiyyəti, milli kimliyi, milli dilinin adı, milli etiketləri bir problem olaraq ictimai-mədəni səhnəyə çıxarılmış, müzakirə və mübahisə obyektinə çevrilmişdir. Əslində bu deyilənlər xalq üçün son dərəcə vacib məsələlərdir. Çünki xalq öz milli mənsubiyyətini, millətinin, dilinin dürüst adını, etnos kimliyini anlamadan, bilmədən onda lazımınca milli hiss, milli düşüncə, milli qürur, milli təəssübkeşlik və s. milli insani keyfiyyətlər tərbiyə etmək mümkün deyil.

M.Şahtaxtlı şərh edir ki, uzun əsrlərdir, azərbaycanlılar “milli dil və din anlayışlarını itirib, öz xalqlarını və öz dillərini müsəlman adlandırırlar. Hansı xalqa məxsusdurlar və hansı dildə danışırlar? – sualına Zaqafqaziya müsəlmanı başqa cavab vermir. Yalnız deyir ki, o, müsəlmandır və müsəlmanca danışır”. (237, 28) Ruslar bizə gah “Zaqafqaziya müsəlmanları”, gah da “tatar”, “Qafqaz tatarları” deyir. Hətta bizə, xüsusilə Bakı əhalisinə “fars” deyənlər də tapılır. Bu ciddi yanlışlıqdır. Müsəlmançılıq bizim dini etiqadımızdır. Etiqadla, xalqın adını qarışıq salmaq olmaz. Beləliklə, Məhəmmədağa xalqın adı və dilimizin adı barədə ilk dəfə belə bir tarixi təklif verir: “Zaqafqaziya müsəlmanlarını azərbaycanlılar, onun dilini isə Azərbaycan dili adlandırmaq çox yerinə düşərdi. Böyük bir hissəsi İrandan ayrılıb Rusiyanın payına düşmüş Aderbedjan (Azərbaycan) mahalı – indiki Zaqafqaziyadır, əhalisi də türk xalqıdır. Onları həm Şərq yazıçıları, eləcə də Avropa

coğrafiyaçıları və etnoqrafları başqa adla yox, ancaq Azərbaycan türkləri adlandırırlar.

Gündəlik həyatımızda xalqın adını və dilinin adını iki sözlə ifadə etmək rahat deyil: məsələn, azərbaycanlı türk və yaxud aderbedjanlı türk dili. Ona görə də Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, Zaqafqaziya türk dilini isə tatar dili əvəzinə Azərbaycan dili adlandırmaq məqsədəuyğun olardı". (237, 29)

M.Şahtaxtlının 1901-ci ildə qələmə aldığı "Türkiyəni necə xilas etməli?" adlı nisbətən iri həcmli əsərində də Türkiyənin timsalında milli həyatın qaçılmaz surətdə yenidən qurulmalı, zamanın gedişatına və tələblərinə uyğunlaşdırılmalı, xalqın düşüncə və tərbiyəsinin də buna müvafiq aparılmalı olduğundan söhbət açılır. Müəllif milli özünüdərki xilas yolunun zəmini hesab edir. Lakin bu vacib elementi Avropa dəyərləri ilə zənginləşdirməyi qaçılmaz zərurət sayır. Qeyd edir ki, "milli istiqlaliyyətin yükü bizim dövrdə elə ağırlaşıb ki, onu Avropa mədəniyyətinin köməyi olmadan daşımaq mümkün deyil". (237, 43) Görkəmli ziyalı belə bir sualın cavabını da verir: Türkiyə vətənpərvər və savadlı idarə üsulu ilə avropalaşa bilərmi? Suala "Bəli, özü də asanlıqla" - cavabını verir və həm də çıxış yolunun detallarını aydın şəkildə şərh edir. Bunun üçün despotizmin, köhnə idarə üsulunun, ruhanilər hakimiyyətinin ləğv edilməli, vətənpərvər, milli qürura, zəkaya, qeyrətə sahib maarifpərvər qüvvələrin hakimiyyət başına gəlməli olduğunu söyləyir. Bildirir ki, türk xalqı "milli ləyaqət və vətənpərvərlik duyğusu altında" dünyada heç bir xalqa tabe olmur. Sadəcə olaraq bu hissi istiqamətləndirəcək, cəmləyəcək, ona rəhbərlik edəcək şəxsiyyətlərə ehtiyac vardır. Təəssüf ki, osmanlı imperiyasının indiki hakimiyyəti "vəzifə və vətənpərvərliyin" nə olduğunu başa düşmək üçün nə "kifayət qədər şüura, nə də hiss etmək üçün kifayət qədər əxlaqa" malik deyil. (237, 56)

M.Şahtaxtlı milli özünüdərk və vətənpərvərliklə bağlı qənaətlərini "Şərqi-rus" qəzetində də ardıcıl surətdə davam etdirmişdir. Qəzetin 13 iyun 1904-cü il tarixli sayında naşir

təkidlə bildirirdi ki, biz tərəqqiyə yalnız o zaman nail ola bilərik ki, fərd (cəmiyyət üzvü) yalnız öz xoşbəxtliyi barədə yox, ümumiyyətlə, millətin xoşbəxtliyi barədə düşünsün. Başqa sözlə, millətin xoşbəxtliyində öz xoşbəxtliyini görmüş olsun. Avropa millətləri məhz belə bir düşüncə sisteminə söykənir. (237, 112) Maraqlıdır ki, M.Şahtaxtlının tərbiyədəki "azərbaycançılıq" ideyası "türkçülük" ideyası ilə uzlaşır. O, Azərbaycan türklərini – azərbaycanlıları sırf milli hissdə tərbiyə etməyin zərurətindən danışdığı kimi ümumtürk qövmlərinin öz milli varlığını dərk etməsindən də söhbət açır, hətta ortaq türk dili yaratmaq ideyasını ortalığa atır. "Hər gün bir az" silsilə məqalələrində bu məsələyə xüsusi olaraq toxunur ("Şərqi-rus", 1904, 29 avqust). Türk mənşəli xalqlardan ötrü ümumi bir anlaşma dili kimi oğuz türkcəsini işlətməyi təklif edir və yazır: "Bu türkcəni bir az intizamla işlətsək, az vaxtda gözəl ümumi bir dil olur ki, rusca, ingiliscə, ərəbcə kimi insanların (yəni türk dillilərin – T.V.) fikir alveri üçün mükəmməl bir alət olur". (237, 198)

N.Vəzirov "Yeni irşad" qəzetindəki (1911, 18 sentyabr) mütəfərriqəsində vətənə, millətə dönük, öz ana dilinə xor baxan, azərbaycanlı qızları bəyənməyib kənar millətlərin qızları ilə evlənən ziyalıları kəskin şəkildə tənqid edir, bununla xalqa ögeyləşdiklərini, onun milli hissdə tərbiyəsinə zərər vurduqlarını söyləyirdi. "Quzğunlar" felyetonunda isə vətəni, milləti öz şəxsi mənfəətinə qurban verənləri "quzğun" adlandırır, təəssüf hissi ilə söyləyirdi: "Yazıq vətənim!... Quzğunlar leş didəndə din-iman yaddan çıxır, vətəni para-para etməkdə heç kəsdən qorxmurlar, çünki burada "əl əli yuyar, hər ikisi də üzü" məsələsi var...

Yazıq vətənim!" (264, 282) Nəcəf bəy bu cür əməllərin gənc nəslin də vətənpərvərlik ruhunda tərbiyəsinə mənfi təsir etdiyini nəzərə çatdırırdı.

Maarifpərvərlərimiz içərisində xalqın vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi diqqət yetirən qələm sahiblərimizdən biri də N.Nərimanov idi. O, bu mühüm problemə fərqli

istiqamətlərdən yanaşırdı. Məsələn, "Həftə fəryadı" ("Həyat", 1906, 23 iyun) məqaləsində vətənpərvərlik, millətpərvərlik məsələsində siyasi riyakarlığın, mərkəzi hökumət dairələrinin məkrli oyunlarının mahiyyətini açıb xalqa göstərir, imperiya siyasətçilərinin bu pərdə altında öz siyasi məqsədlərini həyata keçirmək istədiyini kütləyə başa salırdı. (192, 294-295) Həmin silsilədən olan bir başqa məqaləsində ("Həyat", 1906, 14 iyul) vətən övladının hürriyyəti, azadlığı, azad yaşayışı məsələsinə toxunurdu. Bu "mühüm nöqtəni" millətin tərəqqi və tərbiyəsinin "əsas rüknü" adlandırırdı. (192, 309)

"İrşad" qəzetində (1906, 28 iyul) "Nər" imzası ilə çap edilmiş "Cümə söhbəti" silsilə məqalələrindən birində N.Nərimanov hükumətin ictimai-siyasi həyatda olduğu kimi tədris-təlim prosesində də ana dilimizə ögey münasibət bəslədiyinə, camaatın isə bu vacib məsələyə laqeyd yanaşdığına kəskin reaksiya verir. Xalqı bu ümummilli işə fəal şəkildə müdaxiləyə çağırır. Bunu milli tərbiyənin ümdə komponenti kimi dəyərləndirir. Geniş oxucu auditoriyasına müraciətlə deyir: "Dürüst diqqət ediniz: bir millət ki, başına dəydiyi toppuzu anlamaya, bir millət ki, öz əli ilə özünə quyu qaza, bir millət ki, yaxşı ilə yamana fərq qoymaya, bir millət ki, aşkar bəlanı" özündən rəf etməyə qadir olmaya... bir millət ki, bir-birindən təfriqə düşüb bir-birinin əqlindən, ruhundan, dərdindən xəbər tutmadı... Bu millət barəsində nə demək olar? Hərgah millətin hümməti, həmiyyəti, ittifaqı olsaydı, yəqin ki, onu "cilə" qoymazdılar, yəqin ki, onun lisan müəllimləri "ah, ana dilində nə mənfəət" sözlərini fikirlərindən keçirtsələr isə də, açıq deyə bilməzdilər. Kara nə söyləyirsən, söylə! Kora nə göstərirsən, göstər! Lalın barəsində nə yazırsan, yaz! Kimdir cavab verən? (192, 358) Göründüyü kimi, görkəmli ziyalı xalqı "karlığın", "korluğun" daşını atıb öz milli varlığını dərk etməyə, milli dəyərlərini qorumağa, onu yaşatmaq üçün mübarizəyə çağırır. Göstərir ki, bir millət ki, həyatına dair məsələlər həll olunan vaxt "yatar, lal olar", o millətin "diriliyi" şübhəlidir. Millətin

yolgöstərənləri isə əgər həqiqəti millətə başa salmaz, ondan gizlədərlərsə, millətə aşkar xəyanət etmiş olarlar. (192, 371)

N.Nərimanov milli özünüdərkin xalq üçün vacib bir keyfiyyət olduğunu bəyan etdiyi kimi onun yol və vasitələrini də kütləyə anlatmağa çalışır: "Bir millət özünü tanımayınca, hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır. Bunların da meydana gəlməsi və tərəqqisi bizim üçün hürriyyətə bağlıdır". (192, 378)

İstedadlı yazıçı "Nadir şah" (1898) pyesində də vətənpərvərlik ideyasını, ölkə başçısının özünün vətənpərvər olub xalqı da bu istiqamətə yönəltmək keyfiyyətini vacib bir şərt kimi irəli sürür.

Milli intibah dövrü tərbiyə nəzəriyyəmizin hərtərəfli mənada inkişafında "Molla Nəsrəddin" əməkdaşlarının ciddi rol oynadığı məlum həqiqətdir. Vətəndaşların böyüklü-kiçikli bir millət kimi özünü dərk etməsində, onlara vətənpərvərlik hissinin aşılanmasında da jurnal əməkdaşlarının əvəzedilməz xidmətləri olmuşdur. Məcmuə ilk nömrələrindən bu işə xüsusi diqqət yetirmişdir.

Məcmuənin 1906-cı il tarixli 18-ci nömrəsində C.Məmmədquluzadənin "Vətən məhəbbəti" felyetonu işıq üzü görmüşdür. Yazıçı burada ermənilərin, gürcülərin və azərbaycanlıların vətənə, onun dərdlərinə münasibət hisslərini müqayisə edir. Erməni və gürcülərin deyilən məsələdə daha ayıq, fəal, zirək və şüurlu olduqlarını göstərir. Azərbaycanlıların, xüsusilə xalq içərisindən çıxmış əsilzadələrin, imkan və ixtiyar sahiblərinin bu vacib məsələdə kütləyə pis nümunə olduqlarını, vətənə, millətə laqeyd münasibət bəslədiklərini tənqid edir.

"Molla Nəsrəddin"də çap olunan "İttihad" (1908, №31), "Müsəlmanların ittihadı" (1911, №13) və s. felyetonlarda C.Məmmədquluzadə azərbaycanlıların milli birlik tərbiyəsinə nail olmağı zəruri bir şərt kimi irəli sürür. Özünəməxsus istehza ilə bildirir ki, vətən övladları belə bir şüur və dərrakədən məhrumdurlar. Mədəni, milli əqidəli millətlərdən fərqli olaraq

Azərbaycan türkləri milli ittihada nail olmaqdan ötrü danışıqdan, hay-küylü söz-söhbətdən o yana getmirlər, getmək də istəmirlər. Yazıçı bu ideyanı milli şüura yeritmək naminə hər vəchlə səy göstərir və qəzəblə, kinayə ilə yazır: "İndiyədək qəzetlərimizdə çox yazmışıq: "İttihad", "İttifaq. Amma bir az diqqət eləsək, görərik ki, ittihad və ittifaq yolunda cibimizdən bir qəpik çıxmayıb, savayı ondan ki, bir məktəb açıb adını qoymuşuq "İttihad", bir də qiraətxana açıb adını qoymuşuq "İttifaq". Ola bilər ki, bir gün bir oğlumuz olanda adını qoyaq "İttihad", qızımız olanda adını qoyaq "İttifaq". (165, 238-239)

"Üç yüz milyon" ("Molla Nəsrəddin", 1909, №21) felyetonunda Mirzə Cəlil saxtakar, cəhalətpərəst, yalançı, xalq adından danışıb əslində xalqa düşmən olan, məfkurəsiz "millətpərəstlərin" kim olduğunu kütləyə başa salırdı. Onların iç üzünü açıb göstərir, vətən övladının millətpərvər, vətənpərvər ruhda yetişməsinə xeyirdən çox ziyan vurduqlarını söyləyirdi. Onları xalqın içərisində yaşayan, onun milli əqidə və məslək hissini əlindən alan "millət düşmənləri" adlandırırdı. (166, 35-36)

1917-ci ildə qələmə alınmış "Cümhuriyyət" məqaləsində C.Məmmədquluzadə respublikanın bir dövlət quruluşu kimi mahiyyətini, səciyyəsini, xalq üçün faydasını öz həmvətənlərinə başa salırdı. Öyrədirdi ki, öz milli varlığını dərk etməyən, vətənini sevməyən bir xalq ən mütərəqqi siyasi və dövlət quruluşu olan cümhuriyyət yarada bilməz. Müstəqil cümhuriyyəti olmaq yalnız ali milli hissə, yüksək vətənpərvərlik şüuruna malik olan xalqlarda təşəkkül tapa bilər. Müstəqil cümhuriyyəti olmaq isə xalqın istiqlaliyyəti və xoşbəxtliyi, dünya millətləri cərgəsində öz hüququ olması deməkdir. (167, 35-37)

"Azərbaycan" ("Molla Nəsrəddin", 1917, №24) məqaləsində, "Anamın kitabı" (1920) pyesində və s. əsərlərində Mirzə Cəlil milli özünüdərk və vətənpərvərlik tərbiyəsi ideyasını aktual bir problem kimi daha ötkəm şəkildə qoyur.

“Azərbaycan” məqaləsində müəllif öz tərbiyəvi təlqinlərini oxucuya yeniləşən müasir dünya və bu kontekstdə Azərbaycanın düşdüyü vəziyyət müstəvisində çatdırır. Dünya dəyişir, millətlər yuxudan oyanıb gözlərini açır, tərəqqi edir, yüksək nailiyyətlər qazanır. Lakin bu surətlə dəyişən, təkamülə uğrayan dünyanın müqabilində bizim vətənimiz tənəzzül halında qalmış, çarəsiz günə düşmüşdür. Bunu ürək ağrısı ilə xatırladan sənətkar həmvətənlərini oyatmağa, vətənin qayğısına qalmağa çağırır və sirayətedici, tərbiyəverici bir tonla deyir:

“Bəs sən haradasan, ay biçarə vətən?!

Dünya və aləm dəyişildi, mənalar özgə təbir əxz elədi, yəni bizim dilcə söyləsək, o şeylər ki, əsl mənalarını itirmişdi, qayıdıb əslini tapdı, inna lillahi və inna ileyhi raciun; amma buna hamı qail oldu ki, vətən, vətən, vətən, dil, dil, dil, millət, millət, millət!.. Dəxi bu dairələrdən kənar bəni-noi-bəşər üçün nicat yolu yoxdur.

Bununla bərabər, yəni “bavücude inki” hər söz danışıldı, hər mətləbə əl vuruldu, hamı pəhlivanlarımız öz hünərlərini çıxartdılar meydana və lakin bununla bərabər bu qədər var ki, bircə lazımlı söz ki, mənim zəndeyi-zəhləmi aparır – haman söz Azərbaycan vətənimin üstündədir” . (166, 222)

C.Məmmədquluzadə “vətən” dedikdə yalnız Şimali Azərbaycanı yox, şimallı-cənublu bütöv Azərbaycanı nəzərdə tutur. Bu bütöv Azərbaycanın dərdini çəkir. Oxucuları da bu cür başa salır. Təəssüf edir ki, indi həmin vətən parçalanmış, pərakəndə düşmüş, hissə-hissə bölünmüşdür. Bu bölünmək onun gücünü tükətmiş, onu dünyanın inkişaf meydanından geridə qoymuş, ona sahiblik edən milləti zavallı günə salmışdır. Elə buna görə də hissə-hissə bölünmüş vətən torpağında yaşayanların hamısına müraciət edir, onları vətənin halına yanmağa onu xilas etməyə çağırır: “Ax, gözəl Azərbaycan vətənim! Harada qalmısan?.. Ay torpaq çörəyi yeyən təbrizli qardaşlarım, ay keçəpapaq xoylu, meşkinli, sərablı, goruslu və moruslu qardaşlarım, ay bitli marağalı, mərəndli, gülüstanlı quli-biyaban vətəndaşlarım, ey ərdəbilli, qalxanlı bəradərlərim!

Gəlin, gəlin, gəlin mənə bir yol göstərin! Vallah ağlım çaşıb! Axır dünya və aləm dəyişildi, hər bir şey qayıdıb öz əslini tapdı, hər mətləbə əl vuruldu, gəlin biz də bir dəfə oturaq və kecə papaqlarımızı ortalığa qoyub bir fikirləşək haradır bizim vətənimiz?!

Gəlin, gəlin, ey unudulmuş vətənin çırıq-mırıq qardaşları! Gəlin görək beşikdə yad millətlərin südünü əmmiş, vətənimizdən yadırğamış və millətimizin ruhundan xəbərsiz bir para millət başçılarımız sizə nə gün ağlayacaqlar?!

Niyə sakitsiniz, ey mənim lüt-üryan vətən qardaşlarım?!” (166, 223)

Sənətkarın “Azərbaycan” məqaləsi kimi “Anamın kitabı” pyesi də kəskin tərbiyəvi ruha malikdir. Buradakı obrazlar rəmzidir. Ana Zəhrabəyim bütöv vətəni, onun övladları Rüstəm bəy, Mirzə Məhəmmədəli, Səməd Vahid və Gülbahar isə vətənin övladlarını təmsil edirlər. Təəssüf ki, Zəhrabəyimin oğullarının hər biri bir ölkədə (Rusiyada, İranda, Türkiyədə) təhsil alıb gəlmiş, vətənə, xalqa yadlaşmışlar. Onların hərəsi bir ölkənin dilində danışır, mənəviyyat, əxlaq, əməl, hiss, duyğu etibarı ilə xalqdan qopmuşlar. Ona görə də hərəsi vətəni müxtəlif səmtə çəkir, milləti parçalamaq istiqamətində mənasız təşəbbüslər edirlər. Onların bu əməlləri ananı – vətəni təmsil edən Zəhrəbəyimi xəstə hala salır. Anasının ölüm ayağında Gülbahar qardaşlarının kənar millətlərə məxsus bütün kitablarını yandırır və onlara anasının əmanəti olan bir kitab təqdim edir: “Anamın kitabı”. Əsərdə oxuyub təhsil aldıqdan sonra vətənə, millətə yadlaşan, ögeyləşən ziyalıların yaramaz, məyusedici əməlləri dolğun şəkildə, həm də son dərəcə tərbiyəvi, ibrətamiz detallarla öz əksini tapır. “Bizim obrazovannılar” (“Molla Nəsrəddin”, 1906, №2), “Meymunlar” (“Molla Nəsrəddin”, 1906, №31) və s. felyetonlarında da yazıçı milli hissini itirmiş dönük ziyalılar probleminə toxunur. Onların gənc nəslin milli-ruhda tərbiyəsinə pis təsir göstərdiklərini xatırladır.

Ümumiyyətlə, XX əsrin əvvəllərində “dönük ziyalılar” problemi ədəbi-mədəni, ictimai-pedaqoji fikrin diqqət

mərkəzində duran məsələlərdən idi. Milli və vətənpərvərlik motivli əsərlərdə, çıxışlarda belə ziyalılar mütəmadi olaraq demokratik fikrin tənqid hədəfinə çevrilirdi.

M.Ə.Sabirin "Molla Nəsrəddin" jurnalının səhifələrində kütləyə təqdim edilən "Millət necə tarac olur olsun, nə işim var?!" (1906, №4), "Amalımız, əfkarımız ifnayi-vətəndir" (1907, №10), "Satıram" (1909, №23), "Səttarxana" (1908, №42), həmçinin "Zənbur" məcmuəsində çap olunan "Ürəfa marşı" (1910, №3), "Millət şərqisi" (1910, №5), "Həqiqət" qəzetində dərc edilən "Dindirir əsr bizi, – dinməyiriz" (1910, 14 iyun) və s. şeirləri dərin vətənpərvərlik ruhu, milli varlıq və milli ideal həqiqətlərinin oxucuya təqdim və təlqin yükü ilə doludur. Şair satirik tərzdə vətən övladlarını milli kimliyini, milli ləyaqətini, milli qürurunu, milli şəxsiyyətini dərk etməyə, milli məslək və ideallar yolunda fədakarlığa səsləyir. Tərbiyəvi fikrin tonunu isə quru öyüd-nəsihət üzərində deyil, daha kəsərli olan satirik ifşa üzərində qurur.

"Molla Nəsrəddin"çilər içərisində Ö.F.Nemanzadənin yaradıcılığında da milli özünüdərk və vətənpərvərlik ruhu aşılayan, bilavasitə bu mövzularla bağlı əsərlərin bolluğu ilə üzləşirik. Həmin əsərlərdən bir neçəsinin adına nəzər salaq: "Dərdimiz və dərmanımız" ("Şərqi-rus", 1903, 4, 6, 11 aprel); "Nə üçün haqqımızı istəmiriz?" ("Şərqi-rus", 1904, 5 may); "Cavan bir millətpərəstin vəfatı" ("Şərqi-rus", 1904, 24 iyul); "Biz də vaxta görə çalışaq" ("Şərqi-rus", 1904, 28, 29 avqust, 2 sentyabr); "Nə vaxta qədər?" ("İrşad", 1906, 17 aprel); "Millətpərəstlik zamanıdır" ("İrşad", 1906, №282); "İmtahan" ("İqbal", 1915, 24 mart); "Milli məsələlərimizin vaxtımı?" ("Açıq söz", 1915, 10, 11, 25 noyabr, 6 dekabr); "Mən kiməm" ("Qardaş köməyi", 1917, may); "Milliləşmək" ("Azərbaycan", 1919, 21, 24 noyabr) və s.

"Milli məsələlərimizin vaxtımı?" məqaləsində Ömər Faiq mütərəqqi baxışlı ziyalı ictimaiyyətini düşündürən mühüm bir suala cavab verirdi. Tarixi şəraitin, bizim "milli ehtiyaclarımızla" daha fəal, təxirəsalınmaz şəkildə məşğul

olmağımıza zərurət yaratdığını söyləyirdi. Bu mənada yaralarımızın üstünü bastırmadan onları açıq-açığına söyləyib, açıq-açığına işlər görməyin vaxtı yetişdiyini israr edir, bu sahədə fəal iş görməyin səbəblərini şərh edirdi: "Ürəyimizdəkini nə üçün gizlədim: hüquqsuzluğumuz üzündən idareyi-ruhaniyyələrimiz, milli məktəblərimiz, dilimiz, milli xeyiratımız, vəqflərimiz ağlanacaq bir halda olursa, bu idarələrin, bu əməllərin fikir və tərbiyəsi altında yaşayan cəmiyyət əcəba nə halda olar?" (189, 241) Göründüyü kimi, müəllif milli tərbiyə vasitələrimizin yarıtmaz halda olduğunu xüsusi şəkildə vurğulayır.

Ömər Faiq "Gürcü politikaçıları" ("Açıq söz", 1917, 18 yanvar) təkid edirdi ki: "Bir millətin bəqası o millətdən olanların öz millətini tanıması ilə, onu öz anası kimi sevməsi ilə, onun şanını, namusunu, diriliyini, mənfəətini öz namusu, öz mənfəəti kimi bilməsi ilə olar". (189, 261)

"Mən kiməm" məqaləsində maarifçi ziyalı millətlərin oyandığı, öz milli varlığını dərk edib onun rəvac tapması uğrunda mücadilə etdiyi, ölüm-dirim mübarizəsi apardığı bir zamanda Azərbaycan türklərinin öz milli mənliyini kifayət qədər anlaya bilməməsindən təəssüf edirdi. Bunu xalqın taleyində və tərbiyəsində bir ləkə kimi dəyərləndirirdi: "Zamanımızda, yəni din və əbudiyyətdən, cins və millətlərin hökm sürdüyü böylə bir çağda insan öz soy və millətini tanımamaq, daha doğrusu, özünü bilməmək ən böyük günahlardan, silinməz ləkələrdən biridir". (189, 262) Müəllif göstərir ki, bir rusdan, gürcüdən, ermənidən soruşduqda ki, sənin millətin nədir? Dərhal özünün rus, gürcü və erməni millətindən olduğunu deyir. Amma bir qafqazlı türkdən soruşduqda ki, sənin millətin nədir? Cavab verir ki, mən müsəlmanam. Yəni din ilə milləti bir-birinə qarışdırır. Çünki onların təsəvvüründə milliyyət və dini etiqad barədə düzgün anlayış yoxdur. Din və milli mənsubiyyəti eyni şey kimi dərk edirlər. Bu, nəticədə ciddi yanlışlıqlara, xalqın milli mübarizə əzminin, milli müstəqillik və istiqlaliyyət duyğusunun yoxluğuna gətirib çıxarır. Deməli, Qafqaz türkü özünün türk

olduğunu, bir millət kimi etnik mənsubiyyətini dərk etməlidir. Ö.F.Nemanzadə xalqı bu yöndə tərbiyə etmək, onlara öz milli mənini başa salmaq mənasında qələm sahiblərinin üzərinə böyük vəzifələr düşündüyünü söyləyir, eyni zamanda qafqazlı türklərə müraciətlə deyirdi: "Ey türk, sənin başına çox işlər gəlmişdir, çox əqidələr dolmuşdur. Çox şeylər bilmişsən və bu gün də çox cahil deyilsən! Bir çox ədiblərin, müəllimlərin, mühəndislərin, doktorların, advokatların, məktəblərdə yüzlərcə tələbələrin var!..

... Sən hər şeyi öyrənmək istədiyin halda niyə bircə zadı – yəni özünü bilmək istəmirsən, niyə öz varlığından, öz vücudundan, öz soy və nəslindən xəbərin yox? Niyə sənə "Kimsən?" dedikləri vaxt həqiqi cavabında aciz qalırsan? Niyə sadəcə deyə bilmirsən ki, mən türkəm. Niyə deyə bilmirsən ki, şiəlikdən, sünnülükdən, babılıqdan əvvəl sən türk idin. İndi də türksən və bundan sonra da türk qalacaqsan?" (189, 267-268)

Ümumiyyətlə, Qafqaz türklərinin öz milli-genetik mənsubiyyətini dərk etməyib onu dini mənsubiyyətlə qarışdırmaları XIX-XX əsrin hüdudlarında əsaslı milli yanlışlıq kimi ziyalı elitamızı düşündürür, milli tərbiyə nəzəriyyəsi ilə məşğul olan ideoloqlar bu problemə də diqqət yetirirdilər. Onlar milli dilin intişarını, milli məktəblərin təsis edilməsini, milli ədəbiyyatın, milli teatrın, milli mətbuatın rəvac tapmasını, həmin tərbiyə vasitələri ilə deyilən istiqamətdə təbliğat-təşviqat işlərinin aparılmasını xalqın milli özünüdərk tərbiyəsində vacib addım sayırdılar.

"Füyuzat"çıların dəsti-xəttində, ictimai islah və tərbiyə nəzəriyyəsində də milli özünüdərk stixiyası başlıca problemlərdən idi. Jurnalın əməkdaşları Ə.Hüseynzadə başda olmaqla deyilən problemə son dərəcə həssas yanaşırdılar. "Füyuzat"ın nəşrindən bir il öncə Əli bəy "Həyat" qəzetinin ilk nömrəsinə (1905, №1) yazdığı məramnamə səpkili "Qəzetimizin məsləki" sərlövhəli baş məqaləsində xalqın öz milli mənliyini və kimliyini dərk etməsinin zərurətini aktual bir məsələ kimi ortalığa qoyur və bildirirdi: "... o taifə, o millət təriqi-fəlah və

nicatda olur ki, özünü tanıya. Yəni hər qövm və millət öz qövmiyyətinə, lisanına, dininə, tarixinə, adət və əxlaqına və əlhasil özünün bütün əhvali-maziyyə və hazirəsinə, hətta əhvali-atiyəsinə kəsbi-vüquf eyləməlidir”. (113, 36) Əli bəy bir ideoloq-tərbiyəçi kimi ictimaiyyəti başa salırdı ki, xalq öz kimliyini anlamaq və dərk etməkdən ötrü keçmişini, indisini bilməli, hətta gələcəyinin də mövcud gedişata uyğun necə ola biləcəyini sezməlidir. Elə buna görə də tərbiyə vasitələrinin vəzifəsi həm də xalqın keçmişi, indisi və gələcəyi barədə xalqa məlumat verməkdən, onu öyrətməkdən ibarətdir. “Həyat” qəzetini yenicə nəşr etməyə başlayan Ə.Hüseynzadə onun 1-ci nömrəsində vəd edirdi ki, qəzet nəşr prosesində zikr olunan bu məsələləri diqqət mərkəzində saxlayacaqdır: “Binaənəleyh “Həyat” miləül-islamiyyəyə və ələlxüsus türk qövmünə dair məlumat və onların nə olmuş olduqlarına və nə olacaqlarına bacardıqca diqqət edib bu yolda türklərin əhvali-siyasiyyə və tarixiyyə və ədəbiyyələrinə dair nəşriyyata qeyrət edəcəklər”. (113, 36) Xalqın milli özünütəsdiqində və dərkində ana dilinin müstəsna rolunu xatırladan görkəmli mütəfəkkir bu dilin qorunmasına və rəvac tapmasına da xüsusi əhəmiyyət verir.

Əli bəy xalqımızın xilası, tərəqqisi və səadətini üç vacib şərtlə bağlayır: türkləşmək, islamlaşmaq, avropalaşmaq. Bu komponentlərdən hər birinin milli-ideoloji mahiyyətini də kifayət qədər inandırıcı, elmi, məntiqə uyar, müasir həyatın və gələcək inkişafın tələbləri baxımından izah edir. Çox keçmədən mütəfəkkir qələm sahibinin bu faydalı konsepsiyası bir milli-ideoloji hərəkət istiqaməti, fəaliyyət və tərbiyə düsturu kimi qəbul edilir. Həmin konsepsiya hal-hazırda da dövlətçiliyimizin əsas atributu kimi qüvvədədir.

Əlbəttə, üç məfkurə və sivilizasiya komponentinin sintezindən ibarət düsturda birinci yerdə dayanan milliləşmək, yəni türkləşmək, öz milli mənliyinə istinad etməkdir. Tərbiyə nəzəriyyəmizdə həmin xətt indi də davam etməkdədir.

“Füyuzat” jurnalında çap olunmuş bir sıra məqalələrdə bədii əsərlərdə də milli özünüdərk və vətnpərvərlik tərbiyəsi

probleminə bu və ya digər dərəcədə toxunulur. Həmin əsərlərdən aşağıdakıları göstərmək olar: M.Hadi – "Nidaül-vətənli əbnahi – vətənin övladına nidası" (1906, №5); Turani (Ə.Hüseynzadənin imzasıdır) – "Türk dilinin vəzifeyi-mədəniyyəsi" (1907, №9); Müəllim Bəkir – "Türklər üçün şiveyi-ümumiyyənin lüzumu" (1907, №9); M.Hadi – "Dövri-mədəniyyət" (1907, №13); M.Hadi – "Facieyi-həyatımızdan bir pərdə" (şeir – 1907, №16); M.Hadi – "Nümuneyi-əsarət" (1907, №20); Əbdülxalıq Qafarzadə - "Fəxriyyə" (şeir – 1907, №24) və s.

Ə.Hüseynzadənin 1905-ci ildə "Həyat" qəzetində (№4, 9, 16, 22, 35, 52, 81, 82) silsilə şəklində dərc olunmuş "Türklər kimdir və kimlərdən ibarətdir?" risaləsində də milli özünüdərk, öz keçmişini, etnik mənsubiyyətini tanıma, öz milli varlığına hörmət və s. kimi məsələlər qoyulur. Burada Əli bəy məsələləri, əsasən, türkçülük kontekstində işıqlandırır. Əsas məqsəd kütləni türklərin tarixi keçmişini, tarix səhnəsinə gəlişindən başlamış bu günə qədərki inkişaf yolunun bir sıra mühüm mərhələləri, qəhrəmanlığı, dövlətçiliyi, tarixdəki rolu və s.-lə tanış etməkdir.

"Molla Nəsrəddin"çilərlə "Füyuzat"çıların milli özünüdərk və vətənpərvərlik tərbiyəsi ilə bağlı mövqelərindəki fərqli bir cəhəti xatırlatmaq lazım gəlir. Əgər birincilər bu məsələdə "azərbaycançılıq" platformasında dayanır təşviqat, ideya-tərbiyəvi təlqinlərini də bu istiqamətdə qururdularsa, "Füyuzat"çılar, əsasən, turançılıq, türkçülük platformasından çıxış edirdilər. Böyük turan və ümumtürk coğrafiyasını əhatə edən, ayrı-ayrı qövmlərə parçalanmış türkdilli xalqların ittihad, ittifaq və birgə səadətindən, ümumi birliyindən söhbət açırdılar. Hətta bütün türk etnosları, qövmləri üçün ortaq ümumtürk dili yaradılması ideyasını müdafiə və təbliğ edir, tərbiyə nəzəriyyələrini də bu missiyaya uyğunlaşdırırdılar.

Əhməd Ağayev "Tərəqqiçilər, yaxud gənc türklər" ("Kaspi", 1903, 21 noyabr) məqaləsində Avropada təhsil alan müsəlman gənclərinin vətənə, millətə münasibəti məsələsini

dolğun surətdə şərh edir. Göstərir ki, müsəlman ölkələrindən, o cümlədən Türkiyə və Azərbaycandan Avropaya təhsil dalınca gedən gəncləri iki qismə bölmək olar? Onların birinci qismi Avropadan vətənə yalnız mənfəətpərəstlik, əxlaqsızlıq, milli sayğısızlıq düşüncəsi gətirir. Vətənə qazanc mənbəyi, Avropaya isə əyləncə yeri kimi baxır. Əslində bunlar vətənə düşmən olan milli dönüklərdir. İkinci qism vətənpərvər gənclərdir. Onlar Avropadan öz xalqına maarif, mədəniyyət, elm nuru, demokratik cəmiyyət, hürriyyət və tərəqqi naminə islahatlar aparmaq ideyasını gətirirlər. Bununla da vətənpərvərlik, millətpərəstlik hisslərini nümayiş etdirirlər. (4, 333-337)

Xalqın milli özünüdərk, milli özünəqayıdış ruhunda tərbiyəsi bir milli rəhbər və ideoloq kimi M.Ə.Rəsulzadəni də ardıcıl şəkildə düşündürmüş, məşğul etmişdir. O, milli xilaskarlıq missiyasında Ə.Hüseynzadə tərəfindən ortalığa qoyulan "türkləşmək, islamlaşmaq, Avropalaşmaq" konsepsiyasına tərəfdar çıxır, bu ideyanı daha da inkişaf etdirirdi. Onu da yaxşı dərk edirdi ki, üç mühüm komponentdən ibarət bu konsepsiyanın birincisi – "türkləşmək" məhz milli özünəqayıdış problemi ilə əlaqədardır. Bunsuz onun mənsub olduğu, xilası yolunda çalışdığı xalqın nicatı mümkün deyil.

M.Ə.Rəsulzadə ayıq, uzaqgörən, layiqli və elmli bir siyasətçi və ideoloq rəhbər kimi milli məfkurə, milli ideal, milli xarakter, adət-ənənə, bir sözlə, millət və ona mənsub mənəvi-psixoloji, mədəni və ruhi elə atributlara toxunurdu ki, bunları anlamadan kütlənin öz milli varlığını dərk etməsi, həqiqətən, mümkün deyildi. O, hətta "Milliyyət və ticarət" ("Təkamül", 1906, 30 dekabr) məqaləsində milliyyət və sinfilik məsələsinin mahiyyətini ictimaiyyətə izah edir. Qeyd edir ki: "Milliyyəti təbliğ edənlər, həmişə sinfiyyətə göz örtüb onu görmək istəməyənlərdir. Bir millətpərəst, millət dedikdə dövlətli-kasıb, mülkədar-rəncbər, iş verən və işçiliyi nəzərə almayıb, fəqət bir dildə danışan, bir adətdə olanları nəzərə alır.

Milliyyət müqəddəsdir. Qeyri-mütəvazidir, hüququ mühafizə edilməlidir, hər bir xaric sədəmədən saxlanılmalıdır...” (211, 85)

1914-cü ildə “Dirilik” jurnalında (№1, 2, 3, 4, 5, 6, 7, 8) silsilə şəklində çıxan və səkkiz məqalədən ibarət olan “Milli dirilik” risaləsində Məhəmməd Əmin bəy xalq, onu təşkil edən fərdlər və onların milli özünütanıma probleminə, milli diriliyi şərtləndirən faktorlara geniş şərh verir. Qeyd edir ki, xalqın yaşaması və ömür sürməsi onun milli diriliyinə bağlıdır. Millət isə “elmən və bədənən qüvvətli olmayınca dünyada yaşaya bilmək nemətindən məhrumdur”. Ümumiyyətlə, “diriliklərin ən mütəkamil bir şəkli milli diriliklərdir”. Millətlər qüvvətli olmayınca və tərəqqi tapmayınca dirilik “mənayi-həqiqi”sini itirir və milləti təşkil edən insanlar “Çornı raboçilər” kimi miskin və ixtiyarsız olurlar. (212, 461-462)

M.Ə.Rəsulzadə millətin millət kimi diri qalması, öz milli mənliyini, kimliyini hifz etməsi üçün millət və onu təşkil edən fərdlərin aşağıdakı məziyyətləri qoruyub saxlamasını zəruri sayır: 1. Millətpərəstlik hissi və düşüncəsi; 2. Milli vicdan və iman; 3. Milli ideal; 4. Milli dil və ona sayğı; 5. Milli din və etiqad; 6. Milli adət və ənənə.

Müəllifin fikrincə “diriliklərin ən qiymətlisi milli dirilikdir”. Milli diriliyin “baqi qalmasında” milli ədəbiyyatın, milli mətbuatın, milli məktəblərin, bir sözlə, milli tərbiyə vasitələrinin əvəzedilməz rolu vardır.

Millətpərəstliyin əhəmiyyətindən danışan M.Ə.Rəsulzadə aydınlaşdırırdı ki: “... başqalarını təmsil üçün deyil, öz mənliyini mühafizə üçün çalışan millətpərəstlik mədəniyyəti-bəşəriyyə naminə təqdir və təsdiq olunmalı zəruri və faydalı, böyük bir fikirdir”. (212, 466) O, uzun əsrlər boyunca şərq təfəkküründə yanlış olaraq millətlə din anlayışlarının qarışdırıldığını, elə buna görə də “islam milləti” kimi məntiqsiz, qeyri-dəqiq bir istilahın meydana gəlməsinə də müfəssəl surətdə aydınlıq gətirir. Bunun milli şüurda dolaşıq qənaətlər yaratdığını, nəticədə milli tərbiyənin məzmununa da mənfi təsir göstərdiyini söyləyir. Onu

da qeyd edir ki, millətin varlığını təsbit edən onun milli mədəniyyətidir. Milli mədəniyyət və yaxud millət isə “dil birliyi, adət və əxlaq birliyi, ənənati-tarixiyyə və nəhayət, etiqadati-diniyyə birliklərinin məcmuundan mütəşəkkil bir məhsuldur”. (212, 468) Müəllif milli idealın, milli ruhun, milli istiqlaliyyətin nə olduğunu da izah edir. Nəhayət, “milliyyətinə dəli bir aşiq qədər” vurğun olmasını arzuladığı türk gəncliyini milli istiqlal yolunda mübarizəyə səsləyərək deyir: “Ey millətin istiqbalını təmin edəcək türk gəncliyi, hardasan?!” (212, 479)

“Milli dirilik” risaləsi o zamankı mədəni-pedaqoji mühitdə gənc nəsli milli özünüdərk ruhunda “qidalandıran”, bu məsələ ilə bağlı mətləbləri əhatəli şəkildə başa salan dəyərli bir tərbiyə dərsliyi idi.

“Diyanət, milliyyət və məişət nöqteyi-nəzərindən kənd məktəbləri” (“İqbal”, 1914, 11 dekabr) məqaləsində Məhəmməd Əmin bəy milli özünüdərk missiyası və təhsil ocaqlarının bu işdə rolundan bəhs edir. Əsaslandırır ki, müasir dövrdə demokratik ruhlu ziyalı elitasının üzərinə düşən və “xalqa doğru” hərəkat adını vermək mümkün olan mütərəqqi gedişatda milli tərbiyənin əsas məkanı milli məktəblərdir.

Vətənpərvərlik, millətsevərlik ideyasının təbliğ və tərbiyəsində Azərbaycan maarifpərvərləri “həqiqi millətpərəstlik”lə “saxta millətpərəsliy”i bir-birindən fərqləndirir, öz təşviqat işlərini də buna uyğun qururdular. Onlar sözlə əməl arasında vəhdət axtarır, yalnız millət adından söz deyib işini quru danışıqla bitmiş hesab edənləri, həmçinin “millət, millət” deyə hay-küy salıb onun mənfəəti yolunda heç bir əməli iş görməyən boşboğazları tənqid edir, onların iç üzünü açıb xalqa göstərirdilər. Əlbəttə, sağlam tərbiyə atmosferi yaratmaq, kütləyə həqiqi və saxta vətənpərvərliyin, millətpərəstliyin mahiyyətini başa salmaqdan ötrü deyilən bu cəhət zəruri idi. Ü. Hacıbəyov “Öz halımızdan” (“Həqiqət”, 1910, 14, 16, 18 aprel) məqaləsində zikr etdiyimiz məsələnin mahiyyətini bu cür şərh edirdi: “Millətpərəstlik sözü bir neçə zamandan bəridir ki, bizim ağzımıza düşüb, yerli və çox vaxt

yersiz yerə işlədirik. Görünür ki, millətpərəstlik nə olduğunu bir çoxumuz anlamır və ya tərsinə anlayır. Millətpərəst olmaq, yəni millətin xeyirxahı olmaq. Millətin xeyirxahı isə millətin hər bir barədə tərəqqisini arzu edər. O tərəqqi ki, onun sayəsində Yevropa əhli dünyanın hər bir maddi, mənəvi, ruhani nemətlərinə naildirlər. Bundan başqa, həmişə biz kimilərə də ağa və sahibdirlər. Millətin tərəqqisini arzu edən şəxs, şübhəsizdir ki, yalnız bir arzu ilə iktifa etməyib, bu yolda iş də görməlidir. İş isə cürbəcürdür və bu işi bir adam da görə bilər, bir cəmiyyət dəxi görə bilər”. (101, 155)

“İrşad” (1906, 11 oktyabr) qəzetində çap olunan “lüğət” felyetonunda Üzeyir bəy bir neçə istilahın, o cümlədən “millət” sözünün mənalarını ironik şəkildə, daha doğrusu, mövcud ictimai gerçəklikdəki bəzi sosial zümrələrin baxışları nöqteyi-nəzərindən izah edir. Məsələn, sözün mənası barədə belə bir şərh verir: “Millət – Bu sözün sair tayfalarda vücudu var, amma müsəlmanlarda tək bir adı var ki, o quru adı da müsəlman tacirləri əllərində bir rəqabət aləti, yəni “konkurensiya” qayırıb, mallarını rəvac etmək istəyirlər. Odur ki, görürsən “millət başmağı”, “millət qarpızı” və sair bu günə şeylər satırlar. Qəzetçilərdən “Ülfət” qəzeti müdiri dəxi milləti aləti-rəqabət qayırmaq fikrindədir”. (101, 305)

Belə bir mövqe və şərh ondan irəli gəlirdi ki, o zaman bəziləri millət və vətən anlayışlarından şan-şöhrət, al-ver, mənfəət vasitəsi kimi istifadə edir, zahirən özünü millətpərvər kimi göstərir, əslində isə bu pərdə altında öz şəxsi mənafeyini güdürdü.

F.Köçərli vətəndaşlarda istər milli, istərsə də bəşəri duyğuların oyanmasında, formalaşmasında və ali bir hiss kimi ictimailəşməsində xalqın milli şəxsiyyətlərini öyrənməyin, onların verdikləri tərbiyəni əxz etməyin, dediklərinə əməl etməyin son dərəcə zəruri olduğunu söyləyir. M.F.Axundova həsr etdiyi qiymətli monoqrafiyada (1911) bu görkəmli Azərbaycan dramaturqunun milli bir yazıçı, bizə milli xüsusiyyətlərimizi, adət-ənənələrimizi, dilimizi, həmçinin

eyiblərimizi başa salan vətənpərvər bir qələm sahibi olduğunu söyləyir. Onun yaradıcılıq irsini, həyatını, fəaliyyət tarixçəsini də bu baxımdan öyrənməyi tövsiyə edir. Bildirir ki, milli şəxsiyyətləri tanımaq vətəndaşlarda milli qeyrət, milli şərəf, öz əslini dərk etmək və öz xalqının tərəqqisinə can atmaq məziyyəti tərbiyə edir. F.Köçərli bu münasibətlə yazır: "Bu halda Mirzə Fətəli Axundovun təvəllüdündən yüz il (bir əsr) və vəfatından otuz üç sənə (bir dövr) gəlib keçir. Bu uzun müddətin ərzində biz Azərbaycan türkləri qəflətdən ayılıb, necə ki, lazımdır, özümüzü tanımamışıq, vəq və heysiyyətimizi layiqincə dərk etməmişik, milliyyət və bəşəriyyət hissi bizlərdə ayılmayıbdır. Əsil və nəsəbimiz kimlərdir, vəzifəmiz nədir, dünyada zindəganlığımızdan murad nədir? – bu qisim suallar başımıza gəlməyibdir, qəflət və kəsalətimizə xələl yetirməyibdir. Filhəqiqə, əgər biz özümüzü tanıyıb bilsə idik, şərafəti-milliyyəmizin hifz və izdyadına çalışsa idik, bu qədər dalda və töhmətlər altında qalmaz idik. Biz də sairlər kimi öz millət qeydi çəkənlərimizin, təriqi-hidayətə bizi dəvət edən üləmamızın, xoştəb və müqtədir şairlərimizin, eyblərimizi zərifanə açıb göstərən ədiblərimizin qədrini bilərdik". (129, 274)

O dövrdə baş verən ictimai-siyasi, ədəbi-mədəni və pedaqoji hadisələr kütlədə milli şüurun, vətənpərvərlik hissinin oyanmasına müsbət təsir göstərirdi. Xüsusilə 1905-1907-ci illər birinci rus inqilabı başqa imperiya xalqlarında olduğu kimi Azərbaycan xalqının ictimai, mənəvi, milli və həyata baxış dünyasında bir təlatüm, oyanış əmələ gətirdi. A.Şaiq haqlı olaraq öz "Xatirələr"ində yazır ki, "1905-ci il inqilabı ictimai-siyasi həyatın bütün sahələrində olduğu kimi mədəniyyət aləmində də bir intibah yaratdı. Azərbaycan ziyalılarının, elm xadimlərinin, yazıçıların, öz qüvvələrini birləşdirməsinə, qabaqcıl mədəniyyət uğrunda mübarizə aparmasına, gələcəkdə də bu mübarizəni davam etdirməsinə səbəb oldu". (244, 182)

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində bədii ədəbiyyat da mühüm bir tərbiyə vasitəsi kimi xalqımızın milli və vətənpərvərlik ruhunda tərbiyəsi naminə uğrulu işlər gördü.

Azərbaycanın şair və yazıçıları bu mövzularda çoxlu sayda bədii əsərlər – şeir, nəsr və dram nümunələri yaratdılar. Belə əsərlərin sayı kifayət qədər çoxdur. Onların hamısını burada xatırlatmağa imkan və lüzum yoxdur. Biz sadəcə olaraq həmin əsərlərdən bəzilərini xatırlatmaqla kifayətlənirik: A.Şaiq - "Vətən", "İyriminci əsrə xitab", "Hürriyyət pərisinə", "Vətənə qayıdarkən", "Hər şey köhnə", "Layla", "Zamanın inqilabçılarına", "İrəli" (şeirlər); "Gözəl bahar" (pyes).

A.Səhhət – "Nidayi-millət, yaxud amali vətənpərvəranə", "Fəryadi-intibah, yaxud amali vətənpərvəranə", "Naleyi-təhəyyür, yaxud millətə xitab", "Dilbəri-hürriyyətə", "Vətən", "Müsəlman ürəfaları", "Aləmi-islama", "Özlərini sevənlərə" və s. (şeirlər).

M.Hadi – "Vətənin nidası", "Təraneyi-milli", "Dad istibdaddan", "Təraneyi-vətənpərəstanə", "Ah, kimsəsiz vətən", "İstiqlalımız parlaqdır", "Duşizeyi-hürriyyətə" və s. (şeirlər).

XX əsrin əvvəllərində nəşr olunan "Dəbistan", "Rəhbər", "Məktəb" kimi pedaqoji jurnallarımızda, habelə başqa mətbuat orqanlarımızda milli həyat, milli özünüdərk, vətənpərvərlik mövzusunda çoxlu sayda məqalə, şeir və hekayələrə rast gəlirik. Bunların bir qismi orijinal əsərlər idisə, bir qismi də tərcümə nümunələri idi. Yəni Azərbaycanın qələm sahibləri başqa xalqlara mənsub bu mövzulu əsərlərlə də Azərbaycan oxucusunu tanış etmək, tərbiyələndirmək məqsədi güdürdülər.

1918-ci ildə Azərbaycanda müstəqil ADR-in yaranması ilə istər dövlət, istərsə də ziyalılar səviyyəsində ölkə vətəndaşlarının milli özünüdərk və vətənpərvər ruhda tərbiyəsi istiqamətində həm nəzəri, həm də əməli şəkildə daha intensiv tədbirlər həyata keçirilməyə başlanıldı. Bu mövzuda yazılan əsələrin sayı artdı. Mətbuat və kitab səhifələrində bu tipdə bədii, publisistik və pedaqoji nümunələrə daha tez-tez rast gəlmək mümkün idi. Təkcə onu demək kifayətdir ki, 1920-ci ilin əvvələrində üç illik fasilədən sonra nəşrə başlayan "Məktəb" pedaqoji jurnalının birinci nömrəsində vətənpərvərlik tərbiyəsi ilə əlaqəli iki publisistik yazı ("İdarədən", "Bayrağım"), 2 şeir

(Nazim Xürrəm – "Bən türkəm"; Tofiq Fikrət – "Həp qardaşız") və bir teatr (Mehdi bəy Hacıbababəyov – "Cocuqlar teatrı") əsəri yer almışdı.

ADR dövründə məktəblərin milliləşməsi prosesinin başlanması, ana dilinin, Azərbaycan tarixi, ədəbiyyat və coğrafiyasının tədrisdə yer alması da böyüməkdə olan nəslin deyilən ruhda tərbiyəsi məqsədi güdürdü. Halbuki bu vaxta qədər Azərbaycan tarixi, ədəbiyyatı və coğrafiyası nəinki rus, hətta "rus-müsəlman" məktəblərində də, ümumiyyətlə, tədris olunmurdu. Bununla çarizm siyasətçiləri əsarət altına aldığı yerli xalqa öz milli keçmişini və mənliyini unutdurmaq niyyəti izləyirdi. Doğrudan da: "Çar hökumətinin tərtib etdiyi tədris planı, proqram və dərsliklər qeyri-rus xalqlarını təkcə ruslaşdırmaq və xristianlaşdırmaq deyil, həm də onlara özünün milli mənsubiyyətini dərk etməyən şagirdlər tərbiyə etmək məqsədinə xidmət edirdi. Ona görə də ADR Maarif Nazirliyi təhsilin məzmununu elə təşkil etmək, tədris planı, proqram, dərslik və s. elə tərtib etmək istəyirdi ki, məktəblərdə təlim-tərbiyə işləri gənc nəsli köləlik psixologiyasından azad etsin, onları milli soya, müsəlmançılığa qaytarsın, həmçinin böyüyən nəsil elmlərə əsaslı şəkildə yiyələnsin, cəmiyyəti irəli apara bilsin". (137, 129)

## 2.3. Humanizm və beynəlmiləlçilik tərbiyəsi haqqında

Tarix boyunca daim bəşər övladına insani münasibət bəşəriyyətin tərbiyəçiləri missiyasını daşıyan böyük mütəfəkkirləri, fikir münəvvərlərini, filosofları, cəmiyyə-tin xilaskarlarını, qələm və istedad sahiblərini düşündürmüşdür. İstər klassik dinlərdə, istərsə də dünyəvi fikir sferasında insan varlığın ən qiymətli məxluqu, yer üzünün əşrəfi, yaranmışların ən alisi hesab olunmuş, elə bu səbəbə görə də insanı sevmək, ona hörmət və ehtiramla yanaşmaq yüksək insanlıq hissi kimi təbliğ olunmuş, tərbiyə missiyasının əsas xətlərindən birini təşkil etmişdir. Bəşəriyyətin istər peyğəmbərləri, dini rəhbərləri,

istərsə də dünyəvi mütəfəkkirləri belə hesab etmişlər ki, hər bir cəmiyyətdə nizam-intizamın, haqq-ədalətin, qayda-qanunun, səadət və bərabərliyin, məsud yaşayışın ilkin şərti insanpərvərlikdən, başqa sözlə, hər bir insanın öz həmcinslərini, cəmiyyət üzvü olan başqa kəsləri sevməsindən, ona insani münasibət bəsləməsindən başlayır. İnsanlar arasındakı məhəbbət, səmimiyyət, sevgi bağları, onların qarşılıqlı şəkildə bir-birinə ehtiramı, köməyi və fəzilətli davranışı bütövlükdə ictimai toplumun zülmdən qurtuluşuna və xoşbəxtliyinə gətirib çıxarır. İstər fərdin, istərsə də kütlənin, xalqın ümumi rifahının ölçüsü həmin cəmiyyətdə qərarlaşmış insanpərvərlik hisslərinin dərəcə və miqyasına mütənasib şəkildə meydana çıxır.

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində yaşayıb fəaliyyət göstərmiş Azərbaycan maarifpərvərləri də deyilən həqiqəti aydın dərk edir, Azərbaycan ictimai mühitində də humanizm və beynəlmiləlçilik hisslərinin bərqərar olması, kütləviləşməsi, tərbiyənin də bu istiqamətdə aparılması uğrunda fədakarlıqla mübarizə aparırdılar. Onlar aydın dərk edirdilər ki, mənsub olduqları xalqa əsl insanpərvərlik duyğuları aşılamadan, onu bu ruhda tərbiyə etmədən son məqsədə – millətin bütöv şəkildə əsarətdən, zillətdən, gerilikdən qurtuluşuna nail olmaq mümkün deyil. Cəmiyyətdə humanizmin qərarlaşması üçünsə islam aləmində əsrlər boyunca kök salmış despotizmin ləğvi, zalım-məzlum münasibətlərinin aradan qaldırılması, insanın insan tərəfindən istismarına son qoyulması lazımdır. Bizdə tərbiyənin bu əsaslarda qurulmasının ilk tərcümanı M.F.Axundov oldu.

M.F.Axundov göstərirdi ki, despotizm həm ayrı-ayrı fərdlərdə, həm də bütövlükdə cəmiyyətdə zəiflik, özünə inamsızlıq, itaətkarlıq, zillət, riyakarlıq, ikiüzlülük hissi yaradır, insanın qabiliyyətini kütləşdirib "cövhəri-əqlini" paslandırır. Nəticədə insan nə özünü, nə də başqalarını sevib onun ləyaqətini dərk edə bilmir. Öz həmcinslərinə şərəfli bir məxluq kimi yox, zalıma itaət etməli olan bir kölə kimi baxır. (19, 44) Bəs insanpərvərliyə yol açmaq, yəni zülmü məhv etməkdən ötrü nə

lazımdır? Mirzə Fətəli Volter, Russo, Monteskyö, Mirabo və s. Avropa filosoflarına istinad edərək göstərir ki: "Zülmü aradan qaldırmaq üçün iki şey lazımdır: ya zalım zülmdən əl çəkməlidir, ya da məzlum zülmə dözməlidir. İdrakın təsdiqi ilə zülmü dəf etməkdə bu iki yoldan başqa heç bir yol təsəvvür edilə bilməz". (19, 305)

Görkəmli mütəfəkkir qeyd edir ki, uzun əsrlər boyunca peyğəmbərlər, filosoflar, şairlər bu əqidədə idilər ki, zülmü aradan qaldırmaqdan ötrü zalıma moizə oxumaq, öyüd-nəsihət vermək lazımdır. Buna görə də peyğəmbərlər zalımı cəhənnəmlə qorxudub, ədalət sahiblərinə cənnət vəd etdilər. Şərq şairləri bütün orta əsrlər boyunca despota öyüd-nəsihət verən çoxlu sayda əsərlər yazdılar. Lakin nə peyğəmbərlərin, nə də şairlərin verdiyi tərbiyədən bir nəticə hasil olmadı. Zülm əsla aradan qaldırılmadı. Onu aradan qaldırmaq üçün edilən "moizə və nəsihətlər zalımın təbiətinə qətiyyən təsir göstərmə"di. Bəs çıxış yolu nədədir? Azərbaycan filosofu avropalı məsləkdaşlarının dediklərindən nəticə çıxararaq çıxış yolunu belə müəyyənləşdirir: "... zülmü aradan qaldırmaq üçün heç də zalimə müraciət etmək lazım deyildir, bəlkə, əksinə, məzluma demək lazımdır ki: "Ey nadan, sən ki qüdrət, say və bacarıq cəhətdən zalımdan qat-qat artıqsan; bəs nə üçün zülmə qatlaşırsan? Qəflət yuxusundan oyan və zalimin atasının goruna od vur!" (19, 305). Belə bir inqilabi çağırış əslində M.F.Axundovun yüksək humanizmi, insana ədalətli münasibəti, hamını sosial həyatda qanun qarşısında azad, bərabər görmək istəyi ilə bağlı idi.

"Əkinçi" qəzetinin əməkdaşları da insana və insan ləyaqətinə münasibətdə Mirzə Fətəlinin məsləkdaşı kimi çıxış edirdilər. Qəzetin səhifələrində humanizm və beynəlmiləlçilik tərbiyəsi mövzusunda qələmə alınmış maraqlı yazılara rast gəlirik. Həmin mətbuat orqanının fəal əməkdaşlarından Əhsənül-Qəvaidin "Məktubat" rubrikasında (1876, 29 fevral) dəyərli bir məqaləsi çap edilmişdir. Məqalə həcmcə yığcam olsa da, burada insanpərvərlik və beynəlmiləlçiliklə əlaqəli dolğun və

məzmunlu şərhə rast gəlirik. Müəllif göstərir ki, insanlar arasında "bir neçə qism qardaşlıq" mövcuddur. Bunlardan "iki qismi" barədə danışmaq istəyirik. Əvvəlinci qism "bəni-adəm və noi-bəşərilik qardaşlığıdır" ki, hamı kəs bir-birilə qardaşdırlar. Amma ixtilafi-əqaidə binaən firqə-firqə olub hər biri bir millət adlanıb, onların böyük icmaına dövlət deyirlər..." (88, 131) Əhsənül-Qəvaid izah edir ki, bütün insanlar bəni-adəm övladıdır, eyni mənşəyə, eyni xilqət növünə aiddirlər. Sonradan fərqlənib firqələrə, millətlərə ayrılmış, icmalar, dövlətlər əmələ gətirmişlər. Eyni cəmiyyət və dövlətdə yaşayan insanların hamısı həmcins olduqlarından bir-birlərini sevməli, biri-digərindən üstün olmamalıdır. Bu, cəmiyyət və eyni dövlətlərdəki qardaşlığa aiddir. Müəllif şərh edir ki, ikinci qardaşlıq da var: "İkinci, milləti qardaşlıqdır". Yəni ayrı-ayrı millətlər arasında olan qardaşlıqdır ki, biz buna beynəlmiləlçilik deyirik. Eyni bir millətə mənsub insanlar bir-birlərinə məhəbbət yetirməli olduqları kimi, milətlərin özləri də bir-birlərini sevməli, biri digərinə sülh və əmin-amanlıq münasibəti göstərməlidir: "Bunlar gərək ziyadə qardaşlıq mərasimin müraat edib məhəbbət, insaf və doğruluq ilə bir-birilə rəftar etsinlər..." (88, 131) Müəllif qeyd edir ki, mənşə və təbiət etibarı ilə eyni olduqlarından bütün insanlar – varlı və kasıb, ixtiyarlı və ixtiyarsız bir-birlərinə əl tutmalı, kömək etməlidirlər. Bu, hər bir "noi-bəşər" olan insan övladının borcudur.

H.Zərdabi qəzetin 21 iyul 1877-ci il tarixli nömrəsində "Elmi xəbərlər" rubrikasında dərc etdirdiyi məqaləsində öz həmməsləkinin fikirlərinə şərik çıxır. Onu da əlavə edir ki, şərafət və mərtəbə etibarı ilə bütün məxluqatdan üstün olan insan çox zaman özünü bu mənəvi mərtəbə və şərafətdən məhrum edir, adi heyvan səviyyəsinə enir, güclü olduğundan özünü haqlı sayır. Gücünün, ixtiyarının, sərvətinin çoxluğundan istifadə edib başqalarına həqarətlə baxır, onu əzir, haqqını qəsb edir. Belə insanların "zindəganlığı heyvanatın zindəganlığından" heç nə ilə fərqlənmir. Həsən bəy bu cür "güclü-gücsüz" prinsipinə söykənən qeyri-humanist davranışın tarix boyu

Şərqdə daha çox rəvac tapdığına da diqqəti cəlb edir və yazır: "Pəs ağıl və elm ilə insan tamam dünyanı təsərrüf edə bilir. Lakin insan bu şərafətdən özünü uzaq edib və buna səbəb budur: keçmişdə birisi az, birisi çox zəhmət çəkdiyinə kimi tavana, yəni güclü, kimi kasıb, yəni gücsüz olub və bu gücsüzlər günü-gündən gücdən düşdüyünə güclüləri dəxi güclüraq ediblər. Bu səbəblərə kasıbların tavanadan ehtiyacı artıb və gözü onun əlində qalıb. Tavana avamın avam olmağını öz nəfi hesab edib, onun əlini, ayağını, gözünü, ağzını bağlı saxlamağa səy edib ki, avam ağlını artırıb malikdünyalıq iddiasını etməyib, özünü tavanaya təəllüq hesab edib, onun artıq güclü olmağına bais olsun və bu tövr tavana artıq güclü və kasıb, artıq gücsüz olmağı Məşriq-zəmində çox şiddət edib ki, oranın bəzi tavanası Firon kimi allahlıq iddiasına düşüb, kasıbları bizim İrandan gələn hammallar kimi yövmiyyə çörəyə möhtac olub. Bu tövr ilə ağıl sahibi və dünyanı təsəvvür etməyə qadir olan insanın çoxu dünyanın malikliyindən uzaq olub bəzi heyvanın zindəganına həsrət çəkə qalıb". (88, 411)

H.Zərdabinin humanizm və beynəlmiləlçiliklə bağlı nəzəri görüşlərində müharibə və sülh məsələsinə də yer verilir. Daha doğrusu, "Zərdabinin dünyagörüşündə mühüm yerlərdən birini onun müharibə, sülh və xalqlar dostluğu haqqında ideyaları tutur. Zərdabi öz məqalələrində daim işğalçı müharibələr əleyhinə çıxış etmiş, müharibələrin bəşəriyyət üçün böyük bəla olduğunu", insanlıqla bir araya sığmadığını söyləmişdir. (220, 99) 1904-cü ildə (№114) "Kaspi" qəzeti vasitəsilə oxuculara təqdim edilən "Sülh xeyrinə hərəkat" adlı məqaləsində maarifpərvər tərbiyəçi müharibə və bəşəriyyət məsələsinə bu cür münasibət ifadə edirdi: "Müharibə - isitməli, dəhşətli bir yuxu, ictimai-mədəni yaşayış quruluşu, habelə əqli fəaliyyət, bilik, etika, hüquq üzərində acı şeytan istehzasıdır. Müharibə əfsanəvi əjdaha kimi ən yaxşı, gənc və həyati nə varsa, hamısını udub məhv edir. O, heç bir şeyə yaramayan qəhrəmanlar, hər hansı bir əməklə məşğul olmaq qabiliyyətini itirmiş şikəstlər yaradır". (220, 99)

Həsən bəy həm “Əkinçi” qəzetində, həm də sonralar 1905-1907-ci illər Birinci rus inqilabı zamanı ermənilər və azərbaycanlılar arasında baş verən milli ədavətə geniş yer verir, bir neçə məqaləsində bu məsələyə toxunur, onun səbəb və nəticələrini ictimaiyyətə başa salmağa səy göstərirdi. 1877-ci ildə “Əkinçi” qəzetinin 17 fevral tarixli nömrəsində o, erməni dilində işıq üzü görən “Mşak” qəzetinin redaktorunu iki qonşu xalqın arasında milli ədavət salmaqda günahlandırır, öz xalqını Azərbaycan türklərinə qarşı milli zəmində nifrət zəhəri ilə zəhərləyən “Mşak” redaktorunu tənqid edirdi: “Ey cənab, Arsruni..., neçə yüz ildir ki, biz ermənilər ilə qonşuluq edirik, indi cənabınıza eyb deyilmi ki, bizim aramızda ədavət salırsınız...” (88, 320)

“Kaspi” qəzetində (1905, №21; 1906, №113; 1906, №154) dərc olunan bir sıra məqalələrində Zərdabi erməni-müsəlman qırğınlarının mahiyyətini, səbəblərini, çarizmin bu qırğını törətməkdə və alovlandırmaqda məqsədini kütləyə anlatmaq niyyəti güdürdü. Eyni zamanda erməni milli partiyası “Daşnaksutun”un iç üzünü də açıb xalqa göstərirdi. Həmçinin Bakıda Azərbaycan dilində nəşr olunan “Dəvət-Qoç” qəzetinin erməni və azərbaycanlıları düşmənin – çarizmin və “Daşnaksutun”un məkrli siyasətinə uymamaq, sülh və barış içərisində yaşamaq çağırışlarını alqışlayırdı. Məsələn, Həsən bəy “Dəvət-Qoç” qəzetinin mövqeyini şərh edərək “Kaspi”nin 1906-cı il 113-cü nömrəsində yazırdı: “Baş məqalədə... qəzet öz istiqamətini belə müəyyən edir: bütün xalqlar üçün sülh, sülh. Nəyin bahasına olursa, olsun sülh, bəşəriyyət naminə sülh, tərəqqi naminə sülh, mədəniyyət naminə sülh”. (334)

“Şərqi-rus”un naşiri M.Şahtaxtlı qəzetdəki məsləkinin çox sadə və xeyirli bir yol olduğunu bəyan edirdi. Bu yolun və məsləkin isə insanpərvərlik, həm öz millətinə, həm də başqa millətlərə hörmətlə, xeyirxahlıqla yanaşmaq olduğunu bildirir, qəzetin bütün materiallarında buna əməl edəcəyini söyləyirdi: “Mənim qəzetdəki məsləkim çox sadə, çox xeyirli bir yol göstərir. O dərəcə ki, ondan heç bir kəs xoşnudsuz qalmayacaq

etiqadındayam. Millətimə məhəbbət və digər millətlərə də xeyirxahlıq göstərmək. Mən yazdığım bəndlərdə belə hərəkət etmişəm”. (237, 100)

Doğrudan da, Məhəmmədağa qəzetdə humanizmi və beynəlmiləlçilik tərbiyəsini bir məslək düsturuna çevirmişdi. Onu ən çox narahat edən məsələlərdən biri dinlər və məzhəblər arası konfliktlər idi. Belə ki, yer üzündə bir neçə klassik din, həmin dinlərin daxilində də fərqli məzhəblər mövcuddur. Əsrlər boyunca həmin dinlərə və məzhəblərə mənsub insanlar arasında ixtilaflar olmuş, bu ixtilaflar hətta gətirib müəyyən müharibələrə, toqquşmalara, qırğınlara çıxarmışdır. Nəticə etibarı ilə din, məzhəb qovğaları insanpərvərliklə uyuşmur. Burada bəşər övladına sevgi yox, nifrət aşılanır. “Şərqi-rus” qəzeti bu zərərli ideyaya qarşı kəskin mübarizə aparırdı.

M.Şahtaxtlı “Rəddi-şərr və fəsad” (“Şərqi-rus”, 1904, 8 oktyabr) məqaləsində dediyimiz din və məzhəb ixtilaflarını bəşəriyyət üçün “şərr və fəsad” hesab edirdi. Onun fikrincə “məcus olsun, dəhri olsun, vəhşi olsun, mədəni olsun, bəni-növi-bəşərin hamısı” onunla “bərabər bir bədənin üzvləri olub, yek vücud olduğumuza” dəlalət edir. (237, 103) Müəllif aydınlaşdırırdı ki, əqidələrdə istər dini, istərsə də fəlsəfi olsun, çoxlu səhvlər mövcuddur. “Sən mənim əqayidimdə deyilsən. Ona görə mən sənə düşmənəm”-dən ibarət olan ehtiras insanlarda tarix boyunca mövcud olmuş, çoxlu ziddiyyətlərə yol açmışdır. “Bu zəhri-mühlikə” (“öldürücü zəhər”) insanların əqidəsini zəhərləmişdir. Halbuki hamı Adəm övladıdır. Elə buna görə də Məhəmmədağa deyirdi: “Mən hər kəsin dininə, məsləkinə, əfkarına kamali-ehtiramla riayət edirəm”. Bu cür ziddiyyətlərdən, fikir ayrılıqlarından doğan düşmənçiliyi müəllif vəhşilik, dəlilik, qeyri-insani davranış hesab edirdi.

M.Şahtaxtlı insanpərvərliyin bütün cəmiyyətə sirayət etməsinin tərəfdarı kimi çıxış edir. Onun əqidəsinə görə dinindən, cinsindən, mənsub olduğu xalqdan asılı olmayaraq bütün insanlar hürr yaşamalı, azadlığa qovuşmalı, ictimai həyatda bütöv şəkildə insanlıq qanunları işləməlidir. Humanizm,

insanın şərəf və ləyaqətinə hörmət cəmiyyətin ümumi ahənginə çevrilməlidir. İnsan idealı insanı köləlikdən xilas edib insani qanunlarla yaşayan ictimai toplumların yaradılmasına yönəldilməlidir. Müəllif "Müsəlmanlar və konstitusiya" ("Novoye obozreniye", 1905, №234) məqaləsində bu münasibətlə yazırdı: "Bu idealı təxminən belə ifadə etmək olar: "Bəşəriyyətin can atdığı hədəf ayrı-ayrı şəxsiyyətlər və yaxud bu və ya digər insan qrupları, zümrə və ya silklərin deyil, böyük insan ailəsinin istisnasız bütün üzvlərinin xoşbəxtliyi olmalıdır. Əgər xalqlar özləri öz talelərinə sahib çıxarlarsa, yer üzündə yaşayan hər bir insanın həyatının təmin olunması mümkündür". (237, 214)

"Cümhuriyyətimizin beynəlmiləlcə təsdiqi" ("Azərbaycan", 1920, yanvar) məqaləsində M.Şahtaxtlı beynəlmiləlçilik məsələsindən geniş söhbət açır. Nəzərə çatdırır ki, azlıqda qalan millətlərin hüququnu tanımaq proqramlarda yazılır, nitqlərdə söylənir, lakin əməli şəkildə çox az hallarda öz həllini tapır. Demokratik Cümhuriyyətimiz yaranarkən biz Qarabağ, Sürməli, Novıy Bəyazid və s. yerlərdə yaşayan ermənilərin hüquqlarını tanıdıq. Eyni hərəkəti qonşularımızdan da gözləyirik. Biz "beynəlmiləl işlərimizdə digərlərinin hüquqlarına müraatla iktifa etməyib şəfqətli və hüquqpərvər qomşu və əcnəbilərizˮ. (237, 221)

Milli tərbiyəçilərimizdən N.Nərimanov da "Bahadır və Sona" (1896-1899) romanında dini ayrılıq və təfriqələrin insanlar arasında "dərin uçurumlar" yaratdığını, onların faciəsinə səbəb olduğunu təsirli şəkildə əks etdirir. Əsərin tərbiyəvi təsiri, həqiqətən, güclüdür. Romanın qəhrəmanlarından Bahadır azərbaycanlı oğlu, Sona isə erməni qızıdır. Onlar bir-birlərini dərin məhəbbətlə sevirlər. Lakin onların evlənməsi mümkün deyil. Çünki Bahadır müsəlman, Sona isə xristiandır. Müsəlmanlıq və xristianlıq onların arasında "uçurum bir dərə ixtira etmişdir". Bahadırın fikrincə bu uçurumu yaradan əslində etiqad, Allaha inam yox, həqiqətdən xəbərsiz, cahil insanlar özləridir. Bahadırı belə bir sual düşündürür: insanlar nə üçün

bir-birlərini sevmək, həmdəm olmaq əvəzində onları bir-birindən ayıran yollar, məzhəb və dinlər "ixtira" edirlər. N.Nərimanovun Bahadırın dili ilə dediyi aşağıdakı sözlər bəşər övladının "icad" etdiyi insanpərvərliyə zidd ənənələrə, qanunlara etirazının, nəsildən-nəsilə ötürülən antihumanist tərbiyə sisteminə mənfi münasibətinin ifadəsi idi: "Əcəba! Necə ola bilər ki, bizi "uçurum dərələr" ayıra? Əcəba! Bu uçurum dərələri biz insanlar düzəldibsə, onları məhv etmək bizim ixtiyarımızda deyilmi? Nə üçün mən müsəlman, siz xristian, qeyrisi yəhudi, ya bütpərəst adlansınlar? Nə üçün bu insanlar sonradan düzülmüş dürlü-dürlü qanunlara sitayiş etsinlər? Təbiimi? Yox! Təbii qanun hamı insanlar üçün bir gərəkdir ola, hamı insanlar bir nöqtəyə gərəkdir yürüş etsinlər. Bu nöqtə isə hürriyyət, məhəbbət aləmidir... müsəlman, xristian, yəhudi, bütpərəst nə olacağını anlamıram və istəmirəm də anlamaq!" (192, 159) Əslində bu fikir N.Nərimanovun humanizm və beynəlmiləlçilik tərbiyəsi ilə bağlı qənaətlərinin əsas fəlsəfəsini təşkil edir. O, "Müəllimlər ictimainə dair" ("Həyat", 1906, 3, 6, 8, 9, 13 avqust) sərlövhəli geniş həcmli məqaləsində tanınmış pedaqoq İ.H.Pestalotsinin tərbiyə nəzəriyyəsindən danışarkən yenidən insanlar arasında məhəbbət məsələsinə qayıdır. Onu vacib insani hiss kimi təbliğ edir. Qeyd edir ki, Pestalotsi dünya qanunlarını haqlı olaraq üç qismə ayırır. Bunlardan birincisi insanın özünə, ikincisi Allaha, üçüncüsü isə başqa insanlara münasibəti ilə əlaqədardır. Üçüncü qanun hər kəsin öz həmcinslərini sevməsini, ona həyan, yardımçı olmasını nəzərdə tutur. Pestalotsiyə görə "İnsan bir-birinə məhəbbət bağladıqca zülm aradan götürülər, ehtiyac azalar". (192, 324)

O zamankı Azərbaycan dövri mətbuatında erməni-müsəlman ədavəti və qırğınları, bu fonda beynəlmiləlçilik ideyasının tərbiyə sferasına gətirilməsi halları ilə tez-tez üzləşirik. "Molla Nəsrəddin" jurnalı da bu mühüm məsələyə sıx-sıx diqqət yetirirdi. C.Məmmədquluzadə məcmuənin 1906-cı il 21 iyul (№16) tarixli sayında kinayə ilə yazırdı: "Rusiyanın özgə millətləri ilə işim yoxdur, mən Qafqaz

sözü danışıram. Mən belə məsləhət görürəm ki, Qafqazda nə qədər ki, erməni var, tökülüb bir günün içində müsəlmanların hamısını qırsın; sonra da müsəlmanlar tökülüb erməniləri qırsınlar". (165, 44) Mirzə Cəlil bu faciəni erməni və müsəlmanların ağılsızlığı kimi şərh edir, kütləyə də bunu anlatmağa çalışırdı. Kinayəsini davam etdirərək rişxəndlə qeyd edirdi ki, iki ay bundan əvvəl Firəngistan darülfünunun xəstəxanasında bir Qafqaz ermənisi ilə bir Qafqaz müsəlmanının başlarını yarıb beyinlərini tərəzidə çəkmişlər. Görmüşlər ki, tərəzidə heç bir şey yoxdur. Məlum olur ki, beyinlər ağırlıqdan havaya uçublar.

Bir məsələni də xatırlatmaq lazım gəlir. Tərbiyə nəzəriyyəçilərimiz erməni-müsəlman ədavətindən söhbət açarkən yalnız təəsüflənməklə, sülhə çağırışla kifayətlənmirdilər, onlar həmin fitnə-fəsadın siyasi qaynağını, hardan qidalandığını, niyə baş verdiyini də ictimaiyyətə başa salmağa çalşırdılar. Bunun çar siyasətçilərinin fitnəkarlığı, "parçala və hökm sür!" – siyasətinin acı nəticələri olduğunu izah edirdilər. C.Məmmədquluzadə sonralar qələmə aldığı "Xatiratım" əsərində məsələnin siyasi mahiyyətini bu cür dürüst şəkildə açıb göstərirdi: "Bəs niyə bunlar, qabaqlarda, əslər uzunu bir-birilə qardaşcasına dolanan iki qonşu birdən-birə yırtıcı heyvan olub, bir-birinin canına daraşdılar? Hər bir kəs ki, o vaxt rus-yapon davasının nəticəsində zəif düşən çar hökumətinin vəziyyətinə və politikasına vaqif idi, o vaxt görə bilərdi ki, erməni-müsəlman ədavəti Peterburq siyasətinə xeyli əlverişli bir məsələ oldu, çünki Qafqazın bu iki güclü millətləri öz içəri dərdlərinə mübtəla olanda, əlbəttə, dəxi Rusiya hökumətinin politikasına qarışmağa vaxt tapa bilməzdi. Və sonralar erməni-müsəlman davasının tarixini oxuyanlar və yıxılmış Nikolay arxivini qurdalayıb oradan gizli və sirli materiallar tapanlar elə bir sənədlərə rast gəldilər ki, o sənədlər aşkar bir dəlillərlə sübuta yetirdi ki, erməniləri müsəlmanların, müsəlmanları ermənilərin üstünə küşkürən tək bircə Rusiya hökuməti idi. Onunçün də bu iki qonşunun ən sədaqətli

insan-düst və tərbiyəli ünsürləri, nə qədər bu ədavəti söndürməkdə təlaş etdilərsə, arada hökmfərma olan gizli şeytanət və provakasiyanın bərəkətindən bu zəhrimar ədavət uzun illər müddətində davam etdi və minlərcə günahsız zəhmətkeşlərin müsibətinə səbəb bir nagəhan bəla oldu". (167, 149)

C.Məmmədquluzadənin humanizm tərbiyəsi ilə bağlı məqalə və felyetonlarında İrandan Qafqaza işləyib pul qazanmaqdan ötrü gəlmiş fəqirlərə münasibət məsələsi də diqqət mərkəzində saxlanılır. Mütəmadi bu mövzuya qayıdan müəllif istər öz ölkələrində – İranda, istərsə də Qafqazda bu zavallı, yoxsul insanlara bəslənilən qeyri-insani, həqarətli münasibətdən acı-acı şikayətlənir. Rus dilində çıxan "Kavkazski raboçi listok" qəzetində dərc olunan "Binəsiblər" (1905, 24 noyabr), "Xeyir-dua" (1905, 9 dekabr) və s. məqalələrində İran fəhlələrinə bəslənilən qeyri-insani münasibətin həm siyasi, həm də ictimai-iqtisadi mahiyyətini açıqlayır. Bunu cəmiyyətin ictimai tərbiyə atmosferində böyük nöqsan sayır. Ədib heç yerdə heç kəsin sevmədiyi bu yazıqlara qarşı sevginin olmamasının maddi səfalətlə bağlı olduğunu da nəzərə çatdırır: "Amma onlar son dərəcə yazıqdırlar. Çünki heç kəs onları sevmir, heç kəs onların fikrini çəkmir, onların qeydinə qalmır. Onları, buraxıb gəldikləri yerdə də sevmirlər, bizdə də sevmirlər.

Nə üçün onları sevmirlər? Bunu heç kəs bilmir. Mən isə belə fikr edirəm: onları onun üçün sevmirlər ki, onlar cır-cındır paltarlıdırlar, çünki onlar acdırlar". (167, 23)

Ümumiyyətlə, cəmiyyətdə yoxsullara, fəqirlərə, yetimlərə qeyri-humanist, laqeyd münasibət, yuxarıdan aşağı baxmaq, biganəlik ictimai həyatın ciddi sosial qüsuru kimi milli intibah dövrü Azərbaycan maarifçilərini ardıcıl şəkildə düşündürmüşdür. Onlar belə bir mühitdə humanist tərbiyənin məqsədəuyğun səviyyədə bərqərar olmasına da şübhə ilə yanaşmışlar.

M.Ə.Sabir "Dilbər" ("Molla Nəsrəddin", 1908, №17), "Ey dərbədər gəzib ürəyi qan olan cocuq!" ("Molla Nəsrəddin",

1908, №10) şeirlərində cəmiyyət üzvlərinin "bir löqmə nan üçün gözü giryan olan" yetim uşağa göstərdiyi biganə münasibətdən söhbət açır. Problemi ictimailəşdirir. Göstərir ki, bu cür kimsəsiz cocuqlar əslində vətən övladlarıdır. Onlara "bəxşi-tərbiyət" edən, yəni himayə edib tərbiyə verən tapılsa, bəlkə də, onlar böyüyüb vətənin faydalı bir övladına çevrilərlər.

Satirik şair də həmkarları kimi insapərvərliklə insan azadlığının, hürriyyətin bir-birinə bağlı olduğu qənaətindədir. Əgər cəmiyyət üzvlərinin insanpərvərlik düşüncəsi yoxdursa, onlar hürriyyətin də nə olduğunu bir mənəvi nemət kimi dərk edə bilməzlər. Yaxud cəmiyyətdə azadlıq yoxdursa, insanlıqdan, insana səmimi münasibət və qayğıdan da söhbət gedə bilməz. Belə bir ideyadan çıxış edən şair deyir:

Kim ki, insanı sevər, aşiqi-hürriyyət olur,
Bəli, hürriyyət olan yerdə də insanlıq olur.

"Əzrailin istefası" ("Molla Nəsrəddin", 1911, №6) satirasında Sabir insana münasibətlə bağlı çox ciddi bir problemə toxunur. Şeirin məzmunu belədir: Bir məmləkətdə Əzrail Allah-taalaya müraciət edərək insanları öldürmək vəzifəsindən istefa vermək istədiyini bildirir. Səbəb kimi onu göstərir ki, filan təbib onsuz da savadsız olduğuna görə kifayət qədər xəstə öldürür, çünki onları müalicə edə bilmir. Deməli, adamları öldürməkdə mənə ehtiyac yoxdur. M.Ə.Sabir şeirdə həkimlərin bu cür qeyri-insani davranışını ifşa edir. "Müsəlman və erməni vətəndaşlarımıza" ("Həyat", 1905, 1 iyul) şeirində sənətkar 1905-ci ildə baş verən erməni-müsəlman qırğınlarına toxunur. Bu faciəni "fitneyi-iblisi-məlunun" (çar siyasətçilərinin) işi hesab edir. Erməni və müsəlman vətəndaşlarını sülhə, həmrəyliyə çağırır. Beynəlmiləlçi şair kimi öz tərbiyəvi fikirlərini ifadə edir.

Birinci dünya müharibəsi (1914-1918) zamanı müharibənin törətdiyi dəhşətlər nəticəsində bir sıra ölkələrdə, o cümlədən savaşın iştirakçısı olan Türkiyədə ağılagəlməz qırğınlar, dağıntılar baş verdi. Yaşayış məskənləri dağıldı, evlər xaraba qaldı. İnsanlar aclığa, səfalətə düçar oldu. Bu zaman

insanpərvərlik ideyalarının təbliği, möhtac insanlara kömək edilməsi ilə əlaqəli çağırışlar daha da aktuallaşdı. Başqa sözlə, humanizm tərbiyəsi ilə bağlı fikirlər gurlaşdı. Xalqları sülhə, beynəlmiləlçiliyə çağırış ideyaları ictimai fikrin əsas qayəsinə çevrildi.

Ö.F.Nemanzadənin "Bir loğma əkmək" ("İqbal", 1915, 21 yanvar), "Köməkləşəlim" ("İqbal", 1915, 17 aprel), "Bakı cəmiyyəti-xeyriyyəsinin diqqətinə" ("İqbal", 1915, 19 aprel), "Çox utandıq" ("Yeni iqbal", 1915, 3 iyul) və s. məqalələrinin mövzu və ideyası zikr olunan mətləblərlə əlaqədardır. Ədib konkret faciələrə, insani fəlakətlərlə bağlı hadisələrə ilk öncə dini məntiqlə yanaşır. İnsanpərvərliyin dini nöqteyi-nəzərdən də şərəfli bir əməl olduğunu nəzərə çatdırır və yazır: "Xaliqin ən əhsən məxluqu, ən xəlqlisi, yəni yaxşı xasiyyətlisidir və insanların ən xeyirlisi insana xeyir verənidir" ayət və hədislərinə görə hər bir xeyirli fikrimiz, faydalı hərəkətimiz, nəfli əməlimiz, isbatımız, tədbirimiz, elmimiz köməyimiz və xidmətimiz birər ibadətdir. Buna görə bu günkü ibadətimizin ən birincisi gələcək bəlalardan özümüzü mühafizə etmək tədbirlərinə yapışmaqla bərabər, bu günkü bəlamızı başımızdan dəf etməyə olunca gücümüzlə çalışmaqdır. Bu günkü bəlalarımız, dərdimiz isə hərbzadə qardaşlarımızın dərdidir. Bu gün ən birinci işimiz onlara kömək olmalıdır". (189, 222) Göründüyü kimi, müəllif insanpərvərliyi iki cəhətdən zəruri sayır: Birincisi, insanlara fayda vermək Haqqa ibadət qədər xeyir əməldir; İkincisi, biz bu gün lazım olan kəslərə insani qayğı və kömək göstərməsək, sabah bizim üçün daha böyük müsibətlər baş verə bilər. Deməli, insanpərvərlik qanunlarını həm dini, həm də dünyəvi mənada faydalı əməl kimi cəmiyyətin şüuruna yeritmək lazımdır. Bu cür arqumentlərlə çıxış edən Ömər Faiq "əbədi həyat istəyən dövlətli ağalar"ı, "millətin şövkəti və əzəməti ilə yaşamağı arzu edən ziyalılar"ı, Mədinəyə, Məkkəyə gedib peyğəmbərin qəbri üstündə, Kəbədə miskinlərə, yetimlərə yardım edəcəyini, "əsl müsəlman olacağını" vəd edən hacıları, minbərlərdə möhtaclara ianə edib peyğəmbərin yolu ilə getməyi vəz edən axundları və s.

imkanlı şəxsləri bir tikə çörəyə möhtac olan insanlara, dul, yetim, qoca və miskin kimsələrə kömək əli uzatmağa çağırır. Bunun "peyğəmbərin və insanlığın yolu" olduğunu söyləyir. (189, 212-213)

Ü.Hacıbəyov da "Hürriyyəti-kəlam" ("İrşad", 1907, 1 mart) sərlövhəli mütəfərriqələrində varlıların aclara yardımını əsl insanpərvərlik nümunəsi kimi dəyərləndirir. Burada Birinci rus inqilabı (1905-1907) zamanı Zəngəzurda baş verən aclıqdan söhbət açılır. Dövlətli müsəlmanların öz ac həmvətənlərinin taleyinə biganə qalması tənqid edilir.

"Ay ötür, gün keçir" ("İrşad", 1907, 4 fevral) felyetonunda Üzeyir bəy həm erməni millətçilərinin yaratdığı "Daşnaksutun" partiyasının, həm də çarizmin ədalətdən, insanlıqdan kənar işlər gördüyünü nəzərə çatdırır. Müəllif göstərir ki, "Daşnaksutun" firqəsinin nəzərində "ədalət" qonşuya badalaq vurub özünü irəli soxmaqdan, kənar millətlərə divan tutmaqdan ibarətdir. Hökumətin nəzərində isə "ədalət" istilahının mənası humanizmə zidd olan belə bir anlam kəsb edir: "Günahlı, ya günahsız bir adamı tutmaq və tutub da qazamata salmaq. Bir-iki ildən sonra sud qurub, onların işinə baxmaq. Əgər günah sahibidirsə, bir təzədən qazamata salmaq, günahı yoxdursa, buraxmaq ki, kişi iş-gücündən avara olmasın". (101, 313) Bu kiçik felyetonda əslində müəllif Rusiyada monarxiyanın istibdad rejiminin bütünlüklə antihumanist mahiyyətini ictimaiyyətə başa salmaq məqsədi izləyir.

Üzeyir bəyin "Biz hamımız Qafqazlı balalarıyıq" məqaləsi 1906-cı ildə (9 mart) erməni-müsəlman qırğınları zamanı qələmə alınmışdı. Məqalədə beynəlmiləlçilik ideyasının qabarıq ifadəsini görürük. Müəllif Qafqazı burada yaşayan bütün çoxsaylı etnik qrupların, müxtəlif xalqların ümumi evi sanır. Cümlə qafqazlıların ümumi vətəni olan bu diyarın min illərlə qan və nifaq selinə məskən olan torpağını ittifaq qeyrəti ilə nurlandırmağa çağırır: "Biz hamımız qafqazlı balalarıyıq, aramızda ülfət olsun, bir-birimizə üz tutaq, yek-digərimizə rast gələndə qəlbimiz məhəbbət, sevgi hissindən nəşət edən fərəh ilə

məşhun olsun. Yek-digərimizin qəm və fərəhindən hissəyab olaq". (101, 23) Üzeyir bəy qafqazlılara xitabən bildirir ki, biz hamımız qərəz, tərəfgirlik, ədavət hissindən uzaq olmalı, bir-birimizin rifahı, səadəti yolunda qeyrət etməliyik. Bizim dərd və ehtiyaclarımız eynidir. İstiqbalımızın rifah və səadətini təmin edəcək qüvvə hamımızın birlik və səyimizə bağlıdır. Birimizə müsibət üz verəndə o birimiz onun dərdinə şərik olmalı, bəxtiyarlıq nəsib olanda onun sevincinə sevinməliyik. "Birimizin düşməni varsa, hamımızın düşmənidir, dəfinə hamımız çalışmalıyıq. Birimizi bir təhlükə təhdid edirsə, hamımızı təhdid edir, nicatımız ittifaqdadır. Din, millət ayrılığı bizim ittifaqımıza sədd olmasın gərək!" (101, 23) Həmfikir olmaq, həmrəylik, həmkarlıq, həmməsləklik bizim müqəddəs vəzifəmizdir. Mədəniyyət, mərifət görmüşlərimiz, oxumuşlarımız cəhalətdə qalanlarımıza, qüvvətlilərimiz zəiflərimizə, sərvətlimiz kasıblarımıza kömək etməlidir. Biz qafqazlıların ümumi məktəblərimiz, mədrəsələrimiz, qəzetlərimiz, ittifaqlarımız, cəmiyyət və təşkilatlarımız olmalıdır. Bu cür ümumi məclislərdə dərdlərimizi birlikdə müzakirə edib dərdinə çarə axtarmalıyıq. Məqsədimizə nail olmaqdan ötrü "ruhani və cismani qüvvələrimizi bir yerə qatıb" bir yolda sərf etməliyik.

Üzeyir bəy tərbiyə vasitələrinin, xüsusilə mətbuatın, qələm sahiblərinin də Qafqazda dostluq, birlik, beynəlmiləlçilik ideyalarına rəvac verən nəzəri təbliğat aparmalarını, əməli işlərə girişmələrini də vacib sayır. Əlavə edir ki, avam kütləni başa salmaq, xalqların dostluğunun faydasını ictimaiyyətə, maarifsiz insanlara anlatmaq, onları bu istiqamətdə tərbiyələndirmək qələm sahiblərinin və mətbuatın işidir. "Qəzetlərimiz naməlum və bimənə mübahisələri, nəfəs qaraldan məqalələri, ara qızışdıran mükalimələri tərk edib, ittifaqa dair səmimiyyət qoxulu məqalələr yazsalar və ittifaq fikrini qövldən feilə gətirəcək təriq və vasitələri əvama bəyan və izaha başlasalar, az çəkməz ki, öz məqsədi-alilərinə nail olarlar". (101, 24)

Dediyimiz kimi, XX əsrin əvvəllərində ermənilərlə müsəlmanlar arasında yaranmış ixtilafla bağlı söylənən çoxsaylı nitqlərdən, çıxışlardan əlavə bir sıra mətbu məqalələr, əsərlər də meydana gəldi. Bu mövzu, əgər belə demək mümkünsə, o zaman Azərbaycan ictimai-siyasi və mədəni mühitində beynəlmiləlçilik tərbiyəsinin əsas ağırlıq mərkəzini özündə ehtiva edirdi. Deyilən mövzuda qələmə alınmış məqalə və kitablardan bir qisminin adını burada veririk: Ə.Hüseynzadə – "Erməni vətəndaşlarımıza tövsiyə və ixtaratımız" ("Həyat", 1905, №21); Ə.Ağayev – "Bakı hadisələri haqqında həqiqət" ("Sankt-Peterburqskiye vedemosti" qəz., 1905, 21, 22 aprel); M.Ə.Rəsulzadə – "Mərəzimizin çarəsi" ("Dəvət-Qoç", 1906, 6, 19 iyul), "Bəlayi-əzim" ("Dəvət-Qoç", 1906, 20 iyul), "Növhə" (şeirdir – "Dəvət-Qoç", 1906, 20 iyul), "Şeytan" işinin nəticəsi" ("Təkamül", 1906, 16 dekabr), "Erməni məsələsindən bir az" ("İqbal", 1913, 9 iyun), "Erməni məsələsi ətrafında" ("İqbal", 1914, 10 noyabr), "Tarixi vaqeələr qarşısında qonşuluq münasibəti" ("İqbal", 1915, 14 yanvar), "Bu münaqişə münasibətilə" ("İqbal", 1915, 23 yanvar) və s.; F.Köçərli – "İdarəyə məktub" ("Dəvət-Qoç", 1906, 17 iyul); S.K. (imza belədir) – "Daşnaksutun firqəsi" ("Rəhbər", 1906, №4); M.S.Ordubadi – "Qanlı sənələr" (kitabdır), Bakı, "Səda" mətbəəsi, 1911 və s.

Azərbaycanlı qələm sahibləri öz yazılarında erməni-müsəlman münaqişəsinin milli, siyasi və ictimai mahiyyətini açıb göstərməklə yanaşı daim bu iki xalqı sülhə, barışığa, milli düşmənçilik hissini kənara qoymağa çağırırdılar. Erməni ziyalıları isə əksinə milli ədavət toxumu səpir, mənsub olduqları xalqı milli düşmənçilik zəhəri ilə zəhərləyirdilər.

Ə.Hüseynzadə 1905-ci ildə "Həyat" qəzetinin baş redaktoru olarkən qəzetdə çap etdirdiyi "Erməni vətəndaşlarımıza tövsiyə və ixtaratımız" (№21) məqaləsində bir ictimai-mədəni tərbiyə vasitəsi kimi "Həyat" qəzetinin məsləkinin "sülhcuyanə və asayişpərvəranə" olduğunu, bunun əksinə "erməni üdəbasının" "qəzetlərə kizb və böhtandan

ibarət", "cahilanə bir nifaq" toxumu səpən məqalələr yazdıqlarını, erməni mətbuatının və qələm sahiblərinin bütünlüklə "sədayi-nifaqa", ədavətə xidmət etdiklərini nəzərə çatdırır, bunun kütlənin tərbiyəsinə ciddi zərər vurduğunu söyləyirdi. Erməni başbilənlərinə müraciət edərək onlara öz vaxtlarını milli düşmənçilik ideyaları təbliğ etməyə deyil, "maarifə, təməddünə, təkamülə" sərf etməyə çağırırdı. (113, 70-74)

Əhməd bəy Ağayev imperiyanın paytaxtı Sankt-Peterburqda nəşr olunan nüfuzlu "Sankt-Peterburqskiye vedomosti" (1905, 21, 22 aprel) qəzetində işıq üzü görən "Bakı hadisələri haqqında həqiqət" məqaləsində 1905-ci ildə Bakıda baş verən erməni-müsəlman qırğınları ilə bağlı tarixi həqiqətlərin real mənzərəsini yaradır, geniş oxucu kütləsini baş vermiş hadisələrin gerçəkləri ilə tanış edirdi. Qafqaz hakim dairələrinin, hökumət məmurlarının, siyasi elitanın, polisin bu qırğın və nifaqda maraqlı olduğunu nəzərə çatdıran Əhməd bəy erməni ideoloqlarının da bu işdə böyük günah sahibi olduqlarını faktlarla aydınlaşdırırdı. Əksinə müsəlman ziyalılarının həmişə milli münasibətlərdə barışdırıcı, beynəlmiləlçi mövqe tutduqlarını vurğulayırdı: "Müsəlmanların ziyalıları və adlı-sanlı adamları heç bir başqa məqsəd güdmədən camaatı sidqlə sakitləşdirdikləri, ona bu qardaş qırğınının bütün çirkinliklərini anlatdıqları halda, qəzetlərdə təbliğat təşkil edən ermənilər ortaya çıxdılar və bütün dünyaya hadisələrlə bağlı heyrətamiz dərəcədə şişirdilmiş araqızışdırıcı teleqramlar yaymağa başladılar. Onlar öldürülmüş 10-15 min nəfərdən danışır, müsəlmanları qaniçən vəhşilər kimi təsvir edirdilər. Bütün Rusiya və Avropa ayağa qaldırılmışdı. Hər tərəfdə müsəlmanlara ümumi bir nifrət yaratmaq üçün arasıkəsilməz səylər göstərilirdi". (4, 346) Əhməd bəy onu da əlavə edirdi ki, ermənilər və onların havadarları özlərinə aid bütün günahları da müsəlmanların üstünə yıxır, öz xalqlarını millətçilik zəhəri ilə zəhərləyirdilər.

M.S.Ordubadi 1911-ci ildə ayrıca kitab halında çap edilən "Qanlı sənələr" əsərində erməni-müsəlman ixtilasının o zamana qədərki mənzərəsini daha ətraflı, müfəssəl, dolğun, faktlı-sübutlu şəkildə şərh edir. Azərbaycan xalqının və onun ziyalılarının bu məsələdə həmişə barışdırıcı mövqedə durduqlarını, erməni tərbiyəçi ideoloqları ilə bizim ideoloqlarımızın əks mövqedə dayandıqlarını, Azərbaycan ziyalılarının, fikir adamlarının problemə bəşəri və insani ölçülərlə yanaşdıqlarını ətraflı şəkildə şərh edir.

1906-cı ildə "Rəhbər" (№4) adlı pedaqoji jurnalda "Daşnaksutun" adlı məqalə dərc edilmişdir. Məqsəd millətçi erməni partiyası olan Daşnaksutunun irticacı məqsədlərini, xalqımıza qarşı ədavətini, düşmənçilik təbliğat və fəaliyyətini böyüməkdə olan nəslə başa salmaq idi.

O zaman erməni "Mşak" qəzeti türklərə və ümumiyyətlə, müsəlmanlara qarşı nifrət, böhtan, yalan dolu yazılar çap edirdi. Başqa erməni mətbuat orqanları, habelə bır sıra Avropa qəzet və jurnalları da bu tipli məqalələr dərc edirdilər. Həm avropalılar, həm də ermənilər türkləri və müsəlmanları vəhşi, qaniçən, mədəniyyətdən, insanpərvərlikdən uzaq xalqlar kimi qələmə verir, nüfuzdan salmağa çalışırdılar. Böyük mütəfəkkir Ə.Hüseynzadə "Milliyyət və insaniyyət" ("Həyat", 1906, №77) məqaləsində ermənilərin və avropalıların bu böhtan və yalanlarına tutarlı cavab verirdi. Faktlarla göstərirdi ki, ermənilərin və bəzi Avropa millətçilərinin söylədiyi məhdud millətçilik insanlıqla bir araya sığmır. Əksinə antihumanist əməllər sahibi olanlar, bəşəri mənəvi-insani dəyərlərin düşmənləri elə deyilən fikri yayanlardır. Türklər və sağlam islami dəyələrə söykənənlər isə ən humanist düşüncə və əməl sahibidirlər. (113, 110-113)

"Füyuzat" jurnalının sonuncu nömrəsində (1907, №32) işıq üzü görən "Pərdə eniyor – son tamaşa" sərlövhəli məqaləsində Əli bəy avropalıların özlərinin törətdikləri vəhşiliklərdən, qeyri-insani əməllərdən, başqa xalqlara qarşı törətdikləri cinayətlərdən söhbət açır. Öz fikirlərini sübut üçün

inkarolunmaz dəlillər gətirir. Neçə əsrdir ki, Avropanın şərq xalqlarına insan nəzərilə deyil, bir kölə, işçi, qul nəzərilə baxdıqlarını, məqsədləri şərqi əsarətdə saxlayıb onun sərvətini sümürmək, mənimsəmək olduğunu xatırladır: “Avropa hökumətləri sinif mübarizəsinə qarşı sipəri-saiqə olmaq üzrə bir “der anx nax osten”, yəni Şərq üzərinə bir təcavüz yapmaq istədikləri kibi, sinif mübarizəsinə tabavər olmayacaqlarını anlayan sərmayədarları da Şərqin üsarəsini də bir soluq kibi əmmək üçün axın-axın oraya hücuma başladılar. Lakin irqi-əfsər bunlara qarşı irqi-əhmər kibi məhv zəbun olmayacağını kəmali-mətanətlə göstərdi. Göstərdi də, bu gün istiqlalını qətiyyən təmin üçün Amerika ilə müdhiş bir mübarizəyə dəxi amadədir. Çünki Amerikanın Filippin cəzairinə hökmü irqi-əfsəri surəti-daimədə təhdiddən başqa bir şey deyildir... Binaənəleyh irqi-əsfər məmalikindən qəti-ümid edən Avropa üçün artıq islam yerlərindən başqa bir mətməhi-nəzər qalmadığından, Avropa hökumətləri ilə sərmayədarları əvvəlkindən iki qat ziyadə bir şiddəti-hirs ilə bu aləmin hənuz sərbəst qalan qisminə təcavüzə hazırlanıyorlar, hətta təcavüz etmək üzrədirlər belə: “daireyi-nüfuzu” təhdid və təmin etmək naminə dövlətlər arasında əqd olunan ittifaqlar bu nəticəyi müşirdirlər”. (95, 498)

Ə.Hüseynzadə bütün qənaətlərini ümumiləşdirərək xristianlığın banisi İsa, islamın müəssisi Məhəmməd (ə.s.) peyğəmbərin, habelə bir sıra maarifçi, pedaqoq və filosofların belə bir fikrinə şərik çıxır ki, bəşəriyyətin nicatı və xilası bir-birini sevməkdə, bir-birinə məhəbbət yetirməkdədir. “Füyuzat” jurnalında (1906, №6) işıq üzü görən “Nicat məhəbbətdədir” məqaləsində mütəfəkkir ideoloq öz tərbiyəvi qənaətlərini belə ifadə edir: “Fəxri-kainat əfəndimiz (Məhəmməd peyğəmbər – T.V.) buyurmuşdur ki, zəlaləti-küfrdə bulunan bir məmləkət ədl ilə baqi qalacağı kibi, ədl olmayan bir ölkə islam namını hamil olsa da, bəqapəriz olmaz...

Ədl olursa, hürriyyət də olur, hürriyyət olursa, məhəbbət və məvəddət də olur. Həzrəti-İsanın da, Həzrəti-Məhəmmədin

də şər və qanunları bu həqiqətə müncərdir...” (95, 84) Deməli, tərbiyənin bütün amalı, məzmunu insanlar arasında məhəbbət, insanpərvərlik duyğusu yaratmağa xidmət etməlidir.

Milli ideoloq və tərbiyəçilərimizdən M.Ə.Rəsulzadənin yaradıcılıq irsində humanizm və beynəlmiləlçilik tərbiyəsinin əsaslı qayəsini görürük. 1915-ci ilin fevralında görkəmli gürcü şairi Akaki Akakiyeviç Sereteli vəfat edir. Onun dəfnində bir çox ziyalılar, o cümlədən M.Ə.Rəsulzadə də nitq söyləyir. Onun nitqinin mətni 1915-ci ildə “İqbal” qəzetinin 11 fevral tarixli nömrəsində dərc edilmişdir. Nitq bütünlüklə iki xalqın – gürcü və azərbaycanlıların dostluq və səmimiyyəti üzərində qurulmuşdur. Nitqdə A.A.Sereteli də xalqlar arasında dostluğu, məhəbbəti, birliyi təbliğ və tərənnüm edən bir şair kimi təqdir edilir. Məhəmməd Əmin bəy xatırladır ki, “mədəniyyəti-bəşəriyyə ayrı-ayrı millətlərin mədəniyyətlərindən əmələ gəlmiş bir hasildir”. Dünyanın kamil tərəqqiyə nail olması üçün ayrı-ayrı millətlərin mədəniyyətinin inkişafına əngəl yaratmaq olmaz. “Gürcü şairi bu nəzəriyyənin tərəfdarı və onun müqtədir bir nümayəndəsi idi. O, bütün xalqların bərabərliyini, qardaşlığını, dincliyini, bütün insanların əmin-amanlığını arzulayan bir qələm sahibi idi. Bütün yaradıcılığı boyu bəşər övladları arasında daim “birlik və məhəbbət tərvic” etdiyi səbəbindən beynəlmiləçi bir şair kimi tanınmışdı. M.Ə.Rəsulzadə qeyd edir ki, onun yaradıcılıq və fəaliyyətinin mühüm dəyərlərindən biri də budur. (213, 73)

“Milliyyət və bəşəriyyət” (“Açıq söz”, 1915, 21 oktyabr) məqaləsində Məhəmməd Əmin bəy insanpərvərlik və beynəlmiləlçilik faktorunun ümdə bir milli-bəşəri aktı üzərində dayanır. Aydınlaşdırır ki, millət övladının öz millətini, onun nümayəndələrini sevməsi lazımlı, təqdirəlayiq bir haldır. Lakin yalnız öz xalqını sevmək məhdudluq və milli eqoizmdir. Vətəndaşın kamilliyinə dəlalət etmir. Əksinə onun bir insan kimi naqis hisslərlə yaşamasından xəbər verir. İnsan o zaman kamil, mənəvi-əməli cəhətdən yetkin sayıla bilər ki, o, hər bir bəşər övladını, kənar millətin nümayəndələrini də öz doğmaları qədər

sevsin. Müəllif problemə belə bir qlobal müstəvidə yanaşır: "Biləks öz millətini sevən həqiqi bir millətpərəst başqa millətin hüquq və hissiyyatına da hörmət edər. Kəndi millətinə qarşı bəslənilən hər hansı məhəbbət ancaq başqa mədəniyyətləri sevərkən və onlardan çıxan gözəl nəticələri əxz edərkən hasil oluyor". (213, 203)

"Qardaş günü!" ("Yeni iqbal", 1915, 6 may), "Bu gün" ("Yeni iqbal", 1915, 7 may) və s. məqalələrində M.Ə.Rəsulzadə Birinci dünya müharibəsi zamanı Qars və Ərdəhəndə yaranmış aclığa, səfalətə görə təəssüf hissi keçirir. Bakıda xeyriyyə cəmiyyətləri xətti ilə "Qardaş köməyi" adı ilə ianə toplamaq, yığılmış ianə və yardımlarla Qars və Ərdəhən qaçqınlarına, aclarına kömək etməyi əsl insanpərvərlik təşəbbüsü kimi qiymətləndirir.

S.M.Qənizadə mahir bir pedaqoq kimi tərbiyənin müxtəlif çalarlarına yaxşı bələd idi. "Məktubati Şeyda bəy Şirvani" romanında o, humanizm və beynəlmiləlçilik tərbiyəsi ilə bağlı maraqlı elmi-pedaqoji fikirlər söyləyir. Əsər 1898-ci ildə Bakıda kitab halında nəşr olunmuşdur. Müəllif göstərir ki, insan doğulub böyüdükcə əvvəl ailə üzvləri, qohum-əqraba, sonra qonum-qonşu, daha sonra kənardakı insanlarla üzləşir və ünsiyyət qurur. Gəzməmiş, görməmiş, elmsiz, dünyadan xəbərsiz bir kəs "hamı aləmi öz vətənində və ya hamı insanı öz millətində görər". Amma oxuyub elm, bəsirət sahibi olan, müxtəlif ölkələri gəzib görən şəxslər "elm halı ilə insaniyyət dövrəsin tamam etdiklərində axır arif söyləmiş mətləb üstündə qərar tutarlar, yəni "kürreyi-ərz vətənim və insaniyyət millətimdir" - deyibən farsdan tutmuş Çinəcə və Hinddən tutmuş Finəcə hümmət Büraqin çaparaq, hamı insanları üxüvvət kəməndi ilə bir-birinə bağlamaq istərlər". (147, 69) Müəllif bütün insanlığın, hər bir bəşər övladının dərdini düşünməyib yalnız öz millətinin təəssübünü çəkənləri düşünçə etibarı ilə naqis kəslər hesab edir. Məzhəm və millət ixtilaflarının da insanların qardaşlığına mane olduğunu, "insaniyyət və həqqaniyyət"likdən kənar bir şey olduğunu söyləyir. Çünki

“insan var ikən millət yox idi və həqqaniyyət var ikən məzhəb yox idi”. Bunlar sonradan yaranmışdır və insanın insanlıq və həqiqətə bağlılıq hissinə üstün gəlməməlidir. Əgər belə bir üstünlük zahir olursa, deməli, cəmiyyətdə tərbiyə düzgün əsaslar üzərində qurulmayıb. Müəllif məsələni elmi-pedaqoji nöqteyi-nəzərdən bu cür məqsədəmüvafiq şəkildə şərh edir: “İndiki xudbinlik əsrimizdə əgər milətpərəstlik insaniyyət üzrə faiq gələrsə, bəs yəqin səbəbi tərbiyəmizin nasəvablığıdır ki, öz vaxtında yenə bərhəm olasıdır, zira ki, heç bir cüzv öz küllisinə faiq olamaz. İnsaniyyəti atıb millətə yapışmaq və ya həqqaniyyəti atıb məzhəbi tutmaq eyni xüşunətdir. Millət təəssübü ilə insaniyyət təklifini ayağa salan mütəəssib, həqqa, o qissəyə bənzər ki, ismətkarlığı ilə ayağındakı zircaməni çəkib çadra əvəzinə başına örtər”. (147, 70)

Göründüyü kimi, Sultan Məcid insanpərvərliyə bəşəri meyarlarla yanaşır və xüsusi önəm verir. Tərbiyənin də bu şəkildə qurulmasını israr edir.

M.Hadi “İnsanların tarixi faciələri, yaxud əlvahi intibah” (1918-1919) poema-sında bəşəriyyətin yaranışından başlayaraq bütün tarix boyunca humanizmlə antihumanizmin insan xislətində qarşı-qarşıya dayandığını maraqlı boyalarla təsvir edir. Onun fikrincə bəşər övladının vəzifəsi, amalı yaxşılıq, xeyirxahlıq, məhəbbət, qardaşlıq olmalı ikən, insanlar bu ruhda tərbiyə olunmalı ikən, təəssüf ki, bəşəriyyətin tarixi boyunca biz bunun əksini görürük. İnsanlığın tarixi humanizmin, insanın insana məhəbbətinin tarixi olmalı ikən, insanlar arasında düşmənçiliyin, nifaqın, ədavətin tarixinə çevrilmişdir. Həmin düşmənçilik, nifaq, həmçinin mənffətgirlik, başqasının haqqını, payını qəsb etmək meyli tarix boyunca dəhşətli faciələrə, müharibələrə, qan və qırğınlara gətirib çıxarmışdır. Şair bəşər övladının tərbiyəsini hələ kiçik yaşlarından müsbət istiqamətə, xeyirxahlığa, insanlara qarşı sevgi hissinə yönəltməyi məsləhət görür. (102, 362-382)

Azərbaycanın demokratik baxışlı tərbiyəçiləri bir qayda olaraq zülmü, ictimai “yuxarı”ların, ictimai “aşağılar” üzərində

əsarətini, istismarı pisləyir. Bunun insanlıq-la bir araya sığmayan şərəfsiz bir əməl olduğunu dönə-dönə xatırladırlar. F.Köçərli ictimai həyatda bu cür zəif-güclü, sərvətli-sərvətsiz, vəzifəli-vəzifəsiz qarşıdurma-sının yolverilməz olduğunu, ictimai "yuxarıların" bir sıra səbəblərə görə aşağılara borclu olduğunu nəzərə çatdırır. İnsanpərvərlik naminə "yuxarıların" da "aşağıların" "tərəqqi və tərbiyəsinə sərfi-hümmət göstərməyə" borclu olduqlarını nəzərə çatdırır: "Həqiqətdə bizim diriliyimiz, mayeyi-həyatımız və eyş-işrətimiz bu qara rəiyyət adlanan güruhun pürməşəqqət zəhmətinə bağlıdır. Bunlar bizə maddi tərəfdən rahatlıq, əmniyyət və asayiş verdikləri kimi, zindəganlığımıza lazım olan maye-ehtiyacı mühəyya qıldıqları kimi, biz də əvəzində borcluyuq ki, bunlara ruhaniyyət mənəviyyat cəhətincə qulluq edək. Bunların haqqında olunan zülm və sitəmi dəf edək, ruhlarının və ağıllarının tərəqqi və tərbiyəsinə sərfi-hümmət göstərək". (129, 164)

A.Səhhət "İnsanlıq vəzifəsi" şeirində bizə elm və insanlıq təlim edən "ərbabi-dühayə" Haqdan rəhmət diləyir. Çünki məhz bu elm, insanlıq və məhəbbət dərsinin sayəsində yer üzündə tərəqqi və səadət ömür sürə bilir. (231, 76)

O zamanki mətbuat səhifələrində, qiraət kitablarında, dərsliklərdə, pedaqoji jurnallarda və s.də humanizm və beynəlmiləlçilik ideyası təbliğ edən xeyli bədii əsərlərə, şeir, hekayə, publisistik yazılara pedaqoji məzmunlu nümunələrə rarast gəlirik. Bu fakt özü XIX əsrin II yarısı və XX əsrin əvvəllərində insanpərvərlik və beynəlmiləlçilik tərbiyəsinin ictimai-mədəni və pedaqoji mühitdə diqqət mərkəzində saxlanıldığına dəlalət edir. Yuxarıda fikirlərimizin şərhi boyunca həmin əsərlərdən bəzilərinə toxunduq. Əlbəttə, burada onların hamısının adını çəkmək, şərh etmək imkan xaricindədir. Əslində buna ehtiyac da yoxdur. Lakin biz haqqında danışdığımız zaman kəsimində tərbiyəvi dəlil kimi həmin əsərlərdən bəzilərinin adlarını xatırlatmağı lazım bilirik:

A.Şaiq – “Nişanlı qız” (şeir - 1908), “Hamımız bir günəşin zərrəsiyik” (şeir - 1910), “İdeal və insanlıq” (pyes - 1914), “Üç ailənin dostluğu” (“Xatirələrim” əsərin-dən) və s.

A.Səhhət – “İnsanlıq vəzifəsi” (şeir - 1912), “Yol verin!” (satirik şeir - 1912) və s.

R.Əfəndizadə: “Bəsirətül-ətfal” – “Yaxşılığa yamanlıq” (kiçik hekayə).

Ə.N.Sənani: “Nəsihətül-ətfal” – “Rəhimli uşaq” (kiçik hekayə).

M.Mahmudbəyov: “Müsəvvər türk əlifbası və ilk qiraət” – “Yoldaşlıq” (kiçik hekayə).

M.Mahmudbəyov və b.-ı: “İkinci il” – “Yetim” (şeir).

M.Mahmudbəyov, A.Səhhət: “Yeni məktəb” – “Kamal və balaca dilənçi”; “Himmətli sükançı”; “Nəcib əsir”, “Dünya xali deyil, dünyada yaxşı adamlar da var” (kiçik hekayələr).

F.Ağazadə: “Ədəbiyyat məcmuəsi” – “Eyilik zay olmaz” (kiçik hekayə), “Bir mələyin insanlara xitabı” (M.Hadinin şeiri – imza belədir: “Dəli şair”).

Uşaq mətbuatında humanizm və beynəlmiləlçilik tərbiyəsinin böyüməkdə olan nəslə aşılanması diqqət mərkəzində saxlanıldığından həmin jurnalların səhifələrində bu mövzuda əsərlərlə daha sıx-sıx rastlaşırıq. “Məktəb” jurnalı vasitəsi ilə uşaqların mütaliəsinə təqdim edilən əsərlərdən bəzilərinin adlarına nəzər salaq:

Ə.S. – “Bir-birimizi sevəlim” (1911, №1-2); Həsən bəy Axundov – “Təlim-tərbiyənin nəticəsi” (1912, №8); Abid Mətləbzadə – “Hatəm və çoban” (1912, №17); Əbdülrəhim Mətləbzadə – “Mərhəmətli qız” (1913, №1); Ağabəy İsrafilbəyov – “Rəhimli qız” (1913, №3); Əliməhəmməd Mustafayev – “Yunan padşahı və həkim Dubanın hekayəsi” (1913, №5); İbrahim bəy Musabəyov – “Rəhimli arvad” (1913, №7); Rüxsarə xanım Mehrəlibəyova - “Rəhimli İlyas” (1914, №5-6); X.İbrahimov - “Mərhəmətli Möhsün” (1914, №17); “Kamil və Aqıl” (müəllif göstərilməyib – 1915, №1); “A.” (imza belədir) – “Novruz” (1915, №5); Xudaverdi Kələntərli –

"Düşmən" (1915, №5); Müəllim Abasqulu – "Padşah və dayə" (1915, №9); Abihəyat xanım – "Mərhəmətli və sədaqətli cənnət" (1915, №13) və s.

Daha çox kiçik və orta yaşlı uşaqların oxusu üçün qələmə alınmış bu yığcam hekayələrdə insanpərvərlik ideyası maraqlı, yaddaqalan əhvalatların fonunda verilir. Müəlliflər bununla böyüməkdə olan nəsildə insanlara məhəbbət, ehtiram və hörmət duyğusu yaratmaq niyyəti izləyirlər.

Əlbəttə, milli intibah dövrü Azərbaycan maarifçilərinin humanizm və beynəlmiləlçilik tərbiyəsi uğrunda gördüyü işlər təsirsiz ötüşmədi. İstər o zamankı, istərsə də sonrakı nəsillərin bu ruhda tərbiyəsində əhəmiyyətli mənəvi xəzinə oldu.

# III FƏSİL

# DİNİ, ƏQLİ VƏ MƏNƏVİ-ƏXLAQİ TƏRBİYƏ TƏRBİYƏ NƏZƏRİYYƏSİNİN MÜHÜM KOMPONENTİ KİMİ

## 3.1. Azərbaycan maarifçilərinin əsərlərində dini tərbiyə məsələləri

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində demokratik görüşlü Azərbaycan maarifpərvərlərinin yaradıcılığında dini tərbiyə məsələləri geniş yer tutur. Deyilən problemin şərhinə keçməzdən əvvəl bununla əlaqəli başqa bir məsələyə diqqəti cəlb etmək istəyirik. Belə ki, bəşər tarixində bir sıra xalqlarda və regionlarda bir neçə dinin olduğu bəllidir. Bu dini baxışlar müxtəlif çalarları, əlamətləri, etiqad obyektinin kəmiyyəti və kimliyi, qayda-qanunları, hökmləri və s. baxımından bu və ya digər dərəcədə bir-birindən fərqlənir. Lakin hər bir tarixi şəraitdə, hər bir cəmiyyətdə ümumi bir tendensiya və məqsəd hakim olmuşdur: cəmiyyət üzvlərini cəmiyyətin əksəriyyəti tərəfindən qəbul edilən etiqad və inanc sisteminin tələbləri çərçivəsində tərbiyə etmək.

Bəşər tarixi çoxsaylı dinlər içərisində tövhid (təkallahlılığa əsaslanan) dinlərin daha mötəbər, mükəmməl və bitkin dinlər olduğunu sübut etmişdir. Bunlar iudaizm, xristianlıq və islamdır. Bunların etiqad sistemində tək olan yaradıcı varlığa – Allaha inam, itaət və ibadət əsas götürülür. Müəyyən fərqli cəhətlərinə baxmayaraq (məsələn, islam tövhid dinləri içərisində ən kamilidir) həmin klassik dinlər vahid bir ideya-etiqad sistemi ətrafında birləşir: tövhid ideyası. Tərbiyənin geniş mənada ahəngi də bu ideya ətrafında mərkəzləşdirilir və ona uyğunlaşdırılır.

Qədim və orta əsrlərin, habelə son dövrlərin bir sıra görkəmli tərbiyəçiləri, pedaqoqları, mənəvi və ruhani rəhbərləri

bir qayda olaraq cəmiyyətin tərbiyəsinin əsas məqsəd və qayəsini dini qayda-qanun və əsaslar üzərində qurmağı vacib şərt hesab etmişlər. Onların fikrincə tərbiyənin son və əsas məqsədi elə bundan ibarətdir.

İnsanı məxluqatın “ən ali, ən kamil və hər şeydən üstün” varlığı adlandıran məşhur pedaqoq Y.A.Komenski tərbiyənin məqsədi ilə bağlı tezislərində bu üç müddəanı ön cərgəyə çəkirdi: I. İnsanın son məqsədi bu həyatdan kənardadır; II. Bu həyat yalnız əbədi həyata hazırlıqdır; III. İnsanın əbədi həyata hazırlığının üç mərhələsi vardır: özünü (və bununla birlikdə hər şeyi) dərk etmək, özünü idarə etmək və İlahiyə meyl etmək.” (124, 47) Y.A.Komenski onu da əlavə edirdi ki, təhsilin, xeyirxahlığın və möminliyin toxumları bizdə təbiətən mövcuddur. Təlim-tərbiyənin vəzifəsi onu üzə çıxarıb inkişaf etdirməkdir.

Tanınmış pedaqoq İ.H.Pestalotsi də ictimai həyatda dini tərbiyəni önə çəkir, birinci yerə qoyurdu. Göstərirdi ki, dini tərbiyə tək olan yaradıcı qüvvəni tanımaqla bərabər həm də ona görə lazımdır ki, o, insanı ən pis ictimai mühitdə şər, bədxah iş görməkdən, çirkin əməllərdən qoruyur. Mənəvi nəzarətçiyə, xeyirxah bələdçiyə çevrilir. Həqiqi dini inam və sevgi ən neqativ sosial şəraitdə belə insanı insani yola və əməllərə, inama və yaxşılığa sövq edir. Məsələnin mahiyyətini pedaqoq belə şərh edirdi: “Son əxlaqi nəticələrə nail olmaq daha çətindir. Əxlaqını dəyişdirmək üçün sənin iradəndən asılı olmayan çoxlu adamların xidmətindən istifadə etməli olursan; xüsusi işlə məşğul olarkən başqalarına ehtiyac hiss etdikdə və kifayət qədər belə adamlar olmadıqca çətinliklər daha da artır. Bu xoşagəlməz zərurətin nəticələrini zəiflətmək üçün ən qüvvətli təsir uşaqlarda dini hissin inkişafı qeydinə ciddi qalmaqdır. Biz həmişə pis adamların içərisində yaşamalı oluruq və yoxsul uşaqlar həmişə kobud, alçaq, rəzil nümunələrlə əhatə olunacaqlar. Buna qarşı bütün qüvvə ilə onlarda xeyir və şərin əvəzini verən Allaha, onların xilaskarı, onların dostu və qardaşı İsaya inam inkişaf etdirməkdən, əbədi həyata inam və ümid oyatmaqdan, əbədi

həlak olmaq təhlükəsinə, ən yaxşı, ən mərhəmətli atanın və xilaskarın taxt-tacdan qovulmasına inam yaratmaqdan başqa vasitə yoxdur”. (199, 57)

Azərbaycanda milli intibah dövrünün tərbiyə nəzəriyyəçiləri dinə və onun tərbiyədə, inkişafda roluna müxtəlif mövqelərdən yanaşırdılar. XIX yüzillik Azərbaycan mədəni-maarif mühitinin aparıcı fikir adamlarından olan M.F.Axundov bu məsələdə, ümumiyyətlə, inkarçı mövqe tuturdu. Əlbəttə, o, millətpərvər, öz vətənini sevən, yüksək ideallarla yaşayan bir şəxsiyyət idi. Problemə də məhz bu prizmadan yanaşırdı. O, həm sözündə, həm də əməlində özünü “millətinin ürəyi tarlasında qeyrət, namus, xəlqpərvərlik, ədalət və bərabərlik toxumu əkilməsini və nifaqın birliyə çevrilməsini və millətin arasından zillət və fəqirliyin rəf olmasını, onun sərvət və dövlət qazanmasını istəyən” bir şəxs kimi təqdim edirdi. Lakin təəssüf edirdi ki, həmin məqsəd və arzuları həyata keçirmək mümkün deyil. Bunun səbəbi, “baiskarı” isə dindir. Onun fikrincə bütün dinlər, o cümlədən islam hər cür tərəqqi və yüksəlişin qarşısına sipər çəkən böyük bir maneədir. Başqa sözlə, “insanların həqiqəti görən gözünə pərdə çəkib onların dünya işlərində tərəqqi etmələrinə mane olan dini etiqad əsasları məhv edilmədikcə” xalq heç bir yüksəlişə, gerilikdən xilasa nail ola bilməz. Millət rəhbərləri də öz xalqını “cəhalət qaranlığından mərifət işığına” çıxara bilməz. (19, 151-152) Həm də M.F.Axundov yalnız islam dinini deyil, ümumiyyətlə, bütün dinləri insanlar, xalqlar üçün buxov hesab edirdi. “Kəmalüddövlə məktubları”nda birmənalı şəkildə bəyan edirdi ki: “... bu sözlərdən sən güman eləmə ki, mən, bəlkə, başqa din və məzhəbi islama mürəccəh (üstün – T.V.) tuturam. İş ona qalsa, yenə islam dini sair ədyandan bərgüzidə və mənim məqbulumdur. Bu qədər var ki, mən külli-ədyanı puç və əfsanə hesab edirəm. Onlardan heç birisinə axirətdə qurtuluş ümidi ilə mail deyiləm”. (19, 52)

Bu səbəbə görə də Mirzə Fətəli, ümumiyyətlə, dini tərbiyəni qəbul etmir. Tərbiyədə demokratik, dünyəvi fikirli

Avropa alim və filosoflarının müəyyənləşdirdiyi yolla getməyi məsləhət görür. Qeyd edir ki, əgər biz yenə də ruhanilərin, islam övliyalarının sözünü dinləsək, onda, "elm və sivilizasion işıqlarından" məhrum qalarıq. Yox əgər barbarlıqdan, vəhşət və cəhalətdən qurtarıb nicat tapmaq istəyiriksə, Avropa alim və filosoflarının qoyduğu yolla gedib mövhumat, fanatizm və nəhayət, cənnət hurilərinə bəslədiyimiz şirin arzularımızla vidalaşmalıyıq. (19, 164) M.F.Axundov tərbiyədə dinin mütərəqqi rolunu inkar edərkən belə bir məntiqdən çıxış edir ki, dini nəsihət və moizələr, cəfəngiyata, mövhumata əsaslanan dini təlqinlər "ilahi nurun əsərlərindən olan insan ağlını" elə buxovlamış, elə alçaq dərəcələrə endirmişdir ki, özündən yüksək bir varlıq olmayan insan zəkası şəxsiqərəzliklərin, fanatizmin nəticəsində "tamamilə şərafət və etibar dərəcəsindən düşmüşdür". (19, 218) Başqa sözlə, din insan ağlını həbsdə saxlayır, onu azad, sərbəst düşüncədən məhrum edir, təfəkkür və təcrübədə ağlın dəlillərini qəbul etmir. "Hədislər"i, həyati məntiqlə sübutu mümkün olmayan mövhumi rəvayətləri, moizələri ağılın gücü ilə dərk edilən həqiqətlərdən üstün sayır.

M.F.Axundovdan fərqli olaraq "Əkinçi" qəzetinin əməkdaşları tərbiyədə dinin roluna başqa prizmadan yanaşırlar. Onlar həqiqi dini, islamın müqəddəs kitabı Quranı, sağlam şəriət qaydalarını mənəvi-ruhani tərbiyə vasitəsi kimi qəbul edirlər. Qəbul etmədikləri şeylər həqiqi dinə yad olan mövhumi baxışlar, şəriətlə, Quranla əlaqəsi olmayan saxta inanclar, mənasız vəz və nəsihətlərdir. Qəzet 31 mart 1877-ci il tarixli nömrəsində Hadi Qarabaği və onunla həmfikir olan mövhumatçıları, cahilləri şəriəti bilmədikləri, eşitdikləri hər bir cəfəngiyata inandıqları üçün kəskin şəkildə tənqid edirdi. Onların beyninin mövhumat, yalan zəhəri ilə zəhərləndiyini nəzərə çatdırırdı. Göstərirdi ki, Hadiyül-Müzillin Qarabaği kimi avamlar hər bir elm sözünü eşidəndə onu "şəriətə namüvafiq hesab edib, bizi həcv edib lənət oxuyurlar", "bir də, ey avamünnas, hər bir hikmət sözünü eşidəndə deyirsiniz ki, bu, şəriətə rəxnə vurur. Bavücudi ki, o söz sizin avamlığınıza rəxnə

vurur. Məsələn, sizin əqidənizə görə başmaq, papaq geymək də, dizi üstə əl ilə çörək yemək də şəriətin şərtlərindəndir". (88, 344) "Əkinçi"nin əməkdaşlarına görə bu cür düşüncəsiz inanclar islamın həqiqi mahiyyətini, şəriət qaydalarını dürüst bilməməkdən, dini maarifsizlikdən irəli gəlirdi. Onlar saxta müsəlmançılığı, batində şər əməllərlə məşğul olub zahirdə özünü etiqad sahibi kimi göstərənləri də tənqid edirdilər. Qəzet 11 iyul 1876-cı il tarixli nömrəsində yazırdı: "Ey qəpiyə milləti satan qardaşlar, siz adınızı müsəlman qoyub qeyrilərin müsəlmanlığına şəkk edirsiniz ki, müsəlmanlığın şərtlərindən bircə namaz qılıb, oruc tutmağı bilirsiniz". (88, 199)

"Əkinçi"nin silahdaşlarından Heydəri qəzetin "Məktubat" rubrikasındakı məqaləsində (1875, 5 oktyabr) nəzərə çatdırırdı ki, islam dini heç də cəhalətpərəst ruhanilərin dediyi kimi "dünya və axirət evini abad etmək"dən ötrü elmdən faydalanmağı qadağan etmir. Əksinə hədisi-şərifdə deyilir ki, heç "elmli ilə elmsiz" ("bilənlə bilməyən") bir olurmu. "Nuri-mərifət" sahibi olmaqdan ötrü "ayeyi-şərifdə" və hədislərdə kifayət qədər tutarlı dəlillər var. (88, 60) Qəzet islam dininin insanın əxlaqi cəhətdən kamil tərbiyə olunmasında, həyatda bir sıra naqis, yaramaz vərdiş və əxlaq normalarından uzaqlaşmasında da böyük rol oynadığını qeyd edirdi. Məsələn, qəzet 8 oktyabr 1875-ci il tarixli sayında "Daxiliyyə" rubrikasında verdiyi məqalədə göstərirdi ki, Quran insana qumar oynamaq, şərab içmək, tiryək atmaq və s. kimi zərərli əməlləri düzgün olaraq qadağan etmişdir. (88, 58)

H.Zərdabi "Əkinçi"dən sonra da dinə və dini tərbiyəyə olan müsbət münasibətini davam etdirir. 1906-cı ildə "Həyat" qəzeti vasitəsilə ictimaiyyətə çatdırılan "Dil və din" (6 yanvar), "İttihadi-lisan" (11 yanvar) və s. məqalələrində müəllif din və xalqın tərbiyəsi məsələsinə yenidən qayıdır. "Dil və din" məqaləsində tərbiyəçi mütəfəkkir geniş kütləni başa salmağa çalışır ki, indiki zəmanə elm zamanıdır. Elmi, maarifi olmayan millət tərəqqidən məhrum qalacaq. Tərəqqi etməyən millət isə tədricən xalqların "zindəganlıq davasında" uduzub "fövt"

olacaq. Həmin "zindəganlıq davasında", ölüm-dirim savaşında xalq gərək "iki şeyi bərk saxlasın ki, bu şeylər hər tayfanın dirəkləri hesab olunurlar. Bu şeylərin birisi dil və birisi din və məzhəbdir". Elə ki, bunlardan birisi əldən getdi xalq tədricən yox olub başqa xalqlara qarışır, əriyib assimliyasiyaya uğrayır. Ona görə də hər "tayfa elm təhsil edən vaxtda" gərək öz dilində, öz din və məzhəbində tərəqqi eləsin ki, dünyada qala bilsin. (290, 237)

Həsən bəy onu da vurğulayır ki, indi hökumət milli məktəblərin açılmasına icazə vermişdir. Belə məktəblərin sayını artırmaq, onlarda din və şəriət dərslərinin keyfiyyətli tədrisinə diqqət yetirmək lazımdır. Din və şəriətin sağlam, faydalı cəhətləri şagirdlərə öyrədilməli, başa salınmalıdır. Bu qaydaların bir çoxunu uşaqlara məhz ana dilində izah etmək lazımdır ki, onlar deyilənləri anlaya bilsin, quru əzbərçiliklə kifayətlənməsin. "Adabi-şəriətin" məqsədəuyğun tədrisi üçün münasib proqramlar hazırlanmalıdır. Bu fənni təsadüfi müəllimlər yox, dini və şəriəti, həqiqətən, mükəmməl bilən, tədris-təlim işlərini bacaran mütəxəssislər tədris etməlidir. Biz hamımız bu işə diqqət yetirməliyik. Əks təqdirdə məktəb rəhbərləri bizdən xəbərsiz öz tərəfindən "bizim dilimizi və adabi-şəriəti oxutmaq üçün müəllimlər təyin edir", həmin müəllimlər isə bizim balalarımıza "nə oxudurlar, necə oxudurlar biz bilmirik". Bu, bizim gələcəyimizi təhlükə altında qoyur. (290, 238-239)

M.Şahtaxtlı islam dininin insanlıq üçün gərəkli tərbiyə və etiqad vasitəsi olduğunu qəbul edir. Lakin bildirir ki, islam bəşəriyyətin bir hissəsini bütpərəstliyin düşkün və biabırçı əsarətindən, çoxəsrlik cəhalətdən xilas etsə də, istismar olunanların həyatını, sərvətini, hüquqlarını qorumaq üçün despot hökmdarların, ixtiyar sahiblərinin qəzəb və vəhşiliyini aradan qaldıra bilmədi. Xurafatı və zülmü yox etməkdə çarəsiz qaldı. (237, 38) Yəni Quranı yuxarıdan aşağıya hamını Haqqın buyurduğu qanunlarla davranmağı öyrədən kütləvi tərbiyə kitabına çevirmək mümkün olmadı. Beləliklə, müsəlman

aləmində saf dini tərbiyə sistemi qərarlaşdırmaq bir xəyal olaraq qaldı. Cəmiyyətin az bir qismi bu ruhda tərbiyə oluna bildi. Beləliklə, islam cəmiyyəti əsrlər boyunca yenə də hərtərəfli mənada naqis qalmış oldu.

M.Şahtaxtlının fikrincə islam təbii dindir, çünki o, təkallahlıdır. Lakin o, hakimiyyətdən ayrılmalı və onun işlərinə qarışmamalı, ancaq müsəlman cəmiyyətinin saf etiqadla, mənəvi cəhətdən kamil tərbiyəsi istiqamətində iş görməlidir. Dövləti isə dünyəvi qanunlara əsaslanan başçılar idarə etməlidir. Daha doğrusu: “Dünyəvi bir hökumətin nəzarəti altında ölkə xalqın nümayəndələri tərəfindən yaradılmış qanunlarla idarə olunmalıdır. Ruhani qanunlarının idarə nümayəndələri öz siyasi və hüquqi səlahiyyətlərini dövlət tərəfindən təşkil edilmiş, dini əsası olmayan hakimiyyətlərə verilməlidir”. (237, 49)

M.Şahtaxtlı din, cəmiyyət və tərbiyə məsələlərinin vəhdətinə bir kompleks halında son dərəcə ayıq və həssas yanaşır. Bildirir ki, müsəlmanlar arasında əsrlər boyunca belə bir düşüncə formalaşmışdır ki, Quranın buyurduqlarına, şəriət qanunlarına heç vaxt heç bir dəyişiklik, düzəliş və əlavə edilməməlidir. Halbuki şəri qanun qaydaları, dinin buyruq və hökmlərini də zaman-zaman dövrün, sosial mühitin tələblərinə uyğunlaşdırmaq gərəkdir. Çünki “Allahın iradəsi həyatdan kənarda deyil, həyatın özündə, təbiətdə gizlənir”. “Müsəlmanlar və konstitusiya” (“Novoye obozreniye”, 1905, №234) məqaləsində müəllif bir sosioloq-tərbiyəçi kimi bəzi mütərəqqi baxışlı din xadimlərinin deyilən məsələnin həqiqi mahiyyətini dərk etdiklərini, dinin təlqinlərinə zamanın sosial-tərbiyəvi atmosferi çərçivəsində baxdıqlarını alqışlayır. Onu da nəzərə çatdırır ki, belə mütərəqqi düşüncəli din xadimləri qaragüruh içərisində azlıqda qaldığından çox zaman öz fikirlərini açıq şəkildə bəyan etməkdən çəkinir. M.Şahtaxtlı öz fikirlərini bu cür anlayışla izhar edir: “Bizim ruhanilərin heç də hamısı cahil kütlə anlayışını bölüşmürlər.

Yüksək məqamlı üləmalarımızdan biri bir dəfə demişdir: “Müsəlman qanunlarına görə dinin ehkamları – üsulidindir.

Şəriət isə qanundan başqa bir şey deyil. Və hər bir qanun kimi o da zamanın tələbinə uyğun dəyişilməlidir. Lakin məni dönük adlandırmasınlar deyə bunu açıq şəkildə söyləyə bilmirəm”. (237, 215)

Milli tərbiyəçilərimizdən N.Nərimanov da M.Şahtaxtlı kimi dini dövlətdən ayırmağı, dini tərbiyənin ictimai-siyasi mahiyyətini də bu aspektdə aparmağı məsləhət bilir. Yazıçı bu barədə mülahizələrini “Nadir şah” (1898) faciəsində açıq şəkildə izhar edir. Belə ki, vətənpərvər, millətsevər bir rəhbər, hökmdar, sərkərdə olan Nadir şah vətənin çiçəklənməsi naminə bir sıra mühüm islahatlar həyata keçirmək istəyir. Həmin islahatlardan biri də dini dövlətdən ayırmaq, ruhaniləri dövlətin idarəetmə sistemindən kənarlaşdırmaqdır. O, ruhani idarəsini tamamilə dövlətin nəzarət və idarəçiliyinə tabe etmək, mollaların ixtiyarını məhdudlaşdırmaq, onları dövlət xəzinəsindən maaş alan və ona tabe olan silkə çevirmək niyyətindədir. Nadir şahın fikrincə: “Əsil mətləb budur ki, mollanı özbaşına qoymamaq. Bir dövlət ki, mollalar ixtiyarında yaşadı, ol dövlətdə tərəqqi olmaz... Çünki bir neçə səbəblərə görə molla qismi həmişə çalışar ki, xalq qaranlıqda yaşasın... Daha doğrusu, dövlətə dair qanunları bilmərrə ruhanilərdən almaq gərəkdir...” (192, 125) Xalq qəhrəmanı Nadir şahın dilindən deyilən bu sözlər əslində N.Nərimanovun öz fikirləridir.

Azərbaycan ictimai-mədəni mühitində Birinci rus inqilabı (1905-1907) zamanı ruhani idarələrində ciddi islahatların keçirilməsi problemi daha da aktuallaşdı. Ruhani idarələrinə milli bir tərbiyə ocağı, tərbiyə qurumu kimi baxan milli tərbiyəçilər onun ənənəvi qaydada fəaliyyət göstərməsinin əleyhinə çıxdılar. Əhməd bəy Ağayev təklif etdi ki, Gəncə şəhərində bəzi nüfuzlu ruhanilər də dəvət olunmaqla ziyalılardan və xalq nümayəndələrindən ibarət bir məclis keçirilsin. Məclisdə milli ruhani idarələrimizdə həyata keçirilməsi zəruri olan islahatlar müzakirəyə qoyulsun. Ə.Ağayev belə bir məsələ üzərində xüsusi şəkildə dayanırdı ki, ruhani idarələrinə istər sədr (rəhbər), istərsə də üzvlər hakim dairələrin təyinatı ilə yox, xalq

tərəfindən seçilsin. Ancaq xalqın seçdiyi ruhanilər xalqın işinə yaraya, onun tərəqqisi üçün çalışa bilərlər. 1906-cı ildə verilmiş bu təklif geniş ziyalı kütləsinin marağına səbəb oldu və müzakirə obyektinə çevrildi. Ö.F.Nemanzadə "Vasiteyi-nicatımız nədədir?" ("İrşad", 1906, 9 oktyabr) sərlövhəli məqaləsində mövcud təklifə geniş şəkildə münasibət bildirir, Əhməd bəyin fikirləri ilə razılaşırdı. O, nəzərə çatdırırdı ki, bəzi millətlərin, o cümlədən avropalıların tərəqqisi ruhanilərin nüfuz və iqtidardan düşməsi ilə başlamışdır. Bizim yeganə milli təşkilatımız olan ruhani idarələrini nüfuzdan salmaq, ictimai-mədəni və tərbiyəvi proseslərdən kənarlaşdırmaq indiki tarixi şəraitdə nə mümkün, nə də məsləhət deyil. Bununla belə vacib olan bir problemi təcili surətdə həll etməliyik. Bu da "idareyi-ruhaniyyələrimizin islahıdır". Çünki "idareyi-ruhanilərimiz bizi səlamətə çıxaracaqları əvəzinə bu gün başımıza ən böyük bir bəla və boyunduruq, tərəqqi və maarifimizə, hürriyyəti-vicdanımıza ən möhkəm bir sədd olubdur". (189, 142) Müəllif ruhani idarələrinin başçılarının və üzvlərinin siyasi hakimiyyətin təyinatının əleyhinə çıxır, onların xalq tərəfindən seçilməsi barədə Ə.Ağayevin təklifini müdafiə edir. Onu da əlavə edir ki, "vücud və ruhumuzun" tərbiyəsinin "idareyi-ruhanilərin əlində" olduğu bir vaxtda zəruri məsələlərdən biri də yeni tipli, yeni ruhlu, zamanın tələblərinə müvafiq dini məktəb və mədrəsələr açmaq, köhnələrdə islahatlar keçirib onlarda təlim və tərbiyənin məzmununu "zamanın təqazasına" uyğunlaşdırmaqdır. Müəllifin qənaətinə görə böyük bir dövlətə tabe olan "xırda millətlərin öz idareyi-ruhaniləri öz ixtiyarlarında olmazsa, o millət mövcudiyyətini heç vaxt saxlaya bilməz". (189, 145)

"İşığımız sönməyəcəkdir" ("Açıq söz", 1916, №90) məqaləsində Ömər Faiq milli yüksəliş barədə öz mülahizələrini şərh edərkən söyləyir ki, tərəqqi və təkamül mütləq mənada iki şərtə bağlıdır: ya dini, ya da siyasi təbəddülat. Bu təbəddülat və inqilablar ölkədəki ictimai-siyasi və mədəni mühitə bağlı olsa

da, millətlərin əxlaqına, təbiətinə görə az-çox fərqlənsə də, nəticə etibarı ilə hamısı birdir. (189, 249)

Ü.Hacıbəyov da "Mühüm suallar və əhəmli cavablar" ("İrşad", 1907, 17 aprel) felyetonunda xalqın mənəvi tərbiyə ocağı olan ruhani idarələrinin rəhbərlərinin rəsmi dövlət orqanları tərəfindən təyin edilməsini tənqid edirdi. Qeyd edirdi ki, dövlət məmurlarından asılı olan belə ruhani rəislərin işi ancaq dövlətə yarınmaq, ona sədaqətlə xidmət edib mükafat və "sağ ol" qazanmaq, öz vəzifəsini qorumaq olur. Ona görə də belə rəhbərlər nə xalqın ehtiyaclarının, nə də tərbiyəsinin qayğısına qalmırlar.

Milli tərbiyəçilərimizdən Ə.Hüseynzadə islam dinini yüksək bəşəri dəyərlərə malik kamil bir etiqad sistemi kimi tərifləyir, onun gözəlliklərini, üstün cəhətlərini kütləyə anlatmağa çalışırdı. Məlum olduğu kimi, onun milli-ideoloji konsepsiyasındakı üç elementdən (türkçülük, islamçılıq, qərbçilik) ikincisini islam dini təşkil edirdi. Onun irəli sürdüyü nəzəri-ideoloji konsepsiya çox keçmədən "türkləşmək, islamlaşmaq, müasirləşmək" şəklində düsturlaşdı və bizim dövlətçilik ideologiyamızın mərkəzində dayandı. Naşiri olduğu "Füyuzat" jurnalında həqiqi müsəlmançılığı ardıcıl şəkildə müdafiə edən, xalqın sağlam dini əsaslarda tərbiyəsinə tərəfdar çıxan Əli bəy başqa mətbuat orqanlarında da öz fikirlərini ardıcıl surətdə ictimaiyyətə çatdırırdı. "Həyat" qəzetində (1906, №77) işıq üzü görən "Milliyyət və insaniyyət" məqaləsində müəllif islam dininin milliyyət və insaniyyət baxımından üstünlüklərindən, faydasından söhbət açır. Qeyd edir ki, islam millətlərə hörmətlə yanaşır, millətçiliyə yad, beynəlmiləlçi bir dindir. Bütün millətləri və insanları bir gözdə görüb hamıya eyni nəzərlə baxır. "İslamiyyət bir dindir ki, millət və milliyyət tanımaz, kəlmeyi-şəhadət gətirib onunla mütədəyyin olanlara rəsmsiz, şəkilsiz, yoldaşsız bir Allaha iman gətirənlərə bir nəzərlə, bir ümmət nəzərilə baxar!.." (113, 114) Əli bəyin fikrincə milli tərbiyəçilərin əsas vəzifəsi "türk qanlı, islam etiqadlı, firəng qiyafəli" vətəndaşlar tərbiyə etməkdir. İslamı

Qurandan, sağlam məntiqlə, fanatizm və mövhumatdan kənar bir vəchlə öyrənməyi məsləhət bilən böyük mütəfəkkirin tərbiyə nəzəriyyəsinin ümumi mahiyyəti və istiqaməti onun aşağıdakı sözlərində aydın şəkildə ifadə olunmuşdur: "Müsəlmanız, onun üçün dünyanın hər nərəsində xeyrxahı bulunduğumuz din qardaşlarımız tərəqqi etsə, biz o tərəqqiyi əz canü dil alqışlarız! Türküz, binaənəleyh türküz. Türkün hər yerdə tərəqqi və təkamül ilə məsud olmasını arzu eyləriz. Rus təbəəsiyiz, binaənəleyh bütün rus vətəndaşlarımıza məsudiyyət və rifahiyyət diləriz. Və əlhasil sifati-səlasə ilə müttəsif olmamız bizi bütün islamın, ətrakın və rus cəmaətinin xeyrxahı olmaya sövq edir. Sədəd və mətləbimizdən uzaqlaşmayalım. Yuxarıda dedik ki, məsləkimiz həyatın mənayi-həqiqiyyəsinə xidmətdir. Əcəba, məsləkimiz, niyyətimiz dini-islama müvafiq gəlirmi? Əcəba, islam həyata nə nəzərdə baxıyor? Əcəba, onu bir lüzumlu hesab ediyor. Xeyr! "Əddünya məzrəətül-axirə-mənkanə fihəzəhə". Ey qare, rükni-əzimi-islam olan Qurani-kərimi anlaya-anlaya oxudunsa, bilirsən ki, həyat cənabi-həyyi-layəmutun ən böyük nemətlərindən məduddur. O nemətə əhəmiyyət verməmək küfrani-nemət deməkdir. Bir kərrə rəbbina-atina fiddünya həsənətən və filaxirət həsənətən duasını xatırla. Burada zikr olunan həsənə və dünyadan murad həsənati-maddiyyə və mənəviyyədir". (113, 35)

Ə.Hüseynzadə başda olmaqla "Füyuzat"çılar sağlam dini tərbiyənin tərəfdarı olmaqla yanaşı həm də onu əməli fəaliyyətə, hər kəsin cəmiyyət və insaniyyət naminə praktiki işinə çevirməyə çalışırdılar. Tanınmış din xadimi Məhəmməd Ubeydulla bəy məcmuənin 1907-ci il 30-cu nömrəsində dərc olunan "Müsəlmanlıq" məqaləsində aydınlaşdırırdı ki, müsəlmanlıq yalnız iman və ibadətdən ibarət deyildir. Onun həqiqi meyarı ilk növbədə əməl, görülən işlərdir. Əməli islam dininin həqiqi qanun-qaydalarına, sağlam, elmi və şəri hökmlərinə müvafiq olmayan kəs müsəlman sayıla bilməz. Öz din qardaşına, bəşər övladına mümkün həddə fayda vermək əsl müsəlmanın borcudur. (95, 472)

Dinə münasibət və dini tərbiyə məsələləri M.Ə.Rəsulzadənin yaradıcılığında daha geniş yer tutur. O, bir sıra məqalələrində zikr olunan məsələyə bu və ya digər dərəcədə toxunmuş, gərəkli mülahizələr irəli sürmüşdür. Bu səpkidə yazılmış məqalələrdən aşağıdakıları göstərmək olar: "Bu gün" ("İrşad", 1906, 4 sentyabr); "Milli dirilik" ("Dirilik", 1914, №1-7); "Məarif şurası" ("Açıq söz", 1916, 7 aprel); "Məktəb və mədrəsə" ("Açıq söz", 1916, 15, 16, 17, 21, 27, 31 mart, 4 aprel, 2, 6, 7, 10 iyun); "Bir mədrəsənin bayramı" ("Açıq söz", 1916, 28 dekabr); "Açılacaq mədrəsə həqqində" ("Açıq söz", 1916, 29 noyabr); "Dağıstanın maarif ehtiyacı" ("Açıq söz", 1916, 8 dekabr); "Müsəlman idareyi-ruhaniyyələri" ("Açıq söz", 1917, 13 fevral); "İslam dini və ana dili" ("Açıq söz", 1917, 27, 28 fevral); "Yürüdügümüz yol" ("Müsavat", 1917, 10 sentyabr) və s.

M.Ə.Rəsulzadənin fikrincə dini tərbiyə ictimai varlığın saflaşması, mənəvi təkamül üçün zəruri şərtdir. İbtidai insan özünü və öz ətrafındakı insanları tanıyıb dərk etməklə "milliyyət camesinə" (milli hissə), ətraf aləmi dərk etmək istəyi ilə "bir qüvveyi-müdrikəyə iman edərək" "din camesinə" (dini hissə) sahib olmuşdur. Bu iki "came" (hiss, duyğu) isə bir-biri ilə sıx surətdə bağlıdır. Həm də "din camesi...milliyyət camesinin bir kəmal və qayəsi olduğu üçün milli halət ilə dini halət arasında təbii bir surətdə münasibət daim oluyor". (214, 353)

1914-cü ildə "Dirilik" jurnalında silsilə şəklində çap olunan "Milli dirilik" risaləsində M.Ə.Rəsulzadə xalqın milli varlığını müəyyən edən əsas atributlardan, müəllifin öz istilahı ilə desək, "rüknlər"dən geniş şəkildə danışır, bu rüknlərin əhatəli elmi şərhini verir. Həm də xalqın bütöv halda tərbiyə sistemini bu rüknlərin ahənginə, qorunmasına və rəvacına münasib şəkildə qurmağı zəruri sayır. O, həmin rüknlərin bunlar olduğunu söyləyir: 1. Millətpərəstlik; 2. Milli vicdan və iman; 3. Milli ideal; 4. Milli dil və ona münasibət; 5. Din; 6. Milli adət və ənənə.

Göründüyü kimi, xalqın milli diriliyini müəyyənləşdirən rüknlərdən birinin də din olduğu təsbit edilir. Müəllif tarixi faktlar əsasında sübut edir ki, din və milli varlıq ciddi surətdə bir-birinə bağlıdır. Həm də din bir çox hallarda xalqın öz milli varlığını və mənliyini hifz etməsinə əsaslı surətdə yardımçı olur. Məsələn, ermənilərin müsəlman, yaxud tatarların xristian mühitində assimliyasiyaya uğramayıb bir millət kimi "baqi qalmaları"nın səbəbi dindir.

M.Ə.Rəsulzadə dini tərbiyə üçün son dərəcə önəmli olan aktual bir məsələnin də dolğun və məntiqli şərhini verir. Göstərir ki, ərəb mühitində yaranan islam dininin müqəddəs kitabı Quran da, müxtəlif dini ayin, dua və ibadət kəlamları da ərəb dilindədir. Təəssüf ki, əsrlər boyunca bunlar heç biri islamı qəbul etmiş xalqların dillərinə tərcümə edilməmişdir. Türklər də, farslar da, qeyri-müsəlmanlar da çox zaman əksər hallarda nə dinlədikləri (və ya oxuduqları) Quranın, nə də ərəbcə etdikləri duaların mənasını anlamamışlar. Yalnız qeyri millətlərdən az-az ərəbcə təhsil alanlar bunları anlamışdır. Nəticə çox acınacaqlı olmuşdur. Eşitdiklərinin, dinlədiklərinin və söylədiklərinin mənasını anlamayan çoxsaylı avam kütlə ilə eşidilən, dinlənilən və söylənənlər arasında mövhumi bir pərdə yaranmış, bu isə öz növbəsində "məchuliyyətə", mövhumata və xurafata yol açmışdır. Nəticədə həmin xalqlar qazandıqları dinlə bərabər çox şeyi də itirməli oldular: "İştə ayini-islamiyyə ilə Qurani-şərifin ərəbcəyə məxsus olaraq qalmasından ərəbcə təmsili bir qədər istifadə etdisə də, islamiyyətin mənəviyyəti-əxlaqiyyəsi qaib etmiş oldu. Bu nöqteyi-nəzərdən islama tabe olan qeyri-ərəb millətlərin mədəniyyətcə itirdikləri isə saymaqla qurtaran şeylərdən deyildir.

Din və onun ehkamı mütədəyyinlərincə anlaşılmaz bir hala gəlirsə, verəcəyi faydanı təmin edə bilməz, ruhsuz olar, məişətdən uzaqlaşar..." (212, 48) Buna görə də M.Ə.Rəsulzadə milli baxışlı bir tərbiyə nəzəriyyəçisi kimi istər Quranı, istərsə də başqa vacib dua və ibadət kəlamlarını milli dilə tərcümə edib dini tərbiyəni hər kəsin öz ana dilində aparmağı zəruri sayır.

Onu da izah edir ki, din daha çox beynəlmiləlçiliyə, dil isə millətçiliyə söykənir. Bunu nəzərə alıb “müsəlmanlıq” la “millətçilik” arasında əlaqəni və fərqli cəhətləri də ictimaiyyətə başa salmaq lazımdır. Belə bir maarifləndirmə dini tərbiyə missiyasının vacib elementi olmalıdır.

Tanınmış pedaqoq Q.R.Mirzəzadə 1908-ci ildə ayrıca kitabça halında çap olunan “Ayineyi millət. Oyanız, qardaşlar!” əsərində xalqın geriliyinin, tənəzzülünün səbəbləri, həmçinin onun tərəqqisi və tərbiyəsi üçün görülməli olan işlər, çıxış yolları barədə öz mülahizələrini vermişdir. Müəllif bəzilərinin islamı gerilik, cəhalət və tənəzzül dini kimi qələmə verməsi ilə razılaşmır. Əksinə onun mədəniyyəti, elmi, insanlığı, hürriyyəti, bərabərliyi və s. tərəqqi faktorlarını müdafiə etdiyini təkzibedilməz dəlillərlə aydınlaşdırır. Həqiqi islamın ətalətə, süstlüyə, fəaliyyətsizliyə, səbatsızlığa, ehkamçılığa qarşı çıxdığını söyləyir: “Dini-mübinimizin təməddün və tərəqqiyə təvəccöh edən ehkamı-əqliyyə və nəqliyyəsini səhih və salim bir vicdan və iman ilə tədqiq və mütaliə edənlər islamın ədyani-sairə kibi təmbəlligi, miskidanə təvəkkülləri deyil, cəhd və qeyrəti, elm və fəziləti, səy və səbatı, əql və hikməti, müsavat və hürriyyəti əmr etdigin görərək bunlardan nə dərəcədə uzaq, nə dərəcədə qafil olmağımıza təəccüb etməzmi?..” (183, 23) Müəllif təəssüf edir ki, biz dinimizi, onun əsl mahiyyətini, şərəf və əzəmətini, həqiqi elm və hikmətini anlaya bilmirik. Biz dinimizin gözəlliklərindən bixəbər olduğumuzdan ondan faydalana bilmir, cəhalətə yuvarlanırıq. Tərbiyəmizi də bu cəhalət və səbatsızlığa uyğunlaşdırırıq. Qafur Rəşad bu cür tərbiyə, maarifləndirmə sisteminin səbəbini din xadimlərində görür. Din və şəriət adından danışan “mollanümələr”ın əsrlər boyunca islam aləminin qəflət və tənəzzülünə səbəb olduqlarını deyir. Onun fikrincə həmin mürtəce din xadimləri, “mollanümalar” xalqın tərbiyə səhnəsindən uzaqlaşdırılmalıdır.

Milli intibah dövründə Azərbaycanda dini tərbiyə nəzəriyyəsinin inkişafından söhbət açarkən zəruri bir problemə də toxunmalıyıq. Sovet dönəmində həmin dövrün tərbiyə

nəzəriyyəçiləri, ziyalı elitasının yaradıcılıq irsi ilə bağlı aparılan araşdırmalarda belə bir yanlış, qeyri-obyektiv tendensiya özünü büruzə verir: Bu dövrün milli məfkurəli qələm və fikir sahiblərinin yaradıcılığında "ateizm, allahsızlıq, dinə qarşı nifrət" – ideyaları axtarılır. Onların islama və ya ümumiyyətlə, dinlərə münasibəti yanlış, birtərəfli şəkildə şərh edilir. Tədqiqatçılar, bir qayda olaraq, faktdan çıxış etməyərək həmin şəxsiyyətlərin irsində total "ateizm axtarışı"na meyl göstərirlər. Tərbiyə nəzəriyyəsinə aid bir dərs vəsaitində deyildiyi kimi, sovet dönəmində: "Din xalq üçün tiryəkdir", "Din xarici qüvvələrin beyindəki fantastik inikasıdır" kimi bir sıra fikirlərə qeydsiz, şərtsiz yanaşılaraq iddia edilirdi ki, din guya "sırf mürtəce xarakter daşıyır; o, allahlara, ruhlara və digər mövhumi qüvvələrə inanmağa əsaslanan mistik görüşlər toplusu" olduğundan insanın, xalqın, cəmiyyətin həyatında heç bir müsbət rol oynamamışdır; guya dini təlimdə, ayin, adət və ənənələrdə, dini kitablarda ağıllı, faydalı heç nə yoxdur və i.a." (108, 65) Əlbəttə, belə bir yanlışlıq bolşevizmin hakim ideologiyasından qaynaqlanırdı. Sovet rejiminin dini etiqada münasibətdə ideoloji inkarçılığının hakim qəliblərinin diktəsi ilə aparılan araşdırmalar bu mənada elmi şərh və analizlərdə kifayət qədər qüsurlara gətirib çıxarırdı. Halbuki XIX-XX yüzilliklərin hüdudlarında yaşayıb fəaliyyət göstərmiş demokratik ziyalılarımızın əksəriyyəti istər islama, istərsə də başqa klassik dinlərə rəğbət və məhəbbətlə yanaşmışlar. Onların pis münasibət göstərdikləri, tənqid etdikləri isə dinlərin özü, rüknü yox, mürtəce, mühafizəkar, cəhalətpərəst din xadimləri olmuşdur. Nəticə etibarı ilə sovet imperiyası dönəmində din xadimlərinə münasibətlə dinə münasibət eyniləşdirilmiş, "pis din xadimi" anlayışı, "din pisdir və gərəksizdir" mənasında təqdim edilmişdir. Belə bir tendensiya milli intibah dövrü Azərbaycan mədəni-pedaqoji gerçəkliyində dini tərbiyə nəzəriyyəsinin də qeyri-elmi, qeyri-obyektiv şərhinə gətirib çıxarmışdır. İndiki müstəqillik çağımızda, əlbəttə ki, həmin yanlışlığı düzəltmək

tədqiqatçılarımızın qarşısında dayanan vacib vəzifələrdən biridir.

Dediyimiz kimi, XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycanın aparıcı demokratik fikir sahibləri, bir qayda olaraq, mürtəce, köhnəpərəst, mənfəətpərəst ruhanilərə mənfi münasibət bəsləmiş, onları kəskin şəkildə tənqid etmişlər. Demokratik ziyalılarla həmin ruhanilər arasındakı fikir ixtilafları hətta bəzən kəskin münaqişəyə, məfkurə, fikir və söz savaşına, ideya toqquşmasına çevrilmişdir.

Yeni dövrdə mürtəce ruhani – demokratik ziyalı qarşıdurması M.Ş.Vazeh və M.F.Axundovdan başlamışdır. M.F.Axundov istər "Kəmalüddövlə məktubları"nda, istərsə də bir sıra şəxslərlə yazışmalarında din xadimlərini ardıcıl surətdə ifşaya meyl göstərir. Bu ənənəni davam etdirən "Əkinçi" qəzeti də eyni mövqedən çıxış edərək əsrlər boyunca ədalətsiz hökumət başçılarının zülmünə rəvac verməkdə ruhanilərin onlarla əlbir olduqlarını, beləliklə, ruhanilərin zalım hökmdarlara, ixtiyar sahiblərinə dayaq olub maarif, mədəniyyət və hər cür inkişafın qarşısını aldıqlarını, cəmiyyətin mənəvi və maddi yaşayışına böyük zərbə vurduqlarını kütləyə başa salır: "Elə ki xalqın ipi ruhanilərin əlinə düşdü, hökumət əhli öz nəfindən ötrü xalqı gözübağlı saxlamaq üçün məktəbxanalarda ancaq şəriət adablarının, boş sözləri bir-birinə yapışdırıb ibarət ilə danışmağın dalıncan düşüb, xalqı yoxsul və sərgərdan edib özləri kef və ləzzəti-dünyaya məşğul oldular və nəinki özləri təzədən xalq üçün məktəbxanalar açmadılar, hətta olan məktəbxanalarda mollalıq məsailini araya salıb xalqı elm yolundan uzağa saldılar". (88, 167)

H.Zərdabi "ittihadi-lisan" ("Həyat", 1906, 11 yanvar) məqaləsində bəzi mətbuat xadimlərinin və mollaların dili korladıqlarını, qəribə, anlaşılmaz bir dildə danışdıqlarını və yazdıqlarını nəzərə çatdırır. Qeyd edir ki, bizim müxbir və mollalarımızın dili nə türk dili, nə də bir qeyri-dildir. Bir neçə dilin qarışığından ibarət bir şeydir.

S.Ə.Şirvani “Elmsiz alim”, “Köpəyə ehsan”, “Müctəhidin təhsildən qayıtması” və s. satiralarında, “Oğluma nəsihət” silsiləsindən qələmə aldığı bəzi maarifçi şeirlərində saxtakar, mənfəətpərəst, bisavad din xadimlərini tənqid atəşinə tutur. Onların danışdıqları sözlərin yalan, verdikləri tərbiyənin “bisəmər” olduğunu nəzərə çatdırır.

M.Şahtaxtlının qənaətinə görə xalqın tərəqqisinə mane olan amillərdən ikisi ön mövqedədir və daha təhlükəlidir. Bunlardan birincisi təkhakimiyyətlilik prinsipinə əsaslanan despotizm, ikincisi isə birincinin mütləq və ölçüsüz hakimiyyətinin mənəvi-ideoloji dayağı olan ruhanilər hakimiyyətidir. Avropalılar ictimai həyatda ruhanilərin hakimiyyətini sındırmaqla despotizmin buxovlarını da qırdılar. Bununla da tərbiyə və tərəqqi üçün yeni qapılar açdılar. Lakin müsəlman ruhanilərinin hakimiyyəti davam etməkdədir və onlar “yaxşını pisdən seçmək, öz ağlından istifadə etmək üçün azad seçim qanununu” insanlara rəva bilmirlər. (237, 44)

“Şərqi-rus” qəzetində (1904, 30 iyul) “Qəzetnəvis” imzası ilə çap olunan “Hər gün bir az” silsiləsinə daxil olan bir məqaləsində isə M.Şahtaxtlı bir mollanın timsalında mollaların yalançılığından, öz marağı və mənfəəti naminə hətta peyğəmbərlə bağlı uydurma sözlərə əl atmasından danışır.

N.Nərimanov da M.Şahtaxtlı kimi “Pir” hekayəsində din xadimlərinin iç üzünü açıb göstərir. “Həyat” qəzetində işıq üzü görən “Həftə fəryadı” silsiləsindən olan məqalələrində (1906, 12, 26 may) tərbiyəçi ədib ruhaniləri xalqın yüksəlişinə əngəl olmaqda, millətə lazım olan qulluğu etməyi bacarmamaqda, zəmanənin ruhunu başa düşməməkdə, “tədris və təlimdə” böyüməkdə olan nəslə faydalı bir şey öyrətməməkdə günahlandırır. (192, 258)

Yüz illərlə islamı qaranlıqda saxlayan, islam dünyasını geridə qoyan din xadimlərini bu tarixi cinayət əməllərinə görə ittiham edir. Onlara xitabən deyir: “Yox, cənab islam hamiləri! Siz zəmanəyə uyuşdunuz, siz yüz illər ilə islamı qaranlıqda

tutmuşdunuz, siz islamda olan azadəliyi bilmərrə basdırmışdınız...” (192, 247)

C.Məmmədquluzadə məşhur “Ölülər” tragikomediyasında bəsirətsiz, nadan kütləni aldadan, onun ruhunu, mənəviyyatını təhqir edən yalançı, fırıldaqçı ruhanilərin tipik obrazını yaradır. Bu obrazın timsalında bütün şərq aləmində dini tərbiyəçilərin iç üzünü açıb ictimaiyyətə göstərmək istəyir.

M.Ə.Sabir də məsləkdaşı Mirzə Cəlil kimi satiralarında mollaların şəxsiyyəti və əməlləri ilə kütləni tanış etmək məqsədi güdür.

Mövzu obyekti kimi götürdüyümüz dövrdə demokratik baxışlı düşüncə öncüllərimizin pis ruhanilərə mənfi münasibəti barədə istər bədii, istər publisistik, istərsə də pedaqoji səpkidə qələmə alınmış əsərlərdən kifayət qədər misal gətirmək olar. Həmin fikirlərin hamısı daha ümumiləşmiş, dolğun, elmi və əhatəli şəkildə Ə.Ağayevin “İslam, Axund və Hatifülqeyb” əsərində ehtiva olunduğundan bu əsər üzərində yığcam şəkildə dayanmaqla kifayətlənirik. 1904-cü ildə Bakıda “Kaspi” mətbəəsində ayrıca kitabça halında çap olunmuş bu əsər bədii-fəlsəfi, dini-pedaqoji risalədir. Burada üç rəmzi insan obrazı var: İslam, Axund və Hatifülqeyb. Zəif, gücdən düşmüş, cındır paltarlı, miskin görkəmli İslam islam dinini, Axund dünyəvi ehtiraslarla yaşayan, yalançı, saxtakar, konservativ düşüncəli, mənfəətpərəst din xadimlərini, Hatifülqeyb isə ədalətli münsif obrazını təmsil edirlər. Əsər İslamla Axundun mükalimə və mübahisəsi, Hatifülqeybin lazımi məqamlarda bir hakim kimi söhbətə müdaxiləsi şəklində qurulmuşdur. İslam Quran, din, şəriət, sünnə, hədis, dünya işləri və s.lə bağlı Axunda suallar verir. Axund isə bu suallara yayğın, öz məhdud, şöhrətpərəst, mənfəətgir düşüncəsi nöqteyi-nəzərindən cavab verir. Bəlli olur ki, o, Quranı oxuyur, lakin əməl etmir. Saxta vəzlər söyləyir, ancaq başqa nalayiq əməllərlə məşğul olur. Quranın ayələrini, şəriət qaydalarını öz bildiyi və istədiyi, ona sərf edən şəkildə xalqa çatdırır. Dində təfriqəçiliyə, məzhəbçiliyə, daxili düşmənçiliyə təhrik edən əməllərə rəvac

verir. Batini həqiqətlərdən xəbərsiz olub yalnız zahiri həqiqətlər əsasında hərəkət edir. Əsər boyu İslam Axundu hər addımda ittiham edir. Din xadimlərinin işlətdiyi böyük günahlar ucbatından xalqın ondan, yəni İslamdan uzaq düşdüyünü, həqiqi ilahi elm və hikmətlərdən, gerçək şəriət qaydalarından xəbərsiz qaldığını nəzərə çatdırır. Müsəlman aləminin düşdüyü zavallı, miskin vəziyyətin, tənəzzül və bədbəxtliyin səbəbini də Axundda görür. İslamın Axund, yəni özünü islam xadimi kimi təsəvvür və təqdim edən, islam tərbiyəçiləri adlandıran ruhanilər barədə son qənaəti belədir: "Cənab Axund, sizin bərəkətinizdən islamdan ancaq bir quru ad və şax budaq qalıb. Onun meyvəsi olan insaniyyət və zati-islamiyyət bilmərrə əldən gedib. Müsəlmanlardan yüzdə doxsan doqquzu öz adı olan "müsəlman" ləfzini qanmayıb əvamiz və nəvahidən məqsədi-əsli olan ruh və batinə əl aparmayıb. Cümlə zahirpərəst və riyakar olublar. Ancaq zahiri adab əxz ediblər. Batini mətləbə mültəfit olmayıblar. Budur səbəb ki, itaət və ibadət ki, onlarda mülahizə olunur, nəticə verməyir, onları insani-kamil sifətinə salmayır, müsəlman adına layiq etməyir. Çünki itaət və ibadət qəlblərinə sirayət etməyir və qəlblərini şöleyi-hidayət ilə münəvvər etməyir". (4, 45-46) Deməli, ruhanilər pis tərbiyəçilərdir. Xalqın tərbiyəsini pozmuş, tərəqqisinin qarşısını almışlar. Çünki onların həqiqi dindən, ruhdan və tərbiyədən xəbərləri yoxdur. Hakim Hatifülqeybin (əslində bu obraz Ə.Ağayevin özünü təmsil edir) rəyi də İslamınkı ilə eynidir: "Ruh hara? Axund hara? Axundlara plov, aş, çay və çağ arvad söhbəti et!" (4, 41) Başqa sözlə, maddi dünya mənfəətləri üçün yaşayan riyakar din xadimlərindən yaxşı tərbiyəçi ola bilməz.

XIX yüzilliyin II yarısı və XX yüzilliyin əvvəllərində başqa müsəlman ölkələrində olduğu kimi Azərbaycanda da dini təlim-tərbiyə ocaqları, əsasən, məktəb (mollaxana) və mədrəsələr idi. Xalq arasında mollaxana adlanan məktəblər ibtidai, mədrəsələr isə ali dini təhsil ocaqları hesab olunurdu. Məktəblər, adətən, ya xüsusi evlərdə, ya da məscidlərin nəzdində fəaliyyət göstərirdi. Məscidlərin nəzdində fəaliyyət

göstərən təhsil ocaqlarına çox zaman məscid məktəbləri də deyirdilər.

O zaman məktəb və mədrəsə şəbəkəsi dövlət və ya xüsusi dünyəvi məktəblərdən qat-qat geniş yayılmışdı. Rəsmi arxiv sənədlərindən bəlli olur ki, 1863-cü ildə Bakı qəzasında 141, Şamaxı qəzasında 63, Nuxa qəzasında 234, Lənkəran qəzasında 50, Şuşa qəzasında 27 məscid məktəbi mövcud olmuşdur. (40) 1876-cı ildə Dağıstan vilayəti və Bakı quberniyasında 1000-dən artıq ruhani məktəbi var idi. (327)

Bir məsələni də xatırlatmaq yerinə düşər. Çarizm dövründə dini məktəblərin hesabatı o qədər də dəqiq aparılmırdı. Dövlət idarələrinin nəzarət və tabeçiliyindən kənarda olduğundan bu məktəblərə qarşı müəyyən laqeydlik var idi. Statistik hesabatlarda, əsasən, məscidlərin nəzdindəki məktəblərin sayına istinad edilir, evlərdə açılmış ibtidai dini məktəblər isə nəzərə alınmırdı. Bu həqiqət rəsmi hesabatlarda da etiraf olunurdu. Məsələn: QTD-nin 1870-ci ilə aid hesabatında göstərilir ki, Zaqafqaziyada nə dini məktəblərin, nə də orada təhsil alan şagirdlərin sayını dəqiq şəkildə müəyyənləşdirmək mümkün deyil. ( 326,123)

1896-1897-ci illərdə Zaqafqaziyada QTD üzrə 1486 təhsil ocağında cəmi 55.592 şagird oxuyurdu. Bunlar dövlət və ya dövlət nəzarətində olan xüsusi dünyəvi məktəblərə aid statistikadır. Həmin tədris ilində isə təxmini olaraq ümumi Qafqazda 1800-dən artıq ruhani və ya yarı ruhani məktəbləri mövcud olmuşdur. Bunlarda təhsil alan şagirdlərin sayı 25.081 nəfər idi. Həmin şagirdlərdən 4.223 nəfərini qızlar təşkil edirdi. (329, 65)

Məktəblərdə təhsil ilinin müddəti qeyri-müəyyən idi. Bu, 4 ildən 7 ilə, kənd yerlərində hətta bəzən 10 ilə qədər davam edirdi.

Məktəb və mədrəsələrdə təhsilin məzmunu ənənəvi qaydaya uyğun aparılırdı. Məktəblərdə şagirdlər təxminən 7-8 yaşlarında məktəbə qəbul edilir, onlara yazı-pozu, ibtidai şəriət qaydaları, Quranın bəzi surə və ayələri öyrədilirdi. Bundan əlavə

şagirdlərə bəzi şərq klassiklərinin yaradıcılığından nümunələr də tədris edilirdi. Bu klassiklərdən Sədi, Hafiz, Füzuli və b.-na daha çox diqqət yetirilirdi. Tədris olunan əsərlər sırasında "Camei-Abbas", "Tarixi-Nadir", "Əbvab-ül Cinan", "İnşai-Mirzə Mehdixan", "Tarixi-Mövcam", "Xəzani-Bahar", "Gülüstan" və s. tipli əsərlər üstünlük təşkil edirdi. Təlim üçün konkret plan və proqram yox idi və təlim prosesində bir sistemsizlik hökm sürürdü. Tədris Azərbaycan, ərəb və fars dillərində aparılırdı. Öyüd-nəsihətçiliyə, didaktikaya, sxolastik metodla təlimə üstünlük verilirdi. Quran, dua-sənalar şagirdlərə ərəb dilində əzbərlədilir, onların mənası ana dilinə tərcümə edilmədiyindən şagirdlər öyrəndiklərinin mənasını anlaya bilmirdilər. Yəni tədris daha çox quru, sxematik və əzbərçiliyə əsaslanırdı. "Qafqaz" qəzetinin (1882, №108) yazdığı kimi: "Şagirdlər Quranı oxuyurlar, hörmətlə qulaq asırlar və hörmətlə də başa düşmürlər." Sinif otaqları çox zaman darısqal, qaranlıq, sağlamlıq üçün əlverişsiz olurdu. Əlifba hərf üsulu ilə, səssiz qaydada, əlverişsiz bir metodla öyrədildiyindən onun mənimsənilməsi uzun çəkirdi. Əksər hallarda müəllimlər (mollalar) yarımsavadlı, məhdud biliyə malik qeyri-peşəkarlar, pedaqoji prinsiplərdən xəbərsiz şəxslər olurdu. Müəllimlərə heç bir nəzarət yox idi. M.Şahtaxtlının sözləri ilə desək, "məktəbdarlar" yalnız "Allah və öz vicdanları qarşısında məsul idilər." (80, 307) Bir sözlə, məktəblər bir tədris ocağı kimi kifayət qədər qüsurlara malik idi. Həmin qüsurları mədrəsələrə də aid etmək olardı. Onlar da normal, layiqli vətəndaşlar tərbiyə edə bilmirdilər.

XIX əsrin 70-ci illərindən etibarən hökumət müsəlman ruhani idarələri və dini məktəblərlə bağlı bəzi qanunlar qəbul etdi. 1872-ci ilin 5 aprelində müsəlman ruhaniliyinin yeni əsasnaməsi təsdiq edildi ki, burada dini məktəblərə aid də bəzi maddələr öz əksini tapmışdı. 1873-cü ilin 22 noyabrında, həmçinin 1874-cü ilin 20 noyabrında məktəb və mədrəsələrə aid yeni hökumət qanunları verildi. Bu qanunları mahiyyət etibarı ilə "iki yerə bölmək olar. Birinci növ qanunlar təhsilin

məzmununa, digəri isə ona rəhbərliyə”, yəni bu məktəblərə hansı qurumun nəzarət etməsinə (başqa sözlə, bu məktəblərə ruhani idarələrimi, yoxsa dövlət qurumlarımı nəzarət etməlidir) aid idi. (80, 311) Üçüncü bir tərəfdən hökumət bəzi islahatlarla, qanunlarla və tədbirlərlə dini məktəblərdə İran, Türkiyə və ümumiyyətlə, Şərq təsirini azaltmaq, daha doğrusu, bu tədris ocaqlarındakı təlim-tərbiyə sistemini imperiya maraqlarına uyğunlaşdırmaq məqsədi izləyirdi. Lakin verilən qanunlar, görülən ötəri tədbirlər təhsilin məzmun və mahiyyətinə elə də təsir göstərmədi. Ənənəvi məzmun və mahiyyət yenə də davam etməkdə idi. Bu istiqamətdə az-çox yeniliklər etmək vəzifəsi yenə mütərəqqi görüşlü Azərbaycan ziyalılarının üzərinə düşdü.

“XIX əsrin ikinci yarısında, xüsusilə də son rübündə məktəblərdə təlimin məzmunu məsələsində iki istiqamət – mühafizəkarlıq və mütərəqqi fikir özünü açıqcasına göstərirdi.” (80, 321) Birinci fikrin tərəfdarları konservativ düşüncəli mollalar, mühafizəkar, fanatik din xadimləri, ikincilər isə demokratik baxışlı ziyalılar idilər. Ədalət naminə deməliyik ki, ikinci fikrin tərəfdarları içərisində mütərəqqi baxışlı bəzi ruhanilər də yox deyildi.

İkinci təmayülün tərəfdarları XIX yüzilliyin son rübündə Rusiya müsəlmanları, o cümlədən Azərbaycan ictimai-pedaqoji mühitində vüsət alan “cədidizm”in (yeni meylli məktəb və pedaqoji hərəkat) müdafiəçiləri idilər. S.Ə.Şirvani, M.M.Nəvvab, M.Qasir, M.T.Sidqi və b.-ları həmin hərəkatın öncüllərindən idilər. Onlar dərs dedikləri dini məktəblərdə təhsilin məzmununu yeniləşdirməyə cəhd göstərirdilər. Onu da əlavə edək ki, məktəb və mədrəsə təlimini həm forma, həm də məzmunca əsaslı şəkildə dəyişməyi, yeniləşdirməyi tarixi-pedaqoji bir zərurət hesab edənlər yalnız mütərəqqi düşüncəli ruhani müəllimlər deyildi. Dövrün demokratik ziyalılarının hamısı yekdil şəkildə bu yeniləşməyə tərəfdar çıxırdılar.

Görkəmli pedaqoq A.O.Çernyayevski “Qafqaz” qəzetinin 1893-cü il 264-cü nömrəsində oxuculara çatdırılan

“Şeyxül-islam və müsəlman məktəbləri” adlı məqaləsində ibtidai dini məktəblərdə bir sıra ciddi islahatlar aparmağın zərurətindən söz açır. Qeyd edir ki, belə ruhani maarif ocaqlarında təlim üsulu dəyişməli, tərbiyə metodları, tədris palnı, dərs kitabları yenilənməli, tədris planına rus dili, hesab və bəzi başqa dünyəvi fənlər daxil edilməlidir. Dərs üçün daha yaxşı sinif otaqları seçilməli, şagirdlərin sağlamlığının təmin olunması naminə həmin siniflərin şəraiti yaxşılaşdırılmalıdır. “Müsəlman ruhaniliyi və xalq məktəbləri” (“Qafqaz”, 1893, №242) sərlövhəli başqa bir məqaləsində o, ruhani məktəblərindəki islahatlar barədə nəzəri təklif və mülahizələrini davam etdirərək yazır: “Təəssüf ki, ruhani məktəbləri (mədrəsələr) və məscid nəzdindəki ibtidai məktəblər (məktəb) bu vaxta qədər öz əvvəlki vəziyyətində davam edir və bunlara nəinki rus dili, nə qədər ki mənə məlumdur, məscid məktəblərində şagirdləri kütləşdirən hərf və heca üsulu əvəzinə, vaxta xeyli qənaət edən və biliyin mənimsənilməsində uşaqlarin zəhmətini əsaslı sürətdə yüngülləşdirən səs üsulu belə tatar (Azərbaycan – T.V.) dilinin tədrisinə daxil olmamışdır. Halbuki səs üsulu bir sıra xüsusi məktəblərə daxil edilmişdir”. (328)

Müəllif köhnə məktəblərin şagirdlərin istər mənəvi, istərsə də fiziki inkişafına zərər vurduğunu nəzərə çatdırır. Bildirir ki, mədrəsələrdə təlimin məzmunu əsaslı şəkildə yenilənməli, proqram dəyişdirilməli, yeni proqramlar əsasında dərsliklər hazırlanmalı, təlim kursu siniflərə bölünməli, tədris planına bir sıra dünyəvi elmlər daxil edilməli, təlim prosesi yeni metodlarla aparılmalı, müəllimlik işinə bilikli, bacarıqlı yeni üsulla işləməyi bacaran peşəkarlar cəlb edilməlidir. O, belə bir maraqlı təklif də verir ki, mədrəsələr aşağı və yuxarı dərəcə olmaqla iki mərhələyə ayrılmalı, aşağı dərəcəli məktəb yuxarı dərəcəli mədrəsələr üçün kadrlar hazırlamalıdır. Yuxarı mərhələni bitirənlər sonradan aşağı mərhələ məktəblərində müəllim işləyə bilərlər.

Biz bu mülahizə və təkliflərin davamını bir sıra yeni əlavə və təkliflərlə sonrakı dövrdə başqa maarifçilərimizin yaradıcılığında da görürük.

M.Ə.Rəsulzadə "Məktəb və mədrəsə" adlı risaləsində Azərbaycanda və Qafqazda ruhani məktəblərinin mövcud vəziyyəti, onların forma və məzmunun dəyişdirilməsi, çarizmin siyası məqsədləri və ruhani məktəbləri və s. problemləri dolğun, əhatəli və müfəssəl şəkildə şərh edir. On bir hissədən ibarət pedaqoji risalə 1916-cı ildə "Açıq söz" qəzetində (15, 16, 17, 21, 27, 31 mart, 4 aprel, 2, 6, 7, 10 iyun) silsilə şəklində dərc olunmuşdur. Əsər çarın yüksək rütbəli maarif məmuru Rudolfun Qafqazda, o cümlədən Azərbaycanda dini məktəblər, dini təlim-tərbiyə ilə əlaqədar hazırladığı və mətbuatda çap olunan layihəsi ilə bağlı yazılmışdır. Burada azərbaycanlı mütəfəkkir ideoloq Rudolfun lahiyəsindəki məkrli, imperiya maraqlarına və siyasətinə xidmət edən nüansları xırda detallarına qədər təhlil süzgəcindən keçirir. Eyni zamanda özünün təklif və tövsiyyələrini, onların əhəmiyyətli cəhətlərini də bəzən nəzəri dəlillər, bəzən də həyati arqumentlərlə ortalığa qoyur. Müəllifin fikrincə mədrəsə və məktəblərimizin hazırkı halı dözülməzdir və islaha möhtacdır. Bəs "xəlqi işıqlandıracaq məktəblərin, həm də məhkum və tabe millətlərə məxsus olan xəlq və cəmaət məktəblərinin əsl məqsədi nə olmalıdır? – Həmin suala müəllif belə cavab verir: "Salim və bitərəf bir baxışa görə məktəblərin vəzifəsi, görəcək işi yaşadığı dövlətə məcburiyyət və əlaqədarlıq tərbiyə etməklə bərabər mənsub olduğu xəlqin əməllərinə dəxi mədəni bir amil olmaqdır.

Deməк ki, müsəlman balalarını tərbiyə edəcək xəlq məktəbləri bu xəlqin (yəni müsəlmanların) ağıllı qismi tərəfindən bəslənməkdə olan milli arzu və əməllərə dəxi yardımçı olmalıdır". (213, 428-429)

Tərbiyəçi ideoloqun ruhani məktəblilərinin islahatı ilə bağlı təklif və müddəalarını təxminən aşağıdakı tezislər əsasında cəmləşdirmək olar: bu tədris ocaqlarında ana dilinin mövqeyini, tədrisin vəziyyətini yaxşılaşdırmaq; ana dilinə verilən saatların

miqdarını artırmaq və bu fənnin tədrisinə peşəkar pedaqoqlar cəlb etmək; Quranı, dini dua-sənaları təkcə ərəbcə deyil, həm də ana dilində şagirdlərə öyrətmək, bunun üçün öyrədilən mətnləri milli dilə tərcümə etmək. Belə bir iş şagirdlərin öyrəndikləri şeyin mahiyyətini, mənasını dərk etməyə köməklik göstərər; tədrisə bir sıra yeni dünyəvi fənlər daxil etmək; tədris olunan fənlər üçün proqramlar, dərsliklər hazırlamaq, tədrisi həmin proqram və dərsliklər əsasında aparmaq; tədris prosesini müasir həyatla, zamanın tələbləri ilə uzlaşdırmaq; xürafata, mövhumata səbəb olan şeyləri təlim prosesinə yaxın buraxmamaq; rühani məktəbləri Qafqazdan daha yaxşı, mütərəqqi olan Volqaboyu müsəlmanların (tatarların) bu sahədəki nailiyyətlərindən, təcrübəsindən bəhrələnmək; təhsil ocaqlarına daha yaxşı hazırlıqlı, bilikli, müasir düşüncəli müəllim kadrları cəlb etmək; tədris prosesində dinlər və məzhəblər arası nifaqa, ədavətə səbəb olan məziyyətlərə yol verməmək; dini təlim-tərbiyəni milli məcraya yönəltmək; dini tərbiyə ilə milli tərbiyəni uzlaşdırmaq və s.

XIX-XX yüzilliklərin hüdudlarında Azərbaycanda bir neçə dini dərslik də meydana gəldi. Bu dərsliklər, əsasən, ibtidai dini məktəblərdə və ya dövlət məktəblərində şəriət fənninin tədrisi üçün nəzərdə tutulmuşdu. Həmin dərsliklərdən aşağıdakıları göstərmək olar: Səfərəli bəy Vəlibəyov – “Qüdrəti-xuda” (1888); Əbdüssəlam Axundzadə – “Risaleyi-rübdətül-əhkam” (1897...); Mahmud Əfəndizadə və Firidun bəy Köçərli – “Tarixi-müqəddəs” (1899...); Hüseyn əfəndi Əfəndiyev İsmayılzadə – “Kitabi-zübdətül-əhkami-şəriyyə” (1901...) və “Minhacül-şəriət” (1904...); Axund Əbdürrəhim Hadizadə – “Kitabi-şəriət” (1909...); Mirzə Abbas Abbaszadə – “Şəriət kitabı” (1910...); “Əxlaqa dair” (müəllif göstərilməyib - 1913); Hacı Mirzəağa Mirmöhsünzadə – “Yeni təlimüş-şəriə” (1916); Axund Əbdürrəhim Hadizadə və Ağa Mirəbdüləli Mirmöhsünzadə – “Şəriət kitabı” (1916...) və s. Əlbəttə, o zamankı təlim-tədris mühitində uşaqların dini təlim-tərbiyə

almasında bu dərsliklərin müəyyən rolu oldu. Dərsliklərdən bəziləri (nəşr tarixindən sonra üç nöqtə qoyulanlar) bir neçə dəfə çap edilmişdir.

Mövzu obyekti kimi götürdüyümüz zaman kəsimində dini tərbiyədən danışarkən mədəni-pedaqoji mühitdə dövriyyədə olan aktual bir problemin üzərində də dayanmaq lazım gəlir. Bu, "elmi-ədyan" (dini elmlər) və "elmi-əbdan"a (dünyəvi elmlər) münasibət problemi idi. Problem bu suallar ətrafında cərəyan edirdi: Bizə hansı elmlər lazımdır? Təlim və tərbiyə sistemimizi bunlardan hansının bazası əsasında qurmalıyıq?

Cari dövr üçün belə sualların yaranması, mədəni-pedaqoji ictimai və maarifçi fikri məşğul etməsi səbəbsiz deyildi. Belə ki, əsrlər boyunca şərqdə təlim və tərbiyə ənənəsi dini elmlərin bazası üzərində qurulmuşdu (İslamın meydana gəlib inkişaf etdiyi erkən əsrlərdə dini elmlərlə yanaşı dünyəvi elmlərin öyrənilməsinə də geniş meydan verildi. Lakin sonrakı əsrlərdə bu ənənə tədricən söndü və bununla da islam aləminin hərtərəfli mənada tənəzzül dövrü başladı).

Azərbaycanda dünyəvi elmlərə yiyələnmək ideyası yeni dövrdə ilk maarifçilərimizdən – A.Bakıxanov, M.Vazeh və İ.Qutqaşınlıdan başlandı. M.F.Axundovun yaradıcılığında daha da gurlaşdı. "Əkinçi" əməkdaşları isə onu ardıcıl şəkildə diqqət mərkəzində saxladı. Qəzetdəki yazılarda demokratik baxışlı millət xadimləri vaxtaşırı bu və ya digər dərəcədə bu məsələyə toxunur, böyüməkdə olan nəslə dünyəvi elmləri öyrətməyin faydasından, zərurətindən danışırdılar. Həmin yazılardan bir neçəsini xatırlamaq istəyirik: Heydəri – "Məktubat" (1875, 2 dekabr); Əhsənül-Qəvaid – "Məktubat" (1875, 18 dekabr); Qafqaz şeyxülislamı Axund Əhməd Hüseynzadə (bu, Əli bəy Hüseynzadənin babasıdır) – "Məktubat" (1876, 1 yanvar); Heydəri – "Məktubat" (1876, 16 yanvar; 29 fevral; 15, 29 mart; 13 may); H.Zərdabi – "Daxiliyyə" (1876, 29 mart); Əhsənül-Qəvaid – "Məktubat" (1876, 13 may) və s.

"Əkinçi"də "elmi-əbdan"-"elmi-ədyan" barədə ideyanı Heydəri adlı müəllif ortalığa atmış, sonra qəzetdə onunla bağlı

qızğın mübahisə və müzakirələr getmişdi. H.Zərdabi başda olmaqla demokratik baxışlı ziyalıların hamısı məktəblərdə dini elmlərlə yanaşı dünyəvi elmlərin də təlimini vacib, müasir dövrün tələbi, “zamanın təqazasına müvafiq” iş sayırdılar. Bunsuz xalqın “millətlərin zindəganlıq davasında” “məğlub və məyus” olacağını, “mürur ilə fövt” olacağını nəzərə çatdırırdılar.

“Ziya” qəzeti də bir qədər sərin şəkildə olsa da, bu barədə “Əkinçi”nin estafetini davam etdirirdi. Qəzet bizim oxumuşlarımızın da “ruhani işlərə motəvəcceh olduqləri kimi cismani ülum və fünunə (dünyəvi elmlərə – T.V.) dəxi moltəfet olməqləri lazımdır” hökmünü verir, onlara “cismani ülum və dünyəviyyədən bibəhrə qalmamağı” məsləhət görürdü. (292, 97)

M.Şahtaxtlı da “Şərqi-rus”da (1904, 19 iyun) eyni mövqeyi davam etdirirdi.

XX əsrin əvvəllərində dünyəvi elmlərin Azərbaycanın məktəb və maarif həyatında mövqeyinin ciddi surətdə genişlənməsi, bu elmlərin dini məktəblərin proqramına daxil edilməsi, dünyəvi məktəblərdə isə onların daha əsaslı şəkildə tədrisi barədə müzakirələr intensivləşdi, cari ictimai-pedaqoji fikrin məşğul olduğu vacib mətləblərdən birinə çevrildi. O zaman Azərbaycanda mütərəqqi milli-mədəni hərəkatın önündə gedən, əsas aparıcı istiqamətini müəyyənləşdirən “Füyuzat”çıların da, “Molla Nəsrəddin”çilərin də deyilən məsələdə mövqeləri eyni idi: xalqın xilası və xoşbəxt istiqbalı naminə dünyəvi elmlər pedaqoji həyatın, təlim-tərbiyə prosesinin əsas rüknlərindən birinə çevrilməlidir.

1906-cı ildə “Həyat” qəzetində (№106) nüfuzlu ruhani Axund Əbu Turab Axundovun “Bizə hansı elmlər lazımdır?” sərlövhəli məqaləsi dərc olundu. Məqalə bu məsələ ilə bağlı geniş və maraqlı müzakirələrə yol açdı. O zaman “Həyat” qəzetinin baş redaktoru olan Ə.Hüseynzadə qəzetin elə həmin nömrəsində (1906, №106) “Axund Əbu Turab həzrətləri: “Elmi-əbdan” sərlövhəli yazısında problemə müfəssəl və elmi şəkildə münasibət bildirdi. Çünki Əli bəyin sözləri ilə desək,

"məqalənin əl vurduğu məsələ fövqəladə mühüm" səciyyə daşıyırdı. (113, 122)

Tərbiyəçi mütəfəkkir qeyd edirdi ki, mövcud ictimai-tarixi şəraitdə bir qrup köhnə fikirlilər belə hesab edir ki, bizə yalnız dini elmlər lazımdır. Biz təlim-tərbiyə işlərimizi də yalnız islam şəriətinə uyğunlaşdırmalı, şəri yolla getməli, dünyəvi elmlərdən imtina etməliyik. İkinci qrup şəxslər isə əksinə hər cür köhnəliyə qarşı çıxır, dini təlim-tərbiyəni qəbul etmir, "müasirləşmək" çağırışı ilə yalnız dünyəvi elmlərin tədris və təbliğini gərəkli hesab edirlər. Hər iki cərəyanın tərəfdarlarının fikirlərini naqis, natamam qənaət kimi qəbul etməyən, bunu dəlillərlə əsaslandıran Əli bəy həm dini, həm də dünyəvi elmlərin hər ikisinin bizə gərəkli olduğunu söyləyir: "Ülumi-diniyyəyi-ruhaniyyəyi, qanuni-ilahiyi, şəriəti, elmi-əqaidi, elmi-təfsiri, elmi-hədisi, elmi-fiqhi bizə oxumaq vacibdir! Bu, bir aşikar şeydir, bunu kimsə inkar edəməz! Lakin ülumi-riyaziyyə və təbiyyəyi, ülumi-iqtisadiyyə, ictimaiyyə və siyasiyyəyi də, fününi-ziraiyyə, tüccariyyə və sənaiyyəyi də təhsil etmək eyni dərəcədə və bəlkə, daha ziyadə və vacibdir!.." (113, 125) Müəllif dünyəvi elmlərin xalqa lazım olan cəhətlərini də obyektiv dəlil və müqayisələrlə izah edir.

"Molla Nəsrəddin"çilər, o cümlədən C.Məmmədquluzadə də Axund Əbu Turabın məqaləsinə reaksiya göstərirlər. Məcmuənin 1906-cı il 8-ci nömrəsində baş redaktorun "Hansı elmlər lazım?" sərlövhəli felyetonu ictimaiyyətə təqdim edilir. Burada Mirzə Cəlil "xeyirxahi-millət" Əbu Turab Axundovu özünəməxsus üslubda məsxərəyə qoyur və tənqid edir. Ona görə ki, o, "elmi-əbdan"ı öyrənməyi xalqa rəva görməyib, faydasız sayıb "elmi-ədyan" arxasınca getməyi məsləhət görür. Xalqın nicatını da bunda tapır. Mirzə Cəlil istehzalı şəkildə nəzərə çatdırır ki, axundun məsləhətində xalqın "nəfi" yox, "zəlaləti", cəhaləti var.

Ö.F.Nemanzadə də müzakirələrdə fəal şəkildə iştirak edir. Onun 1907-ci ildə "Bizə hansı elmlər lazımdır?" adlı əsəri ayrıca kitabça şəklində nəşr olunur. O da Əli bəy və başqa

həmkarları kimi millətə həm dini, həm də dünyəvi elmləri mənimsətməyi, gənc nəslə hər iki sahəyə aid elmləri tədris etməyi, tərbiyəni də bu əsasda qurmağı məsləhət görür. Müəllif bu barədə qənaətlərini belə yekunlaşdırır: “Xülasə, bizim son cavabımız budur: Ülumi-əqliyyə ilə mədəniyyət və insaniyyətə çatılmaz isə ülumi-nəqliyyə və şəriyyə ilə heç vaxt çatılmaz. Əgər ülumi-nəqliyyə və şəriyyə ilə mədəniyyət və insaniyyət olursa, ülumi-əqliyyə ilə yüz qat daha möhkəm və şərəfli olur”. (189, 181)

M.Hadinin “Dövri-mədəniyyət” (“Füyuzat”, 1907, №13), “Saleh” imzalı müəllifin “Məktub” (“Rəhbər”, 1906, №3) məqalələrində “dünyəvi elmləri” (“elmi-əbdanı”) mükəmməl milli yüksəlişə nail olmaq yolunda ən mühüm “vasitə”, “alət” və “əsbab” hesab edirlər. Elə buna görə də “elmi-əbdanı” hər vəchlə “səhneyi-təhsil və tərbiyəyə” daxil etməyi zəruri sayırlar.

Əlbəttə, bu məsələdə mütərəqqi milli tərbiyəçilərimizin əksəriyyətinin mövqeyi yekdil idi. Onlar bu ideyanın reallaşması uğrunda fədakar şəkildə mübarizə aparırdılar və diqqətəlayiq uğurlu nəticələrə nail ola bildilər.

Haqqında danışdığımız dövrdə dini tərbiyə sahəsində Azərbaycan maarifpərvərlərini məşğul edən məsələlərdən biri də mövhumatçılığa, fanatizmə, xürafatçılığa və bunlardan doğan zərərli, yanlış adət-ənənələrə, xalq arasında kütləviləşmiş nöqsanlı vərdişlərə qarşı mübarizə idi. Belə adət, ənənə və vərdişlərdən falçılığı, cadugərliyi, bəzi dini mərasim və ayinlərdəki əməlləri və s. göstərmək olar. Həmin ənənələr içərisində ən çox tənqid hədəfinə çevriləni məhərrəmlik zamanı keçirilən aşura mərasimi, şaxsey-vaxsey əməlləri idi. Çünki bu fanatik ayin şiə müsəlmanlar arasında geniş yayılmışdı.

Milli tərbiyəçilərimiz şaxsey-vaxsey vaqeəsinin fanatizmdən, cəhalətdən, dini maarifsizlikdən doğduğunu, dini tərbiyədə yanlışlığın, mövhumatın nəticəsi kimi təzahür etdiyini kütləyə başa salmağa çalışırdılar. Onlar məsələnin əsl mahiyyətinə varmaqla aşura mərasimi barədə həqiqətləri, bu

işdə din xadimlərinin, oyunbazların, mərsiyəxanların rolunu cammata anlatmaq məqsədi izləyirdilər.

M.F.Axundov Kapitan Sultanova ünvanladığı bir məktubunda aşura təziyədarlığındakı baş yarmaq, xəncərlə özünə qəsd etmək, nalə çəkib ağlamaq, zəncir vurmaq və s. əməlləri “əbləhanə hərəkətlər”, “divanəlik” adlandırır. Onu da əlavə edir ki, həqiqi islam filosof və bilicilərinin (“hükameyi-islamın”) nəzərində də belə əməllər “bidətdir və məsiyətdir”, yəni şəriət hökmlərinin əleyhinə çıxmaqdır, günahdır. (20, 258)

“Əkinçi” qəzeti də M.F.Axundovun fikir və mövqeyini davam etdirirdi. Qəzetdə aşura mərasimindəki fanatizmi tənqid edən bir neçə yazı dərc olunmuşdu. Bunlardan Əhsənül-Qəvaidin “Məktubat” (1877, 4 yanvar), Heydərinin “Məktubat” (1877, 17 mart) rubrikalarında çap olunan yazılarını, S.Ə.Şirvaninin ayrıca mənzum məktub şəklində (Hadi Qarabağiyə cavab) dərc edilən (1877, 12 may) şeirini misal çəkmək olar.

“Molla Nəsrəddin” jurnalının səhifələrində deyilən məsələ ilə əlaqədar xeyli kəsərli felyeton və başqa səpkili yazılara rast gəlmək mümkündür. Məsələn: “Molla Nəsrəddinin xəlvət cavabı” (1906, №21), “Baş yarmaq” (1907, №6), “Necə qan ağlamasın daş bu gün, qırxılır gör neçə min baş bu gün” (1909, №2), “Üləma” (1909, №5) və s. Təbii ki, şaxsey-vaxsey vaqeəsini dindən, şəriətdən uzaq bir əməl kimi məsxərəyə qoyan, cahil dindarların, riyakar və fırıldaqçı ruhanilərin bu məsələdəki mövqeyini tənqid edən bu yazıların müəllifi C.Məmmədquluzadənin özü idi.

“İrşad” qəzeti 1907-ci ildə 18-ci nömrəsində yazırdı: “Baş yarmaq, zəncir vurmaq, Qasım otağı gəzdirmək adətlərinin cümləsi artıq bir günahdır və bunlar islam şəriətində heç bir kitabda və qanunda yoxdur və hər kəs ki, bu işləri əmələ gətirsə, böyük günahkar hesab olunur.” (116)

Ö.F.Nemanzadə də “Dəli” imzası ilə “Molla Nəsrəddin”in səhifələrində oxuculara çatdırılan “Nə deyim” (1910, №1)

felyetonunda Mirzə Cəlilin üslubundan çıxış edərək aşura mərasimində baş yaranları və ona hamilik edən ruhaniləri ələ salırdı.

Bu mövzu və səpkidə qələmə alınmış əsərlərin sayını kifayət qədər artırmaq olar. Əlbəttə, belə əsərlər xalqın bəsirətsiz təbəqəsinin gözünün açılmasında, dini cəhətdən maariflənməsində, sağlam dini əqidədə tərbiyəsində əhəmiyyətli rol oynadı.

## 3.2. Azərbaycan maarifçiləri əqli tərbiyə haqqında

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində demokratik görüşlü Azərbaycan maarifpərvərlərini məşğul edən ümdə məsələlərdən biri də mənsub olduqları xalqın əqli (zehni) tərbiyə problemi idi. Onlar ayıq və uzaqgörən milli tərbiyəçilər kimi mənsub olduqları vətənin övladlarını əqli-intellektual cəhətdən yüksək səviyyəli, bilikli, bacarıqlı, elmli, həyatı və müasir dünyanı dərk edən, onun hadisələrini və gedişatını anlayan vətəndaşlar kimi görmək istəyirdilər.

Həqiqətən, həm bir fərd olaraq insanın, həm də bütövlükdə cəmiyyətin tərəqqisində əqli tərbiyə ən mühüm stimulverici faktorlardan biridir. Çünki əqli təlim-tərbiyə bütövlükdə "bilik, intellektual bacarıq və vərdişlər sisteminə yiyələnməyi, təfəkkürü və əqli keyfiyyətləri inkişaf etdirməyi, idrak motivlərini formalaşdırmağı nəzərdə tutur". Başqa sözlə, əqli tərbiyənin məqsədi "yaradıcı surətdə, elmi şəkildə düşünməyə qabil şəxsiyyətlər yetişdirməkdir. Həmin vəzifənin həyata keçirilməsində isə bilik, intellektual bacarıq və vərdişlərə yiyələnmə mühüm rol oynayır". (109, 78)

Zehni tərbiyə ilk növbədə ağıla və biliyə əsaslanır. Daha doğrusu, zehni tərbiyəyə məqsədəuyğun səviyyədə yiyələnmək üçün fikir, ağıl, şüur və iradə əsas impulsverici vasitələrdir. N.Tusi də insanın ən şərəfli məxluq kimi uca mərtəbəyə, ilahi şərafətə nail olmaq yolunu həmin mənəvi qüvvələri səfərbər etməklə bilik və bacarığın yüksək təkamül mərhələsinə

çatmaqda görür. Böyük mütəfəkkir bu münasibətlə yazır: "İnsanın mənəvi ehtiyacları, mənəvi qüvvələri, kamalı, fəzilətinin şərafəti – fikir, əql, şüur və iradə vasitəsi ilə təmin və idarə edilir. Insanın xoşbəxtlik və bədbəxtlik açarı, kamillik və naqislik sükanı onun ağıl və iradəsinin ixtiyarına verilmişdir. Əgər düzgün, ardıcıl, məqsədəuyğun, müstəqim xətlə (ən qısa yol ilə) hərəkət etsə, tədriclə elm, mədəniyyət, bilik və hikmətə yiyələnsə, təkamülə qadir olan fitri istedadı hədləri aşaraq onu bir mərtəbədən başqa bir mərtəbəyə, bir dərəcədən o biri dərəcəyə yüksəldər, dubbədüz gətirib arzu elədiyi məqsədə, ilahi nurun şəfəq saldığı ali məqama çatdırar və Allahın yaxın adamları cərgəsinə daxil edər". (258, 53)

Azərbaycan maarifçilərinin xalqı ümumi masştabda əqli tərbiyəyə cəlb etmək yolundakı addımları, hərəkət dəsti-xətti, maneraları zamanın tələbinə müvafiq, ölçülü-biçili, düşünülmüş və perspektivli səciyyə daşıyırdı. Belə ki, onlar doğru olaraq əqli tərbiyə yolunda görülən işləri ustalıqla "əqli tərbiyə nə üçün lazımdır?" – ideyasının kütləyə izahı və təlqini ilə uzlaşdırırdılar. Onlar ilk növbədə əksəriyyəti cahil olan həmvətənlərinə anlatmağa çalışırdılar ki, əqli tərbiyə niyə, nədən ötrü gərəkdir. Həqiqətən də, belə bir anlayışı dərk etmədən cəmiyyətin onu məqbul sayıb əlacına çalışacağı mümkün deyildi. Deməli, əqli tərbiyə meydanına gedən yol – bu yolla getməyə bəslənilən inama bağlı idi. Mütərəqqi məfkurəli ziyalılarımızın zehni tərbiyə ilə əlaqəli təbliğat və təşviqatının əsas xəttini təşkil edən elementlərdən biri bu idi. Onlar öz həmvətənlərini başa salmaq istəyirdilər ki, əqli tərbiyə olmadan xalqın nicatı, xilası və xoşbəxtliyi, həmçinin elm, maarif, bilik, bacarıq olmadan əqli tərbiyə ola bilməz. Bunun arxasınca zehni tərbiyə üçün lazım olan vasitələrin (məktəb və maarif ocaqları, mətbuat, kitablar və s.) təbliği gəlirdi.

Görkəmli maarifçi M.F.Axundov öz qəti qənaətini bu şəkildə bəyan edirdi: "Beləliklə, bəşər övladına səadət və qurtuluş ancaq o zaman nəsib olacaqdır ki, istər Asiyada və istərsə də Avropada, insanın şüuru tamamilə əbədi həbsdən xilas

olacaq və bütün işlərdə və təfəkkürdə hədislər deyil, insanın ağlı yeganə dəlil, sənəd və hakimi-mütləq olacaqdır”. (19, 219) Deməli, zehni tərbiyədə və ümumiyyətlə, həyatda, məişətdə, ictimai gerçəklikdə insan üçün fəaliyyət kredosu kənar şeylər yox, ağıl və məntiq olmalıdır. Yüksək ağıl və məntiqə isə elm və sivilizasiya ilə nail olmaq mümkündür. Puç etiqad, mövhumat və cəhalət üzərində qurulan baxış və əməl insana fayda yox, ancaq ziyan gətirə bilər. İslam cəmiyyətlərindəki bir çox qəbih əməllərin, gülünc inancların da baş verməsini M.F.Axundov elmsizlikdə, savadsızlıqda, hadisələrin elmi mahiyyətini bilməməkdə görür. Məsələn, “Kəmalüddövlə məktubları”nda qeyd edir ki, çürümüş bitkilərdən, heyvan cəsədlərindən qaz əmələ gəlir. Bəzən qəbiristanlıqda belə qazlar öz-özünə alovlanıb yanır. Cahil insanlar inanırlar ki, oradakı qəbrdə dəfn olunmuş adam günahkardır. O, o biri dünyada mələklər tərəfindən əzab oduna yandırılır. Qəbirdən çıxan alov da həmin əzab odunun şöləsidir. Və ya bəzən də əksinə bəzi yerlərdən çıxan alovu cahil insanlar müqəddəs yer, pir, övliya qəbri kimi qəbul edirlər. (19, 54)

Cəmiyyətdəki bir sıra neqativ halların baş verməsini, cinayət hadisələrini də Mirzə Fətəli insanlarda əqli tərbiyənin olmamasında görür: “Tamam oğrular, quldurlar və qatillər əvamünnasdan və cəhənnəmə inanan kəslərdən zühur edər. Heç ürəfadan oğru, ya quldur, ya qatil görübsənmi?” (19, 78)

“Əkinçi” qəzeti də bir tərbiyə tribunası kimi zehni tərbiyədə ötkəm mövqe tuturdu. İstər qəzetin naşiri H.Zərdabi, istərsə də onun məsləkdaşları əqli tərbiyəni milli qurtuluşun mühüm silahı hesab edirdilər. Buna nail olmaqdan ötrü elm, bilik kəsb etməyi əsas çıxış yolu kimi istinad verirdilər. H.Zərdabi qəzetin 20 sentyabr 1875-ci il tarixli baş məqaləsində (“Daxiliyyə”) yazırdı ki, millətlərin yaşayış uğrunda ölüm-dirim savaşına, “zindəganlıq cənginə” çıxdıqları müasir zamanda əsas döyüş silahı top-tüfəng və zor deyil, ağıldır. Ağlın cilası, gücü, qüvvəti isə elmə bağlıdır. Ağlı və elmi olan millətlər bu “zindəganlıq davası”nda qalib gələcəklər: “Zikr olan

zindəganlıq cəngində tüfəng və xəncər işləməz, güc və rəşidlik iş görməz. Onun əsbabı ancaq ağıldır və ağıl bir şeydir, işləndikcən tərəqqi edər, yəni elm təhsil etdikcən ağıl da artar". (88, 51)

Həsən bəyin məsləkdaşlarından və qəzetin fəal əməkdaşlarından Əhsənül-Qəvaidin bu mətbuat orqanında zehni tərbiyə ilə bağlı dolğun, məzmunlu məqalələri dərc olunmuşdur. Bir silsilə təşkil edən həmin dəyərli pedaqoji məqalələr qəzetin 1876-cı il 16, 30 yanvar, 15 mart, 25 iyun, 1877-ci il 31 mart tarixli nömrələrində işıq üzü görmüşdür. Diqqətəlayiq cəhətdir ki, məqalələrdə müəllif problemi həssas, təcrübəli bir pedaqoq fəhmi ilə şərh edir.

Əhsənül-Qəvaid əvvəlcə ağlın mahiyyətini, onun insan fitrətindəki və həyatındakı rolunu yığcam və elmi şəkildə şərh edir. Sonra isə diqqəti Allah-taalanın insana verdiyi bu yüksək nemətdən istifadə etməyi bacarmaq missiyasına yönəldir. Qeyd edir ki, müasir zəmanədə ağılı ilk növbədə dünyəvi elmləri mənimsəməyə yönəltmək gərəkdir: "Pəs lazımdır əqli-məaşı islədib ülumi-əbdan əxz etmək". "Əməl elmsiz vəbaldır" ("Əl əməl və bilallən və vəbalün") hədisinə əsaslanan müəllif onu da əlavə edir ki, "insan ömrünün ibtidasından intəhasına qədər möhtacdır təhsili-üluma". (88, 109)

Əhsənül-Qəvaid göstərir ki, bir şəxsin bütün elmləri öyrənib əxz etməsi mümkün olmadığından hər kəs öz bacardığı, marağına müvafiq peşə və sənətlərə aid elmləri mənimsəmək yolu tutmalıdır. Hər kəs öz çalışdığı sahədə daha çox bilik əldə etsə, daha kamil mütəxəssis olar. Həm özünə, həm də başqalarına daha artıq mənfəət verər. Müsəlman aləmini nəzərdə tutan müəllif təəssüf edir ki, indiki zamanda "əqlin cəvahiratı zülməti-cəhalətdə itib". Ona görə də "yaxşı yaman yerinə və yaman yaxşı yerinə istemal olunur". Müəllif çıxış yolunu təhsil və tərbiyədə görür. Elm təhsil etməklə "nuri-əqli" parlatmağın mümkünlüyünü söyləyən ziyalı hər kəsin yaxşımı, yoxsa pismi əməli seçməsini də düzgün tərbiyə ilə əlaqələndirir: "Tərbiyət mövqufdur zəhmət və ziyarətə və xidməti-ərbabi üluma və

afaqi-ənfəsə baxıb ərik və bəd əfalda təfəkkür və təəqqül eləməyə". (88, 116) Əqli tərbiyədə "Əkinçi" əməkdaşının əleyhinə çıxdığı və tənqid etdiyi məsələlərdən biri də bir sıra fanatik din xadimlərinin təbliğ etdiyi tərki-dünyalıq fəlsəfəsi idi. Müəllif belə bir düşkün, bədbin tərbiyə fəlsəfəsinə qarşı çıxaraq nəzərə çatdırır ki, tərki-dünyalıqla "millətin gələcəyi, daimi yaşaması ("bəqayi-millət") müşkül olur", bununla "millət üçün tərəqqi hasil etmək olmaz". (88, 194)

S.Ə.Şirvani həm "Əkinçi"də çap olunan şeirlərində, həm də "Rəbiül-ətfal" (1878), "Tacül-kütüb" (1883) kimi dərsliklərində əqli tərbiyəni coşqun şəkildə təbliğ edir. Onun dərsliklərində "Mircəfərə xitab" şəklində xeyli şeiri vardır. Bu şeirlərdə bir qayda olaraq Seyid Əzim oğlu Mircəfərin timsalında bütün millət balalarına elmli, ədəbli, əhli-savad olmağı, bilik kəsb etməyi məsləhət görür. Şairin onlara təlqin və tövsiyəsi bu fikirlər üzərində cəmləşir:

Demirəm rus, ya müsəlman ol,
Hər nə olsan, get əhli-ürfan ol.
... Ey oğul, bu dəlili-bişəkdir,
Adəmi-bisəvad eşşəkdir.
... Cəhd qıl neməti təmamə yetiş,
Elm təhsil qıl, məqamə yetiş. (248, 33-34)

"Ziya" qəzetinin səhifələrində də seyrək də olsa, oxucuları zehni tərbiyəyə təşviq edən yazılara rast gəlirik. Zamanın dəyişdiyini söyləyən qəzet köhnə fikirli şəxslərin müasir məzmunlu kitablar, həmçinin qəzet və jurnallar oxuyanlara pis baxdıqlarını tənqid edir. Qəzet "Məmləkət əhvalatı" rubrikasında (1879, 6 dekabr) verdiyi məqalədə müasir məndəricəli, faydalı, dövrün ruhuna uyğun kitablar, qəzetlər mütaliə etməyi yer kürəsi üstündə yaşayıb fələklər aləmini ("aləme-əflaki") zövqlə seyr etməyə bənzədir. Oxucularına "əqlə heyrət gətirən", səmərəli, dəyərli kitab və qəzetləri oxumağı, bu yolla əqli-intellektual potensiallarını artırmağı məsləhət görür: "Bu surətdə ələlxüsus bu zəmanədə əqlə heyrət gətirən, əcayib rəyi kəşf edən adəmlər həyate-mazidə, yəni

kitablər mütaliəsində və qəzetlər mülahizəsində öz sərgüzəştini dərk idə-idə vəqtlərini sərf idüb həman həyatı hər şeydən müqəddəm hesab iləsələr, həqləri vardur. Böylə isə aqil olan kəslər nəin ki mütaliədən nifrət idərlər, bəlkə, oniydə həyati kibi mühüm və əziz bir şey hesab idərlər". (292, 17)

M.Şahtaxtlı əqli tərbiyəni dərdimizin əsas dərmanlarından biri hesab edir. "Dərdimiz və dərmanımız" ("Şərqi-rus", 1903, 13 aprel) məqaləsində o, deyilən məsələ üzərində xüsusi şəkildə dayanır. Ağılı "bəxşayişi-ilahi" adlandırır, əzəmətə, qüdrətə, uca mərtəbələrə çatmaq vasitəsi kimi bəşər övladına verilən bu nemətdən çox zaman insanın kifayət qədər yararlanmadığını, onu lazımi və gərəkli istiqamətə yönəltmədiyini vurğulayır. Nəzərə çatdırır ki, ağıl elm, bilik və xeyirxahlıqla qovuşub müsbət istiqamətə yönəlsə, insanın və cəmiyyətin firavanlığına, yüksəlişinə xidmət etmiş olar. Müəllif öz fikrini sübut məqsədilə həyati dəlillərə də istinad edir. Məsələn, göstərir ki, qışın soyuğunda, qarda, buzda çiçək, meyvə və s. belə şeylərin yetişməsi təbiət qanunları nöqteyi-nəzərindən mümkün deyil. Lakin elm və biliklə tərbiyə olunmuş ağıl təbiətin bu qanununa bacarıqla qalib gələ bilir. Yəni qışın ortasında istixanalar düzəldərək orada çiçək və meyvə yetişdirir. Yaxid "əqli-səlim qüvvəti ilə hər anda əsrari-təbiyyəni kəşf edib, elmi-insaniyyətə xidmət edəcək ali fikirlər, böyük işlər, faydalı alətlər, dərmanlar, əczalar, vasitələr meydana gətirilir". (237, 68) Avropalıların əqli tərbiyə sahəsində bizdən öndə olduqlarını nəzərə çatdıran müəllif bizim də bu yolda səy və qeyrət göstərməli olduğumuzu söyləyir. Ürək yanğısı ilə qeyd edir ki, ağıl və mərifətlərinin, bacarıq və fəallıqlarının sayəsində avropalılar bizim var-dövlətimiz, sərvətimiz, hər nəyimiz varsa, əlimizdən qapıb alırlar. Əgər biz bir az da bu halda qalsaq, ağılsızlıqdan, çalışmamaqdan, elmsizlikdən, "dünyanın felən nə olduğunu öyrənməyib, bilməməkdən, öyrənməməkdən, cəhalətdən, bətalətdən, təəqqül və təfəkkürsizlikdən, fəlakətdən, rəzalətdən çürüyüb yox olacağız, yaşaya bilməyəcəyiz". (237, 208-209)

1882-ci ildə Tiflisdə rus dilində nəşr olunan “Kavkaz” qəzetində (7, 15 aprel, 9, 16 may, 4 iyun) silsilə şəklində çap üzü görən “Müsəlmanlarda məktəb həyatı” məqalələr seriyasında M.Şahtaxtlı o zamankı müsəlman mühitində əqli tərbiyəyə əngəl törədən maneələrdən, səbəblərdən də geniş surətdə söhbət açır. Təəssüflə qeyd edir ki, həm mövcud dini tədris ocaqları (mollaxana və mədrəsələr), həm də mühafizəkar ruhanilər, həmçinin onlara uyan avam kütlə əqli tərbiyəyə ciddi şəkildə mane olurlar. Bu müqaviməti qırmaqsa, xeyli çətindir. Bunun üçün demokratik ziyalılar müasir düşüncəli vətəndaşlar uzun, gərgin və çətin bir mübarizə yolu tutmalıdırlar. (237, 237-277)

Böyük mütəfəkkir C.Məmmədquluzadə də öz yaradıcılığında ruhanilər, cəhalət və əqli tərbiyə probleminə sıx-sıx toxunur. Göstərir ki, maarifsizlik, savadsızlıq ucbatından ruhanilər xalqı aldadır, onu gah bir səmtə, gah da başqa səmtə yönəldir, öz çaldıqları havaya oynadır. “Baş yarmaq” (“Molla Nəsrəddin”, 1907, №6) felyetonunda müəllif mollanın dili ilə deyir: “Yazıq camaat, biçarə avam, yazıq müsəlman milləti, binəva müsəlmanlar! Dəxi nə oyun qaldı ki, biz mollalar sizin başınıza gətirməmiş olaq?!

Biçarə müsəlmanlar!

Bir gün deyirik: “qatıq ağdır” – deyirsiniz: bəli. Sabah kefimiz istəyəndə deyirik: “qatıq qaradır” – deyirsiniz: “bəli”. (165, 114) Müəllif həyatda olan bu ictimai fəlakətin real mənzərəsini ortalığa qoyaraq camaatı başa salmaq istəyir ki, mollaların kütlənin başına gətirdiyi bu oyun cəhalətdən, əqli tərbiyənin yoxluğunda irəli gəlir. Əgər müsəlmanlar təhsil, tərbiyə görüb zehni tərbiyə, elm və bilik sahibi olsaydılar, bu qədər miskin günə düşüb din xadimlərinin əlində alətə çevrilməzdilər.

C.Məmmədquluzadə “Xatiratım” əsərində o zamankı əqli tərbiyə mühitini daha müfəssəl, xırda detallarına qədər incələyir. Gözünü ilk dəfə açıb baxanda dünyanı “qaranlıq” görən müəllif bu qaranlıq dünyada ancaq oruc, namaz, “Allahü əkbər”

sözlərini, ata-anasının, qohum-əqraba, qonum-qonşunun, mollanın, kərbəlayının, hacının, məşədinin xurafatdan, fanatizmdən, mövhumatdan xəbər verən danışıqlarını eşidib, əməllərini görür. Bu danışıq və əməllər isə din və şəriət adından edilir. Mirzə Cəlil "Xatiratım" da, "Ölülər" pyesində və b. əsərlərində də müsəlman mühitindəki əqli tərbiyə şəraitinin sükunətli, faciəli bir halda olduğunu, insanların cəhalət və nadanlığının da bundan törədiyini dolğun şəkildə əks etdirir.

"Müəllimlər ictimaına dair" ("Həyat", 1906, 3, 6, 8, 9, 13 avqust) məqaləsində N.Nərimanov görkəmli pedaqoq H.Pestalotsidən danışarkən qeyd edir ki, millətin fəqirliyinə və zəlalətinə əsas səbəb onun "əql və mənəviyyatının fəqir və nöqsanıdır". Bu fəqirliyi və nöqsanı aradan qaldırmaq yolunda ziyalıların, tərbiyəçilərin, millətin qabaqcıl şəxsiyyətlərinin üzərinə böyük vəzifələr düşür. Henrix Pestalotsi bu yolda həm sözü, həm də əməli ilə böyük iş görənlərdən biridir. O, həm xalqının, həm də, ümumiyyətlə, bəşəriyyətin zehni tərəqqisinə öz töhfəsini vermiş şəxsiyyətlərdən biridir. Azərbaycan ziyalıları da məhz belə şəxsiyyətlərdən öyrənməli, onların yolu ilə getməlidir. N.Nərimanov H.Pestalotsinin fəaliyyətində əqli tərbiyə ilə əlaqəli bəzi maraqlı məqamlara da toxunur. Məsələn, belə bir fakta diqqəti cəlb edir. Henrix Pestalotsi elmi-ilahidən başqa professor Biresi Tinqirin vasitəsilə Vulfun fəlsəfəsini oxuyurdu. Həmin fəlsəfənin qanunlarından biri də bu idi: "Get o şeyin dalınca, sənə tərəqqi yolu verəcəkdir, çəkin o şeydən ki, səni tənəzzülə salacaqdır". Ağlın gücü ilə insan pis əməli yaxşı əməldən seçər. Deməli, ağlın sənin ən yaxşı vicdanındır. (192, 323-324)

"Həftə fəryadı" ("Bəsirət", 1914, 5 iyul) silsiləsindən "Əqidə" sərlövhəli məqaləsində N.Nərimanov nəzərə çatdırırdı ki, "dünya və həyat nədir?" – sualına da biz yalnız elm, bilik qazanmaqla cavab tapa bilərik. Bu da təhsil almaq, mütaliə etmək yolu ilə ola bilər. Müəllif öz həmvətənlərini də bu yola sövq etmək məqsədi izləyirdi. (192, 367)

M.Ə.Sabir öz yaradıcılığında əqli tərbiyəyə təşviq və onun təbliği məsələsini birbaşa , müstəqim mənada qoymurdu. O, təbliğat mexanizmini daha kəsərli, təsirli, sirayətedici üslubda ifadə edirdi. Cahil, elmdən, maarifdən və əqli tərbiyədən məhrum vətən övladlarının qarşısına poeziya ilə güzgü tutur, onları necə varsa, özlərinə tanıdırdı. Onun qəli tərbiyədən büsbütün məhrum olduğunu ona başa salırdı və göstərirdi ki, sən kimsən. Sonra daha təsirli intonasiya ilə "Oxu, öyrən, bilik kəsb et, elm və maarif sahibi ol, dünyanı anla" – əvəzinə tərsini deyirdi: "Oxuma, öyrənmə, cahil qal, elm, maarif və mədəniyyətdən uzaq ol, kitaba, məktəbə, qəzetə yaxın getmə" və s.

Əslində şair bu metodla vətəndaşların zehni tərbiyəsinə daha çox stimul verirdi. Onun "Molla Nəsrəddin" məcmuəsində işıq üzü görən "Bilməm nə görübdür bizim oğlan oxumaqdan" (1906, №11), "Olmur, olmasın" (1908, №12), "Səbr elə" (1908, №28), "Arzu" (1909, №3), "Yaşamaq istər isək, sırf əvam olmalıyız" (1909, №41), "Neçin məktəbə rəğbətim olmayır" (1910, №19) və s. bir sıra şeirlərində deyilən həqiqətin ifadəsini görürük.

Milli intibah dövrü tərbiyə nəzəriyyəçilərimizin əqli tərbiyə ilə bağlı şərh, analiz və təlqinlərində mühüm, gərəkli və obyektiv bir faktoru da unutmamalıyıq. Məsələyə son dərəcə ayıq, həssas yanaşan milli ideoloqlarımız məsələni heç də belə qoymurdular ki, oxuyub təhsil aldınsa, elm öyrəndinsə, deməli, əqli tərbiyə kəsb edib cəmiyyət üçün faydalı şəxsə çevrildin. Onlar ağılı, ağılla və təhsillə qazanılan zehni tərbiyəni, elm və mərifət kəsb etməyi hansı istiqamətə yönəltmək problemi üzərində də dayanırdılar. Yəni oxuyub elm sahibi olmaqla, müəyyən biliklərə yiyələndikdən sonra fərd öz fəaliyyətini pozitiv, yoxsa negativ istiqamətə yönəldəcək? Cəmiyyət üçün faydalı, yoxsa faydasız, hətta zərərli şəxsə çevriləcək? Problemə belə bir gərəkli prizmadan yanaşdıqda meydana saxta, dönük, eqoist, millətə ögey ziyalılar məsələsi çıxırdı. Bu qism saxta, libasını dəyişib təhsil alsa da, məzmununu, batinini dəyişməyən

təqlidçi ziyalıları, zehni tərbiyə sahiblərini vətənpərvər maarifçilərimiz tənqid və rədd edirdilər. Ö.F.Nemanzadə bu münasibətlə "Şərqi-rus" qəzetində işıq üzü görən (1903, 4, 6, 11 aprel) "Dərdimiz və dərmanımız" məqaləsində yazırdı: "Bir qism kişilərimiz də var. Mədənilərin əsərlərini və o səbəblə də onların rəftarlarını, hallarını xoş görürlər, onlar kimi olmaq istəyirlər. Mədəniyyəti paltarda, dildə zənn edərək uzun arxalıqlarını, başmaqlarını çıxarıb gödək jaket, dar çəkmə geyirlər, hər kəsin 15-20 ildə yetdiyi indiki mərtəbəyə bunlar 5-10 manatla on dəqiqədə nail olurlar. Az vaxtda tərbiyəli meymunlar kimi yekə bir obrozovonnı olub qurtulurlar (qeyrətlərinə nəzər dəyməsin!) firəng köynəklərini yaxasını qulaqlarına qədər çıxarırlar, amma qafalarından köhnə fikri, xəbərsizliyi çıxarmayırlar". (189, 36)

Milli coğrafiyada əqli tərbiyənin intişarı yolunda "Füyuzat" jurnalı da diqqətəlayiq addımlar atmışdır. Ə.Hüseynzadə və həmməsləklərinin izlədikləri niyyət xalqı ayıltmaqla yanaşı həm də onun intellektual potensialını, bacarıq və qabiliyyətini, dünyagörüşünü artırmaq, həyata baxış tərzini dəyişib ona elmi stimul vermək idi. Jurnalın səhifələrində bu mövzuda fikirlərə tez-tez rast gəlmək mümkün idi.

M.Hadinin "Amerikada təlim və tərbiyə" (1907, №25), Ə.Kamalın "Avropada" (1907, №29) və s. məqalələrində deyilən məsələyə geniş şəkildə toxunulur. Mirzə Həsib Qüdsinin "İntibahi-maarif və sənaye" (1907, №29) şeirinin mövzusu da zikr olunan məsələ ilə bağlıdır.

M.Hadi "Amerikada təlim və tərbiyə" məqaləsində nəzərə çatdırır ki, Amerikada tərəqqinin, hərtərəfli mənada yüksəlişin baş verməsi maarif və elmə bağlıdır. Orada insanların təhsil və tərbiyəyə cəlb edilməsi, ona qayğı göstərilməsi diqqət mərkəzindədir. İnsanların zehni cəhətdən tərbiyəsi vacib sosial-mədəni və pedaqoji missiyadır. Həm də zehni tərbiyə istiqamətində aparılan işlər yalnız kişilərə deyil, qadınlara da şamil edilir. Cəmiyyətdə əqli tərbiyə bütöv bir sistemə çevrilmişdir. Onun nəticələri isə göz qarşısındadır.

Ə.Kamal “Avropada” sərlövhəli məqaləsində eyni məzmuna malik mülahizələri Avropa xalqları barədə söyləyir. Onların inkişaf edib şərq xalqlarından çox-çox qabağa getmələrini burada əqli tərbiyəyə göstərilən diqqət, bununla əlaqəli görülən tədbirlərlə əlaqələndirir.

Ə.Ağayev əqli tərbiyənin normal, məqsədəuyğun məcrada aparılması sahəsində tərbiyə və təlim vasitələrinin sağlam, aydın, elmi, gərəkli məzmuna malik olması kimi vacib bir məsələ üzərində dayanır. 1904-cü ildə ayrıca kitabça halında çap edilən “İslam, Axund və Hatifülqeyb” adlı dini-fəlsəfi və pedaqoji traktatında göstərir ki, əgər yazılanlarda məqsəd oxuyanların elmini, ağlını, inkişaf etdirmək, onların biliyini artırmaqdırsa, onda bu yazılanlar səviyyəli, anlaşıqlı, məntiqli, düşündürücü və məzmunlu olmalıdır. Bunun üçün yazanın – tərbiyəçinin özü yüksək elm, bilik və erudisiya sahibi olmalı, yazdıqlarında şəxsi mənfəət yox, ümumi fayda görməlidir. Çünki dolaşıq, qaranlıq, kamal və savada söykənməyən mətləblər oxucuya xeyirdən çox ziyan vurur. Müəllif öz qənaətlərini İslamın dili ilə bəyan edərək deyir: “... indi yazılan kitablar qəsdən o qədər qarışıq və qaranlıq yazılır ki, onları ancaq yazan özü başa düşə bilir, əgərçi buna da həm şəkkim var. Çünki kitabın qarışıq və qaranlığı yazıçının əqlinin qarışıq və qaranlığına dəlalət edir və qarışıq əql müşküldür ki, bir mənalı şey yazsın”. (4, 38) Əhməd bəyin bu ideyası o zamankı demokratik baxışlı ziyalılarımız tərəfindən müdafiə edilirdi. Onlar istər mətbuatda, istərsə də kitablarda (istər dərsliklərdə, istərsə də kütləvi oxucu üçün nəzərdə tutulan kitablarda) oxuculara çatdırılan çoxsaylı yazıların, müxtəlif səpkili əsərlərin tərbiyəvi gücünün, təsirinin onların məzmunlu və anlaşıqlı olması ilə bağlı olduğunu yaxşı dərk edirdilər. Bu istiqamətdə çağırışlara qələm sahiblərimizin yaradıcılığında tez-tez rast gəlirik.

Azərbaycan maarifpərvərləri əqli tərbiyəyə ümumxalq işi kimi baxır, ona fərdlərə aid lokal məsələ kimi yanaşmırdılar. Dərk və həm də təlqin edirdilər ki, ümummillət miqyasında əqli

tərbiyəyə nail olmadan vətən övladlarında millət, vətənpərvərlik, insansevərlik duyğusu, ölkənin hər bir vətəndaşını, dindaşını sevmək hissi də yaratmaq mümkün deyil. Hər bir vətəndaş bir fərd olaraq başqa vətəndaşların hürriyyətini, xoşbəxtliyini, yaxşı yaşayışını, nəhayət, vətən övladlarının kütləvi azadlıq və istiqlaliyyətini o zaman dərk edəcək, istəyəcək ki, yüksək zehni tərbiyə, dünyagörüş qazanmış olsun. Ü.Hacıbəyov "Təəssüflər olsun" ("İrşad", 1907, 23 fevral) məqaləsində dediyimiz mətləbin dolğun və maraqlı şərhini verir. İzah edir ki, biz mərifət, mədəniyyət və əqli intellektə yetərincə malik olmadığımızdan həyat və məişət barədə düşüncələrimiz yarımçıqdır. Biz analaya bilmirik ki, hər bir fərdin rifah və səadətlə ömür sürüb yaşaması onun üzvü olduğu cəmiyyətin rifah və səadətinə bağlıdır. Ona görə də heç vaxt ümumi cəmiyyətin mənafeyini nəzərə almayıb, ancaq öz xüsusi mənfəətimizi güdürük. Elə güman edirik ki, birimizin səadət və xoşbəxtliyi digərimizin zillət və bədbəxtliyindən asılıdır. O səbəbə öz xüsusi mənfəətimizi axtaran zaman yoldaşlarımızın zərər və ziyanını özümüz üçün bir vasitə bilirik. "Ola bilsin ki, bu kimi vasitələrlə biz özümüzə bir şey qazanırıq". Özümüzü xoşbəxt və məsud görürük. "Lakin həqiqətdə biz öz-özümüzü böyük bir bədbəxtliyə sövq edirik. Çünki bizim səadətimiz ilə yoldaşımızın səadəti arasında böyük bir irtibat vardır. O irtibat qırıldıqda, heç birimizin səadəti baqi qala bilməz". (101, 70) Üzeyir bəy onu da əlavə edir ki, elə bir cəmiyyət ola bilməz ki, orada ümumi üzvlərin mənafeyi nəzərə alınmadığı halda, işin axırı hər bir üzvdən ötrü uğurlu olsun.

"Halımıza dair" ("Həqiqət", 1909, 29 dekabr) məqaləsində Üzeyir bəy Qafqaz müsəlmanları arasında son vaxtlar elmə, maarifə, təhsilə, bilik kəsb etməyə meyl və marağın artdığına sevincini ifadə edir. Bunu əqli tərbiyənin kütləviləşməsi yolunda uğurlu addım kimi dəyərləndirir. Göstərir ki, bir çox vətəndaşlarımız asta-asta qəflətdən ayılıb dərk etməyə başlamışlar ki, "indiyə qədər sürdüyümüz həyat deyildir, bəlkə, həyat içində bir məmatdır". (101, 141) Bu həqiqəti dərk edən

bəzi valideynlər övladlarına tərbiyə verirlər ki, onlar gələcək "həyati-bəşəriyyətə hazır olsunlar".

Q.R.Mirzəzadə ictimaiyyəti başa salmağa çalışırdı ki, islam dini heç də bəzi mürtəce, savaddan məhrum ruhanilərin dediyi kimi elmin, zehni tərbiyənin əleyhinə deyildir. Əksinə elmə, onu mənimsəməyə "elm imanın meyvəsi və islamın çırağıdır" – hədisinin məntiqi ilə yanaşır. (183, 23)

O zamankı məktəb və maarif hərəkatının öncüllərindən olan Q.R.Mirzəzadə onu da xatırladır ki, "insanı kamala yetirən ağıldır. Ağıl məəttəl qalarsa, insan günbəgün tənəzzül edər". (183, 34) Ağıl o zaman qüvvət kəsb edib mükəmməl olur ki, elm və mərifətlə birləşir. Elm, mərifət ağılın və ruhun qidasıdır. Necə ki, yemək vücudun qidasıdır. Vücud qidasız yaşaya bilmədiyi kimi ağıl və ruh da qidasız zəif düşər, sahibinə bir səmərə verməz.

Milli ideologiyamızın bayraqdarlarından M.Ə.Rəsulzadə yalnız əqli tərbiyənin əhəmiyyətindən danışmırdı. O, əqli tərbiyə üçün lazım gələn vasitələrin qayğısına qalmaqdan, onların intişarına rəvac verməkdən də söhbət açırdı. Göstərirdi ki, bu vasitələr olmadan vətəndaşların elmini, biliyini, həyata baxışını, dünyagörüşünü yüksəldib lazımi intellektual səviyyəyə yüksəltmək mümkün deyil. O, ziyalıları, millətin imkanlı şəxslərini əqli tərbiyədən məhrum "qara xəlqi"n "əql və idrakını" "ağ etmək", yüksəltmək yolunda səy göstərməyə, qeyrət etməyə çağırırdı. Bu münasibətlə "Açıq söz" qəzetində (1916, 23 mart) yazırdı: "Qara xəlqi" bəgənmək, lazım olduğu zaman onu meydana çəkib də bu, ya o surətlə idarə etməkdən ibarət degildir. Qara xəlqi sevənlər qoy onu işıqlandırsınlar. Qoy onu işıq və əməl nəşr edən gözəl teatro əsərlərini tamaşaya çəksinlər, asan dildə zəmanə və onun ehtiyacı həqqində oxutdurduqları leksiyalara aparsınlar, xəlq üçün açılan darülfünunlara götürsünlər, gecə kurslarına yol eləsinlər, onlar üçün qiraətxana açsınlar, kitabxanənin qapısını üzlərinə bağlamasınlar.

“Qara xəlq” ancaq bu vasitələrlə “ağ” ola bilər. Cəmaət ancaq bu yollarla hissli, duyğulu olur. Bu surətlə tərbiyə olunan xəlq arasından təbii olaraq xidmət etmək meylində olanlar tapılar”. (213, 353)

Müəllifin fikrincə ən mühüm əqli tərbiyə vasitələrindən biri məktəbdir. Lakin məktəbin normal tərbiyə vasitəsi olması üçün onun məzmunu normal, müasir tələblərə uyğun olmalıdır. Onun müəllimi, dərs proqramı, dərslikləri, tədris olunan fənləri, dərs üsul və metodları və s. zamanın tələblərinə müvafiq olmalı, gənc nəslin əqli-intellektual potensialını yüksəltməyə, müasirləşdirməyə xidmət etməlidir. 1916-cı ildə “Açıq söz” qəzetində (15, 16, 17, 21, 27, 31 mart, 4 aprel, 2, 6, 7, 10 iyun) silsilə şəklində çap olunan “Məktəb və mədrəsə” traktatında müəllif bu məsələnin geniş şərhini verir. Köhnə məktəbləri (mollaxanaları, məscid məktəblərini) kəskin şəkildə tənqid edən Məhəmməd Əmin bəy bu məktəblərin heç bir xüsusiyyəti ilə təlim və tərbiyəyə yaramadığını söyləyir. Qeyd edir ki, bu məktəblərdə tədris və tərbiyənin məzmunu elədir ki, o, təhsil alanların ruhunu, qəlbini, ağlını zərrə qədər də tərpədib onlara “həqiqi din və həqiqi milliyyət fikri” aşılamaqdan, hansısa gərəkli bilik verməkdən uzaqdır. (213, 428)

Bir məsələni də diqqətə çatdırmaq lazım gəlir. Milli intibah dövrü Azərbaycan maarifçilərinin əsərlərində biz “əqli tərbiyə” istilahı əvəzinə çox zaman “mərifət” termininin işləndiyini görürük. Başqa sözlə, “mərifət sahibi” dedikdə Azərbaycan maarifçiləri elmə, biliyə, mədəniyyətə yiyələnmiş mütərəqqi fikirli, ziyalı keyfiyyətlərinə malik şəxsləri nəzərdə tuturlar. Oxuyub mərifət sahibi olmaq məqsədəuyğun səviyyədə əqli tərbiyə kəsb etmək anlamına gəlir. Cəhalətlə mərifət üz-üzə qoyulur. “Cəhalət xəstəliyinin” müalicəsi “mərifət dərmanı”nda tapılır. S.M.Qənizadə “Gəlinlər həmayili” romanında müəllim-tərbiyəçi Şeyda bəyin dili ilə bu həqiqəti belə ifadə edir: “Dünyada hər bir mərəzə əlac varsa, cəhl mərəzi üçün hərgiz müalicə yoxdur. Hərçənd buyurmuşlar ki, cəhalət zəhərinin müslihi mərifət tiryəkidir, amma mənim rəyimlə cəhl

edən kişi istifraqçı bir mərizə bənzər ki, məzacı heç bir davanı qəbul etməz... Cəhl ruhun cünunluğudur ki, mərifət təvizi onu qaytaramaz". (147, 75) S.M.Qənizadə gənc nəsli "mərifət xəzinəsinə" yönəldib onu "mərifət neməti" ilə qidalandıran müəllimləri dünyanın ən bəxtəvər zümrəsi hesab edir. (147, 19) "Mərifət xəzinəsi" dedikdə müəllif əqli tərbiyəni nəzərdə tutur.

F.Köçərli "millətin ruhani tərəqqisinin" əqli tərbiyəyə bağlı olduğunu israr edir. Əsaslandırır ki, elmsizlik, avamlıq insanı cürətsiz, hünərsiz, xar və zəlil edir. İndi müsəlmanlar bu vəziyyətdədir. Avamlıq ucbatından onlar öz vətənlərində də özlərini yadlar kimi hiss edirlər. Məhz elm, bilik sayəsində əcnəbi millətlərin, xüsusilə də avropalıların cürət sahibi olub müsəlmanları, habelə geridə qalmış başqa millətləri əsarət, qorxu altında saxlayıb istismar etdiklərini kütləyə başa salmaq Firidun bəyin "Dünyada bəla nədən törəyir?" ("Tərəqqi", 1909, 26 mart) məqaləsinin əsas ictimai-pedaqoji qayəsini təşkil edir. (129, 215) "Həqiqi gözəllik və hərəkətsiz nisfimiz" ("Tərəqqi", 1909, 26 aprel, 29 iyul, 4 avqust) məqaləsində isə müəllif izah edir ki, insanın gözəlliyi onun surətinə, zahiri yaraşığına deyil elm, kamal, bilik və mərifətinə, yəni əqli tərbiyəsinin dərəcəsinə bağlıdır. F.Köçərli öz həmvətənlərini başa salmağa çalışır ki: "Və lakin insanın gözəlliyi, zahiri məlahət və hüsnü lətafətdən ibarət olmayıb, onda ağıl və fərasətin mövcud olmağı dəxi əvvəlinci şərtlərdəndir. Zahiri gözəlliyi və hüsn-camalı kamala yetirən ağılın nuru və mərifətin ziyasıdır. Ağılsız və mərifətsiz gözəl məqbul və müstəhsən deyildir. Bir surət zahirdə nə qədər düzgün, eybsiz və qüsursuz olsa da, onda ağlın nuru təcəlli etməsə, o surət dilpəsənd, könülalıcı və fərəhgətirici ola bilməz". (129, 219)

Mövzu obyekti kimi götürdüyümüz zaman kəsimində vətənpərvər Azərbaycan ziyalıları yalnız zehni tərbiyənin nəzəri məsələləri ilə bağlı mülahizələr yürütməklə, rəylər söyləməklə, təşviqat işi aparmaqla kifayətlənmirdilər. Onlar problemin praktiki cəhətləri ilə də məşğul olurdular. Yəni vətəndaşların əqli tərbiyəsini inkişaf etdirmək, yüksəltmək yolunda nə

mümkündürsə, onu da edirdilər. Onların bu cəhdi və əziyyəti mətbuatda, dərsliklərdə, mütaliə kitablarında və s.də aydın şəkildə görünür. Belə bir cəhd və əziyyət həm böyüklərin, həm də kiçiklərin əqli tərbiyəsinin yüksəldilməsi yolunda görülən işləri özündə ehtiva edir.

O zaman mətbuat səhifələrində kütlənin zehnini, intellektini inkişaf etdirməyə yönəlmiş külli miqdarda rəngarəng səpkili əsərlərə rast gəlirik. Qələm sahibləri bu işə xidmət edən, fayda gətirən xeyli mütaliə kitabları çap etdirirlər. Həmin kitabların bir qismi orijinal səciyyə daşıyıb müəlliflərin öz qələmlərinə məxsusdur. Digər qismi isə müxtəlif dillərdən ana dilimizə tərcümə edilmişdir. Bunların içərisində istər bədii, istər elmi, istər publisistik, istərsə də pedaqoji nümunələrə rast gəlmək mümkündür.

Bu dövrdə xeyli məktəb dərslikləri, böyüməkdə olan nəslin mütaliəsindən ötrü qiraət kitabları, həmçinin uşaq mətbuatı da meydana gəlmişdir. Həmin tərbiyə vasitələrinin intişarında da demokratik ruhlu millət xadimlərimiz əqli tərbiyə faktorunu nəzərə almış, onun inkişafı qayğısına qalmışlar. Mütərəqqi, müasir məzmunlu dərsliklərin əksəriyyətində müəlliflər hökmən bu və ya digər dərəcədə zehni tərbiyənin şagirdlərə necə, hansı səviyyədə ötürülməsi detallarına xüsusi fikir vermişlər. Bunu o zaman məktəb dərslikləri barədə yazılmış mətbu rəylərdən də aydın şəkildə görmək mümkündür. Məsələn, F.Köçərli 1910-cu ildə "Zaqafqazye" (2 aprel) qəzetində çap olunan "Vətən dili" dərsliyi haqqında "Cənab Şirvanskinin rəyi münasibətilə" sərlövhəli rəyində deyilən cəhəti mümkün qədər nəzərə aldığını bəyan edir. Yaxud M.Mahmudbəyov və A.Səhhətin müəllifi olduqları "Yeni məktəb" (1909) dərsliyinin o zaman pedaqoji ictimaiyyət tərəfindən müsbət qarşılanmasının bir səbəbi də burada şagirdlərin əqli tərbiyəsinin diqqət mərkəzində saxlanılması idi. Ü.Hacıbəyov 1909-cu ildə "Tərəqqi" qəzetində (11 sentyabr) işıq üzü görən mətbu məqaləsində dərsliyin məzmununu təhlil edərək ona müsbət rəy vermişdi. Üzeyir bəy dərsliyin tərtibi

zamanı əqli tərbiyə faktorunun kifayət qədər nəzərə alındığını nəzərə çatdıraraq yazırdı: "Kitabın uşaqlarda gözəl hissiyyat tərbiyə edən bir hissəsi bu dördüncü qism ilə qurtarıb, sair yerdə qalan qismlər isə uşaqların məlumat və biliyini artırmaqla ağlın nəşvü nümasına kömək edir. O qismlər bunlardır: insan, heyvanat, nəbatat, su-dəniz; bu qismlər tarixi-təbii elminə dair olub, ara-sıra hifzü-sihhədən də nafe məqalələr vardır. Bundan sonra coğrafiyadan ümumi məlumat verilib, əzcümlə ölkəmiz olan Qafqazdan və Bakı quberniyasından müfəssəl məlumat vardır. Lap axırda xüsusi bir qism olmaq üzrə Lermontovun məşhur "Mtsıri"sindən Səhhət cənablarının bir böyük parça tərcüməsi mövcuddur". (101, 244)

Göründüyü kimi, Üzeyir bəy dərsliyin məzmununun zəngin, uşaqların zehni tərbiyə imkanlarına müvafiq və yararlı olduğuna görə onu bəyənir və təqdir edir.

Dərslik müəllifləri dərslikləri yazarkən və tərtib edərkən oradakı həm bədii, həm də elmi və pedaqoji materialların uşaqların əqli potensialına uyğunluğu, ona nə verə biləcəyi üzərində ciddi şəkildə düşünür, bu vacib məsələyə son dərəcə həssas yanaşırdılar. Hansı yaşda uşaqlara hansı tipdə dərslik lazımdır? Bu dərslik hansı həcmdə, hansı səpkidə materiallarla təmin olunmalıdır ki, şagirdlərin zehni tərbiyəsinə müsbət təsir göstərsin. Pedaqoqlarımızın bu məsələyə necə ayıq münasibət göstərdiklərini təsəvvür etməkdən ötrü Rəşid Əfəndizadənin "Bəsirətül-ətfal" (II çapı, Bakı, 1907) dərsliyinin mündəricatına və məzmununa nəzər salmaq kifayətdir. İbtidai məktəb şagirdləri üçün ana dili dərsliyi kimi qələmə alınmış bu təlim kitabında məzmun və mündəricə mümkün qədər zəngin və əhatəlidir.

Dərsliyin bir hissəsini maraqlı elmi məlumatlar təşkil edir. Məlumatlar yığcam və dolğundur. Verilən bilik və məlumatların nədən ibarət olduğunu təsəvvür etmək üçün sərlövhələrdən bəzilərinə nəzər salaq: "Ev quşları", "Ev heyvanları", "Məktəb", "Bal arısı", "Dağlar və sular", "Dəmir", "Çəltik", "Çay ağacı", "Üfüq və cəhətlər", "Gün, ay və ulduzlar", "Hava", "Havanın

yuxarı qatlarında olan soyuq", "Yer nə cürə gəzir", "Buxar, sel, çən, duman", "Kağız", "Kitab basılması", "Şişə", "Yerin şəkli", "Yeni dünyanın tapılması", "Yanar dağlar" və s.

Kitabın II fəslində ədəbiyyat və bəzi ədəbi şəxsiyyətlər barədə sadə, lokanik elmi məlumatla üzləşirik. Buradakı sərlövhələrdən bəzilərini xatırladırıq: "Füzuli", "Zərbül-məsəl", "Azərbaycan ədəbiyyatı", "Yazının üsulu", "Üslub", "Qiraət", "İmlasızlıq", "Məktub", "Təbriknamə" və s. Sonra bu fəsildə şeirin xüsusiyyətləri, vəzn, və şeir janrları barədə danışılır. Bundan əlavə dərslikdə xeyli bədii nəsr və nəzm nümunələri də öz əksini tapır. Bu nümunələr şagirdlərin həm əqli, həm mənəvi-əxlaqi, həm də estetik tərbiyəsi baxımından dəyərlidir.

O zamankı ictimai-pedaqoji mühitdə gənc nəslin zehni tərbiyəsində "Dəbistan", "Rəhbər" və "Məktəb" kimi uşaq jurnallarımızın da müəyyən rolu vardır. Naşirlər öz məcmuələrini maraqlı, oxunaqlı və yararlı etməkdən ötrü var qüvvələri ilə çalışır, orada rəngarəng materiallara – bədii əsərlərə, elmi, pedaqoji, publisist və s. səpkili yazılara, tərcümələrə, tapşırıqlara və s. yer verirdilər. Tərbiyə sahəsində jurnalların əhəmiyyətini, naşirlərin bacarıq və cəfakeşliyini təsəvvür etməkdən ötrü "Məktəb" jurnalının səhifələrində qarşılaşdığımız rubrikaların adları ilə tanış olmaq kifayətdir. Məsələn, məcmuədə sıx-sıx fəaliyyət göstərən bu kimi rubrikalar mövcud idi. "Tarixi-təbii"dən, "Hifz-ül-səhhə", "Mütəfərriqə", "Məsələlər", "Məsələlərin həlli", "Yazı dərsi", "Lüğəte-məktəb", "Tərcümeyi-əhval" və s.

Doğrudan da, bu rubrikalarda çap olunan material, tapşırıq, göstəriş və məlumatların xarakteri, məzmunu elə idi ki, onlar uşaqların zehni tərbiyəsi, bilik və bacarığının artırılması üçün nəzərdə tutulurdu. Materiallar yığcam və sadə dilə, maraqlı məzmuna malik olurdu. Rubrikalardan "Tarixi-təbii"də təbiət və onun hadisələri, prosesləri, müxtəlif heyvanlar, "Mütəfərriqə"də müxtəlif elmi məsələlər, kəşf, ixtira və diqqətəlayiq elmi yeniliklər və s. barədə məlumat verilirdi. "Lüğəte-məktəb"də şagirdlərin mənasını anlamadığı bir sıra söz və istilahların

mənası izah edilirdi. Bu rubrika məcmuənin bütün nömrələrində ardıcıl şəkildə öz əksini tapmışdır. “Tərcümeyi-əhval” rubrikasında bir sıra cahanşümül tarixi şəxsiyyətlərin həyatı, fəaliyyəti, yaradıcılığı haqqında bilgi yer alırdı. Bu şəxsiyyətlər sırasında həm Şərq, həm də Qərb mütəfəkkirlərinə rast gəlmək olar. Onların içərisində şairlər, yazıçılar, filosoflar, alimlər, sərkərdələr, hökmdarlar və s. vardır.

“Yazı dərsi” və “Məsələlər” rubrikalarında verilən mövzular və məsələlər uşaqların zehni qabiliyyətini, intellektini inkişaf etdirmək baxımından xüsusi maraq kəsb edir. “Yazı dərsi”ndə oxuculara müəyyən mövzuda (Məsələn: “Bahar”, “Vətən”, “Mən dostumu sevirəm”, “Müəllimə hörmət edin” və s.) yığcam həcmli inşa yazmaq və onu redaksiyaya göndərmək tapşırılırdı. Şagirdlərin göndərdikləri inşalar içərisində ən yaxşıları jurnalda dərc edilirdi. Belə bir iş, təbii ki, şagirdləri həvəsləndirir, ona görə də onlar müsabiqə şəklində təşkil olunmuş bu rubrikada fəal şəkildə iştirak edirdilər. “Məsələlər” rubrikasında da vəziyyət həmin cür idi. Məcmuədə hər dəfə təxminən 2-4 məsələ verilir, şagirdlərin onları həll edib redaksiyaya göndərməsi xahiş edilirdi. Məsələlərin hamısını düzgün həll edib redaksiyaya göndərən şagirdlərin hamısının oxuduqları məktəb, həmçinin şagirdlərin adları, soyadları jurnalda verilirdi. Bundan əlavə həmin şagirdlərin içərisindən bir-iki nəfərinə püşkatma yolu ilə mükafat (maraqlı kitablar, yaxud jurnalın müəyyən nömrələri pulsuz və s.) da təqdim edilirdi. Bu, şagirdlərin həm məsələlərin həllinə, həm də jurnala olan marağını artırırdı.

XIX-XX əsrlərin qovşağında Azərbaycan tərbiyə nəzəriyyəçilərinin əqli tərbiyə uğrunda apardıqları nəzəri iş və əməli mübarizə uğurla nəticələndi. Bunun nəticəsində çox keçmədən mütərəqqi fikir və düşüncəli, elmli, zəkalı, vətənpərvər, millətsevər, qeyrətli bir ziyalı dəstəsi yetişdi.

## 3.3. Azərbaycan maarifçilərinin əsərlərində mənəvi-əxlaqi tərbiyə məsələləri

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində yaşayıb fəaliyyət göstərmiş Azərbaycan maarifpərvərlərini düşündürən, məşğul edən mühüm məsələlərdən biri də mənsub olduqları vətənin vətəndaşlarını mənəvi-əxlaqi cəhətdən kamil, yetkin, zəngin və saf görmək idi. Onlar ayıq, müasir baxışlı, həssas bir ziyalı fəhmi ilə dərk edirdilər ki, hər bir cəmiyyətdə olduğu kimi bizdə də ölkə vətəndaşlarının universal, geniş, hərtərəfli, ahəngdar tərbiyəsinin mühüm faktorlarından biri də mənəvi-əxlaqi tərbiyədir. Bu faktora yetərincə nail olmadan, son məqsəd və hədəf kimi götürülən böyük milli ideala yetişmək mümkün deyil. Yəni ancaq məktəb, maarif, elm, mədəniyyət amillərini diqqət mərkəzində saxlayıb yalnız bu amillərin qayğısına qalmaq nəticədə yarımçılığa gətirib çıxarar. Bununla millət övladlarını bütöv, kamil və hərtərəfli müsbət amal və ideala malik şəxsiyyət kimi yetişdirmək olmaz. Mənəvi-əxlaqi tərbiyəyə dürüst şəkildə yiyələnməyən ölkə vətəndaşları yalnız naqis tərbiyə və dünyagörüşə malik şəxsiyyətlər kimi yetişə bilərlər. Bununla da nə fərdlərin, nə də bütövlükdə cəmiyyətin tərəqqi və səadətinə, milli hürriyyət və istiqlala nail olmaq olar.

Həqiqətən də, tərbiyənin başqa amilləri, məsələn, əqli, fiziki, vətənpərvərlik, humanizm, beynəlmiləlçilik və s. tərbiyə faktorları da ciddi şəkildə mənəvi-əxlaqi tərbiyəyə bağlıdır. Belə ki, mənəvi-əxlaqi cəhətdən yetkin olmayan insan heç vaxt göstərilən tərbiyə faktorları baxımından kamil ola bilməz. İstər düşüncə, həyata baxış, istərsə də əməl nöqteyi-nəzərindən onda müəyyən naqis xarakterin təzahürü adi haldır.

Görkəmli pedaqoq İ.H.Pestalotsi əxlaq, zehni və fiziki tərbiyənin əlaqə və vəhdəti üzərində geniş dayanır və belə bir qənaətə gəlir: "İnsan bütün öz təzahürlərinə görə özünə oxşardır. Əxlaqi cəhətdən o, zehni və fiziki cəhətin eynidir. O, əxlaqi cəhətdən şikəst olduqda, tərbiyə cəhətdən də, fiziki və intellektual cəhətdən də şikəst olur, çünki onu düzgün olmayan

tərbiyə ilə şikəst edib, don kixot, şarlatan, yırtıcı və uzunqulaq etmişlər. Əxlaqi cəhətdən şarlatan olan adam (Herzenscharletan) intellektual cəhətdən şarlatan kimi (Verstandscharletan) öz hədsiz bilikləri sayəsində elm məşəli kimi görünə bilər və eyni zamanda ailə adamlarına və onu əhatə edən başqa adamlara qarşı ən rəhimsiz adam ola bilər. Qəlbin hökmünə belə etinasız şarlatan və şarlatancasına birtərəfli əqli inkişaf, adətən, bir-biri ilə sıx əlaqədardır”. (199, 86)

Təbii ki, klassik tərbiyə nəzəriyyəçiləri kimi XIX-XX yüzilliklərin hüdudlarında yaşamış Azərbaycan mütəfəkkirləri də insanın mənəvi-əxlaqi tərbiyəsinə uşaq yaşlarından başlamağı zəruri sayırdılar. Belə bir tərbiyə sistemi klassik pedaqogikanın çoxdan sübut etdiyi həqiqətdir ki, bünövrəsi insanın lap körpəliyində qoyulmayan tərbiyə amilləri sonradan istənilən effekti vermir, naqisliklərlə müşayiət olunur. Həyata göz açan uşaq ətraf aləmlə davranışında naşı, səriştəsizdir. Biliksizlik, məlumatsızlıq ucbatından necə davranacağını, necə hərəkət edəcəyini bilmir. Deməli, əsas şərt uşağa düzgün yol göstərməkdir, onu dürüst istiqamətə yönəltməkdir. Orta əsrlərin böyük alimi, mütəfəkkiri və tərbiyə nəzəriyyəçisi N.Tusi özünün məşhur “Əxlaqi-Nasiri” əsərində yazırdı: “Uşağı mehribanlıq və məhəbbət doğuran kəramətlərlə tərbiyə etmək lazımdır, xüsusilə ağıla, şüura, idraka təsir edən başa salmaq yolu ilə; pul vermək, şirnikdirmək, əsil-nəsilə aid olan şeylərlə yox...

Uşaqlarda pis adətlərə, bəd əməllərə nifrət yaratmaq lazımdır. Uşaq inkişafın ilk anlarında çoxlu səhvlərə yol verər, qəbahətli işlər görər, çox zaman yalançı, paxıl, oğru, xəbərçi, tərs və inadkar olar, füzulluq eləyər, dediyindən əl çəkməz, başqalarını da zərərli və xoşagəlməz iş tutmağa vadar edər, sonra isə tənbeh və tərbiyə yaşı keçər. Deməli, uşağı körpəlikdən tərbiyə etmək lazımdır. Sonra dərs öyrətməyə, təlimə başlarlar, hikmətli kəlamlar, tərbiyəvi şeirlər əzbərlədərlər ki, öyrətmək istədikləri şeylər yadında qalsın, mənasını unutmasın”. (258, 157)

Göründüyü kimi, əxlaqşünas alim burada həm tərbiyənin nə vaxtdan başlanması, həm zərurəti, həm də istiqaməti, xarakteri, üsulu barədə maraqlı, dürüst məsləhətlər verir.

Bəşər tarixində əksər sivil xalqlarda mənəvi-əxlaqi tərbiyə məsələsi daim diqqət mərkəzində olmuşdur. Bəşəriyyətin tanınmış filosofları, pedaqoqları, əxlaqşünasları, şairləri, yazıçıları, böyük mütəfəkkirləri və s. də cəmiyyət problemlərinə münasibətdə insanın mənəvi aləminin, əxlaqi keyfiyyətlərinin nurlu, gözəl, zəngin və dürüst olmasına xüsusi əhəmiyyət vermişlər. Kürəvi, bəşəri miqyaslı bu mövzuda yüzlərlə əsərlər ərsəyə gəlmişdir. Fikir bahadırları insanın əxlaq və mənəviyyatını müsbət istiqamətə yönəltmək məqsədilə tərbiyə və təbliğatın rəngarəng üsul və vasitələrindən istifadə etmişlər. Həm tərifdən, həm də tənqiddən, həm nəzəri məsləhət və göstərişlərdən, həm də praktiki fəaliyyətdən yararlanmağa təşəbbüs göstərmişlər.

Göstərilən məziyyəti biz Azərbaycan xalqının da ədəbi, mədəni, fəlsəfi, pedaqoji fikir tarixində aydın surətdə izləyə bilirik. Bizim zəngin, maraqlı, məzmunlu folklor nümunələrimizdən tutmuş klassik yazılı ədəbiyyat xadimlərimizin əsərlərinədək bütün ədəbiyyat xəzinəmiz ilk növbədə dinləyicinin və oxucunun mənəvi-əxlaqi cəhətdən tərbiyəsinə xidmət edir. Bunun arxasınca tərbiyənin başqa kateqoriyaları gəlir. Biz Nizaminin, Xaqaninin, N.Tusinin, Marağalı Əvhədinin, Nəsiminin, Füzulinin, Xətainin, Saib Təbrizinin, A.Bakıxanovun və s. sənətkarlarımızın yaradıcılığında daim mənəvi-əxlaqi fikirlərin ön plana keçdiyini görürük. N.Gəncəvinin “Sirlər xəzinəsi”, M.Əvhədinin “Cami-cəm”i, N.Tusinin “Əxlaqi-Nasiri” əsəri, Ş.İ.Xətainin “Nəsihətnamə”si, A.Bakıxanovun “Kitabi-nəsihət”i və s. onlarla söz sənəti nümunələrimiz dəyərli əxlaq dərsliyi rolunu oynaya bilər. Xalqımızın tarixi inkişafında milli intibah dövrünün başlanğıcı kimi diqqəti cəlb edən XIX əsrin ortalarında bu ənənə yeni məzmunda, yeni fikir və təfəkkürün işığında inkişaf etməyə başlayır. XIX-XX əsrlərin qovşağında Azərbaycanın qabaqcıl

fikir adamları, qələm sahibləri XIX yüzilliyin ortalarından start götürmüş həmin yeniliyi daha da inkişaf etdirib müasir zamanın, çağdaş dünyanın tələblərinə uyğunlaşdırırlar. Bununla yanaşı onlar bu sahədə, yəni mənəvi-əxlaqi tərbiyə ilə əlaqədar nəzəri, pedaqoji fikrin yüksəlişinə də kifayət qədər töhfə vermiş olurlar. Zikr etdiyimiz ənənənin bünövrə daşını ilk maarifçilər – A.Bakıxanov, M.Ş.Vazeh və İ.Qutqaşınlı qoyur. M.F.Axundov isə onu şahrah bir məcraya yönəldir.

M.F.Axundovun tərbiyə nəzəriyyəsində diqqəti cəlb edən əsas məsələlərdən biri din, elm və tərbiyə probleminin müasir baxış prizmasından şərhidir. Din və tərbiyənin qarşılıqlı münasibəti məsələsinə toxunan Mirzə Fətəli "Kəmalüddövlə məktubları" adlı məşhur fəlsəfi traktatında söyləyir ki, dinin insanlar tərəfindən yaradılması müəyyən səbəb və məqsədlərlə bağlı olmuşdur. Bu məqsədlər içərisində ən əsası əxlaqdır. Yəni bəşər övladının üzvü olduğu ictimai toplumun əxlaqını nizama salmaq və ona məqsədəuyğun istiqamət vermək. Yəni insan öz xəyalında ideal, xəyali, bütün nöqsanlardan xali pak və müqəddəs bir varlıq yaradır. Bu, ilahi varlıq, daha dəqiqi, Allahdır. Belə bir varlığı xəyalən yaradıb bir etalona çevirdikdən sonra insan özü də kamal və əxlaqca ona bənzəmək istəyir və buna can atır. Başqa sözlə, öz əxlaq və mənəvi aləmini kamilləşdirmək niyyəti izləyir. M.F.Axundov əsərdə onun ideya və mətləblərinin ruporu olan Kəmalüddövlənin dili ilə deyir: "Bunu bilməlisən ki, hər din üç müxtəlif əməldən ibarətdir: etiqad, ibadət və əxlaq. Hər dinin icad olunmasından əsl məqsəd üçüncü əməldir. Etiqad ilə ibadət bu əsl məqsədə görə təfərrüatdır. İnsanın gözəl əxlaq sahibi olması üçün lazım görürük ki, xəyalən gözəl əxlaq sahibi, əzəmət, cəlal sahibi, qüdrət və rəhmət sahibi, təzim və sitayiş icad etdirən bir varlıq fərz edək və öz əxlaqımızı onun əxlaqına oxşadaq, bu növ varlığı biz pərvərdigari-aləm və kainatı yaradan deyə adlandırırıq. Bu cür varlığı fərz etdikdən və təzim və sitayişə layiq saydıqdan sonra ona təzim və sitayiş üsullarını icra etməyi lazım bilirik: namaz, oruc, həcc, zəkat və bu kimilər". (19,

160-161) Deməli, din əxlaqın təmizlənməsinə, kamilləşməsinə xidmət etməlidir. Bir etiqad və ibadət vasitəsi kimi onun ən mühüm vəzifəsi budur. Bəs islam şərqində din (islam) bu şərəfli vəzifəni yerinə yetirə bildimi? Uzun əsrlərin təcrübəsi, məntiqi və nəticəsi buna gətirib çıxardımı?

M.F.Axundov bir tərbiyəçi ideoloq kimi bu suala mənfi cavab verir. Yəni islamın yüz illər boyunca bu məqsədə nail bilmədiyini, əksinə müsəlman cəmiyyətində əxlaq və mənəviyyatın tədricən fənalaşdığını, cəhalət və pozğunluğa uğradığını söyləyir. Bəs buna səbəb nədir? İstər "Kəmalüddövlə məktubları"nda, istərsə də ayrı-ayrı şəxslərlə yazışmalarında maarifçi sənətkar həmin suala aydın surətdə cavab verir. Məsələn, İran şahının Maarif Nazirliyinə göndərdiyi geniş həcmli bir məktubunda o, deyilən problemi kifayət qədər müfəssəl şəkildə şərh edir və göstərir ki, islam regionunda geriliyin, cəhalətin səbəbi islam ruhaniləri olduğu kimi bu coğrafiyada dinin insanların mənəviyyatına, əxlaqına heç bir rövnəq, ziynət, gözəllik verməməsinin səbəbini də din xadimlərində, onların quru moizə və nəsihətlərində, pis, ləyaqətsiz əməllərində axtarmaq lazımdır.

Mirzə Fətəli həmin məktubunda nəzərə çatdırır ki, biz hər yerdə – minbərlərdə, məscidlərdə, camelərdə, məclislərdə kütləni ruhanilər vasitəsi ilə "xeyir əməllərə və yaxşı əxlaq sahibi olmağa çağırırıq". Lakin kütlə cahildir, onu cahil hala salan din xadimləridir. Bu cahil kütləyə vəz olunan mövhumatla, fanatizmlə dolu boş, sxolastik, mənasız, uydurma nəsihətlər, moizələr insanların əxlaqına faydadan çox ziyan vurmuşdur. Nəticədə kütlə cahil qalmışdır. Cahillər içərisində oğruların, qatillərin, quldurların, ədəbsizlərin, nadanların, mənəvi-gözəllikdən məhrum adamların daha çox çıxması təbiidir. Maarifçi mütəfəkkir özünəməxsus qənaətlə mənəvi-əxlaqi tərbiyənin əsas vasitəsini dində deyil, elmdə görür və yazır: "Pis və çirkin əməlləri tərk etmək üçün yeganə təsirli vasitə elmdir. Bütün dünyada alimlər, ariflər və mütəfəkkirlər içərisindən bir nəfər də olsun oğru, quldur və ya

qatil çıxdığını görən və ya eşidən adam tapılarmı? Əlbəttə, xeyr!” (19, 284) M.F.Axundovun fikrincə elmli, maarif və mədəniyyət sahibi olan insanın “ağıl güzgüsü seyqəllənir”, pis işlərə qoşulmaqdan uzaqlaşır, mənəviyyatlı və əxlaqlı olur.

M.F.Axundov bədii əsərlərə, xüsusilə də tənqidi ruhda yazılmış söz sənəti nümunələrinə “əxlaqı yaxşılaşdıran” gərəkli tərbiyə vasitəsi kimi yanaşır. O, komediyalarını da bu məqsədlə qələmə almışdır. Müəllif 1870-ci ildə Fətəli şah Qacarın oğlu Cəlaləddin Mirzəyə “Təmsilat”ın (M.F.Axundov “Təmsilat” deyəndə öz komediyalarını nəzərdə tuturdu) fars dilinə tərcüməsinə yardımçı olmağı xahiş edir və bildirirdi ki, “bu cür əsərlərin məqsədi əxlaqı yaxşılaşdırmaqdır”. Sənətkar onu da əlavə edirdi ki, Avropa mütəfəkkirləri, filosofları dərk etmişlər ki, insanların təbiətindən, xarakterindən eybləri, pis əməlləri yalnız “məsxərə və istehza vasitəsilə rəf etmək olar”. Buna görə də onlar “onların istilahınca dram fənni adlanan bu cür əsərlər yazmağa başladılar və bundan sonra teatr adı ilə məclislər və cəmiyyətlər təsis etdilər ki, eyb və pis əməl sahiblərinin surətini xalqın qarşısında göstərib, yaramaz adamların çirkin işlərini mücəssəm etsinlər ki, camaat onlardan ibrət alıb, pis və çirkin əməllərdən uzaqlaşsın”. (19, 149)

M.F.Axundovun yaxın dostu, həmməsləki H.Zərdabi də müsəlmanlar arasında cəhalətdən doğan əxlaqi naqislikləri, yaramaz əməlləri qabardır. Bunların insanlıqla, müsbət mənəvi keyfiyyətlərlə bir araya sığmadığını nəzərə çatdırır. Belə mətləbləri o daha çox XIX əsrin 80-ci illərində “Kaspi” qəzetində işıq üzü görən məqalələri vasitəsi ilə oxuculara çatdırır. Həmin məqalələrdə, əsasən, müsəlman ictimai mühitində o zaman geniş yayılmış vəhşi əməllər – oğurluq, quldurluq, qız qaçırmaq, qan ədavəti üstündə iki nəslin bir-birini qırması, fitnəkar din xadimlərinin fitvası ilə müəyyən cinayət əməlləri işlətmək, şeyxlərə, vəzifəli şəxslərə kor-koranə itaətkarlıq və s. məsələlər göz önünə gətirilir. Deyilən səpkidə “Kaspi”də çap olunmuş mətbu yazılardan bunları göstərmək olar: “Şeyxin gəlişi” (1883, 23 dekabr), “Bir daha şeyx

haqqında" (1885, 11 yanvar), "Zərdab. Göyçay qəzası" (1883, 9 oktyabr), "Zərdabdan" (1886, 28 noyabr) və s.

"Zərdab. Göyçay qəzası" məqaləsində Həsən bəy Şuşa qəzasında iki nəslin silahlı toqquşma ilə bir-birini qırmasından, hökumətin bu işə müdaxiləsinin səmərə verməməsindən söhbət açır. Şahsevən və Muradlı tayfaları arasında baş verən münaqişədə ən azı 5-6 adam qətlə yetirilir. (323, 52-53)

"Zərdabdan" sərlövhəli məqalədə Zərdab nayihəsində Şükür bəyin qızının başqa bir varlı adamın oğlu tərəfindən qaçırılmasından, iki tərəf arasında baş verən ixtilaflardan, qızın taleyindən və s.-dən danışılır.(323, 133-134) Müəllifin "Novoye obozreniye" (1888, №1703) qəzetində dərc olunan "Zərdab. 12 noyabr" sərlövhəli məqaləsində mal oğrularından, onların cinayətlərindən söz açılır. (323, 149-151) Maraqlı burasıdır ki, Həsən bəy barəsində danışdığı hadisələri cinayət əməli kimi xarakterizə etməklə yanaşı bu hadisələrin baş vermə səbəblərini, nəticələrini, bu əməlləri törədənlərin xarakterini, mənəvi-əxlaqi səciyyəsini də oxuculara təqdim edir. İzah edir ki, cahil və tərbiyəsiz bir mühitdə böyüdüklərindən bu adamlar cahil, mənəvi cəhətdən kasıb, əxlaqi cəhətdən qüsurlu böyüyüb yetirmişlər. Sosial tərbiyə mühiti onları mənəvi və əxlaqi baxımdan saf, kamil, yetkin böyütməyə yaramır. Mövcud müsəlman ictimai gerçəkliyi vətəndaşları mənəvi cəhətdən bu cür şikəst edib cinayətkara çevirir. İnsanların başqa bir qrupu isə mənəvi cəhətdən, dünyagörüşü etibarı ilə nadan, cahil və avam olduğundan Şeyx Əlibaba kimi fırıldaqçılara itaət etməyi, ona bir müqəddəs varlıq kimi yanaşıb qulluq etməyi özlərinə şərəf sayırlar. "Şeyxin gəlişi", "Bir daha şeyx haqqında" məqalələrində müəllif bu məsələlərdən bəhs edir. (323, 60-61, 85-86)

Ümumiyyətlə, bir milli tərbiyəçi kimi məsələni belə qoyur: vətən övladını mənəvi-əxlaqi cəhətdən kamil tərbiyə etməkdən ötrü cəmiyyətdə saf tərbiyə mühiti olmalıdır. Müsəlman aləmində nə ailə, nə də sosial mühit vətəndaşı normal tərbiyə etməyə imkan vermir. Deməli, bu mühitin özü

dəyişməlidir. Əks təqdirdə kamil əxlaq və mənəviyyata malik vətəndaşlar yetişdirmək mümkün deyil.

Mənəvi-əxlaqi tərbiyə məsələləri S.Ə.Şirvaninin yaradıcılığında aparıcı xətlərdən birini təşkil edir. Xüsusilə onun “Rəbiül-ətfal” və “Tacül-kütüb” adlı dərsliklərində bu səpkili ideya və təlqinlərin parlaq ifadəsini görürük. Əlbəttə, bu, səbəbsiz deyil. Həmin dərsliklər məktəb şagirdləri üçün nəzərdə tutulmuşdu. Seyid Əzim də böyüməkdə olan vətən övladlarını mənəvi-əxlaqi cəhətdən yetkin və kamil görmək istəyirdi. O, bir müəllim-tərbiyəçi kimi öz niyyət, məsləhət və ideyalarını gənc nəslə ötürmək, onları saf mənəviyyatlı insanlar kimi görmək istəyirdi.

Bir tərbiyə nəzəriyyəçisi kimi S.Ə.Şirvani dərsliklərində əlverişli bir yol tutur. O, həm uşaqlara mənəvi-əxlaqi tərbiyə ilə bağlı dəyərli nəsihətlər verir, həm də nəzəri şəkildə dediyi fikirləri yaddaqalan, təsirli etməkdən ötrü maraqlı, məzmunlu hekayələr təqdim edir. Hekayələrin bir qismi nəzmlə, bir qismi nəsrlədir. Öyüd-nəsihət məzmunlu şeirlərin çoxunu şair oğlu Mircəfərə xitab şəklində verir. Əlbəttə, oğluna ünvanlanan bu didaktik fikirlər, tərbiyəvi ideyalar, gərəkli nəsihətlər kütləvi oxucu üçün nəzərdə tutulmuşdur. Mənəvi-əxlaqi göstəriş və tövsiyələrlə bağlı ideyalar rəngarəng, çoxçalarlı, çoxşaxəlidir. Bunlar çoxlu sayda insani keyfiyyətləri, əxlaqi cəhətləri özündə ehtiva edir. Müəllifin fikrincə hər kəsin yaşadığı mühitin onun tərbiyəsində mühüm rolu vardır:

Kim ki, bir yerdə etsə, nəşvü nüma,
Tərbiyət eylər ani abü həva. (248, 36)

Şair belə hesab edir ki, insan nə qədər “naqabil” olsa da, onu tərbiyə yolu ilə düzəltmək, müsbət səmtə döndərmək mümkündür:

Bavücudi ki, yoxdu bunda sözüm,
Leyk bu əmrə qailəm özüm –

Ki, nə qədər olsa şəxs naqabil
Tərbiyətlə yenə olur kamil. (248, 37)

Seyid Əzim uşaqlara bu cür gərəkli mənəvi-əxlaqi ideyalar aşılamağa çalışır: tərifəlayiq əxlaq qazan; zövq əhli, xoşdilli, gülər üzlü, şirin danışıqlı ol; başqalarına fayda verməyə çalış; qonağa qarşı ehtiram göstər; əliaçıq və səxavətli davran; pis insanlarla ülfət etmə; qovğalı işlərə baş qoşma; böyüklərə hörmət göstər; cəhd elə ki, adın yaxşılığa çıxsın; valideynlərinin, ustadların yolunu gözlə; hiylə və riyadan uzaq ol; böhtan atma, yalan danışma; yaxşıya yaxşı, yamana yaman ol; qəlbində qorxu, kin-küdurət, nifrət gəzdirmə; naməhrəmə göz dikmə; qeybət etmə; var-dövlətlə fəxr etmə, çünki Allah-taala onu sənə verdiyi kimi əlindən ala da bilər; bədbin olub dünyadan əl üzmə, çünki xaliq bu dünyanı insan üçün yaradıb; pis adamlarla yoldaşlıq etmə; şər əməllərdən uzaqlaş, yaxşılıq etməyə çalış; fəsad və nifaq törətmə, dostluq və sülh yaratmağa çalış; namuslu, ismətli, həyalı ol; ədəblə davran; sənə yaxın olanlarla ittifaq, ittihad et ki, güc birlikdədir; yaxşı adamlarla dostluq, yoldaşlıq et və s.

Sayını daha da artırmaq mümkün olan bu cür müsbət insani keyfiyyətləri nəzəri şəkildə söylədikdən sonra Seyid Əzim öz fikirlərini əyaniləşdirmək, sübutlu, inandırıcı etməkdən ötrü onlarla bağlı maraqlı həyati əhvalatlar, hekayələr də verir. Bununla da nəzəri mülahizələrini daha da möhkəmləndirir.

"Ziya" qəzeti də öz səhifələrində mənəvi-əxlaqi tərbiyə probleminə bu və ya digər dərəcədə yer verirdi. Qəzet daha çox H.Zərdabinin "Kaspi" qəzetində qaldırdığı məsələlər səpkisində olan sosial bəlalara toxunurdu: oğurluq, quldurluq, qaçaqçılıq, qarət və s. Qəzetin naşiri S.Ünsizadə bir məqaləsində (28 mart, 1880) Naxçıvan qəzasının Şərur mahalına getdiyindən, orada kütləvi hala çevrilmiş soyğunçuluq, qarət və ölüm hallarından ürək yanğısı ilə danışır. Qeyd edir ki, bu vəhşi hərəkətlər o qədər kütləviləşmişdir ki, yarım ayda bu səbəbdən on dörd adam öldürülmüşdür. İş o yerə gəlib çatmışdır ki, camaat axşam

olanda evlərinin qapısını bağlayıb qorxudan bayıra çıxmır. Müəllif bunun səbəbini maarifsizlikdə, mənəvi aşınmada görür. Məktəb və maarifsizlikdən cəmiyyətin vəhşi bir əxlaqa, əmələ büründüyünü təəssüf hissi ilə xatırladır. (292, 194-195) Qəzetin başqa bir nömrəsində (1879, 17 aprel) eyni əməlin Şamaxı, Zərdab, Salyan və s. yerlərdə təkrar olunmasından söhbət açılır. (292, 227-228) "Ziya"nın 26 iyun 1880-ci il sayında isə qaçaqların törətdiyi vəhşiliklərdən, bu hərəkatın ictimai bəlaya çevrilməsindən danışılır. (292, 336) Müəllif nəzərə çatdırdığı bu faciələrin fonunda mənəvi-əxlaqi tərbiyəni ön plana çəkir. Onun fikrincə cəmiyyət həm fərdlər, həm də bütövlükdə toplum şəklində ciddi mənəvi tərbiyəyə, əxlaqi islaha möhtacdır. Qurtuluş yolu isə ancaq məktəb, maarif və elmdədir.

Mənəvi-əxlaqi tərbiyə konsepsiyasında M.Şahtaxtlı, əsasən, modern düşüncə modelindən çıxış edir. Onun fikrincə həmin tərbiyə kodeksi öz mahiyyətinə, çalarına görə əzəli, daha doğrusu, bəşər övladı ilə yaşıd olsa da, zaman-zaman dəyişməyə, təshihə möhtacdır. Bir qədər də dəqiq desək, hər bir zamanın və cəmiyyətin özünəməxsus mənəvi-əxlaqi kriteriyaları, ölçüləri vardır. Deməli, cəmiyyət dəyişib inkişaf etdikcə bu kriteriya və ölçülər də dəyişməli, təzələnməli, çağdaş gerçəkliyin əhvali-ruhiyyəsinə uyğunlaşdırılmalıdır. Bu mənada müsəlman aləmində bir durğunluq və ətalət hökm sürür. Tərbiyəçilər, ruhani rəhbərlər, dünyəvi rəislər min il əvvəlki qaydada düşündükləri kimi, kütlə də min il əvvəlki modellə tərbiyələndirilir. Nəticədə başqa sahələrdə olduğu kimi mənəvi ölçülərin, əxlaqi kriteriyaların aşılanmasında müsəlman ictimai mühiti müasir dünya ilə ayaqlaşa bilmir. Orta əsrlərin ənənəvi bataqlığında ilişib qalır. "Şərqi-rus" (1904, 26 iyun) qəzetində dərc olunan "Hər gün bir az" məqaləsində M.Şahtaxtlı qeyd edir ki, maddi məsələlərdə olduğu kimi mənəvi məslələrdə də heç vaxt islam çərçivəsindən kənara çıxa bilmirlər: "Maddiyyatda deyil, mənəviyyatda dəxi müsəlmanlar heç vaxt qeyri-islam dinlərində olanların kamalatının məhsulatından bəhrəvər olmaqdan istinkaf etməmişlər". (237, 132)

“Kavkaz” qəzetində (1882, 7, 15 aprel, 9, 16 may, 4, 17 iyun, 25 noyabr) silsilə şəklində oxuculara çatdırılan “Müsəlmanlarda məktəb həyatı” məqaləsində M.Şahtaxtlı müsəlmanların əsas ibtidai təhsil ocağı sayılan məktəblərdə (mollaxanada) təlim-tərbiyə mühitini ətraflı şəkildə təsvir edir. Buradakı şəraitin, tərbiyəçinin (mollanın), dərs kitablarının, tədris üsulunun və s.-nin təlim-tərbiyənin heç bir normal, müasir parametrinə uyğun gəlmədiyini analizdən keçirir. Faktlarla, elmi dəlillərlə sübut edir və ictimaiyyəti başa salmağa çalışır ki, köhnə məktəb təlim-tərbiyənin müxtəlif sahələrində olduğu kimi mənəvi və əxlaqi cəhətdən də xalqın balalarına müsbət heç nə vermir. Əksinə böyüməkdə olan nəsli mənəvi cəhətdən ətalətə, rəzalətə, süstlüyə, fəaliyyətsizliyə, əxlaqi baxımdan mövhumata, vəhşətə yuvarlayır. Deməli, gənc nəsli mənəvi-əxlaqi cəhətdən məqsədəuyğun ruhda böyütməkdən ötrü yeni tipli məktəbə, yeni tipli təlim-tərbiyə sisteminə ehtiyac vardır.

M.Şahtaxtlı mədəniyyət və mənəviyyatın əlaqəsi, birincinin ikinciyə təsiri məsələsini də kütləyə başa salmaq məqsədi izləyir. “Hər gün bir az” (“Şərqi-rus”, 1904, 21 iyul) silsiləsindən olan məqalələrindən birində o, dediyimiz problem üzərində ayrıca dayanır. Mədəniyyətin mənəviyyat və əxlaqa yalnız müsbət deyil, həm də mənfi təsir göstərə biləcəyini aydınlaşdırır. Müəllif bu ikili təsirin səbəb və mahiyyətini belə izah edir: “Mədəniyyət deyiləndə insanların fikrinə rəhm, insaniyyət, hüquq və sair üns və ülfətə pərvəriş verən şeylər gəlir. Burası həm doğrudur və həm yalandır. Doğrudur, çün mədəni millətlər öz içlərində biri-birləri ilə ədl və rəhmlə müamilə edirlər. Yalandır ondan ötrü ki, meydani-müharibədə olsun və ya rəqabət bazarında olsun millətlər bir-birilərinin qanlı düşmənidirlər. Vaxtiki bir məmləkətdə yaşayan və ya bir bazarda ticarət edən iki millət bir-birinə qarşı gəldi. Hər ikisi yaşaya bilmək üçün mədəniyyətləri, yəni elm və zəkaları, çalışqanlıqları, əhvali-aləmə baxəbər olmaları müsavi olmalıdır. Vəilla bacarığı çox olan qövm istedadı az olanı qurd quzunu yeyən kimi yeyib bitirəcəkdir”. (237, 150-151)

Deməli, mədəniyyət həm tərəqqi, dünyaya və başqa xalqlara, sivil dünyaya inteqrasiya, həm də özünümüdafiə, güclünün əlində əsir və məğlub olmamaq üçün gərəkdir. Mədəniyyət insanları mənəvi-əxlaqi cəhətdən bunların hər ikisinə hazırlayır.

N.Nərimanov mənəvi-əxlaqi tərbiyə ilə bağlı mülahizələrini həm məqalələrində, həm də bədii yaradıcılığında bu və ya digər dərəcədə ifadə edir. "Nadanlıq" (1894) pyesində o, iki qardaşın timsalında mənəviyyat və əxlaqın həm müsbət, həm də mənfi çalarını açıb oxucuya göstərir. İki qardaş Ömər və Vəli hər ikisi Hacı Abdullanın övladlarıdır. Ömər oxuyub ali təhsil almış ağıllı, zəkalı, xeyirxah, nəcib, insanpərvər, mənəviyyatca zəngin bir gəncdir. Vəli isə əksinə təhsilsiz, elmsiz, qaniçən, bədxah, vəhşi təbiətə malik, kinli-küdurətli, insani hisslərdən uzaq bir cavandır. Sonda hətta öz qardaşını öldürməkdən də çəkinmir. Müəllif bu iki qardaşın müqayisəsi fonunda əxlaqi ucalığın və alçaqlığın nələrə səbəb olduğunu ictimaiyyətə anlatmaq niyyəti güdür.

"Şamdan bəy, yaxud dilin bəlası" (1895) komediyasında isə N.Nərimanov mənəvi yoxsulluğun, əxlaqi nadürüstlüyün insanı tez-gec hörmətdən salacağını, pis vəziyyətə qoyacağını əks etdirir. Maraqlı həyati hadisələrin təsviri fonunda oxucunu və tamaşaçını pis əməllərdən uzaq olmağa çağırır.

Milli intibah dövründə yaşamış tərbiyəçi ideoloqlarımızın tərbiyə nəzəriyyəsində ən konseptual məslələrdən biri xalqın mənəvi və əxlaqi keyfiyyətlərini üzə çıxarıb bu keyfiyyətlərin necə, yaxşımı, ya pismi olduğunu kütləyə başa salmaqla onu tərbiyə etmək idi. Bu, tənqid və ifşa yolu idi. Bünövrəsi M.F.Axundovun yaradıcılığında qoyulmuşdu. XX yüzilliyin əvvəllərində "Molla Nəsrəddin"çilər onu daha coşqun, mütəhərrik və təsiredici məzmun və formaya gətirdilər. İfşa və tənqiddə məram belə idi: xalqın özünü, əməllərini, əxlaqını, mənəviyyatını dürüst, olduğu kimi xalqa təqdim etməklə onu tərbiyələndirmək. Bu mənada "Molla Nəsrəddin"çilərin əsərləri müsəlman aləminin mənəviyyat, əxlaq, adət, ənənə və əməllərini

bütün təfərrüatı, kiçik detalları ilə əks etdirən bir tərbiyə güzgüsü idi. Öz nöqsanlarını düzəltməkdən ötrü islah aynası idi.

C.Məmmədquluzadə başda olmaqla məcmuənin əməkdaşları xalqın mənəvi-əxlaqi xüsusiyyətlərinin, neqativ adət, ənənə və vərdişlərinin, yaramaz məşğuliyyətlərinin, naqis xarakterlərinin əsas çalarlarını onların özünə təqdim etməklə mənəvi-əxlaqi tərbiyə işinə böyük mənada nəzəri töhfələr verirdilər.

"Müsəlman içində gördüklərim" ("Molla Nəsrəddin", 1906, №19) felyetonunda Mirzə Cəlil bir sıra felyeton və məqalələrində, bədii əsərlərində olduğu kimi müsəlmanlar arasında mövcud olan mənəvi və əxlaqi kasadlığın bir sıra cəhətlərinə toxunur. Onun kiçikləri cahil və ədəbsiz, böyükləri avam, dindarları mənfəətpərəst, rəisləri qəsbkardır. Həm də bunların hamısı özünü "müsəlman" adlandırır və belə hesab edirlər ki, müsəlman məhz belə olar. (165, 53-55)

"Orucu batil edən şeylər" ("Molla Nəsrəddin", 1906, №30) felyetonunda C.Məmmədquluzadə qəzet oxumağı batil əməl hesab edən müsəlmanlara üz tutub onlarda olan mənəvi-əxlaqi keyfiyyətləri sayır: adam öldürmək, qumar oynamaq, mərdümazarlıq, haram yemək, şeytançılıq, oğurluq, cibgirlik, dəstəbazlıq, yalan danışmaq, yetim, aciz və kimsəsizlərin malını yemək, yoxsulların qanını sormaq, minbər və məclislərdə şəriət adından saxta hədislər düzəldib camaatı aldatmaq, tas qurmaq, fala baxmaq, ilan oynatmaq, it boğuşdurmaq, xoruz döyüşdürmək və s. Sonra soruşur: Sizin gördüyünüz bu cür çirkin əməllərmi haramdır, yoxsa qəzet oxumaqmı? (165, 78-80)

Mübaliğəsiz demək olar ki, o zamankı sosial mühitdə müsəlmanlara aid elə mənfi mənəvi-əxlaqi xüsusiyyət yoxdur ki, "Molla Nəsrəddin"çilər bu və ya digər dərəcədə həmin xüsusiyyətə toxunmasınlar. "Quli-biyabanlar" ("Molla Nəsrəddin", 1907, №12) felyetonunda islam cəmiyyətində insanların varlı, vəzifəli, ixtiyarlı, imkanlı adamlara qarşı itaətkarlıq, yaltaqlıq əxlaqını tənqid edir. (165, 124-126)

"Tök!.." felyetonunda bəzilərinin özünü müsəlman adlandırsa da, şərab içib özünə -şəriət adından haqq qazandırmasından söhbət açır. (165, 170-172) "Diqqət etməli" ("Şərqi-rus", 1904,18 iyun) felyetonunda "saqqallı kişilərin" kiçik yaçlı uşaqlara qoşulub qəribə-qəribə oyunlar oynamasından, gəlib gedən qızlara söz atmasından danışılır. (167, 13-14) Bir sıra əsərlərində müəllif müsəlman din xadimlərinin, "obrazovannıları"nın əxlaqsızlığından, rus və erməni qızları ilə eşqbazlıq etməsindən bəhs edir. Bir sözlə, Mirzə Cəlil milli mənəvi-əxlaqi qaranlığın hər bir küncünə işıq salıb həmin qaranlıqdan qurtuluşa səsləyir. Bu ideya mənəvi-əxlaqi tərbiyəyə də aiddir.

1917-ci ildə (fevral burjua inqilabı nəticəsində) Romanovlar sülaləsinin inqilab yolu ilə devrilib çarizmin süquta uğramasından sonra Mirzə Cəlil monarxiyanın çökməsini böyük sevinc hissi ilə qarşılayır, eyni zamanda xalqı milli-mənəvi əxlaqa – sakitliyə, qazanılan nailiyyəti qorumağa səsləyirdi: "Biz borcluyuq var qüvvəmizi o yolda işlədək ki, məmləkətimiz sakit və salamat olsun. Gərək biz müsəlmanlar da hamıya bildirək və göstərək ki, bizə qaradavoy lazım deyil. Gərək biz elə rəftar edək ki, qeyri-millət içində xəcalət çəkməyək. Gərək müsəlman ölkələrimiz elə bir dinclik və fəraqətlə dolanalar ki, köhnə zalım hökumətin tərəfdarları dinməyələr ki, "bax, müsəlman pristavsız yola getməz". (167, 38) Göründüyü kimi, böyük mütəfəkkirin bu tərbiyəvi çağırışı xalqımızın milli istiqlaliyyətə gedən yolunun açılmasına yönələn ümid və sevincdən nəşət tapırdı. Burada xalqın vəzifəsi nə idi? Əxlaq və davranış etibarı ilə özünü ləyaqətlə aparmaq, milli əxlaq və ədəbin elə səviyyəsini nümayiş etdirmək ki, qazanılan istiqlaliyyət hədər getməsin, başqaları ondan öz xeyrinə istifadə etməsin. Deməli, Mirzə Cəlili hər bir milli fərdin əxlaqından tutmuş ümummilli əxlaqa qədər əxlaq və mənəviyyatın bütün detalları düşündürürdü.

Əslində C.Məmmədquluzadə və M.Ə.Sabirin yaradıcılığı o zamankı müsəlman ailə və sosial mühitindəki mövcud mənfi

əxlaqi keyfiyyətlərin dolğun salnaməsidir. Bu dahi tərbiyəçilər mənsub olduqları vətənin əksəriyyəti təşkil edən vətəndaşlarının mənəvi dünyasında, əxlaqi davranışlarında, düşüncə və əməllərində nələrin mövcud olduğunu, nələrin çatışmadığını əzəmətli tərbiyəçi həssaslığı ilə göstərirlər. Həm də çıxış yolunu da nişan verirlər. Tərbiyə necə aparılır və nəyə səbəb olur? Tərbiyə necə aparılmalıdır və onun hədəfi, məqsədi, nəticəsi necə olmalıdır? Biz bu suallara "Molla Nəsrəddin"çilərin irsində aydın cavab tapa bilirik. Bu problemi onlar ən doğru yolla – xalqı və onun fərdlərini özünə tanıtmaqla edirlər. M.Ə.Sabirin yaradıcılığında biz ölkə vətəndaşlarının həm fərdi, həm də bir toplum olaraq mənəvi və əxlaqi kəsirlərinin çoxlu sayda rənglərini görürük. Həmin rənglərin, keyfiyyətlərin sayı istənilən qədərdir: avamlıq, mövhumatçılıq, fanatiklik, qeyrətsizlik, düşüncəsizlik, eqoizm, boşboğazlıq, dönüklük, milli ögeylik, harınlıq, mənfəətpərəstlik, tamahkarlıq, acgözlük, paxıllıq, arvadbazlıq, ətalət, səbrə və təvəkkülə mənasız inam, zalımlıq, ədalətsizlik, tərbiyəsizlik, qumarbazlıq, etibarsızlıq və s. Sabir müsəlman aləmindəki əxlaq və mənəviyyatın ən qatı ifşaçısı kimi çıxış edir. Məsələn:

Bir bölük boşboğazıq, heyvərəlik adətimiz,
Doludur lənət ilə, qeybət ilə söhbətimiz,
Oxumaqdan payımız yox, yazıdan qismətimiz,
Bu əvamlıqla belə hər sözü təfsir edərik!
Mümkün olduqca müsəlmanları təkfir edərik!

Hər sözə çulğaşırıq, hər bir işi qurdalarıq,
Harda bir nur görürsək, ona qarşı olarıq,
Bəzinə diş qıcadıb, bəzinə quyruq bularıq,
Bizə hər kəs çörək atsa, onu təqdir edərik!
Mümkün olduqca müsəlmanları təkfir edərik!

Tərbiyəçi şair kütləyə başa salmaq istəyir ki, bax, sən belə bir mənəvi-əxlaqi məziyyətlərə maliksən. Əgər bu, yaxşıdırsa,

belə də yaşa. Yox, əgər pisdirsə, öz mənəvi-əxlaqi keyfiyyətlərini dəyişməlisən.

Ö.F.Nemanzadə də əsərlərində müsəlmanların naqis əxlaqi cəhətlərini açıb göstərir. “Bir neçə günlüyə” (“Molla Nəsrəddin”, 1907, №23) məqaləsində müsəlman kişilərinin şəhvətpərəstliyini, arvadbazlığını, “Nuxada Axund Fərəculla cənablarına” (“Molla Nəsrəddin”, 1907, №30) məqaləsində içki aludəçiliyinə, sərxoşluq mərəzinə mübtəla olmuş müsəlmanları tənqid edir.

Görkəmli ideoloq-tərbiyəçi Ə.Hüseynzadə belə bir doğru fikri ilə XX əsrin əvvəllərindəki ictimai, pedaqoji və mədəni fikri istiqamətləndirir ki, xalq həm maddi (iqtisadi), həm də mənəvi cəhətdən gözəlliyə (“həsənati-maddiyyə və mənəviyyə”) malik olmalıdır. Həmin gözəllik atributlarının hər ikisi cəmiyyətin həm fərdlərinə, həm də bütövlükdə topluma sirayət etməlidir. Əks təqdirdə nə fərdlərin, nə də bu fərdlərin məcmusundan ibarət cəmiyyətin tərəqqi, təkamül və səadəti mümkün deyil. Mütəfəkkir yazır: “Bu həsənati-maddiyyə və mənəviyyə həm fərdə, həm cəmiyyət və millətə aiddir. Fərdə və heyəti-ictimaiyyətimizə aid olan həsənati-maddiyyə və mənəviyyəyə isə ancaq vəzaifi-həyatiyyəmizi mükəmmələn etdiyimiz halda nail ola bilərik”. (115, 35) Əli bəy onu da iqrar edir ki: “Həyati-milliyyəmizin ən birinci şərti əxlaq və adabın qəvaidi-həsənə və məmduhə üzrə olmasıdır. Əxlaq pozğunluğu, sirqət və qətl cinayətləri, kizb və böhtan, büğz və nifaq, həsəd və ilaxir məzmum sifətlərlə məəttəsif olan taifə əsla fəlah bulunmaz”. (115, 36) Göründüyü ki, müəllif gözəl əxlaq və ədəb qaydalarını milli həyatımızın gözəlliyinin əsas şərti hesab edir. Bu, Əli bəyin tərbiyə nəzəriyyəsinin əsas xətlərindən biridir.

“Kuhi-Qaf və simruğ” (“Həyat”, 1906, №143) məqaləsində Ə.Hüseynzadə əxlaq tərbiyəsinin başqa mühüm bir xəttinə diqqəti cəlb edir: hürriyyət və əxlaq. Müəllif şərh və təsbit edir ki, insanın və xalqın bir sıra müsbət əxlaqi xüsusiyyətlərinin formalaşması hürriyyətə bağlıdır. Azad, müstəqil olan insanlarda və xalqlarda qürur, özünütəsdiq,

heysiyyət, şücaət, əyilməzlik, mərdanəlik, qeyrət, nəcabət, alicənablıq, ötkəmlik, idarə olunmaq yox, idarə etmək istəyi daha güclü olur. Onlar əsarəti, başqasının idarəsi, təzyiqi və təhdidi altında yaşamaq istəmirlər. Bu, həmin insanlarda və xalqlarda mənəvi keyfiyyətə çevrilən hürriyyət əxlaqıdır. (113, 141)

Mövzu obyekti kimi götürdüyümüz dövrdə Azərbaycan maarifpərvərlərinin tərbiyə konsepsiyasında mühüm yer tutan xətlərdən biri də islam dini və əxlaq problemi idi. Bu dövr demokratik düşüncə sahiblərinin əksəriyyəti islamın əxlaq kodeksini bir tərbiyə prinsipi kimi qəbul edir, milli tərbiyə arenasında da onun tətbiqi və təbliği ideyasını məqbul, həm də vacib sayırdılar. Bu ideya XX əsrin əvvəllərində Ə.Hüseynzadə tərəfindən formulə edilib nəzəri-ideoloji düstur, hərəkət xətti kimi müəyyənləşdirilən "türkləşmək, islamlaşmaq, müasirləşmək" şüarının üç rüknündən birini təşkil edir. Lakin islam əxlaqının tətbiqi problemində Azərbaycan ziyalılarının mövqeyi məsələsinə gəlincə bir cəhəti hökmən nəzərə almalıyıq. Belə ki, mütərəqqi düşüncəli fikir adamlarımız mürtəce din xadimlərinin təbliğ etdiyi saxta və yanlış islam əxlaqına deyil, Qurandakı, sünnə və hədislərdəki islam əxlaqına üz tutur, ondan yapışırdılar. Əksər qələm sahiblərinin bu məsələdə mövqeyi yekdil idi. Deyilən mətləbi, onun fəlsəfi, pedaqoji mahiyyətini Ə.Ağayev 1904-cü ildə kitabça halında çap olunan "İslam, Axund və Hatifülqeyb" əsərində dolğun şəkildə ümumiləşdirmişdir. Əhməd bəy rəmzi İslam obrazının dili ilə Quranın əxlaqla bağlı belə bir ayəsinə istinad edir: "Allah ədaləti və yaxşılığı tərbiyə edəndir, ona yaxın olanları dəstəkləyir, pozğunları və pisləri rədd edir" ("Vəallahi mürəbbiül-ədli vəl-ehsani va yuəyyidu zul-qurəba va yənhi əl-fuhəşa val-münkər"). İslam dinini təmsil edən ümumiləşən obraz olan İslam bu dinin həqiqətində dayanan əxlaqi prinsiplərin nədən ibarət olduğu barədə deyir: Allah-taala insana əmr edir ki, cəmi pis işlərdən uzaq olub yaxşı işlər görsün. Bu mənada Allah-taala peyğəmbərləri, övliyaları, müqəddəs

şəxsiyyətləri insanlıq üçün örnək yaratmışdır. Onlar "o qədər adil idilər ki, nəinki öz övladları ilə, bəlkə, öz canları ilə özgə adamlarda fərq qoymaz idilər. Onlarda o qədər bəzl və ehsan və hübbi-insan var idi ki, mal nədir, candan, əyaldan keçərdilər... Odur ki, bu ənbiya və övliyaya fəxrül-kainat və insani-kamil və əşrəfül-məxluqat, yəni müsəlmani-xəvvas deyilir. Ruhi-islam orlarda mücəssəmdir, onlardır mütəqqi". (4, 44)

Göründüyü kimi, Əhməd bəy bir tərbiyə nəzəriyyəçisi kimi öz milli məsləkdaşlarının fikirlərini ifadə edərək islam əxlaqında hansı yolla getməyin lazım gəldiyini nişan verir: peyğəmbərlərin, övliyaların və pak şəxsiyyətlərin yolu ilə getmək. Yalnız bu yol vətən övladını əxlaqi cəhətdən "insani-kamil"ə çevirə bilər.

"Mən kiməm?" adlı pedaqoji-fəlsəfi risaləsində Ə.Ağayev fərdin və cəmiyyətin əxlaqının qarşılıqlı təması və təsiri məsələsini nəzərdən keçirir. Göstərir ki, fərdlərin xarakter və əxlaqındakı pis cəhətlər cəmiyyətə sirayət etdiyi kimi, cəmiyyətdəki neqativ çalarlar da ictimai fərdlərin əxlaqına mənfi təsir göstərir. Kamil əxlaqlı insan yetişdirməkdən ötrü həm sosial mühit, həm də onu təşkil edən üzvlər məqsədəuyğun əxlaqi-mənəvi xüsusiyyətlərə malik olmalıdır. (4, 49-77)

Görkəmli pedaqoq Q.R.Mirzəzadə də islam və əxlaqi tərbiyə konsepsiyasında Əhməd bəylə eyni mövqe nümayiş etdirir. Onun fikrincə Quran ideal mənəvi tərbiyə və əxlaq dərsliyidir. Sadəcə olaraq müsəlmanlar oradakı hikmət və gözəlliyi anlaya bilmirlər. Din xadimləri də bu əxlaqi məziyyətləri xalqa düzgün çatdırmır. Nəticədə islam cəmiyyətlərində mənəvi eroziya, əxlaqi aşınma baş verir. Avropalıların yüksək səviyyədə şüar etdikləri ədalət, bərabərlik, qardaşlıq, insanpərvərlik və s. nurlu mənəvi-əxlaqi keyfiyyətlər Quranda, islam şəriətində ən ideal şəkildə mövcuddur. Sadəcə olaraq müsəlmanlar bunu bilmir və əməl etmir, nəticədə sivil xalqların tənəsi ilə üzləşirlər. Q.R.Mirzəzadə yazır: "Ən əsas islamiyyətdə ədalət, müsavat, üxüvvət...kibi məziyyəti-amuyeyi insaniyyənin bizlərdə əks tapıldığı halda özümüzü islam namı

ilə adlandırmağa fikrimiz olmayan kibi əcnəbilərin də bizə qarşı təninə səzayiz. Onlar bizə əbəs yerə havayi korlayan bir taifə deyirlər, haqları yoxmu?" (183, 43).

M.Ə.Rəsulzadə də 1914-cü ildə "Dirilik" jurnalının ilk nömrəsindən başlayaraq 8-ci nömrəsinədək silsilə şəklində dərc olunan "Milli dirilik" traktatının altıncı bölümündə (№7), "Məktəb və mədrəsə" risaləsində ("Açıq söz", 1916, 15, 16, 17, 21, 27, 31, mart, 4 aprel, 2, 6, 7, 10 iyun) islam və əxlaq problemini kifayət qədər dolğun və elmi şəkildə təhlil süzgəcindən keçirir və bu əxlaqın millətə gərək olduğunu təsbit edir.

Milli intibah dövrü tərbiyə nəzəriyyəçilərimizin yaradıcılığında milli əxlaq və onun müsbət tərəflərinin hifz edilməsi, tərbiyə yolu ilə nəsildən nəslə ötürülməsi problemi də diqqət mərkəzində olmuşdur. Ə.Hüseynzadənin "Həyat" və "Füyuzat"ın səhifələrində ilk eskizlərini ortalığa qoyduğu "türkləşmək, islamlaşmaq, müasirləşmək" milli-ideoloji devizinin ilk rüknu ("türkləşmək") də məhz milli əxlaqa söykənir. Ümumiyyətlə, milli əxlaq nəzəriyyəsinin mahiyyəti, tətbiqi və hifz olunması barədə daha dürüst, elmi və mükəmməl şərhlər Ə.Hüseynzadəyə və M.Ə.Rəsulzadəyə məxsusdur. Başqa qələm sahiblərimiz də bu və ya digər dərəcədə bu məsələyə toxunmuşlar.

M.Ə.Rəsulzadənin "Milli dirilik" adlı pedaqoji, sosioloji məzmunlu risaləsində dəyərləndirilən, analizdən keçirilən və bir tərbiyə komponenti kimi təqdim edilən problemlərdən biri də milli əxlaq məsələsidir. Müəllif qeyd edir ki, hər bir xalqın milli ruhu, milli vicdanı, milli adət-ənənələri, milli dili və s. olduğu kimi milli mənəviyyatı və milli əxlaqı da mövcuddur. Milli əxlaq və mənəvi xüsusiyyətlərdə qüsurlar ola bilər. Qarşıda duran əsas vəzifələrdən biri də milli əxlaq və mənəviyyatın qüsurlarını islah etmək, yaxşı cəhətlərini isə qoruyub saxlamaqdır. Bu mənada Məhəmməd Əmin bəy milli mənəviyyat və əxlaqla milli adət və ənənələr arasında üzvi bir əlaqə görür. (212, 463-487)

Azərbaycan maarifçilərinin tərbiyə nəzəriyyəsində yer tutan məsələlər sırasında sərvət və əxlaq, vəzifə və əxlaq problemləri də var idi. Deyilən mətləblə bağlı baxış və münasibət bu şəkildə qoyulurdu: İnsan bir şəxsiyyət kimi var-dövləti, sərvəti, yaxud vəzifəsi, ixtiyarlı olması iləmi üstündür, yoxsa yüksək əxlaq və mənəviyyatı iləmi? Mütərəqqi milli düşüncə və söz sahibləri bu suala aydın və birmənalı şəkildə ikincinin xeyrinə cavab verirdilər. Onlar insanın dəyərinin sərvət və vəzifədə deyil, gözəl əxlaq və mənəviyyatda olduğunu həm bədii əsərlərində obraz və hadisələr vasitəsilə oxucuya çatdırır, həm də əxlaqi, pedaqoji və publisistik əsərlərində birbaşa söyləyirdilər. Bu mənada S.M.Qənizadənin "Məktubati-Şeyda bəy Şirvani" (1898-1900) romanının qəhrəmanı Şeyda bəyin istər əməlləri, istərsə də mülahizələri daha maraqlıdır. Əslində Şeyda bəy milli intibah dövründəki mənəviyyatlı, əxlaqlı Azərbaycan ziyalılarının ümumiləşmiş obrazı olmaqla həm də onların baxışlarını əks etdirir. Müəllim Şeyda bəyin fikrincə nə "dünya mülkü", nə də "ağalıq ixtiyarı" insanı əbədi ("baqi") və şərəfli edə bilməz. Şəxsin gözəllik meyarı "mal və qızıl varlığı ilə" deyil, "səxavət, şücaət, dəyanət" və qeyri "sifəti-məmduhə və əxlaqi-həsən"ə ("tərifəlayiq sifətlər və gözəl əxlaqla") ilə ölçülə bilər. S.M.Qənizadənin fikirlərini ifadə edən Şeyda bəyin fikrincə mərifət (əxlaq və mənəviyyat) varlısı mal-mülk varlısından daha zəngin, daha üstündür. Başqa sözlə: "Mərifət varlısı mal yoxluğunda həm qənidir, amma mal qənisi mərifət yoxluğunda yoxsuldur. Şükr xudaya ki, mən Şeydanı mərifət dövlətindən məhrum etməyibdir. Hala əcnas və müxəlləfat qismi dövlətim yox isə də, lakin mərifət cəhətincə filcümlə varımdır". (147, 20) Əlbəttə, bu sözlər o zamankı ictimai, pedaqoji və mədəni mühitdəki vətənpərvər millət tərbiyəçilərinin əxlaq tərbiyəsi ilə bağlı ümumi baxış və konsepsiyalarını özündə ehtiva edir.

Azərbaycan mütəfəkkirlərinin tərbiyə nəzəriyyəsində nəfsi, cismani istəklər və əxlaq məsələsinə də diqqət yetirilir. Onlar kütləni başa salmağa çalışırlar ki, insan yalnız öz cismani

istəkləri, bədənə bağlı həvəsləri üçün yaşamamalıdır. Belə bir meyl və istək bəşər övladını mənəvi baxımdan nursuz hala gətirir, onu əxlaqi cəhətdən yoxsullaşdırır, insanlıq ləyaqətini əlindən alır. F.Köçərlinin "Dünyada bəla nədən törəyir?" ("Tərəqqi", 1909, 26 mart) məqaləsində həmin problemə münasibətin maraqlı ifadəsini görürük. "Dünyada bəla nədən törəyir?" – sualına Firidun bəy L.Tolstoyun Sədinin "Gülüstan" əsərindən götürüb özünün tərtib etdiyi "Oxu" kitablarına daxil etdiyi bir hekayə əsasında cavab verir: "Dünyada bəlanın zühura gəlməyinə səbəb bədəndir. Qəzəb və aclığın da, məhəbbətin və qorxunun da mənbəyi və törənəcək yeri bədəndir: Bədən olmasa, nə aclıq olar, nə məhəbbət olar, nə də qorxu". (129, 214) Deməli, insanın batini aləmi, cismani varlığı həyatın müsbət həqiqətlərinə nə qədər meyllidirsə, mənfi gerçəkliklərinə də bir o qədər meyllidir. Bu meyl və istəklərin qarşısı yalnız təsirli tərbiyə vasitələri ilə alına bilər.

O dövrdə həmvətənlərinin əxlaq tərbiyəsi uğrunda fədakarcasına səy göstərənlərdən biri də A.Səhhət idi. Pedaqoq alim İ.İsayevin dediyi kimi: "Böyüməkdə olan gənc nəsli nəcib keyfiyyətlər ruhunda tərbiyə etmək, ona lap aşağı yaşlardan müsbət əxlaq, mədəni vərdişlər aşılamaq A.Səhhətin ən mühüm ideyalarından biri idi. Bu isə A.Səhhətin gənclərə vətənin, xalqın gələcəyi, istinadgah nöqtəsi, ümid çırağı kimi baxmasından irəli gəlirdi". (119, 200)

A.Səhhət tanınmış pedaqoq M.Mahmudbəyovla birlikdə müəllifi olduğu "Yeni məktəb" (1909) dərsliyinə uşaqların mənəvi-əxlaqi tərbiyəsinə fayda verən xeyli uğurlu əsərlər daxil etmişdi. Onun orijinal yaradıcılığında da gənc nəslin tərbiyəsində faydalı mənəvi qida olan dəyərli əxlaqi-didaktik nümunələr vardır. Bundan əlavə A.Səhhət rus və başqa xalqların ədəbiyyatından çoxlu sayda poetik nümunələri ana dilimizə tərcümə edərək 1912-ci ildə iki kitab halında çap etdirmişdir. Dünya ədəbiyyatının klassiklərindən edilmiş bu poetik tərcümələr Azərbaycan oxucusunun mənəvi tərbiyəsi üçün son dərəcə yararlıdır.

XIX əsrin II yarısı və XX əsrin əvvəllərindəki ictimai, mədəni və pedaqoji mühitdə milli tərbiyəçilərimizin gənc nəslin və ümumiyyətlə, kütlənin mənəvi-əxlaqi tərbiyəsi istiqamətində apardığı gərgin mübarizə, səmərəli iş öz müsbət nəticələrini verdi. Xalqın mənəvi tərəqqisində, əxlaqi yüksəlişində əvəzsiz rol oynadı.

# IV FƏSİL

# AZƏRBAYCAN MAARİFÇİLƏRİ GƏNC NƏSLİN FİZİKİ, ƏMƏK VƏ ESTETİK TƏRBİYƏSİ HAQQINDA

## 4.1. Azərbaycan maarifçiləri fiziki tərbiyə haqqında

XIX-XX yüzilliklərin hüdudlarında Azərbaycanda mütərəqqi təmayüllü ictimai, mədəni və pedaqoji fikrin təmsilçiləri tərbiyənin müxtəlif atributlarını diqqət mərkəzində saxlayır və onların intişarı, milli ictimai gerçəkliyə sirayət etməsi qayğısına qalırdılar. Bu atributlar sırasında fiziki tərbiyə də var idi.

Məlumdur ki, mədəni xalqlarda böyüməkdə olan nəslin fiziki tərbiyəsi, insanın sağlamlığı, fiziki möhkəmliyi həmişə ictimai-tərbiyəvi fikri məşğul etmişdir. Təsadüfi deyil ki, Aristotelin "sağlam bədəndə sağlam ruh olar" – məntiqi istər qədim, istərsə də sonrakı dövrün sivil xalqları üçün fiziki tərbiyə aspektində bir hərəkət şüarı olmuşdur. Filosoflar, pedaqoqlar, hikmət sahibləri dərk etmişlər ki, tərbiyənin başqa atributları, həmçinin insanın həyatda normal, xoşbəxt yaşayışı insanın səhhət və sağlamlığına ciddi surətdə bağlıdır. İnsan ömrünün uzun və qısalığı da müəyyən istisnaları nəzərə almasaq, cismani sağlamlıqla, gümrahlıqla əlaqədardır. Qədim dünyanın müdriklərindən olan Roma şairi, filosofu Seneka əbəs yerə deməmişdir ki: "Qısa həyatı bizə vermirlər, biz özümüz onu belə edirik; bizim həyatımız kasıb deyildir, amma biz onu istismar edirik. Həyatdan bacarıqla istifadə olunsa, o, çox uzundur, habelə bütün həyatdan yaxşı istifadə etsək, böyük işlər görmək üçün həyat tamamilə uzun və yararlıdır". (124, 101)

Müxtəlif zamanların görkəmli pedaqoqları daim gənc nəslin sağlam ruha, düşüncəyə, əqidəyə, mənəviyyata malik olması üçün fiziki tərbiyəyə xüsusi önəm vermişlər. Görkəmli pedaqoq Y.A.Komenski özünün məşhur "Böyük didaktika" əsərinin bir fəslini ("Ömrün uzadılmasının əsasları") fiziki

tərbiyə məsələlərinə həsr etmişdir. Pedaqoq insanın fiziki tərbiyəsinə yalnız dünyəvi nöqteyi-nəzərdən deyil, həm də dini prizmadan yanaşaraq deyir: “Biz öz bədənimizi xəstəlikdən və bədbəxt hadisələrdən qorumağa borcluyuq. Birincisi, ona görə ki, bədənimiz ruhun məskənidir. Bədən dağıldıqdan sonra ruh dərhal bu aləmi tərk etməyə məcburdur. Əgər bədən tədricən dağılırsa, onun gah bir, gah da başqa hissəsi pozulursa, onda bu məskən ruh üçün qeyri-münasib olur. Beləliklə, biz kainatda – Allahın bizə bəxş etdiyi sarayında daha uzun müddət və mümkün qədər rahat yaşamaq istəyiriksə, biz bu cismani örtüyə qayğı ilə qulluq etməyə borcluyuq. İkincisi, bədən yalnız düşüncəli ruhun məskəni olmaqdan başqa, həm də onun alətidir. Bu alət olmadan ruh heç bir şey eşidə, görə, danışa və hərəkət edə bilməz. Bundan əlavə o, hətta fikirləşə də bilməz”. (124, 102)

Xalqımızın tarixi inkişafında milli intibah dövrü kimi xarakterizə olunan XIX əsrin II yarısı və XX yüzilliyin əvvəllərində demokratik görüşlü Azərbaycan maarifpərvərlərinin fiziki tərbiyəyə münasibətləri də klassik pedaqoqların, filosofların, əxlaqşünasların münasibətləri ilə üst-üstə düşürdü. Onlar hər vəchlə tərbiyənin məzmununu müasirləşdirmək tələbi qoyur, bu tələbin atributları sırasına fiziki tərbiyəni də daxil edirdilər. Onların əqidə və amalı belə idi: vətən övladı əqli, mənəvi-əxlaqi cəhətdən yetkin, elmli, bilikli, geniş dünyagörüşə və s. malik olduğu kimi fiziki cəhətdən də sağlam, möhkəm olmalıdır. Bu, həm cəmiyyətin ümumi rifahı, tərəqqisi, həm də xoşbəxt əhvali-ruhiyyəsi, gümrahlığı üçün lazımdır.

Haqqında danışdığımız zaman kəsimində milli mütəfəkkirlərimizin fiziki tərbiyə uğrunda mübarizəsi və mülahizələri ənənəvi fiziki tərbiyə sisteminə qarşı müxalifətdən başlayırdı. Belə ki, müəyyən istisnaları nəzərə almasaq (bəzi elitar şəxslərin öz övladlarının fiziki tərbiyəsinin qayğısına qalması), islam mühitində uzun əsrlər boyu nə ailədə valideynlər, nə də məktəbdə (mollaxanada) müəllimlər

(mollalar) uşaqların fiziki cəhətdən tərbiyəsi ilə maraqlanmır, bu vacib işə laqeyd münasibət göstərirdilər. Valideynlər övladlarının sağlamlıq durumu ilə iki səbəbdən məşğul ola bilmirdilər: Birincisi, onlar təbiətən bu işə soyuq, səhlənkar yanaşırdılar. Bu, sosial mühitdə ətalətdən, cəhalətdən doğan qüsurlu bir tendensiya idi; İkincisi, valideynlər tibbi-gigiyenik baxımdan savadsız, maarifsiz idilər. Elementar gigiyena qaydalarından belə xəbərsiz idilər.

Məktəblərdə (mollaxanada) – ənənəvi müsəlman təhsil ocaqlarında isə vəziyyət daha dözülməz idi. Birincisi, əsasən, məscidlərin nəzdində və ya xüsusi evlərdə təşkil edilən məktəblərdə sinif otaqları çox zaman sağlamlıq üçün yararsız olurdu. Otaqlar rütubətli, işıqsız, dar olur, soyuq havalarda kifayət qədər qızdırılmır, uşaqlara lazımi məqamlarda tənəffüs verilmir, şagirdlər yerdə otururdular və s. İkincisi, mollaxanalarda sərt fiziki cəza tədbirləri tətbiq edilirdi. Müəllim (molla) şagirdlə necə istəsə, davrana bilər, onu döyə, işgəncə verə bilərdi. Çox zaman elə belə də olurdu. Bu, təbii ki, uşaqların həm psixoloji, həm də sağlamlıq durumuna mənfi təsir göstərirdi. Müasir dünyanın həqiqətlərini yaxşı dərk edən Azərbaycan ziyalılarının öz həmvətənlərinin normal fiziki tərbiyə uğrunda mübarizəsi də bu ənənəvi qüsura (həm də kütləviləşmiş və sosial bəlaya çevrilmiş qüsura) qarşı etirazdan başlayırdı. Məsələn, M.F.Axundov Avropada məktəblərdə cismani cəza üsulunun yasaq edildiyini nəzərə çatdırandan sonra şərqə qayıdır, müsəlman məktəblərindəki dəhşət doğuran mənzərəni belə təsvir və tənqid edirdi: "İran əhli bu günə qədər anlamamış ki, uşaqların tərbiyəsində çubuq və sillə vurmaq, onların əxlaqını pozar, təbiətlərini alçaldar, fitri cövhərlərini boğar, qorxaq və yalançı edər. İranda heç bir məktəb tapmazsan ki, onun səfeh məktəbdarının çubuq və fələqqəsi olmasın. Təəccüblü budur ki, hər bir uşağın anlaqsız atası, öz uşağını təlim və tərbiyə üçün məktəbdarın yanına apardıqda, uşağının yanında dediyi birinci söz budur: "Molla, oğlumu sənə tapşırıram. Əti sənin, sümüyü mənim. Ona yaxşı tərbiyə ver!"

Nadan molla dəxi cavab verir:

“Əmin ol, çubuq və fələqqə həmişə onun gözünün qabağında olacaqdır”.

Bu cür tərbiyədən sonra, uşaqlardan, böyüdükdə nə kimi insanlıq, mərifət, yüksək hümmət və nəcib əxlaq ümid etmək olar? Bundan təəccüblüsü vəzarəti-ülumun qəflətidir ki, bu hərəkəti məktəbdarlara qədəğən etmir”. (19, 60)

M.F.Axundov bir tərbiyəçi idrakı və vətəndaş yanğısı ilə haray çəkib bildirir ki, müsəlman aləmində məktəb tərbiyəsində mövcud olan “Molla, əti sənin, sümüyü mənim” fəlsəfəsi böyüməkdə olan nəslin tərbiyəsində ciddi fəsadlara, ictimai rəzalətlərə yol açır. Fiziki cəzaya məruz qalmaq, tənbeh, cismani işgəncə uşaqların əqli, mənəvi, əxlaqi, ruhi tərbiyəsinə də pis təsir göstərir, onlarda bir sıra mənfi xüsusiyyətlərin əmələ gəlməsinə yol açır.

“Əkinçi” qəzeti öz səhifələrində fiziki tərbiyə məsələlərinə də müəyyən qədər yer ayırırdı. Nəzərə alsaq ki, o zaman xalq arasında bu məsələ ilə bağlı ana dilində elə bir elmi mənbə yox idi, bu məlumatların nə qədər əhəmiyyətli olduğunu təsəvvür etmək olar. Həqiqətən də, bu dövrdə xalq arasında əsas müalicə üsulu, sağlamlıq və xəstəlik barədə təsəvvürlər türkəçarələr səviyyəsindən o yana getmirdi. “Əkinçi” qəzeti bəzi xəstəliklər, onların yaranma səbəbləri, müalicəsi, bəzi gigiyenik qaydalara aid elmi biliklər verməklə camaatı bu istiqamətdə maarifləndirmək kimi uğurlu bir təşəbbüs edirdi. Təbii ki, elmi məlumatlar, əsasən, qəzetin naşiri H.Zərdabinin qələminə məxsus idi.

Qəzet 30 yanvar 1876-cı il tarixli nömrəsində “Daxiliyyə” rubrikasında çap olunmuş məqaləsində bəzi parazitlər, mikroblar və onların yaratdığı xəstəliklər barədə maraqlı məlumat verirdi. Məqalədə göstərilirdi ki, bəzi dayanıqlı su gölməçələrində təkhüceyrəli heyvanlar (parazitlər) və mikroblar sürətlə artır. Su quruyandan sonra onlar havaya qalxıb külək vasitəsilə yayılır. Belə canlılar qida və nəfəs yolu vasitəsilə insan bədəninə də daxil ola bilir. Nəticədə insan orqanizmində qızdırma, çiçək,

vəba, yatalaq və s. xəstəliklərin yaranmasına səbəb olur. Belə naxoşluq törədən parazit və mikrobların yayılmasında milçəklər də müəyyən rol oynayır. Məqalədə çiçək xəstəliyi və onun müalicəsi barədə dəyərli elmi məsləhətlər verilir. (88, 113-114)

Qəzet fiziki tərbiyə məsələsində Quran ayələrinə də istinad etməyi unutmurdu. Məsələn, "Əkinçi"nin 15 fevral 1876-cı il tarixli sayında ("Daxiliyyə") Quranın "Ye, iç, amma israfçılıq etmə" ("Külu vəşrəbu və la tüsrifu") ayəsinin elmi mahiyyəti şərh edilirdi. Şərhdə deyilirdi ki, bu ayənin məntiqi izahı ondan ibarətdir ki, orqanizmdə bir çox xəstəliklər məhz normadan artıq yemək-içməkdən törəyir. Artıq yeyib-içmək mədəni gücə salır, həzm sistemində nizamsızlıq baş verir. Bu isə orqanizmdə bir sıra fəsadlara yol açır.

Qəzetin yenə həmin nömrəsindəki "Elmi xəbərlər" rubrikasında insandan heyvana və əksinə heyvandan insana keçən bəzi xəstəliklər, xüsusilə sill naxoşluğu barədə məlumat verilir. Həmin xəstəliyə düçar olmaqdan ötrü dəyərli məsləhətlər verilir. Daha sonra sill və babasil kimi xəstəliklərin irsi xüsusiyyətlərindən, onların valideyndən övlada keçməsindən söhbət açılır. Bundan xilas olmaq üçün hansı tədbirlərə əl atmaq barədə bilgi verilir.

Ümumiyyətlə, XIX əsrin sonu və XX əsrin əvvəllərindəki Azərbaycan ziyalıları içərisində fiziki tərbiyə sahəsində daha məhsuldar fəaliyyət göstərən fikir adamlarından H.Zərdabinin xidmətləri xüsusilə diqqəti cəlb edir. Bu, həm də Həsən bəyin ixtisası ilə əlaqədar idi. İxtisasca təbiətşünas olan Həsən bəy tibb və gigiyena sahələrində də müəyyən biliyə malik idi. Bir təbiətşünas kimi o, fiziki tərbiyənin əhəmiyyətini, xalqı bu istiqamətdə maarifləndirməyin zərurətini yaxşı dərk edirdi. Ona görə də deyilən mövzuda bir sıra əsərlər yazaraq kütləni zikr olunan mətləblə əlaqədar başa salmağa təşəbbüs göstərirdi. Onun bu mövzu ilə bağlı həm rus, həm də Azərbaycan dilində xeyli məqaləsi vardır. Məsələn, müəllifin rus dilində "Kaspi" qəzetində çap olunmuş aşağıdakı məqalələri mövcuddur: "Orqanizmin yoluxdurucu mikroblarla mübarizəsi" (1899, 28

avqust); “Məktəb gigiyenası” (1900, 4 fevral); “Vərəm və onun müalicəsi” (1900, 2 mart); “İnsandakı parazitlər” (1900, 18 iyul) və s. Həsən bəyin Azərbaycan dilində dediyimiz mövzuda qələmə aldığı məqalələrdən aşağıdakıları göstərmək olar: “Həyat” qəzetində çap olunanlar – “Xörək yemək, su içmək” (1905, 13 oktyabr); “Qan nə tövr bədəndə dövr edir” (1905, 26 oktyabr); “Nəfəs almaq” (1905, 4 noyabr); “İnsan bədəninin hissələri” (1905, 29 noyabr); “Həvasi-xəmsə” (1905, 1 dekabr); “Füyuzat” jurnalında – “Hifzüs-sihhə” (1907, №7); “Məktəb” jurnalında – “Çayda çimmək” (1915, №10); “Əl və dırnaqlardan mütəvəcce olmaq” (1915, №11); “Baş tükünü saxlamaq” (1915, №12); “Yuxu və yatacaq paltarı” (1915, №13); “Baş, ayaq” (1916, №2); “Ev” (1916, №10) və s.

Bundan əlavə H.Zərdabi gigiyenaya dair “Bədəni salamat saxlamaq düsturüləməlidir” adlı ayrıca bir əsər də qələmə almışdır. Həmin əsər müəllifin ölümündən sonra 1914-cü ildə Kiyevdə təhsil alan azərbaycanlı tələbələrin təşəbbüsü ilə Bakıda ayrıca kitab halında nəşr olunmuşdur. (291)

Həsən bəyin fiziki tərbiyə barədə baxışlarından danışarkən pedaqoq alim Ə.Seyidov doğru olaraq deyir: “Məlikovun pedaqoji görüşlərində fiziki tərbiyə haqqında onun fikirləri böyük yer tutur. Demək olar ki, özünün bütün əsərlərində, bəzən hətta ikinci dərəcəli məqalələrində də Məlikov fiziki tərbiyə və uşaq sağlamlığının mühafizə edilməsi məsələlərinə toxunur”. (225, 286)

“Bədəni salamat saxlamaq düsturüləməlidir” kitabı Azərbaycan elmində “natural gigiyena”ya həsr olunmuş ilk əsərdir. Ümumiyyətlə, o zaman gigiyena gənc elmlərdən idi. Onun təşəkkül tarixi XIX yüzilliyin ortalarına təsadüf edir. XIX yüzilliyin sonları və XX yüzilliyin əvvəllərində bu elm Amerikada və Avropa ölkələrində sürətlə inkişaf edirdi. Buna səbəb əhalinin artması, yeni sənaye müəssisələrinin yaranması, elm və texnikanın inkişafı nəticəsində təbiətdə ekoloji tarazlığın pozulması, ətraf aləmin sürətlə çirklənməsi (xüsusilə iri sənaye şəhərlərində) və bununla əlaqədar bir sıra xəstəliklərin baş

qaldırması, insan sağlamlığına zərər vuran mühitin genişlənməsi idi. Əsərə ayrıca "Müqəddimə" yazan H.Zərdabi də kitabın belə bir ehtiyacdan ərsəyə gəldiyini göstərir. Yuxarıdakı səbəbləri sadalayan müəllif "bədəni salamat saxlamaq" (gigiyena) elminin o zaman cəmi 20-30 yaşı olduğunu, bu elmin müasir dünyanın insan sağlamlığına təhlükə doğuran şəraiti ilə əlaqədar meydana gəldiyini nəzərə çatdırır. Onu da əlavə edir ki: "Elə ki, məlum oldu ki, insan nə qədər özünü yaxşı saxlaya, özlərini yaman saxlayanlardan onlara zikr olan yoluxma naxoşluqları düşəcəkdir, şəhər camaatı və hakimlər hər vilayətdə qanuni-səlaməti bina etdilər və hükəmayi-elm aşkar elədiyi təcrübələri o qanunlar ilə müvafiq edib, bədəni salamat saxlamaq elmini bina etdilər". (289, 12)

H.Zərdabinin əsəri aşağıdakı 7 bölmədən ibarətdir: 1. Ev; 2. Hava; 3. Su; 4. Xörək; 5. Bədəni natəmiz saxlamaq; 6. Paltar; 7. Yuxu və yatacaq paltarı.

İnsanların təbiət qanunlarına müvafiq yaşamasını əsas götürən "natural gigiyena" elmi müasir dövrdə insan sağlamlığı üçün vacib olan aşağıdakı şərtləri məqbul sayır: 1. Təmiz hava; 2. Saf su; 3. Günəşlə təmas; 4. Təbii qidalar; 5. Fəal hərəkət; 6. Az yemək və aclıq; 7. İstirahət və yuxu; 8. Düz qamət; 9. Ağıl və sağlam ruh.

Maraqlı və əlamətdar cəhətdir ki, Həsən bəyin XX yüzilliyin əvvəllərində qələmə aldığı fiziki tərbiyə risaləsində həmin cəhətlərin əksəriyyətinin nəzərə alındığını, dolğun və elmi şəkildə şərh olunduğunu görürük. Yalnız "düz qamət", "ağıl və sağlam ruh" məsələsinə Zərdabi ötəri şəkildə toxunur. İnsanın cismani gözəlliyinin, ağıl və sağlam ruhunun da səhhətlə ciddi şəkildə bağlı olduğunu ayrı-ayrı fəsillərdə xatırlatmaqla kifayətlənir. Qalan problemlərin isə daha geniş əhatəli və elmi şərhini verir.

"Ev" bölməsində sağlam yaşamaq üçün evi necə, harada, hansı strukturda, nə ilə (hansı materiallarla) tikmək barədə dolğun məsləhətlər verir. "Hava", "Su" bölmələrində hava və suyun tərkibi, mövcud aləmdəki rolu, çirklənməsi, qida vasitəsi

kimi insan həyatındakı rolu sadə, anlaşıqlı bir dillə oxucuya izah edilir. “Xörək” bölməsi həcmcə daha böyükdür. Burada müəllif insanın qida rejimi, müxtəlif qida məhsulları, xörəklər, içkilər, onların insan orqanizminə təsiri, zərəri və faydası və s. məsələlər barədə məlumat verir. Burada hansı vacib problemlərə toxunulduğunu təsəvvür etməkdən ötrü bölmədəki yarımsərlövhələrə nəzər salmaq kifayətdir: “Azotsuz şeylər”; “Xörəyi həzm etmək”; “Səfərdə olan adamın xörəyi”; “Xörəyi yeməyin vaxtı”; “Uşağın xörəyi”; “Qocanın xörəyi”; “Əlfiyatdan əmələ gələn şeylər” (“Bitkilərdən əmələ gələn yeməklər”); “Heyvanatdan əmələ gələn şeylər” (“Heyvanlardan əmələ gələn qidalar”); “Dadlı şeylər” (“İçkilər”); “Xörəyə vurulan dadlı şeylər” (“Ədviyyatlar”) və s. Diqqətəlayiq cəhət burasıdır ki, göstərilən qida vasitələrinin insan üçün faydasını, tərkibini, onlardan hansı məqamda və hansı həddə istifadə edilməli olduğunu, artıq yedikdə bu qidaların hansı fəsadlara yol açdığını, onları necə emal etmək və bişirməyi və s. müəllif aydın və elmi şəkildə şərh edir.

“Bədəni saxlamaq” bölməsində hərəkət etmək, gəzmək, üzmək, bədəni təmiz saxlamaq, əl və üzü lazımi vaxtlarda yumaq, çimmək və s. məsələlərin insan sağlamlığındakı əhəmiyyəti aydınlaşdırılır. “Paltar” bölməsində alt və üst paltarlar necə olmalıdır, onların rəngi, həcmi, bədənə müvafiq olub-olmaması, uşaq paltarı, səfər paltarı, baş örtüyü, yuxu və yatacaq paltarı, nəm paltarı bədənə geyməyin zərəri və s.-dən söhbət açılır.

Əsərin sonunda Həsən bəy oxucuya müraciətlə deyir: “Salamat bədən Allahın böyük nemətidir ki, hamıya verilib.

Hər kəs xoşbəxt olmaq istəyirsə, həmişə gərək salmat olmağa çalışsın. Çünki xoşbəxtlik mal-dövlət ilə deyil, bədənin salamatlığı ilədir: həzm etməyən mədəyə, yara düşən ciyərə mal-dövlətdən nə olacaq?!” (289, 69) Kitabın sonunda müəllif yazır: “Ona binaən bu kitabçanı oxuyan qardaşlarımızdan iltimas edirik ki, hər bir mətləbi diqqətlə oxuyub ona əməl etsinlər. Ümidvarıq ki, beləda həkim və davaya ehtiyacları

olmasın və əgər olsa da, onların dərdinə əlac etmək mümkün olsun". (289, 69) Doğrudan da, Həsən bəyin bu əsəri "bədəni salamat saxlamaq" elminə dair dəyərli məsləhət və göstərişlər toplusu kimi bu gün də öz əhəmiyyətini itirməmişdir.

H.Zərdabinin fiziki tərbiyəyə həsr olunmuş əsərləri içərisində 1900-cü ildə (4 fevral) "Kaspi" qəzetində dərc olunmuş "Məktəb gigiyenası" adlı məqaləsi də mövzunun, qaldırdığı problemin aktuallığı baxımından diqqəti cəlb edir. Müəllif göstərir ki, hal-hazırda nə dini, nə də dünyəvi təhsil ocaqlarında uşaqların sağlamlığına, fiziki tərbiyəsinə qətiyyən diqqət yetirilmir. Halbuki uşaqların orqanizmi böyüklərə nisbətən daha kövrək və zəifdir. İnkişaf dövrü keçirdikləri üçün onların orqanizminin xüsusi qayğıya ehtiyacı var. Xüsusilə sənaye müəssisələrinin sürətlə çoxaldığı, ətraf aləmin intensiv şəkildə çirkləndiyi istər böyüklərin, istərsə də kiçiklərin səhhətinə pis təsir göstərdiyi bir zamanda bu qayğı və diqqətə xüsusi ehtiyac hiss edilir. Təəssüf ki, dünyəvi məktəblərdə də bu vacib problem tamamilə unudulmuşdur.

Həsən bəy qeyd edir ki, indi bizim təhsil ocaqlarında diqqət yalnız şagirdlərin əqli tərbiyəsinin yüksəldilməsinə yönəldilmişdir. Fiziki tərbiyəyə əhəmiyyət verilmir. Nəticə nəyə gətirib çıxarır: nəticədə uşaqların səhhətinin qayğısına qalınmadığından gözlərin işığı azalır, bel sütunu əyilir, ağ ciyərlər inkişafdan qalır, ürək öz gücünü itirir, əzələlər süstləşir, qan dövranı və qidalanma pozulur. Belə fəsadlar istər-istəməz beyinin inkişafına da mənfi təsir göstərir. Nəticədə əqli tərbiyə sahəsində göstərilən təşəbbüslərin keyfiyyəti də azalır. Yəni əqli tərbiyənin uğurla həyata keçirilməsi bilavasitə uşaqların sağlamlığı və səhhəti ilə bağlıdır. Ona görə də pedaqoqlar bu işin qayğısına qalmalı, dövlət bu istiqamətdə lazımi tədbirlər həyata keçirməlidir. Həsən bəy təklif edir ki, keçilən dərslər oyunlar və müxtəlif fiziki məşğələlərlə müşayiət olunmalı, dərslərin gündəlik sayında və müddətində şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmalıdır.

Görkəmli maarifçi doktor A.A.Lozinskinin o zaman mətbuatda çap olunmuş belə bir təklifi ilə də razılaşır və onu vaxtı çatmış təklif adlandırır. Belə ki, doktor A.A.Lozinski təklif edirdi ki, orta təhsil müəssisələrində fiziki tərbiyəni nəzərdə tutan islahatlar həyata keçirmək lazımdır. Bu islahatlar sırasında Rusiya imperiyasının bütün təhsil dairələrinin nəzdində tibb müfəttişi vəzifəsinin yaradılması təklifi də var idi. Həsən bəy onu da əlavə edirdi ki, Rusiya Təhsil Nazirliyinin 1871-ci il əsasnaməsində həkimlərin məktəblərdə bəzi zəruri tibbi və gigiyenik tədbirlər həyata keçirməsi nəzərdə tutulur. Lakin bununla bağlı maddə hələ də yerinə yetirilməmiş qalır. Halbuki bu, öz həllini gözləyən vacib bir problemdir.

Dediyimiz kimi, milli intibah dövrü Azərbaycan ziyalılarını narahat edən məsələlərdən biri evdə, xüsusilədə məktəblərdə tətbiq edilən cəza rejimi idi. Bu dövrün mütərəqqi məfkurəli tərbiyə nəzəriyyəsində mollaxanalardakı fiziki cəzaya qarşı kəskin etiraz görürük. M.F.Axundovdan sonra XIX yüzilliyin sonlarına doğru H.Zərdabi, M.Şahtaxtlı və b. fikir adamlarımızın mollaxananın cəza rejiminə qarşı kəskin reaksiyasının şahidi oluruq. M.Şahtaxtlı 1882-ci ildə rus dilində Tiflisdə nəşr olunan "Kavkaz" qəzetində işıq üzü görən "Müsəlmanlarda məktəb həyatı" silsilə məqalələrinin ilk bölümündə (1882, 7 aprel) dediyimiz məsələyə geniş yer verir. Molla şagirdlərlə necə sərt davranır, onlara necə və hansı üsullarla cəza verir, mollaxanada cəza aləti kimi falaqqadan necə istifadə edilir və s. Həmin mənzərəni geniş şəkildə, detallarına qədər təsvir edən müəllif onun uşaqların əqli, psixoloji, mənəvi, əxlaqi durumuna mənfi təsirindən də söhbət açır. (237, 241-242) Eyni fikirlərə N.Vəzirov "Əkinçi" qəzetində (1876, 6 noyabr) "Məktubat" rubrikasında oxuculara çatdırılan məqaləsində də toxunur. O zaman universitet tələbəsi olan Nəcəf bəy yazır: "Uşağın bədəni mum kimi şeydir. Uşaqlıqda ona hər nə surət verilsə, o surət onda baqi olacaq. Yəni məktəbxana insanın insan olmağına baisdir. Belədə bizim məktəbxanalara baxan gərək bizi adam hesab eləməsin.

Biçarə uşağı gətirib mollaya verəndə əvvəl zaman molla onu bir böyük şagirdə tapşırır ki, ona “ustad” deyirlər. Ustad onu öyrədir: əlifdən beyətən, yüyürdüm evətən... Xülasə, bir neçə gün müddətində onu özü kimi edir.

Məktəbdə mollanın fələqqəsi və çubuğu, ustadın və qeyri şagirdlərin qapazı, evdə ata ananın yumruq, silləsi və onların hamısının bəd əməli biçarə uşağı bir az zamanda oğru, yalançı və bədbihesablıqdan xəbərdar edir. Necə eləməsin ki, bu şərtlərdən daş daşlığı ilə əzilib tamam olar. Uşağın zərif bədəni buna davam edərmi?” (264, 285) Bu yığcam izahatda əslində N.Vəzirov bir tərbiyəçi-demokrat nəzəri ilə müsəlman maarif ocaqlarından tutmuş ailə və sosial mühitə qədər hər yerdə uşağın necə cismani təzyiqə məruz qaldığını, əzildiyini bunun nəticədə gənc nəslin həm fiziki, həm də mənəvi, ruhi aləminə neqativ təsir göstərdiyini aydınlaşdırır.

Ö.F.Nemanzadə öz “Xatirələr”ində qeyd edir ki, mollaxanalardakı cəza mühiti uşaqların şadlıq, sevinc hisslərini əlindən alır, onlarda qorxu, vahimə, cəsarətsizlik duyğuları formalaşdırır, onların məktəbə, dərsə, kitablara həvəsini söndürürdü. Şagirdlər dərs oxumaq yox, yalnız müəllimin cəza və töhmətindən yayınmaq, can qurtarmaq barədə yollar axtarırdılar. Nəticədə təlim ikinci plana keçir, heç bir səmərə vermirdi. (189, 408-409)

M.Ə.Rəsulzadə köhnə məktəblərdə şagirdlərin səhhəti üçün heç bir şərait və qayğının olmamasını millət balalarının sağlamlığına biganəlik, bağışlanmaz hal hesab edirdi. “Məktəb və mədrəsə” risaləsinin ilk bölümündə (“Açıq söz”, 1916, 15 mart) Rudolfun layihəsini şərh edərkən bu məsələyə toxunan Məhəmməd Əmin bəy köhnə məktəblərdə sağlamlıq üçün mövcud olan dözülməz vəziyyətə diqqəti cəlb edərək yazırdı: “Rudolf ilə bərabər hər bir müsəlman ürəfası və onlarla bərabər biz də qəbul edəriz ki, məscid məktəblərimizin Nuh əyyamına məxsus bir üsuli-tədrislə qalması zavallı millət balalarının heyvan kibi qaranlıq, rütubi, hifz-əl-sihhədən uzaq bir damxayə tıqılıb da, bədənən və ruhən əziyyətlərə salınması təhəmmül

olunacaq bir hal degildir. Qəbul edəriz ki, bu məktəblər üstündə canı yanan bir əl, iş anlayan bir göz olmazsa, millətin orada tərbiyə degil, tərzil edildiginə hökm verməlidir”. (213, 428) M.Ə.Rəsulzadə köhnə məktəblərin “hifz-əl-səhhəyə” (sağlamlığın qorunmasına) qətiyyən yaramadığını nəzərə çatdıraraq buna çarə axtarmağın təxirəsalınmaz zərurət olduğunu göstərir.

XX əsrin əvvəllərində fiziki tərbiyə ilə məhsuldar şəkildə məşğul olanlardan biri N.Nərimanov olmuşdur. Bu həm də onun ixtisası ilə bağlı idi. İxtisasca həkim olan Nərimanov bu sahəni yaxşı bilir, uşaqlara və ümumiyyətlə, ictimaiyyətə insan orqanizmini sağlam saxlamaq yolları barədə dəyərli elmi məsləhətlər verir. Deyilən məsələ ilə əlaqədar onun bir neçə məqaləsi vardır. Bunlardan aşağıdakıları göstərə bilərik: “Əziz balalar!” (“Məktəb”, 1911, №1,2; 1912, №4, 5); “Məktəbyaşlı uşaqların döş qəfəsinə diqqət yetirmək nə üçün zəruridir?” (“Novıy jurnal natsionalnoqo vospitaniya”, 1912, №5); “Hifzül-səhhət”. Doktor Kərimbəy Sultanov” (“Yeni iqbal”, 1916, 11 yanvar) və s. Bundan əlavə N.Nərimanov 1911-ci ildə Həştərxanda sürgündə olarkən burada keçirilən həkimlər cəmiyyətinin ikinci qəza qurultayında maraqlı elmi məruzə ilə çıxış etmiş, həmin çıxışın mətni rus dilində “İzvestiya” jurnalında dərc edilmişdir. Təəssüf ki, həmin mətbu çıxışı əldə edə bilmədik.

N.Nərimanovun “Məktəb” jurnalının ilk sayından (1911, №1) başlayaraq ardıcıl şəkildə dörd nömrəsində işıq üzü görən “Əziz balalar!” sərlövhəli məqaləsinin birincidən başqa sonrakı üç nömrədəki hissələri (1911, №2; 1912, №4,5) bütünlüklə fiziki tərbiyə məsələlərinə həsr olunmuşdur. Müəllif burada uşaqlara xitabən sadə, aydın və elmi bir dillə “bədəni salamat saxlamağın” əhəmiyyətindən və qaydalarından danışır. Xalqın övladlarını başa salmağa çalışır ki, “elm və fənlərin təhsilinə diqqət yetirmək” nə qədər vacibdirsə, hər kəs üçün öz səhhətinin qayğısına qalmaq da bir o qədər vacibdir. Təhsilin, elmləri mənimsəməyin, bilikləri yetərincə əxz etməyin fiziki

sağlamlıqla sıx bağlı olduğunu anlatmaq məqsədilə müəllif uşaqlara müraciətlə yazır: "Əziz balalar! Elm və fənlərin təhsilinə diqqət etdiyiniz kimi bədəninizin salamaq olmağına da diqqət etməyiniz gərəkdir. Hər bir vaxt, hər bir işdə, ələlxüsus elm təhsilində bədən gərəkdir ki, salamat olsun. Qədim filosoflar demişlər: "Sağlam ruh sağlam bədəndə olar". Həqiqətdə belədir. Məsələn, tutalım ki, məktəb yoldaşlarından biri çox tez-tez baş ağrısına mübtəla olur. İnsanın başı, ya bir başqa üzvü ağrıyırsa, onun beyninə heç bir şey girməz. Ağrı onun fikrini dağıdar. Qüvveyi-hafizəsi zəifləşər, yəni gördüyü, eşitdiyi, oxuduğu beynində lazımınca nəqş salmaz. Böylə olan surətdə, yəni tez-tez baş ağrısına və ya bir başqa naxoşluğa mübtəla olan uşaq, əlbəttə, dərslərini öyrənəcəkdir. Əgər öyrənsə də, tez unudacaqdır. Çünki böylə uşağın qüvvəsi, hafizəsi zəif olar. Yəni demək istəyirik ki, böylə tez-tez naxoşlayan şagird elm təhsilində tərəqqi edə bilməyəcəkdir. Elmdə tərəqqisi olmayanın ruhu da zəif olar". (162, 1911, №1, s.2)

Bu cür sadə izahatdan sonra N.Nərimanov uşaqlara evdə, məişətdə və məktəbdə gigiyena və sağlamlıq qaydalarına riayət etməkdən ötrü bir sıra gərəkli məsləhətlər verir. Öz məsləhət və göstərişlərini verərkən sadə, anlaşıqlı həyati dəlillər gətirir. Göstərir ki, həyatda çoxlu sayda xəstəlik törədiciləri olan kiçik orqanizmlər vardır ki, onlara mikrob, bakteriya deyirlər. Hər bir naxoşluğun da öz törədiciləri olan təkhüceyrəlilər var ki, adi gözlə görünmür. Müəllif xəstəlif törədiciləri olan həmin mikrob və bakteriyaların suda, qidalarda, torpaqda, havada, ev şəraitində, paltarda, insan orqanizmində necə törəyib sürətlə artdığından, orqanizmi xəstəliyə necə yoluxdurduğundan ətraflı söhbət açır. Çirkli, natəmiz mühitdə belə naxoşluq törədicilərinin daha sürətlə çoxalıb yeni-yeni fəsadlar törətdiyini izah edir. Uşaqları başa salır ki, belə xəstəliklərə məruz qalmamaq, naxoşluqlardan yaxa qurtarmaq üçün təmiz və təbii qidalarla qidalanmalı, təmiz su içməli, paltarları təmiz saxlamalı, təmiz hava ilə nəfəs almalı, ev, həyat, məişət və

məktəb şəraitində gigiyena qaydalarına əməl olunmalıdır. Uşaqlar istər evdə, istər işləyərkən, istər oynayarkən, istər məktəbdə olarkən, istərsə də başqaları ilə ünsiyyət tutarkən tibbi-gigiyenik qaydaları gözləməlidir. N.Nərimanov gənc nəslə qidalar və qida rejimi, bədəni, paltarları, xüsusilə əlləri və üzü təmiz saxlamaq, özünü xəstəliklərdən necə mühafizə etməklə əlaqədar dəyərli göstərişlər verir. İzahatlar bu cür sadə və təsirli, uşaqların səviyyəsinə uyğun bir dillə kiçik oxuculara çatdırılır: "Böylə olan surətdə gərəkdir məktəb otağını təmiz saxlamaq, tozdan xilas etmək, hər saatda otağın havasını dəyişmək, dərs qurtaranda otaqda oturmamaq, atılıb düşməmək, otaqda yerə tüpürməmək. Çünki tüpürcəkdəki mikroblar sonra quruyub toz ilə havaya qalxır və bir qeyrisinin ağzına daxil olur.

Dərsləriniz qurtarandan sonra üstünüzü şotka ilə təmizləməmiş evinizə getməyiniz. Evə gəldiyiniz vaxt əllərinizi, üzünüzü sabun ilə yuyunuz. Ağzınızı su ilə çalxalayınız. Ondan sonra süfrəyə oturub təam ediniz". (162, 1911, №4, s.3)

Rus dilində qələmə alınmış "Məktəbyaşlı uşaqların döş qəfəsinə diqqət yetirmək nə üçün zəruridir?" məqaləsi daha çox valideynlərə ünvanlanmış və onları sərlövhədə zikr olunan məsələ ilə bağlı maarifləndirmək məqsədi güdür. (Məqalə H.Əhmədov tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir. Bax: "Azərbaycan məktəbi", 1976, №5, s. 51-55; H.Əhmədov. Seçilmiş əsərləri. II cild. B., 2006, s. 113-120) Müəllif bir tərbiyəçi həkim kimi valideynlərə tövsiyə edir ki, onlar kiçik yaşlarından etibarən övladlarının döş qəfəslərinin düzgün inkişaf edib-etmədiyinə diqqət yetirsinlər. Çünki döş qəfəsində uşaq yaşlarında baş verən patalogiyalar uşaq böyüdükcə onun onurğa sütununa, ağ ciyər və tənəffüs sisteminə də mənfi təsir göstərir. Bu isə öz növbəsində orqanizmi hələ möhkəmlənməmiş uşağın səhhətində müəyyən fəsadlara yol açır. Nərimanov əvvəlcə döş qəfəsinin quruluşu, funksiyası barədə oxucuda dürüst təsəvvür yaradır. Sonra onun qayğısına necə qalmaq, baş verən deformasiya və qüsurlardan necə xəbər tutmaq və bunları aradan hansı vasitələrlə qaldırmaq barədə elmi məsləhətlər verir.

"Füyuzat" jurnalı da fiziki tərbiyə məsələlərinə öz səhifələrində yer ayırır. Məcmuənin 1907-ci ildə 8-ci nömrəsində H.Zərdabinin "Hifzi-səhhət" sərlövhəli məqaləsində gigiyena qaydaları, insanın öz səhhətini necə qorumalı olduğu barədə faydalı tövsiyələrlə üzləşirik. Jurnalın 1907-ci ildəki 27 və 28-ci saylarında Ə.Hüseynzadənin "Xolera" sərlövhəli geniş həcmli məqaləsi oxuculara təqdim edilmişdir. Həmin elmi məqalədə Əli bəy (o həm də həkim idi) ictimaiyyətə xolera xəstəliyi, onun yaranma səbəbləri, əlamətləri, ondan qorunmağın və xəstəliyin müalicəsinin yolları barədə qiymətli bilgi verir.

O zamankı pedaqoji cəbhənin və hərəkatın öncüllərindən olan S.M.Qənizadə böyüməkdə olan nəslin fiziki tərbiyəyə ciddi ehtiyacı olduğunu yaxşı dərk edirdi. Pedaqoq-sənətkar "Məktubati-Şeyda bəy Şirvani" romanında özünün prototipi olan müəllim Şeyda bəyin düşüncələri fonunda deyilən problemin mahiyyətini belə ifadə edirdi: "Elm ilə sübut olunubdur ki, zahirdəki cism aləmi ilə batini ruh aləminin bir-birlərinə təsirləri çoxdur. Bədənin və libasın təmiz və nəzifliyi ruhun və qanın saf və səfalı olmasına mütəəssirdir və bərəks, zahirin xuşunət və kəsaləti qanın kəsafətinə və ruhun qəsavətinə səbəb olur". (147, 18)

S.M.Qənizadənin "Körpə uşaqlar tərbiyəsi" adlı elmi-pedaqoji əsəri bizim milli tərbiyə nəzəriyyəmiz tarixində körpə uşaqların fiziki tərbiyəsinə həsr olunmuş ən qiymətli nümunələrdən biridir. O həm də ana dilimizdə yeni doğulmuş və lap kiçik yaşlı uşaqların fiziki tərbiyəsi ilə əlaqədar ilk əsər sayıla bilər.

"Körpə uşaqlar tərbiyəsi" ilk dəfə 1906-1907-ci illərdə "Rəhbər" adlı pedaqoji jurnalda (1906, №2, 3, 4; 1907, №5) işıq üzü görmüş, 1921-ci ildə müəllif əsəri kiçik dəyişiklərlə "Füqəra füyuzatı" (№3) jurnalında yenidən çap etdirmişdir.

S.M.Qənizadə əsərin əvvəlində Azərbaycan dilində "Körpə uşaqlara pərvəriş vermək xüsusunda" indiyədək münasib bir ədəbiyyatın olmadığından, belə bir məqalənin həmin boşluğu qismən də olsa, doldurmaq məqsədindən

meydana gəldiyini söyləyir. Qeyd edir ki, tərbiyə məsələsi bəşər aləmində “ən ali və ən mühüm məsələdir”. Valideynin övladını lazımınca tərbiyə etməsi isə onun “din borcudur”. Çünki “övlad həyat səmərəsidir”. Hər bir təklifdən əvvəl övlad tərbiyəsi irəlidir”. (44, 390) Tərbiyə işi isə ən çətin və məsuliyyətli bir işdir, onu düzgün “icra etmək üçün elm və təcrübə” lazımdır. Müəllif onu da əlavə edir ki, elmli ana-atanın övladı nadan valideynlərin övladından daha gözəl tərbiyə almış olar.

Əsərdə göstərilir ki, yer üzünün əşrəfi olan insanın həm bu dünyadakı normal yaşayışı, həm də axirət səadəti üçün o, tərbiyə almalıdır. Tərbiyə isə iki yerə ayrılır: mənəvi tərbiyə (ruhun tərbiyəsi); cismani tərbiyə. Cismani tərbiyənin nə olduğunu pedaqoq alim belə izah edir: “Cism tərbiyəsi cismi-səhhət, lakin müraat edərək balanın əza və zahiri hissələrin səhhət üzrə kamala yetirməyi öyrədir... İnsanın zatında qoyulan istedad cövhərləri ancaq tərbiyə seyqəli ilə parlayıb qabili-feyz və maili-idrak ola bilərlər”. (44, 392)

Müəllif cismin tərbiyəsinə nə vaxtdan başlamaq, onu necə, hansı üsul və yollarla aparmaq barədə dəyərli elmi fikirlər söyləyir, tövsiyələr verir. Bu məlumat və tövsiyələr təbabət, gigiyena, psixologiya və pedaqogika elmlərinin son nailiyyətlərinə əsaslanır. Övladın fiziki tərbiyəsinə nə vaxtdan başlamaq lazımdır? – sualına müəllif dediyimiz elmlərin məntiqinə əsasən belə cavab verir: “Cism tərbiyəsi balaya ən körpəliyindən vacibdir və bəlkə, həmin tərbiyə hələ bala ana bətnində olan əyyamda başlansa gərəkdir”. Bunun səbəbi də əsərdə tutarlı dəlillərlə aydınlaşdırılır. Ana hamilə olarkən onun yaşadığı mühit və şəraitin, keçirdiyi hisslərin, malik olduğu ovqatın, qəbul etdiyi qidaların tədricən ana bətnindəki körpəyə sirayət etdiyini inandırıcı şəkildə söyləyən Sultan Məcid tərbiyə prosesində gecikməyin, yanlışlıqlara yol verməyin sonradan məyusedici nəticələr doğurduğunu da nəzərə çatdırır. Ümumiyyətlə, əsərin xeyli hissəsi “ana bətnində tərbiyə” məsələsindən bəhs edir. Körpənin sağlam doğulması üçün hamilə qadın necə, hansı şəraitdə yaşamalı, necə qidalanmalı,

onu əhatə edən sosial mühit necə olmalıdır? və s. Bu barədə təsəvvür yaratdıqdan sonra pedaqoq alim körpəyə doğulduqdan sonra necə qulluq etmək, cismani sağlamlığı naminə uşağı necə saxlayıb qidalandırmaq məsələlərinin elmi şərhini verir. Buraya körpəni bələməkdən tutmuş qidalandırmağa, yuyundurmağa qədər əsas fiziki xidmət və tərbiyə qaydaları daxildir.

S.M.Qənizadə Qafqazda müsəlmanlar arasında uşaqlara qulluq etmək istiqamətində mövcud olan çoxlu qüsur və kəsirli cəhətlərdən də söhbət açır. Faktlar əsasında göstərir ki, bu qüsurlar bəzən hətta mövhumat səviyyəsinə varır. Məsələn, cinə, şəyatinə və s. mövhumi qüvvələrə, yaxud türkəçarələrə inam bu qüsurlar sırasındadır.

S.M.Qənizadənin "Körpə uşaqlar tərbiyəsi" əsəri o dövr üçün körpə uşaqlara xidmət və onların səhhətinin qayğısına necə qalmaq mənasında dəyərli bir dərslik məzmunu kəsb edirdi. Əsərdəki müddəaların çoxu bu gün də öz dəyərini saxlamaqdadır.

Y.V.Çəmənzəminlinin "Ana və analıq" adlı tərbiyəyə həsr olunmuş geniş həcmli bir əsəri vardır. 1914-cü ildə qələmə alınmış bu pedaqoji məzmunlu risalədə müsəlman cəmiyyətlərində ana, onun vəziyyəti, ananın bir valideyn kimi öz vəzifələrini necə yerinə yetirə bilməsi məsələlərindən geniş söhbət açılır. Müsəlman sosial və ailə mühitində ananın öz analıq vəzifələrini yerinə yetirmək imkanından məhrumluğu, onun səbəbləri geniş şəkildə şərh edilir. Müxtəlif tərbiyə növlərində islam qadınlarının savadsız, sadəlövh, naqis davranışları təsvir edilir. Yusif Vəzir burada azərbaycanlı anaların öz övladlarının fiziki tərbiyəsi ilə də yetərincə məşğul ola bilməməsindən danışır. Onların səhhətinin qayğısına kifayət qədər qala bilməməsinin səbəblərini izah edir. Bunun elmsizlik, maarifsizlik, bilik və məlumatsızlıq, bəzi mövhumi şeylərə inamla, həmçinin hüquqsuzluqla bağlı olduğunu göstərir. Risalənin "Analı yetimlər" adlanan 10-cu hissəsində maraqlı bir müqayisə aparır. Qeyd edir ki, mən ayrı-ayrı vaxtlarda həm əcnəbi, həm də müsəlman uşaqlarına dərs keçirdim. Əcnəbi

uşaqları təmiz, səliqəli geyinir, üst-başları həmişə səliqə-səhmanlı olurdu. Müsəlman uşaqlarında isə bunun tamamilə əksini görürdüm. Bu, məni narahat edirdi. Analıq vəzifəsinin nədən ibarət olduğu barədə müəllifin belə bir qənaəti ilə razılaşmamaq mümkün deyildi: "Analıq bir uşaq doğmaqdan ibarət deyil. Ana insanlara cismani və ruhani dirilik verən arvadlara deyirlər ki, elm və çox biliklə islah olunub kamilliyə çatıblar". (65, 163) Sənətkar müsəlman analarını öz övladlarının sağlamlığının, təmizliyinin qayğısına qalmağa çağırır. Eyni zamanda mövcud nöqsanın səbəbini elm və maarifsizlikdə görərək həmin sosial bəlanı aradan qaldırmağın zəruri olduğunu söyləyir. Bildirir ki, nə qədər ki, biz cismən sağlam övladlar böyüdə bilən analar tərbiyə edə bilməmişik, milli tərəqqi və yüksəlişə nail ola bilmərik. Xəstə və tərbiyəsiz nəsillə xoşbəxt gələcək qurmaq mümkün deyil.

Y.V.Çəmənzəminlinin "Ana və analıq" risaləsi ilə bağlı vacib bir məsələyə də diqqəti cəlb etmək istəyirik. Dolğun pedaqoji məzmuna malik bu əsər, təəssüf ki, indiyə qədər bizim pedaqogika və tərbiyə nəzəriyyəsi ilə bağlı araşdırma aparan mütəxəssislərimizin diqqətindən kənarda qalmışdır. Halbuki həmin əsərdə qaldırılan məsələlərin bir çoxu indi də öz aktuallığını saxlayır. İkincisi, bizim milli tərbiyə nəzəriyyəmizin tarixi faktlarını öyrənmək baxımından da həmin pedaqoji risaləni hərtərəfli təhlil etmək faydalı olardı.

H.Cavidin "Həsbi-hal" adlı iri həcmli məqaləsi XX əsrin onuncu illərinin əvvəllərində qələmə alınmışdır. Müəllifin beş bölməyə ayırdığı bu əsər sırf pedaqoji məzmunludur. Məqalədə məktəb, maarif, müəllim və onun şəxsiyyəti, tərbiyə, təlim və s. kimi pedaqoji problemlərdən danışılır. Məqalənin ikinci və dördüncü hissələrində Cavid uşaqların fiziki tərbiyəsi ilə bağlı mülahizələrə də xeyli yer verir. Müəllif xatırladır ki, övladın tərbiyə və qayğısına mükəlləf olan valideynin ilk borcu uşağının səhhətini qorumaq, onu sağlam böyütməkdir. Bu ata-ananın müqəddəs borcudur. Tərbiyəçi sənətkar yazır: "Ailə tərbiyəsi və səhhəti, bədən, vücud sağlamlığı həyati-bəşəriyyənin ən mühüm

əsasını təşkil edir. Vücudun sağlam olmasının yeganə səbəbi və müəssiri isə ata-anadır”. (55, 196)

Müəllif göstərir ki, bir çox uşaqların xəstə doğulmasının, yaxud doğulduqdan sonra müəyyən mərəzə düçar olmasının səbəbkarları çox zaman valideynlər olur. Onlar ya biliksizlikdən, ya laqeydlikdən, ya da bir başqa səbəbdən uşaqlarının səhhətinin qayğısına qala bilmir, nəticədə cəmiyyətə xəstə övladlar bəxş edirlər. Bu, həm ailə, həm uşağın özü, həm də cəmiyyət üçün fəlakət deməkdir. H.Cavid Herbert Spenserin belə bir kəlamını xatırladır: sağlamlıq qaydalarına zidd olan hər bir əməl böyük günahdır. Buna görə də ata-analar cocuqlarının hansı şəraitdə yaşamasından, təmizlik qaydalarına riayət etməsindən tutmuş, nəfəs aldığı havaya, qida rejiminə, oynadığı mühitə, ünsiyyətdə olduğu uşaqların xəstə olub-olmadığına qədər hər şeylə maraqlanmalı, bunları nəzarətdə saxlamalıdır.

H.Cavid uşaqların sağlamlığını qorumaqdan ötrü məktəbin də üzərinə ciddi vəzifələr düşdüyünü söyləyir. Qeyd edir ki: “Təlim-tərbiyə məsələsində ilk nəzəri-diqqətə alınacaq nöqtə məktəblərdir, məktəb otaqlarıdır. Məktəblər səhhəti ixlal etməyəcək dərəcədə havadar, uca yerlərdə yapılmalıdır. Pis, murdar, üfunətli yerlərdən uzaq olmalıdır. Xəstəxana, həbsxana, məzarıstan kimi yapı (bina)lara yaxlaşmamalıdır. Məktəb binası mümkün dərəcədə günəş yerlərdə vaqe olmalı, rütübəti çox olan yerlərdən həzər etməlidir”. (55, 201) Sonra sənətkar əsl pedaqoq və gigiyena mütəxəssisi baxışı ilə sinif otaqlarının quruluşu, partaların (skamyaların) düzülüşü, sinif otağında pəncərələrin hansı səmtdə olması, partaların şagirdlərin boyuna uyğunluğu, otaqda havanın dövriyyəsi və otağın işıqlandırılması, şagirdlərin oturuş qaydaları, otağı təmiz saxlamağın zərurəti və s. barədə dəyərli tövsiyələr verir. Bildirir ki, məktəbdə şagirdə dürüst təlim verməzdən əvvəl onun səhhətinin qayğısına qalmaq, bunun üçün lazımi tədbirlər görmək məktəb rəhbərliyinin və müəllimin borcudur.

XIX-XX yüzilliklərin qovşağında meydana gəlmiş məktəb dərsliklərində və pedaqoji mətbuatında da fiziki tərbiyəyə,

bununla bağlı materialların verilməsinə müəyyən diqqət ayrılırdı. Bundan əlavə o dövrdə “hifz-əl səhhə” (“sağlamlıq və gigiyena”) elmi ilə bağlı bir neçə kitabın çap edilib ictimaiyyətin mütaliəsinə təqdim edildiyini də görürük. Əlbəttə, bunlar fiziki tərbiyədə nəzəri aspektdə atılan uğurlu addımlar idi. Məsələn, M.Mahmudbəyov və A.Səhhətin “Yeni məktəb” dərsliyinin son nəşrində (1918) V bölmə bütünlüklə fiziki tərbiyə məsələlərinə həsr olunmuşdu. Bunu anlamaq üçün “İnsan” adlanan həmin bölmənin yarımsərlövhələrinə nəzər salmaq kifayətdir: “İnsanın bədəni”; “Qəd və ya iskilet”; “Ət və bədənin hərəkəti”; “Bədənin qeydində olmalı”; “Bədənin təqdisi”; “Dişlər”; “Qan”; “Qanın bədəndə dolanması”; “Saf qan və qara qan”; “Hava və nəfəs alma”; “Sinir və əsəblər”; “Beş duyğu üzvü”; “İstiölçən-termometr”; “Can sağlığı və naxoşluq”; “Təmizlik can sağlığına səbəbdir”. Dərslikdə göstərilən bu yarımsərlövhələrin məzmununa uyğun yığcam elmi məlumatlar verilir. Şagirdlər gigiyena qaydalarına aid xeyli zəruri bilgi ala bilirlər. Mövzularla bağlı bir neçə şəkil də verilir. Şəkillər verilən məlumatları daha da dolğunlaşdırır və əyaniləşdirir.

“Dəbistan” (1906-1908), “Rəhbər” (1906-1907), “Məktəb” (1911-1920) kimi pedaqoji mətbuat orqanları da zikr olunan məsələyə müəyyən diqqət yetirir. Məsələn, “Dəbistan” jurnalında işıq üzü görən doktor Bəhram bəy Axundovun “Tənbəki və tütünün zərəri” (1906, №6, 9) müəllifi göstərilməyən “Dırnaq çeynəmək və onun zərəri” (1906, №7) məqalələri, “Rəhbər” jurnalında S.M.Qənizadənin yuxarıda haqqında danışdığımız “Körpə uşaqlar tərbiyəsi” (1906, №2, 3, 4; 1907, 5) məqaləsi fiziki tərbiyə mövzusundadır. “Məktəb” jurnalında isə belə elmi-pedaqoji yazıların sayı daha çoxdur. Məcmuədə ayrıca “Hifz-əl səhhə” adlı rubrika fəaliyyət göstərir, bu rubrikada fiziki tərbiyə mövzusunda maraqlı elmi-pedaqoji məqalələr çap olunub oxuculara təqdim edilirdi. Həmin yazılardan bəzilərinin adlarına nəzər salaq: Səmədov – “Təharət və nizam” (1911, №1); M.S.Seyidov – “Bədənin səlamətligi” (1911, №3; 1912, №16); “Ətfal” məcmuəsindən – “Tütün”

(1913, №1); H.Zərdabi – "Yuxu və yatacaq paltarı" (1915, №13); H.Zərdabi – "Ev" (1916, №10); Ağahəsən Mirzəzadə – "Dişi necə saxlamaq lazımdır" (1915, №9); H.Zərdabi – "Çayda çimmək" (1915, №10); H.Zərdabi – "Əl və dırnaqlardan mütəvəcce olmaq" (1915, №11); Müəllifi göstərilməyib – "Baş tükünü saxlamaq" (1915, №12) və s. Bir məsələyə də aydınlıq gətirək H.Zərdabinin məqalələri müəllifin ölümündən sonra 1914-cü ildə çap olunan "Bədəni salamat saxlamaq düsturüləməlidir" kitabından götürülüb jurnala daxil edilirdi.

Haqqında danışdığımız dövrdə fiziki tərbiyə, sağlamlıq məsələsi ilə bağlı bəzi elmi-kütləvi kitabların ərsəyə gəlməsi də təqdirəlayiq hadisədir. Həmin kitablardan bir neçəsinin adını nümunə kimi xatırlatmaq yerinə düşər: Müəllifi göstərilməyib – "Vəba (xolera) naxoşluğundan insan ehtiyatlı olub canını mühafizə etməyin bəyan edən qəvaid və pəndnamədir" (1890); Cavanşir Qarabaği – "Tədbirül-həvamil" (hamilə qadınlara məsləhət - 1893); Müəllifi göstərilməyib – "Çiçək naxoşluğuna necə kömək etmək. Qızılca. Siflis. Körpə məmə əmən uşağa necə məmə vermək" (1903); V.M.Arsruni – "Xalq qanmağa asan olan füqəra əhalilərə məxsus vəba azarı haqqında bir inşadır" (1904); Müəllifi göstərilməyib – "Vəbadan mühafizə üçün lazım olan tədabir barəsində" (1908); Vəliş – "Şagirdlərin səlamətligi" (1911); V.Lukyanskaya – "Ümmilfəsad və yaxud şərab" (ruscadan tərcümə edənləri: H.İ.Qasımov, A.Kazımzadə – 1911); Müəllifi göstərilməyib – "Sill qurutma azarı haqqında" (ruscadan tərcümə – 1913); Kərim bəy Sultanov – "Hifzüs-səhhə" (Camaat arasında çox intişar tapan bəzi misri və qeyri-misri azarlar barəsində müxtəsərcə məlumat – 1913); H.A.Viqdoroçik – "Hər bir mərizxana sandıqçasında" iştirak edən şəxsə lazım olan məsələlər" (mütərcimi: İ.M.-zadə – 1914); N.Nərimanov, N.Rozonov – "Göz ağrısı. Traxoma" (1917) və s.

Bu kitablar içərisində Vəliş adlı müəllifin 18 səhifəlik kitabça həcmində nəşr olunan "Şagirdlərin səlamətliyi" əsəri xüsusilə diqqəti cəlb edir. Kitab şagirdlərin

“mühafizeyi-səhhətləri üçün” tərtib edilmişdi. Həcmcə kiçik olsa da, burada uşaqlar, xüsusilə də məktəbə gedən kiçik yaşlılardan ötrü yığcam və gərəkli tibbi, gigiyenik məsləhətlər öz əksini tapmışdı. Kitabçada şagirdlərə yatmaq, yemək, içmək, geyinmək, oynamaq, sinif otağında rəftar, yoldaşlarla ünsiyyət zamanı, habelə evdə, ailədə və s. olarkən sağlamlıq, orqanizmi müxtəlif xəstəliklərdən mühafizə etmək naminə necə davranmaq qaydaları şərh olunur. Uşaqlara başa salınır ki, bu qaydalara əməl etməklə onlar sağlam və gümrah böyüyə bilərlər. Sağlamlıq isə onların gələcək xoşbəxtliyi deməkdir.

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycanın əməlpərvər ziyalılarının fiziki tərbiyə sahəsində gördükləri nəzəri və əməli işlər sonrakı dövrdə həmin aspektdə daha böyük uğurların qazanılması yolunda əlverişli təkan və stimul rolunu oynadı.

## 4.2. Azərbaycan maarifçiləri əmək tərbiyəsi haqqında

XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin pedaqoji irsində, habelə müxtəlif mövzuda qələmə alınmış əsərlərində əmək tərbiyəsi ilə əlaqədar dəyərli fikirlərə rast gəlirik. Əslində bu fikirlər öz rişəsini daha qədim dövrlərdən götürmüşdür. İstər başqa xalqlarda, istərsə də Azərbaycanda qabaqcıl fikir adamları əməyə, zəhmətə ciddi dəyər vermiş, insanları əməksevərliyə, işə fəaliyyətə səsləmiş, tənbəllikdən, ətalətdən uzaq olmağa təşviq etmişlər. Məsələn, böyük Azərbaycan şairi N.Gəncəvi yazır:

Bacarsan, hamının yükünü sən çək,
İnsan ən böyük şərəfdir əmək.

N.Tusi əməyi həm maddi dünya, həm də axirət səadətinə qovuşmaqdan ötrü ən mühüm vasitə hesab edir. Onun fikrincə tənbəllik, süstlük, işdən-gücdən uzaq yaşamaq bəşər övladının istər bu dünyadakı, istərsə də axirətdəki xoşbəxtliyini əlindən alır. Hər iki dünyada üzü ağ, məsud yaşamaqdan ötrü insanın yerinə yetirməli olduğu vacib vəzifələrdən biri zəhmətə

qatlaşmaq, müftəxorluqdan, tənbəllikdən uzaq olmaqdır. N.Tusi öz fikirlərini belə izah edir: "Tənbəlliyi sevmək hər iki dünyanı bada vermək deməkdir, çünki dolanacağa ehmallıq insanın ölümünə, o da nəslin məhvinə səbəb olar. Bu iki bəladan çoxlu başqa rəzalətlər də törəyər. Axirətə bir gün qazanmadığından tənbəllik son dərəcəyə çatar, o dünyanın səadətindən də əli çıxar. Böyük yaradanın borcunu qaytarmadığı üçün bu, əslində o həzrətlə öçəşmək, onunla düşmənçilik (ilahi, özün onun cəzasını ver) etmək kimi olar.

Tənbəllik və kəsalət belə rəzalətlərə səbəb olduğundan onun qəbih və murdarlığı haqqında uzun-uzadı danışmağına dəyməz". (258, 140)

Dünyanın görkəmli pedaqoqları da bəşər həyatında əməyi onun varlığını, yaşayışını və xoşbəxtliyini təsdiq və təmin edən ən mühüm faktor hesab etmişlər. Həm də əməyə yalnız insanın maddi yaşayışını təmin edən bir vasitə kimi yox, həm də bəşər övladının mənəvi, əxlaqi aləminin saflaşmasına, kamilləşməsinə xidmət edən mühüm bir amil kimi baxmışlar. K.D.Uşinskinin aşağıdakı sözlərini dünyanın mütərəqqi baxışlı pedaqoqlarının ümumi və yekdil rəyi kimi qiymətləndirmək olar: "Əmək insandan təbiətə doğru istiqamət alaraq, əksinə, qayıdıb insana təsir edir; özü də tək onun tələbatını təmin etmək və onların dairəsini genişləndirməklə kifayətlənməyərək, həm də yalnız onun özünə xas olan bir qüvvə ilə gətirdiyi maddi nemətlərdən asılı olmayaraq daxilən təsir edir. Əməyin maddi səmərələri insanın mal-mülkünü təşkil edir, lakin əməyin yalnız daxili, mənəvi yaradıcı qüvvəsi insan ləyaqətinin və bununla birlikdə əxlaq və xoşbəxtliyin mənbəyini təşkil edir". (259, 55)

Azərbaycan mütəfəkkirləri zəhmətkeşliyi daim zəruri insani keyfiyyət kimi təbliğ etmişlər. Onlar başa düşmüşlər ki, əmək yalnız insanın fərdi rifah və güzəranını təmin etmək üçün deyil, həm də ümumilikdə cəmiyyətin rifahını yüksəltməkdən ötrü gərəklidir. Buna görə də onlar öz əsərlərində mütəmadi olaraq çalışqanlığı, əməyin müsbət cəhətlərini kütləyə anlatmaq problemini diqqət mərkəzində saxlamışlar. Biz xalqımızın tarixi

inkişafında yeni dövr, yeni tarixi mərhələ kimi səciyyələnən XIX əsrdə də bunun şahidi oluruq. İlk maarifçilərimizdən A.Bakıxanov, bir sıra əsərlərində, o cümlədən əxlaqi-didaktik səciyyə daşıyan "Kitabi-nəsihət" əsərində də dediyimiz məsələyə xüsusi diqqət yetirir. Əsərdə zəhmət və tənbəllik mövzusunda gənc nəslə bu cür dəyərli nəsihətlər verilir:

"– Tənbəllikdən qorx ki, o, bütün eyblərdən daha pisdir. Çünki bu dünyada heç şey işsiz deyildir;

– Allah hər şeyi dünyanı nizamda saxlamaq üçün yaratmışdır ki, bir şey o bir şey olmadan yaşaya bilməz. Sən də onlardan birisən. Əgər işsiz qalsan, daş və palçıq səndən daha yaxşıdır. Çünki onlar bir ev tikməyə yarayırlar;

– Əməksiz və çalışmadan Allahdan nemət gözləmək əbəsdir. Çünki bir işi görməyənə əta etmək qələti bağışlamaq deməkdir". (47, 352-358)

Azərbaycan milli mətbuatının ilk qaranquşu "Əkinçi" qəzeti öz səhifələrində əmək tərbiyəsi ilə bağlı məsələlərə də xüsusi yer ayırırdı. Qəzetin 20 sentyabr 1875-ci il tarixli nömrəsində "Daxiliyyə" sərlövhəli baş məqalədə H.Zərdabi göstərirdi ki, indiki zəmanədə bir çox insanlar "zəmanənin xeyirsiz və bərəkətsiz" olmasından çox danışırlar. Amma heç bunun fərqinə varan yoxdur ki, "zəmanənin xeyirsiz və bərəkətsiz" olmasının səbəbi nədir. Sonra müəllif həmin səbəblərin izahına keçir. Bunun səbəbini bir çoxlarının zəhmət və işgüzarlıqdan uzaq olmasında və ya da çəkdiyi zəhməti səmərəsiz, faydasız məzmunda təşkil etməsində görür. Başqa sözlə, bir qrup insanlar, ümumiyyətlə, müftəxorluq yolu ilə, əziyyət çəkmədən öz yaşayışlarını təmin etmək niyyətindədirlər. Başqa bir qrup isə işləsə də, öz işini səmərəli təşkil etməyin, daha çox mənfəət əldə etməyin yolunu, üsulunu bilmir. Müəllif belə bir misal çəkir ki, eyni sahəni əkib becərdikdə həmin sahəyə gübrə versən, onu texniki cəhətdən daha yaxşı əkib becərsən, götürdüyün məhsul da daha artıq olar. Lakin iş sahibləri belə vasitələrdən xəbərsiz olduqlarından, çox çalışsa da, az nəticə əldə edir.

H.Zərdabi onu da əlavə edir ki, az zəhmət çəkənin güzəranı da pis olur. "Xoş güzəran və ləzzət çölə tökülməyib ki, hər kəs axtarıb tapsın. Onları tapmaq üçün gərək dövlət qazanasan. Dövlət qazanmaq istəyən kəs gərək zəhmət çəkib səy və guşiş etsin ki, dövlət qeyri kəslərin əlindən onun əlinə gəlsin, çünki belə səy və guşişi bir kəs edər ki, ona zindəganlıq etmək və ləzzət çəkmək müyəssər olsun, ona binaən səy və guşiş özü bir cəngdir ki, onun adına zindəganlıq cəngi deyirlər". (88, 50-51) Bu döyüşdə qalib gələnlər, yəni işini-gücünü dürüst yerinə yetirənlər, səmərəli iş görənlər qalib gəlib "ləzzət sahibi" olar, bunu bacarmayanlar həmin ləzzətdən məhrum qalar. Deməli, normal maddi rifahın təminatı faydalı əməyə bağlıdır.

"Əkinçi"nin 26 may 1877-ci il tarixli sayında Həsən bəy daha ciddi bir məsələyə toxunur. Bu, islam aləmində insanların şüurunda kök salmış "Allah bəndəsinə istəsə ruzi verər, istəsə verməz" fəlsəfəsidir. Zərdabi belə bir məhdud düşüncənin müsəlmanları iş-gücdən uzaq saldığını, onlarda süstlük, ətalət hissi yaratdığını izah edir. Göstərir ki, başqa zirək millətlər öz vaxtlarını səmərəli işlərə sərf edib mənfəət götürdükləri halda müsəlmanlar gərəksiz, faydasız işlərlə məşğul olurlar. Məsələn, onların bir qismi dükan-bazarda oturub yanına cüzi bir şey qoyub guya onu satmaqla məşğul olur. Bir gün ərzində onun yanına 4-5 müştəri gəlir. Bu adamın işi isə ancaq gəlib-gedənlərə tamaşa etmək olur. Bir para cavanlarımız isə papağını əyri qoyub küçələrdə "ay balam, ay balam" oxuya-oxuya veyillənir. Bir para insanlarımız isə dərviş nağılına qulaq asır, it boğuşdurur, xoruz döyüşdürür, ya da onlara tamaşa edir. Belə bir düşüncə ilə yaşayır ki, Allah istəsə, onun ruzisini yetirəcək, çünki "Allah ruzirəsəndir", yəni ruzi verəndir. Həsən bəy qeyd edir ki, bəli, Allah ruzi verəndir. Lakin ruzi müftə verilməz. Ruzini gərək zəhmət çəkib, tər töküb qazanasan. O, öz həmvətənlərinə müraciətlə deyir: "Pəs, qardaşlar, zəhmətinizi artırın ki, bikarlıq və tənbəllik insan üçün zəhərdir. Zəhmət çəkmək vaxtını uzatmağa səy edin ki, sizin ruzi düşmənlərinin əsbablarını ələ gətirəsiniz". (88, 376)

H.Zərdabi əmək tərbiyəsini ailə və cəmiyyətdən tədris müəssisələrinə gətirməyin qatı tərəfdarı kimi çıxış edir. O, həmin məsələ ilə bağlı mülahizə və baxışlarını “Amerikada əqli inkişafı əl əməyi ilə əlaqələndirən yeni məktəb sistemi” (“Kaspi”, 1900, 15 fevral) məqaləsində aydın və geniş şəkildə ifadə edir. Müəllif məqaləsinə rus tənqidçi və pedaqoqu L.E.Obolenskinin Rus Sənaye və Ticarət Cəmiyyətindəki mətbu çıxışına münasibətlə başlayır. L.E.Obolenski həmin çıxışında təklif edir ki, Rusiyadakı tədris ocaqlarında əl əməyinin təhsillə birləşdirilməsi, uzlaşdırılması istiqamətində müəyyən addımlar atmaq gərəkdir. O, bu islahatların keçirilməsinə ehtiyacın nədən yarandığını şərh edir. Daha sonra bu islahatları necə keçirmək barədə öz təkliflərini də verir.

H.Zərdabi L.E.Obolenskinin fikirlərinə şərik çıxır. Göstərir ki, əqli tərbiyənin əl əməyi ilə uzlaşdırılması ideyası XVI-XVIII əsrlərdə ortalığa atılsa da, uzun müddət tətbiq edilməmişdir. XIX əsrdə görkəmli alman pedaqoqu Frebel Fridrix (1782-1852) bu məsələyə yenidən qayıtmış, kiçik yaşlı uşaqların əqli tərbiyəsini oyunlar və əl əməyi ilə birləşdirmək barədə yeni bir sistem təklif etmiş, onun mahiyyətini və səmərəsini əsaslandıra bilmişdir. Bundan sonra daha geniş şəkildə Amerikada, qismən də İsveç və Finlandiyada həmin ideya tətbiq edilməyə başlanılmışdır. Həm də həmin ölkələrdə ideya yalnız kiçik yaşlı uşaqlara deyil, orta və böyük yaşlı məktəb şagirdlərinə də tətbiq edilmişdir. Nəticə son dərəcə uğurlu alındığından sistem daha da genişləndirilmişdir. Amerikada tanınmış pedaqoq Henderson Hanford bu sistemi daha da təkmilləşdirmiş, istər nəzəri, istərsə də parktiki olaraq onu daha mükəmməl şəklə salmışdır.

Həsən bəy H.Hanfordun fikirlərinə şərik çıxmaqla bu ideya və sistemin əsas məzmununun şərhini də verir. Təəssüf edir ki, Rusiya imperiyası ərazisində maarif sahəsində bu işə o qədər də diqqət yetirilmir. Halbuki bu, təhsildə son dərəcə mühüm və vacib bir məsələdir. Çünki mövcud təhsil sistemi bütünlüklə əqli tərbiyəyə yönəldilib. Şagirdlərə oxumaq üçün

kitablar, yazmaqdan ötrü yazı verilir. Dərs prosesində o, həddindən çox yüklənir. Buna görə də şagird yorulur. Oxuduqlarını qavramaq imkanını itirir. Bütün diqqət əqli tərbiyəyə yönəldiyindən onun həm sağlamlığı, hansı həddə materialı mənimsəmə qabiliyyəti unudulur. Həm də şagird yalnız nəzəri bilik alıb praktiki bilikdən məhrum qalır. Bu, mənimsənilən biliyin tətbiqində əngəllər yaradır.

H.Zərdabi qeyd edir ki, son dövrün tanınmış pedaqoqları sübut etmişlər ki, öyrənilən nəzəri bilik təcrübə ilə nə qədər çox uzlaşdırılmış olsa, təhsilin keyfiyyətinə bir o qədər yaxşı təsir göstərər.

Həsən bəy Amerika təhsil sistemində əqli tərbiyənin əl əməyi ilə uzlaşdırılmasında mövcud olan bölgü tipləri barədə də məlumat verir. Həmin tiplər uşaqların yaş həddinə müvafiq olaraq beş mərhələyə bölünür: 1. 6-8 yaşlı uşaqlar üçün. Bu mərhələ bağça uşaqları üçün nəzərdə tutulur; 2. 8-10 yaşlı uşaqlar üçün elementar əməkdən istifadə; 3. 10-14 yaşlı uşaqlar üçün; 4. 14-18 yaşlı yeniyetmələr üçün; 5. 18 yaşından yuxarı gənclər üçün. Müəllif göstərir ki, hər bir yaş mərhələsinin öz xüsusiyyətləri olduğu kimi, hər mərhələyə aid də əmək tərbiyəsi sistemi tətbiq edilməlidir.

Azərbaycan alimi məşhur pedaqoqların təcrübələrinə istinad edərək qeyd edir ki, əl əməyi tətbiq edilən məktəblərin şagirdləri digər təhsil ocaqlarının şagirdlərinə nisbətən daha enerjili, çevik, zirək, bacarıqlı, düşüncəli, fəal olurlar. (323, 291-293)

S.Ə.Şirvani “Rəbiül-ətfal” dərsliyinə daxil etdiyi nəzm və nəsr nümunələrində gənc nəslə müraciət edərək onları boş dayanmamağa, özləri üçün faydalı bir sənət seçməyə çağırır. Şair gənclərə başa salmaq istəyir ki, peşə və məşğuliyyəti olmayan kəslər quru bir odun parçasına bənzəyir ki, yalnız odda yandırmağa yarayır. Şairin fikrincə hər hansı bir sənət sahibi olmaqdan ötrü həmin sənəti kamil şəkildə öyrənib onun elminə yiyələnmək lazımdır. Əgər insan öz sənətinin elmini bilmirsə,

bu sənətdə mahir deyilsə, deməli, işində naqisdir. Sənətkar gənclərə müraciətlə öz fikirlərini belə ifadə edir:

Ey oğul, bil ki, adəmi-bikar
Xüşk olan bir odundu, layiqi-nar.
Bunu bizdən deyibdilər əqdəm,
Sənəti olmayan deyil adəm.
Puç olub getsə, dövlətin zayə
Yenə sənətdir əldə sərmayə.
Gər ticarətçün olmasa dövlət ,
Səy qıl, hasil eylə bir sənət.
Elmdir əhli-sənətin hünəri,
Elmsiz sənətin nədir səməri? (248, 140)

Əmək tərbiyəsi problemi XX əsrin əvvəllərində “Molla Nəsrəddin”çiləri ardıcıl şəkildə məşğul etmişdir. Həm də onlar bu məsələyə ümummüsəlman cəmiyyəti miqyasında münasibət göstərmişlər. Yəni islam coğrafiyasında müsəlmanların işə-gücə münasibəti necədir, onlar hansı işlərlə məşğul olurlar, məşğul olduqları işlərin həm özləri, həm də cəmiyyət üçün faydası varmı? Ümumi mənada onların həmin suallara verdikləri cavab belədir: Müsəlman aləmində bir ətalət, süstlük hökm sürür. Bir qrup işləyib zülm çəkir, lakin işlədiklərinin onlara bir faydası yoxdur. Digər bir qrup harın, müftəxor həyat keçirir. Üçüncü bir qrup veyil, boşboöaz işlərlə məşğuldur. Dördüncü bir qrup mövhumat və xürafata qapılıb, fəaliyyətini ancaq bu istiqamətə yönəldib və s. Bir sözlə, islam cəmiyyətlərində bütün zümrə və qruplar faydalı, gərəkli işdən başqa mənasız, zərərli, mövhumi hər şeylə məşğuldurlar. Belə işlər nə fərdlərin və bütövlükdə cəmiyyətin maddi rifahına, mənəvi, əxlaqi saflaşmasına, nə də təkamül və tərəqqiyə xidmət etmir. Beləliklə, “Molla Nəsrəddin”çilərin əməyə münasibətdə hədəf və konsepsiyasının əsas məzmunu belə bir ideya xətti ətrafında cəmlənir: Müsəlmanların gördükləri işlərin mahiyyətini onlara anlatmaq və onları faydalı işlərə, gərəkli əməyə cəlb etmək lazımdır.

C.Məmmədquluzadənin “Veyillər” (“Molla Nəsrəddin”, 1907, №24) felyetonunda maraqlı və real bir mənzərə

canlandırılır. Həmin mənzərə müsəlmanların səmərəli əməkdən uzaq, çərənçi, boşboğaz, veyil bir həyat yaşadıqlarını ortalığa qoyur. Müəllif göstərir ki, Naxçıvan şəhərində “Darmayed” (“Müxtəxor” – T.V.) deyilən bir meydan var. Naxçıvan şəhərinin bəyləri və bəzi adamları hər gün ora yığışıb boş-boş mübahisələr edir, vaxtlarını gülünc, mənasız höcətləşmələrə həsr edirlər. Məsələn, biri deyir ki, sərdar keçən il Naxçıvana gələndə payız idi, digəri deyir, “yox” bahar idi. Bunun üstündə uzun-uzadı mübahisə və höcətləşmələr düşür və bu, bəzən saatlarla davam edir. Müəllif qeyd edir ki, Gəncə qubernatoru Şuşa naçalnikinə yazıb ki, Şuşa mahalının “dördüncü uçastokunda” çəyirtkə əkini yeyib qurtarıb, gərək “bikar” adamlardan toplayıb göndərəydin çəyirtkəyə qarşı mübarizə aparaydı. Naçalnik isə cavab yazıb ki, müsəlmanlar arasında “bikar”, yəni işsiz-gücsüz adam tapmaq çətindir. Burada hamı iş-güclə məşğuldur. C.Məmmədquluzadə oxucuya demək istəyir ki, müsəlmanlar bu cür işlərlə məşğuldur. Sənətkarın felyetonlarında bu tipdə kifayət qədər epizodlarla üzləşirik.

“Molla Nəsrəddin” jurnalının kinayə tərzi əmək tərbiyəsinin təbliğində də özünü göstərir. Yəni Mirzə Cəlil kütləni faydalı əməyə çağırış zamanı daha təsirli, effektli yol seçir. Təlqin etmək istədiyi ideyanın tərsini deyir. Məcmuənin səhifələrində müsəlmanlara müraciətlə bu məzmunda atalar sözlərinin işləndiyini görürük:

İşləmək adamı puça çıxardar.
İşsizlik dövlətlilik açarıdır.
Başladığın işi yarıda qoy. (167, 172)

“Usta Zeynal” hekayəsində Mirzə Cəlil müsəlman aləmində ətalət, cəhalət və bunun zəhmətə, çalışqanlığa təsiri məsələsinə toxunur. Əsərin qəhrəmanı Usta Zeynal yaxşı, qabiliyyətli ustadır. Lakin o, cahil və fanatik dindardır. Mövhumi düşüncələrlə yaşayır. Bu cəhalət və fanatizm onda işə, əməyə qarşı bir biganəlik doğurmuşdur. O, öz qabiliyyət və bacarığından yetərincə yararlana bilmir. İş görmək əvəzinə dindən, şəriətdən danışır. Danışdıqları isə həqiqi dini dəyərlərə

yox, mövhumi düşüncələrə, onun özünə məxsus cahil yorumlara söykənir. Mirzə Cəlil hekayədə demək istəyir ki, mövhumat, fanatizm və cəhalət şərq insanının fəaliyyətinə, işinə bu cür mənfi təsir göstərir. Onu özünə normal şəkildə ruzi qazanmaq, həmçinin öz əməyi ilə cəmiyyətə fayda vermək imkanından məhrum edir.

M.Ə.Sabirin baxışları da Mirzə Cəlilin fikirləri ilə uzlaşır. “Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə” (“Molla Nəsrəddin”, 1910, №17) satirasında o, müsəlman coğrafiyasında hakim olan zərərli bir fəlsəfəyə qarşı çıxır: səbr, təvəkkül və bunıarın fonunda zəhmətə, çalışqanlığa münasibət. Belə ki, hər şeyi – ruzini də, qazancı da, dolanışığı da Allahdan gözləyən müsəlmanlar belə bir sadəlövh fəlsəfə ilə yaşayırdılar ki, nə qədər işləyib zəhmət çəksən də, ruzini verən Allahdır. O, istəsə səni varlı, istəsə kasıb, istəsə azad, istəsə kölə edər. Təbii ki, belə bir inanc insanlarda səbrə, təvəkkülə bel bağlamaq hissi, fəaliyyətsizliyə meyl yaradırdı. Sabir adını çəkdiyimiz satirada həmin zərərli düşüncə sistemini ironik şəkildə ifşa edir. Məsələn:

Bəlayi fərqə düşdün, razı ol, biçarə, səbr eylə!
Üzün oldisə gər külfət yanında qarə, səbr eylə!

Əsiri-qeydi-fərq oldun, yazıq, təslimi-hirman ol!
Çalışma, bir işə getmə, fəqət məyusu nalan ol!
Qəzayə çarə yox, giryan ol, üryan ol, pərişan ol!
Səbur ol, şakir ol, yəni müsəlman ol, müsəlman ol!
Çatar öz rizqi-məqsumun, dolan avarə, səbr eylə!
Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə!

Məaşın ta ki, təng oldu, ənis ol dərdü möhnətlə!
Boş ol, süst ol, ümidin qət qıl, yar ol ətalətlə!
Bunu təqdirə nisbət ver, yaşa daim rəzalətlə!
Həvadə seyr edən insanə baxma çeşmi-qeyrətlə!
Burax kəsbi, unut səyi, yapışma karə, səbr eylə!
Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə! (221, 226)

"Durma, yıxıl yat hələ, Fahrat kişi" ("Molla Nəsrəddin", 1908, №50) şeirində M.Ə.Sabir kinayə ilə öz qəhrəmanını iş görməməyə, yatmağa, fəaliyyətsizliyə çağırır. Oxucu dərhal buradakı istehzanı, fikrin tərsinə deyildiyini anlayır. Lakin şairin uşaq şeirlərində biz mətləbin bu cür istehzalı ifadəsi ilə rastlaşmırıq. Əksinə bu şeirlərdə ciddi nəsihətamiz məzmun, didaktik təşviqat vardır. Məsələn, "Məktəb şagirdlərinə töhfə" ("Səda", 1910, №46) şeirində sənətkar zəhməti, çalışqanlığı sadə bir dillə tərənnüm edir, tənbəlliyi pisləyir. Uşaqların səviyyəsinə uyğun bir dil və ahənglə onlarda əməyə rəğbət hissi yaratmaq məqsədi güdür:

Ey uşaqlar, uşaqlıq əyyami, –
Gələn əyyamın ondadır kami.
Kim ki, qeyrətlə zəhmətə alışar,
Kəsbi-irfanə ruzü şəb çalışar, –
Zəhməti mayeyi-səadət olar,
Yaşadıqca həmişə rahət olar.
Kim ki, tənbəlliyə məhəbbət edər,
Daim əyləncələrlə ülfət edər,
Keçirir vəqtini cəhalət ilə,
Bütün ömrü keçər səfalət ilə...
Çalışın, biniyaz olun, çalışın!
Elm ilə sərəfraz olun, çalışın! (221, 387)

"Qoca bağban" ("Həqiqət", 1910, 21 iyun) şeirində gənc nəslə bir əmək insanı kimi bağbanı nümunə göstərir. Qeyd edir ki, bağban çalışır, tər tökür, nəticədə gözəl bağ yetişdirir. Onun bağının meyvəsindən neçə-neçə insanlar faydalanır. "Qarınca" ("Həqiqət", 1910, 23 iyun) şeirində uşaqlara qarışqaların zəhmətkeşliyini misal çəkir. Onların necə fədakarlıqla çalışıb özlərinə ruzi qazandıqlarını nəzərə çatdırır. Qarışqaların bu əməlindən ibrət götürməyə çağırır.

Ö.F.Nemanzadə əməyi insana xaliq tərəfindən verilmiş əzəli bir qanun kimi dəyərləndirir. Əmək insan üçün bir həyat qanunudur ki, hər kəsin vəzifəsi öz imkanı daxilində bu qanuna əməl etməkdir. Rahat yaşayışın ilk vasitəsi olan zəhmət həm də

“sünnəti-ilahiyyədir”. Bəşər övladı daim çalışqanlığa, işə-gücə meyl etməlidir: “Həyat həmişəlik bir davadır. Bu davada hər kəsin düşməni isə birdir: zəhmət və məşəqqət – əski ədiblərcə çərxi-fələk.

Kim zəhmət və məşəqqətə tab edib tutduğu işdə səbat göstərirsə, o, çərxi-fələyin qolunu bükmüş, düşmənini həlak etmiş olur. Buna görə böyük-kiçik, zəif-qüvvətli – hər kəs çalışır ki, gələcəkdə rahat yaşaya bilsin.

Yaşamaq üçün bu çalışmaq, vuruşmağı adət etmək keyfiyyəti yalnız əql və elmin bu gün öyrətdiyi yol deyil, bəlkə, o xaliqin məxluquna bəxş etdiyi təbii bir xasiyyət, əzəli və əbədi bir qanundur. Qanuni-həyatdır, şəriət deyimi ilə – sünnəti ilahiyyədir”. (189, 218-219)

Dediyimiz kimi, XX əsrin əvvəllərində ictimai-pedaqoji mühitdə irəli sürülən tədbirlər sisteminə daxil olan məsələlərdən biri də təlimin peşə, sənət və əl əməyi ilə əlaqələndirilməsi idi. Bir sıra demokratik ziyalılarımız kimi Ü.Hacıbəyov da bu məsələyə xüsusi diqqət yetirir. “Xəbərdarlıq” (“Tərəqqi”, 1909, 14 avqust) silsiləsinə daxil olan məqalələrindən birində o, məktəb təhsilinin peşə ilə əlaqələndirilməsi, bunun yolları və faydaları barədə öz mülahizələrini verir. Göstərir ki, bu günkü milli kənd məktəblərimizin proqramı, burada tədris olunan fənlərlə tanış olduqda görürük ki, həmin proqram və fənlərdə müəyyən nöqsanlar mövcuddur. Həmin nöqsanlardan biri də təlimin müxtəlif peşə və sənətlərlə bağlanmamasıdır. Əgər kənd məktəblərində təlim məişət və təsərrüfata aid müəyyən peşələrlə əlaqələndirilsə, məktəbin effekti daha da artar. Məsələn, kənd məktəblərində şagirdlərə bağbanlıq, bostançılıq, arı saxlamaq, barama becərmək, dülgərlik, əkin əkmək və s. öyrətmək olar.

Müəllif irəli sürdüyü fikrin effektini sübut etməkdən ötrü həyati bir misalla müqayisə də aparır. Nəzərə çatdırır ki, Gəncə şəhəri ətrafında bir neçə alman kəndi mövcuddur. Almanlar öz məktəblərində şagirdlərə təlimlə yanaşı bir neçə peşə və ya sənət də öyrədirlər. Həmin peşə və sənətlər kənd təsərrüfatı və məişətlə bağlıdır. Nəticə göz qabağındadır. Almanlar bunun

sayəsində kənd təsərrüfatından daha yaxşı məhsul əldə edir, daha nizamlı işlər görürlər. Çünki onlar təsərrüfat işlərini elmi cəhətdən daha yaxşı bilirlər. Bu işin peşəkarına çevrilmişlər. Müsəlman məktəblərində isə şagirdlər mollaların cəfəngiyatından başqa heç nə öyrənə bilmirlər.

Üzeyir bəy kənd məktəblərində müxtəlif peşələrin öyrədilməsinin məktəbə xüsusi bir maraq və rəğbət yaradacağını da xatırladır. O, məsələnin mahiyyətini bu cür inandırıcı bir məntiqlə izah edir: "Bir çox kəndlilər öz uşaqlarını məktəbə qoymurlar ki, uşaq çöl işi üçün lazımdır. Bir surətdə ki, məktəb haman çöl işini uşağa gözəlcə öyrədə və atası uşağın elmindən mənfəət götürə, o ata övladının oxumamağına razı olarmı? Elm və maarifin fəzilətini kənd əhlinə nəsihət ilə qandırmaq çətindir, ona göz ilə göstərmək lazımdır. Kəndli bir o qədər zəhmət və məşəqqətlə becərdiyi baramanın, taxılın, arının, bağ və bostanın məktəbdə öyrənilən təzə üsul sayəsində iki-üç qat artıq məhsul verdiyini gözü ilə gördükdə məktəbi özü üçün bir mənbəyi-nicat bilməzmi? Və "elmi-cədidə haramdır" sözünə baxarmı?" (101, 128)

"Müsəlman işi" ("Yeni iqbal", 1915, 18 sentyabr) sərlövhəli kiçik mütəfərriqədə Ü.Hacıbəyov müsəlmanların xasiyyətləri sırasında yatmaq və tənbəlliyin də olduğunu nəzərə çatdırır və yazır: "Camaatımızın cürbəcür xasiyyətləri vardır ki, qəzet yazıçıları hər gün o barədə yazıb, yazıb genə də yazırlar. Məsələn, yatmaq, tənbəllik, dalda qalmaq, xabi-qəflət, ağlamaq lazım olmayanda ağlamaq, ağlamaq lazım olanda ağlamamaq və sairə və sairə". (101, 431)

Azərbaycan xalqının maarif və mədəniyyət tarixində böyük rol oynamış "Füyuzat" jurnalının səhifələrində də əmək tərbiyəsinə müəyyən yer verilir. Məcmuənin 1906-cı il 5-ci nömrəsində Ə.Hüseynzadənin "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" adlı məqaləsi çap olunur. Məqalədə Əli bəy Azərbaycan ictimai-mədəni və pedaqoji mühitindəki bir sıra məsələlərlə yanaşı bacarıq, qabiliyyət, əmək və onun parlaması üçün həmin keyfiyyətlərin qayğısına qalmaq, mühit və istedad məsələlərinə

də toxunur. Müəllif təssüf edir ki, müsəlman toplumlarında valideynlər və ətrafdakılar çox zaman övladlarının nəyə, hansı sahəyə maraqlarının, bacarıq və qabiliyyətlərinin olduğunu nəzərə almır, istedadlı şəxsin istedadının parlaması yolunda səy göstərmirlər. Kim nəyi bacarırsa, əmək cəbhəsində kimin qabiliyyəti nəyədirsə, onun arxasınca getmir. Valideynlər də buna səy göstərmirlər. Halbuki bu keyfiyyət cəmiyyətin yüksəlişi, eyni zamanda insanın özünün bir fərd kimi hünər və bacarığının üzə çıxması üçün çox vacibdir. Əli bəy öz fikirlərini sübut üçün maraqlı bir əhvalat da danışır. Söyləyir ki, ibtidai məktəbdə oxuyarkən mənim iki sinif yoldaşım var idi onların hər ikisinin də rəssamlıqda gözəl istedadları var idi. İbtidai məktəbi bitirdikdən sonra həmin şagirdlərdən birinin atası ona təhsilini davam etdirməyə imkan yaratmadı. Öz yanında işlədib baqqal etdi. Ancaq ikinci şagird orta məktəbi bitirdi, sonra Peterburqda, Drezdendə, Münhendə rəssamlıq təhsili aldı, Hollandiya, Paris, Belçika, Roma və s. yerlərdə rəssamlıq muzeylərində təcrübəsini artırdı. 20 ildən sonra tanınmış rəssam oldu. Moskvada onun rəsm əsərləri sərgidə yüksək qiymətlə tamaşaya qoyuldu. Təsadüfən Moskvaya gedib bunu görən birinci şagird (indi o böyüyüb baqqal olmuşdu) də rəssamlıq həvəsinə düşdü. Qayıdıb baqqal dükanını satıb rəssam üçün lazım olan avadanlıqlar aldı. Ancaq yaxşı şəkillər çəkə bilmədi. O, anlamadı ki, gözəl şəkillər çəkmək üçün öz ikinci şagird yoldaşı kimi illər boyunca əziyyət çəkməli, əmək sərf etməli, öz sənətini kamil öyrənməkdən ötrü zəhmətə qatlaşmalıdır.

1907-ci ildə "Füyuzat" jurnalının 26-cı nömrəsində M.Hadinin "Qafqaza aid" sərlövhəli məqaləsi dərc olunmuşdur. Məqalədə Qafqazın Şamaxı-Qobustan bölgəsində əhalinin həyat, məşğuliyyət və güzəranından danışılır. M.Hadi bu ərazidə, xüsusilə Çuxanlı kəndində qadınların toxuduqları gözəl xalçalardan da söhbət açır. Əlavə edir ki, Azərbaycan qadınları normal mühitdə yaşayıb kifayət qədər əmək tərbiyəsi görsələr, müxtəlif çeşidli xalçalar, paltarlar və s. toxumağa qadirdilər. Onların bacarığı, qabiliyyəti heç də başqa xalqların

qadınlarından geri qalmır. Sadəcə olaraq azərbaycanlı qadınlar normal ictimai mühitdə yaşamır və çox zaman normal əmək tərbiyəsi görmür.

M.Ə.Rəsulzadə müsəlmanlar arasında özünə inamsızlıq psixologiyasının hakim olduğunu, bunun islam toplumlarında insanları fəaliyyətsizliyə təhrik etdiyini, onlarda əmək qabiliyyətini azaltdığını, zəhmətə qarşı soyuqluq yaratdığını dəfələrlə öz yazılarında xatırladır. "Bəsirət gərək" ("Bəsirət", 1914, 12 aprel) məqaləsində isə bu məsələnin daha geniş və dolğun şərhini verir. Göstərir ki, islam aləmində "müsəlmandan adam olmaz", "müsəlman düzəlməz" kimi əcaib bir psixoloji hiss formalaşmışdır. Bu psixoloji hiss faciəli bir inama çevrilib nəsildən-nəsilə ötürülür, bütün cəmiyyətə sirayət edir. Belə bir yanlış tərbiyə düsturu elə uşaq yaşlarından müsəlmanlar içərisində bir süstlük, çalışqanlığa biganəlik, fəaliyyətsizlik düçüncəsi formalaşdırmağa başlayır. Belə bir düşüncə əmək tərbiyəsinin sağlam məcrada aparılmasına ciddi əngəl törədir.

Q.R.Mirzəzadə "Ayineyi millət. Oyanız, qardaşlar" əsərində millətlərin mədəniyyətə, tərəqqiyə, elmə nail olmalarının birinci şərtinin əmək olduğunu söyləyir. Tənbəlliyi mədəniyyətin ən böyük düşməni hesab edir. Qeyd edir ki, tənbəllik, işsizlik ağılı da cilasız qoyar. Əmək və iş olmayan yerdə ağıl da inkişaf edə bilməz. (183, 34)

S.M.Qənizadə "Məktubati-Şeyda bəy Şirvani" romanında qızların əmək tərbiyəsinə cəlb edilməsi məsələsinə xüsusi diqqət yetirir. Bu mənada əsərin qadın obrazlarından Diləfruz xanımın tərbiyə və hərəkətləri daha çox maraq doğurur. Diləfruz xanım gözəl ailə tərbiyəsi görmüş bir qızdır. O, evdarlıq işlərini gözəl bilir. Yaxşı əl qabiliyyəti var. Tikiş tikməkdə, bəzək vurmaqda, müxtəlif məişət əşyaları toxumaqda böyük məharəti var. Bu işləri o, ailədə valideynlərinin təhriki və yardımı ilə öyrənmişdir. S.M.Qənizadə belə bir ideyanı bir daha oxucularına təlqin etmək istəyir ki, öz övladını əməyə alışdırmaq, uşaqlıqdan onu zəhmətkeş böyütmək hər bir valideynin borcudur. Müəllifin fikrincə: "İş ruhun seyqəli və cismin cövhəridir. Nəcabət ibarət

ruhun nəzakətidir ki, məhz iş və zəhmət ilə hasil olur... məşhur adamlardam birisi deyibdir ki, bikarçılıq hər bir fitnə-fəsadın anasıdır. Bu sözün tənbihi ələlxüsus qızlar üçündür. İş işləyən qız bəzi şeytaniyyət fikirlərdən məhfuz olarkən məmafi külfət qayğısı çəkməyə adət edib istiqaməti-məzac hasil edir”. (147, 17)

S.M.Qənizadə dərsliklərində əmək tərbiyəsini diqqət mərkəzində saxlayırdı. Bunun üçün o, kiçik həcmli, yığcam və maraqlı hekayətlərdən istifadə edirdi. Həmin hekayətlərdən biri belədir: “Kəndçi istəyirdi öz oğlanların zəhmətkeşliyə öyrətsin. Öləndən qabaq onları çağırıb dedi:

– Uşaqlarım, sizin üçün bir ev və bir bağ irs qoyuram. Bağı yaxşı qazınız və torpağı çeviriniz, orada xəzinə taparsınız. Qoca öldü. Uşaqlar həvəs ilə bağı eninə-uzununa şumladılar, amma xəzinə tapa bilmədilər. Bunun əvəzinə bağ hayla bolca məhsulat verdi ki, heç ömürlərində görməmişdilər. Onda onlar düşündülər ki, ataları deyən xəzinədən murad nə imiş”. (43, 445)

Əsrlər boyunca şərqdə islam ruhaniləri kütlənin beynini belə bir düşüncə tiryəki ilə zəhərləmişlər: “Dünya beş gündür, beşi də qara”. Belə bir ehkam kütləviləşib islam cəmiyyətlərini, islam insanının psixologiyasını elə zəhərləmişdir ki, adi həyat normasına, əməl kompasına çevrilmiş, onu fəaliyyətdən uzaqlaşdırmış, çalışqanlıq ruhunu öldürmüşdür. F.Köçərlinin sözləri ilə desək, həmin düşüncə və inancın mahiyyəti sosial fəlakətə çevrilən belə bir fikir, ictimai rəy və davranış stixiyası doğurmuşdur: “Beş günlük ömürdən bu fəna dünyada səy və təlaş etməyin, mal və dövlət şövqünə düşməyin, kəsb və hörmət qeydinə qalmagın, ömrü bihudə çürütməyin luzumu varmı? Hər nə etsək, axırımız fənadır! Kişi gərək axirəti üçün çalışsın, onun üçün sərmayə qazansın, ölümünü yaddan çıxarmasın, gözünü axirət guşəsinə tiksin”. (129, 279)

F.Köçərli islam mühitində kök salmış bu düşüncə sisteminin dəhşətli, fəlakətli bir tərbiyə fəlsəfəsinə çevrildiyini dərin bir tərbiyəçi fəhmi ilə analizdən keçirir. Onun əməyə

münasibətdə nəyə səbəb olduğunu, neçə faciəli nəticələr doğurduğunu geniş şəkildə şərh edib həmvətənlərini ayıltmağa çalışır. Tərbiyəçi alim təəssüflə qeyd edir ki, vaizlərimiz, ruhanilərimiz hər dəfə minbərlərdə camaata təlqin edir, insanlar hər gün bu cür vəz və nəsihətlərə qulaq asır və belə sözlər onların şüuruna yeriyir. Nəticə ona gəlib çıxır ki: "Bu məzmunlu vəzlər ilə ruhani atalarımız, "salikani-rahi-həqiqət" (həqiqət yolunun yolçuları – T.V.) camaatın etiqadına pərxaştlik və süstlük gətirib, dünya zindəganlığından onu soyudurlar, ümuri məişətdə lazım olan səy və təlaşdan bir növ kənar edirlər. Bu qism vəz və nəsihətlərin bərəkətindən müsəlman qardaşalrın var qüvvətləri zəifləyir, fikirdən hünərləri yatır, cürət və hünərləri bir işdə büruz etməyir, qəzalarına razı olub, hər bir cəfa və məşəqqəti qəbul edirlər, hər növ zəhmət və əziyyətə qatlanıb, məişətin pozğun və cəfalı övzasına tab gətirirlər və hər işdə "mügüzərəd" deyib rahət olurlar.

Dünya beş günlükdür, onsuz da axırı ölümdür. Beş günlük ömürdən ötrü çalışmaq yararmı və çalışmaqdan nə hasil?" (129, 279)

F.Köçərli "beş günlük dünyada çalışmağa dəyməz" fikrinin müsəlmanları faydalı işdən qoyduğunu, fəaliyyətsizliyə düçar etdiyini, nəticədə ümumi tərəqqi və milli yüksəlişin qarşısını aldığını, inkişaf yolunda bir sipər olduğunu təəssüflə nəzərə çatdırır. Bunun nələrə səbəb olduğunu Avropa xalqları ilə müqayisədə daha qabarıq göründüyünü söyləyir. Zəhmətə, çalışqanlığa münasibətdə şərq və qərb tərbiyə modelinin nəticələrini Firidun bəy izah edərək göstərir ki, avropalılar səy, mübarizlik, çalışqanlıq nəticəsində insan ağlını heyrətə salan nailiyyətlərə imza atmışlar. Dövlət, sərvət, mərifət, kamal, hünər, bilik, bacarıq, rahat güzəran qazanmışlar. "Aləmi-islamın" nəsibi isə bunlar olmuşdur: fəqirlik, zəlalət, yoxsulluq, cəhalət, avamlıq, hünərsizlik, narahatlıq, acizlik, əsarət, kəsalət. Əmək və səy birinciləri səadətə, xoşbəxtliyə, süstlük və fəaliyyətsizlik isə ikinciləri zəlalət və bədbəxtliyə məhkum etmişdir.

F.Köçərli L.Tolstoyun məşhur “şərə müqavimət göstərmə” fəlsəfəsi ilə də razılaşmır, bunun insanlarda passivlik yaratdığını, onları iş-gücə qarşı soyuqlaşdırdığını, onların mübarizə, fəaliyyət ruhunu əlindən aldığını söyləyir. (129, 280-281)

XX əsrin əvvəllərində əmək tərbiyəsi ilə bağlı qiymətli mülahizələr irəli sürən maarif xadimlərimizdən biri də N.Nərimanov olmuşdur. Onun fikrincə əmək insanlar arasındakı ünsiyyəti, səmimiyyəti artırır, onlara firavanlıq bəxş edir. H.Əhmədov “N.Nərimanov əmək tərbiyəsi haqqında” məqaləsində (“Məktəbdə istehsalat təlimi” jurnalı, 1965, №2) haqlı olaraq yazır: “Nərimanov əməyin tərbiyəvi əhəmiyyətindən danışarkən göstərirdi ki, əmək insanda dostluq, doğruçuluq, səmimilik, təvazökarlıq, sadəlik, insanpərvərlik kimi əxlaqi keyfiyyətlərin formalaşmasında ən mühüm amildir. İnsan əmək prosesində yüksəlir”. (82, 64) H.Əhmədov N.Nərimanovun belə bir sözünü sitat verir: “Qabarlı əldə olan hünər, qeyrət ağ perçatkalı əldə ola bilməz”.

N.Nərimanov faydalı əməyə vətənə xidmət faktı, vətənpərvərlik nümunəsi kimi baxırdı. Onun fikrincə əgər bir şəxs öz zəhməti ilə kiçik də olsa, səmərəli bir iş görürsə, bununla vətənə və vətəndaşlara xidmət etmiş olur. Görkəmli maarifçi pedaqoq və ədib yazırdı: “... Vətənin qədrini o kimsə bilir ki, Vətən ilə onun ruhani rabitəsi olsun, Vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün. Ona binaən, lazımdır Şərqdə bu şüarı buraxmaq hər kəs xüsusi özü üçün yox, ancaq Vətən, məmləkət üçün işləyirsə, onun haqqı var seçsin və seçilsin”. (82, 65)

N.Nərimanov “Oğlum Nəcəfə” adlı bir şeirində də oğlunu və onun timsalında gəncləri zəhmətə səsləyirdi:

Zəhmətdir insanı insan edən, oğul,
Zəhmətdir onu heyvandan seçən oğul.
Budur bütün tərəqqinin əsası,
Zəhmətdir əqlə yol verən, oğul. (82, 65)

N.Nərimanovun tərbiyə nəzəriyyəsində əmək böyük bir insanlıq məktəbi kimi dəyərləndirilir. Mütərəqqi nə varsa, ona

bağlanır. Çünki zəhmətsiz, heç nə yaratmaq, heç nə hasil etmək mümkün deyil. Müəllif bir çıxışında zəhməti belə qiymətləndirir: "Zəhmət məktəbi bir məktəbdir ki, bütün məmləkətdə yaşayanların fikrini təcrübədən keçirir. Bir məktəbdir ki, bütün ölkəyə və bizə, doğrudan da, əsaslı və qüvvətli elm verir. Həmin bu məktəb bizə öz xalqımızı, nə olduğumuzu bildirir. Daha artıq söylərəm: zəhmət nə olduğunu bizə bildirən zəhmətdir. Bu da bizim həyatımız və bütün fikrimizdir. Çünki biz bütün yer üzündə ancaq zəhmət padşahlığının bərqərar və bərdavam olmasına çalışırıq". (82, 67) Əslində görkəmli millət xadiminin şəxsi həyatı və əməli əməksevərliyin ən yaxşı nümunəsidir.

Görkəmli Azərbaycan şairi A.Səhhətin yaradıcılığında da əmək tərbiyəsinə xüsusi önəm verilmişdir. A.Səhhətin pedaqoji görüşlərinin tədqiqatçısı İ.İsayev bu sözləri deməkdə tamamilə haqlıdır: "A.Səhhət gənc nəsli əməksevərlik, əməyə hörmət ruhunda tərbiyə etmək işinə xüsusi diqqət yetirmişdir. Şairin fikrincə əmək insanların əxlaqına, mənəviyyatına təsir göstərir, onu nəcibləşdirir. Əməyə xor baxan, başqasının əməyi hesabına yaşayan insanlarda iyrənc sifətlər özünü büruzə verir. Zəhmətkeş insanlar müftəxor həyat sürənlərə nisbətən daha yüksək əxlaqa, nəcib mənəviyyata malik olurlar. Əmək insanları asılılıq, yaltaqlıq kimi sifətlərdən azad edir. Hər cür avaralığa, tənbəlliyə nifrət hissi doğurur. Əmək insanları şəxsi hisslərdən uzaq olmaqla öz ictimai-faydalı əməyi ilə xalqa, vətənə xidmət etmək kimi yüksək əxlaqi borcu yerinə yetirir". (119, 227)

A.Səhhətin əmək mövzusunda yazılmış bir sıra şeirləri vardır. Bunlardan "Əkinçi nəğməsi", "Ana və oğul", "Tənbəl", "Qarışqa və milçək" və b.-nı göstərmək olar.

XIX əsrin sonu və XX əsrin əvvəllərində meydana gəlmiş dərsliklərdə və pedaqoji mətbuatda da əmək tərbiyəsi diqqət mərkəzində saxlanılırdı. Biz o zamankı dərsliklərin, uşaq jurnallarının səhifələrində əmək mövzusunda qələmə alınmış xeyli publisistik yazılara, hekayə və şeirlərə rast gəlirik. Məsələn, Rəşid Əfəndizadənin dərsliklərinə "Tənbəl" şeiri,

“Tənbəl Bəşir”, “Turp”, “Yüz yaşında bağban” və s. hekayələr daxil edilmişdi. Yaxud M.Mahmudbəyov və A.Səhhətin “Yeni məktəb” dərsliyindəki “Erkən yuxudan durmaq”, “Çalışqanlığın nəticəsi” və s. hekayələr əmək mövzusunda idi.

“Dəbistan”, “Rəhbər”, “Məktəb” kimi pedaqoji məcmuələrdə böyüməkdə olan nəsli əməyə təşviq edən, onlara zəhmətkeşliyin faydasını başa salan maraqlı əsərlərə rast gəlirik.

Ümumiyyətlə, o dövrdə uşaqlar üçün əsərlər yazan müəlliflər başqa mövzularla yanaşı əmək mövzusuna da əl atırdılar. Bu əsərlərdə bir qayda olaraq tənbəlliyin zərəri, çalışqanlığın, əməksevərliyin, əməkdə ittifaqın faydası maraqlı əhvalatlar fonunda böyüməkdə olan nəslə başa salınırdı. Məsələn, A.Şaiq əməksevərlik tərbiyəsi ilə bağlı “Əkinçi”, “Əkin nəğməsi”, “Çütçü” və s. şeirlərini qələmə almışdı. “Əkinçi” şeirində şair çox sadə və aydın bir dillə uşaqlara anladır ki, əkinçinin gördüyü işin səmərəsi nədir. Əgər əkinçi öz işində tənbəllik etsə, vaxtında tarlanı şumlayıb toxum əkməsə, onu becərməsə, məhsul əldə edə bilməz. Ailəsi, uşaqları qışda ac qalar. Ona görə də o, yazda işləməli, tər tökməlidir ki, özünə və ailəsinə ruzi qazana bilsin.

Müəlliflər bəzən əməyin səmərəsini heyvanların həyat və fəaliyyətindən götürülmüş hadisələrin timsalında anlatmağa çalışırdılar. Məsələn, İslam bəy Qəbulov “Məktəb” məcmuəsində çap olunan (1911, №1) “Qarışqanın qeyrəti” hekayəsində qarışqaların cəfakeşliyi, yorulmadan səy göstərməsi fonunda əməyin gözəlliyini təbliğ edir. Əlbəttə, əmək tərbiyəsini bu şəkildə təbliğ etmək bir inandırma vasitəsi kimi əlverişli idi. Çünki uşaqlar heyvanlar aləminə böyük maraq göstərirlər. Onların faydalı hərəkətlərini balacalara başa salmaq onlarda ciddi maraq doğurur. Daha təsirli tərbiyə vasitəsinə çevrilir.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin əmək tərbiyəsi barədə dedikləri fikirlər bu gün də öz aktuallığını saxlayır.

## 4.3. Azərbaycan maarifçiləri estetik tərbiyə haqqında

Xalqımızın tarixində milli intibah dövrü kimi səciyyələnən XIX yüzilliyin sonu və XX yüzilliyin əvvəllərində demokratik fikirli Azərbaycan ziyalılarını düşündürən və məşğul edən problemlər sırasında estetik tərbiyə uğrunda mübarizə də yer alırdı. Milli məfkurəli tərbiyəçi ziyalı və ideoloqlarımız həm estetik tərbiyə ilə bağlı qiymətli, gərəkli nəzəri mülahizələr söyləyir, onun əhəmiyyətini xalqa, xalqın övladlarına başa salmağa səy göstərir, həm də onun əməli icrası yolunda mümkün praktiki işlər həyata keçirməyə çalışırdılar. Vətən övladının tərbiyəsinə geniş, hərtərəfli prizmadan baxan maarif fədailərimiz yaxşı dərk edirdilər ki, vətənin və xalqın gələcək xoşbəxtliyi əhatəli erudisiyaya, yüksək bilik, bacarıq, düşüncə və zövqə malik vətəndaşlardan asılıdır. Tərbiyənin başqa istiqamətləri ilə yanaşı estetik tərbiyəyə də diqqət yetirmək lazımdır. Yəni gözəlliyi duyan, yüksək zövqə, dərin fantaziyaya, zərif hisslərə, nəcib duyğulara malik vətəndaşlar yetişdirmək gərəkdir. Əgər vətəndaş bir şəxsiyyət kimi ətraf aləmin gözəlliyini kifayət qədər duyub qiymətləndirməyi bacararsa, onun düşüncə və əməlləri də gözəl olacaqdır. Gözəl şeyləri ancaq gözəlliyi duyub dəyərləndirməyi bacaran şəxslər yarada bilər.

Estetik tərbiyə nədir? Onun mahiyyəti yığcam şəkildə belə izah edilir: “Mahiyyət etibarı ilə estetik tərbiyə – insanda estetik hisslərin, estetik şüur və mühakimənin təşəkkül tapıb möhkəmlənməsinə səbəb olan, incəsənət əsərlərini, təbiət və cəmiyyətdəki gözəllikləri düzgün başa düşməkdə adama kömək göstərən və onda bədii yaradıcılıq qüvvələrini, obrazlı təfəkkürü, emosional aləmi inkişaf etdirən təsirlərin məcmuyudur...

Estetik tərbiyə uşaqlarda estetik hisslər formalaşdırmalı və inkişaf etdirməlidir (Estetik hisslər dedikdə təbiətdə, ictimai həyatda, incəsənətdə, əməkdə, məişətdə, davranış və rəftarda olan gözəlliklərin aydın qavranılması və başa düşülməsi nəticəsində yaranan hisslər nəzərdə tutulur)”. (109, 140-141)

Azərbaycanın milli intibah dövründə yaşayıb fəaliyyət göstərmiş tərbiyə nəzəriyyəçiləri yaxşı dərk edirdilər ki, böyüməkdə olan nəslin zəngin mənəviyyata və fantaziyaya, coşqun xəyal və ilhama, hərtərəfli istedad və bacarığa, dərin zövq və duyğuya malik şəxsiyyətlər kimi yetişməsindən ötrü lazım gələn faktorlardan biri də estetik tərbiyədir. Elə buna görə də onlar bu istiqamətdə fəal şəkildə mübarizə meydanına atılıb uğurlu nəticələrə imza atdılar. Bu gərəkli missiyanın təməli bizdə "Əkinçi" qəzeti ilə qoyulur.

Məlum olduğu kimi, böyüməkdə olan nəslin estetik tərbiyəsində mühüm vasitələrdən biri bədii ədəbiyyat nümunələridir. Əgər dinləyicinin eşitdiyi, oxucunun mütaliə etdiyi bədii əsər pis, gərəksiz, məzmunsuz, ideyasız olarsa, bu, dinləyici və oxucunun zövqünə də pis təsir göstərir. Yox əgər bədii əsər dəyərli, gözəldirsə, o, dinləyici və oxucuya da yaxşı təsir bağışlayır, onun zövqünü oxşayır, onu daha da zənginləşdirir. Bunu ayıq bir tərbiyəçi fəhmi ilə dərk edən H.Zərdabi şərqdə uzun illər boyunca ədəbiyyatda davam edib gələn zərərli bir ənənəyə qarşı çıxır. Həmin ənənə şərqdə kök salmış həcvguluq idi. Bir sıra şairlər şəxsi qərəz ucbatından və ya başqa səbəblərdən öz qələmlərini həcv yazmağa yönəldir, kimlərisə ədəbiyyata və əxlaqa yaraşmayan sözlərlə həcv edir, şeirlərində bəzən ləyaqətsiz, vulqar ifadələrə də yol verirdilər. Qəzetin 12 may 1877-ci il tarixli nömrəsindəki "Məktubat" rubrikasında çıxan məqaləsində Nəcəf Vəzirzadə (Nəcəf bəy Vəzirov) belə boşboğaz həcvçiləri kəskin şəkildə tənqid edirdi. Gənc ziyalı bu şeirlərin insanın zövqünü korladığını, onun hisslərinə yalnız zərər gətirdiyini xatırladaraq yazır: "Lakin indi yazılan həcvlər məst olan çəkməçi danışığına oxşayır, nə ki onları çap etmək olmur, hətta adam olan kəs onu oxuyanda əti ürpərir". (88, 371)

"Əkinçi" qəzetinin 1 sentyabr 1877-ci il tarixli nömrəsində naşir H.Zərdabi xalq mahnıları ilə bağalı aktual bir məsələyə toxunur. Göstərir ki, xalq arasında bir sıra mahnılar var ki, geniş şəkildə yayılıb adamların dilində oxunur. Çünki mahnıdan

hamının xoşu gəlir. Elə mahnılar var ki, onlar gözəl mənaya malik olub vətənin, millətin keçmişdəki yaman və yaxşı günlərindən xəbər verir, "bu mahnılar ağızdan-ağıza düşüb milləti birləşdirməyə bais olur". Amma elə mahnılar da var ki, onlar tamamilə məna-məzmunsuzdur. Belə mahnılar insanlara nə verə bilər? Əlbəttə, heç nə. Müəllif aşağıdakı şeiri buna misal çəkir:

Ağacda oturub sərçə,
Niyə uzunsan, ay küçə?
Sən harda qaldın, ah beçə,
Ey yar, ey yar, ay qaragöz. (88, 432)

Belə mahnıların nə məna, nə də estetik baxımdan insana heş bir fayda vermədiyini söyləyən Həsən bəy məsləhət görür ki, bizim şairlər bir-birlərini həcv və ya mədh etmək əvəzinə faydalı məzmuna malik mahnılar düzəltsəydilər, "onlar ağızdan-ağıza düşüb xalqı nadanlıqdan danalığa təhrik etməyə bais" olardı. Həsən bəyə görə mahnılar vətəndaşların estetik hisslərinə xoş təsir bağışlamaqla tədricən həm də onları ayıltmağa, müəyyən mətləbləri anlamağa kömək edir.

H.Zərdabi "Kaspi" (1902, 9 avqust) qəzetində dərc olunan "Keçmişlərdən" ("İz proşloqo") sərlövhəli məqaləsində xalq arasında estetik tərbiyənin maraqlı bir detalından söhbət açır. Danışır ki, uşaqlıq həyatımda yaşadığım Zərdab kəndində arabir toylar olardı. Toyda aşıq və zurnaçı iştirak edib məclisi aparardılar. Sazın və zurnanın səsi insanları valeh edərdi. Zurnada elə gözəl oyun havaları çalınardı ki, dinləyicilərin çoxu oynamağa həvəslənib gözəl rəqslər edərdi. Musiqi səsi insanların ruhuna şənlik, ovqatına gümrahlıq gətirərdi. Aşıqlar müxtəlif əhvalat və dastanlar danışardılar. Onlar bu əhvalat və dastanları elə şirin danışardılar ki, insanların bütün diqqəti aşığa yönələrdi. Necə deyərlər, "insanların ətini kəssən xəbərləri olmazdı". İnsanlar, xüsusilə də uşaqlar bir neçə gün həmin musiqi və dastanların təsirindən danışardılar. Bu, həmin musiqi və dastanların adamlara verdiyi yüksək estetik zövqün nəticəsi idi. (329, 427-429)

H.Zərdabi mahnıların və musiqinin estetik tərbiyə vasitəsi kimi əhəmiyyəti barədə "Bizim nəğmələrimiz" ("Həyat", 1906, 8 yanvar) məqaləsində də söhbət açmışdır. Müəllif Qafqaz müsəlmanları arasında nəğmələrin böyük estetik təsir və tərbiyəvi gücə malik olduğunu, onun səbəblərini belə izah edir: "Bizim Qafqaz müsəlmanlarına heç bir yazı və dil ilə deyilən söz o qədər əsər etməz, necə ki, şeir ilə deyilən söz, ələlxüsus nəğmələr ilə ki, xoş sövt ilə oxunur və bunun səbəbi odur ki, Qafqazın yerlərinin xasiyyəti belədir. Bizim cənnətin bir guşəsinə oxşayan vətənimizin dağları, çayları, xoş abü havası və hər bir cəhətdən səfalı və dilgüşa olmağı onun az zəhmət ilə bol məhsul götürən əhalisini cuşə gətirib bu hala salır.

Bir baxın bizim aşıqlar toylarda oxuyanda onlara qulaq asanlara. Bu zaman bu qulaq asanlar elə hala gəlirlər ki, bəistilahi-türk, ətini kəssən də xəbəri olmaz. Elə ki, sonra toy qurtardı, aşıqlar evinə getdi 5-10 gün uşaqlar gecə və gündüz küçələrdə gəzəndə aşıqdan eşitdiyi qafiyələri oxuya-oxuya gəzirlər və bir-birinin qələtin düzəldirlər". (290, 240)

Böyüməkdə olan nəslin, o cümlədən şagirdlərin milli şeir və mahnılarımızın estetik gözəlliyindən faydalanması da H.Zərdabini düşündürmüşdür. Adını çəkdiyimiz "Bizim nəğmələrimiz" məqaləsində müəllif qeyd edir ki, mən 7-8 il bundan əvvəl rus-müsəlman məktəblərinin açılmasından, ilbəil çoxalmasından ruhlanıb həmin məktəblərin müəllimlərindən xahiş etdim ki, gərəkli məzmunu olan ahəngdar şeirlər yazıb bu şeirləri "xoş havalar ilə" şagirdlərə öyrətsinlər. Müəllimlərdən bəziləri mənim dediyimə əməl etdilər. Uğurlu nəticə alındı. Mahnıların və onları oxuyan şagirdlərin sayı artdı. Ancaq hökumət darələri bu işdən xəbər tutub təşvişə düşdülər. Ona görə də şagirdlərə həmin mahnıları oxumaq qadağan edildi.

Zərdabi yazır ki, sonra mən bu nəğmələri çap etmək fikrinə düşüb senzuradan icazə aldım. Onları cəmləyərək bir kitabça şəklində çap etdirdim. Kitabları müxtəlif məktəblərdə şagirdlərə pulsuz paylatdım ki, oxuyub fayda götürsünlər.

Müəllif təəssüflənir ki, bizdə not olmadığından şeirlərin bəzilərini mahnı şəklinə salmaq çətinlik törədir.

Həsən bəy mahnılara gənc nəsli "xabi-qəflətdən"oyadan ciddi tərbiyə vasitəsi, estetik və mənəvi tərbiyə faktı kimi baxır. Elə buna görə də həmvətənlərinə müraciətlə deyir: "Qardaşlar, əgər siz, həqiqət, müsəlman qardaşlarımızı xabi-qəflətdən oyatmaq istəyirsiniz, hanı sizin xoş havalar ilə nəğmə oxuyanlarınız? Niyə zikr olan nəğmələri və qeyri təzədən çağırılanları şagirdlərə və qeyrilərə öyrətmirsiniz?" (290, 242)

Onu da deyək ki, H.Zərdabi müəyyən musiqi ritmi əsasında yazılmış xeyli şeiri toplayaraq iki dəfə, yəni 1901-ci ildə "Türk nəğmələrinin məcmuəsi" adı ilə kitabça halında nəşr etdirmişdir. Həmin kitabça 1901-cu ildə təkrar işıq üzü görmüşdür. H.Zərdabi irisinin tədqiqatçısı İ.Rüstəmovun bu sözlərini tamamilə həqiqət hesab etmək olar: "Zərdabi şeir və nəğmələrin rolu haqqında sadəcə nəzəri olaraq danışmaqla kifayətlənməmiş, öz fikirlərini təcrübi olaraq həyata keçirməyə, zəhmətkeşlərin cəhalət yuxusundan ayılıb inkişaf yoluna düşməsi işinə kömək edə biləcək şeir və nəğmələrin bütün xalq içərisində yayılmasına çalışırdı. Bu işdə o, əsas ümidini millətin gələcəyi hesab etdiyi gənc nəslə, məktəbli uşaqlara yönəltmişdi". (220, 178)

1902-ci ildə (11 iyul) "Kaspi" qəzetində dərc etdirdiyi "Bədii-sənaye məktəbləri" ("Xudojestvenno-promışlennıe uçebnıe zavedeniya") məqaləsində H.Zərdabi təlim, əl əməyi və estetik tərbiyə amilinin vəhdəti məsələsini qoyur. Göstərir ki, indi Rusiya imperiyasının təhsil və iqtisadiyyatla bağlı rəsmi dairələrində belə məlumatlar səsləndirilir ki, ölkənin müxtəlif yerlərində bədii-sənaye məktəbləri açılsın. Belə məktəblərdə şagirdlərə təlimlə yanaşı rəsm, xalçaçılıq, naxışlı paltarlar tikmək və s. öyrədilsin. Həsən bəy bunun son dərəcə səmərəli bir təklif olduğunu vurğulayır. Qeyd edir ki, bu, şagirdlər üçün çox faydalıdır. Belə ki, onlar təhsil almaqla yanaşı həm də xalçaçılıq, rəssamlıq, naxışlı paltarlar tikmək kimi gərəkli sənətlərə yiyələnə bilər, istər fərdi şəkildə evdə, istərsə də

ayrı-ayrı müvafiq sənaye müəssisələrində çalışarkən ixtisaslı kadr kimi daha keyfiyyətli, zövqlü işlər görə bilərlər. Çünki məktəbdə adı çəkilən sənətləri öyrənən şagirdlərin zövqü, bu sahəyə aid biliyi, estetik baxışları, təbii ki, başqalarından üstün olacaqdır. Belə təhsil ocaqlarının yaradılmasının ikinci əhəmiyyəti sənayeçilər, fabrik və kustar müəssisə sahibləri üçün faydalı ola bilər. Belə ki, onlar öz müəssisələrinə həmin məktəbləri bitirən şagirdlərdən işə götürə bilərlər. Təbii ki, bu cür təhsil almış şagirdlərin işi başqalarına nisbətən daha keyfiyyətli olacaqdır.

Həsən bəy qeyd edir ki, Qafqaz müsəlmanları arasında xalça toxumaq dəbdir. Gözəl xalçalarla yanaşı çox hallarda keyfiyyətsiz, naxışları və rəngləri heç bir məna ifadə etməyən, zövqsüz xalçalar da meydana çıxır. Bunun səbəbi həmin xalçaları toxuyanların bu sahə üzrə kifayət qədər biliyə, məlumata, zövqə malik olmamasıdır. Əgər Qafqazda da bədii-sənaye məktəbləri açılsa, bu məktəblərdə şagirdlər xalçaçılığı elmi şəkildə öyrənsələr, daha gözəl xalçalar toxuya bilərlər.

Həsən bəy şagirdlərə rəsm öyrətməyin estetik tərbiyədəki rolundan da söhbət açır və yazır: "Rəsm öz-özlüyündə ümumi inkişafa kömək edən mühüm tədris predmetlərindəndir. Hər halda ilk mərhələlərdə o, şagirdə predmetlərin xarici əlamətlərini hərtərəfli, daha dəqiq surətdə müşahidə etmək vərdişi verir və insanda – onun digər biliklərinin əldə edilməsinin ciddi vasitəsi olan qabiliyyyət əmələ gətirir. Bundan başqa, rəsm şagirdi xarici təbiətin predmetlərini tam dolğunluğu ilə əks etdirməyi ona öyrədir. Bunun üçün isə daim fikir gərginliyi tələb olunur. Şəkilçəkən çəkdiyi şəkli həmişə canlı predmet müqabilində təhlil və müqayisə edir, harda və hansı düzəlişləri etmək lazım olduğunu axtarır ki, rəsm predmetin özündən alınan təəssüratı yarada bilsin..." (323, 414)

Məlumdur ki, folklor materialları uşaqların mənəvi dünyasının zənginləşməsində, xəyal və fantaziyasının qanadlanmasında, bir sözlə, estetik tərbiyəsində əvəzsiz rol

oynayır. Elə buna görə də milli intibah dövrünün Azərbaycan maarifpərvərləri böyüməkdə olan nəslin tərbiyəsində xalq yaradıcılığı nümunələrinə xüsusi əhəmiyyət vermişlər. Təsadüfi deyil ki, S.Ə.Şirvani "Rəbiül-ətfal" (1878) dərsliyinə giriş kimi qələmə aldığı "Nazimin ifadəsi" şeirində gənc nəslə öyrədilməli olan bir neçə əsərin adını çəkir. Bunlar hamısı folklor nümunələridir. Həmin əsərləri müəllif "nazənin rəvayətlər" adlandırır. Əslində "nazənin rəvayətlər" dedikdə şair "zərif hekayətlər", "insana zövq verən əhvalatlar" anlamını nəzərdə tutur. Sənətkar deyir:

Var cahanda gözəl hekayətlər,
Neçə min nazənin rəvayətlər.
Nəzm qıl "Qisseyi-Güləndam"i
Eylə məlum eşqi-Bəhrami.
Kərəmin Əsli ilə yaz vəslin,
Kəşf qıl Əsli xanımın əslin.
De "Koroğlu", cahanı canə gətir,
Qıratın vəsfini bəyanə gətir.
Söylə nəqli – Qəribdən hərdəm –
Ki, onun yarı idi Şahsənəm
Eşidənlər kəlamın olsun şad,
Söyləsinlər ki, mərhəba ustad! (248, 29)

Göründüyü kimi, Seyid Əzimin adını çəkdiyi əsərlərin hamısı xalq dastanlarıdır. Bunlar o zaman aşıqlar tərəfindən məclislərdə söylənir, onun nəzm hissələri isə müəyyən musiqi havası ilə ifa olunurdu. Beləliklə, dastanlar həm maraqlı əhvalatları, həm də zəngin musiqisi ilə dinləyicilərin zövqünü oxşayırdı. Elə buna görə də S.Ə.Şirvani uşaqlar üçün yazdığı dərslikdə dastanları həm mənəvi-əxlaqi, həm də estetik tərbiyə vasitəsi kimi gənc nəslə təbliğ edir. Onlardan faydalanmağı məsləhət görür.

Seyid Əzim məşhur "Guş qıl..." müxəmməsində isə musiqinin gözəlliyindən, onun insanın duyğularına təsirindən, dinləyicinin daxili aləmini riqqətə gətirməsindən, onda nəcib hisslər oyatmasından söhbət açır.

"Ziya" qəzetində (1880, 22 may) H.Zərdabi maraqlı bir məsələyə toxunur. Göstərir ki, bir sıra mövzular şagirdlərə öyrədilərkən avazlı, yəni mahnı kimi oxu üsulundan istifadə etmək çox effektli olar. Uşaqlar həmin mövzuları mahnı kimi öyrəndikdə onlar yorulmur. Həm də öyrəndikləri mətləb onların daha yaxşı yadında qalır. Müəllif qeyd edir ki, mollaxanalarda da Quranın öyrədilməsi zamanı bu metoddan istifadə etmək olar. O, təklif edir ki, Quran hekayətləri, surələri ilə bağlı kitabçalar tərtib edib oraya zikr olunan mövzuda kiçik hekayə və mahnılar daxil etmək, sonra onları şagirdlərə daha səmərəli şəkildə mənimsətmək olar: "Məzkur kitabçə gərək kiçik hekayələrdən və mahnılərdən cəm olmuş olə və bu mahnıləri oxuyub öyrənəndən sonrə yaxşı olurdu ki, hər mahnını oxuyub əzbərləyən uşaqləri bir yerə cəm idüb o mahnını öz həvasində qayimdən (ayaqüstü – T.V.) oxudəydilər". (292, 281)

Haqqında danışdığımız dövrdə mütərəqqi baxışlı Azərbaycan ziyalılarını narahat edən məsələlərdən biri də estetik tərbiyənin uşaqların yaş xüsusiyyətlərinə, maraq dairələrinə, psixoloji vəziyyətlərinə görə aparılmaması idi. Onu da əlavə edək ki, ənənəvi məktəblərdə (mollaxanada) təkcə estetik tərbiyədə deyil, tərbiyənin başqa sahələrində də vəziyyət belə idi. Konkret olaraq estetik tərbiyəyə gəldikdə mollaxana və mədrəsələrdə bu məsələyə qətiyyən diqqət yetirilmirdi. Hətta mollaxanalarda aparılan təlim sistemi elə idi ki, əksinə tədris olunan kitablar şagirdlərin zövqünü korlayırdı. Bu kitablar onların zövqünə, maraqlarına və yaş xüsusiyyətlərinə qətiyyən uyğun gəlmirdi. Təsadüfi deyil ki, tərəqqipərvər Azərbaycan maarifçilərinin əksəriyyəti həmin kitabların və təlim üsulunun əleyhinə çıxış edirdilər.

M.Şahtaxtlı "Kavkaz" qəzetində silsilə şəkildə dərc edilən "Müsəlmanlarda məktəb həyatı" məqalələri silsiləsində dediyimiz məsələyə geniş şəkildə toxunur. Qəzetin 4 iyun 1882-ci il tarixli nömrəsində o, ənənəvi təhsil ocaqlarında təlim edilən kitabların siyahısını verir: "Gülüstan", Hafiz, "Camei-Abbas", "Tarixi-Nadir", "Əbvab-əl-Cinan",

"İnşai-Mirzə Mehdi xan", "Xəzani-Bahar", "Tarixi-Müəccəm" və s. Müəllif izah edir ki, bu kitablar nəinki əqli cəhətdən, zövq və maraq baxımından da şagirdlərə heç nə vermir. Şagirdlər kitablardakı mətləbləri anlamır, buradakı materialları yalnız quru-quru əzbərləməyə məcbur edilirlər. Ona görə də şagirdlərin əksəriyyəti üçün bu cür sxolastik təlim metodu cəhənnəm əzabına çevrilir. Müəllif dönə-dönə xatırladır ki, uşaqların maraqlarını, zövqlərini, daxili dünyalarını əyləndirməyən əsərlər onlar üçün heç bir səmərə gətirmir. Deməli, təlim olunan əsərlər estetik baxımdan da böyüməkdə olan nəslin yaş və zövq səviyyəsinə müvafiq olmalıdır. (237, 276-277)

N.Vəzirov şair Mirzə Əli Əsgərin şeirlərini kəskin şəkildə tənqid edir, onların məna-məzmun baxımından oxucuların zövqünü oxşamadığını, onların ruhuna yatmadığını nəzərə çatdırırdı. O, Mirzə Əli Əsgərin belə bir beytini misal çəkirdi:

Bu nə naz, bu nə qəmzə, bu nə işvə, bu nə rəviş,  
Bu nə qaş, bu nə gözdür, bu nə sərxoş yeriş. (264, 287)

Oxucuya əqli və estetik cəhətdən heç nə verməyən bu cür şeirləri tənqid edən Nəcəf bəy onun müəllifinə üz tutaraq xatırladırdı ki, "siz çəkən zəhmət nahaq zəhmətdir. Ondan nə bizə, nə bizim övladımıza bir nəf yoxdur".

Diqqətəlayiq cəhətdir ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində yaşayıb fəaliyyət göstərmiş mütərəqqi baxışlı tərbiyə nəzəriyyəçilərimiz ana dilinə estetik tərbiyədə əlverişli və vacib vasitələrdən biri kimi baxmışlar. Bu məsələdən danışarkən bir cəhəti nəzərə almaq lazım gəlir. Belə ki, ana dilinin xalqın milli varlığında mühüm rolu olduğu tarix boyunca dəfələrlə deyilmiş, milli intibah dövrümüzün milli maarifçiləri də yekdil olaraq bu fikrə şərik çıxmışlar. Lakin Azərbaycan ziyalıları ana dilinə xalqın milli etiketi, milli özünütəsdiq atributu olaraq baxdıqları kimi, ona həm də estetik tərbiyə vasitəsi nöqteyi-nəzərindən də yanaşmışlar. Azərbaycan mütəfəkkirlərinin əsərlərində dəfələrlə qeyd edilir ki, ana dilinin şirin ləhcəsi kiçiklər və böyüklər üçün əvəzedilməz mənəvi zövq mənbəyidir. Ana dilində deyilən laylalar, oxunan mahnılar,

söylənən şeir, nağıl və s. əsərlər körpə ruhunun əsl qidasıdır. Ana dilindəki lətif, ahəngdar əsərlər, gözəl danışıq vətəndaşlara bənzərsiz səfa bəxş etməklə onun estetik dünyasını qanadlandırır, ona bir zənginlik bəxş edir. Bütün bunları nəzərdə tutan N.Nərimanov "Bu gün" silsiləsindən olan məqalələrindən birində ("Həyat", 1906, 15 avqust) məsləkdaşlarının fikirlərini də öz qənaətlərinə qataraq deyirdi: "Ana dili! Nə qədər rəfiq, nə qədər ali, hissiyyati-qəlbiyyə oyandıran bir kəlmə! Nə qədər möhtərəm, müqəddəs, nə qədər əzəmətli bir qüvvə! Ana dili! Bir dil ki, mehriban bir vucud öz məhəbbətini, şəfqəti-madəranəsinisənə o dildə bəyan edibdir. Bir dil ki, sən daha beçikdə ikən bir layla şəklində öz ahəng və lətafətini sənə eşitdirib, ruhun ən dərin guşələrində nəqş bağlayıbdır! Bir dil ki, həyat və kainat haqqında ilk əvvəl o dil sayəsində bir fikir hasil edibsən, cism və ruhun möhtac olduğunu məvadi o dildə tələb eləyibsən..." (192, 332)

Azərbaycan musiqi sənətinin inkişafında misilsiz xidmətləri olan Ü.Hacıbəyov səhnə əsərlərinin, xüsusilə də musiqili səhnə əsərlərinin tərbiyəvi əhəmiyyəti barədə dəyərli fikirlər söyləmişdir. O, həmin fikirlərini "Səhnənin tərbiyəvi əhəmiyyəti haqqında" ("Kaspi" qəzetinə əlavə kimi buraxılan "Bakı Müsəlman İctimai Təşkilatları Komitəsinin Xəbərləri", 1917, 28 oktyabr), "Opera və dramın tərbiyəvi əhəmiyyəti haqqında" ("Kaspi", 1917, №256, 260) və s. məqalələrində şərh etmişdir. Adı çəkilən məqalələr gənc publisist Əsəd Məmmədov – Əhliyevin musiqili səhnə əsərləri ilə bağlı mətbu məqaləsinə cavab olaraq qələmə alınmışdır.

Üzeyir bəy gənc publisist Ə. Məmmədovun musiqi əsərləri ilə əlaqədar mülahizələrini təhlil edir, onun yanlış və doğru fikirlərinə münasibət bildirir, eyni zamanda bu tipli əsərlərin tərbiyəvi əhəmiyyəti üzərində dayanır. Müəllif yazır: "Səhnədə dram göstərilirsə, həm də tamaşaçı onun musiqili hissəsini gözü ilə deyil, qulağı ilə eşidirsə, bütün səhnə emosiyası, iştirak edən aktyorların lirik əhvali-ruhiyyəsi, onların daxili aləmi musiqinin ecazkar dili ilə ifadə olunursa, bütün

bunlar tamaşaçının əqlinə və qəlbinə o qədər nüfuz edir ki, belə bir tamaşadan ibrət götürmək üçün gərək gözlərin kor və qulaqların kar olsun!” (101, 168)

Müəllifin qənaətinə görə istər musiqili, istərsə də musiqisiz səhnə əsələrinin hər birinin tərbiyədə özünəməxsus yeri vardır. Ona görə də kütlənin əqli, mənəvi və estetik tərbiyəsində bunların hər ikisindən yararlanmaq gərəklidir. Onun fikrincə səhnə əsərləri insanların əqlinə, emosiyalarına daha tez təsir göstərir, onlarda müsbət duyğu və baxışlar oyadır. Üzeyir bəy istər opera, operetta kimi musiqili, istərsə də, dram, faciə, komediya kimi musiqisiz səhnə əsərlərinə bir bütöv halında yüksək qiymət verir, onları mühüm bir tərbiyə faktoru kimi ön plana çəkir. İctimaiyyətin tərbiyəsində bunlardan faydalanmağın zərurətini nəzərdə tutan müəllif öz qənaətlərini belə ifadə edir: “Mən danışıq dilinə nisbətən musiqi dilinin, xüsusən, lirik anlarda daha böyük qüvvəyə malik olduğunu etiraf etməklə yanaşı, musiqisiz əsərlərin öz məzmununun əxlaqi cəhətlərini parlaq ifadə etməyə yararlı olduğunu da inkar etmirəm.

Ümumiyyətlə, mən heç də təkcə musiqili səhnə əsərlərinin tərəfdarı deyiləm. İctimaiyyətin tərbiyəsi üçün faciə də, dram da, komediya da, opera da, operetta da lazımdır. Operetta haqqında belə fikir yayılmışdır ki, guya bu, şit və bayağı formadır. Doğrudur, bizdə bayağı və məzmunsuz operettalar çoxdur, lakin duzsuz və mənasız dramlar, faciələr, komediyalr da az deyil”. (101, 168)

Musiqili səhnə əsərlərinin ciddi tərbiyəvi gücə malik olduğunu yaxşı dərk etdiyinə görə Üzeyir bəy bir sıra dəyərli, dünya musiqi sənətinin klassik nümunələrinə çevrilən musiqili əsərlər yazmışdır.

Milli intibah dövrü Azərbaycan ictimai-mədəni və pedaqoji gerçəkliyində estetik tərbiyə məsələsində qarşıya çıxan vacib məsələlərdən biri də “yaxşı və pis əsərlər” problemi idi. Belə ki, Azərbaycan maarifpərvərləri yaxşı əsərin tərbiyədə müsbət rol oynadığını dərk etdikləri kimi pis əsərin də mənfi

mahiyyət daşıdığını aydın başa düşürdülər. Elə buna görə də oxuculara mənalı, məzmunlu, həm forma, həm də məzmunca layiqli əsərlər təqdim etməyi günün aktual məsələlərindən hesab edirdilər. Bu səbəbdən onlar yaranan keyfiyyətsiz bədii əsərlərə mənfi reaksiya verir, belə sənət nümunələrini tənqid edirdilər.

Ü.Hacıbəyov "Aləm şair oldu" ("Tərəqqi", 1908, 6 iyul) məqaləsində redaksiyaya göndərilən bir şeirdən danışır. İran həyatından danışan bu şeirdə müəllifi maraqlandıran yalnız misralarda bir-birinə həmqafiyə olan sözlər tapmaqdır. Şeirin səviyyəsi, məna-məzmun dolğunluğu, estetik və əxlaqi cəhətdən oxucuya necə təsir etməsi isə şairi qətiyyən maraqlandırmır. Elə buna görə də Üzeyir bəy şeirin müəllifini məsxərəyə qoyur. Belə mənasız şeirlərin heç bir tərbiyəvi məzmun kəsb etmədiyini, oxucuya heç bir zövq və fayda vermədiyini nəzərə çardıraraq ifşaedici bir tonla deyir:

Səyin oldu, ey şair, lap hədər.
Bu cürə şeirlər səbətə gedər.
Şeir yazmaq da çox hünər istər.
Səndə də yoxdur bir belə hünər.
Sən get bu dərsi elə əzbər və de:
Əlif, bey, püç, dü zəbər, dü-zir! (101, 355)

C.Məmmədquluzadə də "Qənimət" ("Molla Nəsrəddin", 1909, №3) felyetonunda mənasız, məzmunsuz mədhnamələr yazan şairləri məsxərəyə qoyur. Belə şeirlərin oxucuda heç bir təəssürat oyatmadığını, onların tərbiyəsinə yaramadığını nəzərə çatdırır.

F.Köçərli də "Ədəbiyyatımıza dair məktub" ("Şərqi-rus", 1904, 18 dekabr) məqaləsində ədəbiyyat və tərbiyə məsələsini qoyur. O, ədəbi əsərlərin tərbiyədə böyük rol oynadığına diqqəti cəlb edir. Bu mənada indiki qələm sahiblərinin də uğurlu əsərlər yazdığını qeyd edir. Lakin onu da vurğulayır ki, indi yaxşı əsərlərlə yanaşı çoxlu sayda faydasız bədii nümunələr də meydana çıxır. Belə əsərlər zövq əhlinə heç bir gərəkli hiss təlqin etmir. Bu məziyyət şeirlərdə daha çox özünü göstərir. Müəllif qeyd edir ki, təb və istedad sahibi olmaq hələ gözəl şeir

yazmağa dəlalət etmir. Əsas məsələ bu təb və istedaddan necə istifadə etmək, onu hansı səmtə yönəltmək bacarığındadır. Firidun bəy öz fikirlərini belə şərh edir: "İndiki şairlərimizə gəldikdə onların təbi-şeirləri barəsində bir sözümüz yoxdur; təbləri mövzun, fikirləri gözəl, niyyətləri məqbul və müstəhsən olmağına şübhəmiz yoxdur. Bunların hamısı var. Ancaq şeirə lətafət və məlahət verən hissiyyati-həqiqi və zövqi-təbii yoxdur və buna səbəb də anladığımıza görə odur ki, bu ərbabi bəlağətlərimiz bir şeyin yaxasını tutub yüz cürə əlfaz və ibarə və istiarələr ilə onu tərif və tövsif etməyə sərfi-hümmət qılırlar". (129, 102) Göründüyü kimi, Firidun bəy poeziyada təkrarçılığın, uzunçuluğun, mətləbi min dəfə deyilmiş ifadələrlə oxucuya çatdırmağın oxucunu yorduğunu, ona zövq bağışlamadığını, onun mənəvi və estetik tərbiyəsinə heç bir səmərə vermədiyini xatırladır. Müəllif belə bir həyati misal çəkərək göstərir ki, elmin fəziləti, mənfəəti barədə çoxlu şeirlər yazılır. Onlar quru nəsihət və sözçülükdən ibarət olduğundan oxucularda heç bir maraq oyatmır. Bu mənada müəllif bizim qələm sahiblərinə Avropa sənətkarlarının təcrübəsindən bəhrələnməyi zəruri sayır. O, sənətkarlara tövsiyə edir ki: "Gözəl nəsihətlər, hikmətamiz hekayələr, vətənə məhəbbət, millətə xidmət, təvarixdən şayani-diqqət əhval və rəvayətlər, dostluqda sədaqət, əhdə vəfa etmək və bunlar misilli min cürə uca fikirlər və müqəddəs hisslər şairin silsiləyi-təbinə hərəkət versə, daha ziyadə mərğub olmazdımı?" (129, 102) Göründüyü kimi, müəllif əsərin tərbiyəvi gücünü onun həyat həqiqətləri ilə uzlaşdırılmasında görür. Bildirir ki, lazımlı mətləb əsərdə oxucuya estetik və mənəvi cəhətdən xoşa gələn formada verilməlidir. Əks təqdirdə əsər öz tərbiyəvi funksiyasını yerinə yetirə bilmir.

"Köçərilərin övza və əhvalı" ("Tərəqqi", 1909, 1, 8, 14 sentyabr) məqaləsində F.Köçərli xalq həyat və məişətində tərbiyə ilə bağlı maraqlı bir məsələyə toxunur. Göstərir ki, bizim ata-babalarımız uzun əsrlər boyunca köçəri həyat keçirmiş və maldarlıqla məşğul olmuşlar. Əmək prosesində onlar çəkdikləri zəhməti ustalıqla gözəl şeir və nəğmələrlə qovuşdurmuşlar.

Məsələn, onlar maldarlıqla, xüsusilə də qoyun və keçi kimi ev heyvanları ilə əlaqədar sayaçı sözləri yaratmışlar. El içərisində yaranan sayaçı sözlər həm əmək prosesinə məhəbbət yaradır, həm də adamların estetik hisslərinin tərbiyəsinə xidmət edir. Sayaçı sözləri ideya və məzmun baxımından əmək prosesi ilə sıx surətdə bağlanmaqla həm də forma gözəlliyi, ritm və ahəngi, emosional çaları ilə dinləyicinin zövqünü oxşayır. İnsanların məişət və güzəranını təmin edən qoyun, keçi kimi heyvanlara qarşı rəğbət yaradır. Əməklə tərbiyəvi çalar bu cür şeirlərdə son dərəcə gözəl şəkildə uzlaşır.

F.Köçərli yalnız estetik tərbiyə ilə bağlı nəzəri mülahizələr söyləməklə kifayətlənməmişdir. O, böyüməkdə olan nəslin bu istiqamətdə uğurlu tərbiyəsi naminə əməli işlər də görmüşdür. Bu mənada onun 1912-ci ildə nəşr etdirdiyi "Balalara həqiyyə" kitabı xüsusilə diqqəti cəlb edir.

"Balalara həqiyyə" kitabına daxil edilmiş nümunələrin çoxunu folklor nümunələri təşkil edir. Topluya yazılı ədəbiyyatdan da bir neçə örnək daxil edilmişdir. Kitab daha çox kiçik və orta yaşlı uşaqların mütaliəsi üçün nəzərdə tutulmuşdur. Firidun bəy tərtib zamanı səriştəli bir pedaqoq kimi hərəkət etmişir. Materiallar seçilərkən uşaqların zövq və maraq dünyası məharətlə nəzərə alınmışdır. Həqiqətən də, buradakı rəngarəng nümunələrin hər biri kiçik oxucuların estetik tərbiyəsinə yardım edən dəyərli əsərlərdir. Tərtib zamanı F.Köçərli bu cəhəti böyük həssaslıqla nəzərə almışdır. Kitaba yazdığı müqəddimədə tərtibçi böyüməkdə olan nəslin təlim-tərbiyəsində bu tipli əsərlərin əvəzsiz rol oynadığını xüsusi olaraq nəzərə çatdırır: "O millət ki, öz tarixini, dolanacağını, vətənini və dilini sevir, bu qism əsərləri kəmali-şövq və diqqətlə cəm edib, ziqiymət sərmayə kimi saxlayır və balalarının ilk təlim və tərbiyəsini onları öyrətmək ilə başlayır". (43, 248)

Tərtibat zamanı Firidun bəy "formadan məzmuna doğru" prinsipini əsas götürmüşdür. Daha doğrusu, materialların ilk növbədə formaca uşaqların xoşuna gəlməsini, "könlünü şad etmə"sini nəzərə almışdır. Sonra isə nümunələrin məzmun

cəhətdən faydalı olmasına çalışmışdır. Beləliklə, tərtibçi burada kiçik oxucuların həm estetik, həm də mənəvi və əqli tərbiyə amillərini vəhdətdə götürmüşdür. Doğrudan da, "Balalara həqiyyə" oxucuların "ürəyinin açılmağına" xidmət edən, onların estetik və mənəvi dünyasına qida verən dolğun bir topludur. Tərtibçinin müqəddimədə dediyi kimi: "Zənnimizcə, bu məcmuəni hər kəs oxusa, böyük, ya kiçik, onun qəlbi açılıb xəndan olacaqdır. Balalar şad olacaq. Bu səbəbə ki, onda dərc olunan əsərlərin cümləsi onların dünyasındadır, təbiətlərinin iqtizasına müvafiqdir. Böyük adamların ürəklərinin açılmağına səbəb bu olacaqdır ki, onlar mütaliə əsnasında öz uşaqlıq vaxtlarını bilaixtiyar xatirlərinə gətirəcəklər. Bu isə, yəni qəlbi şad etmək özlüyündə bir xidmətdir". (43, 248)

"Balalara hədiyyə"yə xalq ədəbiyyatının xeyli sayda milli inciləri – atalar sözləri, məsəllər, tapmacalar, sayaçı sözləri, düzgülər, sanamalar, qoşmalar, hekayətlər, nağıllar, laylalar və s. daxil edilmişdir. Bunlar sadə, aydın məzmuna, tərbiyəvi ruha, şirin dilə malikdir. Əsərlərin dili o qədər şirin, cazibədar və ahəngdardır ki, dərhal uşaqları cəzb edir və əyləndirir. Məsələn, keçi haqqında sayaçı sözlərə nəzər salaq:

Nənəm, o tatar keçi,
Qayada yatar keçi.
Qışı soyuq gələndə
Balanı atar keçi.
Nənəm, o xallı keçi,
Məməsi ballı keçi,
Ayağı nallı keçi,
Uca qaya başında,
Tutubdu yallı keçi. (43, 255)

Sayaçı sözlərdə keçiyə aid xüsusiyyələr elə səmimi və ahəngdar dillə kiçik oxuculara çatdırılır ki, onlar dərhal şeirin cazibəsinə düşüb onu hafizələrində saxlamaq istəyirlər.

M.Ə.Rəsulzadə "Balalara hədiyyə" kitabı barədə yazdığı mətbu məqaləsində ("İqbal", 1914, 20 aprel) onu balaca balalara məxsus "milli bir kitabça", "üsuli-tədris və tərbiyəyə" fayda

verə biləcək, "uşaq zehninə yaxın" bir toplu adlandırırdı. Belə topluların millət balalarının tərbiyəsinə böyük fayda verə biləcəyini xatırladırdı. (212, 328)

Məlum olduğu kimi, oyunların uşaqların estetik tərbiyəsində böyük rolu vardır. Görkəmli pedaqoq A.S.Makarenko bu barədə yazırdı: "Oyun uşağın həyatında böyük əhəmiyyətə malikdir. Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq nə kimi əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun o qədər vacib və əhəmiyyətlidir. Uşaq oyunda necədirsə, böyüyəndən sonra işdə də bir çox cəhətdən elə olacaqdır. Ona görə gələcək xadimin tərbiyəsi, hər şeydən əvvəl, oyun prosesində keçir. Bir xadim və işçi kimi ayrı-ayrı insanların bütün tarixi oyunun inkişafında və oyundan tədricən işə keçməsində təsəvvür edilə bilər". (156, 304) Elə buna görə də M.Ə.Rəsulzadə oyunu uşaqların – gələcəkdə vətəninin taleyini həll edəcək vətəndaşların tərbiyəsində "mühüm bir nöqtə" adlandırırdı. Milli tərbiyəçi və ideoloqumuzun 1916-cı ildə "Açıq söz" qəzetinin 2 sentyabr tarixli nömrəsində dərc edilmiş "Tərbiyədə mühüm bir nöqtə" məqaləsi dediyimiz məsələyə həsr edilmişdir.

Məqalədə əvvəlcə Məhəmməd Əmin bəy müsəlman şəhəri olan Orenburq Zemstvo İdarəsinin nəzdində məktəb və maarif işlərinə baxan bir şöbə yaradıldığı, bu şöbənin müsəlmanların təhsil və tərbiyəsi yolunda gördüyü işlər barədə söhbət açır. Şöbənin bu sahədə canfəşanlıq göstərdiyi, uğurlu işlər gördüyü qeyd edilir. Göstərilir ki, milli müsəlman işçilərindən ibarət şöbə həm də vilayətdə lap körpələr üçün "yasli-priyutlar" ("körpələr evi") və bağça yaşlı uşaqlardan ötrü "uşaq bağçaları" açmaqla məşğuldur. Şöbə əməkdaşlarının ilk məqsədi istər körpələr evində, istərsə də uşaq bağçalrında tərbiyəni milli oyunlar üzərində qurmaqdır. Bu barədə Orenburqda çıxan "Vəqt" qəzetinin müxbiri K.Bəkir qəzet səhifələrində geniş məlumat vermişdir. M.Ə.Rəsulzadə belə bir təşəbbüsün son dərəcə faydalı olduğunu, onun bizdə də tətbiqinə ehtiyac yarandığını nəzərə çatdırır. Müəllif bu milli oyunların mahiyyət və

səmərəsini də şərh edir. Göstərir ki, zahirən həmin oyunlar "baş aldadıcı", vaxt keçirmək xatirinə oynanılan oyun təsiri bağışlayır. Əslində isə "bu oyunlar növünə görə cocuğun bədənini, ruhunu, zehnini tərbiyəyə mədar olub tərbiyədə böyük bir bab təşkil ediyor". (213, 504)

Tərbiyəçi ideoloq qeyd edir ki, tərbiyə və tədrisin başqa sahələrində olduğu kimi bu işdə də milliliyi gözləmək vacibdir. Belə ki, "bizim uşaqlara məxsus min dürlü oyunlarımız var ki, bir yerə toplansa, tərtibə salınsa, tənzim edilsə, uşaq bağçalarında, meydanlarında öyrədilmək və oynadılmaqla bu baxça və meydanlara milli bir rəng və ruh vermiş olur." (213, 504)

Məhəmməd Əmin bəy K.Bəkirin belə bir təşəbbüsünü də bəyənir və alqışlayır ki, o, Volqaboyunun müxtəlif yerlərində müxtəlif şəkil və növdə olan uşaq oyunlarını, bu oyunların icrası zamanı oxunan mahnı və nəğmələri toplayıb nəşr etdirməyi vacib sayır. Bu mənada müəllimlərin, mühərrirlərin üzərinə ciddi vəzifə və məsuliyyət düşdüyünü söyləyir. M.Ə.Rəsulzadə Qafqaz müsəlmanları arasında da belə bir təşəbbüsün əməli şəkildə icrasını zəruri vəzifə hesab edir. Ziyalıları, müəllimləri bu sahədə fəaliyyətə çağırır. Qeyd edir ki, bizim də uşaqlardan ötrü çoxlu sayda milli oyunlarımız, oyun zamanı oxunan mahnı və nəğmələrimiz vardır. Təəssüf ki, bunlar toplanıb çap edilməmiş qalmışdır. Hansı ki, onlardan istifadə millət balalarına, onun tərbiyəsinə ciddi səmərə verə bilər. Halbuki biz belə milli oyunlarımızın toplanması və tətbiqi qayğısına qalmayıb kənar xalqlardan götürülmüş bəzi oyunları icra edir, övladlarımıza bunları öyrədirik. Məsələn, yeni ildə "yolka" bəzəməyi və onunla bağlı oyunları buna misal göstərmək olar. Tərbiyənin milli zəmində, milli oyunlardan başlayaraq aparılmalı olduğunu nəzərə çatdıran tərbiyəçi ideoloqumuz deyilən məsələyə ciddi bir problem kimi yanaşaraq yazır: "Müəllim yalnız tərbiyəsinə verilən uşağa "əlif be" öyrətməklə iktifa etməyib, tərbiyənin ələlümum bütün hikmət və qəvvamizini ögrənmək və ögrətməklə də məşğul olmalıdır.

Həqiqi müəllim və səmimi cəmaət xadimi olan ürəfalarımız bir nəzəri istehza ilə yaramaz şey kibi atılan milli oyunlarımızın unudulub aradan getməsinə dözməyib guşeyi-nisyanə atilan bu milli oyunların əvəzinə “tərbiyəli” evlərdə qurulmaya başlanan “yolka”ları ürək acısı ilə görməli, bunu millətdən çıxmaq kibi təlqin edərək o yolda var himmətlə çalışmalıdırlar”. (213, 505)

Y.V.Çəmənzəminli 1914-cü ildə qələmə aldığı “Ana və analıq” risaləsinin “Həqiqi ana” adlanan 12-ci bölümündə uşaqların milli ruhda və estetik tərbiyəsində milli bayramlarımızdakı ayin və oyunların əhəmiyyətindən söhbət açır. Xüsusilə Novruz bayramı üzərində dayanır. Qeyd edir ki, istər bayram ərəfəsində, istərsə də Novruz bayramında icra olunan bir sıra adətlər, oyunlar uşaqlara böyük zövq verir, onların ruhunu oxşayır, həyatını və könlünü şənləndirir. (65, 168-170)

XIX-XX əsrlərin hüdudlarında Azərbaycan ictimai-pedaqoji mühitində fikir münəvvərlərimizi narahat edən mühüm bir məsələyə də diqqəti cəlb etmək lazım gəlir. Bu, milli məktəblərimizin, o cümlədən “rus-tatar” məktəblərinin proqramında və təlim sistemində estetik tərbiyə ilə əlaqəli fənlərə, məsələn, nəğmə, rəsm və s. fənlərə diqqət yetirilmirdi. Vətənpərvər pedaqoqlarımız bunu milli tərbiyədə ciddi qüsur hesab edirdilər. Eyni zamanda təlim prosesində həmin qüsurun aradan qaldırılması, bu aspektdə müəyyən lazımi tədbirlərin həyata keçirilməsi uğrunda mübarizə aparırdılar. Həmin mübarizlərdən biri də A.Səhhət idi. Onun “Nəğmə və musiqinin məktəblərdə əhəmiyyəti” (“Sovqat”, 1916, 4 noyabr) adlı mətbu məqaləsi də bu mübarizənin bir pedaqoji faktı kimi meydana çıxmışdı.

Məqalənin əvvəlində A.Səhhət maraqlı iki mənzərəni müqayisə edir və sonra əsas mətləb və təkliflərinə keçir. Göstərir ki, Şamaxıda həm “rus-tatar”, həm də “rus-erməni” məktəbi mənim yolumun üstündə olduğundan gedib-gəldikcə maraqlı bir mənzərənin şahidi oluram. Həftənin müəyyən günlərində “rus-erməni” məktəbindən erməni şagirdlərin erməni

dilində oxuduğu nəğmələri eşidirəm. Erməni şagirdlər bu nəğmələri nəğmə dərslərində oxuyurlar. "Rus-tatar" məktəblərində isə belə nəğmə səslərini eşitmək mümkün deyil. Çünki bizim milli məktəblərimizdə nəğmə dərsləri keçilmir. Buna təəssüf edən müəllif sonra şərqilərin tərbiyədəki əhəmiyyətinin şərhinə keçir. Qeyd edir ki, nəğmə dərslərini tədris proqramına daxil etmək qanunla qadağan edilmir. Bu, mümkündür. Ermənilər bu fürsətdən lazımınca yararlanır, milli nəğmələrin milli və estetik tərbiyədə necə əsaslı rol oynadığını dərk etdiklərindən onu proqrama daxil edirlər. Bizim milli təhsil ocaqlarımızda isə mütəxəssis olmadığını bəhanə edərək bu vacib məsələyə diqqət yetirmirlər. Halbuki bizdə həmin dərslərin təlimi üçün mütəxəssis kadr tapmaq mümkündür. Onu hazırlamaq, yetişdirmək də olar.

A.Səhhət təəssüf edir ki, bizdə şərqi dərslərinin tədrisinin necə aktual bir məsələ olduğu dərk edilmir. Hətta çoxları opponent kimi mənə irad tutacaqlar ki, "hərif qəzetin səhifəsini faydasız sözlər ilə doldurub uşaqlarımıza məktəbdə mahnı öyrətməyi təklif edir. A canım! Şərqi bizim hansı dərdimizə dərmandır? Bizim uşaqlarımız bir babat siyahı-sərriştə öyrəndi, bir balaca yazı-pozu bildi, kifayətdir, daha nəğmə nəyə lazım imiş?" (230, 47)

Müəllif qeyd edir ki, mən tərbiyəşünas olmasam da, mövzu ilə bağlı bəzi mətləbləri nəzərə çatdırmaq istəyirəm. Sonra o, nəğmə oxumağın və bu fənni proqrama daxil etməyin əhəmiyyəti barədə mülahizələrini verir. Onun mülahizə və qənaətləri pedaqogika elminin təcrübəsinə, elmi məntiqə və həyati praktikaya söykənir.

Tərbiyəçi sənətkar qeyd edir ki, musiqi təliminin faydası dünyanın böyük müəllimləri tərəfindən təcrübədən keçirilmiş və qəbul edilmiş həqiqətdir. "Çünki hərəkət etmək, bağırmaq uşaqların təbii ehtiyaclarından biridir. Hələ qundaqda olan uşaqlar bir yandan əllərini oynatdıqları kimi, bir yandan da dillərini, boğazlarını hərəkət etdirir, ağlayır, yaxud vağ-vuğ edirlər. Bu halət onların ruhlarının təqazası olduğundan heç bir

uşaq hərəkət etmədən, bağırtı-çığırtı salmadan sakit dura bilməz”. (230, 47) Müəllif əlavə edir ki, bu deyilənlər uşaqların təbii ehtiyacları olduğundan onu qadağan etmək mümkün deyil, qadağan əks effekt yaradıb daha pis nəticələrə gətirə bilər. Deməli, pedaqoji nöqteyi-nəzərdən bu çağır-bağırın, qışqırıq və hay-küyün qarşısını almaq yox, onu daha nizamlı, gözəl, ahəngdar məcraya yönəltmək lazımdır. Nəticədə bu, əsaslı effekt yarada bilər. Nəğmə həm uşaqların təbii və estetik ehtiyaclarını ödəməkdən ötrü, həm də onların fiziki sağlamlığı üçün gərəklidir. Çünki nəğmə dərslərindən sonra çığır-bağıra, hay-küyə olan təbii ehtiyaclarını ödəyən şagirdlər başqa dərslərdə daha sakit oturar, gurultu, bağırtı salmazlar. “Bundan əlavə musiqi təliminin hifzi-səhhət üçün də faydası az deyildir. Nəğmə dərslərində uşaqlar dərincə nəfəs alar və bununla ciyərləri qüvvətlənər və sinirləri böyüyər, döş zəifliyindən törəyən xəstəliklərə tutulmağa az müstəid olarlar. Bundan əlavə hərəkətlərində də bir nizam vücuda gələr”. (230, 48)

A.Səhhət nəzərə çatdırır ki, nəğmə dərsləri şagirdlərdən ötrü həm məsum bir əyləncədir, həm də məktəbi onlara sevdirər, dərslərdən sonra onların zehinlərini dincəldər, əsəblərini sakitləşdirməyə kömək edər. Musiqi və nəğmənin əsəblərə rahatlıq gətirdiyi tibb elmi tərəfindən çoxdan sübut edilmişdir.

Müəllif onu da əlavə edir ki, nəğmələrin həm musiqisi, həm də sözləri duyğulara təsir edir. Başqa sözlə, mənzum sözlərin insanın hiss və duyğularına daha tez nüfuz etdiyi bəllidir. Deməli, “nəğmə, vəzn sözləri zehinlərdə kökləşdirir, ta ürəyə qədər nüfuz etdirir və bu vasitə ilə insanda əxlaqi və vətəni duyğular oyadır”. Sırf nəsihət qaydasında deyilən sözlər uşaqlara bir o qədər də təsir etmir. Ancaq o, nəğmə tonunda daha siratəredici olur.

A.Səhhət həssas bir tərbiyəçi nəzəri ilə bu qənaətə gəlir ki: “Mədəni millətlərdə gördüyümüz böyük fədakarlıqlar bütünlüklə uşaqlıqda öyrədilmiş bu kimi nəğmələrin, şərqilərin nəticəsidir. Belə isə bəs biz niyə nəğmə təlimini faydasız sanıb nəzəri-etibara almayalım?

Dünya gör-götür dünyasıdır. Biz də gördüklərimizi götürsək, nə eybi var?" (230, 49)

Beləliklə, görkəmli maarifçi nəğmə dərslərini təlim prosesinə gətirməyi zəruri və əhəmiyyətli bir məsələ sayır.

Əlbəttə, Azərbaycan maarifpərvərlərinin XIX əsrin sonu və XX əsrin əvvəllərində estetik tərbiyə uğrunda apardıqları mübarizə ümumi və milli tərbiyə işinin tərkib hissəsi kimi səmərəli nəticələrə gətirib çıxardı. Təməli həmin dövrdə qoyulan ideyaların çoxu tədricən, zaman keçdikcə reallaşdı. Özünün uğurlu nəticələrini verdi.

# NƏTİCƏ

Tədqiqat boyunca deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək mümkündür:

1. Hər bir xalqın geniş mənada tərəqqisində, milli yüksəlişində, mədəni, sivil bir səviyyəyə qovuşmasında tərbiyənin əvəzolunmaz əhəmiyyəti vardır. Tərbiyənin düzgün, məqsədəuyğun qurulması üçün uğurlu nəzəri baza olmalı, tərbiyə nəzəriyyəsinə aid müvafiq elmi-nəzəri və pedaqoji müddəalar işlənib hazırlanmalıdır. Çünki bunsuz həm fərdin, həm də bütövlükdə cəmiyyətin tərbiyəsində lazımi nəticələrə nail olmaq mümkün deyil. Bəşər tarixinin min illərlə ölçülən praktikası bunu aydın şəkildə sübut edir.

2. Qədim, zəngin bir tarixə malik Azərbaycan xalqı da ta qədimlərdən böyüməkdə olan nəslin müsbət mənada tərbiyəsinə xüsusi diqqət yetirmiş, xalqımızın böyük fikir adamları, təfəkkür sahibləri, mütəfəkkir tərbiyəçiləri tərbiyə nəzəriyyəsinə aid qiymətli fikirlər söyləmiş, dəyərli müddəalar irəli sürmüşlər. Xalqımız öz övladlarının tərbiyəsində həmin fikir və müddəalardan yetərincə bəhrələnmişlər.

3. XIX əsrin sonu - XX əsrin əvvəlləri xalqımızın həyatında, tarixi inkişafında son dərəcə əlamətdar bir dövr kimi səciyyələnir. Daha doğrusu, bu zaman kəsimi Azərbaycan xalqının tarixi inkişafında milli intibah dövrü kimi diqqəti cəlb edir. Belə ki, XIX əsrin ilk rübündə Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından və zəbt edilməsindən sonra ölkəmizin bu hissəsinin üzü Şərqdən Qərbə çevrilir. Avropaya və yeni dünyaya inteqrasiya başlayır. Bu inteqrasiya iqtisadiyyatda, təsərrüfatda, ictimai-mədəni həyatda, ədəbiyyatda, məktəb və maarifdə, pedaqoji hərəkatda, bir sözlə, xalq həyatının bütün sahələrində özünü göstərir.

4. XIX əsrin II yarısı - XX əsrin əvvəllərində başqa sahələrdə olduğu kimi, pedaqoji həyatda, tərbiyə sistemində və onunla bağlı nəzəri bazanın yaradılmasında da müasir sivil dünyanın dəyərləri, Qərb meyarları bir istinad qaynağı kimi önə

keçir. Milli tərbiyə nəzəriyyəçilərimiz, demokratik baxışlı tərbiyəçilərimiz müasir dünyanın mütərəqqi tərbiyə sistemini öyrənməyi, milli mühitə tətbiq etməyi cari dövrün ən mühüm, aktual məsələlərindən biri kimi ortalığa qoyurlar.

5. Azərbaycanda ilk maarifçilərdən (A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlı) başlayaraq tərbiyənin və tərbiyə nəzəriyyəsinin axarı Şərq məcrasından xeyli dərəcədə ayrılıb Qərb məcrasına yönəlir. M.F.Axundov və "Əkinçi" qəzeti ilə bu ənənə daha da gurlaşır. XX əsrin əvvəllərində milli mütəfəkkirlərimizin, tərbiyəçi ideoloqlarımızın əməyi sayəsində bütöv milli sistem halına düşür. ADR-in (1918-1920) yaranması həmin tərbiyə amalının uğurlu nəticəsi və böyük milli-tarixi faktıdır.

6. XIX-XX əsrlərin qovşağında yaşayıb fəaliyyət göstərmiş tərbiyə nəzəriyyəçilərimiz mənsub olduqları vətənin vətəndaşlarının müasir tərbiyəyə yiyələnməsi üçün ilk öncə bu tərbiyəni yaradan, mümkün edən, ona stimul verən tərbiyə vasitələrinin yaradılması uğrunda mübarizəyə başladılar. Çünki həmin tərbiyə vasitələri olmadan yeni ruhlu tərbiyə də mümkün deyildi. Müasir məzmunlu tərbiyə vasitələri dedikdə aşağıdakılar nəzərdə tutulurdu: yeni tipli məktəblər; həmin məktəblərdə dini elmlərlə yanaşı dünyəvi elmlərin də tədrisi; elm və maarifin intişarı; müasir məzmunlu dərsliklərin, dərs vəsaitlərinin, elmi və bədii əsərlərin, kitabların meydana gəlməsi; milli mətbuatın yaranması və inkişafı; milli teatrın rəvac tapması; təlim prosesində, ictimai, mədəni, ədəbi həyatda, pedaqoji mühitdə ana dilinin rolunun artırılması; müasir məzmunlu bədii ədəbiyyatın intişarı və s.

7. Tərbiyə nəzəriyyəçilərimizin müasir tərbiyə missiyasını həyata keçirməkdən ötrü diqqət yetirməli olduğu digər məsələ mütərəqqi baxışlı, hazırlıqlı milli tərbiyəçilərin yetişdirilməsi idi. Elə buna görə də onlar "Müasir tərbiyəçi necə olmalıdır?" – sualı ətrafında geniş diskussiyalar açır, tərbiyəçi (müəllim) şəxsiyyətini və ona verilən müasir tələbləri geniş müzakirə obyektinə çevirirdilər.

8. Demokratik ziyalılarımız milli mühitdə tərbiyə nəzəriyyəsinin konturlarını müəyyənləşdirərkən, həmçinin onun müddəalarının əməli icrası zamanı məktəblə yanaşı ailə və sosial mühitin də tərbiyədə oynadığı müstəsna rolu nəzərə alırdılar. Bu məsələnin nəzəri və əməli həlli zamanı onlar çox doğru olaraq müsəlman və Azərbaycan mühitindəki ailənin xarakterindən, ictimai tərbiyə atmosferinin xüsusiyyətlərindən çıxış edirdilər. Yəni təhlil və təşviqatın istiqamətini belə bir sağlam və məntiqli məcraya yönəldirdilər: azərbaycanlı ailəsi, həmçinin Azərbaycandakı ictimai tərbiyə mühiti necədir, onun nöqsanları nədədir, ənənədən nəyi əxz etmək, nəyi atmaq lazımdır? İslam tərbiyə sistemi ilə Qərb tərbiyə sistemini necə uzlaşdırmaq və sintez etmək lazımdır.

9. Mövzu obyekti kimi götürdüyümüz dövrün Azərbaycan maarifpərvərləri qadının cəmiyyətdə rolunu artırmaq və qadın tərbiyəsi uğrunda fəal şəkildə mübarizə aparırdılar. İslam aləmində din xadimlərinin təqsiri ucbatından əsrlər boyunca qadının ictimai, mədəni, pedaqoji, siyasi mühitdə, bir sözlə, ictimai həyatın bütün sahələrində ikinci dərəcəli, hüquqsuz sosial varlığa çevrildiyini göstərir, bunun fəlakətli nəticələrini faktlarla şərh edirdilər. İzah və sübut edirdilər ki, əhalinin tən yarısını təşkil edən qadınların təlim və tərbiyəsinin qayğısına qalmadan, bu strateji məsələni həll etmədən vətənin və xalqın xilası, səadəti mümkün deyil.

10. Milli özünüdərk və vətənpərvərlik tərbiyəsi demokratik baxışlı ideya və amal sahiblərimizin hədəfini təşkil edən əsas problemlərdən idi. Onlar bu işə vətənin və millətin nicatının başlıca faktorlarından biri kimi baxırdılar.

11. Azərbaycan maarifpərvərləri ölkə vətəndaşlarını insanpərvər, beynəlmiləlçi ruhda böyütməyi arzu edir, özlərinin tərbiyə nəzəriyyələrində humanizm və beynəlmiləlçilik tərbiyəsinə də xüsusi əhəmiyyət verirdilər.

12. Dini tərbiyə də o zamankı tərbiyəçi ideoloqlarımızın əsas məqsədləri sırasında yer alırdı. Tərbiyədə onlar həm müasirlik, həm millilik, həm də islamçılıq ənənələrindən çıxış

edir, bu üçünün uğurlu sintezinə nail olmağa çalışırdılar. Belə bir təşəbbüs XX əsrin əvvəllərində "türkləşmək, islamlaşmaq, müasirləşmək" milli-ideoloji tərbiyə düsturuna çevrildi və bu gün də bizim milli dövlətçiliyimizin, dövlətçilik ideologiyamızın əsas xətlərini təşkil edir. Onu da əlavə edək ki, bizim fikir fədailərimiz dini tərbiyə dedikdə mühafizəkar, mürtəce ruhanilərin xalqa sırıdığı mənfi təbliğatı qəbul etmir, vətəndaşlara Quranın diktə etdiyi sağlam şəriət qaydalarını, dini baxışları öyrətməyi zəruri sayırdılar. Dini tərbiyəni sağlam və elmi əsaslar üzərində qurmağı lazım bilirdilər.

13. Azərbaycan maarifçiləri milli sferada əqli tərbiyəyə də xüsusi diqqət yetirirdilər. Onlar böyüməkdə olan nəsli ağıllı, elmli, bilikli, maarif nuru ilə ziyalanmış, məlumatlı, zehni cəhətdən yetkin şəxsiyyətlər kimi görmək istəyirdilər.

14. Milli tərbiyəçilərimizin yaradıcılığında mənəvi-əxlaqi tərbiyə məsələlərinə də kifayət qədər yer verilir. Çünki onlar vətən övladını mənəvi cəhətdən yetkin, əxlaqi baxımdan kamil vətəndaşlar kimi görmək arzusunda idilər.

15. Mütərəqqi baxışlı ziyalılarımızı böyüməkdə olan nəslin fiziki sağlamlığı, cismani gümrahlığı da düşündürürdü. Onlar "sağlam bədəndə sağlam ruh olar" ənənəvi məntiqindən çıxış edir, vətəndaşların fiziki tərbiyəsi, sağlamlığı uğrunda mübarizə aparırdılar.

16. Azərbaycan maarifpərvərlərinin XIX əsrin II yarısı və XX əsrin əvvəllərindəki yaradıcılıq irsində əmək tərbiyəsi də əsas xətlərdən biri kimi özünü göstərməkdədir. Onlar geniş kütləyə izah edirdilər ki, istər fərdin, istərsə də toplumun bütövlükdə rifahı zəhmətlə, çalışqanlıqla sıx surətdə bağlıdır. Onlar əməyi daha səmərəli, effektli təşkil etməyin yolları barədə də maarifləndirmə işi aparmağa səy göstərirdilər.

17. Milli tərbiyəçilərimiz mənsub olduqları vətənin övladlarını zövqlü, duyğulu, qabiliyyətli, estetik cəhətdən yetkin görmək istəyirdilər. Elə buna görə də öz yaradıcılıqlarında estetik tərbiyə ilə bağlı mülahizə və fikirlərə də geniş yer verirdilər.

Tədqiqatın ümumi məntiqindən çıxış edərək aşağıdakı təkliflərin həyata keçirilməsini vacib hesab edirik:

1. “Azərbaycanda tərbiyə nəzəriyyəsinin inkişaf tarixi” adlı fənn yaradılsın və həmin fənn ixtisas kursu kimi pedaqoji yönümlü ali və orta ixtisas məktəblərinin fənn proqramlarına daxil edilsin.

2. Azərbaycanda tərbiyə nəzəriyyəsinin qədim və zəngin tarixi vardır. Təəssüf ki, pedaqogika elmimiz üçün vacib olan bu məsələ ilə əlaqədar tədqiqatlar yetərli deyil. Bunu nəzərə alaraq Azərbaycanda tərbiyə nəzəriyyəsinin tarixi ayrı-ayrı tarixi dövrlər və ya mərhələlər üzrə öyrənilsin. Bu səpkidə istər monoqrafiya, istərsə də dissertasiya (fəlsəfə doktoru və elmlər doktoru) səviyyəsində elmi araşdırmalar aparılsın.

3. Ali məktəblərin pedaqoji yönümlü fakültələrində tələbələrə Azərbaycanda tərbiyə nəzəriyyəsinin ayrı-ayrı problemləri ilə əlaqədar kurs, diplom işləri, habelə magistr dissertasiyası üçün mövzular verilsin.

4. Azərbaycanın bir sıra maarifçi şəxsiyyətlərinin pedaqoji fikirləri, tərbiyə nəzəriyyəsinə aid əsərləri öyrənilsə də, bir çox lazımi şəxsiyyətlərin yaradıcılıq irsi bu istiqamətdə tədqiqat predmetinə çevrilməmişdir. Halbuki bizim milli tərbiyə nəzəriyyəmizin tarixini və mahiyyətini öyrənməkdən ötrü həmin mütəfəkkir şəxsiyyətlərin pedaqoji irsini, tərbiyə nəzəriyyəsinə aid görüşlərini öyrənməyə ciddi ehtiyac vardır. Həmin boşluğu nəzərə alaraq bu aspektdə elmi tədqiqat işləri davam etdirilsin.

5. “Azərbaycanda tərbiyə nəzəriyyəsinin inkişaf tarixi” adlı çoxcildlik müntəxabat hazırlansın və nəşr edilsin. Həmin müntəxabatı belə bir prinsiplə hazırlamaq olar: Qədim dövrdən başlayaraq (məsələn, “Avesta”dan) bu günə qədər möhtəşəm abidələrimizdə yer tapan, habelə nüfuzlu tarixi şəxsiyyətlərimizin tərbiyəyə aid fikirlərini tarixi-xronoloji ardıcıllıqla toplayıb ayrı-ayrı cildlər şəklində tərtib və nəşr etdirmək mümkün və məqsədəuyğun variantdır.

6. Mütəxəssislər tərəfindən Azərbaycanın görkəmli mütəfəkkirlərinin tərbiyə nəzəriyyəsinə aid fikirləri müntəzəm olaraq dövrü mətbuatda işıqlandırılsın

7. Bu gün – milli-mənəvi dəyərlərin, milli tərbiyə amillərinin xeyli dərəcədə aşınmaya məruz qaldığı (qloballaşma və kütləvi informasiya vasitələrinin bolluğu nəticəsində yaranan çoxlu sayda zərərli məlumatların tərbiyəyə mənfi təsir göstərməsi səbəbindən) şəraitdə radio və telekanallarda Azərbaycan mütəfəkkirlərinin tərbiyə nəzəriyyəsinə aid fikirlərini təhlil və təbliğ edən silsilə pedaqoji verilişlər təşkil edilsin. Böyüməkdə olan nəslin müsbət istiqamətdə tərbiyəsində belə verilişlərin müəyyən pozitiv rolu ola bilər.

# ƏDƏBİYYAT

1. Abbaszadə Mirzə Abbas. Birinci il. Bakı: “Kaspi” mətbəəsi, 1913, 51 s.
2. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı: Maarif, 1966, 331 s.
3. Abdullayev N. Azərbaycanda məktəb inspeksiyası tarixindən // Azərbaycan məktəbi, 1983, №9, s.31-36
4. Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 392 s.
5. Ağayev Əhməd. Axund, İslam və Hatif-ül qeyb. Bakı: “Kaspi” mətbəəsi, 1904, 24 s.
6. Ağayev Əhməd. Veyl. Əmini-küfr və Nəmrud. Bizim ürəfamız və onları inkar edənlər. “İrşad” qəzeti, Bakı, 1907, 27 dekabr
7. Ağayev Ə. “Dəbistan” və “Rəhbər” jurnallarında xalq maarifi və təlim-tərbiyə məsələləri // Azərbaycan məktəbi, 1981, №12, s.26-30
8. Ağayev Ə. Fərhad Ağazadənin pedaqoji fəaliyyəti və görüşləri: Pedaqoji elm.nam. ...dis., Bakı, 1969, 291 s.
9. Ağayev Ə. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan pedaqoji fikrinin başlıca problemlərinə dair // Azərbaycan məktəbi, 1975, №1, s.48-53
10. Ağayev Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi: Pedaqoji elm.dok. ... dis., Bakı, 1996, 358 s.
11. Ağayev Ə. Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz. Bakı: Adiloğlu, 2000, 300 s.
12. Ağayev Ə. Seçilmiş pedaqoji əsərləri. 2 cilddə. I c. Bakı: Mütərcim, 2011, 472 s.
13. Ağazadə F. Müəllimlər ictimainə dair. “İrşad” qəz., Bakı, 1906, №177, 188
14. Ağazadə F. Ədəbiyyat məcmuəsi. Bakı: Kaspi, 1912, 370 s.

15. Axundzadə Axund Əbu Turab. Bizə hansı elmlər lazımdır? "Həyat" qəz., Bakı, 1906, №106
16. Axundzadə Axund Hacı Mirzə Əbu Turab. İslamın təfriqəsi səbəbləri. a) Bakı: Orucov qardaşları mətbəəsi, 1914, 110 s.; b) Kirill əlifbası ilə təkrar nəşr (çapa hazırlayanlar: Göyüşov N., Balaşov M.) Bakı: Azərnəşr, 1993, 103 s.;
17. Axundov C. N.Nərimanov fərdin kollektivdə tərbiyəsi haqqında // Azərbaycan məktəbi, 1970, №12, s. 15-22
18. Axundov M.F. Əsərləri. 3 cilddə. I c., Bakı: Elm, 1987, 320 s.
19. Axundov M.F. Əsərləri. 3 cilddə. II c., Bakı: Elm, 1988, 388 s.
20. Axundov M.F. Əsərləri. 3 cilddə. III c., Bakı: Elm, 1988, 388 s.
21. Axundov Süleyman bəy (Süleyman Sani). Qorxulu nağıllar. Bakı: "Məktəb"in elektrik mətbəəsi, 1916, 16 s.
22. Axundova Z. Azərbaycanda qadın təhsili tarixindən. Pedaqoji elm. nam. ... dis., Bakı: ADU, 1949, 184 s.
23. Allahverdioğlu P. "Dəbistan" jurnalında tərbiyə məsələləri // Azərbaycan məktəbi, 1958, №7, s.44-48
24. Allahverdioğlu P. "Məktəb" jurnalında əxlaqi tərbiyə məsələlərinə dair // V.İ.Lenin ad. APİ-nin elmi əsərləri, 1959, XVIII c., s. 118-123
25. Allahverdioğlu P. "Məktəb" jurnalında tərbiyə məsələləri // Azərbaycan məktəbi, 1960, №4, s.31-34
26. Aslanov M. M.Hadinin təlim-tərbiyə haqqında fikirləri // Azərbaycan məktəbi, 1965, №5, s.36-41
27. Aslanov M. Bir daha müəllimlərimizin ilk qurultayları // Azərbaycan məktəbi, 1972, №5, s.71-77
28. Ayvazov Həsən Səbri. Üsuli-tədris və təlim-tərbiyə. Bakı: Kaspi mətbəəsi, 1906, 33 s.
29. Azərbaycanda məktəb və pedaqoji fikrin inkişafı tarixindən / Elmi əsərlər məcmuəsi. Bakı: V.İ.Lenin adına ADPİ-nin nəşriyyatı, 1984, 130 s.

30. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. II c., Bakı: Azərbaycan SSR EA nəşri, 1960, 906 s.
31. Azərbaycan Xalq Cümhuriyyəti - 80 (sənədlər və məqalələr toplusu). Bakı: Örnək, 1998, 217 s.
32. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. I c., Bakı: Lider, 2004, 439 s.
33. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. II c., Bakı: Lider, 2005, 469 s.
34. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası (tərtib edənləri: Məmmədov M., Salamoğlu T., Babayev Y.). Bakı: Elm, 1998, 300 s.
35. Azərbaycan mətbuat tarixi antologiyası. 2 cilddə. I c. Bakı: Elm və təhsil, 2010, 440 s.
36. Azərbaycan mətbuat tarixi antologiyası. 2 cilddə. II c. Bakı: Elm və təhsil, 2011, 440 s.
37. Azərbaycan pedaqoji antologiyası. XIX əsr – XX əsrin əvvəlləri (tərtib edəni: Əhmədov H.). 3 cilddə. II c., Bakı: Təhsil, 2011, 543 s.
38. Azərbaycan Respublikası MDTA. Fond 309, siyahı 1, iş 1, vərəq 3, səh.2
39. Azərbaycan Respublikası MDTA. Fond 309, siyahı 2, iş 944, vərəq 6
40. Azərbaycan Respublikası MDTA. Fond 309, iş 119, vərəq 5-37
41. Azərbaycan tarixi. 7 cilddə, IV c. Bakı, Elm, 2007, 504 s.
42. Azərbaycan tarixi. 7 cilddə, V c. Bakı, Elm, 2008, 696 s.
43. Azərbaycan uşaq ədəbiyyatı müntəxabatı (XIX-XX əsrlər). (tərtib edəni: Məmmədov X., Həsənov A.). 2 cilddə, I c., Bakı, Nasir, 2001, 536 s.
44. Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı (XIX-XX əsrlər). (tərtib edəni: Məmmədov X., Həsənov A.). 2 cilddə, II c., Bakı, Nasir, 2002, 636 s.
45. Babayev Y. İlk uşaq mətbuatımızdakı nəsr əsərlərində ictimai və əxlaqi-tərbiyəvi fikirlər // Azərbaycan məktəbi, 1986, №10, s. 74-78

46. Bağırov Ə. Seyid Əzim Şirvaninin satiralarında təlim və tərbiyə məsələləri // Azərbaycan məktəbi, 1975, №12, s. 53-58
47. Bakıxanov A. Bədii əsərləri. Bakı, Azərnəşr, 1973, 391 s.
48. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992, 276 s.
49. Bayramov H. Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: unifikasiya prosesi və tarixi-pedaqoji paradiqmanın formalaşması. Bakı: Elm, 2015, 368 s.
50. Bəşirov V. Azərbaycan pedaqoji fikrində milli tərəqqi ideyaları. Bakı: Oka-Ofset, 2006, 224 s.
51. Birinci və İkinci Müəllimlər iniqadının protokolları kitabı (1906-1907). Azərbaycan Dövlət Arxivi. Fuad Ağazadə fondu.
52. Bünyadzadə Cəfər. Kəşkül və yaxud nəğmələr məcmuəsi. Bakı: "Səda" mətbəəsi, 1913, 64 s.; 1914, 48 s.; 1916, 64 s.
53. Cavadov C. Azərbaycanda xeyriyyəçilik hərəkatı. (XIX əsrin sonu və XX əsrdə) Bakı: Elm, 1999, 256 s.
54. Cavid Hüseyn. Seçilmiş əsərləri. 3 clddə. I c., Bakı: Azərnəşr, 1968, 371 s.
55. Cavid Hüseyn. Əsərləri. 4 cilddə. IV c., Bakı: Yazıçı, 1985, 319 s.
56. Çernyayevski A.O. Vətən dili. I hissə. Tiflis: Ünsizadə mətbəəsi, 1881, 28 s.; II təb, 1888, 67 s.; IV təb, 1897, 67 s.; 1899, 68 s.; 1901, 68 s.; 1904, 64 s.; VI çap, 1910, 64 s.
57. Çernyayevski A.O., Vəlibəyov S.A. Vətən dili. II hissə. Tiflis: "Kəşkül" mətbəəsi, 1888, 169 s.
58. Çernyayevski A.O. Vətən dili. I hissə. (1882-ci ildə çap olunmuş dərsliyin transleterasiya və faksimilesi – Mətni ərəb və latın əlifbası ilə tərtib edən: Əhmədov H.). Təkrarnəşr – Bakı, AMİ, 2007, 186 s.

59. Cəlilov Ə. S.S.Axundov əxlaq tərbiyəsi məsələləri haqqında // V.İ.Lenin ad. APİ-nin elmi əsərləri, 1971, №2, s.37-43
60. Cəlilov Ə. Ailə tərbiyəsi haqqında S.S.Axundovun fikirləri // Azərbaycan məktəbi, 1971, №7, s. 72-76
61. Cəlilov Ə. Süleyman Sani Axundovun maarifçilik-pedaqoji fəaliyyəti və pedaqoji görüşləri: Pedaqoji elm. nam. ... diss., Bakı, 1972, 187 s.
62. Çiçək naxoşluğuna necə kömək etmək. II çap. Tiflis: Rotinyansın mətbəəsi, 1903, 32 s.
63. Çəmənzəminli Y.V. Qanlı göz yaşları. Arvadlarımızın məişətindən. Bakı: Orucov qardaşları mətbəəsi, 1913, 32 s.
64. Çəmənzəminli Y.V. Arvadlarımızın halı. Bakı: Orucov qardaşları mətbəəsi, 1913, 36 s.
65. Çəmənzəminli Y.V. Əsərləri. 3 cilddə. III c., Bakı: Elm, 1977, 327 s.
66. "Dəbistan" jurnalı (1906-1908).
67. Dobrolyubov N.A. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1963, 591 s.
68. Əbdülov Ə. XX əsrin əvvəllərində Azərbaycanda orta təhsilin inkişafı (1900-1920-ci illər). Pedaqoji elm. nam. ... dis., Bakı, 2007, 139 s.
69. Əbdülrəhmanbəyzadə Süleyman bəy. Dil millətin həyatına vabəstədir // Dəbistan, 1908, №9, s. 14-16
70. Əfəndizadə R. İbtidai savad təlimi haqqında müsəlmanların rəyi. "Novoye obozreniye" qəz., Tiflis, 1893, №3487
71. Əfəndizadə R. "Bizə kitab" nidası. "İrşad" qəz., Bakı, 1906, 9 fevral
72. Əfəndiyev R. Təlimi-ümumi. "Tazə-həyat" qəz., Bakı, 1907, №31, 32
73. Əfəndizadə R. Uşaq bağçası. İstambul: Yuvanaki Penayotris mətbəəsi, 1898, 104 s.; 1904, 85 s.; III çap, Tiflis, 1907, 72 s.; IV çap, Tiflis, 1912, 112 s.

74. Əfəndizadə M., Köçərlinski F. Tarixi-müqəddəs. (Müsəlmanlardan ötrü türk dilində rus tərcüməsi ilə). Tiflis, 1899, 155 s.
75. Əfəndizadə R. Bəsirətül-ətfal. Badkubə: tipoqrafiya Qubernskoqo pravleniya, 1901, 226 s.; II çap, İstambul, 1907, 128 s.
76. Əfəndizadə R. Arvad məsələsi. (Analarımızın təlim və tərbiyəsi xüsusunda şəriət fitvalarına aid risalədir). Tiflis: tipoqr. Kav. nom., 1912, 48 s.
77. Əfəndiyev R. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 120 s.
78. Əfəndizadə Rəcəb. Türk qiraəti. Şəki: "Mədəniyyət" mətbəəsi, 1918, 160 s.
79. Əhmədov Ə. Azərbaycanda əmək tərbiyəsi tarixindən (Sovet hökuməti qurulana qədər) // V.İ.Lenin ad. APİ-nin elmi əsərləri, 1964, №1, s.53-57
80. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 2000, 366 s.
81. Əhmədov H. Seçilmiş pedaqoji əsərləri. 12 cilddə, I c., Bakı: Təhsil-ABU, 2006, 455 s.
82. Əhmədov H. Seçilmiş pedaqoji əsərləri. 12 cilddə, II c., Bakı: Təhsil-ABU, 2006, 504 s.
83. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014, 432 s.
84. Əhmədov Hümeyir. Azərbaycanda xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti. Bakı: Nurlan, 1997, 86 s.
85. Əhmədov Q. Zərdabi sağlam yaşamaq qaydaları barədə də sözünü demişdir. "Azərbaycan" qəz., Bakı, 2006, 22 iyul
86. Əhmədov R. "Əkinçi" qəzeti və milli maarifçilik. Fəlsəfə elm.nam. ... dis., Bakı, 1995, 164 s.
87. Əxlaqa dair (Mədrəsə və məktəblərdə təhsil edən ətfal üçün). Tərcümə. Bakı, 1913, 188 s.

88. "Əkinçi" qəzeti (1875-1877). Tam mətni. (ərəb əlifbasından kirill əlifbasına çevirən və nəşrə hazırlayan: Həsənzadə T.) Təkrarnəşr – Bakı: Azərnəşr, 1979, 464 s.
89. Əliyeva S. H.B.Zərdabi irsində mənəvi tərbiyə məsələləri // Azərbaycan məktəbi, 1985, №2, s.50-53
90. Əlizadə A. H.S. Məhəmməd Əmin Rəsulzadə və islam dini. Bakı: Ozan, 2003, 166 s.
91. Əzimova S. Firidun bəy Köçərli müəllim haqqında // V.İ.Lenin ad. APİ-nin elmi əsərləri, 1967, №6, s.73-78
92. Əzimova S. F.Köçərlinin pedaqoji görüşləri və pedaqoji fəaliyyəti: Pedaqoji elm.nam. ... dis., Bakı, 1975, 184 s.
93. Əzizov Ə. Uşaqların sevimliləri. Bakı: Gənclik, 1978, 125 s.
94. Fərzəliyeva M. M.Ə.Rəsulzadə və ana dilimiz. Bakı: Təhsil, 2003, 70 s.
95. "Füyuzat" jur., (1906-1907). Tam mətni. (ərəb əlifbasından latın əlifbasına çevirəni, çapa hazırlayanı və ön sözün müəllifi: Bayramlı O.) Təkrarnəşr – Bakı: Çaşıoğlu, 2007, 672 s.
96. Göyüşov A. Azərbaycanda ittihadçılıq. Bakı: İrşad, 1997, 131 s.
97. Göyüşov Z. XIX əsrin ikinci yarısında yaşamış Azərbaycan maarifpərvərlərinin etik görüşlərinə dair / Azərbaycan SSR EA xəbərləri, 1957, №3, s.145-158
98. Göyüşov Z. Azərbaycan maarifpərvərlərinin etik görüşlərində humanizm ideyaları (M.F.Axundov, H.Zərdabi və S.Ə.Şirvanidə) / Azərbaycan SSR EA xəbərləri, 1957, №8, s.143-153
99. Gürcüstan MDA. Fond 12, siyahı 7,iş №2687, vərəq 14
100. Hacıbəyov Səməd bəy. Hədiyyeyi-sibyan. Bakı: Çapxana və səhhafxaneyi-Axundov, 1901, 87 s.
101. Hacıbəyov Ü. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1985, 653 s.
102. Hadi M. Seçilmiş əsərləri. 2 cilddə. I c., Bakı: Elm, 1978, 469 s.

103.Hənifə xanım Məlikova –Abayevanın xatirələri. Həsən bəy Zərdabi və "Əkinçi" (məqalələr, çıxışlar, sənədlər, xatirələr və ithaf şeirləri). Bakı: Adiloğlu, 2005, 126 s.
104.Həsən bəy Zərdabinin bioqrafiyası və epistolyar irsi (nəşrə hazırlayanlar: Məmmədova M., Ramazanova A.) AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı: Nurlan, 2006, 183 s.
105.Həsən bəy Zərdabi və "Əkinçi" (Bioqrafik məqalələr, məktublar, xatirələr, tədqiqatlar). Bakı: SAMF, 2010, 225 s.
106.Həsənov Ə. M.Ə.Sabir təlim və tərbiyə haqqında // Azərbaycan məktəb və pedaqoji fikir tarixindən. Elmi əsərlər məcmuəsi. Bakı, 1981, s. 81-89
107.Həsənov F. 1905-1907-ci illər inqilabı dövründə Azərbaycanda xalq maarifi işinin təşkili və məktəb təhsilinin məzmunu: Pedaqoji elm. nam. ...dis., Bakı, 1989, 150 s.
108.Həşimov Ə. Ə.Haqverdiyevin təhsil və tərbiyə haqqında fikirləri // V.İ.Lenin ad. APİ-nin elmi əsərləri, 1964, №5, s.103-107
109.Həşimov Ə., Sadıqov F., Pedaqogika (Tərbiyə nəzəriyyəsinə dair mühazirələr). Bakı: Təbib, 1995, 248 s.
110.Hüseyn S. Qızlarımızın tərbiyəsi. "İqbal" qəz., Bakı, 1912, 18 aprel
111.Hüseynzadə A. Seyid Hüseynin pedaqoji fəaliyyəti və maarifçilik görüşləri. Bakı: Maarif, 1991, 184 s.
112.Hüseynzadə Əlibəy. Yazımız, dilimiz, ikinci ilimiz. "Tərəqqi" qəz., 1909, 9, 10 fevral
113.Hüseynzadə Əlibəy. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 480 s.
114.Xəlilov N. Əli Nəzminin təlim-tərbiyə haqqında fikirləri // V.İ.Lenin ad. APİ-nin elmi əsərləri, 1972, №2, s.93-97
115.İlkin Qılman. Rus-müsəlman məktəbi // Azərbaycan məktəbi, 1991, №4, s.43-46

116.“İrşad” qəz., Bakı, 1907, №18
117.İsayev İ. Səhhətin təlim-tərbiyə haqqında fikirləri // Azərbaycan məktəbi, 1974, №11, s.21-25
118.İsayev İ. Abbas Səhhət və xalq maarifi. Bakı: Nurlan, 2003, 180 s.
119.İsayev İ. Pedaqoji irsimizdən: M.V.Vidadidən H.K.Sanılıyadək. Bakı: ADPU-nun mətbəəsi, 2014, 406 s.
120.İsmayılov X. Üzeyir Hacıbəyov əxlaq və tərbiyə məsələləri haqqında // Azərbaycan məktəbi, 1969, №12, s.63-67
121.İsmixanova E. A.Səhhət və məktəbəqədər tərbiyə // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1975, №3, s.53-56
122.Kamal Əhməd. Füyuzati-qiraət. Bakı: “Kaspi” mətbəəsi, 1909, 176 s.
123.Kazımov N.Tərbiyənin elmi-pedaqoji əsasları. Bakı: Maarif, 1983, 204 s.
124.Komenski Y.A. Böyük didaktika. (tərtib edəni: prof.Rüstəmov F.A.). Bakı: Elm və təhsil, 2012, 388 s.
125.Köçərli F. Qadınların vəziyyəti və müsəlman uşaqlarının tərbiyəsi. “Novoye obozreniye” qəz., Tiflis, 1895, №4115
126.Köçərli F. Müəllimlərimiz və onların halı. “Tərəqqi” qəz., Bakı, 1905, 5 fevral
127.Köçərli F. Müsəlmana hansı elm lazımdır? “Zaqafqazye” qəz., Bakı, 1907, №72
128.Köçərli F. Balalara hədiyyə. Bakı: “Kaspi” mətbəəsi, 1912, 101 s.
129.Köçərli F. Seçilmiş əsərləri. Bakı: Azərb. SSR EA nəşri, 1963, 341 s.
130.Köçərli F. Azərbaycan ədəbiyyatı. 2 cilddə. I c., Bakı: Elm, 1978, 595 s.
131.Köçərli F. Azərbaycan ədəbiyyatı. 2 cilddə. II c., Bakı: Elm, 1981, 459 s.

132.Qafqaz müsəlman müəllimlər məclisinin məramnaməsi. "İrşad" qəz., Bakı, 1906, 4 avqust
133.Qafqaz müsəlman müəllimlərinin məramnaməsi // Dəbistan, 1906, №8, s.13-14
134.Qafqaz müsəlman ünas cəmiyyəti. Tiflis: Gürcü nəşriyyatı şirkətinin mətbəəsi, 1910, 24 s.
135.Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif, 1974, 487 s.
136.Qasprinski İ. Məktubati-Şeyda bəy Şirvani. "Tərcüman" qəz., Bağçasaray, 1898, 5 dekabr
137.Qəhrəmanova A.F. Azərbaycan Demokratik Respublikasında xalq maarifinin təşkili yolları. Bakı: Oka-Ofset, 2005, 156 s.
138.Qəmərlinski M., Nərimanbəyov və b.-ı. Ana dili. II kitab. Tiflis, 1907, 76 s.; III kitab, 1907, 89 s.; əvvəlinci kitab, 1908, 47 s.
139.Qənizadə S.M. Hansı dil ilə yazmalı? "Həyat" qəz., Bakı, 1905, 10 noyabr
140.Qənizadə S.M. Körpə uşaqlar tərbiyəsi // Rəhbər, 1906, №3, s.2-3; №4, s.3; №5, s.9-10
141.Qənizadə S.M. Müsəlmanlar üçün kitablar nəşri haqqında. "Tərəqqi" qəz., Bakı, 1909, 24 iyun
142.Qənizadə S.M. Bir para mətləblər. Cənab qaziyə xitab. "Həyat" qəz., Bakı, 1906, 24 fevral, 3 mart
143.Qənizadə S.M. Tülkü və Çaq-çaq bəy. Bakı: Quberniya idarəsi mətbəəsi: a) 1893, 37 s.; b) 1910, 53 s.; c) 1918, 48 s.
144.Qənizadə S.M. Müəllimlər iftixarı. Məktubati-Şeyda bəy Şirvani. I cild. Bakı: Qubernski pravleniya mətbəəsi, 1898, 28 s.
145.Qənizadə S.M. Gəlinlər həmayili. İffət, yaxud əşari-nəşriyyə. II cild. Bakı: Qubernski pravleniya mətbəəsi, 1900, 97 s.; 1912, 141 s.
146.Qənizadə S.M. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1965, 228 s.

147.Qənizadə S.M. Gəlinlər həmayili. Bakı: Yazıçı, 1986, 272 s.
148.Quliyev A. XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycandakı ümumtəhsil məktəblərində şagirdlərin əmək tərbiyəsi. Pedaqoji elm. nam. ... dis., Bakı, 1992, 172 s.
149.Quran (ərəbcədən Azərbaycan dilinə tərcümə edənlər: Bünyadov Z., Məmmədəliyev V.) Bakı: Azərnəşr, 1991, 714 s.
150.Mahmudbəyov M. Məktəblərimiz // Rəhbər, 1906, №2, s.7-9
151.Mahmudbəyov M. Müəllimlər ictimainə dair. “İrşad” qəz., Bakı, 1907, 25 noyabr
152.Mahmudbəyov M. Yazımız, dilimiz, ikinci ilimiz. “Tərəqqi” qəz., Bakı, 1909, 20, 24, 25 mart, 6 aprel
153.Mahmudbəyov M. Yeni əlifba kitabçası. Bakı: A.M.Promışlyonski mətbəəsi, 1907, 15 s.
154.Mahmudbəyov M. və başqaları. İkinci il. Tiflis: Qeyrət mətbəəsi, 1908, 101 s.; 1909, 114 s.; 1910, 112 s.; 1911, 112 s.; 1912, 114 s.; 1914, 114 s.; 1916, 112 s.; 1917, 96 s.
155.Mahmudbəyov M., Mehdizadə A.S. Yeni məktəb. I çap. Bakı: “Kaspi” mətbəəsi, 1909, 160 s.; II çap, 1910, 161 s.; III çap, 1911, 160 s.; IV çap, 1913, 176 s.; V çap, 1914, 176 s.; VI çap, 1915, 176 s.; VII çap, 1916, 176 s.; IX çap, 1919, 177 s.
156.Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. 2 clddə. I c., Bakı: Maarif, 1983, 384 s.
157.Mehdizadə M. Tərbiyə, təhsil və təlimin tarixi inkişafı // Azərbaycan məktəbi, 1947, №2, s.7-12
158.Mehdizadə M. İnqilabdan əvvəlki Azərbaycanda rus məktəblərinin rolu haqqında // Azərbaycan məktəbi, 1951, №3, s.3-11

159.Mehraliyeva Z. C.Məmmədquluzadənin əxlaq tərbiyəsi haqqında fikirləri // Azərbaycan məktəbi, 1980, №7, s.34-38
160.Mehraliyeva Z. C.Məmmədquluzadə qadın tərbiyəsi və təhsili haqqında // Elm və həyat, 1982, №7, s.15-16
161.Məftun Ə. “Molla Nəsrəddin” jurnalının təlim-tərbiyə uğrunda mübarizəsindən // Azərbaycan məktəbi, 1976, №4, s.73-77
162.“Məktəb” jurnalı. (1911-1920)
163.Məmmədquluzadə C. Əsərləri. 6 clddə. I c., Bakı: Azərnəşr, 1983, 348 s.
164.Məmmədquluzadə C. Əsərləri. 6 cilddə. II c., Bakı: Azərnəşr, 1984, 194 s.
165.Məmmədquluzadə C. Əsərləri. 6 cilddə. III c., Bakı: Azərnəşr, 1984, 291 s.
166.Məmmədquluzadə C. Əsərləri. 6 cilddə. IV c., Bakı: Azərnəşr, 1985, 276 s.
167.Məmmədquluzadə C. Əsərləri. 6 cilddə. VI c., Bakı: Azərnəşr, 1985, 311 s.
168.Məmmədov C. İlk Azərbaycan qız məktəbi // Azərbaycan məktəbi, 1968, №8, s.80-85
169.Məmmədov Ə. İlk pedaqoji jurnallarımız // Azərbaycan məktəbi, 1964, №5, s.46-50
170.Məmmədov Ə. “Rəhbər” jurnalında maarif və təlim-tərbiyə məsələləri // Azərbaycan məktəbi, 1966, №7, s.104-108
171.Məmmədov Ə. Azərbaycan uşaq ədəbiyyatı (“Dəbistan”,“Rəhbər” və “Məktəb” jurnalları əsasında). Bakı: Elm, 1977, 132 s.
172.Məmmədov X. İlk rus-müsəlman məktəbləri və onun tarixi rolu // Azərbaycan məktəbi, 1964, №5, s.36-39
173.Məmmədov X. Sultan Məcid Qənizadə. Bakı: Yazıçı, 1983, 214 s.
174.Məmmədov X. “Əkinçi”dən “Molla Nəsrəddin”ə qədər. Bakı: Yazıçı, 1987, 270 s.

175.Məmmədov M., Babayev Y., Cavadov T. Pedaqoji mühit və uşaq ədəbiyyatı. Bakı: Maarif, 1992, 288 s.
176.Məmmədov V. "Əkinçi" qəzeti. Bakı: Azərnəşr, 1976, 126 s.
177.Məmmədov V. Zərdabinin elmi fikirləri // Elm və həyat, 1983, №4, s.28-29
178.Məmmədov Sabir. Azərbaycanda qadın təhsili və Azərbaycanın tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti (XIX əsrin II yarısı - 1920-ci ilə qədər). Tarix elm. dok. ... dis., Bakı, 1996, 359 s.
179.Məmmədova G. Pedaqoji irsimizdən: Sultan Məcid Qənizadə. Bakı: Elm və təhsil, 2015, 196 s.
180.Məmmədova R. "Molla Nəsrəddin" jurnalında təhsil və tərbiyə məsələləri. Pedaqogika üzrə fəls. dok. ... dis., Naxçıvan, 2011, 137 s.
181.Mərdanov M. Azərbaycan təhsil tarixi. 3 clddə. I c., Bakı: Təhsil, 2011, 296 s.
182.Mirzəzadə Q.R. Ayineyi-millət. Oyanız qardaşlar. Bakı: Orucov qardaşları mətbəəsi, 1908, 32 s.
183.Mirzəzadə Q.R. Ayineyi-millət. (tərtibçi və ön sözün müəllifi: Əhmədov V.) – Təkrarnəşr. Bakı: Maarif, 1992, 56 s.
184.Mollazadə Mirzə Abbas. Türk dili və yaxud türkcə qiraət. Gəncə: Əsgər Hacı Həsənzadənin mətbəəsi, 1907, 38 s.
185.M.S.C. Qaziyi-uyezdi-Cavad. Hürriyyəti-məzahib. "Həyat" qəz., Bakı, 1905, 1 noyabr
186.M.S.C. Qaziyi-uyezdi-Cavad. "Həyat" qəzetəsinin 101-imci nömrəsində "Bir para mətləblər" ünvaniylə yazılmış cavaba cavab. "Həyat" qəz., Bakı, 1905, 13 dekabr
187.Mustafayev A. Azərbaycanda məktəb təhsil uğrunda demokratik ziyalıların və inqilabi hərəkat xadimlərinin "Kaspi" qəzeti vasitəsilə mübarizəsi: Pedaqoji elm. nam. ... dis., Bakı, 1973, 185 s.

188.Namazova S. Pedaqoji irsimizdən: Qafur Rəşad Mirzəzadə. Bakı: Elm və təhsil, 2014, 197 s.
189. Nemanzadə Ö.F. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1992, 536 s.
190.Nəbiyev Ə. İlk qız məktəblərimiz // Azərbaycan məktəbi, 1966, №3, s. 53-57
191.Nərimanov Əlimirzə Tiflisi. Nəsihətül-ətfal. Tiflis: Qeyrət mətbəəsi, 1907, 60 s.; 1913, 41 s.
192.Nərimanov N. Seçilmiş əsərləri. Bakı: Elm, 1973, 451 s.
193.Nəsirov B. M.Mahmudbəyov Azərbaycanda təhsilin demokratikləşdirilməsi və təlimin ana dilində aparılması uğrunda mübarizədə: Pedaqoji elm. nam. ... dis., Bakı, 1986, 146 s.
194.Növrəs M.Ə. Pəndi-ətfal. Tiflis: Kamal Ünsizadə mətbəəsi, 1900, 30 s.
195.Növrəs Mirzə Əsgər Qarabaği. Şeirlər. Bakı: Yazıçı, 1985, 156 s.
196.Ordubadi M.S. Qanlı sənələr. Bakı: "Səda" mətbəəsi, 1911, 215 s.; Bakı: Qaraba Xalq Yardımı Komitəsi. Təkrarnəşr, 1991, 144 s.
197.Orucova S. Üzeyir Hacıbəyovun pedaqoji görüşləri: Pedaqoji elm. nam. ... dis., Bakı, 1987, 170 s.
198.Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı: Çaşıoğlu, 2002, 512 s.
199.Pestalotsi İ.H. Seçilmiş pedaqoji əsərləri. Bakı: Maarif, 1970, 368 s.
200.Pəncəli A. Azərbaycan uşaq ədəbiyyatında tərbiyə məsələləri (1905-1920-ci illər): Pedaqoji elm. nam. ... dis., Bakı, 1964, 235 s.
201.Rəfibəyli N. Azərbaycanda maarifin inkişafında rus-tatar (azərb.) məktəblərinin rolu: Pedaqoji elm. nam. ... dis., Bakı, 1968, 241 s.
202."Rəhbər" jurnalı (1906-1907).
203.Rəsulzadə M.Ə. Dirilik nədir? // "Dirilik" jur., 1914, №1
204.Rəsulzadə M.Ə. Milli dirilik // "Dirilik" jur., 1914, №2-8

205.Rəsulzadə M.Ə. Təlimi-ümumi məsələsi. "İqbal" qəz., Bakı, 1914, 24 dekabr
206.Rəsulzadə M.Ə. Milliyyət və bəşəriyyət. "Açıq söz" qəz., Bakı, 1915, 1 oktyabr
207.Rəsulzadə M.Ə. Məktəb və mədrəsə. "Açıq söz" qəz., Bakı, 1916, 15, 16, 17, 21, 27, 31 mart, 4 aprel, 2, 6, 7, 10 iyun
208.Rəsulzadə M.Ə. Tərbiyədə mühüm bir nöqtə. "Açıq söz" qəz., Bakı, 1916, 2 sentyabr
209.Rəsulzadə M.Ə. İslam dini və ana dili. "Açıq söz" qəz., Bakı, 1917, 27, 28 fevral
210.Rəsulzadə M.Ə. Azərbaycan cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
211.Rəsulzadə M.Ə. Əsərləri. I c. (1903-1909). Bakı: Azərnəşr, 1992, 470 s.
212.Rəsulzadə M.Ə. Əsərləri. II c. (1909-1914). Bakı: Şirvannəşr, 2001, 528 s.
213.Rəsulzadə M.Ə. Əsərləri. III c. (1915-1916). Bakı: Elm, 2012, 596 s.
214.Rəsulzadə M.Ə. Əsərləri. IV c. (1917-aprel, 1918). Bakı: Qanun, 2013, 456 s.
215.Rəsulzadə M.Ə. Əsərləri. V c. (1918-aprel, 1920). Bakı: Qanun, 2014, 564 s.
216.Rəsulzadə M.Ə. Milli birlik. Bakı: Çıraq, 2009, 175 s.
217.Rüstəmov F. Azərbaycan pedaqoji biblioqrafiyası. Məktəb və pedaqogika tarixinə dair ədəbiyyat (1940-1990). Bakı: ADPU, 1995, 86 s.
218.Rüstəmov F. Azərbaycan müəllimlərinin ilk qurultayı // Azərbaycan məktəbi, 2006, №6, s.25-37
219.Rüstəmov F. Pedaqogika tarixi. Bakı: Nurlan, 2006, 748 s.
220.Rüstəmov İ. Həsən bəy Zərdabi. Bakı: Gənclik, 1969, 187 s.
221.Sabir M.Ə. Hophopnamə. Bakı: Yazıçı, 1992, 558 s.

222. Saleh P. Azərbaycan uşaq ədəbiyyatında tərbiyə məsələlərinə dair // V.İ.Lenin adına APİ-nin elmi əsərləri, 1962, XXI c.
223. Sankt-Peterburq MDTA, f-na (o/s), siyahı 1, iş №66, vərəq 224, arx.
224. Seyidov Ə. Sabirin təlim-tərbiyə haqqında fikirləri // Azərbaycan məktəbi, 1962, №5, s.26-31
225. Seyidov Ə. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən. Bakı: Azərnəşr, 1958, 310 s.
226. Seyidov Fikrət. Qori seminariyası və onun məzunları. Bakı: Maarif, 1988, 298 s.
227. Seyidov Fikrət. Azərbaycan pedaqoji fikir tarixindən səhifələr. Bakı: Çaşıoğlu, 2002, 324 s.
228. Seyidov Mir Seyfəddin Şirvani. Kitabi-xəzainül-ətfal. Tiflis: Gürcü şirkət elektrik mətbəəsi, 1902, 74 s.
229. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı: OKA Ofset, 2004, 348 s.
230. Səhhət A. Əsərləri. 2 cilddə. II c., Bakı: Azərnəşr, 1976, 314 s.
231. Səhhət A. Seçilmiş əsərləri. Bakı: Lider, 2005, 456 s.
232. Sidqi M.T. Əsərləri. Bakı: Çaşıoğlu, 2004, 279 s.
233. Sultanov Kərim bəy. Hifzüs-səhhə (Camaat arasında çox intişar tapan bəzi misri və qeyri-misri azarlar barəsində müxtəsərcə məlumat). Bakı: "Kaspi" mətbəəsi, 1913, 166 s.
234. Sultanov V. İstiqlal sevgisi. Bakı: Elm və təhsil, 2014, 252 s.
235. Sur Abdulla. Məktəblərdə türk dili. "Həyat" qəz., Bakı, 1905, 13, 25 oktyabr
236. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı: Azərnəşr, 1989, 376 s.
237. Şahtaxtlı M. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2006, 432 s.

238.Şaiq A. Dilimiz və ədəbiyyatımız. "İqbal" qəz., 1913, 18, 21 oktyabr
239.Şaiq M.A.T. Uşaq çeşməyi. Bakı: A.M.Promışlyonskinin tipo-litoqrafiyası, 1907, 15 s.
240.Şaiq A.T. Gülşəni-ədəbiyyat. Bakı: Orucov qardaşları mətbəəsi, 1910, 79 s.
241.Şaiq A.T. Uşaq gözlüyü. Bakı: Orucov qardaşları mətbəəsi, 1910, 54 s.; 1911, 56 s.; 1915, 57 s.; 1917, 57 s.; 1919, VI çap, 56 s.
242.Şaiq A.T. Gülzar. Bakı: Orucov qardaşları mətbəəsi, 1912, 287 s.
243.Şaiq A.T. Milli qiraət kitabı. Bakı: Birinci hökumət mətbəəsi, 1919, 228 s.
244.Şaiq A. Əsərləri. 5 cilddə. V c., Bakı: Yazıçı, 1978, 502 s.
245.Şaiq A. Seçilmiş əsərləri. Bakı: Gənclik, 1984, 444 s.
246.Şeyxzadə H.M. Nümuneyi-tədris və tərbiyə. Bakı: "Füyuzat" mətbəəsi, 1907, 47 s.
247."Şərqi-rus" qəz., Tiflis, 1903, №14,
248.Şirvani S.Ə. Seçilmiş əsərləri. Bakı: Maarif, 1990, 224 s.
249.Şirzadova M. S.M.Qənizadə yaradıcılığında məktəbəqədər tərbiyə məsələləri. Bakı: Azərbaycan Təhsil Problemləri İnstitutu, 2013, 83 s.
250.Tağıyev A.A. Azərbaycan mütəfəkkirləri və pedaqoqlarının nəsihətlərində tərbiyə məsələləri. Pedaqoji elm. nam. ... dis., Bakı, 1968, 223 s.
251.Tağıyev Əmir. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən. Bakı: Maarif, 1961, 168 s.
252.Tağıyev Ə.S. C.Məmmədquluzadənin təlim-tərbiyə haqqında fikirləri // V.İ.Lenin adına APİ-nin elmi əsərləri, XI seriya, 1966, №6, s. 102-108
253.Tağıyev Əyyub. Azərbaycanda məktəb tarixi (XIX əsrin sonu, XX əsrin əvvəlləri). Bakı: Maarif, 1993, 113 s.
254.Talıbov Y. Zərdabi fiziki tərbiyə haqqında // Məktəbdə bədən tərbiyəsi, 1989, №3, s.40-43

255. Talıbov Y. Abbas Səhhət fiziki tərbiyə haqqında // Məktəbdə bədən tərbiyəsi, 1990, №5, s.48-52
256. Talıbov Y., Sadıqov F., Quliyev S. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Ünsiyyət, 2000, 516 s.
257. Tərbiyəti-nisvan (Fars lisanından türk dilinə mütərcimi Yusif Talıbzadə). Badkubə: Əvvəlinci şirkət mətbəəsi, 1902, 88 s.
258. Tusi X.N. Əxlaqi-Nasiri. Bakı: Elm, 1989, 256 s.
259. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953, 314 s.
260. Vəlibəyov S. Qüdrəti-xuda (Mübtədi məktəb şagirdlərinə məxsus və hüsni-əxlaqə dair Azərbaycan dilində risaleyi-qiraətdir). Tiflis: "Kəşkül" mətbəəsi, 1888, 44 s.
261. Vəliş. Şagirdlərin səlamətliyi (Şagirdlərin mühafizeyi-səhhətləri üçün tərtib edilmişdir). Qafqaz ləhcəsinə təbdil edəni: Hacı İbrahim Qasımov. Bakı: Nəşriyyati-bəradəran Orucov, 1911, 18 s.
262. Vəzirov H. Bakıda "rusi-müsəlmani" məktəblərin 25 illik yubilesi. Bakı: Səda mətbəəsi, 1914, 24 s.
263. Vəzirov H. Bakıdakı"rusi-müsəlmani" məktəblərin 25 illik yubilesi münasibətilə. (Latın və ərəb əlifbası ilə təkrarnəşr-tərtib edənlər: Tahirzadə Ə., Cəlallı İ.). Bakı: Nurlan, 2004, 25 s.
264. Vəzirov N. Seçilmiş əsərləri. Bakı: Maarif, 2002, 292 s.
265. Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, 412 s.
266. Yusifbəyli Nəsib bəy. Təslim (hekayə) // Ulduz, 2004, №6, s.27-38
267. Yusifzadə A. M.F.Axundovun əsərlərində əxlaq tərbiyəsi məsələləri // M.F.Axundov ad. APDİ-nin elmi əsərləri. XVIII buraxılış, 1976
268. Yüzbaşyev R. Abdulla Şaiqin uşaq əsərlərinin tərbiyəvi mahiyyəti // Azərbaycan məktəbi, 1948, №4, s.71-76

269.Zeynalov S. Klassik pedaqoqlar fiziki tərbiyə haqqında // Məktəbdə bədən tərbiyəsi, 1980, №2, s.8-14
270.Zərdabi H. Qan nə tövr bədəndə dövr edir? "Həyat" qəz., Bakı, 1905, 26 oktyabr
271.Zərdabi H. Cəmiyyəti-xeyriyyə binası. "Həyat" qəz., Bakı, 1905, 25 noyabr, 8 dekabr
272.Zərdabi H. Nəfəs almaq. "Həyat" qəz., Bakı, 1905, 4 noyabr
273.Zərdabi H. İnsan bədəninin hissələri. "Həyat" qəz., Bakı, 1905, 29 noyabr
274.Zərdabi H. İnsanın doğub törəməyi. "Həyat" qəz., Bakı, 1905, 4 dekabr
275.Zərdabi H. Həvasi-xəmsə (İnsanın əzaları haqqında). "Həyat" qəz., Bakı, 1905, 30 noyabr, 1 dekabr
276.Zərdabi H. Zindəganlıq davası və yaxud dirilik mübarizəsi. "Həyat" qəz., Bakı, 1906, 4 yanvar
277.Zərdabi H. Dil və din. "Həyat" qəz., Bakı, 1906, 6 yanvar
278.Zərdabi H. Bizim nəğmələrimiz. "Həyat" qəz., Bakı, 1906, 8 yanvar
279.Zərdabi H. İttihadi-lisan. "Həyat" qəz., Bakı, 1906, 11 yanvar
280.Zərdabi H. Dil davası. "Həyat" qəz., Bakı, 1906, 13 yanvar
281.Zərdabi H. "Hifzüs-səhhə" // "Füyuzat", 1907, №7, s.11-14
282.Zərdabi H. Hifzi-səhhə: Əl və dırnaqlardan mütəvəcce olmaq // Məktəb, 1915, №11, s.8-11
283.Zərdabi H. Baş tükünü saxlamaq // Məktəb, 1915, №12, s. 11-12
284.Zərdabi H. Yuxu və yatacaq paltarı // Məktəb, 1915, №13, s.21-23
285.Zərdabi H. Baş, ayaq // Məktəb, 1916, №2, s.7-9
286.Zərdabi H. Ev // Məktəb, 1916, №10, s.8-9

287. Zərdabi H. Türk nəğmələrinin məcmuəsi: a) Badkubə, Quberniya pravleniyasının mətbəəsi, 1901, 33 s.; b) II nəşri – Badkubə, Çapxaneyi bəradəran Orucov, 1909, 31 s.
288. Zərdabi H. Torpaq, su və hava. Bakı: "Kaspi" mətbəəsi, a) 1907, 74 s.; b) 1912, 75 s.
289. Zərdabi H. Bədəni salamat saxlamaq düsturüləməlidir. Bakı: "Kaspi" mətbəəsi, 1914, 72 s.
290. Zərdabi H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1960, 475 s.
291. Zərdabi H. Bədəni salamat saxlamaq düsturüləməlidir. (tərtib edəni: Aydınoğlu T.). Təkrarnəşr – (latın əlifbası ilə). Bakı: Adiloğlu, 2010, 71 s.
292. "Ziya" qəz., I kitab. (ərəb əlifbasından latın əlifbasına çevirən və nəşrə hazırlayan: Əliyev M.). – Təkrarnəşr – Bakı: Qanun, 2013, 344 s.

**Rus dilində**

293. Адрес-Календарь Азербайджанской Республики. Баку, 1920, 218 с.
294. Азаров Ю.П. Семейная педагогика. М.: Просвещение, 1993. 256 с.
295. Акты Кавказской Археологической Комиссии. Тифлис, 1881, т.VIII, 170 с.
296. Алибеков И.Т. Народное образование на Кафказе. Тифлис, 1903, 116 с.
297. Алиева С. Развитие теории и практики нравственного воспитания в дореволюционном Азербайджане (1828-1920 гг.). Дисс. д-ра пед. наук, Ташкент, 1989, 320 с.
298. Амокашвили Ш.А. Размышления о гуманной педагогике. М.: Изд. Ш.А.Амокашвили , 1996, 494 с.
299. Анапьин Г.Е. Развитие системного подхода в теории воспитания. Ярославль: Изд.-во ЯГПУ, 2011, 198 с.

300. Антология педагогической мысли Азербайджанской ССР (Составители: Агаев А., Гашимов А.). М.: «Педагогика», 1983, 589 с.
301. Антология педагогической мысли: В 3-х т. Том I. (Сост.: Салимова К.И., Корнетов Г.Б.). М.: Высшая школа, 1988, 446 с.
302. Ахмедов Г.М., Рафибейли А.Д. К истории русско-татарских школ в Азербайджане // Советская педагогика, 1969, №9, с.74-79
303. Ахмедов Г. Из истории школ и педагогической мысли Азербайджана. III часть. Баку, АПУ, 1995, 224 с.
304. Бим-Бад Б.М. Педагогические течения в начале XX века. М.: РОУ, 1994, 112 с.
305. Богасловский Е. Бакинская печать в годы первой русской революции (1905-1907 гг.). М.: Госполитздат, 1955, 55 с.
306. Бондаревская Е.В. Воспитание как возрождение гражданина, человека культуры и нравственности. Ростов Н/Д.: 1994, 283 с.
307. Бордавская Н.В., Реан А.А. Педагогика: Учебн. для вузов. – СПб., 2000, 396 с.
308. Валеева Р.А. Теория и практика гуманистического воспитания в европейской педагогике (первая половина XX века): Дисс. д-ра пед. наук. Казань, 1997, 387 с.
309. Вейкшан Н.В. Движение «нового воспитания» в конце XIX - начале XX века и его психолого-педагогические основы // Советская педагогика, 1968, №10, с.119-124
310. Вейкшан Н.В. Теория и практика «нового воспитания» до Первой мировой войны. Дис., канд. пед. наук. М., 1969, 192 с.

311. Ворошилова И.Л. Свободное воспитание в отечественной педагогике начала XX века: Дис., канд. пед. наук. Хабаровск, 1998, 166 с.
312. Всемирный историко-педагогический процесс: Концепции, модели, историография (Под. ред. Корнетова, Безрогова В.Г.). М.: 1996, 269 с.
313. Гагемейстр Й.А. Статистические описание Шамахинские губернии… «Закавказский край», СП9, 1857
314. Гаджинский М. Русско-татарские школы. Газ. «Каспий», Баку, 1908, 14 октября
315. Галишникова Е.М. Становление и развитие теории и практики эстетического воспитания в Татарстане (XIX-XX века): Автореф. дисс. д-ра пед. наук. Казан, 2004, 39 с.
316. Гликман И.З. Теория и методика воспитания. М.: Просвещение, 2002, 274 с.
317. Гриценко Л.И. Теория и методика воспитания. М.: Образование, 2005, 214 с.
318. Гурлитт Л. О воспитании. СПб: Изд.-во газеты «Школа и жизнь», 1911, 171 с.
319. Демков М.И. Старые и новые педагоги, их жизнь, мысли и труды. М.: 1912, 182 с.
320. Демолен Э. Новое воспитание. Школа де Рош. М.: Типо-лит. А.В.Васильева, 1900, 260 с.
321. Дмитриев А.С. Русско-татарские школы. Газ. «Каспий», Баку, 1895, №228
322. Документы по русской политике в Закавказье. Баку, 1920, 158 с.
323. Зардаби Г. Избранные статьи и письма (Составитель: Геюшов З.Б.). Баку: Изд-во Акад. наук , Аз ССР, 1962, 481 с.
324. Захаров А. Народное образование среди Кавказских татар / СМОМПК. Девятый выпуск. Тифлис, 1890, 316 с.

325. Кавказский календарь на 1852 г.. Тифлис, 1852, 470 с.
326. Кавказский календарь на 1871 г.. Тифлис, 1872, 305 с.
327. Кавказский календарь на 1877 г.. Тифлис, 1878, 346 с.
328. Газ. «Кавказ», Тифлис, 1893, №242
329. Кавказский календарь на 1898 г.. Тифлис, 1899, 296 с.
330. Кавказский календарь. Тифлис, 1907, 318 с.
331. Каптерев П.Ф. История русской педагогики. П.: 1915, 746 с.
332. Караковский В.А, Новикова Л.И., Селиванова Н.Л. Воспитание? Воспитание. Воспитание! М.: Новая школа, 1996, 155 с.
333. Газ. «Каспий», Баку, 1901, 22-23 сентября
334. Газ. «Каспий», Баку, 1906, №113
335. Клячкина Н.Л. Теория и практика «новых» школ в Западной Европе и России в конце XIX - начале XX веков: Дис. канд. пед. наук. М.: 1996, 206 с.
336. Коменский Я.А. Избранные сочинения. В 2-х т., Т.1-2, М.: Педагогика, 1978
337. Краткий очерк о деятельности обществ «Нешри-маариф» за 1914 г., Баку, 1916, 15 с.
338. Кукишин В.С. Теория и методика воспитательной работы. М.: «Учитель», 2005, 184 с.
339. Макаренко А.С. О воспитании. М.: Просвещение, 1988, 316 с.
340. Мамедов С.С. Роль азербайджанских женщин в борьбе за развитие просвещения и культуры в Азербайджане (конец XIX - начало XX века). Кандидат. дисс. по педагогич. наук. Баку, 1967, 224 с.
341. Мездалевски Л. Ход учебного дела на Кавказе с 1802 по 1880 гг. Тифлис, 1883, 112 с.

342.Методика воспитательной работы (Под ред. Сластенина В.А.). М.: Школа-Пресс, 2002, 234 с.
343.Минюкова С.А. Проблема принципов воспитания в отечественной педагогике второй половины XIX-начала XX вв: Кандидат. дисс. по педагогич. наук. Москва, 1999, 218 с.
344.Назарли А. Народное образование в Азербайджанской Республике (1918-1920). Баку: Нурлан, 2008, 224 с.
345.Обзор Бакинской губернии за 1860-1910 гг. Баку: Типограф. Губерн. Управл., 1911, 314 с.
346.Основные направления и тенденции развития педагогической науки в конце XIX - начале XX века. М.: НИИ ОП, 1980, 164 с.
347.Ососков А.В. Начальное образование в дореволюционной России (1861-1917). М.: Просвещение, 1982, 208 с.
348.Отчет о состоянии учебных заведений Кавказского учебного округа за 1903 г., Тифлис, 1905, 112 с.
349.Очерки истории школы и педагогической мысли народов СССР. М.: Политздат, 1976, 485 с.
350.Пашаев А.Х. Очерки истории начального образования на Кавказе в XIX - начале XX веков. Баку: АПУ, 1995, 126 с.
351.Педагогика: Учебник / Л.П.Крившенко и др. Под ред. Крившенко Л.П./ М.: Проспект, 2004, 428 с.
352.Педагогический энциклопедический словарь (Под ред. Бим-Бад Б.М.). М.: Большая Российская энцикл., 2002, 528 с.
353.Песталоци И.Г. Избранные педагогические сочинение. В 2-х т. 1-2 том. М.: Педагогика, 1981 – I т. 336 с.; II т. 416 с.
354.Петухова И.В. Теория и практика патриотического обучения и воспитания в отечественной школе на

рубеже XIX-XX веков: Кандидат. дисс. по педагогич. наук. Москва, 2006, 220 с.
355.Пешкова В.Е. Педагогика. Часть 3. Теория и методика воспитания (Учебное пособие). Майкоп, 2010, 98 с.
356.Подласый И.П. Педагогика. Новый курс. В 2-х кн. кн. 2. М.: Просвещение, 2000, 446 с.
357.Подласый И.П. Педагогика начальной школы. (Учебное пособие). М.: ВЛАДОС, 2000, 304 с.
358.Подарин Н. Просвещение среди Бакинских мусульман. Газ. «Каспий», Баку, 1897, 2 апреля
359.Пряникова В.Г., Равкин З.И. История образования и педагогической мысли: Учебник справочник. М.: Просвещение, 1995, 286 с.
360.Рожков М.И., Баибородова Л.В. Теория и методика воспитания. М.: ВЛАДОС, 2000, 416 с.
361.Рудольф Н.Ф. Обзор деятельности Кавказского учебного округа (1908-1912). Тифлис, 1914, 231 с.
362.Селиванов В.С. Основы общей педагогики: Теория и методика воспитания (Учебное пособие для вузов. Изд.3-е). М.: Академия, 2004, 412 с.
363.Смирнов В.З. Реформа началной и средней школы в 60-х годах XIX в.. М.: Просвещение, 1954, 316 с.
364.Снасский-Автономов. Статистическое описание города Баку. Кавказский календарь на 1852 г.. Тифлис, 1851, отд.3, с.305
365. Список учебных заведений Кавказского Учебного Округа к 1 январь 1905 г. к отчету за 1904 г.
366.Справочной ежегодник Баку и его района. Баку: Типограф. Губер. Управл., 1912, 215 с.
367.Среди мусульман. Газ. «Закавказье», Тифлис, 1908, №146
368.Степанова Н.С. Два года на Кавказе. Казан, 1854, 214 с.

369. Таирзаде Н. Состав учащихся Бакинского реального училища в последней четверти XIX в. / Известия АН Азербайджанской ССР. Серия истории, философии и права, 1981, №3, с. 16-24
370. Ушинский К.Д. Педагогические сочинения. В 6-и т., Том IV. М.: Педагогика, 1989, 528 с.
371. Черняевский А.О. Итоги народное образование в Кавказских мусульманов. Газ. «Кавказ», Тифлис, 1895, №24
372. Шахтахтинский М. Школьная жизнь у мусульман. Газ. «Кавказ», 1882, 17 июня
373. Шамова Т.И., Давиденко Т.М., Шибанова Н.Н. Управление образовательными системами. М.: Академия, 2002, 384 с.
374. Шафикова З.Х. Башкирская педагогическая мысль второй половины XIX века и ее влияние на развитие воспитания в национальной школе: Кандидат. дисс. по педагогич. наук. Москва, 1994, 136 с.
375. Школа России накануне и в период революции 1905-1907 гг. (Сборник научных трудов). М.: Просвещение, 1985, 220 с.
376. Циркуляр… Кавказский Учебный Округ, 1887, №12
377. Ян Минюй. Развитие идей свободного воспитания в России в конце XIX - начале XX в.: Кандидат. дисс. по педагогич. наук. Санкт- Петербург, 2004, 146 с.

## İnternet materialları

378. www Сидоров С.В. Теоретическая педагогика. si-sv.com/Posobiya/teor–pedag/
379. www Сидоров С.В. Педагогика. (Теория и методика воспитания...). www.twirpx.com
380. www Современные теории воспитания. Технология... kpip.kbsu.ru/pd/did_lek_6.html

381. www Основные теории воспитания. Педагогическая... www.e-reading.club/ …Trfcheva_-_Pedagogicheskaya_psihologiya_ko…
382. www Книга: Теория и методика воспитания: конспект лекции. www.e-reading.club/…/Sedova_-_Tolstoluckih_-_Teoriya_i_ metodika_vo...

## MÜNDƏRİCAT

**GİRİŞ**.................................................................................................................

**I FƏSİL: XIX ƏSRİN SONU, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA TƏRBİYƏ NƏZƏRİYYƏSİNİN İNKİŞAFINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR**

1.1. Dövrün ictimai-siyasi, mədəni-pedaqoji mənzərəsi və yeni tipli tərbiyə vasitələrinin yaradılması uğrunda mübarizə..............................................................

1.2.Müəllim-tərbiyəçi və onun şəxsiyyətinə verilən tələblər.....................................

1.3. Ailə və sosial mühitin tərbiyədə rolu haqqında.................................................

**II FƏSİL: YENİ TİPLİ ŞƏXSİYYƏT YETİŞDİRMƏK TƏRBİYƏNİN BAŞLICA VƏZİFƏSİ KİMİ**

2.1. Qadının cəmiyyətdə rolu və qadın tərbiyəsi haqqında.......................................

2.2. Milli özünüdərk və vətənpərvərlik tərbiyəsi.....................................................

2.3. Humanizm və beynəlmiləlçilik tərbiyəsi haqqında.........................................

**III FƏSİL: DİNİ, ƏQLİ VƏ MƏNƏVİ-ƏXLAQİ TƏRBİYƏ TƏRBİYƏ NƏZƏRİYYƏSİNİN MÜHÜM KOMPONENTİ KİMİ**

3.1. Azərbaycan maarifçilərinin əsərlərində dini tərbiyə məsələləri.........................
3.2. Azərbaycan maarifçiləri əqli tərbiyə haqqında................................................
3.3. Azərbaycan maarifçilərinin əsərlərində mənəvi-əxlaqi tərbiyə məsələləri........

**IV FƏSİL: AZƏRBAYCAN MAARİFÇİLƏRİ GƏNC NƏSLİN FİZİKİ, ƏMƏK VƏ ESTETİK TƏRBİYƏSİ HAQQINDA**
4.1. Azərbaycan maarifçiləri fiziki tərbiyə haqqında..............................................
4.2. Azərbaycan maarifçiləri əmək tərbiyəsi haqqında..........................................
4.3. Azərbaycan maarifçiləri estetik tərbiyə haqqında...........................................

**NƏTİCƏ**...........................................................................................
**ƏDƏBİYYAT**.......................................................................................

**352 seh**